AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ



# NAXÇIVAN - TÜRKİYƏ DİPLOMATİK ƏLAQƏLƏRİ YENİ MÜSTƏVİDƏ

## BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI

NAXÇIVAN-2019

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

# NAXÇIVAN-TÜRKİYƏ DİPLOMATİK ƏLAQƏLƏRİ YENİ MÜSTƏVİDƏ

MÖVZUSUNDA
BEYNƏLXALQ ELMİ KONFRANSININ
MATERİALLARI

***29 Aprel 2019-cu il***

Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 30 aprel 2019-cu il tarixli 9 saylı qərarı ilə nəşr edilib.

**NAXÇIVAN-2019**

Naxçıvan Dövlət Universiteti. Naxçıvan-Türkiyə diplomatik əlaqələri yeni müstəvidə Respublika elmi konfransı. “Qeyrət” nəşriyyatı, 2019, 190 səh.

**BURAXILIŞA MƏSUL:** **MƏFTUN İSMAYILOV**
*Naxçıvan Dövlət Universitetinin Elmi katibi,*
*riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*

**REDAKTOR:** **SAMİR TARVERDİYEV**

© NDU, “Qeyrət” nəşriyyatı, 2019

**SALEH MƏHƏRRƏMOV**
*Naxçıvan Dövlət Universiteti*

## Türkiyə-Naxçıvan diplomatik əlaqələrinin inkişaf istiqamətləri

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, Naxçıvan, əməkdaşlıq, strateji tərəfdaşlıq*
**Key words:** *Azerbaijan, Turkey, Nakhchivan, collaboration, strategic partnership*
**Ключевые слова:** *Азербайджан, Турция, Нахчыван, сотрудничество, стратегическое партнерство.*

Türkiyə-Azərbaycan münasibətləri dərin tarixi köklərdən qaynaqlanır, müasir mərhələdə isə daha geniş xarakterli miqyas alıb. Avropanın böyük və qüdrətli dövlətlərindən, səlahiyyətli söz sahiblərindən biri sayılan Türkiyədə məmləkətimizin ayrılmaz bir parçası olan, otuz ilə yaxın bir müddətdə məkrli erməni qonşularımızın təqsirləri ucbatından iqtisadi blokada şəraitində yaşayan bölgəyə bu qədər sevgi və məhəbbətin olması da qürurvericidir. Həm də o mənada ki, Qafqazda geosiyasi proseslərin hələ də səngimədiyi, ermənilərin torpaqlarımıza qarşı iyrənc və məkrli iddialarının gücləndiyi bir vaxtda dünyanın aparıcı dövlətləri də qədim oğuz-türk yurdu olan Naxçıvanın bugünkü varlığından, onun keşməkeşli tarixindən, sosial-iqtisadi durumundan və sabahkı həyatından bu yolla yeni informasiyalar əldə edirlər.

SSRİ-nin dağılması nəticəsində yaranmış hərc-mərclikdən istifadə edən məkrli düşmənlərimiz məmləkətimizə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qarşı ərazi iddialarını müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəlmişlər. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşun hissələrinin Bakı şəhərinə hərbi müdaxiləsindən 8 saat əvvəl erməni silahlı dəstələri Naxçıvanın sərhəd bölgələrinə hücum edərək Kərki kəndini işğal edirlər. Beynəlxalq təcrübədə misli görünməmiş təzyiq metodlarına əl atan Ermənistan hökumətinin məkrli siyasəti nəticəsində muxtar respublika ölkəmizin əsas ərazisi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrindən məhrum olmuş, iqtisadi blokadanın ağrı və acıları ilə üz-üzə dayanmışdı. Elektrik enerjisinə olan tələbat təxminən səkkiz-on faiz həcmində ödənilirdi. Təbii qaz xətti kəsilmişdi. Dəmir yolu nəqliyyatında qatarların hərəkətinin dayanması vəziyyəti daha da ağırlaşdırmışdı. Qışın sərt şaxtalı günlərində evləri, mənzilləri qızdırmaq üçün odun, kömür, neft tapılmırdı. Ərzaq məhsulları, xüsusən də un sarıdan ciddi çətinliklər var idi. Bəzən çörək istehsal edən müəssisələrdə iki-üç günlük un ehtiyatı yaratmaq da müşkülə dönürdü. Çörək mağazaları qarşısında uzun növbələr yaranırdı. Naxçıvan dahi öndərin sözləri ilə desək, "taleyin ümidinə buraxılmış bir ada"nı xatırladırdı.

Muxtar respublika ağır sınaqlar, məhrumiyyətlər qarşısında idi. Yeganə xoşbəxtlik onda idi ki, Heydər Əliyev kimi dünya siyasətinin böyük korifeylərindən biri Naxçıvanda yaşayırdı və muxtar respublikaya rəhbərlik edirdi. Bütün ümidlər də təkcə dahi şəxsiyyətə bağlanmışdı. Dahi öndər Naxçıvanın xilası naminə mübarizəsinə indiyədək bizə həm yaxın, həm də uzaq olan qonşu xarici dövlətlərlə mədəni-iqtisadi əlaqələrin yaradılmasından başladı. Bu əlaqələr bölgəni labüd fəlakətdən xilas etdi.

Türkiyənin qüdrətli dövlət və siyasi xadimlərindən biri olan Süleyman Dəmirəl də Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rolunu yüksək qiymətləndirib. Onun fikrincə, Heydər Əliyev erməni təcavüzü nəticəsində blokadaya məhkum olunmuş Naxçıvana rəhbərlik etdiyi dövrlərdən Türkiyə ilə münasibətlərə xüsusi əhəmiyyət vermiş, bu hesaba ölkələrimiz arasında faydalı əməkdaşlığa nail olunmuşdur.

Prezident İlham Əliyev də muxtar respublikaya səfəri çərçivəsində keçirdiyi görüşlərin birində bu amili xüsusi vurğulayaraq deyib ki, "Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır."

"Naxçıvan türk-islam dünyasına bir qapıdır"- söyləyən Naxçıvan Ali Məclisinin o zamankı Sədri Heydər Əliyevin Türkiyə Respublikasına ilk rəsmi səfəri 1992-ci ilin martında həyata keçirilmiş, səfər zamanı Türkiyə Prezidenti Turqut Özal, Baş nazir Süleyman Dəmirəl və digər rəsmi şəxslərlə görüşlər keçirilmişdir. Görüşlərdə əsas müzakirə edilən məsələ isə unudulmaqda olan Qars müqaviləsini yenidən gündəmə gətirməklə Ermənistanın Azərbaycana qarşı təcavüzü və Naxçıvanın düşdüyü ağır vəziyyət olmuşdur. Nəticədə Türkiyənin Baş naziri ilə Naxçıvan Ali Məclisinin Sədri arasında birgə protokol imzalanaraq, bütün sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

1992-ci ilin may ayı isə Azərbaycanın, eləcə də Naxçıvanın müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü əhatə edib. Həmin ayda Bakıda siyasi qüvvələr arasında hakimiyyət davası qızışdığından və onların Qarabağı yaddan çıxarmalarından istifadə edən ermənilər ölkəmizə qarşı hücumlarını genişləndiriblər. Ermənilər Şuşa və Laçın şəhərlərini ələ keçirməklə, Dağlıq Qarabağın işğalını başa çatdırıblar. Məkrli düşmənlərimiz yaranmış şəraitdən istifadə edərək Naxçıvana qarşı hərbi təcavüzləri də gücləndirirlər. Yalnız ulu öndər Heydər Əliyevin gərgin siyasi, diplomatik səyləri nəticəsində onların məkrli planlarının qarşısı alınır. Bu dəfə də qardaş Türkiyə dövləti öz sözünü birmənalı deyir. Mayın 18-də Muxtar Respublika Ali Məclisinin Sədri Ermənistanın Naxçıvana təcavüzünün dayandırılması üçün Türkiyədən kömək göstərilməsini xahiş edir. Həmin gecə Türkiyə hökuməti xüsusi bəyanatla çıxış edərək, 1921-ci il Qars müqaviləsinə əsasən, Naxçıvan haqqında söz sahibi, onun muxtariyyətinin qarantı olduğunu yenidən bütün dünyaya bəyan edir. Məhz bu bəyanatdan sonra dünyanın 57 dövləti Ermənistanın təcavüzkar hərəkətlərini pisləyir.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də açılan "Sədərək-Dilucu" körpüsü daha mühüm rol oynayıb. Həmin gün iqtisadi böhran içərisində yaşayan region bayram əhval-ruhiyyəsi yaşayır. Körpünün rəsmi açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri S.Dəmirəlin başçılığı ilə böyük nümayəndə heyəti Naxçıvana gələrək bölgə ilə ətraflı tanış olurlar. Muxtar respublikanın ictimai-iqtisadi həyatında mühüm mərhələ olan, iki qardaş xalqın uzun illər qovuşmaq arzusunu yerinə yetirən "Ümid" körpüsünün istifadəyə verilməsi böyük təntənə ilə qeyd olunur.

Körpünün açılış mərasimində,-"bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biri ilə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir, bu coşğunluğu anlaya bilmək lazımdır. Bu, bir birlik, milli coşğunluqdur" - deyən S.Dəmirəl onu da əlavə edir ki, "Qardaşlıq, dostluq bundan sonra daha da sıx olacaqdır. Türkiyə ilə Azərbaycan, ona bağlı Naxçıvan arasında əlaqələr genişlənəcək, adamlar bir-birləri ilə yaxınlaşacaqlar".

Naxçıvan Muxtar Respublikasının Türkiyə ilə əlaqələri Azərbaycan-Türkiyə əlaqələri kontekstində sonrakı illərdə də yüksələn xətlə inkişaf edib. Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun qardaş və dost ölkəyə ilk rəsmi səfəri 1996-ci il martın 12-17-si arasında olub. Bu səfər çərçivəsində aparılan danışıqlar da muxtar respublikanın mövcud problemlərinin həlli istiqamətində olub. Ali Məclis Sədrinin səfər müddətində Türkiyənin bütün ali rəhbərliyi - Prezident, Baş nazir, parlamentin spikeri görüş və söhbətləri də bölgəyə daimi diqqət və qayğısının sübutu olub.

Naxçıvan Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin müasir inkişafına da öz töhfələrini vermişdir. 2008-ci il iyunun 4-də Prezident İlham Əliyev Türkiyə Cümhuriyyətinin baş naziri Rəcəb Tayyib Ərdoğanı Naxçıvan Muxtar Respublikası Ali Məclisində rəsmən qarşılamış, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına dair danışıqlar aparılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın eyni vaxtda Naxçıvana səfəri böyük siyasi məna daşımışdır. Azərbaycan-Türkiyə münasibətlərinin daha da möhkəmlənməsini regional əməkdaşlığa böyük töhfə olduğunu bildirən Prezident İlham Əliyev mətbuat üçün bəyanatında Türkiyənin hökumət başçısının bölgəyə səfərini yüksək qiymətləndirib.

İstər təkbətək, istərsə də geniş tərkibdə keçirilən görüşlərdə iki dövlət arasında dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişafından məmnunluq duyulub. Geniş tərkibdə keçirilən görüşdə "Sizin Naxçıvana səfəriniz çox böyük əhəmiyyət daşıyır və əminəm ki, onun nəticələri də çox uğurlu olacaqdır, Naxçıvan qədim Azərbaycan torpağıdır və Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd yeri buradır"- ölkə başçımızın bu sözlərinə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan onu da əlavə edib ki, "sərhəd şəhəri Naxçıvanda keçirəcəyimiz görüşlərin çox böyük mənası olacaqdır. Bu baxımdan biz buna çox böyük əhəmiyyət veririk."

Türkiyə Respublikası xarici işlər nazirinin dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına ikinci dəfə rəsmi səfər etmişdir. Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Respublikasının Prezidenti Abdullah Gül, Baş nazir Rəcəb Tayyib Ərdoğan, xarici işlər naziri Əhməd Davudoğlu, dövlət naziri Hayati Yazıcı və Türk Silahlı Qüvvələrinin Baş Qərargah rəisi İlker Başbuğla görüşlər keçirmişdir.

Naxçıvan Azərbaycanın ikitərəfli münasibətləri ilə birgə, beynəlxalq tədbirlərə də ev sahibliyi etmişdir. Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və xarici işlər naziri Əhməd Davudoğlunun iştirakı ilə Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısının (2009-cu il 3 oktyabr) Naxçıvanda keçirilməsi də təsadüfi deyildi. Prezident İlham Əliyev toplantıda yekun nitqində demişdir: “Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir.” Görüşün nəticələrinə görə “Naxçıvan Bəyannaməsi” imzalanmışdır.

2016-cı il 11 martda Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Necdet Ünüvar, 2017-ci il 20 dekabrda isə Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım Naxçıvan Muxtar Respublikasına səfər etmiş və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüş keçirmişdir.

Mövcud tarixi şəraitdə Naxçıvan MR-in Türkiyə ilə əlaqələri yüksələn yolla inkişaf etməkdədir. Muxtar respublikanın dövlət və özəl sektorları ilə Türkiyə Cümhuriyyətinin rəsmi dairələri və iş adamları arasında davamlı münasibətlər formalaşmışdır. Türkiyənin Naxçıvanla vahid kommunikasiya və energetika sahəsinin mövcudluğu isə tərəfləri daha sıx iqtisadi məkanda birləşdirmişdir. Naxçıvan MR-in sosial-iqtisadi, mədəni inkişafında, blokada şəraitində yaşamasına baxmayaraq, bütün sahələrdə uğurlu islahatların aparılmasında onun Türkiyə ilə siyasi, iqtisadi və mədəni əlaqələrinin mühüm əhəmiyyəti olmuşdur.

## ƏDƏBİYYAT


1. Cabbarlı Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Naxçıvan, 2015
2. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasıının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011,272 s.
3. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı, Azərbaycan, 2008, 840 s.
4. Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı, Səhər, 1995, 848 s.
5. Məmmədov V. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı, Şirvannəşr, 2005, 208 s.


## ABSTRACT


## DIPLOMATIC RELATIONS BETWEEN TURKEY AND NAKHCHIVAN

In the present historical context of the Nakhichevan Autonomous Republic is growing relations with Turkey. between the public and educational institutions of the Republic of Turkey and the autonomous republic was established sustainable relationships. Nakhichevan and Turkey's unified communications and energy sectors in line combines economic space. The Nakhichevan Autonomous Republic and Turkey socio-economic, political and cultural relations are of great importance.


## РЕЗЮМЕ


## ДИПЛОМАТИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ ТУРЦИЕЙ И НАХЧЫВАН

В современном историческом контексте Нахчыванской Автономной Республики растут отношения с Турцией. Между государственными и образовательными учреждениями Турецкой Республики и автономной республики были установлены устойчивые отношения. Нахчыванской и турецкий объединенные секторы связи и энергетики объединяют экономическое пространство. Нахчыванская Автономная Республика и Турция социально-экономические, политические и культурные отношения имеют большое значение.

**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsi*
*ismayil_haciyev@yahoo.com*

# TÜRKİYƏ-NAXÇIVAN DİPLOMATİK ƏLAQƏLƏRİ: TARİXDƏ VƏ GÜNÜMÜZDƏ

**Açar sözlər:** *Türkiyə, Azərbaycan, Naxçıvan, xarici siyasət, diplomatik əlaqələr, tarixdə, günümüzdə*
**Key words:** *Turkey, Azerbaijan, Nakhchivan, foreign policy, diplomatic relations, in history, at present*
**Ключевые слова:** *Турция, Азербайджан, Нахчыван, внешняя политика, дипломатические связи, в истории, в современности*

Azərbaycanın beynəlxalq münasibətlər və diplomatiya tarixi olduqca zəngin olmuş, ilk növbədə beynəlxalq münasibətlər Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasına, iqtisadi, siyasi və mədəni əlaqələrin möhkəmlənməsinə yönəldilmişdir. Azərbaycan ərazisində olan müstəqil dövlətlər beynəlxalq münasibətlərdə və diplomatiyanın inkişafında mühüm rol oynamış, Azərbaycanı beynəlxalq aləmdə tanıtmışlar.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da tarixən diplomatik əlaqələr formalaşmış, bu münasibətlər ölkəmiz müstəqillik qazandıqdan sonra daha da möhkəmlənmişdir. X-XI əsrlərdə Naxçıvan şahlığının, XII əsrdə Azərbaycan Atabəylər dövlətinin, XVIII-XIX əsrlərdə Naxçıvan xanlığının, 1918-1919-cu illərdə Araz-Türk Respublikasının paytaxtı olmuş Naxçıvan, Azərbaycan dövlətçiliyinin, siyasi və diplomatik münasibətlər sisteminin formalaşmasına və inkişafına mühüm töhfələr vermiş, bu qədim diyarda görkəmli diplomatlar nəsli yetişmişdir.

Naxçıvan diyarı elə bir geostrateji ərazidə yerləşir ki, həmişə qonşu və böyük dövlətlərin maraq dairəsinə düşmüşdür. Vaxtilə coğrafi cəhətdən Azərbaycanın mərkəzi ərazilərindən olan bu diyar müxtəlif dövrlərdə tarixin hökmü, böyük dövlətlərin marağı ucbatından ya həmin dövlətlərin tərkibinə qatılmış, ya da müstəqil olmuşdur. Bu dövrdə Naxçıvana rəhbərlik edən, yaxud burada yaşayıb fəaliyyət göstərən görkəmli dövlət xadimlərindən olan Mömünə xatın qüdrətli Azərbaycan Atabəylər dövlətinin Marağa və Rey hakimləri ilə münaqişələrini böyük təcrübə və müdrikliklə aradan qaldırmış, Heydərqulu xan, Ehsan xan, Cəfərqulu xan Naxçıvan xanlığının xarici siyasətinə, bilavasitə rəhbərlik etmiş, I Kalbalı xan isə XVIII əsrin nüfuzlu siyasi lideri və diplomatı kimi məşhurlaşmışdır (12, 2015, 31 oktyabr).

XIX və XX əsrlər Naxçıvan diyarı üçün daha çətin və keşməkeşli olmuşdur. Rusiya imperiyası Cənubi Qafqazı, eləcə də Azərbaycanı işğal edəndə burada mühüm yerlərdən birini Naxçıvan diyarı tuturdu. Birinci Rusiya-Qacarlar İranı müharibəsindən sonra iki dövlət arasında bağlanmış Gülüstan müqaviləsi ilə Naxçıvan işğal edilməsə də, həmin dövlətlərin sonrakı müharibəsi nəticəsində bağlanmış Türkmənçay müqaviləsi ilə Naxçıvan ərazisi də Rusiya imperiyasının tərkibinə qatılmışdır. Naxçıvan təkcə işğal olunmamış, onun həm də demoqrafik həyatında dəyişikliklər baş vermişdir. İşğaldan sonra Qacarlar İranından və Osmanlı dövlətindən minlərlə erməni ailələri İrəvan, Qarabağla yanaşı Naxçıvan ərazisinə də köçürülmüşdür. Böyük dövlətlərin himayəsinə sığınan, onlardan maddi və mənəvi kömək alan erməni daşnakları Naxçıvana yiyələnmək arzusunu reallaşdırmağa çalışmışlar. İmperialist güclərin yardımı ilə Azərbaycan torpaqlarında öz dövlətlərini yaradan erməni daşnakları Naxçıvana da göz dikmişdilər: "Naxçıvan və Şərursuz Ermənistan dövləti yaşaya bilməz", - fikrini ortaya atan ermənilər XX əsrin əvvəllərində hərbi yola da əl atmışdılar.

Azərbaycanın, eləcə də Naxçıvanın siyasi və dövlət xadimləri öz fəaliyyətləri ilə erməni daşnaklarının xülyalarına qarşı çıxmışdılar. Naxçıvanlı siyasi və dövlət xadimlərinin heç birinin diplomatik təhsili olmamışdır (5, s.4). Lakin onların düşdüyü vəziyyət, Naxçıvana qarşı olan haqsız iddialar onları diplomat etmişdir. Heç onlardan bəzilərinin bu sahədə kifayət qədər təcrübəsi də yox idi. Bununla belə, fəaliyyət dairələrində Azərbaycanın, eləcə də Naxçıvanın ərazi bütövlüyü uğrunda əzmlə mübarizə aparmışdılar.

XX əsrin 20-ci illəri Azərbaycan, eləcə də Naxçıvan üçün daha çətin və mürəkkəb hərbi-siyasi vəziyyətlə xarakterizə olunur. Azərbaycan Xalq Cümhuriyyətinin qarşılaşdığı vəziyyət, şimaldan gözlənilən təhlükə, ölkənin müstəqilliyinin tanınmaması, bu istiqamətdə aparılan mübarizə, iri kapitalist dövlətlərinin ikili siyasəti, ingilis qoşunlarının Bakıya və Naxçıvana gəlməsi və digər hadisələr Türkiyə ilə Azərbaycanın, eləcə də Naxçıvanın əlaqələrinin artmasına səbəb olmuşdur.

XX əsrin əvvəllərində Türkiyə ilə Cənubi Qafqaz ölkələri arasında (müstəqillikdən əvvəl və sonra) diplomatik əlaqələr, onlar arasındakı danışıqlar daha çox müstəqilliklərin və ərazilərin tanıdılması idi. Bu cəhətdən Batum müqaviləsi və onun şərtləri diqqəti cəlb edir. Batum danışıqlarını Türkiyə tərəfindən aparan Xəlil bəy ermənilərin torpaq əldə etmək iddialarına razı idi. Təbii ki, bu ərazi iddiaları Azərbaycanın hesabına idi. Xəlil bəy bu məsələ ilə əlaqədar M.Ə.Rəsulzadə və M.H.Hacınski ilə danışıqlar aparmış və nəticədə Osmanlı yardımına böyük ehtiyac duyan Azərbaycan nümayəndələrinin razılığını ala bilmişdi (8, s.165). Tələt və Ənvər paşalar Xəlil bəyin təkliflərini qəbul etmirdilər. Hərbi nazir Ənvər paşanın bütün xəbərdarlıqlarına baxmayaraq Xəlil bəyin rəhbərlik etdiyi Batumdakı türk heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək, İrəvan şəhərinin də daxil olduğu Yeni Bəyazid və Eçmiəzdin bölgələrindən ibarət bir Ermənistan dövlətinin qurulmasını təsdiqlədi (8, s.168).

Batum müqaviləsinə görə Azərbaycan da ərazi itkilərinə məruz qaldı. Müqaviləyə əsasən Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası Türkiyəyə keçdi.

Erməni daşnakları aparılan danışıqlara, bağladıqları müqaviləyə xəyanət edərək 1918-ci ilin əvvəlində Naxçıvana silahlı basqın etdilər. Naxçıvan əhalisi ərazinin müdafiəsinə qalxdı. 1918-ci il iyulun 20-də Osmanlı ordusu erməni quldur dəstələrinin müqavimətini qıraraq Naxçıvana girdi və beləliklə Naxçıvanda türk bayrağı dalğalanmağa başladı. K.Qarabəkir paşa avqustun 7-də Naxçıvanda öz qərargahını qurdu (10, s.62). 1918-1920-ci illərdə Azərbaycanla Türkiyə arasında diplomatik əlaqələr xeyli artmış və nəticədə Naxçıvan məsələsi obyektiv həllini tapmış, Bakı bolşevik-erməni qüvvələrindən azad edilmişdir.

Naxçıvan diyarı tamamilə ermənilərlə qonşu olmaqla ciddi hərbi təhlükə altında idi. Bu təhlükədən qorunmaq üçün 1918-ci ilin noyabrın 18-də Araz-Türk Respublikası yaradıldı (4, s.153). Türk ordusunun polkovniki Xəlil bəy Araz-Türk Respublikasında səlahiyyətli nümayəndəliyin başçısı təyin olundu (4, s.154). Hökumətin tərkibində xarici işlər naziri vəzifəsi də yaradılmışdı ki, əvvəlcə bu vəzifədə Həsən ağa Şəfizadə, sonra isə Bəhram xan Naxçıvanski olmuşdur.

Bu dövrdə regionda vəziyyətin dözülməz dərəcədə ağır və qarışıq olması, ardıcıl olaraq ingilislərin, daşnakların, amerikanların regionda ağalıq etmək istəmələri stabil və ardıcıl dövlət quruculuğuna mane olmuşdur (12, 2004, 29 may). Naxçıvanda dövlət quruculuğu prosesinə əsasən bölgədə sovetlər hakimiyyəti bərqərar olduqdan sonra başlanmışdır. 1920-ci ilin iyul ayının 28-də XI Qızıl Ordu hissələrinin Naxçıvana girməsi və diyarda sovet hakimiyyətinin elan edilməsi ilə rus-türk münasibətləri daha intensiv xarakter aldı. İyulun 28-də Naxçıvan İnqilab Komitəsi yaradıldı, Naxçıvan Sovet Sosialist Respublikası elan edildi (6, s.252; 10, s.286). Ruslar Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrini Ermənistanın tərkibində olmasını planlaşdırırdılar (6, s.253), lakin onların qarşısında başlıca maneə Türkiyə idi. Naxçıvanda Türk hərbi dəstələri rus dəstələri ilə yanaşı fəaliyyət göstəririrdi ki, onun başçısı Veysəl bəy idi.

1920-1924-cü illərdə Azərbaycan, eləcə də Naxçıvanlı diplomatların Türkiyə ilə əlaqələri intensivləşir. Xüsusi ilə Behbud ağa Şahtaxtinski, İbrahim Əbilov, Balabəy Əlibəyov, Rza Təhmasib və başqaları Türkiyə-Naxçıvan diplomatik əlaqələrində əhəmiyyətli rol oynamış, Naxçıvanın Azərbaycanın tərkibində qalmasında öz xidmətlərini göstərmişlər.

Naxçıvanlı diplomatlar deyəndə ilk olaraq yada Behbud ağa Şahtaxtinski düşür. Onun da heç bir diplomatik, eləcə də başqa bir ciddi təhsili olmamışdır. Lakin onun Naxçıvanın muxtariyyətinin əldə edilməsi, Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması uğrunda diplomatik fəaliyyəti onlarla diplomatların işini kölgədə qoya bilər. Naxçıvanın taleyi, onun erməni işğalına düşməməsi bu görkəmli diplomatın sayəsində olmuşdur.

Onun həm Rusiya siyasi xadimləri və diplomatları ilə, həm də Türkiyənin dövlət nümayəndələri və diplomatları ilə apardığı danışıqlar hər iki dövlətin nümayəndələri tərəfindən yüksək qiymətləndirilmişdir.

1920-ci ilin iyulunda Moskvaya səlahiyyətli nümayəndə təyin edilmiş B.Şahtaxtinski sentyabrın 20-də V.Leninə göndərdiyi geniş məktubun Türkiyəyə aid hissəsindən bəlli olur ki, Sovet Azərbaycanının rəhbərliyi Rusiyanın Naxçıvanı Ermənistana vermək planlarından məlumatı olmuşdur. B.Şahtaxtinski ilk növbədə Azərbaycan Xalq Komissarları Sovetinin fikrini ifadə edirdi və yazırdı ki, Naxçıvanın Ermənistana güzəştə gedilməsi Türkiyə ilə əlaqələrin tamamilə kəsilməsi deməkdir. O, əlavə edirdi ki, daşnaklara hücum etməyi türklərə qadağan etmək, Rusiya tərəfindən yaxın gələcəkdə Anadolunun bir sıra vilayətlərinin ermənilərə güzəştə gedilməsinə bərabər eyhamdır (6, s.263).

Naxçıvanda çoxsaylı qaçqınların mövcudluğu və kütləvi aclıq siyasi rəhbərliyin İran xanları ilə sıx iqtisadi əlaqələr saxlamağa, Təbriz şəhərində Naxçıvan Hərbi İnqilab Komitəsinin ticarət nümayəndəliyi yaratmağa məcbur etmişdi. Eləcə də 1920-ci ilin dekabrın 2-də Türkiyə ilə Ermənistan arasında Gümrü müqaviləsi bağlandıqdan sonra Naxçıvan ərazisində Xəlil bəyin başçılığı ilə türk qoşunlarının olması Naxçıvan Hərbi İnqilab Komitəsinin Türkiyə ilə də möhkəm hərbi-iqtisadi əlaqələr qurulmasını təmin edirdi.

Türkiyə ilə Naxçıvan diplomatları, xüsusilə B.Şahtaxtinski arasındakı qarşılıqlı münasibətlər Türkiyə ilə Rusiyanın bağladığı Moskva və Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında, Rusiya nümayəndəsinin iştirakı ilə bağlanılmış Qars müqaviləsində daha qabarıq olaraq özünü göstərirdi. Qars konfransı keçirilərkən Naxçıvan SSR XKS tərəfindən Tağı Səfiyev adlı bir müəllim məşvərətçi nümayəndə kimi Qarsa ezam edilmişdi (12, 2004, 29 may). Bu, bir daha Naxçıvanın öz siyasi gələcəyinə, taleyinə göstərdiyi ciddi münasibətlərdən irəli gəlirdi.

Moskva və Qars danışıqlarında Azərbaycanının Rusiyadakı təmsilçisi B.Şahtaxtinskinin milli mövqeyi, Türkiyə nümayəndə heyətinin ciddi səyləri sayəsində Azərbaycanın ərazi bütövlüyü qismən də olsa

qorunmuş, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi təşkil etməsi və onun hüquqlarının Azərbaycandan başqa heç bir dövlətə verilə bilməməsi razılaşdırılmışdı (10, s.304).

Moskva müqaviləsindən sonra Türkiyə Gümrü müqaviləsinin, o cümlədən də onun Naxçıvan bölgəsinə dair maddələrinin qüvvədən düşməsi ilə razılaşdı. 1921-ci ilin aprelində Türkiyənin məhdud qoşun hissəsi Naxçıvan diyarını tərk etdi.

Naxçıvanın muxtariyyət əldə etməsindən sonra formalaşmış xarici dövlətlərlə əlaqələr sahəsində təcrübəsi Azərbaycan dövlətçiliyinin daha da zənginləşməsinə xidmət etmişdir. Azərbaycanın himayəsi altında muxtariyyət qazanmış Naxçıvanın konsulluqları, nümayəndəlikləri yaradılmış, Rusiya Federasiyasının Qarsdakı Konsulluğu yanında müvəkkilliyi təşkil olunmuşdur (3, 2009, 8 iyul).

Türkiyənin Naxçıvan SSR-dəki hərbi nümayəndəliyi vasitəsi ilə idarə olunurdu ki, türk qoşunlarının ərazidən çıxarılması, sovet-türk münasibətlərində sərinləşmənin əmələ gəlməsi 1924-cü ilin iyulunda Naxçıvan SSR-də Türkiyə hərbi nümayəndəliyinin bağlanmasına səbəb oldu. 1938-ci ilədək isə İranın Naxçıvanda konsulluğu fəaliyyət göstərmişdir (1, s.459).

Bütün bunlarla yanaşı, Azərbaycan-Türkiyə münasibətləri, diplomatik əlaqələri inkişaf etmişdi. Bu sahədə XX əsrin 20-ci illərində Sovet Azərbaycanının Türkiyədə səfiri və 1921-ci ildən Zaqafqaziya Federativ Respublikasının Türkiyədə föqəladə və səlahiyyətli səfiri İbrahim Əbilovun böyük xidmətləri olmuşdur. O, Azərbaycan-Türkiyə dostluq münasibətlərinin möhkəmləndirilməsində böyük rol oynamış və Türkiyə Cümhuriyyətində ilk islahatların keçirilməsində Mustafa Kamalın yaxın məsləhətçilərindən biri olmuşdur (12, 2009, 8 iyul).

Naxçıvanlı diplomatlardan İsmayıl bəy Camalbəyov, Qasım bəy Camalbəyov, Əziz Şərif, Məhəmməd xan Təkinski, Bəhram xan Naxçıvanski, Əli Səbri Qasımov, Balabəy Əlibəyov və başqalarını da Azərbaycanını ərazi bütövlüyü, Naxçıvanın qorunması uğrunda və diplomatik əlaqələrin yaradılması və inkişafında mühüm xidmətləri olmuşdur (5; 12, 2004, 29 may).

Lakin sovet totalitarizminin güclü inkişaf etdiyi sonrakı illərdə "demokratik mərkəziyyət" prinsipinin möhkəm bərqərar olması Naxçıvan MR-nın xarici iqtisadi və diplomatik əlaqələrinin birdəfəlik ləğv edilməsinə səbəb oldu.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının da xarici əlaqələrinin inkişafında yeni mərhələ başlanmışdır. Ümummilli lider Naxçıvanın qonşu dövlətlərlə münasibətlərdə iştirakına daim böyük əhəmiyyət vermiş, onun bilavasitə tapşırığı ilə 1997-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasında Konsulluq məntəqəsi yaradılmışdır. Bir il sonra bu qurumun əsasında Konsulluq şöbəsi, 2003-cü ilin fevralında isə Konsulluq idarəsi yaradılmışdır (12, 2015, 31 oktyabr).

Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan qardaş ölkə olan Türkiyə Azərbaycanla diplomatik əlaqələrin genişləndirilməsinə xüsusi önəm vermişdir. Türkiyə rəsmi və işgüzar dairələrində Azərbaycana münasibətində həmişə xüsusi yanaşma mövcud olmuş, dövlət və hökumət, həmçinin digər müxtəlif səviyyəli görüşlərdə bu münasibət dəfələrlə vurğulanmışdır. Bu baxımdan, 1997-ci ilin may ayında Azərbaycan-Türkiyə dövlət başçılarının görüşündə Türkiyə prezidenti Süleyman Dəmirəlin dediyi sözləri qeyd etmək yerinə düşərdi: "Azərbaycanın müstəqilliyini biz öz müstəqilliyimiz qədər qiymətləndirir, onun səylərinə mümkün olan bütün köməyi göstərməyi özümüzə borc bilir və bundan şərəf duyuruq" (11, s.27).

Türkiyə-Naxçıvan əlaqələrinə gəldikdə isə bunu 90-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyev yaratmışdır. 1992-ci ilin mart ayının 24-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan MR-nın Ali Məclisinin Sədri Heydər Əliyev Ankarada əməkdaşlıq haqqında protokol imzaladılar. Türkiyə ilə Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişafı nəzərdə tutulur, Türkiyə Araz sərhəd çayı üzərində körpü salmaq barədə öhdəlik götürürdü. "Ümid" körpüsü qısa müddət ərzində tikilib istifadəyə verildi.

Ermənistan silahlı qüvvələri 1992-ci ilin may ayında Naxçıvan üzərinə hücuma keçdikdə Türkiyə tərəfi təcavüzün davam edəcəyi təqdirdə hərbi müdaxiləyə başlayacağını bildirdi. Süleyman Dəmirəl 1992-ci il mayın 2-3-də Azərbaycana səfər etdi. Mayın 3-də Bakıda Türkiyə səfirliyi açıldı (2, s.432). Mayın 21-də Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Naxçıvana gəldi. Nümayəndə heyəti döyüş bölgələrinə səfər etdi.

1993-cü ilin iyun ayında görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərində yeni bir dövr başladı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il fevralın 8-11-də Türkiyəyə səfər etdi. İki ölkə arasında müxtəlif sahələri əhatə edən 16 sənəd imzalandı (2, s.445). Azərbaycan ilə Türkiyə arasında 19 maddədən ibarət dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilədə tərəflərin çoxlu sahələrdə əməkdaşlığı nəzərdə tutulmuşdu. 1997-ci ilin may səfərində isə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında" bəyannamə və 9 sənəd imzalandı (11, s.67).

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasındakı siyasi əlaqələrdə səfirlik və konsulluq səviyyəsində olan əlaqələr də mühüm yer tutur. Türkiyənin Bakıda 1991-ci ilin dekabrından konsulluğu, 1992-ci ilin may ayından isə səfirliyi açıldı. 1992-ci ilin avqustundan Azərbaycan Respublikasının Ankarada səfirliyi, 1993-cü ilin yanvarından İstanbulda konsulluğu fəaliyyətə başladı.

1995-ci ildən başlayaraq Türkiyə-Naxçıvan siyasi, iqtisadi əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu dövrdən başlayaraq tərəflər arasında qarşılıqlı ticarət, istehsal, bank işi, birgə müəssisələrin yaradılması, idxal-ixrac formasında münasibətlər inkişaf etməyə başladı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 1996-cı ilin 12-17 mart tarixlərində Türkiyəyə səfəri muxtar respublikanın mövcud problemlərinin həlli istiqamətində atılmış mühüm addım oldu.

Naxçıvan-Türkiyə siyasi, iqtisadi əlaqələrinin inkişafında Türkiyənin Naxçıvandakı konsulluğu mühüm rol oynayır.

Naxçıvan-Türkiyə əlaqələri ilbəil genişlənmiş, siyasi, iqtisadi, humanitar, elmi-texniki və mədəni sahələri əhatə etmişdir.

Beləliklə, Azərbaycanının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının xarici siyasət kursunun uğurla aparılmasında yaxından iştirak edir, xüsusilə Türkiyə-Naxçıvan diplomatik əlaqələrində Naxçıvanın təhlükəsizliyinin təmin edilməsində, əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibəti ilə keçirilən konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı / Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. 1996-2011. Naxçıvan: "Əcəmi" NPB, 2012, s.458-463
2. Azərbaycan Respublikasının diplomatiya tarixi / M.C.Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). İki hissədə. I hissə. Bakı: "Mütərcim", 2015, 648 s.
3. "Azərbaycan" qəzeti
4. Hacıyev İ.M. Naxçıvan Azərbaycanının dövlətçilik tarixində. Bakı: "Elm", 2018, 372 s.
5. Hacıyev İ., Kəlbizadə E. Naxçıvanlı diplomatlar (Нахчыванские дипломаты). Naxçıvan: "Əcəmi" NPB, 2017, 128 s.
6. Həsənli C.P. Sovet dövründə Azərbaycanının xarici siyasəti (1920-1939). Bakı: "Adiloğlu", 2012, 656 s.
7. "Xalq qəzeti"
8. Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: "Azərnəşr", 2011, 474 s.
9. Qasımlı M.C. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il - dekabr 1922-ci il). Bakı, 1998.
10. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti, 1996, 328 s.
11. Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı: "Adiloğlu", 2005, 236 s.
12. "Şərq qapısı" qəzeti.



## ABSTRACT

**Ismayil Hajiyev**

**TURKEY-NAKHCHIVAN DIPLOMATIC RELATIONS: IN HISTORY AND AT PRESENT**

In the article, the richness of foreign policy and diplomacy history of Azerbaijan, Nakhchivan's role and position in this wealth are tried to study on the basis of factual materials. It turned out that the geostrategic and geographical position of Nakhchivan favoured it to form and carry political, economic, scientific-technical, and cultural relations mostly with Ottoman state and Turkey. These relations and diplomatic attitudes were created with the attendance of Nakhchivani diplomats either during Tsar Russia, the Soviet period or independence years, and successful results were gained.



## РЕЗЮМЕ

**Исмаил Гаджиев**

**ТУРЕЦКО-НАХЧЫВНСКОЕ ДИПЛОМАТИЧЕСКИЕ ОТНОШЕНИЯ: В ИСТОРИИ И СОВРЕМЕННОСТИ**

В статье на основе фактических материалов исследуется богатство внешней политики и дипломатии Азербайджана, роль и участие Нахчывана в этом богатстве. Становится ясно, что геостратегическое и географическое положение создали благоприятные условия для развития политических, экономических, научно-технических и культурных связей с Османским государством и Турцией. В этих взаимоотношения и дипломатических связях, как во время Царской России, советского периода, так и во время независимости участвовали Нахчыванские дипломаты и были достигнуты успешные результаты.

**CENGİZ ATLI**

# IĞDIR NAHÇIVAN İLİŞKİLERİNDE ÖNEMLİ GEÇİŞ NOKTASI HASRET KAPISI-AÇILIŞI VE İKİ ÜLKE İLİŞKİLERİNDEKİ ROLÜ

**Anahtar Kelimeler:** *Iğdır, Nahçıvan, Hasret Köprüsü, İkili İlişkiler, Sınır*
**Keywords:** *Kars, Election, Municipality, Deputy, 1950*

Nahçıvan, Güney Kafkasya'da bulunan doğu ile batı arasında önemli geçiş ve irtibat noktalarına sahip olan bir ülkedir. Tarih sahnesinde Sasani Devleti1 ve Bizans arasında sık sık el değiştirdi. İslam tarihi döneminde Halife Osman zamanında Habib Bin Mesleme tarafından fethedildi. Fethin sonucunda Arap valiler bu vilayeti askeri merkezlerden biri haline getirdi.

Arap valilerin idareyi bırakmasıyla Arap hanedanların idaresinde kalan Nahçıvan Türklerin Orta Asya'dan Anadolu'ya geçişinde önemli bir rol üstlendi. 11. yüzyılda Selçuklular tarafından feth edilen bölge bu dönemde Selçuklu valileri tarafından idare edildi. 1136-1225' te İldenizli yönetiminde yaşadı. Bu tarihten sonra Harzemşahların idaresine geçti. Harzemşahların idaresinden sonra sırasıyla Karakoyunlu, Timur, Akkoyunlu, Safevi ve Osmanlı yönetimi altında yaşadı. Osmanlı-Safevi mücadelesi sonucu sürekli el değiştiren Nahçıvan, 1747 yılında Nadir Şah Afşar'ın öldürülmesinden sonra başlayan karışıklıktan yararlanarak bağımsızlığını ilan etti. Toprakları Nahçıvan şehri ile Şerur, Ordubad, Megri, Gafan ve Culfa nahiyelerini içine almaktaydı.

7 Haziran 1827'de Ruslar tarafından işgal edildi 9 ve 1920 yılına kadar Rus işgalinde yaşadı. Bu dönemde Rus birliklerinden ziyade Ermenilerin işgal politikası Nahçıvan ve çevresinde devam ediyordu10. Ermenilerin Nahçıvan bölgesinde yaptıkları katliamlara daha fazla tahammül edemeyen Kazım Karabekir Paşa ileri doğu harekatını başlattı. Harekatın sonucunda 3 Aralık 1920' de Ermenistan Hükümeti ile TBMM Hükümeti arasında imzalanan Gümrü Antlaşması'nın ikinci maddesi ile Nahçıvan Şahtahtı-Şerur bölgesi geçici olarak Türkiye'nin koruyuculuğuna bırakıldı.11 16 Mart 1921 tarihli Moskova Antlaşmasının üçüncü maddesi ile de Türkiye'nin himayesinden alınarak Azerbaycanın himayesine bırakıldı. 13 Ekim 1921 tarihli Kars Antlaşmasıyla Moskova Antlaşması'ndaki madde aynen kabul edilerek özerk bir statüye kavuştu.

Azerbaycan'ın himayesinde Sovyet yönetimine bırakılan Nahçıvan'ın Türkiye ile ilişkileri 1924 yılına kadar devam etti. Türk Askeri Ateşeliği 1924 yılı Temmuz ayına kadar mevcudiyetini devam ettirirken Nahçıvan Temsilcisi Balayev'de Kars'ta bulunuyordu. İlişkilerin kesilmesiyle birlikte Ermenilerin etkisi ile hareket eden Kafkasya Merkezi İcra Komitesi sınır düzenlemesi bahanesiyle Nahçıvan'ın dokuz köyünü Ermenistan'a bıraktı. Türkiye ile imzalanan antlaşma ile daha fazla ileri gidilemedi. 1991 yılına kadar Azerbaycan Sosyalist Cumhuriyeti'ne bağlı olarak Sovyetler Birliği'nin himayesinde kalan Nahçıvan Azerbaycan'ın bu tarihte bağımsızlığını ilan etmesiyle özgürlüğüne kavuştu.

1-Hasret Köprüsü'nün Açılmasından Önce Nahçıvan Türkiye İlişkileri

Nahçıvan Cumhuriyeti bağımsızlığını kazandıktan sonra ekonomik, siyasi alanlarda hızlı bir değişim dönemine girdi. Azerbaycan – Ermeni anlaşmazlığında Karabağ'da Türklerin sürülüp çıkarılması gibi önemli sorunlarla uğraştı. Nahçıvan'da istikrarı sağlamaya çalışan kişi ise yönetimi kuran ülkeyi iç sorunlardan çıkararak bayındır hale getirmeye çalışan Haydar Aliyevdi. Haydar Aliyev, Nahçıvan'ın tek çıkış noktası olarak Türkiye'yi görüyordu. Bu amaçla Türkiye ile ikili ilişkileri geliştirmeyi amaçlamıştı. İlişkileri geliştirmek amacıyla Nahçıvan Cumhurbaşkanı Haydar Aliyev ile Türkiye Cumhuriyeti Başbakanı Süleyman Demirel arasında 24 Mart 1992'de işbirliği protokolü imzalandı. Protokole gore Nahçıvan Cumhuriyeti'nin ihtiyaçlarını karşılamak amacıyla 100 milyon dolarlık kredi verilecekti. Türkiye, Nahçıvan ile Türkiye arasındaki telefon ve televizyon bağlantısını sağlayacaktı. Ayrıca Nahçıvan Cumhuriyeti'nden 100 öğrencinin her yıl Türkiye'ye

gelerek eğitim almaları sağlanacaktı. 20 Mayıs 1992'de Nahçıvan Parlemento heyeti Nahçıvan Parlemento Başkan Yardımcısı Cafer Memedov başkanlığındaki beş kişilik heyet protokol imzalandıktan sonra Ankara'ya geldi. Heyet üyeleri Ermeni saldırısından zarar gören vatandaşların ihtiyacını karşılamak amacıyla Türkiye'nin vermiş olduğu 100 milyon dolarlık kredinin 25 milyon dolarlık bölümünü gıda maddesi ve giyecek olarak verilmesini istedi. Nahçıvan'la Türkiye ilişkilerini geliştiren önemli olaylardan biri de Türkiye'den Nahçıvan'a elektrik iletim hattının tamamlanmasıydı. Bu hat 200 milyar liraya mal oldu. Türkiye Elektrik Kurumu tarafından 180 km uzunluğunda ve 154 bin voltluk elektriği taşıyacak şekilde yapıldı.

Iğdır ve Nahçıvan'ı birbirine bağlayan Hasret Köprüsü'nün açılmasından once ilişkileri geliştirmek amacıyla Nahçıvan'la sınır komşusu olan Iğdır'ın il olması kararı alındı. Başbakan Süleyman Demirel ve Meclis Başkanı Hüsamettin Cindoruk'un katkılarıyla konu meclis gündemine geldi. Mecliste yapılan görüşmelerden sonra 27 Mayıs 1992 tarihinde 3806 Nolu kanunla il oldu. Aynı kanunla Karakoyun'lu Köyü de ilçe oldu. İl olma kararı 3 Haziran 1992'de Resmi Gazetede yayınlandı. Iğdır'ın il olmasıyla birlikte kurumların yer sıkıntısını çözmek amacıyla Kars Valisi Sıtkı Arslan, PTT Genel Müdür Yardımcısı Nuri Alagöz, Emniyet Müdürü Osman Gezeker, Sağlık Müdürü Remzi Aras, Milli Eğitim Müdürü Turgut Öcal ile birlikte Bayındırlık Müdürü ve Iğdır Daire Müdürleri de incelemelerde bulundu. Iğdır'ın il olma törenine katılmak üzere Başbakan Süleyman Demirel, Başbakan Yardımcısı Erdal İnönü, Devlet Bakanları Cavit Çağlar, Ekrem Ceyhun, Ömer Barutçu, Dışilişkiler Bakanı Hikmet Çetin, Bayındırlık ve İskan Bakanı Onur Kumbaracıbaşı, Ulaştırma Bakanı Yaşar Topçu, Tarım ve Köyişleri Bakanı Necmettin Cevheri, Samsun, Erzurum, Kars, Ağrı Milletvekilleri, Başbakanlık Özel Kalem Müdürü Cengiz Sonay ve basın mensubları Iğdır'a geldi. Başbakan Adnan Menderes döneminde söz verilip il yapılmayan Iğdır'ın kırk yıllık süreçten sonra il olma kararı açıklandı. Nahçivan'la ilişkileri düzenlemek, büyük illere göçü durdurmak, işsiz sayısını azaltmak devletin ve özel sektörün nimetlerinden faydalanabilmek amacıyla Iğdır'ın il olma kararı çok önemli bir adımdı. Iğdır'ın il olma açılışını yapmak için Iğdır'a yukarıda isimleri sayılan kişilerle birlikte Nahçıvan Cumhurbaşkanı Haydar Aliyev'de katıldı. Açılış konuşmasını Kars Valisi Sıtkı Arslan yaptı. Konuşmadan sonra Kars Valisi Sıtkı Arslan ile Iğdır Valisi Erdoğan İzgi arasında Bayrak teslim töreni yapıldı. Törende konuşan İçişleri Bakanı İsmet Sezgin "Güzel Iğdır'ın il olmasının sevincini sizinle paylaşıyorum. Iğdır en kısa zamanda bir ticaret merkezi olacaktır" diyerek duygularını belirtti. Başbakan Yardımcısı Erdal İnönü'de konuşmasında "Iğdır, Cumhuriyetimizin yeni bir ilidir. Koolisyon Hükümetimizin eseridir. Karakoyunlu ilçeside aynı şekildedir. Iğdır'ın en kısa sürede kapalı olan fabrikaları açılacak ve yeni sanayi tesisleri kurulacaktır. Iğdır Hava alanı kurulduğu takdirde Iğdır dünyaya açılan kapı ve iş merkezi olacaktır."

Başbakan yardımcısı Erdal İnönü'nün konuşmasından sonra Süleyman Demirel de yaptığı konuşmada "Iğdır'a yeni bir hizmet getirmenin gururu içerisindeyiz. Koolisyon Hükümeti miting meydanlarında verdiği sözleri yerine getiriyor. Iğdır'ın il yapılması Türkiye'ye mesaj vermektir. Devlet halkın ayağına gelecektir. Yeter ki Halk Devlete sarılsın. Devlette size daha çok sarılsın. Aralık'ımıza, Iğdır'ımıza, Dilucun'a Gaziler'e, Karakoyunlu'ya, Melekli'ye, Karaçomak'a kısaca köyüne ketine her yerine uygarlığın nimetlerini göndermeye kararlıyız. Türkiye'nin Edirne ilinde ne varsa Iğdır ilinde de o olacaktır. Bu meydanlarda sizlere söz vermiştik. İl olcaksınız demiştik ve oldunuz. Hayırlı uğurlu olsun". Demirel konuşmasının son bölümünde ise, Iğdır Dünyaya açılan bir penceredir. Topraklarınızın hepsi sulanacaktır. Yeni Sanayi Tesisleri gelecektir. Burası ne Anakara'ya uzaktır ne de İstanbul'a. 5000 nüfusdan 35000 nüfusa çıkan Iğdır'ı 100000 nüfuslu bir il olarak görmek istiyorum. Fabrikalar çalışacak. Herkes şu karşıda ki Ağrı Dağı gibi dimdik olacak." diyerek düşüncelerini belirtmişti.

2- Nahçıvan Sınır Kapısı'nın Açılışı

Nahçıvan Sınır Kapısı'nın açılışı 23 Nisan Ulusal Egemenlik ve Çocuk Bayramı olarak planlandı.27 Fakat gerekli çalışmalar tamamlanamadığından dolayı köprünün 28 Mayıs 1992 tarihinde açılmasına karar verildi. Nahçivan Sınır Kapısı'nın açılış tarihi belirlenmesinden sonra köprünün 35-40 km uzağında toprakları bombalayan Ermeniler'in saldırısına karşı Erzincan'daki 3. Ordu ve Erzurum'daki 9.Kolordu bünyesindeki bir tugay alarma geçirildi. Malatya, Erhaç, Merzifon ve Erzurum Havaalanı'ndaki jetler teyakkuza geçirildi. Nahçıvan Meclis Başkanı Haydar Aliyev

konuşmasında “Misafirimiz büyüktür Büyük Türk milletine  yakışan karşılama yapacağız. Ermenilerin ateşkese uymasını bekliyoruz. Bu konuda bir problem çıkaracaklarını sanmıyorum” dedi. Fakat yapılan bu çağrıya Ermenistan’dan gelen bazı kişiler riayaet etmedi. Köprüyü havaya uçurmak amacıyla mayıs ayının ilk haftasında yurda kaçak yollarla giren üç Ermeni vatandaşı yakalandı.

Nahçıvan Sınır Kapısı ya da diğer adıyla Hasret Köprüsü 28 Mayıs 1992 tarihinde Bakanlar Kurulu’nun aldığı karar neticesinde Türkiye Cumhuriyeti adına Başbakan Süleyman Demirel ve Nahçıvan Meclis Başkanı Haydar Aliyev’in katılımıyla açıldı. Sabahın erken saatlerinde Nahçıvan’dan Türkiye yönüne binlerce taksi, kamyon, motosiklet gibi araçlar geçiş yaptı. Törenle açılan köprünün Türk ve Nahçıvanlılar üzerinde uyandırdığı sevinç, coşku, heyecan çok fazlaydı. Bir asra yakın bir ayrılığın özleminin insan ruhunda uyandırdığı bir sevinçti. Köprü yalnızca Türklerle Azeriler arasındaki bir asırlık özlemi gidermekle kalmadı aynı zamanda Nahçıvan’ın son yıllarda büyük kalkınmasına olanak sağlayan ekonomik açılımı kolaylaştırdı. Hasret Kapısı adı sonradan Dostluk Köprüsü olarak anılmaya başlandı. Yetmiş yılın ardından iki devleti biraraya getiren köprünün açılışına Başbakan Süleyman Demirel, Başbakan Yardımcısı Erdal İnönü, Bakanlar; İsmet Sezgin, Hikmet Çetin, Onur Kumbaracıbaşı, Cavit Çağlar, Tansu Çiller, Sümer Oral ve Ekrem Coşkun katıldı. Törene katılan heyet 28 Mayıs 1992 tarihinde Ankara’dan hareket etti.

Nahçıvan’a inişte heyeti Azerbaycan Meclis Başkanı İsa Kamberov, Nahçıvan Özerk Cumhuriyeti Cumhurbaşkanı Haydar Aliyev, R. Hüseyinov, A.Celilov, R.Hasanov, A.Kalenterli, G. Memmedov, E. Sadikov, M, Abbasov ve S. Ceyhanova karşıladı. Havaalanındaki karşılama töreni sonrası Cumhurbaşkanı Turgut Özal, Başbakan Süleyman Demirel, Nahçıvan Cumhurbaşkanı Haydar Aliyev ve Azerbaycan’ın kurucusu Mehmet Emin Resulzade’nin portreleri taşındı. İzlenen yolda Anadolu ve Azeri Türklerini hiçbir kuvvet ayıramaz pankartı ile Resulzade’nin bir kere yükselen Bayrak bir daha indirilemez sözleri yazılı pankartlar dikkat çekiciydi. Törenin yapılacağı Azatlık Meydanı’na “Siz yalnız Türkiye’nin  değil bütün Türklerin babasınız” yazılı pankart asıldı. Haydar Aliyev yaptığı konuşmada Azerbaycan Cumhuriyeti’nin kuruluşunun 74. Yıldönümüne rastlayan Demirel’in ve beraberindekilerin ziyaretinin Türklerin birliğini bütün dünyaya bir kez daha gösterdiğini söyledi.

Tören sonunda Nahçıvan’dan Türkiye’ye harekete eden heyete yoğun sevgi gösterilerilerinde bulunuldu. Arabaların ön camlarına ve yollara asılan baba yazılı posterler dikkat çekiciydi. Heyet yaklaşık iki buçuk saat sonra köprüye ulaşırken araç kalabalığı yüzünden heyet üyeleri bir kilometre mesafeyi yürüyerek gitti. Kalabalıkta çıkan kargaşadan dolayı liderler köprünün altında düzenlenen tören alanına toprak yamaçlardan ve tarlalardan geçerek ulaştı. Tören alanında konuşmayı yapan Başbakan Süleyman Demirel “Azerbaycan’ın milli azadlık gününde Türkiye ile Azerbaycanı birleştiren köprünün başında Aras Nehri’nin yanında toplanmış olmaktan gurur duyuyoruz.” diye konuşmasına başladı. Olayın  sadece köprü açılışından ibaret olmadığını yetmiş yıldır birbirinden ayrı kalan insanların hasret gidereceğini belirten Demirel Ümit adını verdiği köprü ile Türk ulusunun iki ailesinin kucaklaştığını söyledi. Hasretin umuda dönüştüğünü vurgulayan Başbakan konuşmasını şöyle sürdürdü: “1918’de başlayıp 1920’de sona eren azadlık yeni baştan Azerbaycanlı kardeşlerimizin eline geçmiştir.bunun değerinin iyi bilinmesini herkese söylüyorum. Burada cereyan eden olay sadece bir köprü açılışı değildir. Cereyan eden olay yetmiş sene birbirinden ayrı kalmış insanların hasret gidermesidir. Bu bir milli coşkudur.” Ümit Köprüsü ile Kafkasya ve Orta Asya’nın Avrupa’ya bağlanacağını anlatan Demirel konuşmasında Azerbaycan ve Nahçıvan’a yapılan Ermeni saldırılarına değindi. Demirel sözlerine şöyle devam etti: “Keşke Azerbayan’a, Nahçıvan’a ait olan topraklara kimse saldırmasaydı da kan dökülmeseydi.  Kuvvet kullanılarak toprak kazanma dönemi bitmiştir. Kim kuvvet kullanmaya kalkarsa bilmelidir ki kendisinden daha güçlü daha kuvvetlisi mutlaka vardır. Barış ancak herkesin hakkına saygılı olmasıyla savunulabilir. Halkın bileğini bükmek kolay değildir” diye konuştu.

Nahçıvan Özerk Cumhuriyeti Cumhurbaşkanı Haydar Aliyev’de köprü ile asırlardır birbirinden ayrı kalan insanların hasret gidereceğini söyledi. “Bugün büyük bir bayramdır yetmiş yıllık kördüğüm çözülmüş demir perdeler parçalanmıştır. Bizi artık birbirimizden bir  tek Allah ayırabilir” diyerek ilişkilerin önemini dile getirdi. Konuşmasının diğer kısmında ise Aliyev Nahçıvan

ve Azerbaycan'ın kötü günlerinin devam ettiğini belirterek "Nahçıvan'ın yiğit çocukları saldıranlara kahramanlar gibi karşı koyuyorlar" dedi.

Devlet Bakanı ve Başbakan Yardımcısı Erdal İnönü de Azerilerin bağımsızlık bayramlarını kutladığı konuşmasında Türkiye ile Nahçıvan'ı birbirine bağlayan köprünün yetmiş yıllık bir hasreti gidermenin yanı sıra ulusların kardeşliğini gösterdiğini söyledi. İnönü "Savaş çıkaran insanlara Türkiye, Azerbaycan ve Nahçıvan'ın kardeşliğini gösteriyor. Bu köprü barış ve dostluk köprüsüdür" dedi.

Demirel ve beraberindeki heyet köprüdeki törenin ardından Nahçıvan'a hareket ederek şehitler mezarı ve Tarih Müzesi'ni ziyaret etti. Başbakan Demirel Nahçıvan Hürriyet Meydanında da halka kısa bir konuşma yaptı Konuşmasında "Azerbaycan'ın yeniden bağımsızlığına kavuşmasından mutluluk duyuyorum. Karabağ'da, Şuşa'da, Laci'de Sederek ve Ordubad'da hayatlarını kaybedenleri rahmetle anıyorum. Vatan yapmak kolay değildir. Vatan ancak uğrunda ölenler varsa vatandır. Onun için zor kullanmak suretiyle sınırların değişeceğini zan edenler avuçlarını yalayacaklardır. Türkiye'deki altmış milyon kardeşiniz sizinle her şart altında beraberdir" Hasret Kapısı'nın açılışından sonra iki ülke ilişkilerini güçlendirmek amacıyla Başbakan Süleyman Demirel Nahçıvan Cumhurbaşkanı Haydar Aliyev'i Ankara'ya davet etti. Haydar Aliyev Ankara'da iki devlet arasında önemli anlaşmalar yaptıktan sonra 10 Haziran 1992'de geri döndü.

Hasret kapısının açılışının ardından resmi açılış tarihi olarak 13 Temmuz 1992 tarihi belirlendi. Bu tarihte sınır kapısı ile ilgili protokol imzalandı. Protokole katılanlar Vali Vekili İsmet Bahadırlar, Komser Vekili Aralık Bölgesi Hudud Muavini ve Emniyet Müdürü Osman Gezeker, Kaymakam Hasan İpekten oluşan heyetti. Nahçıvan yetkililerinden ise Hudut Komiseri Jukav Kostantinoviç, Başbakan Yardımcısı ve Başbakan Vekili Ali Asker Sadıkov ve İçişleri Bakanı Mehmed Memedov Protokol sözleşmesine katıldı. İmzalanan protokolde Nahçıvanlıların geçişi için mevcut pasaportların içerisinde Latin harfleriyle yazılı ve iç işlerinin onayını taşıyan belgelerle vizesiz geçeceklerini belirten belge bulunuyordu. Protokol imzalandığı sırada konu ile ilgili konuşma yapan Aralık kaymakamı Hasan İPEK (Kazakistan, Türkmenistan ve Azerbaycan vatandaşlarından vize istememekte bu cumhuriyetlere gidecek Türk vatandaşlarından da vize istenmeyecektir. Türkiye'den Türk Cumhuriyetlerine geçmek için gidecek olan vatandaşlardan vize istenmemekte ancak konut fonlarını yatırdıkları takdirde bu ülkelere gidebileceklerdir. Diğer Türk Cumhuriyetlerine giden ve gelenler için geçişler ise uluslararası evraklar dahilinde olacaktır."

Protokol gereği 20 Temmuzdan itibaren prefabrik olarak yapımına başlanılan geçici binalarda karşılıklı geçişlere başlandı. Her iki tarafın gümrük görevlileri haftanın yedi günü sabah sekiz ile akşam ondokuza kadar görevlerini sürdürdüler.

Hasret Kapısı'nın açılmasyla yıllarca birbirinden ayrı kalan akrabalar arasındaki hasret sona erdi. Türk topraklarına geçtikten sonra gözyaşı döken Nahçıvanlılar "Allaha şükür bu günleri de gördük " dediler. Köprüden ilk geçenlerden birisi olan yetmiş yaşındaki Cabbar Ali Dede "Ben bilirim Aras'ın kıyısından Türk topraklarını gözlemlemenin acısını kendimi bildim bileli Aras'ın karşı kıyısından Türk topraklarına bakmış, Türk topraklarına ayak basmanın hayalini kurmuştum. Artık ölsemde gam yemem Türk kardeşlerimizin Türk akrabalarımızın yanına gittik onlarda bize geldiler. Ölmeden Türkiye'yi yakından görmek nasip oldu. Yaşasın Türk Devleti". Nahçıvan'dan gelen Muhsin Adem ve Oruç Bey de Türk topraklarına geçtikten sonra "Allahım sana şükürler olsun ki bizlere bu günleri de gösterdin Öz topraklarımız dışına çıkamıyor kimseyle görüşemiyorduk. Hep Türk topraklarını merak ederdik. Bundan büyük mutluluk olmaz" diyerek düşüncelerini dile getirdi.

3-Nahçıvan'ın Bağımsız Olmasından Sonra Rus Birliklerinin Çekilmesi

Çarlık Dönemi'nde beri Azerbaycan'a yerleşmiş olan Rus birlikleri Nahçıvan'dan 17 Ağustos 1992 tarihinden itibaren geri çekilmeye başladı. Nahçıvan'ın şehir merkezindeki 75. Tugay boşaltıldı. Rus askerler tugayı boşaltılırken Nahçıvan milli ordu askerleri Azatlık meydanında yürüyüş yaptı. Çekilme işlemi sona erdikten sonra Rus General Sıla Paseviç ile Nahçıvan Genelkurmay Başkanı Elman Abbasov Cumhurbaşkanı Haydar Aliyev huzurunda devir teslim işlemlerini gerçekleştirdi. Devir teslim ve imza töreninden sonra Haydar Aliyev her iki generali tebrik ederek halka bir konuşma yaptı. "Sovyet ittifakı dağıldıktan sonra bağımsızlığını ilan eden Cumhuriyetlerden biri olan Nahçıvan Muhtar Cumhuriyeti'nin tarihi bir gününü yaşıyoruz. Çarlık döneminden beri kurulan ve

150 yıllık mazisi bulunan tugaylar birer birer boşaltılıyor. Bugün bayram günüdür. Nahçıvan'da bulunan Rus birlikleri dostluk içinde göçüp gitmektedir. Giderken de Sovyet ittifakı dağıldığından bütün hisseler dağıtılmaktadır. Nahçıvan'da bulunan techizatlarda bizim hissemizdir. Rus General Sıla Paseviç de Nahçıvan halkının kendilerine gösterdiği ilgiye teşekkür ederek "Birçoğumuz ayrılmak istemiyoruz. Ama yapacak hiçbir işimiz de yok. Çünkü Azerbaycan milli ordusunu kurdu. Artık Nahçıvan kendi kendisini müdaffaa ve muhafaza edebilir" Nahçıvan Genelkurmay Başkanı Elman Abbasov da yaptığı konuşmada halka kendilerine güvenmelerini, kurdukları milli ordunun güçlü olduğunu, bu ordunun 226 kmlik sınırlarını kendilerinin koruyabileceğini açıkladı. Abbasov "Zorluklar çektik ve çekeceğiz zaten önemli olan zoru başarmaktır" diyerek sözlerini tamamladı.

4- Hasret Köprüsü'nün Açılmasından Sonra Nahçıvan Türkiye İlişkileri

Iğdır 1992 yılında il olduktan sonra hızlı bir değişim dönemine girdi. Üç ülkeyle sınır komşusu olması ve 1992 yılında Nahçıvan Kapısı'nın açılması ile ilişkiler gelişmeye başladı. 1992 yılında terörün kol gezdiği illerden birisi olan Iğdır'da 1994'te yapılan operasyonlarla terör olayları geniş ölçüde azaldı. Huzur ortamının sağlanmasıyla birlikte ticaret canlanmaya başladı ve Hasret Kapısı'nın açılmasıyla birlikte ekonomide büyük bir hareketlilik içerisine girildi. Bunun sonucunda terör ve işsizlik sebebiyle devam eden göç hareketleri durma noktasına geldiği gibi büyük oranda Iğdır'a geri dönüşler başladı.

Nahçıvan'la ilişkilerin canlanması sınır ve bavul ticaretini geliştirmekle birlikte giriş çıkış yapan araç sayısında önemli artışlar meydan getirdi. Bu araçlarla artan ihracata mukabil Nahçıvan'dan Iğdır'a önemli ölçüde mal girişinin yanısıra mazot girişi de başladı. 1996 yılının Eylül-Aralık aylarına ait son dört aylık dönemde Nahçıvan'dan Iğdır'a gelen mazottan 52.460 ton mazot diğer illere sevk edilmiş; karşılığında 1.489.387.342.000 gelir elde edilmişti. 1997 yılı Ocak-Mayıs aylarını kapsayan ilk beş aylık dönemde toplam 65.731 ton mazot çıkışına mukabil 1.943.954.234.500 tl gelir elde edildi. Iğdır'dan 1995 yılında toplam 32.299.745 dolarlık ihracat yapıldı.

Sınır ticaretiyle ilgili Nahçıvan Özerk Cumhuriyeti ile Iğdır Valiliği arasında 1993 yılında protokol imzalandı. İmzalanan protokol 1993 ve 1994 yıllarında düzenli bir şekilde yürütüldü. Fakat 1995 yılında yavaşlayan sınır ticareti 1996 yılında durma noktasına geldi. Bunun başlıca nedeni 30 Ocak 1996 tarihinde Resmi Gazetede yayınlanan sınır ticaretinin düzenlenmesiyle ilgili Bakanlar Kurulu'nun 96/7782 sayılı kararı ile sınır ticareti kapsamının daraltılarak ormancılık, hayvancılık, arıcılık ve bahçecilik ürünleri ile sınırlandırılmasıydı. Bunun yanısıra normal yurt dışı çıkışlarında alınan 100 dolarlık konut fonunun sınır ticareti belgesi almış olanlardan 25 dolar olarak tehsil edilmekte iken konut fonunun kaldırılması ve Nahçıvan'dan Iğdır'a gelen mazottan elde edilen kazancın diğer maddelere gore daha fazla olması ve mazot ticaretinde hiçbir bürokratik işlemin olmayışı, naklindeki ve satışındaki kolaylıklar, sürümün fazla olması gibi faktörlerle hurda demir bakır gibi ticareti cazip birtakım maddelerin listeden çıkarılması gibi sebeplerdir.

Iğdır ile Nahçıvan ilişkilerini geliştiren en önemli sebeplerden birisi mazot ticaretidir. Başbakanlık tarafından 13 Eylül 1996 gün ve 17095 sayılı emirleri doğrultusunda Bağımsız Devletler Topluluğu ülkeleri ile ticari ilişkilerin geliştirilmesi amacıyla petrol ürünlerinden mazotun bu ülkelere sınırı bulunan illerden valiliklerce belirlenecek esas ve usuller çerçevesinde ithaline müsade edilecektir kararıyla Iğdır iline Nahçıvan Özerk Cumhuriyeti'nden mazot ithaline izin verildi.

Nahçıvan'la yapılan diğer bir ticaret sözleşmeside şekerpancarı ithalatıyla ilgiliydi. Türkiye Şeker Fabrikaları A.Ş ile Nahçıvan Özerk Cumhuriyeti arasında bir protokol imzalandı. Nahçıvan'dan alınacak şeker pancarına karşılık, Nahçıvana Kristal şeker ve suni gübre verilecekti. Nahçıvan'dan ayrıca yaş sebze ve meyve alımınada başlandı. Ilk planda Tarım ve Köyişleri Bakanlığı'ndan bir heyet Nahçıvan'ın tarım potansiyelini tespit etmek üzere bölgeye gönderildi. Nahçıvan'ın içinde bulunduğu enerji dar boğazı giderek ağırlaşan kış şartları ve İran'ın bölgeye sağladığı 35 mgv'lık elektiriği kestiği göz önüne alınarak bölgeye verilen 30 mgv'lık elektiriğim iki katına çıkarılmasına çalışıldı.

Sonuç

Nahçıvan veya resmi adı ile Nahçıvan Özerk Cumhuriyeti, Azerbaycan'a bağlı ancak Azerbaycan ile sınırı olmayan özerk bir cumhuriyettir. Nahçıvan'ın kuzey ve doğusu Ermenistan,

güney ve batısı İran toprakları ile çevrilidir. Türkiye ile 13 km'lik bir kara sınırıvardır. Mustafa Kemal Atatürk'ün "Türk Kapısı" Kazım Karabekir Paşa'nın "Şark Kapısı" olarak nitelediği Nahçıvan Özerk Cumhuriyeti, Türk Cumhuriyetleri arasında Türkiye ile fiziki bağlantısı bulunan tek toprağa sahip olması sebebi ile Iğdır için özel bir önem teşkil etmektedir. Tarih boyunca nüfus sahibi olmak isteyen güçlerin mücadeleleri yüzünden büyük acılar yaşayan Nahcivan, bağımsızlık için büyük acılar çekti. 1991'li yılların başlarındaki Karabağ olayları ve Hoca Ali Katliamı bunlara örnek gösterilebilir. 1991 yılında 71 yıllık esaretten sonra kardeş olarak gördükleri Türkiye Cumhuriyeti ile bağlantıları güçlenmeye başladı. 1991 yılında bağımsız olması ve 1992 yılında Rus birliklerinin çekilmesi iki ülke arasındaki ilişkileri üst noktaya çıkardı. Bağımsız olmasından sonra artan Ermeni olayları Nahçıvan için kötü günlerin yaşanmasına neden oldu. Türkiye Cumhuriyeti bu dönemde Nahçıvan'ı zor durumdan kurtarmak amacı ile Nahcivan'la sınır kapısı açılması gündeme getirdi. 28 Mayıs 1992'de sınır kapısının açılması ile Iğdır'ın il olması ve aynı zamanda sınır ticareti Iğdır'ın gelişmesine öncelik veren önemli olaylardı.

## KAYNAKÇA


1. 1954 Yılı İcraat Raporu ve 1955 Yılı Faaliyet Programı, Kars, 1955 1961 Kars Vilayet İl Yıllığı
2. 75. Yılında Iğdır, Iğdır Valiliği Yayınları
3. ATNUR, İbrahim Ethem (2001). Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçıvan (1918-1920), Ankara. BADDELEY, John (1996). Rusların Kafkasya'yı İstilası ve Şeyh Şamil, ( Çev: Sedat Özden), İstanbul.
4. Başbakan Süleyman Demirel'in Konuşmaları, (1.3.1992-31.5.1992), Başbakanlık Basın Merkezi Birlik Gazetesi, 30 Mayıs 1992, S.4232
5. BÜNYADOV, Ziya (1989). Azerbaycan VII-IX Asırlarda, Bakü. Cumhuriyet, 29 Mayıs 1992
6. Demokrat Kars, 28 Mayıs 1992, S. 290
7. Doğu Gazetesi, 2 Haziran 1992, S. 6246
8. Doğu Gazetesi, 27 Mayıs 1992, S.6242
9. ERİM, Nihat (1952). "Türkiye Cumhuriyeti'nin Kuzeydoğu ve Doğu Sınırları", Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi IX, Ankara.
10. Hüryurt, 1 Haziran 1992, S.11682
11. HÜSEYİNOV, Rauf A. (1994). "Azerbaycan'daki Etik Süreçlerin Tarihi Yönleri", XI. Türk Tarih Kongresi, Ankara, 5-9 Eylül 1990, II.
12. Iğdır Valiliği Sınır Ticaret Bürosu, Başbakanlık Emir ve Talimatları, Ağustos 2000
13. Iğdır Valisi Şemsettin Uzun'un Nahçıvan Özerk Cumhuriyetinden İthal Edilen Mazot'la İlgili Rapor, 8 Nisan 1997 KAFESOĞLU, İbrahim (1953). "Doğu Anadolu'ya İlk Selçuklu Akını (1015-1021) ve Tarihi Ehemmiyeti", 60.Doğum yılı Münasebetiyle Fuat Köprülü Armağanı, İstanbul.
14. KARABEKİR, Kazım (2008). İstiklal Harbimiz II, İstanbul.
15. KAYHAN, Hüseyin (2002). "Azerbaycan Atabegleri (İldenizliler 1146-1225)", Türkler IV, Ankara. KAZIMOV, İbrahim (2007). Nahçıvan ( Ahalisi, Sosyal- İktisadi ve Siyasi Tarihine Dair 1828-1920), Nahçıvan. KÜRKÇÜOĞLU, Erol (2007). Nahçıvan Tarihi (V-XV. Yüzyıllar), Erzurum.
16. MAMMEDOV, Memmet (2009). Siyasetde Nahçıvan Dersleri, Bakü. Milliyet, 29 Mayıs, 1992
17. Ölçek, 26 Mayıs 1992, S.156
18. Ölçek, 29 Mayıs 1992, S.159
19. Osmanlı Arşiv Belgelerinde Nahçıvan, Devlet Arşivleri Genel Müdürlüğü Yayınları, İstanbul, 2011 OSTRAGORSKY Georg, Bizans Devleti Tarihi, (Çev: Fikret Işıltan), Ankara, 1991
20. Resmi Gazete 03.06.1992, Mükerrer 21247
21. Şark Kapısı, Nahçıvan Cumhuriyeti Meclisi Yayını, 28 Mayıs 1992 Serhat Kars, 18 Mart 1992
22. Serhat Kars, 21 Mayıs 1992, S.1631
23. Serhat Kars, 25 Mayıs, 1992, S.1633
24. Serhat Kars, 27 Nisan 1992, S.1614
25. Serhat Kars, 8 Nisan 1992, S. 1602

26. T.B.M.M Kanunlar Dergisi C.75
27. TANERİ Aydın, Harzemşahlar, Ankara, 1993 TÜİK'in 2007 Yılı Rufus Verileri
28. Yeşil Iğdır, 1 Haziran 1992, S.8874
29. Yeşil Iğdır, 1 Haziran 1992, S.8874
30. Yeşil Iğdır, 10 Ağustos 1992, S.8893
31. Yeşil Iğdır, 10 Haziran 1992, S.8878 Yeşil Iğdır, 13 Ağustos 1992,S.8894 Yeşil Iğdır, 13 Ağustos 1992,S.8894 Yeşil Iğdır, 15 Haziran 1992, S.8877
32. Yeşil Iğdır, 15 Haziran 1992, S.8877
33. Yeşil Iğdır, 16 Temmuz 1992, S.8886
34. Yeşil Iğdır, 24 Ağustos 1992, S.8877
35. YILMAZ, İskender (2001). Gümrü Antlaşması, Ankara.

**ABSTRACT**

**THE HASRET GATE (LONGING GATE) THE IMPORTANT TRANSITION POINT OF IĞDIR-NAHÇIVAN RELATIONS – IT'S OPENING AND THE ROLE OF TWO COUNTRIES RELATIONS**

Kars' fate, experiencing hardships during the transition period from Ottoman Empire to the Republican Era begins to change after 1923 and People's Republic Party (CHP/F) in Kars plays a major role until 1950. As for DP, which inititiates organizational efforts in 1946 in all the other cities, remains too slow in establishing its organizations in Kars. DP, which cannot join other elections held in Kars up to 1950, cannot obtain any noticeable achievement in 1950's elections. While DP proves to get the majority of the votes in several districts, it fails to have the desired result in the others. The most significant factor for this failure arises from the fact that DP cannot get organized because of the features peculiar to Kars. As for People's Republic Party (CHP/F), which determines its candidates by analyzing the public, wins the elections in Kars.

**SEVİNC ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDAKI ƏLAQƏLƏR: ALİ SƏVİYYƏLİ GÖRÜŞLƏR VƏ NAİLİYYƏTLƏR

*Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabər hüquqlu iqtisadi tərəf-müqabilidir. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir.*

**HEYDƏR ƏLİYEV**
*Azərbaycan xalqının ümummilli lideri*

**Açar sözlər:** *Naxçıvan, Türkiyə, nəqliyyat-kommunikasiya, sosyal-iqtisadi vəziyyət, Heydər Əliyev, milli maraqlar, ictimai-siyasi həyat, beynəlxalq diplomatik əlaqələr, sərhədlərin toxunulmazlığı, xarici siyasət, geostrateji mövqe*

**Key words:** *Nakhchivan, Turkey, transport and communication, socio - economic situation, Heydar Aliyev, national interests, socio - political life, international diplomatic relations, inviolability of borders, foreign policy, geostrategic position*

**Ключевые слова:** *Нахчыван, Турция, транспорт и связь, социально-экономическая ситуация, Гейдар Алиев, национальные интересы, общественно-политическая жизнь, международные дипломатические отношения, нерушимость границ, внешняя политика, геостратегическая позиция*

Dünya ölkələrinin keçdiyi tarixi təcrübə göstərir ki, hər bir dövlətin sosial-iqtisadi, siyasi, mədəni inkişafı prosesində qarşıya çıxan problemlərin uğurlu həlli müəyyən dərəcədə xarici əlaqələrin yaratdığı imkanlardan bacarıqla istifdə olunmasından asılıdır. Xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla bütün sahələrdə hərtərəfli əlaqələr yaratmadan, onların maliyyə-iqtisadi imkanlarından, siyasi-mədəni təcrübələrindən, qabaqcıl texnika, texnologiyalarından istifadə etmədən milli tərəqqiyə nail olmaq mümkün deyildir. Beynəlxalq iqtisadi əlaqələri inkişaf etdirmədən ölkənin istehsal potensialını artırmaq, xarici investisiyaları cəlb etmək mümkün deyildir. Buna görə də xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi dövlətimizin sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biridir.

Azərbaycanın beynəlxalq əlaqələrinin tədqiqi həm də tarixi təcrübəni öyrənmək baxımından aktualdır. Belə ki, hazırda Azərbaycan öz beynəlxalq münasibətlərini müstəqil surətdə həyata keçirir. Buna görə də beynəlxalq siyasətin mövcüd təcrübəsindən yararlanmağın böyük siyasi əhəmiyyəti vardır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası qədim zamanlardan şərqin qapısı kimi tanınmış, yaxın və uzaq ölkələrlə iqtisadi və mədəni əlaqələrə malik olmuş, Şərq və Qərb sivilizasiyalarını birləşdirən mənəvi körpü rolunu oynamışdır. Bir çox karvan və ticarət yolları, o cümlədən tarixi İpək yolu Naxçıvanı da əhatə etmişdi.

SSRİ-nin süqutu nəticəsində ölkəmizin beynəlxalq münasibətlər sisteminə daxil olması ilə, onun xarici dövlətlərlə əsasən Türkiyəilə iqtisadi və mədəni əlaqələrin inkişafında sərhəd bölgəsi olan Naxçıvan Muxtar Respublikasının rolunun artması üçün siyasi və iqtisadi zəmin yarandı.

Türkiyə Azərbaycanın, eyni zamanda bütün Qafqazın taleyində önəmli rolu olan üç əsas region dövlətindən (Rusiya və İranla bərabər) biridir. Hələ qədim zamanlardan bu ölkə özünün Qafqaz siyasətinə çox ciddi əhəmiyyət vermiş və bölgədə cərəyan edən hadisələrə fəal müdaxiləsi ilə seçilmişdir.

Azərbaycanla demək olar ki, birbaşa quru əlaqəsi olmayan (təcrid edilmiş Naxçıvanla əlaqə istisna olmaqla) Türkiyə yalnız Gürcüstan, Rusiya və İran vasitəsilə Qafqaza, Azərbaycana və Orta Asiyaya daxil olmaq, onlarla hərtərəfli inteqrasiyaya girmək imkanına malikdir. Rusiya və İranın Qafqazda maraqlarını və bu sahədə konkret addımlarını nəzərə alsaq, onda Türkiyə-Azərbaycan, Türkiyə-Qafqaz əlaqələrinin nə qədər çətin və mürəkkəb olduğunu müşahidə etmək olar.

Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra 1991-ci il noyabrın 9-da onu tanıyan ilk dövlət məhz Türkiyə oldu. 1992-ci ilin yanvar ayının 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradılmışdır. Həmin vaxtdan Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqust ayından isə Azərbaycanın Türkiyədə diplomatik

missiyası fəaliyyətə başlamışdır. Öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, beynəlxalq münasibətlərin fəal subyektinə çevrilən Azərbaycan Respublikasının yaxın və uzaq keçmişdəki beynəlxalq əlaqələrinin tədqiqi, bu əlaqələrin müasir və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi bu kimi elmi konfransların qarşısında duran mühüm vəzifələrdəndir.

Məlumdur ki, keçən yüzilliyin 80-ci illərinin sonlarında ermənilər tərəfindən ortaya atılan qondarma Dağlıq Qarabağ problemi ilə əlaqədar Azərbaycanda, o cümlədən onun tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyət son dərəcə kəskinləşdi. Ermənilər tərəfindən blokadaya alınan Naxçıvanın işğalı planı reallaşmağa başladı. Məhz belə bir mürəkkəb vəziyyətdə Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin taleyin hökmü ilə Naxçıvana gəlməsi və orada yaşaması bölgəni labüd işğaldan xilas etdi. Bu sahədə ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi yeritdiyi uzaqgörən xarici siyasət çərçivəsində 1992-ci ildə 4 dəfə (3 dəfə Ankaraya, 1 dəfə İqdıra), 1993-cü ildə isə 3 dəfə Türkiyə Respublikasına (İqdır, İstanbul və Ankaraya) səfəri və yaratdığı əlaqələr çox mühüm rol oynamışdır.

Belə ki, Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin əsası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, ümummilli lider Heydər Əliyevin Türkiyə Respublikasına ilk rəsmi səfəri zamanı 24 mart 1992-ci il tarixdə imzalanmış “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu” ilə qoyulmuşdur. 1992-ci il mayın 28-i Sədərək-Dilucu körpusünün açılışı ilə iki respublika arasında əlaqələri daha da inkişaf etmiş və iqtisadi blokada yarılmışdır. Sədərək-Dilucu körpüsünün rəsmi açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri Süleyman Dəmirəlin başçılığı ilə türkiyəli nazirlərdən, məmurlardan və ziyalılardan ibarət nümayəndə heyəti Naxçıvana gəlmişdir. Bu siyasətin davamı olaraq Naxçıvanda təsis edilən Türkiyə Respublikasının Baş Konsulluğu 5 fevral 1993-cü il tarixdə fəaliyyətə başlamışdır.

2018-ci il aprelində Türkiyənin Ərzurum Atatürk Universitetində keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev və Türk dünyası” adlı beynəlxalq elmi simpoziumdakı “Ulu öndər Heydər Əliyev və Türkiyə-Naxçıvan əlaqələri (1991-1993-cü illər)” mövzusunda çıxışımda, elmi araşdırmalarımın nəticəsi olaraq bu taleyüklü dövrün müasir Azərbaycan tarixindəki əhəmiyyətini ətraflı və sistemli şəkildə təhlil etdiyimdən təkrara yol verməmək üçün sonrakı dövrü - müasir inkişaf mərhələsini sistemli tədqiqata cəlb etməyi daha məqsədəuyğun hesab olar.

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının Türkiyə Cümhuriyyəti ilə xarici əlaqələri, eləcədə siyasi, sosial-iqtisadi, humanitar, elmi-texniki və mədəni sahələrdə əməkdaşlığı Naxçıvanın muxtariyyət statusunun ona verdiyi çərçivələr daxilində həyata keçirilmişdir.

1995-ci ilin sonlarından başlayaraq Türkiyə ilə Naxçıvanın siyasi, iqtisadi əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Əgər bu dövrə qədər bu əlaqələr əsasən Türkiyənin muxtar respublikaya maliyyə, ərzaq, yanacaq və digər humanitar köməyi formasında həyata keçirilirdisə, bu dövrdən başlayaraq tərəflər arasında qarşılıqlı ticarət, istehsal, bank işi, birgə müəssislərin yaradılması, idxal-ixrac formasında münasibətlər inkişaf etməyə başlayırdı. Muxtar respublikada iqtisadi islahatların həyata keçirilməsi xarici əlaqələrin inkişafına da müsbət təsir göstərdi. İqtisadiyyatın dirçəldilməsi üçün nəzərdə tutulan layihələrin həyata keçirilməsi istiqamətində xarici investisiyaların cəlb edilməsi üçün əlverişli şərait yaradılmış, istehsal edilən malların Türkiyəyə ixracı üçün konkret tədbirlər görülürdü.

1995-ci il 16 dekabr tarixində Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri seçilməsi ilə Naxçıvanın xarici dövlətlərlə, xüsusən Türkiyə ilə dostluq, mehriban qonşuluq əlaqələri xeyli genişləndi. Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanın rəhbəri işlədiyi zaman yeritdiyi uzagörən siyasətin bəhrələri daha çox duyulmağa başladı. Ali Məclisin Sədri Vasif Talıbovun qonşu dövlətlərə səfərindən sonra bu münasibətlər daha da gücləndi. Qısa müddət ərzində muxtar respublikada işgüzar mühitin yaradılması, sabitliyin bərpa edilməsi şəraitində mühüm işlər görüldü. Ali Məclisin iclaslarında iqtisadiyyatın ayrı-ayrı sahələrində vəziyyət vaxtaşırı müzakirə olunur, problemlərin həlli üçün konkret tədbirlər görülürdü.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçildikdən sonra Vasif Talıbovun ilk rəsmi səfərini 1996-cı ilin 12-17 mart tarixlərində qonşu Türkiyə Respublikasına etməsi muxtar respublikanın mövcud problemlərinin həlli istiqamətində atılmış mühüm addım oldu. Səfər müddətində naxçıvanlı qonaqların Türkiyənin ali rəhbərliyi - prezident, baş nazir tərəfindən qəbul edilməsi muxtar respublikaya olan qayğının, diqqətin əsil təzahürü oldu. Süleyman Dəmirəl Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Vasif Talıbovla görüşündə “Naxçıvanın inkişafı üçün çalışırıq. Sizin problemlər eyni zamanda bizim problemlərdir. Türkiyənin Naxçıvan MR üzərində anlaşmadan irəli gələn halları vardır. Türkiyə bünü bilir və əməl edir” sözləri, onun Ermənistanın blokadaya aldığı Naxçıvana hərtərəfli yardım göstərəcəyini vurğulaması buna əyani sübut oldu.

Naxçıvan Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin müasir inkişafına da öz töhfələrini vermişdir. 2008-ci il iyunun 4-də Prezident İlham Əliyev Türkiyə Cümhuriyyətinin baş naziri Rəcəb Tayyib Ərdoğanı Naxçıvan Muxtar Respublikası Ali Məclisində rəsmən qarşılamış, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına dair danışıqlar aparılmışdır. Rəcəb Tayyib Ərdoğan Duzdağ Fizioterapiya Mərkəzinin açılışında iştirak etmişdir.

Türkiyə Respublikası xarici işlər nazirinin dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına ikinci dəfə rəsmi səfər etmişdir. Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Respublikasının Prezidenti Abdullah Gül, Baş nazir Rəcəb Tayyib Ərdoğan, xarici işlər naziri Əhməd Davudoğlu, dövlət naziri Hayati Yazıcı və Türk Silahlı Qüvvələrinin Baş Qərargah rəisi İlker Başbuğla görüşlər keçirmişdir.

Naxçıvan Azərbaycanın ikitərəfli münasibətləri ilə birgə, beynəlxalq tədbirlərə də ev sahibliyi etmişdir. Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və xarici işlər naziri Əhməd Davudoğlunun iştirakı ilə Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısının (2009-cu il 3 oktyabr) Naxçıvanda keçirilməsi də təsadüfi deyildi. Prezident İlham Əliyev toplantıda yekun nitqində demişdir: "Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyəri-mizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir." Görüşün nəticələrinə görə "Naxçıvan Bəyannaməsi" imzalanmışdır. Görüşün ən mühüm nəticələrindən biri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması olmuşdur. 2014-cü il oktyabrın 24-də isə Naxçıvanda Şuranın III Biznes forumu keçirilmişdir. Naxçıvan siyasi-iqtisadi əlaqələr ilə eyni zamanda beynəlxalq mədəniyyət mərkəzi kimi də diqqəti cəlb edir. Bunun nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyəti paytaxtı elan edilmişdir. Prezident İlham Əliyevin 2016-cı il 2 iyun sərəncamı ilə Təşkilat Komitəsi yaradılmışdır.

7 mart 2012-ci ildə Türkiyə Respublikasının xarici işlər naziri Ə.Davudoğlu Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin üçtərəfli görüşündə iştirak etmək məqsədi ilə Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Səfər çərçivəsində Ə.Davudoğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşmüş, xarici işlər nazirləri E.Məmmədyarov və Ə.Ə.Salehi ilə birlikdə görüşün yekunlarına dair "Naxçıvan Bəyannaməsi"ni imzalamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 11-13 noyabr 2013-cü il tarixində Türkiyə Respublikasına rəsmi səfər etmiş, səfər çərçivəsində imzalanmış Birgə Bəyanatın əlavəsi olaraq "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin dərinləşməsinə dair 2014-2015-ci illər üzrə Fəaliyyət Planı" qəbul edilmişdir. Fəaliyyət Planında "Naxçıvan ilə Türkiyə arasında qarşılıqlı ticarətin asanlaşdırılması üçün zəruri tədbirlərin görülməsi", "Naxçıvana Türkiyə vasitəsilə dəmir yolu xəttinin (Qars-İğdır-Aralıq-Dilucu-Naxçıvan) inşa edilməsi məqsədilə hazırlıqların sürətləndirilməsi və 2014-cü ilin I rübündə vəziyyətə dair hesabatın və konkret iş planının hazırlanması", həmçinin "Naxçıvana Türkiyədən təbii qazın verilməsi üçün lazım olan kəmərin inşasının başa çatdırılması və istismara verilməsi ilə bağlı məsələlərin ARDNŞ ilə BOTAŞ arasında müzakirə edilməsinə başlanılması" kimi məsələlər öz əksini tapmışdır.

2016-cı il 11 martda Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Necdet Ünüvar, 2017-ci il 20 dekabrda isə Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım Naxçıvan Muxtar Respublikasına səfər etmiş və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüş keçirmişdir.

Naxçıvan-Türkiyə siyasi, iqtisadi əlaqələrinin inkişafında Türkiyənin Naxçıvandakı konsulluğu mühüm rol oynayır. Muxtar respublikada keçirilən bütün tədbirlərdə baş konsul, konsulluğun digər işçiləri yaxından iştirak edirdilər. Bu həm də Türkiyənin Azərbaycandakı səfirliyinin fəaliyyətinə aiddir. Ötən illər ərzində Türkiyə Respublikasının Azərbaycanda fəaliyyət göstərmiş fövqəladə və səlahiyyətli səfirləri Naxçıvan Muxtar Respublikasına səfərə gəlmiş və muxtar respublika ilə yaxından tanış olmuşlar. 2016-cı ilin oktyabrında təyin olunmuş yeni səfir Erkan Özoralın isə 2017-ci ilin 18 may və 20 dekabr tarixlərində Naxçıvana səfər etmişdir. Bununla yanaşı, 2018-ci il 12 sentyabrda Naxçıvana gəlmiş Türkiyə Respublikasının yeni təyin olunmuş baş konsulu Mehmet Emin Kiraz 1 oktyabr Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qəbulunda olmuşdur.

Türkiyə Respublikası İqdır Vilayətinin valisi Ənvər Ünlü 31 iyul 2017-ci il tarixdə Naxçıvan Muxtar Respublikasına rəsmi səfərə gəlmiş və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qəbul edilmişdir.

Türkiyə Respublikası Ərzurum Vilayətinin valisi Okay Memişin başçılıq etdiyi 22 nəfərdən ibarət nümayəndə heyəti 2018-ci ilin 16-18 dekabr tarixlərində Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Nümayəndə heyətinin tərkibində Şimal-Şərqi Anadolu Agentliyinin baş katibi Osman Demirdöğen, Agentliyin tanıtım və birgə əməkdaşlıq üzrə sədri Müzeyyen İnci, Ərzurum Atatürk Universitetinin rektoru Ömər Çomaklı və Universitetin Səhiyyə Tətbiqi və Araşdırma Mərkəzinin baş həkimi Ali Şahin də yer almışdır.

Səfər çərçivəsində Ərzurum Vilayətinin valisi və bir qrup heyət üzvü (6 nəfər) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qəbulunda olmuşdur. Qəbuldan sonra heyət geniş tərkibdə Naxçıvan Muxtar Respublikası səhiyyə naziri N.Novruzov, iqtisadiyyat naziri F.Seyidov, Naxçıvan Dövlət Universitetinin rektoru S.Məhərrəmov və "Naxçıvan" Universitetinin rektoru İ.Əliyev ilə görüşlər keçirmiş, Naxçıvan MR Xəstəxanası və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olmuşdur. Həmçinin, 5 nəfər heyət üzvü "Qış turizmi və regionda səhiyyə xidmətləri" mövzusuna həsr olunmuş təqdimatlarla Naxçıvan Biznes Mərkəzində aidiyyəti qurumların nümayəndələri qarşısında çıxış etmişdir.

Mövcud sabitlik şəraitində Naxçıvan MR-nın Türkiyə ilə əlaqələri yüksələn yolla inkişaf etməkdədir. Muxtar respublikanın dövlət və özəl sektorları ilə Türkiyə Cümhuriyyətinin rəsmi dairələri və iş adamları arasında davamlı münasibətlər formalaşmışdır. Bu münasibətlər Azərbaycanla Tüyrkiyə arasında möhkəm iqtisadi, siyasi, tarixi, etnik amillərlə şərtlənən və getdikcə dərinləşən inteqrasiya prosesinin tərkib hissəsidir. Türkiyənin Naxçıvanla vahid kommunikasiya və energetika sahəsinin mövcudluğu isə tərəfləri daha sıx iqtisadi məkanda birləşdirmişdir.

Azərbaycan-Türkiyə, habelə Naxçıvan-Türkiyə arasında əldə olunmuş razılaşmalar və sazişlər onlar arasnda iqtisadi və ticarət əlaqələrinin böyük perspektivlərini müəyyən etmişdi. Bunun əsasında Naxçıvan-Türkiyə əlaqələri beynəlxalq iqtisadi münasibətlərə uyğunlaşdırılmış, onun prinsipləri səviyyəsində tənzimlənməyə başlanmışdı. Belə ki, Türkiyə Respublikasının xarici ticarət üzrə dövlət naziri Zafer Çağlayanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan-Türkiyə biznes forumunda iştirak etmək məqsədilə 2010-cu il 26-27 oktyabr tarixində Naxçıvana səfər etmişdir. Biznes forumu çərçivəsində Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Azərbaycanda İnvestisiya və İxracın Təşviqi Fondu və Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası ilə Türkiyə Respublikası Xarici Əlaqələr Qurumu Türk-Azərbaycan Şurası arasında İş Birliyi haqqında Niyyət Protokolu imzalanmış, iş adamları arasında ikitərəfli görüşlər keçirilmişdir. 2012-ci il oktyabr 10-14-də Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş "16-cı Beynəlxalq İş Forumu (İBF) Konqresi" və "14-cü MÜSİAD Beynəlxalq Ticarət Sərgisi"ndə muxtar respublikadan 6 nəfərdən ibarət nümayəndə heyəti iştirak etmişdir.

Sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə Türkiyə Respublikasının İstanbul şəhərində 19 fevral 2014-cü il tarixdə keçirilmiş "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) Ölkələrinin Biznes Forumu"nda muxtar respublikadan "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının İstanbul ofisinin rəhbəri və "Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqının İstanbul ofisinin nümayəndəsi iştirak etmişdir.

Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında ticarətin inkişaf etdirilməsi məqsədilə Türkiyə Respublikasının İqtisadiyyat Nazirliyinin İxracat İdarəsinin rəisi Tayfur Kılıçın rəhbərliyi ilə Nazirliyinin səlahiyyətli şəxslərindən ibarət nümayəndə heyəti 2017-ci il 16-17 yanvar tarixində muxtar respublikaya səfər etmişdir. Səfər şərçivəsində Naxçıvan Muxtar Respublikasının aparıcı sənaye-istehsal müəssisələri ilə tanış olan nümayəndə heyəti muxtar respublikanın iqtisadiyyat naziri və naxçıvanlı sahibkarlarla görüş keçirərək, istehsal olunan məhsulların Türkiyəyə ixrac olunması imkanları ilə bağlı fikir mübadiləsi aparmışdır.

17 fevral 2017-ci il tarixdə İstanbul şəhərində keçirilmiş "Türkiyə-Azərbaycan-Gürcüstan Biznes Forumu"nda "Naxçıvan Məhsulları" MMC, "Ləzzət Qida Sənaye" MMC, "Şərur-3" MMC, Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqının direktorları və "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının İstanbul ofisinin rəhbəri də iştirak etmişdir.

Türkiyə Respublikasının İqdır şəhərində 28 oktyabr 2017-ci il tarixdə Türkiyə-Azərbaycan Biznes Forumu keçirilmişdir. Forumda Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov, Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim, Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu Nuru Quliyev və muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı 19 istehsalçı sahibkarlıq subyektindən ibarət nümayəndə heyəti iştirak etmişdir. Türkiyə Respublikasının nümayəndə heyətinə isə iqtisadiyyat naziri Nihat Zeybekçi rəhbərlik etmişdir.

Türkiyə Respublikasının İstanbul şəhərində 30 oktyabr-03 noyabr 2017-ci il tarixlərdə "İxracat Həftəsi-2017" adlı sərgi təşkil olunmuşdur. İnvestisiya, istehsal və ixracın iqtisadiyyatdakı əhəmiyyətinə diqqətin artırılması məqsədilə keçirilən sərgidə Türkiyənin yerli şirkət sahibləri ilə yanaşı, muxtar respublikanın da bir sıra sahibkarları iştirak etmişdir.

24-26 oktyabr 2018-ci il tarixlərdə, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən və Türkiyənin tətbiq etdiyi güzəştli ixrac rejimi çərçivəsində həmin ölkəyə məhsul ixrac etmə potensialı olan 19 sahibkarlıq subyektinin nümayəndəsi və İqtisadiyyat Nazirliyinin şöbə müdirinin iştirakı ilə İstanbul şəhərində İxrac missiyası təşkil olunmuşdur.

Türkiyənin İstanbul şəhərində 20-24 noyabr 2018-ci il tarixlərdə keçirilən XVII MÜSİAD EXPO Beynəlxalq sərgisində muxtar respublikada fəaliyyət göstərən "Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqının və "Az-Elektrod" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndələri də iştirak etmişdir.

19 oktyabr 2015-ci il tarixdə Türkiyənin Dilucu Gömrük Keçid Məntəqəsinin yeni inzibati binasının açılış mərasimi keçirilmişdir. Türkiyənin gömrük və ticarət nazirinin iştirak etdiyi mərasimdə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri və onun müavini də iştirak etmişdir.

31 may 2017-ci il tarixdə Azərbaycan və Türkiyə Gömrük xidmətlərinin əməkdaşları arasında hüquqpozmalara qarşı mübarizədə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi mövzusunda Naxçıvan şəhərində işgüzar görüş keçirilmişdir. Görüşdə, hüquqpozmalara qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq, qaçaqmalçılıqla birgə mübarizə, məlumat mübadiləsi, risk analizi, seminar və kursların təşkili və digər məsələlər müzakirə edilmiş və bu sahədə işlərin icrası üçün məsul şəxslər müəyyənləşdirilmişdir

Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq, energetika, nəqliyyat-kommunikasiya, səhiyyə, gömrük-keçid və sair məsələlərə dair bir sıra saziş və protokollar imzalanmışdır.

Mədəni əlaqələr xalqlar və dövlətlər arasında əməkdaşlığın ən mühüm formalarından biri, ölkənin xarici siyasətinin tərkib hissəsidir. Mədəni əlaqələr xalqların bir-birinə yaxınlaşmasına, qarşılıqlı anlaşmaya, həmrəyliyin möhkəmləndirilməsinə, sülh və sosial tərəqqiyə xidmət edir.

Azərbaycan müstəqillik qazandıqdan sonra xarici dövlətlərlə, xüsusən etnik, dini, mədəni cəhətdən yaxın olan ölkələrlə, birinci növbədə Türkiyə və İranla başqa sahələrdə olduğu kimi mədəni əməkdaşlıq sahəsində də münasibətlərin inkişaf etdirilməsi üçün geniş imkanlar açılmışdı [40, s. 161-162].

Azərbaycanın Türkiyə ilə hərtərəfli əlaqələrinin möhkəmləndirilməsi, həm də Naxçıvan MR-nın mədəni əlaqələrinin inkişafı üçün perspektivlər yaranmışdı. Naxçıvanın Türkiyə ilə siyasi-iqtisadi əlaqələrinin təşəkkül tapması, birbaşa nəqliyyat, kommunikasiya əlaqələrinin yaranması öz növbəsində muxtar respublikaya qonşu və dost dövlətlə, mədəniyyət, elm, təhsil və başqa humanitar sahələrdə də münasibətlər yaratmağa şərait yaratmışdı.

Təhsil sahəsində iki ölkə arasındakı əlaqələr çərçivəsində Naxçıvan Dövlət Universiteti (NDU) ilə Türkiyənin Ərzincan, Pamukkale, Trakya, Sakarya, Adıyaman, Giresun, Gümüşhanə, Mersin, Dicle, Ərciyəz və bir çox digər universitetləri arasında əməkdaşlıq sahəsində bir sıra müqavilələr imzalanmışdır. Bundan əlavə Mövlana proqramı çərçivəsində NDU Türkiyənin 40-a yaxın Universiteti ilə tələbə və müəllim mobilliyi sahəsində əməkdaşlıq müqaviləsi imzalamışdır. Müqavilə əsasında NDU-nun tələbə və müəllim heyəti Türkiyənin bir çox universitetlərində tədris və təhsillərini davam etdirmişdir. 2016-2017-ci tədris ili üzrə NDU-da 208 nəfər (191 nəfər bakalavr, 3 nəfər magistr, 1 nəfər doktorant və 13 nəfər hazırlıq kurslarında) Türkiyə Respublikası vətəndaşı müxtəlif ixtisaslar üzrə təhsil almışdır.

Türkiyənin İqdır Universitetinin rektoru, professor Mehmed Hakkı Alma 2017-ci il 28 aprel tarixdə Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində "Naxçıvan" Universitetində olmuş və Universitetin rektoru professor İsmayıl Əliyev ilə görüşmüşdür. Görüşdə elmi-tədqiqat sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, birgə əməkdaşlıq imkanları, ikili diplom və müəllim-tələbə mübadiləsi barədə müzakirələr aparılmışdır.

Eyni zamanda NDU-nun təmsilçiləri xarici ölkənin elm və təhsil müəssisələri ilə qarşılıqlı elmi konfrans və seminarların təşkili, birgə elmi tədqiqatların aparılması sahəsində kifayət qədər təcrübə toplamışdılar. NDU-nun əlaqələrinin genişlənməsi, yeni məzmun və əhəmiyyət kəsb etməsi bu təhsil ocağını nəinki Türkiyədə, eləcədə dünyanın digər ölkələrində tanıtdırmışdı. Xüsusən Universitetin "Erasmus+" layihəsində iştirakı onun beynəlxalq əlaqələrin inkişafında mühüm mərhələ olmuşdu. Belə ki, Türkiyənin Çankırı Karatekin Universitetindən 20 nəfərdən ibarət nümayəndə heyəti 2017-ci il 20-24 noyabr tarixində "Erasmus+" layihəsinin müəllim mübadiləsi proqramı çərçivəsində Naxçıvan Muxtar Respubliksına səfər etmiş, Naxçıvan Dövlət Universitetində ixtisaslaşmış bölmələrdə dərs və təlimlər keçmişlər. Müvafiq olaraq 2018-ci ilin 26 fevral-3 mart tarixlərində isə Naxçıvan Dövlət Universitetinin 13 nəfərdən ibarət müəllim-işçi heyəti layihəsi çərçivəsində Türkiyənin Çankırı Karatekin Universitetində mübadilə proqramında iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında elmi sahədə əməkdaşlıq əlaqələrin mühüm istiqamətlərindən biri olmuşdur. Bu istiqamətlərdə Türkiyə Respublikası ilə əlaqələrin genişləndirilməsində Naxçıvan Dövlət Universiteti mühüm rol oynayır. Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Sevinc Abbasova 2015-ci ildə Türkiyənin İstanbul Aydın Universiteti Türkiyə Araştırmaları Mərkəzində "Qloballaşan dünyada qadın və siyasət" adlı beynəlxalq elmi konfransda "Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu kontekstində dövlət qadın siyasətinin institusional əsaslarının formalaşması (1998-2003-cü illər)" və "Azərbaycan Respublikasının hüquqi məcəllələrinin gender aspektləri" mövzusunda çıxış etmişdir.

Türkiyə Respublikasının Muğla Sıtkı Koçman Universitetində 2017-ci il 12 oktyabr tarixdə keçirilən "Turizm və mədəni miras" adlı beynəlxalq konqresdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Naxçıvan turizmi və mədəniyyət abidələri: Qarabağlar türbəsi" mövzusunda çıxış etmişdir.

EURAS-ın Türkiyədə 2018-ci ilin fevral ayında keçirilmiş konfransında Naxçıvan Dövlət Universitetinin rektoru S.Məhərrəmov və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri M.Məmmədova iştirak etmiş, mart-may aylarında isə Mövlana proqramı çərçivəsində Türkiyənin bir sıra universitetləri ilə müqavilələr imzalanmışdır. Həmçinin, aprelin 13-14-də Türkiyənin Ərzurum Atatürk Universitetində keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Türk dünyası" adlı beynəlxalq elmi simpoziumda Naxçıvan Dövlət Universitetinin rektoru S.Məhərrəmov və "Azərbaycan tarixi" kafedrasının dosenti S.Abbasova da çıxış etmişdir.

Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunda 2018-ci il aprelin 27-də İstanbul Universitetinin müəllimi xanım Gözde Sazak tərəfindən AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşlarının iştirakı ilə "Tarixdə və günümüzdə türk qadını" mövzusuna həsr olunmuş konfrans keçirilmişdir. 19 iyun tarixində isə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü və Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi münasibətilə konfrans keçirilmişdir. Baş Konsulluğun inzibati binasında təşkil olunan konfransda Türkiyə Respublikasının İqdır Universitetinin Tarix fakultəsinin dekanı C.Atlı və Harran Universitetinin İqtisadiyyat fakultəsinin müəllimi Z.M.Sakarın məruzələri dinlənilmişdir.

2018-ci il iyun ayının 29-da Naxçıvan Muxtar Respublikasının və Türkiyə Respublikasının ali təhsil müəssisələrinin, eləcə də AMEA Naxçıvan Bölməsinin nümayəndələrinin iştirakı ilə "Naxçıvan" Universitetinin ev sahibliyi etdiyi III Beynəlxalq Gənclik Araşdırmaları Konqresində iştirak edən türkiyəli nümayəndə heyəti Naxçıvan Dövlət Universitetinə gələrək rektor S.Məhərrəmovla görüşmüş və Universitetlə tanış olmuşlar.

Naxçıvan Muxtar Respublikasının və Türkiyə Respublikası ilə əlaqələri həm də mədəni kütləvi tədbirlərin həyata keçirilməsi yolu ilə genişlənir. Bu istiqamətdə Naxçıvanın mədəniyyət kollektivlərinin, incəsənət ustalarının xarici ölkədəki tədbirlərdə iştirakı, xarici ölkənin mədəniyyət xadimlərinin Naxçıvana səfərləri mühüm rol oynamışdır. Türkiyə Respublikasının Kastamonu şəhərinin 2018-ci ildə Türk dünyasının mədəniyyət paytaxtı olması ilə əlaqədar 21-26 mart tarixlərində keçirilən rəsmi açılış mərasimi və Beynəlxalq Türk Mədəniyyət Təşkilatının (TÜRKSOY) təşəbbüsü ilə təşkil edilən Novruz bayramı şənlikləri çərçivəsində Şərur Xalq Yallı Ansamblı Kastamonu, Ankara və İstanbul şəhərlərində keçirilən tədbirlərdə iştirak edərək muxtar respublikanı, ölkəmizi layiqincə təmsil etmişdir. Bunanla yanaşı, may ayının 3-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Sarayında keçirilən konsert proqramında Türkiyə Respublikasının Bursa Dövlət Simfonik Orkestri iştirak etmişdir.

Xalqlar arasında qarşılıqlı etimadın gücləndirilməsində, mədəni yaxınlaşmada idman sahəsindəki əlaqələr də mühüm rol oynayır. Naxçıvan MR-nın zəngin təbiəti, qədim tarixi abidələri burada ekstremal idman növlərinin inkişaf perspektivlərinin yüksək olduğunu göstərir. Türkiyənin "İskəndər İqdır Ağrı Dağı Dağçılıq və Təbiət İdmanları Klubu"nun 26 nəfərdən ibarət həvəskar alpinist qrupu 2018-ci il 23-25 fevral tarixlərində Naxçıvan Muxtar Respublikasında səfərdə olaraq, muxtar respublikanın Hava və Ekstremal İdman Növləri Federasiyasının "İlandağ" İdman Klubunun 11 üzvü ilə birlikdə Xocalı soyqırımının 26-cı ildönümünün anılması məqsədilə İlandağa qalxmışdır. Bu hadisə yerli və türk mətbuatında geniş şəkildə işıqlandırılmışdır.

2018-ci il 1 avqustda Türkiyə Respublikasının Ankara şəhərində keçirilən "Ankara Çubuk" IV Beynəlxalq Şahmat Festivalında, 14 avqustda Malatya şəhərində keçirilən şahmat üzrə 6-cı beynəlxalq "Qızıl ərik" şahmat festivalında Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının şahmatçıları da iştirak etmişdir. Həmçinin, 14 avqust tarixdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri Türkiyənin Samsun şəhərində cüdo üzrə keçirilən beynəlxalq turnirdə iştirak etmişdir.

Naxçıvan Ermənistan silahlı qüvvələrinin işğalından azad edilmiş Naxçıvan Muxtar Respublikasının Günnüt kəndi bölgənin həyatında mühüm hadisə oldu. 2018-ci ilin iyun ayınında Türkiyənin ingilis dilində yayımlanan beynəlxalq xəbər kanalı – "TRT World"də işğaldan azad edilmiş Günnüt kəndi ilə bağlı geniş reportajın yayımlanması muxtar respublikanın beynəlxalq əlaqələrinin coğrafiyasını genişləndiyini göstərməklə yanaşı, Naxçıvan haqqında əsil həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynamışdı.

Türkiyə Jurnalistləri Konfederasiyasının sədr müavini, Şərqi Anadolu Jurnalistlər Federasiyasının rəhbəri Firudin Fazil Özsoyun rəhbərlik etdiyi jurnalistlərdən ibarət nümayəndə heyəti 19 oktyabr 2018-ci il tarixdə Naxçıvan Muxtar Respublikasına birgünlük səfər etmişdir. Səfər çərçivəsində F.F.Özsoy Naxçıvan Muxtar Respublikası Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri və Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri ilə görüşlər keçirmişdir. Qonaqlar, həmçinin Naxçıvan Dövlət Televiziya və Radiosu, Şərq qapısı qəzeti, Naxçıvan Dövlət Universitetinin televiziya və radiosunun imkanları ilə tanış olmuşdur.

Əlbəttə, Naxçıvanın yaşadığı sosial-iqtisadi şərait, iqtisadi blokada, komunikasiya və nəqliyyat əlaqələrinin məhdudluğu onun iqtisadi-ticarət əlaqələrinə təsir göstərdiyi kimi, mədəni əlaqələrininn inkişafına da ciddi məneələr yaradır. Lakin buna baxmayaraq əsasını ulu öndər Heydər Əliyevin qoyduğu Naxçıvan Muxtar Respublikasının xarici, iqtisadi, mədəni, elmi əlaqələri bu gün daha yeni istiqamətlərdə genişlənib inkişaf etmiş və etməkdədir.

Beləliklə, müasir dövrdə muxtar respublikanın beynəlxalq əlaqələrinin inkişafının təhlili belə bir nəticəyə gəlməyə imkan vermişdir ki, bu əlaqələr regionun sosial-iqtisadi inkişafının ən zəruri şərtlərindən biri olmuşdur. Buna görə də hazırda muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının sürətləndirilməsi üçün, regionun coğrafi şəraitindən, xarici əlaqələrinin yaratdığı imkanlardan maksimum istifadə edilir. Naxçıvan MR-nın sosial-iqtisadi, mədəni inkişafında, blokada şəraitində yaşamasına baxmayaraq bütün sahələrdə uğurlu islahatların aparılmasında onun Türkiyə ilə siyasi, iqtisadi və mədəni əlaqələrinin mühüm əhəmiyyəti olmuşdur.

## ƏDƏBİYYAT


6. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasıın ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011,272 s.
7. Həbibbəyli İ.Ə. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan // Heydər Əliyev və Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı: 2006, s.480-489.
8. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004,472 s.
9. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlonmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.
10. Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, 848 s.
11. Məmmədov V. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, 208 s.
12. SəmədovA. Azərbaycanın qurtuluş tarixi. Dörd cilddə. I cild. Bakı: Ozan, 2004,536 s.
13. Şabanov M.S. Azərbaycan tarixində Heydər Əliyev mərhələsi. Bakı: Nurlan, 2005, 336 s.


## ABSTRACT

## RELATIONS BETWEEN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AND TURKISH REPUBLIC: HIGH LEVEL MEETINGS AND ACHIEVEMENTS


Investigation of international relations of Azerbaijan is also actual in terms of historical experience. While Azerbaijan is currently implementing its international relations independently. Therefore, the use of existing experience of international politics has great political significance.

After regaining its independence, the first state that recognized it on 9 November 1991 was Turkey.

On January 14, 1992 diplomatic relations between Azerbaijan and Turkey were established. Since that time Turkey has been operating in Azerbaijan, and since August 1992, Azerbaijan has started its diplomatic mission in Turkey. Investigating the international relations of the Republic of Azerbaijan in the near and distant future, as well as identifying the modern and future development perspectives of the Republic of Azerbaijan, which are actively involved in the activities of international relations, is one of the important tasks faced by such scientific conferences.


## РЕЗЮМЕ

## ОТНОШЕНИЯ МЕЖДУ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКОЙ И ТУРЕЦКОЙ РЕСПУБЛИКОЙ: ВСТРЕЧИ И ДОСТИЖЕНИЯ НА ВЫСОКОМ УРОВНЕ


Исследование международных отношений Азербайджана также актуально с точки зрения исторического опыта. Пока Азербайджан в настоящее время осуществляет свои международные отношения самостоятельно. Поэтому использование имеющегося опыта международной политики имеет большое политическое значение.

После восстановления независимости первым государством, которое признало его 9 ноября 1991 года, была Турция.

14 января 1992 года были установлены дипломатические отношения между Азербайджаном и Турцией. С того времени Турция действует в Азербайджане, а с августа 1992 года Азербайджан начал свою дипломатическую миссию в Турции. Исследование международных отношений Азербайджанской Республики в ближайшем и отдаленном будущем, а также определение современных и будущих перспектив развития Азербайджанской Республики, которые активно участвуют в деятельности международных отношений, является одной из важных задач, стоящих перед такими научными конференциями.

**SEYMUR TALIBOV**
*Naxçıvan Dövlət Universiteti*

## ENERJİ TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TÜRKİYƏ RESPUBLİKASI İLƏ ƏMƏKDAŞLIĞI

**Açar sözlər**: *Enerji təhlükəsizliyi, elektrik enerjisi, təbii qaz, regional əməkdaşlıq, enerji resursları, müqavilə, memorandum*

**Key words**: *energy security, electric energy, natural gas, regional cooperation, energy resources, contract, memorandum*

**Ключевые слова:** *энергетическая безопасность, электроэнергия, природный газ, региональное сотрудничество, энергетические ресурсы, договор, меморандум.*

Azərbaycan Respublikasının qonşu dövlətlərlə regional enerji təhlükəsizlik strategiyasının bir istiqamətini də məhz Naxçıvanın enerji təhlükəsizliyi məsələləri təşkil edir. Bu məsələ üzrə beynəlxalq hüquqi əməkdaşlığın tarixi 1992-ci ilə təsadüf edir. Naxçıvan Muxtar Respublikasının avtonom vəziyyəti onun enerji təminatında beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirməsini tələb edir. Bu mənada region dövlətlərindən olan Türkiyə ilə enerji resurslarının, o cümlədən elektrik enerjisinin mübadiləsi, ötürülməsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə enerji resursları sahəsində beynəlxalq əməkdaşlıq əlaqələrində Naxçıvan Muxtar Respublikasının xüsusi yeri vardır. Türkiyə ilə qaz sənayesində əməkdaşlıq əsasən investisiya qoyuluşu formasında təmin edilməkdədir.

Öncə də qeyd etdiyimiz kimi, region dövlətləri ilə Naxçıvan Muxtar Respublikası arasında ümumi xarakterli beynəlxalq hüquqi əməkdaşlığın əsası Ümummilli Lider H.Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri olarkən qoyulmuşdur. O dövrdə Ümummilli Lider Naxçıvanı blokadadan çıxarmaq üçün ciddi tədbirlər görmüş, həm Türkiyə, həm də İranla əlaqələrin qurulub, inkişaf etdirilməsində Azərbaycan Respublikası qanunvericiliyi çərçivəsində fövqəladə fəaliyyəti həyata keçirməli olmuşdur. Sonradan AR Konstitusiyası-nın 136-cı maddəsində ifadə edilən «Naxçıvan MR-in ali vəzifəli şəxsi kimi Naxçıvan Ali Məclisinin sədri» olaraq H.Əliyev Naxçıvanın sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə müvafiq əməkdaşlıq Protokolları imzalamışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda mənalı və keşməkeşli həyatının çətin və şərəfli bir mərhələsini yaşadı. Ermənistan tərəfinin ərazi iddiaları zəminində Naxçıvana ardıcıl olaraq hərbi həmlələr etməsi, regionun düşmənlə döyüşdə şəhidlər verməsi də çətinliklərin miqyasını genişləndirirdi. Buna baxmayaraq, təcrübəli dövlət xadimi bütün çətinliklərin real çıxış yollarını müəyyən edib, yaranmış böhranı aradan qaldırmaq üçün qəti qərarlar qəbul etməyi bacardı (3). Ümummilli lider region dövlətləri başçıları ilə danışıqlar apararaq iqtisadi siyasi çətinliyi aradan qaldırdı, sıxıntıya salınmış camaatın elektrik təminatını yaxşılaşdırdı. Ermənistan tərəfindən elektrik enerjisinin kəsilməsi ilə əlaqədar yaranmış böyük çətinliklər qısa vaxtda Türkiyənin İğdır bölgəsindən çəkilmiş və Sədərək üzərindən Naxçıvan şəbəkəsinə birləşdirilmiş elektrik cərəyanının muxtar respublikanın rayonlarına çatdırılması ilə aradan qaldırıldı.

Muxtar Respublikanın tamamilə qazlaşdırılması 3 mərhələdə nəzərdə tutulmuş və həyata keçirilmişdir. Birinci mərhələdə Naxçıvan şəhəri və rayon mərkəzləri, ikinci mərhələdə əvvəllər qaz xətti mövcud olmuş bütün yaşayış məntəqələri, sonuncu mərhələdə isə ümumiyyətlə indiyədək qaz xətləri çəkilməmiş kəndlər qazlaşdırılmışdır.

Naxçıvan Muxtar Respublikasının energetika sisteminin formalaşmasında və onun (beynəlxalq) regional xarakter kəsb etməsində Türkiyə Respublikası ilə əməkdaşlıq mühüm rol oynamaqdadır.

Ordubad rayonunda "Tivi" Su Elektrik Stansiyasının tikintisi üçün Türkiyə şirkətləri ilə də müqavilələr bağlanmışdır. 2007-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri Ordubad rayonundakı Gilançay üzərində Biləv və Tivi kanal tipli Su Elektrik Stansiyalarının tikilməsi məqsədilə Türkiyə Respublikasının müvafiq şirkətlərin rəhbərləri ilə danışıqlar aparmış və müqavilə bağlamışdır.

8 avqust 2009-cu il tarixdə Türkiyə Respublikası enerji və təbii ehtiyatlar naziriliyinin nümayəndə heyəti Naxçıvanda səfərdə olmuşdur. Nümayəndə heyətinin tərkibində Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri və Türkiyənin BOTAŞ şirkətinin baş direktoru da yer

almışdır. Səfər çərçivəsində nümayəndə heyəti Naxçıvan MR Ali Məclisinin Sədri V.Talıbovla görüşmüşdür. Həmçinin, Türkiyəyə satılan Azərbaycan qazının həcmi və qiyməti ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və BOTAŞ arasında aparılan danışıqların növbəti mərhələsi çərçivəsində Naxçıvanda enerji mübadiləsi ilə əlaqədar niyyət protokolu imzalanmışdır.

Ümumilikdə, Muxtar Respublikaya təbii qazın verilməsi yeni elektrik stansiyalarının işə salınmasına səbəb olmuş, Naxçıvan Qaz Turbin Elektrik Stansiyasında turbinlərin qazla işləmə rejiminə keçirilməsi nəticəsində burada enerji istehsal etmək imkanları yaranmışdır.

Azərbaycan Pespublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramında qeyd edilir ki, Naxçıvan Muxtar Respublikası enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, orta, kiçik, mikro su elektrik stansiyalarının ilk növbədə Naxçıvan Muxtar Respublikasında tikilməsi daha məqsədəuyğundur. Bu işin təşviqi olaraq bərpa olunan enerji mənbələrinin hasilatı üçün texnoloji avadanlığın istehsalı Naxçıvan Muxtar Respublikasında qurulmalıdır.

Türkiyə Respublikasında fəaliyyət göstərən elektrik stansiyalarının tikintisi ilə məşğul olan şirkət rəhbərlərinin 2004-cü ildə Naxçıvana səfəri zamanı Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri V.Talıbovla keçirilmiş görüşdə, H.Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 MVt olan Su Elektrik Stansiyasının tikintisinə dair Naxçıvan Muxtar Respublikası hökuməti ilə müqavilə bağlanmışdır. Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə Su Elektrik Stansiyası tikilərək istifadəyə verilmişdir. 2010-cu ilin oktyabr ayında orta illik enerji istehsalı 80 milyon kVt/saat olan Biləv su elektrik stansiyasının tikintisi başa çatdırılmışdır.

2012-ci il ərzində Muxtar Respublikanın elektrik şəbəkələrinə 789558824 kvt.saat elektrik enerjisi daxil olmuşdur. Bunun 12875860 kvt.saatı Türkiyə Respublikasından, 60307000 kvt.saatı İran İslam Respublikasından alınmış, 77229600 kvt.saatı Araz Su Elektrik Stansiyasında, 560521000 kvt.saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 18333263 kvt.saatı Naxçıvan Qaz Turbin Elektrik Stansiyasında, 11752701 kvt.saatı H.Əliyev Su Anbarı üzərindəki Su Elektrik Stansiyasında, 48539400 kvt.saatı Biləv Su Elektrik Stansiyasında istehsal edilmişdir. Türkiyə Respublikasına 277434930 kvt.saat, İran İslam Respublikasına 61768000 kvt.saat elektrik enerjisi ötürülmüşdür. 2012-ci il ərzində Muxtar Respublikanın elektrik stansiyalarında cəmi 716375964 kvt.saat elektrik enerjisi istehsal edilib, elektrik şəbəkələrinə ötürülmüşdür, bunun 137521701 kvt.saatı və ya 19,2%-i su elektrik stansiyalarında istehsal olunmuşdur.(4-207,208)

Xüsusilə son illər istifadəyə verilən yeni su elektrik stansiyaları tələbatın dayanıqlı şəkildə ödənilməsində və ixrac imkanlarının yaranmasında mühüm əhəmiyyətə malikdir. Belə ki, ölkə Prezidentinin iştirakı ilə Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqavat olan yeni su elektrik stansiyası, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Azərbaycanda ilk derivasiyatipli 22 meqavat güclü Biləv Su Elektrik Stansiyası, 20,5 meqavat güclü “Arpaçay-1” və 1,4 meqavat güclü “Arpaçay-2” Su Elektrik stansiyaları, 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması Naxçıvanın etibarlı enerji təminatına səbəb olub. Hazırda muxtar respublikadakı 8 elektrik stansiyasının ümumi gücü 239,4 meqavatdır.

Muxtar Respublikada 87 meqavat elektrik enerjisi istehsal etmək gücünə malik 10 moduldan ibarət elektrik stansiyası çox qısa müddətə tikilərək istifadəyə verilmişdir. Həmçinin Muxtar Respublika ərazisində mövcud alternativ enerji mənbələrindən istifadə istiqamətində də tədbirlər davam etdirilmişdir. Belə bir tədbirlərin biri Ordubad Su Elektrik stansiyasının inşası ilə bağlıdır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 yanvar 2017-ci ildə Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib. Bu elektrik stansiyasının gücü 36 meqavat gücündə olacaq. Stansiya derivasiya tiplidir və Araz çayı üzərində yerləşdiriləcək. Stansiya üçün tutumu 1,5 mln. kubmetr olan su anbarı inşa ediləcək. Hidroqovşağın əsas qurğularının tərkibinə elektrik stansiyası, tənzimləyici bənd, suqəbuledici qurğu,çökəltmə hovuzu, derivasiya kanalı, yükləmə yovuzu daxildir. Stansiyada hər birinin gücü 12 meqavat olan 3 aqreqat quraşdırılacaq. Belə stansiyaların istifadəyə verilməsi Azərbaycanda, o cümlədən Naxçıvanda həyata keçirilən sosial-iqtisadi siyasətin uğurla davam etdiyini bir daha əyani subut edir. Bu cür layihələrin icrası həm də Azərbaycanda alternativ və bərpaolunan enerjidən istifadənin geniş tətbiqi üçün hərtərəfli imkanlar yaradır. (1)

Dünyada karbohidrogen mənşəli enerji ehtiyatlarının getdikcə azalması və onların qeyri-bərabər paylanması hazırda ölkələr qarşısında alternativ enerji mənbələri əldə etmək zərurətini qlobal məsələyə çevirib. Çünki dünya təcrübəsi də göstərir ki, enerji asılılığı iqtisadi və milli təhlükəsizlik məsələlərinə birbaşa təsir edən, eyni zamanda bir ölkənin müstəqilliyini təhdid altına alacaq güclü rıçaq hesab olunur. Bu mənada, qlobal gücləri güclü edən əsas vasitənin də enerji ehtiyatı olduğu bir daha öz təsdiqini tapır. Məhz bu baxımdan son illərdə ölkəmizdə, eləcə də muxtar respublikamızda alternativ və bərpaolunan enerji mənbələrindən maksimum istifadəyə hesablanmış mühüm layihələrin həyata keçirilməsi böyük əhəmiyyəti ilə seçilir.

Nəzərə alaq ki, Naxçıvan Muxtar Respublikasının əlverişli iqlim şəraiti və coğrafi mövqeyi ekoloji cəhətdən təmiz, alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Ötən dövrdə belə mənbələrdən istifadə energetika sektorunda davamlı inkişafı təmin edib, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə sahəsində müasir infrastruktur yaradılıb. Görülmüş işlərin nəticəsidir ki, bu gün muxtar respublikada Günəş və Su Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ümumi istehsalın 70 faizindən çoxunu təşkil edir. Bununla yanaşı, diyarımızda yeni elektrik stansiyalarının tikintisi və layihələndirilməsi işləri davam etdirilir. Belə ki, hazırda 36 meqavatlıq derivasiyatipli Ordubad Su Elektrik Stansiyasında tikinti işləri davam etdirilir, gücü 14 meqavat olan Tivi Su Elektrik Stansiyası və 3,5 meqavat olan Qazançı Su Elektrik Stansiyasının tikintisinin texniki-iqtisadi əsaslandırılması, Naxçıvan Günəş Elektrik Stansiyasının genişləndirilərək gücünün 30 meqavata qədər artırılması üçün layihə işləri hazırlanır. Culfa rayonunda isə gələcəkdə külək elektrik stansiyası tikintisinin texniki iqtisadi əsaslandırılması üçün ölçü qurğuları quraşdırılıb.

Yuxarıda da qeyd etdiyimiz kimi, muxtar respublikanın enerji təhlükəsizliyi ölkə başçısının daim diqqət göstərdiyi məsələlərdən biri olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanda enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər barədə demişdir: "Naxçıvanın enerji təhlükəsizliyi təmin edilir. Son illərdə bir neçə stansiya tikilmişdir. 2010-cu ildə Biləv Su Elektrik stansiyasının açılışını qeyd etmişdik, 2014-cü ildə Arpacay Su Elektrik Stansiyasının, 2015-ci ildə Günəş Elektrik Stansiyasının açılışları olmuşdur. Bunlardan əvvəl isə Naxçıvan Qaz-Trubin Elektrik Stansiyası istifadəyə verilmişdir. Yəni respublikanın enerji potensialının möhkəmləndirilməsi işində çox böyük addımlar atılmış və enerji təhlükəsizliyi tam təmin edilmişdir "(5).

Dövlət başçısının da qeyd etdiyi kimi, artıq qədim diyarda Naxçıvanın artan sənaye potensialını təmin edəcək güclü elektrik təsərrüfatı yaradılır. Bu fikirlər bir daha təsdiq edir ki, həqiqətən də, enerji təhlükəsizliyi iqtisadi inkişafın əsas şərtidir. Çünki enerji mənbələri olmadan heç bir sahəni inkişaf etdirmək, deməli, həm də davamlı iqtisadi inkişafı təmin etmək mümkün deyil. Muxtar respublikada bərpaolunan enerji mənbələrinin sayının artması və yaxın gələcəkdə enerji təminatının 100 faiz bu yolla ödənilməsi məhz muxtar respublika iqtisadiyyatının dayanıqlılığını şərtləndirən ən mühüm amil olacaq.

Ali Məclisin Sədri V. Talıbov Muxtar Respublikada su elektrik stansiyalarının tikintisi ilə bağlı demişdir ki, "Muxtar respublikada SES-lər istismara verildikdən sonra muxtar respublikanın enerjiyə olan tələbatının əsas hissəsi su elektrik stansiyaların hesabına ödəniləcəkdir. Bu da muxtar respublikanın energetika sisteminin imkanlarının genişlənməsinə, ucuz elektrik enerjisi istehsalının artırılmasına və vəsaitə qənaət olunmasına imkan verəcəkdir. Əldə olunan vəsait energetika sahəsinin maddi-texniki bazasının gücləndirilməsinə, bu sahədə çalışanların rifah halının yaxşılaşdırılmasına sərf ediləcəkdir".

Ali Məclisin Sədri milli təhlükəsizliyin əsas təminat ünsürü olan enerji təhlükəsizliyini xarakterizə edərkən daha sonra qeyd etmişdir ki, "Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar Respublikada yeni elektrik stansitaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən Muxtar Respublikadan elektrik enerjisi ixrac edən Muxtar Respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".

Elektrik enerjisi sektorunda həyata keçirilən bu tədbirlər Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinə, istehsalat və xidmət sahələrinin sabit enerji ilə təminatının yaxşılaşdırılmasına mühüm töhfədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işləri yüksək qiymətləndirərək demişdir: "Enerji potensialı və enerji təhlükəsizliyi Naxçıvan üçün xüsusi əhəmiyyət daşıyır. Çünki ölkəmizin əsas hissəsi ilə Naxçıvanın coğrafi əlaqəsi yoxdur Belə olan halda biz mütləq enerji potensialının inkişafına fikir verməliyik.Bu gün Naxçıvan elektrik enerjisi ilə tam təmin olunub və eyni zamanda,enerji ixrac edir. Naxçıvan təbii qazla da tam təmin olunub. Gəlcəkdə bərpa olunan enerji növlərinin yaradılmasından, xüsusilə Ordubad Su Elektrik Stansiyasının işə düşməsindən sonra Naxçıvanda enerji məsələləri ilə başlı bundan onilliklər sonra heç bir problem olmamalıdır " (6).

Türkiyə-Azərbaycan, o cümlədən Naxçıvan münasibətləri həm ölkələrimiz üçün, həm də region üçün çox önəmli rol oynamışdır. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur və bütün sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. Məhz bu səbəbdən Azərbaycanın prezidenti cənab İlham Əliyev bəyan etmişdir ki, bölgədə Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi olmadan heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz. Hazırda bu əməkdaşlığın strateji tərəfdaşlıq olaraq yüksək səviyyəyə qalxması

ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunda Türkiyə ilə əlaqələrin inkişafına yönəlmiş ardıcıl və məqsədyönlü xəttin dövlət başçısı cənab İlham Əliyev tərəfindən inkişaf etdirilib daha da dərinləşdirilməsi nəticəsidir.

**ƏDƏBİYYAT**


1. Prezident İlham Əliyev Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib // "Respublika" qəzeti, 12 yanvar 2017-ci il.
2. Sadıqov Ə.İ. Beynəlxalq enerji hüququ enerji təhlükəsizliyinin təminat sistemi kimi. Bakı: BDU, 2012
3.Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi 2013, s. 225
4.Talıbov.S.V. Enerji təhlukəsizliyinin beynəlxalq- hüquqi problemləri. Naxçıvan ,"Əcəmi" nəşriyyatı-2017.
5.Azərbaycan Qəzeti , 12 yanvar 2017-ci il, №-6
6.Şərq Qapısı qəzeti , 12 yanvar 2017-ci il , №-7
7. www.e-qanun.az
8.www.nakhchivan.az



**ABSTRACT**

**S.V.Talıbov**

**PARTNERSHIP OF NAKCHIVAN AUTONOMOUS REPUBLIC WITH THE REPUBLIC OF TURKEY IN THE FIELD OF ENERGY SECURITY**

The article explores some international legal issues of partnership of the Nakhchivan Autonomous Republic with the Republic of Turkey in the field of energy security. The autonomous position of the Nakhchivan Autonomous Republic, its successes obtained in the field of energy security, particular attention to the international collaboration in energy maintenance are researched in the article. The author analyzes the basic agreements of Nakhchivan Autonomous Republic with the Republic of Turkey in the sphere of transportation of energy resources.

**РЕЗЮМЕ**

**С.В.Талыбов**

**СОТРУДНИЧЕСТВО НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ С ТУРЕЦКОЙ РЕСПУБЛИКОЙ В ОБЛАСТИ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ**

В статье рассматриваются международно-правовые вопросы сотрудничества Нахчыванской Автономной Республики с Турецкой Республикой в области энергетической безопасности. Исследуются автономное положение Нахчыванской Автономной Республики, приобретенные ею достижения в области энергетической безопасности и особое обращение на международное сотрудничество в энергетическом обеспечении. Автор обстоятельно анализирует основные соглашения Нахчыванской Автономной Республики с Турецкой Республикой в сфере транспортировки энергетических ресурсов.

**YUSİF HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCAN –TÜRKİYƏ QARŞILIQLI ƏMƏKDAŞLIQ VƏ STRATEJİ TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNDƏ NAXÇIVAN

**Açar sözlər:** *Azərbaycan ,Türkiyə, Naxçıvan .əməkdaşlıq ,strateji tərəfdaşlıq, ikitərəfli görüşlər*
**Key words:** *Azerbaijan, Turkey, Nakhchivan, collaboration, strategic partnership, bilateral meetings*
**Ключевые слова:** *Азербайджан, Турция, Нахчыван, сотрудничество, стратегическое партнерство, двухсторонние встречи.*

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtlərdirən amillərdir. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun çətin vəziyyətdə olan Bakını xilas etməsi Azərbaycan tarixinin dönüş hadisələrindən idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ifadəsincə desək -Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır.

Hələ Sovetlər dönəmində Azərbaycanla Türkiyə arasında münasibətlər rəsmi xarakterdə ola da mövcud olmuşdur. 1967-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin və 1969-cu ildə Türkiyə Cümhuriyyətinin prezidenti Cövdət Sunayın Bakıya səfərləri buna sübutdur.

Hazırkı mərhələdə Azərbaycan - Türkiyə münasibətləri qarşılıqlı əməkdaşlıq və strateji tərəfdaşlıq səviyyəsində inkişaf edir. Türkiyə Azərbaycan üçün beynəlxalq aləmdə müttəfiq və dayaq, Azərbaycan isə bir güclü dövlət kimi dünya siyasətində Türkiyənin gücünə güc qatmaqla əhəmiyyətli rola sahib bir ölkədir .

Buna görə də Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" və Ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri hər iki ölkə arasındakı münasibətlərin mükəmməl formulu olaraq qəbul edilir.

Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa edəndən sonra 1991-ci il noyabrın 9-da onu tanıyan ilk dövlət məhz Türkiyə oldu. Çox keçmədən qısa müddətdə 1992-ci ilin əvvəllərində Türkiyənin Azərbaycanda, 1992-ci ilin yayında isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başladı. Azərbaycanın Türkiyədə 3 diplomatik nümayəndəliyi var: Ankarada Azərbaycan səfirliyi, İstanbulda və Qarsda isə General-Konsulluq. Türkiyənin isə Bakıda səfirliyi, Naxçıvanda General-Konsulluğu fəaliyyət göstərməkdədir.

Diplomatik münasibətlərin yaradılması iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafında geniş perspektivlər açdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi: "1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabər hüquqlu iqtisadi tərəf-müqabilidir. İki qardaş dövlətin başçılarının qarşılıqlı rəsmi səfərləri zamanı hərtərəfli əməkdaşlığımızı əhatə edən bir sıra mühüm sənədlər imzalanmışdır. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir." (1)

Türkiyə Prezidenti Turqut Özalın Azərbaycana 1992-ci il 1-3 may tarixli səfəri və səfər zamanı imzalanmış Birgə Bəyanat qarşılıqlı əlaqələrin əsas prinsiplərini və inkişaf perspektivini müəyyən etdi. Türkiyə müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının səylərini dəstəkləyərək, hərtərəfli əlaqələrin inkişafına geniş meydan açdı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Səfər çərçivəsində iki ölkə arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşlıqlı təşviqi və qorunması haqqında saziş və digər mühüm sənədlər imzalandı.(2, 362)

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi, iki qeyri-rəsmi, on beş işgüzar səfər etməsi ümummilli liderin xarici siyasət konsepsiyasında Türkiyəyənin yerinin və ölkələrimiz arasındakı strateji birliyin önəminin göstəricisidir.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən Cənab İlham Əliyev də Türkiyə ilə münasibətlərin inkişafına müstəsna diqqət ayırıb. 13-15 aprel 2004-cü il tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfəri olub. Səfər zamanı Türkiyə Prezidenti ilə görüşüb. İkitərəfli əlaqələrə dair mühüm sənədlər imzalanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Turkiyənin Baş Naziri R.T.Ərdoğan ilə də görüşüb. 14 aprel 2004-cu il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Ankara yaxınlığında, Batıkənddə xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə salınmış parkın təntənəli açılış mərasimində iştirak edib. Səfər zamanı Azərbaycan və Türkiyə arasında birgə bəyanat, mülki aviasiya və mədəniyyət sahəsində əməkdaşlığa dair protokollor və digər vacib sənədlər imzalanıb.

İki ölkə arasında münasibətlərin xarakterik cəhətlərini qeyd edərkən Türkiyənin dövlət və hökumət başçılarının xaricə ilk rəsmi səfərlərinə məhz Azərbaycandan başlamalarının bir ənənə şəklini aldığına diqqət çəkmək istərdim.

13 iyul 2006-cı il tarixində işə salınan Bakı-Tbilisi-Ceyhan neft ixracı boru kəməri ( ümumi uzunluğu 1769 km ,Azərbaycan hissəsi 443 km, Gürcüstan hissəsi 250 km, Türkiyə hissəsi 1076 km, illik keçirmə qabiliyyəti 50 mln. ton), 2007-ci ilin yanvar ayında Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Yeni istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu isə Azərbaycanı Türkiyə ilə dəmir yolu vasitəsilə birləşdirir. Şübhəsiz ki, layihələrin dünya üçün, region üçün, eləcə də hər iki ölkə üçün çox böyük iqtisadi - siyasi önəmi var. Bu gün Azərbaycanda 3 min Türkiyə şirkəti fəaliyyət göstərirsə, Türkiyədə qeydiyyatdan keçən Azərbaycan şirkətlərinin sayı 2 mindir. Azərbaycan Türkiyə iqtisadiyyatına 14 milyard dollar sərmayə yatırıbsa, Türkiyə Azərbaycana 12 milyar sərmayə ilə dəstək çıxıb. 2020-ci ildə bu dövriyyənin 20 milyard dollara çatacağı gözlənilir (3).

Qlobal bir layihə olan TANAP, yəni Trans Anadolu Təbii Qaz Boru Xəttinin yola düşməsiylə, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsiylə Azərbaycan və Türkiyənin mövqeyi və bölgədəki strateji əhəmiyyəti daha da artmışdır.

Bu gün Azərbaycan-Türkiyə tərəfdaşlığı, bütövlükdə, regionun gələcək inkişafı üçün əlavə imkanlar yaradır. Çünki Azərbaycan və Türkiyə strateji mənada bir-birini tamamlayan vahidin ayrılmaz hissələridir. Bu müttəfiqlik eyni zamanda regionda sülhün və təhlükəsizliyin qorunmasının, eləcə də iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir.

İkitərəfli əlaqələrinin dinamikası Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasının yaxın bölgələri arasında tarixən yaranmış münasibətlərdə də öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Bu səfərin nəticələri muxtar respublika üçün uğurlu olmuş, Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzünə qarşı çıxaraq beynəlxalq Qars müqaviləsinə əsasən, Türkiyə Respublikasının Naxçıvanın muxtariyyətinin qarantı olması barədə bəyanat vermişdir. Bundan başqa, 1992-ci il mayın 28-də Sədərək-Dilucu körpüsü istifadəyə verilmiş, 92 kilometrlik İqdır-Naxçıvan yüksəkgərginlikli elektrik xətti çəkilmişdir. (4, 144).

Naxçıvan Muxtar Respublikasının Türkiyə ilə əlaqələri Azərbaycan_Türkiyə əlaqələri kontekstində sonrakı illərdə də yüksələn xətlə inkişaf edib. Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbovun qardaş və dost ölkəyə ilk rəsmi səfəri 1996-cı il martın 12-17 –si arasında olub. Səfər çərçivəsində aparılan danışıqlar Müxtar Respublikanın mövcud problemlərinin həlli istiqamətində olub. (4, 143)

2008-ci ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Baş Naziri Rəcəb Tayyib Ərdoğanın eyni vaxtda Naxçıvana səfəri böyük siyasi məna daşıyıb. Azərbaycan-Türkiyə münasibətlərinin daha da möhkəmlənməsini regional əməkdaşlığa boyük töhvə olduğunu bildirən Prezident İlham Əliyev mətbuat üçün bəyanatında Türkiyənin hökumət başçısının bölgəyə səfərini yüksək qiymətləndirib (5)

2009-cu ildə isə Türkiyə Prezidenti Abdullah Gülün Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında iştirak üçün Naxçıvana gəlməsi müasir dövrdə Türkiyənin, bütövlükdə türk dünyasının Azərbaycanın bu qədim diyarına verdiyi önəmin əyani ifadəsidir. Zirvə görüşündə çıxış edən Türkiyə Prezidenti Naxçıvanın Türkiyə üçün çox mühüm əhəmiyyət daşıdığını bildirərək demişdir: "Naxçıvanın Türkiyə üçün çox böyük əhəmiyyəti vardır. Naxçıvan bölgəsindəki Azərbaycan və Türkiyə arasındakı sərhəd xətti məsafəcə kiçik olsa da, siyasi mənada çox böyük əhəmiyyət daşıyır. 10-12 kilometrlik bir sərhəd xəttinin siyasi əhəmiyyəti olduqca böyükdür. Bu sərhədimiz Türkiyənin türk respublikaları ilə coğrafi birliyini də əlaqələndirən çox rəmzi bir keçiddir" (6)

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Səfər çərçivəsində Ali Məclisin Sədri Türkiyə Respublikasının Prezidenti Abdullah Gül, Baş nazir Rəcəb Tayyib Ərdoğanla və digər rəsmi şəxslərlə görüşlər keçirmişdir (4, 144). Bu görüşlərin nəticəsi olaraq, 2010-cu il iyulun 17-də Naxçıvan şəhərində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Türkiyənin BOTAŞ şirkəti arasında Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz kəmərinin tikintisi barədə niyyət protokolu imzalanmışdır. 2010-cu il iyunun 24-də Türk Hava Yolları ilə bağlanmış müqaviləyə əsasən, İstanbul-Naxçıvan-İstanbul təyyarə reysi fəaliyyətə başlamışdır.

20 dekabr 2017-ci il tarixdə Türkiyə Respublikasının Baş naziri Binali Yıldırım Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri olmuşdur.Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun və

Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın görüşü olmuşdur. Türkiyənin hökumət başçısının Naxçıvana səfərini yüksək qiymətləndirən Ali Məclisin Sədri bildirmişdir ki, Azərbaycan-Türkiyə əlaqələrinin əsasının xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə qoyulmuşdur. 1993-cü ildən isə bu münasibətlər bir millətin iki dövləti səviyyəsinə qalxmışdır. Bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksələn dostluq və qardaşlıq münasibətlərimiz hər iki ölkə prezidentlərinin iradəsinə uyğun olaraq inkişaf edir və bu əlaqələr dünyaya nümunədir. Azərbaycan və Türkiyə beynəlxalq aləmdə daim bir-birinə dəstək olmuş və eyni mövqedən çıxış etmişdir.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikasının da mühüm yeri olduğunu bildirən Ali Məclisin Sədri diqqətə çatdırmışdır ki, təhsil, səhiyyə, mədəniyyət, ticarət, iqtisadiyyat və ordu quruculuğu sahələrində əlaqələrin inkişafı məmnunluq doğurur.

“Naxçıvanın xarici ticarət dövriyyəsində Türkiyə Respublikasının payı bu ilin 11 ayında ötən ilə nisbətən 2 milyon ABŞ dolları artaraq 7 milyon 685 min ABŞ dolları təşkil etmişdir. (7)

Türkiyə-Azərbaycan münasibətləri təkcə iqtisadi maraqlar üzərində qurulmayıb. İkitərəfli münasibətlər öz kökünü xalqlarımızın qədim tarixindən götürür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Türkiyə-Azərbaycan qardaşlığı və strateji tərəfdaşlığının möhkəmliyini yüksək qiymətləndirərək demişdir**:** “Xalqlarımızı birləşdirən ortaq tarix, ortaq mədəniyyətdir. Bunlar çox güclü əsaslardır. Ölkələrimizi birləşdirən insanların bir-birinə olan məhəbbətidir, qəlbindəki sevgidir. Bizi birləşdirən strateji müttəfiqliyimizdir... Türkiyə və Azərbaycan dünya miqyasında nadir müttəfiqlik münasibətlərini qura bilmişlər. Biz bütün sahələrdə dost, qardaş kimi bərabər hərəkət edirik. Bundan sonra da onilliklər ərzində Türkiyə və Azərbaycan daim bir yerdə olacaqlar... Ölkələrimiz daha da sıx birləşəcək, siyasi, iqtisadi və bütün başqa sahələrdə əməkdaşlıq daha da dərinləşəcəkdir. Türkiyə-Azərbaycan iki qardaş xalq, iki qardaş ölkə kimi ancaq və ancaq irəliyə gedəcəkdir” (8).

## ƏDƏBİYYAT


1. http://lib.aliyevheritage.org/az/2541517.html
2. Müstəqilliyimiz əbədidir: 22 kitabda , Bakı, Azərnəşr-1997 I kitab
3. https://www.ens.az/az/turkiye-azerbaycan-diplomatik-munasibetlerin-qurulmasindan-27-il-otdu
4. M.Məmmədov , Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı- Bakı, Şirvannəşr -2011.
5.”Azərbaycan” qəzeti 05 iyun 2008.
6. https://azertag.az/.../NAXCHIVAN_ZIRVA_GORUSU_TUR...
7. http://dmfa.nakhchivan.az/index.php/az/yeni-x-b-rl-r/139-036-17az
8. http://www.serqqapisi.az/index.php/ictimai-siaysi/2574-azaerbaydzan-turkiyae-munasibaetlaeri-zharsh-l-zhl-daestaek-vae-stratezhi-taeraefdashl-zh-mustaevisindae-inkishaf-edir


## ABSTRACT


**Yusif Huseynov**


**NAKHCHIVAN IN THE RELATIONSHIPS OF AZERBAIJAN-TURKISH MUTUAL COLLABORATION AND STRATEGIC PARTNERSHIP**


Azerbaijan-Turkish relations are developing in the level of mutual collaboration and strategic partnership. These relations source from deep historical roots, and currently are in a larger scale. Nakhchivan Autonomous Republic has an essential place in the development of Azerbaijan-Turkish relations. The foundation of the relations between Nakhchivan Autonomous Republic and the Republic of Turkey was laid by national leader Heydar Aliyev when he worked as a chairman of Supreme Majlis of Nakhchivan Autonomous Republic. Currently, the relations in the field of education, health, culture, trade, economy and army formation of Nakhchivan Autonomous Republic with Turkey are in a high level and is developing steadily.


## РЕЗЮМЕ


**Юсиф Гусейнов**


**НАХЧЫВАН В АЗЕРБАЙДЖАНСКО-ТУРЕЦКИХ СВЯЗЯХ ВЗАИМОСОТРУДНИЧЕСТВА И СТРАТЕГИЧЕСКОГО ПАРТНЕРСТВА**


Азербайджанско-турецкие отношения развивается на уровне взаимосотрудничества и стратегического партнерства. Эти отношения базируются на исторических корнях, а на современном периоде носят широкомасштабный характер. В развитии азербайджанско-турецких связей Нахчыванская Автономная Республика также занимает важное место. Основа связей Нахчыванской Автономной Республики с Турецкой Республикой была заложена общенациональным лидером Гейдаром Алиевым в период его работы Председателем Верховного Меджлиса Нахчыванской Автономной Республики. В настоящее время связи Турции и Нахчыванской Автономной Республики в областях образования, здравоохранения, культуры, торговли, экономики и строительства армии находятся на высоком уровне и поступательно развиваются.

**ŞAMXAL MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCAN-TÜRKİYƏ SARSILMAZ BİRLİYİ

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, dostluq əlaqələri, strateji müttəfiqlik, gələcək inkişaf istiqamətləri*
**Key words:** *Azerbaijan, Turkey, friendship relations, strategic alliance, future development directions*
**Ключевые слова:** *Азербайджан, Турция, дружеские отношения, стратегический альянс, направления будущего развития*

Sovetlər Birliyinin süqutu və soyuq müharibənin bitməsi ilə dünyada bir çox tarazlıqlar pozuldu. Bu konteksdə Avrasiya geosiyasi məkanında yeni beynəlxalq şərait formalaşdı. Onun başlıca və önəmli cəhətlərindən biri də bəzi türk dövlətlərinin bərpası və türk topluluqları arasında sıx əlaqələr qurulması imkanının qazanılması təşkil edir. Türk dünyasının ayrılmaz parçasını təşkil edən dövlətlərin əksəriyyəti məhz Sovetlər İttifaqının dağılması ilə öz müstəqilliklərini qazandılar.

Məhz bundan sona formalaşan tarixi şəraitdə, çağdaş dünyada gedən qloballaşma və inteqrasiya prosesləri konteksində türk dünyası daxili işbirliyinə və həmrəyliyə nail olunması tarixi zərurəti yarandı. Türk dünyası daxili inteqrasiyanı şərtləndirən amillərdən dünya birliyinə qovuşma, Avrasiya məkanında sülh və sabitlik, enerji təhlükəsizliyi, tarixi-milli köklərə qayıdış, siyasi-mənəvi birlik, qarşılıqlı iqtisadi tərəqqi, mədəni yüksəliş və s. xüsusilə qeyd olunmalıdır. Türk dünyası birliyinin formalaşmasında iki dost və qardaş dövlətin - Türkiyə və Azərbaycanın xüsusu çəkisi mövcud olubdur. Beləki, bu birlik çətiri altında ikitərəfli və çoxtərəfli əlaqələrin qurulması, eləcə də zirvə toplantılarının keçirilməsində məhz bu iki qardaş dövlətin əvəzsiz rolu olmuşdur.

18 oktyabr 1991-ci il tarixində müstəqillik aktı qəbul edən Azərbaycan respublikasını Türkiyə bir ay keçmədən, yəni noyabrın 9-da tanıyan ilk dövlət oldu. Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələr isə rəsmi olaraq 1992-ci ilin 14 yanvarından başladı.

Azərbaycan müstəqilliyini elan etdiyi andan istiqamətini Türkiyəyə tərəf çevirdi və əlaqələri strateji əməkdaşlıq səviyyəsinə qaldırılması üçün ildən-ilə artan templə fəaliyyət göstərməyə başladı.

Qeyd etmək yerinə düşər ki, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk neft" şirkətinin təmsil olunması xüsusi geostrateji düşüncəyə sahib olan Ulu öndər Heydər Əliyevin Türkiyə ilə Azərbaycan arasında uzaq hədəflərə hesablanmış böyük bir addımı idi. Sonrakı hədəflərə hesablanmış neft siyasətindən sonra iki qardaş ölkə arasında bütün sahələrin inkişafı ilə əlaqədar baş verən qanunauyğun proseslər regionun iqtisadi inkişafı üçün çox vacibdir. "Əsrin müqaviləsindən" başlayan bu proses fakta çevrilmişdir və ildən-ilə gözlərimiz qarşısında bu fakt daha da möhkəmlənməkdədir. Həmin faktın təsdiqlənməsi yalnız iqtisadi, sosial amillərlə bağlı olmayıb həmdə SSRİ-nin süqutundan sonra Xəzər hövzəsi və Cənubi Qafqazda yaranmış geosiyasi vəziyyətin Ulu öndər Heydər Əliyev tərəfindən düzgün qiymətləndirilməsi ilə bağlıdır".

Yeni müstəqilliyini qazanan Azərbaycan, gənc bir ölkə olaraq qarşılaşacağı çətinliklərin öhdəsindən gələ bilmək üçün Türkiyənin dəstək və yardımlarına ehtiyac hiss etməkdə idi. Azərbaycan müstəqilliyini qazandıqdan sonra Azərbaycan-Türkiyə əlaqələrinin çox yönlü bir şəkildə inkişaf etdirilməsi üçün əlverişli imkanlar, imtiyazlar və daha da əhəmiyyətlisi xalqların eyni istək və arzularından qaynaqlanan tələblər ortaya çıxmışdır. Bununla yanaşı, Azərbaycanın geosiyasət baxımından çox vacib bir mövqeyə malik olması və Rusiya, İran və Ermənistanın Azərbaycanla bağlı müxtəlif maraqlarının olması iki ölkə əlaqələrinin xarici amillər olmadan inkişaf etməsinə mane oldu. Xüsusilə Rusiyanın, Azərbaycan müstəqilliyini qazandıqdan sonra da ölkə üzərindəki nüfuzunu qoruma səyində olması, Azərbaycan-Türkiyə əlaqələrini az da olsa zəiflətmişdi.

14 Yanvar 1992 tarixində Azərbaycan-Türkiyə arasında imzalanan Diplomatik münasibətlərin yaradılmasına dair Anlaşmanın üzərindən 27 il keçməkdə. Başqa bir deyişlə dörddə bir əsrlik bir dövrə sığan əlaqələr silsiləsinə baxıldığında regional təhlükəsizliyin təmin edilməsi, sosial-iqtisadi, elmi və mədəni atılımlarının həyata keçirilməsində dost və qardaş ölkələrimiz arasında çox istiqamətli əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilmişdir.

İcra edilən xüsusi səylərlə diplomatiyanın yanında ayrıca iqtisadiyyat, enerji, ticarət, təhsil,

mədəniyyət, hərbi və digər sahələrdə əlaqələr güclənmiş, strateji müttəfiqlik səviyyəsinə çatmışdır. Bu möhkəm təmələr üzərinə inşa edilmiş ikitərəfli əlaqələrin daha da inkişafını təmin edən hüquqi bazanın gücləndirilməsi istiqamətində 200-dən çox müqavilə imzalanmış, ölkələrimiz arasında yüksək səviyyəli rəsmi səfərlərin sayı hər il dözərək artmışdır.

Xüsusilə Xəzər dənizi enerji qaynaqlarının dünya bazarına çıxarılmasını nəzərdə tutan Bakı-Tbilisi-Ceyhan Boru Kəməri və Bakı-Tbilisi-Ərzurum Qaz Boru Kəməri layihələrinin reallaşdırılması Azərbaycan və Türkiyə arasında strateji ortaqlığa gedən yolda mühüm addım oldu.

Dahası XXI əsrin layihəsi olan 45 milyard dollarlıq Cənub Qaz Dəhlizi layihəsi xüsusilə Azərbaycan və Türkiyənin səyləri və maliyyə qaynaqları ilə reallaşdırılmağa başlamış və bu anda bu layihənin ulduzları olan Trans Anadolu Təbii qaz Boru Xətti- (TANAP) və Transadriyatik Boru Kəməri (TAP) layihələri kimi əvəz edilmişdir. Ölkə başçıları tərəfindən müzakirə edilən və güclü iradə başladılan bu layihələr Türkiyə və Azərbaycan üçün yeni imkanlar olaraq ortaq güc olma hədəfində əhəmiyyətli töhvələr verməklə bərabər dost və qardaş Türkiyəni enerji qaynaqlarının daşınmasında mərkəz ölkə mövqesinə gətirmişdir.

Müstəqilliyin ilk illərində Türkiyədən Azərbaycana edilən investisiyalar ayrı bir əhəmiyyətə sahib olmuşdur. Başda Azərbaycan Dövlət Neft Şirkəti olmaqla, Azərbaycandan Türkiyəyə edilən investisiyaların həcminin önümüzdəki illərdə 20 milyard dollara çatması gözlənməkdədir. Bu məbləğ Azərbaycanın ölkə xaricinə etmiş olduğu ən böyük həcmli investisiya olmasının yanında, xaricdən Türkiyəyə edilən xarici investisiyalar zamanı ilk sıralarda iştirak etməkdədir.

Qarşılıqlı güvən və həmrəylik əsasında formalaşan Azərbaycan-Türkiyə əlaqələri beynəlxalq platformalarda da davam etdirilmişdir. Hər iki dövlət Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dili Danışan Ölkələr Əməkdaşlıq Şurası və İslam Əməkdaşlıq Təşkilatında qarşılıqlı milli maraqların qorunması istiqamətində uğurlu əməkdaşlıq sərgiləmişlər. Xüsusilə də, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll qovuşması istiqamətində Türkiyə Respublikasının beynəlxalq arenada sərgilədiyi qərarlı mövqe və Azərbaycanın ərazi bütövlüyünün yenidən təmin edilməsinə istiqamətli icra etdiyi dəstək siyasəti gerçək həmrəylik nümunəsi təşkil etməkdədir. Bu çərçivədə iki dost və qardaş ölkələr arasında hərbi əməkdaşlıq Azərbaycan ordusunun güclü bir xarakter qazanmasını təmin etdi.

Türkiyə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi içərisində, sülh yolu ilə həllinə səy edir. Bu çərçivədə ATƏT-in Minsk Qrupunun bir üzvü olaraq cəhdlərini əsirgəmir. Xüsusilə, 2016-cı il Aprel döyüşləri, Azərbaycan-Ermənistan arasında yaşanan şiddətli qarşıdurmalar və can itkiləri Dağlıq Qarabağ müzakirələrini daha da artırdı.

Bu gün iki ölkə arasında ticarət həcmi təxminən 5 milyard dollardır. Hər iki ölkənin hədəfi 2023-cü ilə qədər ticarət həcmini 15 milyard dollara çatdırmaqdır.

Bütün bu göstəricilər bu gün etibarilə Azərbaycan-Türkiyə əlaqələrində hər sahədə “Qızıl Çağ” yaşandığını dəlillər xüsusiyyətdədir. 2010-ci ildə iki ölkə prezidentlərinin rəhbərliyi ilə “Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının”nın qurulması və yığıncaqların nizamlı bir şəkildə reallaşdırılması böyük bir uğur olmuşdur. Bu yığıncaqlar nəticəsində ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişafı üçün hüquqi infrastruktur daha da inkişaf etdirilmiş, çox sayda müqavilələr imzalanmışdır.

Azərbaycan-Türkiyə arasındakı əlaqələrin xüsusiyyətindən bəhs edərkən bir mövzuya daha diqqət çəkmək lazımdır. Hər iki ölkədə liderlər seçkilərdən sonra ilk səfərlərini etmək üçün bir ənənə halına gəldi. 15 mart 2016 tarixində edilən “Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının”nın V yığıncağı ənənə halına gəlmiş ziyarətlərin müstəsna bir nümunəsi olaraq uzun illər yaddaşlardan silinməyəcək şəkildə Türkiyə-Azərbaycan əlaqələrinin gəldiyi səviyyəsi göstərən ən əhəmiyyətli nümunələrdən biri olaraq tamamlamaq üzrə olduğumuz dörddəbir əsrlik dövrdəki yerini almışdır. Xatırlanacağı üzrə, Azərbaycanda keçirilməsi nəzərdə tutulan toplantının 2016-ci ilin fevral və mart aylarında Ankarada edilən xain terror aktları nəticəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycana planlaşdırılan səfərini təxirə salmaq məcburiyyətində qalmış, bunun dərhal sonra Türkiyənin belə ağrılı bir dövründə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev görüşün Türkiyədə edilməsini təklif etmişdir. Bu qərarla həm Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V konfransı reallaşmış, həm də iki qardaş ölkənin həmrəyliyi bir dəfə daha bütün dünyaya elan edilmişdir.

Azərbaycan və Türkiyə arasında 27 il kimi qısa bir müddətdə əldə edilmiş uğurlar, ölkələrimiz arasındakı sarsılmaz olan dostluq-qardaşlıq əlaqələri bundan sonra da güclənəcək və yüksələn xətlə inkişaf edəcəkdir.

Azərbaycanla-Türkiyənın strateji əlaqələrinin xarakteri (tarixi, mədəni, milli, dini bağların ön planda olması) onu göstərir ki, ikitərəfli münasibətlərdə ağırlığı getdikcə artan iqtisadi amil bölgədə yeni geosiyasi mühitin formalaşması üçün ciddi əsaslar yaradır.

Azərbaycan  və Türkiyə - hər iki ölkənin xalqlarının böyük əksəriyyəti türklərin Oğuz boyundandır. Türkiyənin Azərbaycanla əlaqələri günümüzdə yüksək strateji səviyyədədir.

1991-ci ildən bu günə qədər Avrasiyada yaranan yeni geosiyasi mənzərə Türkiyə və Azərbaycan əlaqələrində möhkəm və davamlı siyasi iradəyə, dərin strateji nəzəriyyə və təhlillərə, vahid strateji xəttə söykənən münasibətlər sistemi yaradılmasını zəruri edir. 2017-ci ilə qədər Azərbaycanın Türkiyə ilə strateji istiqamətdə inkişaf edən əlaqələrində çevikliyi ləngidən səbəblərdən biri də Türkiyənin parlamentli respublika idarəçiliyində mövcud olan çətinliklərlə bağlı idi. Hazır ki, ümumxalq səsverməsi ilə qəbul edilən prezidentli idarəçilik sistemi Türkiyənin regional və beynəlxalq sistemə inteqrasiyasında, xüsusilə Azərbaycanla münasibətlərinin yeni statusunun müəyyən olunmasında yeni imkanlar açır. Bunun üçün geosiyasi düşüncə mərkəzləri və nəzəriyyəçilər Türkiyə və Azərbaycanı regionun ciddi güc mərkəzinə çevrilməsi üçün mövcud olan enerji layihələri və kommunikasiya əlaqələrini nəzərə alan yeni-yeni geostrateji konsepsiyalar hazırlamalıdır.

## ƏDƏBİYYAT


1. Davutoğlu A. Stratejik Derinlik. Türkiyenin uluslararası konumu. Ankara, Küre, 2008. (27.baskı), s. 45
2. Кейган Р. Сила слабости . Внешнее политика нового века. М., 2002, с.134.
3. Бжезинский З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императиви М.:Международные отношение, 1998. с.75
4. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü. “Xalq qəzeti” - 2016.-16 mart.
5. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçirilib. “Xalq qəzeti” - 2016.-16 mart.
6. Əhməd Davudoğlu: İşğal altındakı Azərbaycan torpaqlarını öz torpağımız sayırıq və onların azad olunması üçün mübarizəmizi davam etdirəcəyik: Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu APA-ya və Azərbaycanın bəzi digər xəbər agentliklərinə müsahibə verib.“İki sahil”-2009.-23 oktyabr. - N 199.
7. “Yaxın zamanlarda Azərbaycanın Türkiyə iqtisadiyyatına qoyduğu kapitalın həcmi 17 milyard dollara çatacaq”. Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqunun APA TV-yə müsahibəsi, 01 Noyabr 2013
8. Flora SADIQLI, “Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu daha yüksək səviyyəyə çatdırılacaq”. “Azərbaycan” qəzeti, 2016, 20 Aprel. s. 7.
9. Cavanşir Feyziyev. Türk milli iradəsinin zəfəri. “Xalq qəzeti”-17 iyul 2016. s.3.
10. Səfir: Dağlıq Qarabağ Türkiyə və Azərbaycanın qanayan yarasıdır”. (ÖZƏL).Trend, 27 oktyabr 2016.


## ABSTRACT


Established on the base of historic friendship, mutual trust, sincere relations, high-level cooperation the Azerbaijani-Turkish relations are always strengthening. The fact that our people have the same genus, language, religion, culture and many other interconnected ties made native these two countries and always has been near each other in happy and unhappy days. National Leader Heydar Aliyev described as a single nation and two states, the relations between Azerbaijan and Turkey moving to new level by quality in some areas and reaching in high level as the result of correct, purposeful policy by the leaders of two countries.


## РЕЗЮМЕ


Созданные на основе исторической дружбы, взаимного доверия, искренних отношений, сотрудничества на высоком уровне азербайджано-турецкие отношения всегда укрепляются. Тот факт, что наши люди имеют одинаковый род, язык, религию, культуру и многие другие взаимосвязанные связи, породил эти две страны и всегда был рядом друг с другом в счастливые и несчастные дни. Общенациональный лидер Гейдар Алиев охарактеризовал как единую нацию и два государства отношения между Азербайджаном и Турцией, которые в некоторых областях качественно переходят на новый уровень и достигают высокого уровня в результате правильной, целенаправленной политики лидеров двух стран.

**ABDULLA MUSTAFAYEV**
**RUHİYYƏ RZAYEVA**
*Naxçıvan Dövlət Universiteti*

# TÜRKİYƏ-AZƏRBAYCAN SİYASİ ƏLAQƏLƏRİNDƏ NAXÇIVAN

**Açar sözlər:** *"Bir millət, iki dövlət", Türkiyə Cümhuriyyəti, Diplomatik əlaqələr, Baş konsulluq, Naxçıvan Muxtar Respublikası, "Türk qapısı", Mustafa Kamal Atatürk, İqtisadi blokada, "Həsrət körpüsü"", Ümummilli lider, Baş nazir*

**Ключевые слова: "***Два государство одной нации", Турецкая Республика, Дипломатические отношения, Генеральное консульство, Нахчыванская Автономная Республика, "Турецкие двери", Мустафа Кемаль Ататюрк, Экономическая блокада, "Мост скорби", Общенациональный лидер, Премьер министр*

**Key words:** *One nation, two states, Republic of Turkey, Diplomatic relations, Consulate geyeral, Naxcıvan Autonomous Republic, "Turkish gate", Mustafa Kemal Ataturk, Economic blockade, "Longing bridge", Nationwide leader,Prime minister*

"Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki,bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq".

**Heydər Əliyev**
*Ümummilli lider*

"Nahçıvan Türk kapısıdır. Bu hususu nazar-ı itibara alarak elinizden geleni yapınız".

**Mustafa Kamal Atatürk**

"Bu gün dünyada Türkiyə-Azərbaycan qədər bir-birinə yaxın iki dövlət tapmaq çətindir. Bunu ölkələrin, ölkə rəhbərlərinin və xalqların maraqlarının üst-üstə düşməsi şərtəndirir" .

**İlham Əliyev**
*Azərbaycan Respublikasının prezidenti*

Azərbaycan Respublikasının xarici siyasi kursunda Türkiyənin önəmli yeri vardır. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında yer alır. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər.Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr, bəlkə də dünyada başqa iki ölkə arasında olmayacaq şəkildə ticarət əlaqələrindən daha çox qardaşlıq əlaqələri şəklindədir. Eyni dilin danışıldığı iki ölkə olan və "bir millət iki dövlət" Azərbaycan-Türkiyə əlaqələri getdikcə daha da dərinləşir, inkişaf edir.

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etdikdən sonra həmin il noyabrın 9-da Türkiyə ölkəmizi ilk tanıyan dövlət olmuş və 1992-ci il yanvarın 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradılmışdır. Həmin vaxtdan Türkiyənin Azərbaycanda səfirliyi və Naxçıvanda Baş Konsulluğu açılmış, 1992-ci ilin avqust ayından Azərbaycanın Türkiyədə səfirliyi, 1993-cü ilin yanvar ayından İstanbulda, 2004-cü ilin aprelin 12-dən isə Qarsda Baş Konsulluqları fəaliyyət göstərir.

Azərbaycan müstəqilliyini qazandıqdan sonra dünyanın bütün dövlətləri ilə siyasi, iqtisadi və mədəni əlaqələr qurmaq imkanı əldə etdi. Bu ölkələr arasında ortaq etnik kökə, dinə, dilə və mədəniyyətə sahib Türkiyə ilə əlaqələr xüsusi bir əhəmiyyət kəsb edirdi.

Türkiyə ilə Azərbaycan arasındakı yeganə qurudan əlaqəni təşkil edən Naxçıvan Muxtar Respublikası Türkiyənin Azərbaycan ilə əlaqələri baxımından xüsusi bir yer tutur. Ermənistan, İran və Türkiyə arasında qalan və Azərbaycandan fiziki cəhətdən ayrı düşən və tarixdə "Türk qapısı" olaraq da təsvir edilən Naxçıvan Azərbaycan ilə Türkiyə arasında birbaşa əlaqə nöqtəsini təşkil edir. Xalqlarımız ən çətin günlərdə, ən qarışıqlıq anlarda bir-birinə sahib çıxmış, hər cür dəstəyi əsirgəməmişlər. Türkiyə tarixin ən zor anlarında Naxçıvana mənəvi və siyasi dəstək vermiş, Naxçıvanı Azərbaycandan ayırmaq istəyən qüvvələrə qarşı çıxmış, bölgənin muxtariyyətinin qarantı olmuşdur.

"Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", - deyən Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk ötən əsrin 20-ci illərində öz ölkəsi üçün yaranmış şəraitdən istifadə edərək 11

kilometrlik sahəni Azərbaycana çıxış əldə etmək üçün İrandan satın almaqla eyni kökə sahib olan iki xalqı bir-birindən ayrı düşməyə qoymamışdır. Mustafa Kamal Naxçıvanla bağlı fikirlərini belə ifadə etmişdir: "Azərbaycana bağlı Naxçıvan vilayəti qardaş Türkiyə ilə 11 kilometrlik sərhəddə olan türk yurdudur. Naxçıvan türk dünyasının qapısıdır, onu qorumaq lazımdır". Təbii ki, o vaxt Atatürkün Naxçıvana və bütövlükdə Azərbaycana qarşı münasibəti belə yüksək səviyyədə olmasaydı ermənilərin arxalandığı Moskva hökuməti Naxçıvan Muxtar Vilayətinin qurulmasına razılıq verməyəcək və Azərbaycan tarixi torpağını itirmiş olacaqdı. Çünki siyasi səhnədə təklənmiş Azərbaycan hökumətinin də Naxçıvanı əldə saxlamağa gücü yetməyəcəkdi.

Azərbaycan müstəqilliyini qazandıqdan sonra Naxçıvan Muxtar Cümhuriyyəti üçün Türkiyə ilə əlaqələr qurmaq baxımından yeni perspektivlər yaranmışdır. Bu dövrdə Ermənistanın işğalçı siyasəti Türkiyə ilə əlaqələrin inkişafına mane olsa da Naxçıvan qardaş ölkə ilə sosial-siyasi və mədəni əlaqələr qurmağı bacardı, buna nail oldu.

Ermənistanın hərbi və iqtisadi blokadası nəticəsində Naxçıvanı düşmüş olduğu ağır iqtisadi, sosial-siyasi vəziyyətdən xilas etməyin, xalqı ərzaq,yanacaq və digər həyati önəm daşıyan zəruri mallarla təmin etməyin çıxış yolunu qardaş Türkiyə ilə əlaqələrin yaradılmasında və möhkəmləndirilməsində görən Heydər Əliyev bu istiqamətdə fəaliyyətə başladı.

Bu əlaqələr Ermənistanın Naxçıvana qarşı həyata keçirmək istədiyi işğal siyasətinin və iqtisadi embarqonun qarşısının alınması baxımından böyük önəm daşıyırdı. Belə bir ağır şərtlər altında taleyin hökmü ilə Naxçıvanda yaşamaq məcburiyyətində olan Heydər Əliyevin siyasi fəaliyyəti və səyləri nəticəsində qardaş Türkiyə ilə əlaqələrin təməli atıldı. Heydər Əliyevin Naxçıvanda yaşadığı və işlədiyi dövrdə qonşu və qardaş Türkiyə ilə yaratdığı, qurduğu əlaqələr yalnız Naxçıvan üçün deyil, bütün bölgənin taleyi üçün önəmli rol oynadı.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan üçün yenidən ölüm-qalım məqamı yetişmişdi. Köhnə iqtsadi mexanizmin dağılması, yenisinin isə yaranmaması öz mənfi təsirini bütün istehsal sahələrində göstərdiyindən əhalinin düçar olduğu maddi-sosial böhran dərinləşmişdi. Dəmir yolunun fasilələrlə işləməsi və 1992-ci ilin aprel ayının 14-dən tamamilə dayanması, 1991-ci ilin dekabr ayından muxtar respublikaya qazın verilməməsi, elektrik enerjisinin tamamilə kəsilməsi sosial partlayış üçün zəmin yaratmışdı. Sənaye, tikinti təşkilatları lazımi xammal və avadanlıqlarla, inşaat materialları ilə təmin olunmadığından onların əksəriyyətinin fəaliyyəti dayanmış, qısa vaxta sənaye məhsullarının ümumi həcmi 50,3 faiz, xalq istelak malları 51,9 faiz azalmış, heç bir obyekt tikilib istifadəyə verilməmiş, işsizlik xeyli artmışdı.

Muxtar Respublikanın blokadada olmasının ən təhlükəli cəhəti həm də ondan ibarət idi ki, əhalinin ən zəruri ərzaq məhsullarına - una, çörəyə olan tələbatının ödənilməsi minimuma enmiş, çörək ehtiyatı iki-üç günə yetəcək qədər azalmışdı. Eyni zamanda, muxtar respublika Ermənistan tərəfdən silahlı təcavüzə məruz qalmış, informasiya blokadası dərinləşmiş, mənfur düşmənlə sərhəddə yerləşən yaşayış məntəqələrində yaşayış səviyyəsi dözülməz vəziyyətə düşmüşdü.

Həmin dövrdə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda olması və muxtar respublikaya rəhbərlik etməsi bu qədim odlar diyarını üzləşdiyi ağır vəziyyətdən və mənfur düşmənin əlinə keçməkdən xilas etdi. Ümummilli lider öz şəxsi nüfuzundan, xalqın ona olan inamından, siyasi bacarığından və şəxsi münasibətlərindən məharətlə istifadə edərək ilk gündən dövlət quruculuğuna, idarəetmənin təkmilləşdirilməsinə, iqtisadi islahatların aparılmasına, xarici dövlətlərlə əlaqələrin qurulmasına, müdafiə və hərbi quruculuq məsələlərinə xüsusi fikir verirdi. Taleyüklü məsələlərinin həllində qonşu İran İslam Respublikası ilə yanaşı, qardaş Türkiyə ilə 70 il aradan sonra qurulan qarşılıqlı münasibətlər həyati önəm kəsb edirdi. Ardıcıllıqla aparılan danışıqlar, qəbul edilən qərarlar tarixi Türkiyə-Azərbaycan birliyinin bərpasına və blokadada boğulan muxtar respublika üçün nəfəs yolunun tapılmasına xidmət edirdi.

29 oktyabr 1991-ci ildə Naxçıvanın Sədərək rayonunda Araz çayı üzərində Naxçıvan ilə Türkiyəni bir-birinə bağlayan müvəqqəti körpünün istifadəyə verilməsi Naxçıvanın Türkiyə ilə əlaqələrinə önəm qazandırmışdır. Müvəqqəti körpünün açılması ilə Türkiyənin Naxçıvana yardımları artmağa başladı. 9 noyabr 1991-ci ildə Türkiyə Qızılayı Naxçıvana 126 ton buğda yardım etmiş, 29 noyabrda isə İgdir əhalisi və valiliyinin yardımlarından ibarət 19 kamyon Naxçıvana yardım gətirmişdi.

1991-ci il oktyabr ayının 29-da Azərbaycanla Türkiyə arasında, Sədərək rayonu ərazisində Araz çayı üzərində salınmış müvəqqəti körpünün açılışında möhtərəm Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Bakıdan gəlmiş Azərbaycanın elm və mədəniyyət xadimləri çıxış etdilər. 70 illik sərt sərhəd rejimi və sərhəd boyunca çəkilmiş iki-üç cərgəli tikanlı məftil hasarlar aradan qalxdı, on illərlə bir-biri ilə əlaqə saxlamaq imkanından, normal ünsiyyətdən məhrum olan minlərlə insan bir araya gəldi. Bu mühüm əhəmiyyətli hadisədən sonra Naxçıvan-Türkiyə əlaqələri yeni mərhələyə qədəm qoydu. Qardaş ölkə möhtərəm Heydər Əliyevin ciddi cəhdləri və siyasi səyləri nəticəsində faciədən və məşəqqətdən xilas olmağa çalışan muxtar respublikaya maddi və mənəvi dəstəyini, dostluq və qardaşlıq missiyasını XX əsrin əvvəllərində olduğu kimi həmin əsrin sonlarında da şərəflə yerinə yetirməyə başladı.

Naxçıvanın Türkiyə ilə əlaqələrinin inkişafında və bölgənin iqtisadi və hərbi müdafiəsində önəmli rol oynayacaq müvəqqəti deyil, daimi yolun çəkilməsinin əhəmiyyətini başa düşən Heydər Əliyev daima bu məsələni diqqətdə saxlamışdır. Bu məqsədlə Türkiyə Ulaşdırma Bakanlığının Aytəkin Akagün başçılığı ilə nümayəndə heyətini Naxçıvana dəvət etmişdir. 15 noyabr 1991-ci il tarixdə keçirilən görüşdə Araz çayı üzərində körpünün tikintisi və bu körpüdən keçişin asanlaşdırılması barədə danışırlar aparıldı. Görüşdə körpünün 1992-ci ilin yanvar ayında tamamlanması qərara alınmış, həmçinin dəmiryolu xəttinin tikintisi ilə əlaqədar çalışmaların sürətləndirilməsi mövzusunda razılığa gəlinmişdir. Bu barədə Türkiyə nümayəndə heyəti ilə Naxçıvan MR nazirlər Kabineti arasında protokol imzalanmşdır.

Bu həyati tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Türkiyə Respublikası hökumətinin dəvəti ilə 1992-ci ilin mart ayının 22-dən 25-ə qədər qardaş ölkədə rəsmi səfərdə oldu. Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Ankarada Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsini nəzərdə tutan birgə əməkdaşlıq protokolu imzaladılar. Protokola görə, Naxçıvanın müxtəlif sahələrdə ehtiyacını ödəmək məqsədi ilə Naxçıvana 100 milyon dollar həcmində kredit ayırması nəzərdə tutulmuşdur. Əslində Türkiyə tərəfi ağır iqtisadi və maliyyə vəziyyətində olan Naxçıvanın bu krediti geri qaytarmaq durumunda olmadığın yaxşı bilirdi. Türkiyənin bu krediti ayırmasında təbii ki, Heydər Əliyev şəxsiyyətinin, Heydər Əliyev-Süleyman Dəmirəl dostluğunun rolu əvəzsiz idi.

Protokolun imzalanmasından az sonra, yəni 20 may 1992-ci ildə Naxçıvan Ali Məclisinin nümayəndə heyəti Ali Məclisin Sədrinin köməkçisi Qafaq Məmmədovun başçılığı altında 5 nəfərlik nümayəndə heyəti Ankaraya gəldi. Heyət üzvləri erməni hücumlarından zərər çəkən əhalinin ehtiyaclarını təmin etmək məqsədi ilə Türkiyənin ayırmış olduğu 100 milyon dollar həcmində olan kreditin 25 milyon dollarını ərzaq məhsulları və geyim şəklində verilməsini istədi. Naxçıvan ilə Türkiyə əlaqələrini inkişaf etdirən amillərdən biri də Türkiyədən Naxçıvana veriləcək elektrik enerjisi xəttinin tamamlanması idi. Bu xəttin çəkilişi 200 milyard liraya başa gəldi. Türkiyə Elektrik Kurumu tərəfindən 180 km.uzunluğunda və 154 minlik voltluk enerji daşıyacaq şəklində qurulmuşdur.

Bütün bunlarla yanaşı, Naxçıvanın Türkiyənin elektrik sisteminə daxil edilməsi, tərəflər arasında dəmiryolu, quru yolun çəkilməsi işlərinin sürətləndirilməsi, Araz çayı üzərində körpünün tikintisi, təyyarə reyslərinin təşkil edilməsi, kənd təsərrüfatı, bankçılıq, təhsil, turizm sahələrində yardımların edilməsini Türkiyə tərəfi öhdəsinə götürürdü.

Heydər Əliyev ilə görüşdə Baş nazir Süleyman Dəmirəl Naxçıvanın iqtisadi çətinliklərinin aradan qaldırılması, ehtiyaclarının təmin edilməsi üçün lazım olan bütün köməkliklərin göstəriləcəyi barədə söz verir. Heydər Əliyev Türkiyə ilə Naxçıvan arasında imzalanan bu müqavilənin siyasi, iqtisadi və mənəvi əhəmiyyətinə işarə edərək, bu müqavilənin Qars və Moskva müqavilələri kimi tatixə düşəcəyini, gələcək nəsillərin , bütün Türk dünyasının bu müqaviləni imzalayanlara təşəkkür edəcəklərini qeyd etmişdr. Həqiqətən də, Heydər Əliyevin dahiliyi nəticəsində imzalanan bu müqavilə Naxçıvanın düşmüş olduğu ağır iqtisadi və siyasi böhrandan və blokadadan xilas olmasında əvəzsiz rol oynamışdır.

İgdir və Naxçıvanı bir-birinə bağlayacaq körpünün açılmasından əvvəl əlaqələri inkişaf etdirmək məqsədi ilə İgdirin vilayət ( İl ) olması qərara alındı. Baş nazir Süleyman Dəmirəl və Məclis Başkanı Hüsaməddin Cindorukun fəaliyyəti nəticəsində bu məsələ Məclisin gündəliyinə çıxarıldı. Müzakirələrdən sonra 27 may 1992-ci ildə 3806 saylı qanunla İgdir Vilayət oldu. İgdirin vilayət olması münasibəti ilə Baş nazir Süleyman Dəmirəl İgdirə gəldi. Baş nazir Adnan Menderesin dövründə söz verilib lakin yaradılmayan İgdir 40 illik müddətdən sonra vilayət elan edildi. Naxçıvan ilə əlaqələri qaydaya salmaq, əhalinin başqa vilayətlərə köçünün qarşısını almaq baxımından İgdirin vilayət olmasınn böyük əhəmiyyəti var idi. Tədbirdə İgdirin vilayət olmasında böyük rolu olan ulu öndər Heydər Əliyev də iştirak etmişdir.

Naxçıvan sərhəd qapısının (keçid məntəqəsinin) 23 apreldə-Ulusal Egemenlik ve Cocuq bayramı günü açılması nəzərdə tutulmuşdur. Lakin lazımi işlər tamamlanmadığına görə 28 may 1992-ci il tarixdə açılması qərara alındı. Naxçıvan sərhəd keçid məntəqəsinin açılış günü müəyyənləşdikdən sonra körpünün 35-40 km.uzaqlıqda olan əraziləri bombalayan ermənilərin hücumlarına qarşı Ərzincandakı 3-cü ordu və Ərzurumdakı 9-cu Kolordu tabeliyindəki bir bölük həyəcan vəziyyətinə gətirildi. Malatya, Erhaç, Merzifon, və Ərzurum havalimanındakı qırıcılar havaya qalxdılar. Ali Məclisin Sədri Heydər Əliyev "Misafirimiz böyükdür. Böyük Türk millətinə yaraşan şəkildə qarşılama keçirəcəyik. Ermənilərin atəşkəsə əməl edəcəklərinə ümid edirəm. Bu barədə bir problem çıxaracaqlarını güman etmirəm" demişdir. Lakin bütün bu çağırışlara Ermənistandan gələn bəzi adamlar əməl etmədilər. Körpünü havaya uçurmaq məqsədi ilə may ayının əvvəllərində Türkiyəyə qaçaq yollarla daxil olan 3 nəfər Ermənistan vətəndaşı yaxalandı.

1992-ci il may ayının 28-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl 60 millət vəkili və 40-dan çox nüfuzlu kütləvi informasiya vasitələri nümayəndələri ilə birgə Araz çayı üzərində uzunluğu 288 metr, eni 12 metr, ümumi smeta dəyəri 5 milyon manat olan yeni körpünün - "Ümid körpüsu"nün açılışını etmək üçün

Naxçıvana gəldi. S.Dəmirəl Naxçıvan Hava Limanında bütün dünyanın diqqətini Türkiyə-Azərbaycan birliyinin sarsılmazlığına yönəldərək dedi: "Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. Biz dünyanın Azərbaycan haqqında həqiqətləri bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla olmuşdur və olacaq. Biz kədəri və sevinci birlikdə bölüşəcəyik".

O vaxt Türkiyə dövlət və hökumət nümayəndələrinin Naxçıvanda olması əhali tərəfindən böyük sevinclə qarşılanmış, sakinlər qardaş ölkənin maddi və mənəvi dəstəyini yüksək qiymətləndirərək, dərin ehriram nümayiş etdirmişlər. On minlərlə türk və azərbaycanlının iştirakı ilə keçirilən tarixi açılış mərasimində çıxış edən möhtərəm Heydər Əliyev xalqlarımız arasında uzun illərdən bəri davam edən həsrət və intizarın sona çatmasına işarə edərək dedi: "Bu gün arzu və ümidlərimizin körpüsü açılır. 70 ildən artıq idi ki, bu günü gözləyirdik və arzularımız həyata keçdi". Bu körpünün təkcə hər iki ölkəni coğrafi cəhətdən birləşdirmədiyini önə çəkən Süleyman Dəmirəl "Ümüd körpüsü"nün əhəmiyyətini geniş şərh edərək yüksək qiymət verdi: "Bu körpü təkcə Azərbaycanla Türkiyəni birləşdirmir, bu, Avropa ilə Asiya arasında da körpüdür. Avropa və Asiya ölkələrinin qarşılıqlı, faydalı əlaqələrinə xidmət edə bilər". Körpü yalnız türklərlə azərbaycanllar arasındakı bir əsrlik həsrəti aradan qaldırmadı, eyni zamanda Naxçıvanın son illərdəki inkişafına zəmin yaradan iqtisadi inkişafa zəmin yaratdı.

Möhtərəm Heydər Əliyev "Ümüd körpüsü"nün Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə və inkişaf etməsinə, qardaş xalqların bir birinə yaxınlaşmasına xidmət etdiyini nəzərə alaraq 9 iyun 1992-ci il tarixli qərarla Sədərək-Dilucu körpüsünü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan etdi. Qeyd edək ki, fəaliyyət göstərdiyi dövrdə bu körpü iki qardaş xalqı bir-birinə daha sıx birləşdirməklə yanaşı, hər iki tərəfdən insanların həyat səviyyəsinin yaxşılaşmasına da böyük töhfə verdi. 70 ildən sonra iki dövləti birləşdirən körpünün açılışında Baş nazir S.Dəmirəl, Baş nazirin köməkçisi Erdal İnönü, Nazirlər İsmet Sezgin, Hikmet Çetin, Onur Kumbaracıbaşı, Cavit Çağlar, Tansu Çiller, Sümer Oral, və Əkrəm Coşqun iştirak etmişdilər. Körpünün açılışından sonra S.Dəmirəl və nümayəndə heyəti Naxçıvan şəhərinə gələək Şəhidlər xiyabanını və tarix muzeyini ziyarət etdilər. S.Dəmirəl H.Əliyevi Ankaraya dəvət etdi.

İkitərəfli münasibətlərin, ticarət əlaqələrinin möhkəmlənməsi, qarşılıqlı inam və etibar mühitinin formalaşması nəticəsində türk iş adamlarının bölgəyə marağı artdı, bir çox sahələrin inkişafı üçün sərmayələr qoyuldu. Uzun illərdən bəri fəaliyyəti dayanmış tikinti təşkilatları, sənayə müəssisələri işə düşdü, yeni şirkətlər, istehsal və emal müəssisələri yarandı. Körpünün açılmasından sonra ikitərəfli əlaqələr genişlənməyə başladı.Körpü ilə vətəndaşlarla yanaşı maşınların da keçməsinin sayı çoxaldı. Naxçıvandan İgdirə bu və ya digər mallarla yanaşı yanacaq da daşınmağa başlandı. 1996-cı ilin sentyabr-dekabr aylarında Naxçıandan İgdirə 52.460 ton yanacaq (mazot) , 1997-ci ilin yanvar-may aylarında isə 65.731 ton yanacaq daşınmışdır.

Naxçıvan ilə Türkiyə arasında başqa bir ticarət sövdələşməsi şəkər çuğunduru ilə bağlı olmuşdur. Türkiyə Şəkər Fabrikaları A.Ş. ilə Naxçıvan MR arasında bir protokol imzalanır. Müqaviləyə görə Naxçıvandan alınacaq şəkər çuğunduru müqabilində Naxçıvana qənd və gübrə verilməsi nəzərdə tutulurdu.

Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1991-1993-cü illərdə Naxçıvan ilə Türkiyə arasında mədəni əlaqələr də yüksək səviyyədə inkişaf etmişdir. Bu əlaqələr zəngin tarixi keçmişə malik olsa da, 70 il tərkibində olduğumuz sovet rejimi bu əlaqələrin qarşısını almışdır. Lakin Azərbaycan müstəqilliyini elan etdikdən sonra yenidən mədəni əlaqələr bərpa edilmişdir. 1991-ci ilin aprel-may aylarında Naxçıvan Dövlət Flarmoniyasının sənətkarları Türkiyənin müxtəlif şəhərlərində, o cümlədən Ankarada, İstanbulda, Adanada, Konyada və b. şəhərlərdə konsertlər vermişdilər.

Təhsil sahəsində ikitərəfli əlaqələr inkişaf etmişdir. Heydər Əliyevin Türkiyəyə etdiyi səfər zamanı (1992 mart) bağlanmış protokolun 2-ci maddəsinə əsasən hər il 100 tələbənin təhsil almaq üçün Türkiyəyə göndərilməsi nəzərdə tutulmuşdu. 1992-ci ilin 21 sentyabrında (eylül) Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyənin Çağ Ögretim Anonim Şirketi arasında əməkdaşlıq müqaviləsi imzalandı. Müqaviləyə görə Şirkət Azərbaycanın bir çox şəhərlərində müasir məktəblər açmağı öhdəsinə götürürdü.. Belə məktəblərdən biri də 1993-cü ildə Naxçıvanda açıldı. Bu dövrdə Naxçıvanın elm və təhsil baxımından əsas təhsil müəssisəsi olan Naxçıvan Dövlət Universiteti elm və təhsil sahəsində əlaqələrin məhkəmləndirilməsində mühüm rol oynamışdır.

1992-ci ildə Anadolu Folklor Vakfının dəvəti ilə Naxçıvanın folklor qrupları Türkiyədə səfərdə olmuşlar. 1993-cü ilin aprel ayında Naxçıvan Dövlət Flarmoniyası ilə Dram Teatrın əməkdaşları Qarsda teatr tamaşası göstərmişdilər.

Naxçıvan ilə Türkiyə arasında əlaqələrin bir xəttini də din təşkil edir. Heydər Əliyevin Ali Məclisin Sədri işlədiyi dövrdə Türkiyənin Naxçıvanda bir məscid inşa etməsi barədə razılıq əldə olunmuşdur. Türkiyə Diyanet Vakfı tərəfindən inşa edilən məscidin açılışı Naxçıvan Muxtariyyətinin yaranmasının 75-ci ildönümü tədbirləri zamanı olmuşdur. Məscidə 1918-ci ildə Naxçıvanın erməni zülmündən xilas edilməsində böyük xidmətləri olan

Mustafa kamal Paşanın silahdaşı Kazım Qarabəkir Paşanın adı verilmişdir. Açılışda Heydər Əliyev, Türkiyə Diyanet İşleri Müdiri Yaşar Nuri, Kazım Qarabəkir Paşanın qızı Timzal Qarabəkir də iştirak etmişdilər.

Sonrakı mərhələdə dövlətimizin yüksək diqqət və qayğısı ilə muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu diyarın xaricdən asılılığı azaldıldı. Naxçıvan özü-özünü təmin etməyə və yaşatmağa qadir olan bir regiona çevrildi. Bu körpü bizim üçün Avropaya, Türkiyə üçün Şərqə yeni üfüqlər açdı.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına, dinamik şəkildə, eləcə də çox uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev qardaş Türkiyə dövləti ilə münasibətləri yüksələn xətt üzrə inkişaf etdirərək starteji müttəfiqlik səviyyəsinə qalxmasında əhəmiyyətli rol oynadı.

## ƏDƏBİYYAT


1. Talıbov V. Deportasiya tarixi və Naxçıvan. NDU-nun “Elmi əsərlər”i (xüsusi buraxılış). Naxçıvan, 2001, №8, səh.8-15
2. Məmmədov M.Naxçıvan: dövlət müstəqilliyimiz uğrunda mübarizənin dayağı (siyasi, analitik, elmi və publisistik yazılar). Bakı, Şirvannəşr, 2011, 302 səh.
3. “Naxçıvan” İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. №5. Naxçıvan, “Əcəmi” 2011, 138 səh.
4. Naxçıvan. Məqalələr toplusu. Bakı, Elm, 1990, 184 səh.
5. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, f.1; f.3/701; f.5/703; f. 6/700; f. 7/702; f.40; f.63; f.260
6. Naxçıvan Muxtar Respublikası-80. Tarixi-statistik məcmuə. Bakı, Səda, 2004, 112 səh.
7. Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı, 1999, 127 səh.
8. Seyidov M. Zamanı qabaqlayan dahi. “Vektor” Nəşirlər Evi, Bakı, 2008, 315 səh.
9. Ə.M.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, “Azərbaycan” nəşriyyatı, 2005, 631 səh.
10. Türkiyə Prezidenti Abdullah Gül Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvana gəlmişdir. “Xalq” qəzeti, 3 oktyabr 2009-cu il, № 219
11. M.Abdullayev. Azərbaycan-Türkiyə əlaqələri. Bakı, Mütərcim, 1998, 112 səh.
12. M.Qasımov. Azərbaycan-Türkiyə diplomatik-siyasi əlaqələri. Bakı, Mütərcim, 1998
13. Bir millət, iki dövləti birləşdirən “Ümid körpüsü”. “Şərq qapısı” qəzeti, 28 may 2013-cü il
14. E.Hüseynov. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1995-ci illər). Tarix elm.nam.dis. avtoreferat AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Az.TU-nun mətbəəsi, 1000, 25 səh.
15. F.Hüseynova. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri. Bakı, 2007, 96 səh.
16. Cengiz Atlı. Iğdır-Nahçıvan ilişkilerinde önemli geçiş noktası Hasrat kapısı-açılışı ve iki ülke ilişkilerindeki rolü.Uluslararası Sosyal Araştırmalar Dergisi.Cilt 6, Sayı 28, Yıl 2013, 11 səh.
17. Vefa Babayeva. Haydar Aliyev dönemi Türkiye-Azerbaycan ilişkileri. Yüksek Lisans Tezi, İstanbul, 2013, 175 səh.


## ABSTRACT


**Mustafayev Abdulla**
**Ruhiyya Rzayeva**


### NAKHCHIVAN IN POLITICAL RELATIONS BETWEEN AZERBAIJAN AND TURKEY


With the revival of the Nagorno-Karabakh conflict on the bascground of the collapse of USSR since the end of XX centry, a tense social-political, economical,and military situation emerged in Nakhchivan as well.

Destruction of the Armenian section of the railway line linking nakhchivan with other parts of Azerbaijan by Armenians, cutting gas, electricity and other communication lines has aggravated this situation.

Thus, Nakhchivan, separated from the main territory of Azerbaijan through the territory of Armenia, has fully blockaded.

But after the returning basc of national leader Heydar Aliyev to his native Nakhchivan, tense efforts were made to remove the crisis autonomous republic experienced, first, relations with neighboring Iran and Turkey were established.

İt is shown in the scientific article that as a result of the intense activity carried out by Heydar Aliyev on a basis of his knowledge and personal effect,in a short time,which the Azerbaijanis called “ bridge of hope”, Turks called the “ bridge of heart”, the temporary bridge between nakhchivan and Turkey on the Araz River was opened, and by the use of this bridge, much aids were come from Turkey to Nakhchivan.

The reciprocal visits of Heydar Aliyev, the Chairman of the Supreme Majlis of Nakhchivan, to Turkey and Suleyman Demirel, the Prime Minister of Turkey, to Nakhchivan have founded a new stage in the life of Nakhchivan.

## РЕЗЮМЕ

**Абдулла Мустафаев**
**Рухия Рзаева**

## НАХЧЫВАН В ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЯХ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ

С появлением Нагорно-Карабахской проблемы на фоне распада СССР в конце XX века в Нахчыване также возникла напряженная социально-политическая, экономическая и военная ситуация.

Эта ситуация еще больше усугублялась разрушением участка железнодорожной линии, соединяющей Нахчыван с другими частями Азербайджана, со стороны армян на их территории и прекращением газовых, электрических и других коммуникационных линий.

Таким образом, Нахчыван, который был отделен от территории Азербайджана территорией Армении, оказался в полной блокаде.

Однако после возвращения в родной Нахчыван общенациональной лидер Гейдар Алиев прилагает все усилия, чтобы Автономная Республика вышла из этой тяжелой ситуации. С этой целью прежде всего были установлены тесные отношения с соседними странами-Ираном и Турцией.

В статье также констатируется, что опираясь на свой опыт и личный авторитет, Гейдар Алиев путем интенсивной деятельности за короткий срок добился открытия временного моста через реку Араз между Нахчываном и Турцией, который азербайджанцы называли «Мост надежды», а турки-«Сердечный мост». В сложнейшую ситуацию того времени через этот мост из Турции в Нахчыван был переброшен значительный обьем материальной помощи.

Взаимные визиты Председателя Верховного Меджлиса Нахчыванской Автономной Республики Гейдара Алиева в Турции и Премьер Министра Турции Сулеймана Демиреля в Нахчыван заложили начало нового этапа в жизни Нахчывана.

**ELMAN CƏFƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*
*ecaferli@mail.ru*

## SİYASİ MUXTARİYYƏTLƏRİN TƏŞKİLİNDƏ MARAQLI DÖVLƏTLƏRİN ROLU

**Açar sözlər:** *siyasi muxtariyyət, Naxçıvan, Acarıstan, Türkiyə, Aland, İsveç, Cənubi Tirol, Avstriya, Honkonq, Makao, Böyük Britaniya, Portuqaliya*

**Key words:** *political autonomy, Adjara, Nakhchivan, Turkey, Aland, Sweden, South Tyrol, Austria, Hong Kong, Macao, Great Britain, Portugal*

**Ключевые слова:** *политическая автономия, Нахчыван, Аджария, Турция, Аланды, Швеция, Южный Тироль, Австрия, Гонконг, Макао, Великобритания, Португалия*

Muxtariyyət (yunanca "autonomia" – özünüidarəetmə: "autos" – özüm, "nomos" – qanun) – bir dövlətin tərkibində müəyyən dərəcədə müstəqilliyə sahib xüsusi siyasi-ərazi vahidi olub, həmin ərazidə yaşayan və ölkənin əsas əhalisindən fərqli milli-etnik kökə malik əhalinin milli identikliyini (dilini, mədəniyyətini, adət-ənənələrini, məişət həyatını və s.) qoruyub saxlamaq və inkişaf etdirmək üçün əlverişli şəraitin təmin olunmasına xidmət edir. Siyasi muxtariyyət isə – dövlətin, həmin ölkədə milli azlıq hesab edilən hansısa bir etnik qrupun kompakt şəkildə yaşadığı, ayrıca götürülmüş bir ərazisinə geniş özünüidarəetmə səlahiyyətlərinə və müəyyən dövlətçilik atributlarına malik olmaq hüququnun tanınmasıdır. Böyük əksəriyyəti milli-etnik amilə əsaslanan bu siyasi muxtariyyətlərin hər birinin özünəməxsus yaranma tarixi şəraiti və siyasi inkişaf prosesi olmuşdur. Bu baxımdan bəzi siyasi muxtariyyətlərin yaranmasında onun hüquqlarını müdafiə edən ikinci dövlətin bu və ya digər səviyyədə maraqlı tərəf kimi iştirak etməsi təcrübəsi nadir hal deyildir.

Türkiyə XX əsrin əvvəllərində Cənubi Qafqazda möhkəmənmək siyasətini yürüdürdü. Bu siyasət 1918-ci il iyunun 4-də bölgə ölkələri ilə Batumda bağlanmış dostluq müqavilələrinə gətirib çıxardı. 1920-ci ildə bölgədə siyasi vəziyyət əsaslı şəkildə dəyişildikdən sonra Azərbaycanın Naxçıvan və Gürcüstanın Acarıstan muxtariyyətləri təşkil edildi. Belə ki, 1921-ci il martın 16-da Türkiyənin sovet Rusiyası ilə imzaladığı Moskva, həmin il oktyabrın 13-də Cənubi Qafqazın üç sovet respublikası (Azərbaycan, Gürcüstan, Ermənistan) ilə bağladığı Qars müqavilələrində hər iki muxtar ərazi ilə bağlı müddəalar əks olundu. Türkiyə maraqlı tərəf kimi Naxçıvan və Acarıstan muxtariyyətlərinin yaradılmasında həlledici rol oynadı.

Azərbaycan türklərinin mütləq üstünlük təşkil etdiyi Naxçıvan ərazisi tarixən daim Azərbaycana məxsus olmuşdur. 1918-1920-ci illərdə Cənubi Qafqazda cərəyan edən hərbi-siyasi hadisələr, ermənilərin tarixi Azərbaycan torpağı olan İrəvana və ətraf ərazilərinə yiyələnməsi və Zəngəzur vilayətini işğal etməsi Naxçıvanın ölkənin əsas ərazisindən ayrı düşməsi ilə nəticələndi. Məhz bu amil Naxçıvanın Azərbaycanın tərkibində siyasi muxtariyyətə çevrilməsini şərtləndirdi.

Batum müqaviləsi ilə Naxçıvan qəzasının bir hissəsinə nəzarət hüququ qazanan Türkiyə, 1920-ci il dekabrın 2-də daşnak rejimi ilə imzaladığı Gümrü müqaviləsi (maddə 2) ilə [2, v. 128-133] Naxçıvanı erməni müdaxiləsindən mühafizə edərək, öz himayəsinə götürürdü. Lakin Naxçıvanın tarixi taleyini məhz 1921-ci müqavilələri həll etdi. Moskva müqaviləsinin 3-cü maddəsinə əsasən, tərəflər müəyyən edilən (müqavilənin I(C) əlavəsi) sərhədlər daxilində Naxçıvanın Azərbaycanın himayəsində muxtar ərazi olmasına razılaşdılar. Azərbaycan bu protektoratlığı gələcəkdə heç vaxt üçüncü bir dövlətə güzəştə getməməli idi. Qars müqaviləsinin 5-ci maddəsi isə aşağıdakı məzmunda idi: "Türkiyə Hökuməti ilə Ermənistan və Azərbaycan sovet hökumətləri bu müqavilənin 3 saylı Əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsinə razıdırlar". 3 saylı Əlavədə Naxçıvan ərazisinin sərhədləri əvvəlki müqavilədən daha dəqiq əks olunmuşdu [1, s. 26-27, 70, 79-80]. Müqavilələrdə Türkiyənin maraqlı tərəf kimi çıxış etməsi və Naxçıvanın hər hansı üçüncü tərəfə güzəştə gedilməsi ehtimalının istisna edilməsi, ermənilərin Naxçıvana qarşı iddia və təcavüzü, sovet Rusiyasının isə ermənilərə bu məsələdə yardım etmə təhlükəsinin qarşısını almağa yönəlmişdi. Sonrakı mərhələdə erməni iddialarına sovet mərkəzi hakimiyyət orqanlarının açıq və ya gizli dəstəyi qarşısında məhz bu müqavilələr Naxçıvanı işğal təhlükələrindən xilas edən mühüm faktor oldu.

Sovet hakimiyyəti illərində Naxçıvanın muxtariyyət statusu hüquqi cəhətdən Azərbaycan (1925, 1927, 1937, 1978) və Naxçıvan konstitusiyalarında (1924 (Əsasnamə), 1926, 1937, 1978) möhkəmləndirildi. Hazırda Naxçıvan MR-nın statusu Azərbaycan Respublikasının 1995-ci il və muxtariyyətin 1998-ci il konstitusiyaları ilə tənzimlənir.

Əvvəllər müxtəlif gürcü dövlətlərinin, XVI əsrdən isə Osmanlı Dövlətinin tərkibinə olan Acarıstan ərazisi Yeşilköy (San-Stefano) müqaviləsi və Berlin traktatına (1878) əsasən, Qars və Ərdahanla yanaşı, çar Rusiyasına verilmişdi. Sovet Rusiyası ilə Dördlər ittifaqı (Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan) arasında imzalanmış Brest-Litovsk sülh müqaviləsinə (1918, 3 mart) görə həmin ərazilər Türkiyəyə qaytarıldı. Gürcüstanla imzalanan "Sülh və dostluq" (1918, 4 iyun) müqaviləsi ilə Gürcüstan Batumu Osmanlı Dövlətinin ərazisi kimi tanısa da, I Dünya müharibəsindən sonra Batum və ətrafına nəzarət Antanta qüvvələrinin əlinə keçdi.

1921-ci ildə Gürcüstanda sovet hakimiyyəti elan edildikdən sonra Türkiyə Acarıstanı Gürcüstan SSR-in ərazisi kimi tanıdı. Moskva müqaviləsinə görə (maddə 2), əhalisinin inzibati cəhətdən hər bir icmanın mədəni və dini hüquqlarını təmin edən ərazi muxtariyyətinə nail olması, özünün heç bir vergi ödəmədən Batum limanından istifadə hüququnun saxlanılması şərti ilə Türkiyə Batum şəhəri və limanı da daxil olmaqla, Batum dairəsi üzərindəki suverenliyini Gürcüstana güzəştə getdi. Həmin müddəa Qars müqaviləsində (maddə 6) də əks olundu [1]. Türkiyənin Batum və ətrafına ərazi muxtariyyəti verilməsi şərti ilə özünün məhz suverenlik hüququndan imtina etməsi o demək idi ki, 1921-ci il iyulun 16-da Gürcüstan İnqilab Komitəsinin dekreti ilə Gürcüstan SSR-in tərkibində yaradılmış Acarıstan muxtariyyəti gələcəkdə ləğv ediləcəyi təqdirdə, Türkiyənin ərazi üzərində suverenliyini bərpa etmək hüququ yaranır.

Sovet hakimiyyəti illərində Acarıstanın üç (1922, 1937, 1978) Konstitusiyası olmuşdur. 2004-cü ilin aprel-may aylarında Gürcüstanla Acarıstan arasında baş verən böhrandan sonra mərkəzi hökumət ölkə Konstitusiyasına (1995) etdiyi dəyişikliklərlə və "Acarıstan Muxtar Respublikasının statusu haqqında" Konstitusiya Qanunu (2004, 4 iyul) ilə muxtariyyətin səlahiyyətlərini məhdudlaşdırdı. Muxtariyyətin hazırda qüvvədə olan 2008-ci il Konstitusiyası 5 fəsil, 28 maddədən ibarətdir. Bundan başqa, 5 maddədən ibarət Acarıstan Muxtar Respublikası haqqında Gürcüstanın Konstitusiya Qanunu qəbul edilmişdir (2017, 13 oktyabr).

Finlandiyanın Aland adaları muxtariyyəti də bu sahədə ilk nümunələrdən biridir. 660 illik İsveç hakimiyyəti dövründən (1150-1809) sonra Finlandiya Rusiya ağalığı (1809-1917) altına keçdikdə, son Rusiya-İsveç müharibəsi (1808-1809) nəticəsində imzalanan Fredrikşamn müqaviləsi ilə Aland arxipelaqı Böyük Finlandiya Knyazlığının tərkibində Rusiyaya birləşdirildi. Krım müharibəsinin (1853-1856) nəticəsində bağlanmış Paris sülh müqaviləsi (1856) ilə adalar Rusiyanın tərkibində qalmaqla, silahsızlaşdırılmış zonaya çevrildi.

1917-ci il dekabrın 6-da Finlandiya Respublikası yaradıldıqdan sonra Alandın İsveçə birləşməsi məsələsi yenidən gündəliyə gəldi və fin dövlətinin qarşısında dayanan ilk təhlükəsizlik problemi oldu. Arxipelaq əhalisi birləşmək məqsədi ilə iki dəfə İsveç kralına müraciət etdi [16, s. 4]. 1917-ci il dekabrın 31-də adalarda keçirilən plebissitdə iştirak edənlərin 95%-i İsveçlə birləşməyə səs verdi [7, s. 268-269]. İsveç adalara ordu göndərib, buradakı rus qoşunlarını tərksilah etdikdə, Finlandiya bunu öz daxili işlərinə müdaxilə kimi qiymətləndirdi. İsveç isə öz müqəddəratını təyin etmə prinsipini irəli sürərək adalara tarixi hüquqlarının olduğunu və onun müdafiəsi üçün zərurət yarandığını bildirdi. Fin hökuməti arxipelaqdakı separatçı hərəkatın liderlərini həbs etdi. İsveç isə Alandın hərbisizləşdirilmiş zona olması və geniş muxtariyyət verilməsi şərti ilə onun Finlandiyanın tərkib hissəsi olmasına razılaşdı [9, s. 39]. Brest-Litovsk müqaviləsinə uyğun olaraq, rus ordusu Aland adalarından çıxarıldı. Martın 7-də Almaniya ilə Finlandiya arasında bağlanmış Berlin müqaviləsinin 30-cu maddəsi Brest-Litovsk müqaviləsinin 6-cı maddəsinin şərtlərini təkrar etdi [6, s. 69-75].

Finlandiya Millətlər Liqasına üzv olduqdan (1920) və Aland əhalisi arxipelaqın İsveçə verilməsi xahişi ilə müraciət etdikdən sonra Millətlər Liqasının qərarı ilə, isveçdilli əhaliyə geniş muxtariyyət verilməsi şərti ilə, Aland Finlandiyaya verildi. Bu qərarın qəbul olunmasına fin dövlətinin adalar üzərində suverenliyi saxlamaq cəhdləri qarşısında İsveçin qonşu dövlətlərlə yaxşı münasibətlərə malik olmaqla bağlı prioriteti mühüm təsir göstərdi. Adaları itirməmək üçün Finlandiya Alanda isveç dili, mədəniyyəti və milli adətlərinin qorunması barədə zəmanət verərək, İsveçlə bu zəmanətin həyata keçirilməsi barədə müvafiq müqavilə (1921, 7 iyun) imzaladı [3, s. 189]. Hər iki ölkə Alandı neytral və silahsızlaşdırılmış zona kimi tanıdı. Finlandiya – Aland adaları üzərində suverenlik, alandlılar – özünüidarəetmə, İsveç – adaların özü üçün hərbi təhlükə təşkil etməyəcəyi zəmanətini aldı. Alandın muxtariyyət məsələsi konstitusion səviyyədə XX əsrin sonunda həll olundu. 1991-ci il avqustun 16-da qəbul edilən və 1993-cü il yanvarın 1-də qüvvəyə minən "Aland adalarının muxtariyyəti haqqında" Akt və Finlandiya Konstitusiyası (1999) onun yüksək statusunu təsbit etdi.

Orta əsrlərdə Avstriya-Macarıstan imperiyasına məxsus olmuş tarixi Avstriya əyaləti olan Tirol I Napoleon dövründə, 1797-ci ildə Fransa-Avstriya müharibələrinin getdiyi əraziyə çevrildi. Austerlis döyüşündə (1805, noyabr) məğlub olan Avstriya Tirolu Napoleonun əsas müttəfiqlərindən olan Bavariya hersoqluğuna güzəştə getməyə məcbur oldu. 1814-cü il Vyana konqresinin qərarı ilə Tirol yenidən birləşdirildi və Avstriya-Macarıstan imperiyasına qaytarıldı.

I Dünya müharibəsindən sonra Cənubi Tirol Antanta ilə Avstriya arasında bağlanan Sen-Jermen müqaviləsi ilə (1919, 10 sentyabr) İtaliyaya verildi. İtaliyada faşistlərin hakimiyyətə gəlişindən (1922) sonra əyalətin almandilli əhalisi italyanlaşdırılmaya məruz qaldı, alman dilindən istifadə hüququ ləğv edildi, italyan

dili əyalətdə rəsmi dil elan edildi. Polis və ordudan almanlar qovuldu, ailələr soyadlarını dəyişdirməyə məcbur edildi, coğrafi adlar dəyişdirildi, əyalət "Alto-Adice" adlandırıldı, onun almanca adı ("Südtirol") qadağan edildi. 1929-cu ildən bütün məktəblərdə italyan dilində tədrisə keçildi, alman dili məhkəmə orqanlarında (1925), ardınca isə bütün hökumət və bələdiyyə orqanlarında (1932) istifadədən çıxarıldı. Faşist ittifaqı üzvlərinə italyan qəsəbələrinin salınması üçün əyalətin alman kəndlilərinin torpaqlarını zəbt etmək hüququ verildi (1926) [17].

İtaliyanın təkidi ilə faşist liderlər B.Mussolini ilə A.Hitler arasında imzalanmış müqavilədə (1939, oktyabr) almandilli əhalinin Almaniya ərazisinə sürgün edilməsi razılaşdırıldı. Qarşılığında A.Hitler İtaliyadan Avstriyanın işğalına loyal münasibət göstərmək tələbini qoymuşdu. Əyalətdə referendum keçirildi və əhalinin 70%-i alman dilini öz doğma dili hesab etdiyini bildirdi. Almandilli əhalinin qarşısında iki şərt qoyuldu: kim alman dilində danışmaq istəyirsə, Almaniya ərazisinə köçə bilər, qalanlar italyanlaşdırılmaya məruz qalacaq. Nəticədə almandilli əhalinin 86%-i köçməyi üstün tutdu. Lakin müharibə başladığından onların yalnız 1/3-i köçə bildi [3, s. 128; 19].

II Dünya müharibəsi başa çatdıqdan sonra İtaliya ilə Avstriya arasında xarici işlər nazirləri A.Qasperi və K.Qruber tərəfindən Cənubi Tirola dair Paris müqaviləsi (1946, 5 sentyabr) imzalandı. Avstriyaya Cənubi Tirolda almanca danışan azlığın müdafiə hüququ tanıyan müqavilə əyalətin alman əhalisinə ana dilində ibtidai və orta təhsil almaq, ikidilli toponimika və alman soyadlarını bərpa etmək təminatı verir, almanların yaşadığı ərazilərə və əvvəlcədən Triyent əyalətinə qatılmış Alto-Adice ərazisinə qanunvericilik və icraedici səlahiyyətləri əhatə edən muxtariyyət verilməsini nəzərdə tuturdu [17, s. 9-10]. Bu razılaşma İtaliyanın Avstriya ilə 1947-ci ildə bağladığı sülh müqaviləsinə (müqavilə İtaliya ilə Avstriyanın sərhədlərini 1919-cu ilə görə müəyyən edir, Cənubi Tirol İtaliyanın tərkibində qalırdı – E.C.) daxil edildi və beynəlxalq əhəmiyyət kəsb etdi [18].

Müharibədən sonra İtaliya Cənubi Tirolu italyanların çoxluq təşkil etdiyi əyalətlə (Trentino) birləşdirərək, bu yolla italyan əhalinin üstünlüyünə nail olmaq siyasəti yürütdü: cənubdakı 99%-i italyanlardan ibarət olan Trento və şimaldakı əhalisinin 2/3-si almanlar olan Bolzano (Cənubi Tirol) əyalətləri birləşdirilərək Trentino-Alto-Adice regionu təşkil edildi (1947, 27 iyun). Cənubi Tirolda isə almandilli əhalinin sayı 1910-cu ildəki 93%-dən 60 %-ə endi, əvəzində italyanlar 2,9 %-dən 35%-dək artdı. Qalan 5% əhali ladin dilində danışırdı. Dillərin bərabər səviyyədə işlədilməsi yenə mümkün olmadı: italyanca yenə rəsmi dil elan edildi, istənilən sənədin italyan dilində olan nüsxəsi qanuni sayıldı [3, s. 127; 19; 20]. Halbuki ölkə Konstitusiyası (1947, 27 dekabr) azlıqların dillərinin qorunması, muxtariyyətlərin təşkili haqqında müddəalara malik idi. İtaliyanın tədricən federativ dövlətə çevrilməsini nəzərdə tutan 2001-ci il konstitusiya islahatları ilə muxtariyyətlərin hüquq və səlahiyyətləri daha da genişləndirilmişdir.

1948-ci il Muxtariyyət Statutu ilə unitar İtaliya dövlətinin tərkibində Bolzano-Alto Adice Muxtar Regionu yaradıldı. Muxtariyyətin tətbiqi almandilli əhaliyə Cənubi Tirol qanunverici orqanında öz milli tərkibini əks etdirmək imkanı verdi, belə ki, region parlamentində yerlərin 2/3-si italyanlara, 1/3-i isə almanlara ayrılmışdı. İtaliya hökuməti Mussolini dövründə köçürülən almanların geri qayıtmasına və vətəndaşlığa daxil olmasına icazə verdi. Nəticədə köçən 78 min almandan 50 mini geri qayıtdı [17; 20].

1960-cı ildə problem BMT Baş Assambleyasının XV sessiyasının gündəliyinə və qətnaməsinə salındı: Avstriyanın İtaliya ilə "Tirol məsələsi üzrə" danışıqlar aparmaq hüququ təsbit edildi, alman əhalinin italyanlarla bərabərliyi, Beynəlxalq Məhkəməyə müraciət hüququ, problemin sülh yolu ilə həlli tələbi öz əksini tapdı. BMT iki qətnaməsində (1960, 31 oktyabr; 1961, 28 noyabr) İtaliya və Avstriyaya Paris müqaviləsinin həyata keçirilməsindəki fikir ayrılıqlarını həll etməyi və danışıqlara başlamağı təklif etdi. İtaliya hökuməti Cənubi Tirol probleminin həlli üçün 19 nəfər (11 üzv İtaliyadan, 8 üzv əyalətdən) parlament üzvü və siyasi ekspertlərdən ibarət daxili komissiya yaratdı (1961, 3 sentyabr). "19-lar komissiyası" BMT-nin dəstəyi ilə 1969-cu ildə 137 bənddən ibarət təkliflər paketi hazırladı. Paketdə əyalət hakimiyyətinin yeni səlahiyyət sahələri ilə yanaşı, qanun və inzibati sərəncamların yerinə yetirilməsinə dair təlimatlar əks olunmuşdu [8, s. 27-28; 14, s. 16]. Həmin il İtaliya baş naziri A.Moro ilə Avstriya xarici işlər naziri K.Valdhaym arasında Cənubi Tirola dair ikinci müqavilə imzalandı [20].

İtaliya parlamentinin konstitusiya qanunu kimi qəbul etdiyi (1971, 10 noyabr) 12 bölmə, 115 maddədən ibarət yeni Muxtariyyət Statutu ("Trentino-Cənubi Tirol üçün Xüsusi Statut") 1972-ci il yanvarın 20-də qüvvəyə mindi [12, s. 65; 13, s. 65]. Statut Trentino və xüsusən də Cənubi Tirol muxtar əyalətlərində etnik azlıqların siyasi, sosial-iqtisadi və mili-mədəni hüquqlarının qorunmasına böyük hüquqi təminat bazası yaratdı. Lakin Statut tam şəkildə 20 il sonra icra olunmağa başladı. Dillərin bərabərliyi prinsipi isə dövlət orqanlarında 1989-cu ilin mayından tətbiq olundu. Yalnız bundan sonra Avstriya 1992-ci il aprelin 22-də nota verərək regionla bağlı ziddiyyətlərin aradan qaldırıldığını bəyan etdi [15, s. 39]. 1992-ci il iyunun 19-da BMT Baş katibi B.Butros-Qali 1960-cı ildən etibarən BMT Baş Assambleyasının gündəliyində olan Avstriya-İtaliya mübahisəsinin rəsmi olaraq başa çatdığını elan etdi [5; 14, s. 15].

Dünyanın ən böyük unitar dövləti olan Çin Xalq Respublikası inzibati cəhətdən 22 əyalətə, 5 milli muxtar regiona, 4 mərkəz tabeli şəhərə və 2 xüsusi inzibati regiona bölünür. ÇXR-in 1982-ci il

Konstitusiyasında [21, s. 10-11] milli regional muxtariyyətlərlə bağlı müddəalar əks olunmuş, "Regional milli muxtariyyət haqqında" ÇXR-in Qanunu (1984, 31 may) qəbul edilmişdir.

Lakin Çində regional muxtariyyətin tətbiqinə ÇXR-in elan edilməsindən əvvəl başlanılmış, 1947-ci ildə Daxili Monqolustan Muxtar Regionu yaradılmışdı. 1952-ci ildə ölkə hökuməti "ÇXR-də milli ərazi özünüidarəetməsinin həyata keçirilməsi haqqında Proqram" qəbul etdikdən və ölkə Konstitusiyasına etnik azlıqların regional muxtariyyəti sistemi daxil olunduqdan sonra Sincan-Uyğur (1955), Quansi-Çjuan (1958) və Ninszya-Xuey (1958) və Tibet (1965) müvafiq status əldə etdilər. Hazırda 5 muxtar region, 30 muxtar prefektura, 120 muxtar dairə olmaqla, cəmi 155 muxtar bölgəsi olan ÇXR-də 100-dən çox xalqın nümayəndəsi yaşasa da, dövlət 55 etnik azlığın mövcudluğunu tanıyır ki, onlardan da 44-ü ərazi muxtariyyətinə malikdir [4, s. 81]. Milli muxtar regionlarla müqayisədə Honkonq və Makao rəsmi şəkildə Xüsusi İnzibati Region (XİR) adlandırılsa da, daha real və geniş muxtariyyətə malikdirlər. Bu regionların təşkili onların əvvəl başqa ölkələrin müstəmləkələri olmaları və statuslarına dair bağlanan dövlətlərarası müqavilələrlə bağlıdır.

Honkonq və Makao XIX əsrin ortalarından müvafiq olaraq Böyük Britaniyanın və Portuqaliyanın mülkiyyətində olmuşdur. ÇXR yaradılan (1949) kimi həmin ərazilərin qaytarılmasını tələb edəndə müstəmləkələr artıq köklü bazar iqtisadiyyatına və demokratik siyasi sistemə malik idi. 1980-ci illərdə Çin lideri D.Syaopin Honkonq və Makaonun öz iqtisadi-siyasi sistemini saxlamaqla, ÇXR-ə birləşməsini nəzərdə tutan "bir ölkə, iki sistem" siyasətini irəli sürdü. Böyük Britaniya və Portuqaliya ilə razılaşmaya əsasən 1997-ci ildə Honkonq, 1999-cu ildə isə Makao Çinə qaytarıldı. Lakin Çin 50 il ərzində bu regionlarda öz siyasi sistemini tətbiq edə bilməz.

1984-cü il dekabrın 19-da Pekində ÇXR Dövlət Şurasının Sədri Ç.Sziyanla Böyük Britaniyanın Baş naziri M.Tetçer Çinin 1997-ci il iyulun 1-dən Honkonq üzərində suverenliyinin bərqərar olunmasını nəzərdə tutan Çin-Britaniya Birgə Bəyannaməsini imzaladılar. Bəyannaməyə görə Honkonq Çinə qaytarıldıqdan sonra bilavasitə Çinin mərkəzi hökumətinin nəzarətində olan, yüksək muxtariyyətə malik xüsusi inzibati region yaradıldı, region hökuməti yerli əhalidən təşkil edildi, müstəqil qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanları yaradıldı, xarici siyasət və müdafiə məsələləri istisna olmaqla, qalan bütün məsələlər (azad liman və ayrıca gömrük ərazisi olmaq, öz valyuta vahidini (Honkonq dolları) saxlamaq, maliyyə müstəqilliyi və mərkəzə vergi ödəməmək, miqrasiya məsələlərində müstəqillik və s.) həllində müstəqilliyini saxladı. Honkonq haqqında xüsusi qanunla 50 il ərzində regionun siyasi və iqtisadi sistemi toxunulmaz elan edildi, çin dili ilə yanaşı ingilis dili də idarəetmə orqanlarında işlədildi, region öz bayrağı və gerbinə malik oldu, əvvəllər qüvvədə olmuş məhkəmə-hüquq sistemi və qanunlar qüvvədə saxlanıldı. Maliyyə məsələlərində tam sərbəst olsa da, Honkonq büdcə və yekun maliyyə hesabatlarına görə mərkəzi hökumət qarşısında məsuldur. Honkonq beynəlxalq maliyyə mərkəzi statusunu qoruyur [10]. Hazırda Honkonqun statusu ÜÇXNM-in qəbul etdiyi (1990, 4 aprel) "ÇXR-ın Honkong Xüsusi İnzibati Regionu haqqında Əsas Qanun"la tənzimlənir. Qanun 1997-ci il iyulun 1-dən qüvvədədir.

ÇXR-in daha bir xüsusi inzibati regionu Qunadun əyalətinin inzibati ərazisində yerləşən Makaodur. Makao regionu eyni adlı yarımada ilə birlikdə Taypa və Koloan adalarını əhatə edir. Tarixən Çinə məxsus olmuş ərazi 1535-ci ildən portuqaliyalı tacirlər tərəfindən istifadə olunurdu. XIX əsrdə Çinin zəifləməsindən istifadə edən Portuqaliya Makaonun müddətsiz işğalı ilə bağlı təslimçi Pekin müqaviləsini (1887) Çinə qəbul etdirdi. 1951-ci ildə Salazar hökuməti Makaonu ölkənin "dənizarxası əyaləti" elan etsə də, antiimperialist "Qərənfil inqilabı"ndan (1974) sonra Portuqaliya Makaoya olan bütün iddialarından əl çəkdi. İki ölkə arasında diplomatik münasibətlər qurulduqdan (1979) sonra portuqal hökuməti Makaonun Çin ərazisi olduğunu qəbul etdi. Çinlə Portuqaliya arasında problemin həlli ilə bağlı dörd dəfə (1986, iyun-1987, mart) aparılan danışıqlar nəticəsində Pekində "ÇXR ilə Portuqaliya Respublikası hökumətləri arasında Makao məsələsi üzrə birgə bəyannamə" imzalandı (1987, 13 aprel). 1999-cu il dekabrın 20-də region ÇXR-in suverenliyinə verildi və Xüsusi İnzibati Region statusu aldı [11, s. 36-39; 22]. Makaonun hüquqi statusu ÜÇXNM-in qəbul etdiyi (1993, 31 mart) "ÇXR-in Makao Xüsusi İnzibati Regionu haqqında Əsas Qanun"la tənzimlənir. Qanun 1999-cu il dekabrın 20-dən qüvvədədir.

## ƏDƏBİYYAT


1. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində). Naxçıvan: 2004, 140 s.
2. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, fond 314, siyahı 5, iş 18
3. Benedikter Thomas. Modern Özerk Sistemler. Dünya Özerklik Örnekleri. İstanbul: Nika Yayınevi, 1. Baskı, Mayıs 2014, 512 s.
4. Ван Цзяньган. «Уйгурский вопрос» и этнополитическая ситуация в Синьцзяне. Дисс. на соиск. уч. степ. канд. исторических/политических наук. Москва: 2018, 146 с.
5. Райнер Карл. Законодательство автономной провинции Южный Тироль // Казанский

федералист, 2007, №1-2(21-22), зима-весна, с. 52-63
6. Barros, James. The Aland Islands Question: Its Settlement by the League of Nations. New Haven and London: Yale University Press, 1968, xiii+362 p.
7. Brown, Philip Marshall. The Aaland Islands Question. American Journal of International Law. Vol. 15, No. 2 (April, 1921), pp. 268-272
8. Chaloupková Petra. Accommodation of Substate Nations Through Territorial Autonomy: South Tyrol and The Basque Country Compared. Budapest, Hungary: 2011, 86 p.
9. Finland: A Country Study. Federal Research Division Library of Congress. Edited by Eric Solsten and Sandra W. Meditz. Research Completed December 1988. Second Edition, 1990, U.S. Government Printing Office Washington, xxiii+69 pp.
10. Joint Declaration of the Government of the United Kingdom of Great Britain and Northern Ireland and the Government of the People's Republic of China on the Question of Hong Kong with Annexes // International Tax & Business Lawyer, 1987, Volume 5, pp. 424-441
11. Macao Electoral, Political Parties Laws and Regulations Handbook – Strategic Information, Regulations, Procedures. USA Int'l Business Publications, 2015, 308 p.
12. Das neue Autonomiestatut. Bozen: M&C, Dezember 2009, 145 p.
13. Il nuovo Statuto di Autonomia. Bolzano: M&C, Dicembre 2009, 145 p.
14. L’Autonomia dell’Alto Adige. Descrizione delle competenze legislative ed amministrative autonome della Provincia di Bolzano. Bolzano: M&C, Gennaio 2010, 385 p.
15. 70 anni Accordo di Parigi 1946-2016. Provincia Autonoma. Rivista della Giunta provinciale di Bolzano, 1/2016, 44 p.
16. 16. Suksi, Markku. Ålands constitution: en sammanstållning av material och tolkningar i anslutning till självstyrelselag för Åland. Åbo : Åbo Akademis Förlag, 2005, xvii+566 p.
17. Васильева Т.А. Областная автономия в Италии. URL: https://worldconstitutions.ru/?p=969
18. Жарков С. Тироль: две половинки одного целого. URL: http://russianvienna.com/istoricheskie-materialy/732-2011-01-06-11-06-36
19. Италия. Проблема Южного Тиролья. URL: http://www.conflictologist.org/problema-juznogo-tirolya.htm
20. Кризис идентичности. URL: http://kermlinrussia.com/krizis-idientichnosti/
21. China (People’s Republic of)'s Constitution of 1982 with Amendments through 2004, 37 p. https://www.constituteproject.org/constitution/China_2004.pdf?lang=en
22. Macao Special Administrative Region http://lt.china-emb sy.org/eng/ljzg/zgjk/xzqh/t124794.htm


## ABSTRACT

**Elman Jafarli**

**THE ROLE OF INTERESTED STATES IN CREATING OF POLITICAL AUTONOMIES**

Political autonomy is granted to a minority that lives compactly in a certain area. It serves to ensure the right to self-government in accordance with the principle of self-determination. Some autonomies arose as a result of specific treaties in which the second states act as an interested party. Nakhchivan within Azerbaijan, Adjara within Georgia, the Aland Islands of Finland and the South Tyrol region of Italy are such political autonomies. The Hong Kong and Macao regions of the CPR are also de facto political autonomies, despite the fact that they are officially the special administrative regions of China.



## РЕЗЮМЕ

**Эльман Джафарли**

**РОЛЬ ЗАИНТЕРЕСОВАННЫХ СТРАН В СОЗДАНИИ ПОЛИТИЧЕСКИХ АВТОНОМИЙ**

Политическая автономия предоставляется меньшинству, компактно проживающему в определенной области. Он служит для обеспечения права на самоуправление в соответствии с принципом самоопределения. Некоторые автономии возникли в результате конкретных договоров, в которых вторые государства выступают в качестве заинтересованной стороны. Нахчыван в составе Азербайджана, Аджария в составе Грузии, Аландские острова Финляндии и Южно-Тирольский область Италии является такими политическими автономиями. Регионы Гонконг и Макао КНР также фактически политические автономии, несмотря на то что официально называются особыми административными регионами Китая.

**VİDADİ SALMANOV**
*vidadisalmanov256@gmail.com*
**KÖNÜL SALMANOVA**
*konulsalmanova999@gmail.com*

# AZƏRBAYCAN-TÜRKİYƏ SİYASİ MÜNASİBƏTLƏRİNDƏ MÜASİR MƏRHƏLƏDƏ NAXÇIVANIN YERİ VƏ ROLU

“ Naxçıvan o yerdir, o şəhərdir, o respublikadır ki, Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd buradadır”

***İlham Əliyev***

**Açar sözlər:** *siyasi münasibət, diplomatik əlaqə, əməkdaşlıq, inkişaf*
**Key words:** *political relations, diplomatic relations, cooperation, development*
**Ключевые слова:** *политическое отношение, дипломатические отношения, сотрудничество, развитие*

Dünyada bir-birlərinin dövlət müstəqilliyini Azərbaycan və Türkiyə qədər dəstəkləyən və həmrəylik göstərən başqa bir nümunə tapmaq çətindir. Tarixə nəzər salsaq görərik ki, Türkiyə və Azərbaycan xalqları daim bir-birinin yanında olmuşlar. Hər iki dövlətin müstəqillik tarixi ağır və qanlı müharibələrdən keçib, hər iki dövlətin qurucularının - ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi, xalqı irəliyə aparmaq əzmi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Azərbaycanla Türkiyənin strateji tərəfdaşlığı hər iki xalqın eyni kökə mənsub olmasından qaynaqlanır. Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. bütün sahələrdə çox uğurla inkişaf etməkdədir.

Bildiyimiz kimi, 1991-ci ildə Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan-Türkiyə münasibətlərinin yeni mərhələsi başladı. Hər iki dövlət arasında tarixi və etnik köklərin vahidliyinə bağlı olan təbii yaxınlaşma, ümumi maraqlar ətrafında səylərin birləşdirilməsi müasir qloballaşan dünyada mövcud və potensial çağırışların aradan qaldırılmasına və gələcəyin möhkəm təməllər üzərində qurulmasına imkan yaradıldı. Eyni zamanda, yeni dünya nizamında ədalətin əsas meyar kimi qəbul edilməsi, hər iki dövlətin siyasi fəaliyyətinin nail olmaq istədiyi əsas məqsədlərdən birinə çevrilib. (1, s.6)

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Ali Məclisin sədri seçilməsi Naxçıvan-Türkiyə münasibətlərinin qurulmasına təkan verdi. Türkiyə ilə Naxçıvanın diplomatik əlaqələrin təşkili və inkişafı Azərbaycan xalqının ümummilli lideri, böyük siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbay-canda siyasi hakimiyyətə gəlişi ilə başladı. Bildiyimiz kimi, Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət Türkiyə olmuşdur. Belə ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra noyabrın 9-da Türkiyə Azərbaycanın müstəqilliyini tanıdı. Naxçıvan-Türkiyə arasında həmin ilin oktyabrında müvəqqəti körpü açıldı. Bu “Həyat qapısı” istifadəyə verildikdən sonra Türkiyə hökümət nümayəndələrinin, iş adamlarının, bu ölkənin qonşu vilayətlərinin nümayəndələrinin Naxçıvana səfərlərinin sayı çoxalmış, muxtar respublikaya edilən yardımların sayı artmış və Türkiyə “Qızıl ay”ının xətti ilə Naxçıvana ərzaq yardımı edilmişdir. İğdır şəhərinin əhalisi və valiliyi isə noyabrın sonunda qida məhsul-larından ibarət 19 yük maşını göndərmişdi.

1991-ci il dekabrın 30-da Türkiyə Cümhuriyyəti Bakı Baş konsulluğunun səfirlik səviyyəsinə yüksəldilməsi haqqında qərar verib və iki ölkə arasında “Diplomatik əlaqələrin qurulmasına dair” Protokol 1992-ci il yanvarın 14-də imzalandı və Türkiyənin Bakıda səfirliyi açıldı (3, s.11). 1992-ci ilin avqust ayından isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başladı və bu diplomatik münasibətlərin yaranması iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafında geniş perspektivlər açdı. Bundan sonra hər iki dövlət qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq ardıcıl addımlar atmağa başladılar. Müstəqilliyin ilk illərində Azərbaycanda mürəkkəb icitmai-siyasi proseslər zamanında Türkiyə dövləti Azərbaycan xalqının yanında olmuş, onun problemlərinin həllinə dəstək vermişdir. Türkiyə Araz çayı üzərində körpü salmaq barədə öhdəlik götürdü və həmin öhdəliyi qısa müddətdə icra etdi. Türkiyə mətbuatında Türkiyəni Naxçıvanla

birləşdirəcək körpünün tikintisinin tamamlanmaq üzrə olduğu və onun may ayında açılacağı bildirilirdi. Naxçıvan körpüsü Türkiyənin Qafqaz və Orta Asiya dövlətlərinə keçidini təmin edən bir qapı idi. 1992-ci il mayın 28-də Naxçıvan ilə Türkiyə arasında "Sədərək-Dilucu" 228 m-lik "Ümid körpüsü" açıldı (4, s.11). Və bu körpü Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında daha mühüm rol oynadı. Həmin gün iqtisadi böhran içərisində yaşayan region bayram əhval-ruhiyyəsi yaşayırdı. Körpünün rəsmi açılış mərasimində Türkiyənin Baş naziri Süleyman Dəmirəlin başçılığı ilə türkiyəli nazirlərdən, yüksək çinli məmurlardan və ziyalılardan ibarət 150 nəfərdən artıq nümayəndə heyəti iştirak etmiş və bölgə ilə ətraflı tanış olmuşdular. Ölkələrimiz arasında mühüm hadisə kimi dəyərləndirilən bu körpü iki qardaş xalqın uzun illər bir-birinə qovuşmaq arzusunu gerçəkləşdirdiyindən xalq arasında "Ümid körpüsü", "Həsrət körpüsü" adlandırılmışdı. Muxtar respublikanın ictimai-iqtisadi həyatında mühüm hadisə olan, iki qardaş xalqın uzun illər qovuşmaq arzusunu yerinə yetirən "Ümid" körpüsünün istifadəyə verilməsi böyük təntənə ilə qeyd olunmuşdur. Baş nazir Suleyman Dəmirəl körpünün açılışını Azərbaycanla Türkiyə arasında əməkdaşlığın yeni dövrünün başlanğıcı adlandırdı. Heydər Əliyev həmin körpünü "arzu və ümidlərin körpüsü" kimi dəyərləndirdi.

Körpünün açılış mərasimində S.Dəmirəl çıxışında qeyd etmişdir: "Bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biri ilə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir, bu coşğunluğu anlaya bilmək lazımdır. Bu, bir birlik, milli coşğunluqdur" və sonra demişdir: "Qardaşlıq, dostluq bundan sonra daha da sıx olacaqdır. Türkiyə ilə Azərbaycan, ona bağlı Naxçıvan arasında əlaqələr genişlənəcək, adamlar bir-birləri ilə yaxınlaşacaqlar".

Naxçıvanla Türkiyə arasında salınmış Sədərək - Dilucu körpüsünün istifadəyə verilməsi ilə blokadanın tədricən aradan qaldırılmasına, əhalinin rifahının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına başlanmışdı. Eyni zamanda, bu, Türkiyənin şərq vilayətlərinin inkişafına təkan vermiş, nəqliyyat əlaqələrinin inkişafı və beynəlxalq daşımalar üçün yeni istiqamət müəyyənləşdirmişdir. Bu gün də Türkiyə-Azərbaycan və Naxçıvan əlaqələrinin səviyyəsini, türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi istiqamətində görülən işlərin əhəmiyyətindən danışanlar Sədərək-Dilucu körpüsünə xüsusi önəm verirlər. Çünki bu körpü Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının başlanğıcı olmuşdur.

Naxçıvan-Türkiyə əlaqələrinin inkişafında təkanverici amil Heydər Əliyevin başçılığı ilə Naxçıvan nümayəndə heyətinin Türkiyəyə rəsmi səfəri olmuşdu. 1992-ci il martın 22-25-də Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə səfəri zamanı qardaş ölkənin dövlət başçıları ilə danışıqlar aparmışdı. Bu görüş zamanı Naxçıvan MR-in statusu məsələsindən də bəhs olunmuş və məsələ ilə əlaqədar Süleyman Dəmirəl qeyd etmişdi ki, Türkiyə, xarici qüvvələrin Naxçıvanın statusunu dəyişdirmək cəhdlərinə etinasız qalmayacaq və muxtar respublikaya hər cür yardım göstərəcəkdir. Bütün sahələrdə əməkdaşlığın qurulması və inkişaf etdirilməsi yönündə sənədlər imzalanıb və 13 maddədən ibarət olan bu sənəddə Türkiyə və Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişaf etdirilməsi nəzərdə tutulmuşdu. Muxtar respublikaya maliyyə, iqtisadi, texniki dəstək verilməsi, muxtar respublikanın zəruri ehtiyaclarının ödənilməsi üçün kreditin ayrılması, tərəflər arasında enerji layihələrinin qurulması, nəqliyyat strukturunun yaradılması təsdiqlənmişdi.

Ermənistanın təcavüzü ilə əlaqədar dərin narahatlıq keçirən Türkiyə rəhbərliyinin təcavüzün dayandırılmasına verdiyi əməli dəstəyin bir hissəsi də şübhəsiz ki, bu doğmalıqdan qaynaqlanırdı. Hətta 1992-ci ilin mayında Naxçıvanın Sədərək rayonuna ermənilərin hücumu ilə əlaqədar Türkiyə hökuməti bəyanat qəbul etmiş, 1921-ci il Qars müqaviləsinin şərtlərinə əsasən, Naxçıvan MR-in muxtariyyətinin qarantı olduğunu bütün dünyaya bəyan etmişdi. O zaman Heydər Əliyev Türkiyənin dövlət və hökumət rəhbərləri ilə əlaqə yaradaraq Qars müqaviləsində olan öhdəliklərin yenidən rəsmi şəkildə tanınmasına nail oldu və dünya ictimaiyyətinə təcavüzlə bağlı müraciət etdi. Bunun nəticəsi idi ki, dünyanın 57 dövləti rəsmi şəkildə Ermənistanın Naxçıvana hərbi təcavüzünü pisləyən bəyanatlar vermişdi. Bu hadisədən iki ay sonra 1992-ci ilin iyulunda Türkiyəyə səfər edən Heydər Əliyevin dövlət rəhbərləri və ictimaiyyətlə görüşlərində də bu məsələ diqqətdə olmuşdu. Bu səfər çərçivəsində Naxçıvanda Türkiyə konsulluğunun açılması məsələsi həllini tapmış, 7 ay sonra 1993-cü ilin 5 fevralında konsulluq fəaliyyətə başlamışdı.

Heydər Əliyevin Türkiyəyə sonrakı səfərləri zamanı da aparılan danışıqlar, imzalanmış sənədlər Naxçıvan-Türkiyə münasibətlərinin inkişafına təkan vermiş, muxtar respublikanın sosial-iqtisadi problemlərinin həllində əvəzsiz rol oynamışdı. Əslində, Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü Türkiyə ilə əlaqələrin qurulmasına ciddi zərurət yaratdığı kimi, böyük siyasətçinin türk dünyasının problemlərinin həllinə də xüsusi önəm verdiyi məlumdur. Ulu öndər müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra bu məsələlərlə ardıcıl şəkildə məşğul olmuşdur.

2008-ci ilin iyunun 4-də Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan Naxçıvana rəsmi səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə etmiş, ölkələrimizin qlobal

layihələri birgə uğurla həyata keçirməsi, beynəlxalq aləmdə bir-birinin mövqelərini tam dəstəkləməsi, regional əməkdaşlıqla fəal iştirakı bildirilmiş və mətbuat konfransda hər iki dövlət başçısı bəyanatla çıxış etmişlər.

Naxçıvan Muxtar Respublikasının son illərdəki dinamik inkişafı, quruculuq və müasirləşmə baxımından böyük infrastruktur layihələrinin həyata keçirilməsi bir sıra beynəlxalq tədbirlərin burada keçirilməsinə əsas verir. Bu mənada Türkdilli ölkələrin dövlət başçıları IX zirvə görüşünün Naxçıvanda keçirilməsi təsadüfi deyildir. Həm də Türk dövlət başçılarının zirvə toplantısının Naxçıvanda keçirilməsinin çox böyük geosiyasi, ideoloji, simvolik mənası və tarixi əhəmiyyəti vardır (2, s.85). Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü 2009-cu il oktyabrın 2-3-də Naxçıvan şəhərində keçirilən möhtəşəm tədbirlər silsiləsi türk dünyasının birliyi, həmrəyliyi, bu günü və gələcəyi baxımdan çox mühüm töhfələrlə yadda qaldı. Türk xalqları arasındakı mədəni və iqtisadi əlaqələri dərinləşdirmək, qarşılıqlı əməkdaşlığı artırmaq, ortaq tarixi, milli-mənəvi dəyərləri öyrənmək, qorumaq və təbliğ etmək, türkdilli ölkələrin beynəlxalq sülh və sabitliyə xidmət edən müsbət fəaliyyətlərini artırmaq, ölkələrin yerləşdiyi coğrafiyanı əməkdaşlıq, sabitlik və sülh bölgəsinə çevirmək, onların beynəlxalq siyasi arenada ortaq maraqlarından çıxış etməsini təmin etmək IX zirvə görüşünün əsas mahiyyəti kimi nəzərə çarpdı (2, s.86 ).

Prezidentlər Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan sazişini imzaladılar. Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün yekunu olaraq Naxçıvan bəyannaməsi qəbul edildi. Aparılan müzakirələr, irəli sürülən məsələlər və qəbul edilən qərarlar baxımdan əvvəlki samitlərdən fərqlənən IX zirvə görüşünün ən böyük xüsusiyyəti heç şübhəsiz tədbirin Naxçıvanda keçirilməsi oldu. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim diyar tarixində ilk dəfə bu qədər dövlət rəhbərini, xarici qonağı qarşıladı. Naxçıvanda ilk dəfə türk dövlətlərinin bayraqları birgə dalğalanırdı. Türk dünyası, bütün dünya mənfur qonşuların apardığı işğalçılıq siyasəti nəticəsində blokada vəziyyətinə düşmüş muxtar respublikanın necə inkişaf etdiyini, nələrə qadir olduğunu gördü. Ölkə başçısı Türkdilli ölkələrin dövlət başçılarınm IX zirvə görüşünün Naxçıvanda keçirilməsini çox gözəl və əlamətdar hadisə hesab edərək bu qədim diyarın türk dünyasında çox böyük və xüsusi yeri olduğunu bildirmişdi . “Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim dəyərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqı zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün böyük əhəmiyyət daşıyırdı. Azərbaycanın üçrəngli bayrağı böyük fasilədən sonra, hələ Sovet İttifaqı zamanında ilk dəfə olaraq məhz Naxçıvanda ucaldılmışdır” (6, 09.10.2009)

Zirvə görüşündə çıxış edən Türkiyə Prezidenti Abdullah Gülün Naxçıvanın Türkiyə üçün çox mühüm əhəmiyyət daşıdığını bildirərək demişdir: “Naxçıvanın Türkiyə üçün çox böyük əhəmiyyəti vardır. Naxçıvan bölgəsindəki Azərbaycan və Türkiyə arasındakı sərhəd xətti məsafəcə kiçik olsa da, siyasi mənada çox böyük əhəmiyyət daşıyır. 10-12 kilometrlik bir sərhəd xəttinin siyasi əhəmiyyəti olduqca böyükdür. Bu sərhədimiz Türkiyənin türk respublikaları ilə coğrafi birliyini də əlaqələndirən çox rəmzi bir keçiddir” (5, 29.10.2013).

Türkiyə-Naxçıvan əlaqələrinin inkişafına dair 20 Dekabr 2017-ci il tarixdə Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ilə Naxçıvanda görüşü bunun əyani sübutudur. Belə ki, 1921-ci ildə imzalanmış beynəlxalq Qars müqaviləsinə əsasən yaradıldığını, Azərbaycan Respublikasının tərkibində muxtar dövlət olan Naxçıvan Muxtar Respublikasının öz Konstitusiyası, parlamenti, icra və məhkəmə hakimiyyətlərinin olduğunu bildirilmiş, Naxçıvanda 1200-dən çox türk-islam mədəniyyəti abidəsi olduğu bildirilmişdir.

Həmçinin bildiyimiz kimi, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdi. Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi məhz şəhərimizin tarixiliyi, zəngin mədəniyyəti və müasir inkişaf dinamikası ilə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin şəhərləri sırasından bu statusa layiq görülməsidir. Bu hadisə Naxçıvanın sürətli inkişafına təkan vermək, diyarımızı dünyaya tanıtmaq, böyük yüksəliş üçün yeni qapılar açmaq deməkdir. Həmçinin bu seçimin əsas səbəbi Naxçıvanın bütün Şərq dünyasında qədim dövlətçilik ənənələrinə malik, İslam əxlaq və etiqadını, fəlsəfəsini yaşadan bir şəhərə, İslam dünyasının mədəniyyət zənginliyinin rəmzinə çevrilməsidir. Müasirlik, dünyəvi inkişafla yanaşı, keçmişə, tarixi-mənəvi irsə ehtiramın yüksək nümunəsi kimi son dövrdə muxtar respublikada tarix və mədəniyyət abidələrinin əsaslı təmiri və bərpa edilməsini qeyd etmək kifayətdir. Millilikla bəşəriliyin harmoniyası, uzunmüddətli blokada şəraitində misli görünməmiş inkişaf muxtar respublikaya beynəlxalq nüfuz qazandırmaqla dünyanın diqqətini paytaxt Naxçıvana yönəltmişdir.

Türkiyə Qafqaz siyasətini həmişə diqqət mərkəzində saxlamış və regionda cərəyan edən proseslərə fəal müdaxilə etməyə çalışmışdır. Hazırda Azərbaycan Türkiyənin Qafqazda ən böyük müttəfiqi və iqtisadi tərəfdaşıdır. Azərbaycan Türkiyənin Qafqazda olduğu kimi, həm də Orta Asiya və Xəzər bölgəsində digər dövlətlərlə, xüsusən türkdilli dövlətlərlə əlaqə yaratması üçün mühüm vasitə rolunu oynayır. Xəzərin enerji

resurslarının dünya bazarlarına nəql olunması sahəsində Azərbaycan ilə Türkiyə arasında davamlı əməkdaşlığın genişləndirilməsi hər iki dövlətin regionda siyasi-iqtisadi və strateji maraqlarının təmin edilməsini şərtləndirir. Azərbaycanın neft strategiyasının həyata keçirilməsi Qafqaz regionunda sabitliyin möhkəmləndirilməsi və qonşu dövlətlərlə, xüsusilə Türkiyə ilə strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsinə müsbət təsir göstərir.

Bu gün Azərbaycan-Türkiyə tərəfdaşlığı, bütövlükdə, regionun gələcək inkişafı üçün əlavə imkanlar yaradır. Çünki Azərbaycan və Türkiyə strateji mənada bir-birini tamamlayan vahidin ayrılmaz hissələridir. Bu müttəfiqlik eyni zamanda regionda sülhün və təhlükəsizliyin qorunmasının, eləcə də iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir. Heç şübhə yoxdur ki, bundan sonra da Türkiyə-Azərbaycan əlaqələrində, türk dünyasının həmrəyliyində Naxçıvanın xüsusi yerinin olması ən yeni tariximizin önəmli faktlarından olacaqdır.

## ƏDƏBİYYAT


1. Aslanov E. Azərbaycan-Türkiyə: dostluq, qardaşlıq və strateji tərəfdaşlıq. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar. Bakı, 2011, s.158
2. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, 2011, 272 səh.
3. Kılıç H. Son iyirmi ildə Azərbaycan və Türkiyə əlaqələrinə qısa baxış. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar. Bakı, 2011, 158 s.
4. Naxcıvan Muxtar Respublikası. 1969-1999 - Naxcıvan, 1999, 216 s.
5. https://azertag.az/xeber. 20.12.2017
6. “Şərq qapısı” qəzeti, 10. 09.2009



## ABSTRACT

### THE PLACE AND ROLE OF NAKHCHIVAN AT THE PRESENT STAGE OF AZERBAIJANI-TURKISH POLITICAL RELATIONS

The article states that Nakhchivan Autonomous Republic is an important place in the development of Azerbaijani-Turkish relations. The situation in Nakhchivan after the collapse of the Soviet Union gives information about the development of relations between the Republic of Turkey and Nakhchivan in the fields of economy, education, transport and communication. Also, the Republic of Turkey provides financial, economic, technical assistance to the Autonomous Republic, allocation of credit for the needs of the autonomous republic, construction of energy projects between the parties, and the creation of a transport structure.

It is reported that Nakhchivan has a great and special place in the Turkish world. The Turkish world sees how the whole autonomous republic has developed and became capable of blockading as a result of the occupation of Armenians by the whole world.



## РЕЗЮМЕ

### МЕСТО И РОЛЬ НАХЧЫВАНА НА СОВРЕМЕННОМ ЭТАПЕ АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЙ

В статье говорится, что Нахчыванская Автономная Республика является важным местом в развитии азербайджано-турецких отношений. Ситуация в Нахчыване после распада Советского Союза дает информацию о развитии отношений между Турецкой Республикой и Нахчыванom в области экономики, образования, транспорта и связи. Кроме того, Турецкая Республика предоставляет финансовую, экономическую, техническую помощь Автономной Республике, выделение кредитов для нужд автономной республики, строительство энергетических проектов между сторонами и создание транспортной структуры.

**RƏŞAD ƏSGƏROV**
*asgarov_rashad@mail.ru*
**NOVRUZƏLİ RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*novruzrehimov62@mail.ru*
**ABBAS ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*abbasahmedov@mail.ru*
**BAĞIR BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*baqirbabayev59@mail.ru*

# NAXÇIVAN TÜRKİYƏ DİPLOMATİK ƏLAQƏLƏRİ VAHİD TÜRK BİRLİYİNİN YARADILMASINDA MÜHÜM AMİL KİMİ

**Açar sözlər:** *Ümummilli Lider, Naxçıvan, Azərbaycan, Türkiyə, Türk dünyası, Avropa və Asiya*
**Key words***: national leader, Nakhchivan, Azerbaijan, Turkey, Turkish world, Europe and Asia.*
**Ключевые слова:** *общенациональный лидер, Нахчыван, Азербайджан, Турция, Турецкий мир, Европа и Азия.*

Ümummilli Lider Heydər Əliyevin Naxçıvanı ölkəmizin digər bölgələri kimi qüdrətli bir diyara çevirmək siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2003-cü ildən bu günə kimi uğurla həyata keçirilir. Naxçıvana olan bu diqqət və qayğı muxtar respublikanın Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvanın sosial-iqtisadi inkişafında və muxtar diyarın sakinlərinin rifah halının yaxşılaşmasında öz əksini tapır" (4). Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Naxçıvan Türkiyə siyasi-diplomatik əlaqələri və ardıcıl, dönməz uğurlu siyasət bu gün iqtisadi blokadanın bütün çətinliklərin müvəffəqiyyətlə dəf edən regionumuzun dövlətlərarası əməkdaşlıqda yaxından iştirak etdiyinə təminat yarandığından xəbər verməkdədir. Çünki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin davam etdirdiyi uğurlu siyasət, quruculuq tədbirləri düşmən əhatəsində olsa da mövcudluğunu-varlığını əzəmətini qoruyub saxlayan və getdikcə möhkəmləndirən Naxçıvanın hərtərəfli müdafiəsi və gücləndirilməsində mühüm əhəmiyyət daşıyır. Tarixin müəyyən dönəmlərində Azərbaycandan ayrı salınmış bu region ölkəmizin ayrılmaz bir parçası olaraq hər zaman dövlətimiz tərəfindən ən etibarlı şəkildə qorunur.

Türkiyənin Naxçıvana olan qardaşlıq münasibətləri çox böyük əhəmiyət daşıyır və həmişə də onun gələcəkdə nəticələrinin uğurlu olduğunu tarix özü təsdiqləyir. Türkiyənin Azərbaycanla və bütün Türk dünyası arasında yeganə quru sərhəd məntəqəsi olan Naxçıvan bu baxımdan böyük əhəmiyyət daşıdığına görə buranın bütün sahələrdə inkişafına Türkiyənin dəstək olacağı hər zaman vurğulanmışdır. Çünki Naxçıvan qədim Azərbaycan torpağıdır və Türk xalqlarının çoxminillik qədim tarixini özündə yaşatmaqdadır. Azərbaycan Türkiyə əlaqələrinin böyük tarixi var. Ortaq dil, din birliyi, oxşar mədəniyyət, vahid kök, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında əsas yer alır. XX əsrin 90-cı illərin əvvəllərinə qədər türk dünyasını beynəlxalq aləmdə yalnız Türkiyə Cümhuriyyəti təmsil edirdi. 90-cı illərin başlanğıcında SSRİ-nin dağılması, "dəmir pərdə"nin aradan qaldırılması nəticəsində daha beş Türk dövlətinin müstəqillik qazanması ilə Türk dünyasında bir canlanma başlandı. Yenicə müstəqillik əldə etmiş beş müstəqil Türk dövləti dünyanın siyasi xəritəsində öz yerlərini taparaq, Avropa və Asiya arasında Türk dünyasının yerləşdiyi məkanı-geopolitik Türk qovşağını formalaşdırdılar" (9, s.49) .

Türkiyənin Azərbaycanla, o cümlədən Naxçıvanla münasibətlərinin yeni mərhələsinin başlangıcı SSRİ-nin dağılması və iki qütblü dünyadan təkqütblü dünyaya keçid dövrünə təsadüf edir. Bundan sonra bütün Türk dövlətlərinin və Türk dünyasının əlaqələrinin yaranması, genişlənməsi və daha da möhkəmlənməsi prosesi sürətlənməyə başladı. Bu zaman Türkiyə Cümhuriyyəti bütün türk xalqlarına və müstəqilliklərinə yenicə qovuşan müstəqil Türk dövlətlərinə çox geniş ürəklə qəlbən qucaq açdı və bütün məsələlərin həllində onların yanında dayanıb mövqelərinin müdafiəçisinə çevrildi. Burada xüsusilə, Türkiyə-Azərbaycan münasibətlərinin böyük əhəmiyyətindən danışmaq, eləcə də bütün Türk dünyasına nəzərən Şərqin qapısı- Türkiyədən başlanan və Türk dünyasına gedən yolun keçdiyi Naxçıvanla qurulan əlaqələrin vacibliyinin reallığı göz qabağındadır.

Bu gün, “Bir millət, iki dövlət” olarak səsləndirilən Türkiyə və Azərbaycan Cumhuriyyətləri arasındaki qarşılıqlı əlaqələr dərin tarixî köklərə dayanmaqdadır”(2, s.XIII). Bu mənada hazırkı dövrdə Azərbaycan-Türkiyə münasibətlərindən danışılarkən hər kəs tərəfindən bu münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi etiraf edilir. Bu məqamda tarix bir daha sübut edir ki, dövətin təsir gücü ərazisinin böyüklüyü, əhalisinin sayı ilə ölçülmür. Düzgün aparılan daxili və xarici siyasət, resurslardan düzgün istifadə edilməsi, ölkənin maraqlarından çıxış edən balanslasdırılmış xəttin yeridilməsi dövlətin uğurunun təminatında əhəmiyyətli rol oynayır (7, s.16).

Çağdaş dönəmdə qloballaşan dünyada coğrafi yaxınlıq, mədəniyyət, din və dil birliyi ilə bir-birinə bağlı olan Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti bütün sahələrdə əməkdaşlıq, bərabərlik nümayiş etdirir və beynəlxalq müstəvidə bir-birilərinə dəstək verirlər. Azərbaycan və Türkiyə Ulu Öndər Heydər Əliyevin müdrikliklə söylədiyi “bir millət, iki dövlət” sözünə sadiq olaraq, müxtəlif sahələrdə sıx əməkdaşlıq edirlər. Tarixi və etnik köklərin birliyi ilə bağlı olan bu təbii yaxınlaşma, ümumi səylərin birləşdirilməsi, qloballaşan dünyada mövcud olan potensial çağırışların ortadan qaldırılmasına və gələcəyin möhkəm təməllər üzərində qurulmasına imkan yaradır (3, s.X).

Azərbaycanın xarici siyasətində Türkiyə ilə münasibətlərin xüsusi əhəmiyyətə malik olduğunu təsdiq edən və ümumiyyətlə, iki ölkənin qarşılıqlı əlaqələrini səciyyələndirən əsas cəhət ondan ibarətdir ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hər il iki ölkənin dövlət və hökumət rəhbərlərinin çoxsaylı qarşılıqlı rəsmi və işgüzar səfərləri hökumətlərarası münasibətləri tənzimləyən müxtəlif sənədlərin imzalanması ilə müşayiət olunmuşdur. “Bu, iki dost ölkənin qarşılıqlı münasibətlərinin özünəməxsusluğunun təzahürü olmaqla yanaşı, ikitərəfli əlaqələrin dinamik inkişafı üçün geniş hüquqi-normativ bazanın yaradılmasında mühüm rol oynamışdır” (5, s.3).

Azərbaycanın, xüsusilə də Naxcıvan Muxtar Respublikasının yerləşdiyi coğrafi məkan mövqeyinə görə Turkiyənin Türk dünyasına çıxış qapısı olaraq qəbul edilməkdədir. Eyni zamanda da belə əhəmiyyətli coğrafi mövqedə yerləşən və buna görə də Türk dünyası ilə Türkiyənin bütün sahələrdə əlaqəsini yaradan Naxçıvanın unikal- bənzərsiz yeri müstəqillikdən sonrakı dövrdə bütün Türk dövlətləri ilə qurula biləcək əlaqələrdə və bir-birilərinə ehtiyac olan dəstək göstərilməsində əvəzsiz bir tarixi missiya rolunu oynamaqdadır. Bu mənada Azərbaycanın Türkiyə ilə və Türkiyənin də öz növbəsində Azərbaycan daxil olmaqla bütünlüklə Türk dövlətləri ilə mehriban qonşuluq, dostluq münasibətlərinin yaradılmasında, bununla yanaşı, başda Türkiyə olmaqla bütün türk dövlətlərinin hazırkı dövrdə bütövlükdə dünyaya təsirində Naxçıvanın geostrateji mövqeyinin nə qədər əhəmiyyətli olduğu danılmazdır. Burada bunu da nəzərə almaq yerinə düşər ki, “tarixin özü tərəfindən sübut olunmuşdur ki, bütün türk dunyasının əlqələndirilməsində Naxçıvanın mühüm strateji mövqeyi onun ərazisi və əhalisi ilə ölçülmür”(7, s.16).

Türk dünyasının birliyinə nail olmaq, onu vahid mövqe ətrafında hərtərəfli möhkəmləndirmək məhz Azərbaycanın, o cümlədən Naxçıvanın Türkiyə ilə olan diplomatik əməkdaşlığının mühüm istiqamətlərindən biridir. Azərbaycan Respublikasının yarandığı ilk illərdən başlayaraq hərtərəfli Azərbaycan- Türkiyə əməkdaşlığını getdikcə genişləndirmək vacib vəzifə kimi qarşıya qoyulmuşdur. Türk dünyası dövlətlərinin hər biri əvvəllərdə ayrı-ayrılıqda fərqli mövqelər sərgiləmişlərsə də, hər bir dövlətin özünə məxsus rolu və vəzifələri ortada olmuşdursa da, lakin Türk birliyinin- Türk dövlətlərinin vahid birliyinin yaradılması yönündə Azərbaycanla Türkiyənin daşıdığı vəzifələr bənzərliyi ilə diqqəti cəlb etmişdir. Yəni, hər iki dövlət Türk dövlətlərinin birliyi ideyasının reallaşmasında vacib ilkin addımları birlikdə- bərabər atmışlar.

Çünki “Muxtar Respublika blokadaya düşmüşdü”(1, s.309). Türkiyə rəhbərliyinin siyasi iradəsi və Heydər Əliyevin diplamatik fəaliyyəti nəticəsində erməni təcavüzkərlarının niyyəti dünya ictimaiyyətinə çatdırıldı. “57 dövlət bu təcavüzü pislədi və NATO xüsusi bəyanət verdi”(1, s.301). 1992-ci ildə mayın 28-də Sədərk-Dilucu Ümid körpüsünün açılışı Azərbaycan və Türkiyə arasında əlaqələrin inkişaf yolunun beynəlxalq aləmə bir daha çatdırmış oldu (18). Süleyman Dəmirəl, 28 may 1992-də Türkiyə ilə Naxçıvan arasındakı əlaqəni saxlayan “Həsrət Köprüsü”nün açılışında “kim kuvvet kullanarak toprak kazanma yoluna giderse, bilmelidir ki, kendisinden daha kuvvetlisi de vardır ve pişman olacaktır”(6, s.43:16,1992,29 may) demişdir. Naxçıvandan Sədərək-Dilucu körpüsü istifadəyə verilməklə Avropa ilə Asiyani, Türk dünyasını birləşdirdi, bütün Türk millətlərinin gələcək tarixlərində birliyinə, müttəfiqliyinə, həmrəyliyinə çağırış simvolu oldu.

Bu illərdən sonra Naxçıvanın Türkiyə ilə Azərbaycan və bütövlükdə isə Türk dünyası ölkələrinin birliyinin və həmrəyliyinin təminatındakı xüsusi əhəmiyyətli rolu görünməyə başladı. Türkiyənin qüdrətli dövlət və siyasi xadimlərindən biri olan Süleyman Dəmirəl də Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rolunu yüksək qiymətləndirib. Onun fikrincə, Heydər Əliyev erməni təcavüzü nəticəsində blokadaya məhkum olunmuş Naxçıvana rəhbərlik etdiyi dövrlərdən Türkiyə ilə münasibətlərə xüsusi əhəmiyyət vermiş, bu hesaba ölkələrimiz arasında faydalı əməkdaşlığa nail olunmuşdur” (17).

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbovun 1996-cı il 12-17 mart tarixlərində Türkiyə Cümhuriyyətinə ilk rəsmi səfərində aparılan danışıqlardan əldə olunan nəticələr Muxtar Respublikanın mövcud problemlərinin həlli istiqamətində mühüm irəlləyişlərin və uğurların olacağından xəbər verirdi. Çünki Ali Məclis Sədrinin bu səfərindən sonra Türkiyə Cürmhuriyyətinin dövlət və hökümət rəhbərlərinin bütünlükdə Naxçıvan bölgəsinə göstərdikləri diqqət və qayğı, xüsusilə də Naxçıvanın blokada şəraitində daha da vüqar və əzəmətlə mövcudluğuna, perspektivli yüksələn inkişaf və tərəqqisinə heç nəyi əsirgəməyəcəklərinin bir daha təsdiqi oldu. "Türkiyə Cümhuriyyətinin doğma dost və qardaş ölkə olaraq Naxçıvan Muxtar Respublikasına bundan sonra göstərdiyi hərtərəfli, təmənnasız dəstəyini dostlar da, düşmənlər də gördülər" (17).

2003-cü ildən sonra İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında mövcud olan və davamlı şəkildə inkişaf edən münasibətlər yeni bir mərhələyə qədəm qoydu və Türkiyənin Azərbaycan üçün əhəmiyyətini qorumasına səbəb oldu. Regional balansın qorunması, həmçinin Azərbaycanın enerji ehtiyatlarının Qərbə çatdırılmasında Türkiyənin oynadığı rol ikitərəfli münasibətlərin gücləndirilməsini zəruri etmişdir. 2007-ci ildə qəbul olunan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında Türkiyə–Azərbaycan münasibətlərinin strateji əməkdaşlıq səviyyəsində olduğu qeyd olunmuşdur" (5, s.3).

Naxçıvanın bu günümüzdə Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti və Türk respublikaları ilə əlaqələrinin qurulmasında çox böyük əhəmiyyətli geostrateji mövqedə yerləşməsi heç kəsdə şübhə doğurmur və hamı üçün çox aydındır. Naxçıvanın çox uzaq keçmişlərdən bu günümüzə qədər Qərblə Şərqin qovşağında yerləşməsilə Böyük İpək Yolunun Sakit okeandan başlanmış Avropaya qədər gedib çatan hüdudsuz ərazisində, xüsusilə də Şərqdən Qərbə Türk dövlətlərinin birinin digəriylə hərtərəfli əlaqələrinin qurulmasında və inkişafında əvəzsiz rol oynadığı bugün də hamımıza aydındır.

Əlbəttə, heç kəsə sirr deyildir ki, Türkiyənin Azərbaycanla münsibətlərinin müasir mərhələsində Naxçıvanın Türk dünyasının ayrılmaz bir parçası olması hamımız üçün qürurvericidir. Yəni bu, bir tərəfdən çox qədim tarixi köklərdən xəbər verməkdədir. Digər tərəfdən isə dünyada, o cümlədən də Cənubi Qafqazda hələ də səngimək bilməyən, bitib-tükənməz geosiyasi proseslərin davam etdiyi bir dövrdə çox aktual olan mövcud tarixi, sosyal-iqtisadi və siyasi durum ilə sıx əlaqəlidir.

Azərbaycan bugün Avropa üçün çox önəmli, çöx dəyərli bir ölkəyə çevrilib (3, X). Ona görə də məhz Azərbaycan və Türkiyə dövlət və hökumət rəhbərlərinin Naxçıvanda keçirilən görüşləri hər zaman böyük əhəmiyyət daşıyır. Bu mənada 2008-ci ilin iyunundakı Naxçıvan görüşlərinin nəticələri çox uğurlu olmuşdur. Yəni bu görüşdə Naxçıvanın enerji təhlükəsizliyinin təminatı üçün həlli vacib olan addımların atılacağı açıqca vurğulanmışdır. Azərbaycan dövlətinin başçısı Azərbaycan qazının 2007-ci ildə açılışı olmuş Bakı-Tblisi-Ərzurum kəməri ilə Türkiyəyə daxil olmasını, gələcəkdə Azərbaycan qazını Türkiyə vasitəsilə Naxçıvanla həmsərhəd olan bölgələrinə veriləcəyinin və Naxçıvanın da bu xəttə birləşməsi ilə enerji təhlükəsizliyinin tamamilə təmin olunacağını qətiyyətlə vurğulamışdır.

Naxçıvanın Azərbaycan-Türkiyə münasibətlərinin getdikcə inkişafında və möhkəmlənməsindəki rolunu göstərən digər bir amil, Azərbyacanla birlikdə Türkiyənin də bu bölgəyə böyük siyasi məna verməsində öz təsdiqini tapmışdır. Türkiyənin birbaşa Naxçıvan vasitəsilə Azərbaycanla və bütövlükdə Türk dünyası ilə regional əməkdaşlığının genişləndirilməsi istiqamətində həyata keçırdiyi tədbirlər eyni zamanda da Naxçıvanla olan münasibətlərə böyük bir töhfə olmuşdur. Bu mənada da Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birlikdə eyni vaxtda Naxçıvana səfər etməsi zamanı keçırılən kütləvi informasıya vasitələrinin mətbuat konfransında bu bölgənin Türk dünyasının əlaqələndirilməsindəki rolunun necə böyük siyasi əhəmiyyəti olduğu 2008-ci ilin iyun ayında bir daha vurğulanmışdır.

Burada diqqəti çəkəcək bir məqam ondan ibarətdir ki, Azərbaycan və Türkiyə arasında mövcud olan dostluq, qardaşlıq münasibətlərində hər iki dövlət rəhbərlərinin Naxçıvan bölgəsinə xüsusi diqqət ayırması, bunu da dünya ictimaiyyətinə çatdırması böyük məmnunluq hisləri doğurur. Belə ki, Türkiyə-Azərbaycan əlaqələrinin təməlində dostluq və qardaşlıq münasibətləri dayanır. Hər iki ölkənin xalqı, milləti eyni soydan-kökdəndir və onların hamısının arasında birinin digərinə böyük sonsuz sevgisi, məhəbbəti ölçüyəgəlməz dərəcədədir. Hər iki ölkənin xalaqlarının əldə etdiyi uğurlar, nailiyyətlər bu xalqların qəlblərinin də bir vurub, bir döyündüyündən xəbər verməkdədir. Bunlar heç də səbəbsiz deyildir. Çünki Türkiyənin və Azərbaycanın birlikdə uzaq, qədim, ulu keçmişlərdən bu günümüzə qədərki maddi-mənəvi dünyasında ortaq dəyərləri saysız-hesabsızdır. Ona görə də bütün bunların hamısının bir daha yenidən kökündən araşdırılması və gələcək nəsillərə çatdırılması mütləq mənada hamımızın millət, bayraq, vətən qarşısındakı müqəddəs borclarımızdandır. Bizim başqa bir qurtuluş yolumuz yoxdur. Bu xilaskarlıq missiyamızı vətəndaş ləyaqəti ilə yerinə yetirməliyik ki, bizlərin maddi-mənəvi mirasına sahiblənmək istəyənlərin hamısı onları istəklərinə uyğun yararlanmaq və öz xeyirləri üçün onları öz adlarına çıxmaq istəyirlər.

2008-ci və 2017-ci illərdə Türkiyənin Baş Nazirinin Naxçıvan səfərləri gerçəkləşdi, 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısı Naxçıvanda keçirildi, burada "Naxçıvan Bəyannaməsi" imzalandı. Bununla da türkdilli dövlətlərin müstəqilliklərinin ilk illərindən başlayaraq onların zirvə toplantılarının əsası qoyuldu və vaxtaşırı keçirilməyə başlanıldı. Nəhayət, 2009-cu ildə Naxçıvanda Zirvə Toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradıldı. Türkdilli dövlətlərin rəhbərliyi tərəfindən TÜRKSOY-un fəaliyyəti daima dəstək və təqdir olunması öz əksini 2009-cu il oktyabrın 2-3-də Naxçıvan şəhərində keçirilmiş türkdilli dövlətlərin Dövlət Başçılarının IX Sammitində qəbul edilmiş "Naxçıvan Deklarasiyası"nda öz əksini tapdı. Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısında imzalanmış "Türkdilli dövlətlərin əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi" əsasında təsis edilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası türkdilli dövlətlər arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində yeni mərhələnin əsasını qoydu. Tərəflər ümumi mədəni irsin qorunması, gələcək nəsillərə ötürülməsi və beynəlxalq müstəvidə təbliğatı sahəsində sıx əməkdaşlığın inkişafı üçün səy göstərəcəklərini bildirdilər. Naxçıvan zirvəsinin iştirakçıları dünya sivilizasiyasının inkişafına əhəmiyyətli töhfə vermiş zəngin türk mədəni irsinin qorunması və dəstəklənməsi üzrə "TÜRKSOY Fondu"nun yaradılması barədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsünü yekdilliklə dəstəklədilər. TÜRKSOY Fondunun yaradılması və fəaliyyəti ilə bağlı təşkilati məsələlərin həlli tərəflərin hökumətlərinə həvalə olundu" (8, s.361).

Naxçıvan şəhərində yüksək səviyyədə keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısının türkdilli dövlətlər arasında müxtəlif sahələrdə çoxtərəfli və ikitərəfli əlaqələrin və əməkdaşlığın daha da inkişaf etdirilməsinə və dərinləşdirilməsinə əhəmiyyətli töhfə verəcəyini qeyd etdilər (17). Bu mənada Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirilməsi təsadüfi deyildir. 2009-cu il oktyabr ayının 2-3-də Naxçıvanda keçirilən bu zirvə toplantısının çox böyük geosiyasi, ideoloji, simvolik mənası və tarixi əhəmiyyəti vardır" (11). Naxçıvan Muxtar Respublikasında yaradılan hərtərəfli şərait və müasir inkişaf burada ən yüksək səviyyədə beynəlxalq tədbirlərin keçirilməsinə tam imkan yaradır. Türk Dünyası Dövlət Başçılarının Zirvə Toplantısının 2009-cu ildə Naxçıvan şəhərində keçirilməsi bunun əyani sübutudur(12).

2010-cu ilin oktyabrında Naxçıvanda Azərbaycan-Türkiyə Biznes Forumu təşkil edildi, bununla da yeni müstəvidə Azərbaycan-Türkiyə əlaqələrində Naxçıvanın da sürətli inkişafına əlverişli imkanlar yaradıldı. Oktyabrın 5-də Naxçıvanda Türkdilli dövlətlərin gömrük xidməti rəhbərlərinin görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin-Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğız respublikalarının gömrük xidməti nümayəndələri iştirak etdi. Vurğulandı ki, qədim İpək Yolu üzərində yerləşən Naxçıvan tarixən dünyanın ən mühüm sənətkarlıq və ticarət mərkəzi kimi tanınıb. Azərbaycan xalqı şərqin qapısı sayılan Naxçıvan torpağında qədim və zəngin mədəni irs yaradıb. Belə bir tədbirin Naxçıvanda keçirilməsindən və türkdilli dövlətlərin gömrük xidməti nümayəndələrinin ilk dəfə Naxçıvanda bir araya gəlməsindən duyulan məmnunluq dilə gətirilib. Bu arada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov türkdilli ölkələrin gömrük xidməti rəhbərlərinin görüşündə iştirak etmək üçün Naxçıvana gələn nümayəndə heyətlərinin rəhbərləri ilə görüşdə Ali Məclisin Sədri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələr - Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğız respublikaları arasında mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin gömrük işi sahəsində də özünü göstərdiyini deyib.

2010-cu il aprelin 26-29 tarixlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Respublikasına rəsmi səfər etdi. Bunula da Naxçıvan və Türkiyə arasında hava nəqliyyatı yaradıldı. Bakı-Tbilisi-Qars dəmir yolunun inşasına başlanılması ilə Naxçıvanın bu dəmir yolu xəttinə qoşulması ilə regionun digər qardaş ölkələrlə əlaqələri üçün geniş imkanlar yaradılacaqdır və "bu dəmir yolun ümumən regionda əməkdaşlığın genişlənməsi üçün çox önəmli layihədir"(15, s.332). "Yaxın illərdə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Naxçıvana qədər uzadılması ideyası da bu regionun Şərqlə Qərb arasında etibarlı körpüyə çevrilməsinə tam təminat verəcəkdir. Bugün qədim və həmişə cavan Naxçıvan Muxtar Respublikası Şərqin qapısında alınmaz qalaya çevrilmişdir (13). "Bakı-Tblisi-Qars dəmiryolu-nəqliyyat arteriyası Pekini Londonla birləşdirəcək ən qısa yol və Şərq-Qərb nəqliyyat marşruntunda ən mühüm vasilə olacaqdır. Bu yolun istifadəyə verilməsinin Azərbaycan geosiyasi çəkisinə güc qatacağı əminliklə söyləmək olar"(14).

2017-ci il dekabrın 20-də Türkiyə Respublikasının Baş naziri Binali Yıldırımı Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədri Vasif Talıbov qarşılaşmışdır. Türkiyə Respublikasının Baş naziri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət etmiş və abidənin önünə əkil qoymuşdur. Çünki "Heydər Əliyev öz xalqının tarixi köklərinə bağlı olan elə bir şəxsiyyətdir ki, o, bütün siyasi fəaliyyəti ərzində türk dünyasının birliyinə, bütövləşməsinə və vahid güc mərkəzinə çevrilməsinə böyük inam bəsləmiş və bu prosesin də davamlı inkişafına çalışmışdır"(10).

Yaxın gələcəkdə, "Türkdilli dövlətlər birliyinin Azərbaycan-Türkiyə ilişkilərini örnək qəbul edərək, həyati önəm daşıyan beynəlxalq məsələlərdə eyni cəbhədən çıxış etməsi tarixi bir zərurətdir"(9, s.183).

Türkiyə həm Azərbaycanın, həm də bütn Qafqazın taleyində Rusya və İranla birlikdə önəmli rol oynayan mühüm region dövlətidir. O, həmişə Qafqaz siyasətinə çox önəm vermişdir. Azərbaycan isə həm Qafqazda, həm də Mərkəzi Asiya və Xəzəryanı bölgədə türkdilli dövlətlərlə əlaqələrin qurulmasında Türkiyənin önəmli strateji tərəfdaşıdır. Həm Azərbaycan, həm də Türkiyə ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsində maraqlıdır.

Araşdırmaçıların yetkin rəyi bundan ibarətdir ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər, əlaqə bağları hər zaman qırılmaz olmuşdur. Bu münasibətlər bu günümüzdə isə daha da monolit-sarsılmaz olmaqdadır. Ona görə də bu günün qloballaşan dünyasında gerşək olaraq bütün tədqiqatçıların araşdırma aparanların hamısının istisnasız olaraq gördüyü-yerinə yetirdiyi iş bütövlükdə vahid Türk dünyasına-Türk millətinə edilən təmənnasiz xidmətdir

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild., Bakı: "Elm", 2008, 608 səh.
2. I. Milletlerarası Türkiye-Azerbaycan Münasebetleri Sempozyumu 12-14 Mayıs 2016. Kastamonu-2016. 789 seh.
3. Azərbaycan- Türkiyə münasibətləri II beynəlxalq elmi konfransının materialları (Bakı, 12-14 oktyabr 2017-ci il). Kastamonu, 2018, 444 səh.
4. Bayramlı Nardar. Naxçıvan Muxtar Respublikası yüksək sürətlə inkişaf edən bir diyara çevrilib. "Yeni Azərbaycan". - 2019.- 7 mart. - № 45. - s. 6.
5. Cəfərov Cəfər. Müasir dövrdə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında siyasi və hüquqi əməkdaşlıq (2003-2017-ci illər). "Azərbaycan- Türkiyə münasibətləri II beynəlxalq elmi konfransının materialları "(Bakı, 12-14 oktyabr 2017-ci il). Kastamonu, 2018, 444 səh.(s.1-7).
6. Çolak, Aksu. Türkiye'nin Dış Politika Krizlerinde Ahdi Hukuk: Kıbrıs ve Nahçıvan Krizleri •kış 2019/ sayı 88
7. Əliyev İbrahim. Azərbaycan Respublikasının bərpası və inkişafı dövründə Azərbaycan-Türkiyə münasibətləri. "Azərbaycan–Türkiyə münasibətləri II beynəlxalq elmi konfransının materialları" (Bakı, 12-14 oktyabr 2017). Kastamonu-2018 , 444 s.(s.15-19).
8. Əmrahov Mais. Azərbaycan-Türkiyə mədəni əlaqələrində TÜRKSOY-un rolu. "Azərbaycan- Türkiyə münasibətləri II beynəlxalq elmi konfransının materialları" (Bakı, 12-14 oktyabr 2017-ci il). Kastamonu, 2018, 444 səh.(s.356-362).
9. İbrahimova Aysel. Azərbaycan-Türkiyə münasibətlərini şərtləndirən amillər (1991-2017-ci illər). "Azərbaycan- Türkiyə münasibətləri II beynəlxalq elmi konfransının materialları" (Bakı, 12-14 oktyabr 2017-ci il). Kastamonu, 2018, 444 səh.(s.49-52).
10. Feyziyev Cavanşir. Zamana sığmayan zəka. "Xalq qəzeti", 8 may 2014-cü il.
11. Hacıyev İsmayıl. Naxçıvan Muxtar Respublikası: inkişafdan intibaha. AMEA Naxçıvan Bölməsi. Xəbərlər.-2014.-№ 3.-s.9-25.
12. Həbibbəyli İsa. Azərbaycanın Nəqşi-Cahanı. - 2019.- 9 fevral. - № 32. - S. 6.
13. Həbibbəyli İsa. Qədim və həmişəcavan Naxçıvan. "Azərbaycan" -2018-9 fevral N30 səh.6
14. Həbibbəyli Ərəstü. Naxçıvan: mübarizə, qürur və əzəmət rəmzi. –"Xalq qəzeti;"-2015-8 fevral N30-səh 4.
15. Həsənov Əli. Azərbaycanın geosiyasəti. Dərslik. - Bakı, "Zərdabi LTD", 2015. –1056 səh.
16. "Milliyet" qəzeti, "Ermeni'ye Gözdağı". 1992 29 Mayıs
17. NAXÇIVAN ZİRVƏ GÖRÜŞÜ TÜRKDİLLİ ÖLKƏLƏRİN ... https://azertag.az/.../3 okt 2009 NAXCHIVAN ZIRVA_GORUSU_TURKDILLI_OLKALARIN_B... –
18. "Şərq qapısı" qəzeti, 28 may 1992.



## ABSTRACT

## DIPLOMATIC RELATIONS OF NAKHCHIVAN WITH TURKEY AS A POWERFUL FACTOR IN CREATING A UNION OF TURKISH PEOPLES

The national leader Heydar Aliyev's policy of turning Nakhchivan into a powerful region is successfully implemented by President of the Republic of Azerbaijan Ilham Aliyev since 2003.

The beginning of the new stage of relations between Turkey and Azerbaijan, including with Nakhchivan, is the period of the collapse of the USSR and the transition from the bipolar world to the one-dimensional one. The process of establishing, expanding and further strengthening relations between all Turkic states and the Turkish world began to accelerate. At the same time, the Republic of Turkey took the whole Turkic people and the independence of the Turkic republics with great enthusiasm and stood in their position as a defender of their positions in resolving all issues. Here, especially if we are talking about the great

importance of Turkish-Azerbaijani relations, we can see the importance of relations with Nakhchivan, which began with Turkey and the path to Turkish peace.

Relations between Azerbaijan and Turkey have a long history. Common language, religious unity, similar culture, common root and traditions are the key factors that make these connections. Until the early 1990s, the Turkish world was represented only by the Republic of Turkey in the international arena. In the early 90s, after the collapse of the USSR and the liquidation of the "iron curtain". Five independent Turkish states that gained independence have found their place on the political map of the world and form a geopolitical Turkish knot between the European and Asian continents in the Turkish world.

**РЕЗЮМЕ**

**ДИПЛОМАТИЧЕСКИЕ ОТНОШЕНИЯ НАХЧЫВАНА С ТУРЦИЕЙ, КАК МОЩНЫЙ ФАКТОР В ЕДИНСТВО ТЮРКСКИХ НАРОДОВ**

Политика Общенационального лидера Гейдара Алиева по превращению Нахчывана в могущественный регион, успешно реализуются Президентом Азербайджанской Республики Ильхамом Алиевым с 2003 года.

Началом нового этапа отношений Турции с Азербайджаном, в том числе с Нахчыванoм, является период распада СССР и перехода от двухполярного мира к одномерному. Процесс установления, расширения и дальнейшего укрепления отношений между всеми тюркскими государствами и турецким миром начал ускоряться. В то же время Турецкая Республика восприняла с большим энтузиазмом весь тюркский народ и независимость тюркских республик и стояла на их позиции защитника своих позиций в решении всех вопросов. Здесь, особенно если мы говорим о большой важности турецко-азербайджанских отношений, мы можем видеть, что важность отношений с Нахчываном, которые начались с Турции и путь к турецкому миру.

Отношения между Азербайджаном и Турцией имеют большую историю. Общий язык, религиозное единство, сходная культура, единый корень и традиции являются ключевыми факторами, которые делают эти связи. До начала 1990-х годов турецкий мир был представлен только Турецкой Республикой на международной арене. В начале 90-х годов, после распада СССР и ликвидации «железного занавеса». Пять независимых турецких государств, которые получили независимость, нашли свое место на политической карте мира и образуют геополитический турецкий узел между европейским и азиатским континентами в турецком мире.

**ARZU ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ordubadi@yahoo.com*

# AZƏRBAYCAN -TÜRKİYƏ: DOSTLUQ VƏ STRATEJİ TƏRƏFDAŞLIQ

**Açar sözlər:** *müasir, əlaqə, xarici siyasət, elm, təhsil, inkişaf, əməkdaşlıq, siyasət*
**Key words:** *Modern, communication, foreign policy, science, education, development, cooperation and policy*
**Ключевые слова:** *Современные, связь, внешней политики, науки, образования, развития и сотрудничества, политика*

Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumlarının rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayıb və bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasına səbəb olub.

Müstəqilliyin ilk illərində Türkiyə iki qardaş ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq dövlət quruculuğu yolunda respublikamızın səylərini daim dəstəkləməklə hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərib. Həmin dövrdə Naxçıvanın düşdüyü ağır vəziyyətdən xilas edilməsi istiqamətində həyata keçirilən ən mühüm tədbirlərdən biri Araz çayı üzərində Türkiyə ilə Naxçıvanı bir-birinə bağlayan Sədərək-Dilucu körpüsünün inşa olunmasıdır. 1992-ci il may ayının 28-də Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir. Hələ 1992-ci ilin martında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi ümummilli liderin bölgəni blokada məngənəsindən xilas etmək məqsədi daşıyan Türkiyə səfəri muxtar respublikanın ən zəruri ehtiyaclarının həlli baxımından uğurlu nəticələrlə yadda qalmışdır. Bu səfərdən sonra kommunikasiya, nəqliyyat və digər sahələrdə faydalı əməkdaşlığın əsası qoyulmuşdur. Bununla yanaşı, daha geniş xarakter alan dostluq münasibətlərinin dolğun şəkildə həyata keçirilməsində Sədərək-Dilucu körpüsünün açılışının da müstəsna əhəmiyyəti olmuşdur. Azərbaycanın dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə dövləti ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdəki kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Qədim tarixi köklərə malik olan Azərbaycan-Türkiyə münasibətləri bu gün birgə, qarşılıqlı səylər və sarsılmaz iradə əsasında inkişaf etdirilir. Ümummilli lider Heydər Əliyevin səsləndirdiyi "bir millət iki dövlət" ifadəsi yeni dövrdə iki dövlət arasında olan münasibətlərin səciyyəvi xüsusiyyətlərinin çox gözəl təcəssümüdür. XX əsrin əvvəllərində baş verən hadisələrə nəzər salsaq görərik ki, azərbaycanlılar və türklər hər zaman çiyin-çiyinə dövrün çətinliklərinə sinə gərib, ağır sınaqlardan alnıacıq çıxıblar. Birinci Dünya müharibəsi zamanı Çanaqqala döyüşündə azərbaycanlı könüllülər türk qoşunları ilə birgə vuruşaraq, böyük rəşadət göstəriblər. Vaxtilə Bakını işğal edən erməni daşnaqları bolşeviklərin xeyirduası ilə 1918-ci ilin martında azərbaycanlılara qarşı soyqırımı törədib, on minlərlə soydaşımızı qətlə yetiriblər. Qubada tapılan kütləvi məzarlıqdakı insan cəsədlərinin qalıqları Azərbaycanın digər bölgələrində də bu cür misli görünməmiş vəhşiliyin həyata keçirilməsindən xəbər verir. Məhz belə çətin anlarda Nuru Paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusu qardaş Azərbaycanın köməyinə gəlib. Artıq həmin dövrdə geosiyasi maraqların diqqət mərkəzində olan Azərbaycan beynəlxalq sistemin əsas aktorlarının dünyada hegemonluq siyasətində mühüm strateji məntəqəyə çevrilmişdi. Zaman dəyişir, vasitə dəyişir lakin strateji düşüncələr hər zaman olduğu kimi obyektiv amillərə, o cümlədən dövlətin yerləşdiyi coğrafi mövqeyə, malik olduğu torpağın xüsusiyyətlərinə, təbii sərvətlərinə bağlıdır. Keçən əsrin əvvəlindən bu günə qədər uzun zaman keçməsinə baxmayaraq, Azərbaycan strateji əhəmiyyətini saxlayıb və hazırda regional siyasətin təyin edilməsində birbaşa iştirak edir. 1991-ci ildə Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan-Türkiyə münasibətlərinin yeni mərhələsi başlayıb. Hər iki dövlət arasında tarixi və etnik köklərin vahidliyinə bağlı olan təbii yaxınlaşma, ümumi maraqlar ətrafında səylərin birləşdirilməsi müasir qloballaşan dünyada mövcud və potensial çağırışların aradan qaldırılmasına və gələcəyin möhkəm təməllər üzərində qurulmasına imkan yaradıb. Eyni zamanda, yeni dünya nizamında ədalətin əsas meyar kimi qəbul edilməsi, hər iki dövlətin siyasi

fəaliyyətinin nail olmaq istədiyi əsas məqsədlərdən birinə çevrilib. Sirr deyil ki, Azərbaycan ərazisinin 20%-i Ermənistan tərəfindən işğal edilib. Dünya birliyinin bu məsələdə tutduğu “ikili standart” mövqe beynəlxalq sülh və təhlükəsizliyə zərbə olmaqla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini ləngidir, Ermənistanı davamlı surətdə təcavüzkar siyasət yürütməyə təşviq edir. Beynəlxalq hüquq təcavüzkar dövlətin cəzalandırılmasını tələb edir. Çünki heç bir dövlət digər dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə hərbi müdaxilə edə bilməz. Qardaş Türkiyənin 1993-cü ildə atdığı addımlar təqdirəlayiqdir. Ermənistan tərəfindən Azərbaycan ərazisinin bir hissəsinin işğal edilməsinə cavab olaraq rəsmi Ankaranın təcavüzkar dövlətlə sərhədlərini bağlaması leqal bir addımdır və Ermənistanı beynəlxalq hüququn prinsip və normalarına boyun əyməyə vadar etmək məqsədi güdür. Dünya birliyi bundan ibrət dərsi götürməli, Ermənistana qarşı təsirləri gücləndirməlidir. Bu, bəşəriyyətin gələcəyi üçün bir zərurətdir. Çünki Azərbaycanın ərazi bütövlüyünə qarşı digər bir dövlətin hərbi gücdən istifadə etməsinə beynəlxalq birliyin laqeyd münasibəti hüquqi prinsip və normaların aliliyinə əsaslanan mövcud dünya nizamının pozulmasına, uzun illər ərzində dünya dövlətlərinin çətin səyləri nəticəsində əldə edilən uğur-ların, hüquqi mexanizmlərin sual altına alınmasına təkan vermiş olur və zərərli presedentin yaranmasına gətirib çıxarır. Bu məsələ Azərbaycan və Türkiyə tərəfindən beynəlxalq təşkilatlarda dəfələrlə qaldırılıb. Bu faydalı əməkdaşlıq çərçivəsinə Azərbaycan və Türkiyə parlament nümayəndələrinin multilateral çərçivələrdə sıx əməkdaşlıq fəaliyyətlərini də əlavə etmək olar. Tarix siyasətçilər tərəfindən yazılmır, tədqiqatçılar tərəfindən araşdırılıb gələcək nəsillərə ötürülür. Lakin biz qarşımızda erməni təbliğat maşınının yalan və iftiralarını, tarixi məlumatları saxtalaşdırmaq cəhdlərini görürük. Ermənistan hakimiyyət orqanlarının vaxtaşırı səsləndirdiyi və heç bir tarixi reallığa əsaslanmayan bəyanatları onların yaxşı qonşuluq siyasəti prinsipindən nə dərəcədə uzaq olmasını və cılız düşmənçilik hisslərinin girovuna çevrildiyini göstərir. Biz erməni rəhbərliyini daha rasional olmağa və gələcəyi düşünməyə çağırırıq. Mövcud qloballaşan dünyada ən optimal çıxış yolu regional əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı faydalılıq prinsipi əsasında yeni siyasi və iqtisadi münasibətlərin qurulmasındadır. Azərbaycan və Türkiyə arasında münasibətlərin inkişaf tendensiyası buna ən gözəl nümunədir. Bu gün bir sıra Azərbaycan şirkətləri, o cümlədən Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) Türkiyə iqtisadiyyatının müxtəlif sahələrinə vəsait yatırır və öz fəaliyyət sferalarını genişləndirir. Hərbi sahədə əməkdaşlıq 2010-cu il avqustun 16-da imzalanan “Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında” Müqavilədən sonra yeni mərhələyə qədəm qoyub. Qeyd etmək lazımdır ki, hərbi silah və sursatın birgə istehsalı dinamik inkişaf edən qarşılıqlı münasibətlərin məntiqi nəticəsidir. Bu, Azərbaycanın hərbi sənaye kompleksinin inkişafına təkan verəcək və ölkənin hərbi qüdrətinin artmasına kömək edəcək. Hər iki dövlət arasında mövcud siyasi və iqtisadi münasibətlər onları regional geosiyasətin əsas aktorlarına çevirmişdir. Həyata keçirilən enerji layihələri Azərbaycanın dəstəyi və fəal iştirakı sayəsində mümkün olub. Türkiyədən keçən neft və qaz kəmərləri vasitəsilə Azərbaycan həm enerji resurslarını dünya bazarına çıxarır, həm də Mərkəzi Asiya ölkələrinin təbii sərvətlərinin daşınması üçün tranzit rolunu oynayır. Azərbaycan və Türkiyə arasında qarşılıqlı inam və etibar, dostluq və qardaşlıq belə qlobal layihələrin həyata keçirilməsinə imkan verən əsas amildir. Onlar Avropanın enerji təhlükəsizliyinin mühüm elementləridir. Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin çəkilməsi və yaxın gələcəkdə istifadəyə verilməsi tarixi İpək Yolunun bərpa edilməsini və regionun yeni nəqliyyat dəhlizinə çevrilməsini nəzərdə tutur. Regionun gələcək inkişafı üçün zəruri olan bu layihə iki tərəf arasında daşınmalarda mövcud çətinlikləri aradan qaldıracaq. Bu gün çoxsaylı azərbaycanlı tələbə kontingenti Türkiyə Respublikasının müxtəlif təhsil ocaqlarında oxuyurlar. Türkiyəyə təhsil almağa gedən tələbələrin sayı durmadan artır. Təhsil sahəsində əlaqələrin genişlənməsi isə öz növbəsində hər iki ölkənin gəncləri arasında sıx və faydalı münasibətlərin formalaşmasına rəvac verir. Bir-birilə mütəmadi əlaqə saxlayan gənclərin gələcəkdə hər iki ölkənin həyatında qərarverici gücə çevriləcəyini nəzərə alsaq, bu münasibətlərin Azərbaycan-Türkiyə əməkdaşlığının gələcəyi üçün nə qədər böyük əhəmiyyət daşıdığı məlum olar.

Bütün dövrlərdə Türkiyə-Azərbaycan münasibətləri həm iki ölkə üçün, həm də region üçün çox önəmli rol oynayıb. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur və bütün sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. Bu səbəbdən Azərbaycanın dövlət başçısı İlham Əliyev bəyan edib ki, bölgədə Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi olmadan heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz. Bununla yanaşı, Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və əsas söz sahibi olan iştirakçılarıdır. Hər iki dövlət özünün iqtisadi və enerji imkanlarından, eləcə də geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi istiqamətində səmərəli surətdə istifadə edir. Bu gün bölgənin uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsində aparıcı rol oynayan və iki ölkə arasındakı münasibətlərin çox vacib elementlərindən olan neft və qaz kəmərləri təkcə regionda deyil, eləcə də bütün dünyada dövlətlərimizin nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyi üçün böyük təminat verir. Eyni zamanda, iki dövlət arasında genişlənən əməkdaşlıq və strateji tərəfdaşlıq regionda sabitliyin göstəricisinə çevrilib.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunda Türkiyə ilə münasibətlərin inkişafına yönəlmiş ardıcıl və məqsədyönlü xəttin dövlət başçısı İlham Əliyev tərəfindən daha da inkişaf etdirilməsi sayəsində ölkələrimizin strateji tərəfdaşlığının daha da dərinləşməsinə nail olunub.

## ƏDƏBİYYAT


1. Abdullayev, M. Azərbaycan-Türkiyə əlaqələri.- B. Mütərcim, 1998.- 112 s. 12.
2. Azərbaycan Türkiyə əlaqələri və Heydər Əliyev (1991-2001). Bakı. 2002. 180 s.
3. Azərbaycan Türkiyə əlaqələri. Bakı. 2008. 115 s.
4. Cahangirli, C. Müasir dövrdə Azərbaycan Türkiyə munasibətləri: Monoqrafiya. B. Araz, 2006.-213 s.
5. Əliyev H. Müstəqilliyimiz əbədidir: 22 kitabda. B. Azərnəşr, 20- ci kitab.-2007, 536 səh.
6. Əliyev. H. Azərbaycan müstəqillik yolundan dönməyəcək: Respublika Prezidenti Heydər Əliyevin İstanbulda mətbuat üçün bəyanatı //Azərbaycan.-1994.-5 oktyabr.-S.2.
7. Əliyev. H. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Xarici İqtisadi Əməkdaşlıq Komitəsində çıxışı //Azərbaycan.-1994.-5 noyabr.-S.2
8. Həsənov, H. Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması tarixindən B. Mətbuat xəbərləri, 2005.- 71 s.
9. Qasımov. M. Azərbaycan – Türkiyə diplomatik siyasi münasibətləri: Aprel 1920-ci il-dekabr 1992-ci il.- B. Mütərcim , 1998.- 118 s.



## ABSTRACT

## BETWEEN AZERBAIJAN AND TURKEY: FRIENDSHIP AND STRATEGIC PARTNERSHIP

Joint Azerbaijani-Turkish relations are developing on the basis of mutual efforts and indomitable will, which has the ancient historical roots. We pay attention, we can see that the turks and azerbaijanis are always difficulties to overcome heavy tests, have stood shoulder to shoulder during the events at the beginning of the XX century. The head of state Ilham Aliyev for the further development of the strategic partnership between our countries was achieved thanks to the consistent and purposeful line of foreign policy of the national leader Heydar Aliyev in the development of relations with Turkey aimed at further deepening.



## РЕЗЮМЕ

## МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ: ДРУЖБЫ И СТРАТЕГИЧЕСКОГО ПАРТНЕРСТВА

Древние, имеющие исторические корни, сегодня Азербайджано-Турецкие отношения развиваются на основе совместные усилия, и несокрушимую волю. В начале XX века событий, то увидим, что азербайджанцы и турки вышли с честью преодолеет все трудности, тяжелые испытания времени, когда плечом к плечу. Общенационального лидера Гейдара Алиева во внешнеполитическом курсе Турции, направленные на развитие отношений с главой государства Ильхамом Алиевым для еще большего развития дальнейшего углубления стратегического партнерства наших стран было достигнуто благодаря последовательной и целенаправленной линии.

**İBRAHİM KAZIMBƏYLİ**
*Azərbaycan Dillər Universiteti*
*ibrahimkazimbeyli@gmail.com*

# AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN QORUNMASI İSTİQAMƏTİNDƏ APARILAN DİPLOMATİK MÜBARİZƏ: BAĞLANMIŞ MÜQAVİLƏLƏR VƏ NAXÇIVANIN STATUSU MƏSƏLƏSİ

**Açar sözlər**: *ərazi, istiqamət, diplomatik, müqavilə, status, mübarizə.*
**Key words:** *territory, integrity, diplomatic, contract, status, struggle.*
**Ключевые слова:** *территория, направление, дипломатический, договор, статус, борьба.*

Rusiya I Dünya müharibəsində öz müstəmləkələrini qoruyub saxlamaq və imperiyanın hüdudlarını genişləndirməyə çalışırdı. Rusiyada fevral inqilabının qələbəsi imperiyadan asılı olan xalqların da taleyində sonralar bu və ya başqa dərəcədə rol oynamış oldu. Artıq ictimai-siyasi şərait millətlərin öz müqəddəratlarını həll etməsinə qismən də olsa zəmin yaradırdı. Rusiyada yaranan hərc-mərclik, ikihakimiyyətlilik və siyasi böhrandan öz məqsədləri üçün yararlanmağa çalışan ermənilər millətlərin "təyin-müqəddərat hüququ" adı altında Türkiyənin şərq vilayətləri, Azərbaycanın həm cənub həm də Şimalının bəzi əraziləri hesabına "Böyük Ermənistan" yaradılması işinə girişdilər. Onların "milli azlıqların hüquqlarına" dair tələbləri tezliklə Azərbaycanın Naxçıvan, Zəngəzur, Qarabağ bölgələrinə qarşı ərazi iddialarına gətirib çıxardı. Bəhs etdiyimiz dövrdə adı çəkilən ərazilərimizdə ikihakimiyyətlilik əmələ gəlmiş, erməni və müsəlman milli komitələri formalaşmışdı.

Cənubi Qafqazdakı siyasi vəziyyət, onun daxili-xarici sərhədləri məsələsi 1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində bir sıra danışıq və müqavilələrdə (Ərzincan, Trabzon, Brest-Litovsk, Batum) mühüm yerlərdən birini tuturdu ( 14, s. 39). Lakin ermənilər əldə olunmuş sazişlərə məhəl qoymayaraq silahlı birləşmələri ilə Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində xüsusi amansızlıqla və daha geniş miqyasda terror və zorakılıqlara başladılar.

Arxiv materiallarından əldə etdiyimiz faktlarda bu azğınlığın statistik göstəriciləri adamda ağır təəssüf hissi yaradır. 1917-ci ilin əvvəllərindən 1918-ci ilin martınadək olan müddətdə İrəvan quberniyasında 197 kənd talan edilmiş, boşadılmışdı (6, v .7). 1917-ci ildə Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd qismən dağıdılmışdır.

Azərbaycan üzrə isə (Lənkəran çıxmaqla) 60 yaşayış məskəni tamamilə məhv edilmiş, 388-i qismən zərər çəkmiş, yandırılmışdır. Dağıdılmış, talan edilmiş təsərrüfatların sayı 5140-a çatırdı (7. v. 10-11).

Bu cür ağır gərgin vəziyyət, etnik münasibətlərin getdikcə dərinləşməsinə aparırdı. Bu məsələlər Transqafqaz Komisarlığının 1918-ci il martın 4-də və Seymin martın 17-də keçirilən iclaslarında geniş müzakirə olundu.

1918-ci ilin əvvəllərindən Türkiyə Cənubi Qafqazda öz fəal diplomatik gestləri ilə öndə görsənirdi. Türkiyə dövləti üçün Ərzincan barışığının davamlı olmayacağı aydın idi. Ona görə də Türkiyə Cənubi Qafqaz hökuməti ilə sülh danışıqlarına başlamağa təşəbbüs edirdi. Rusiya imperiyasının dağılmasından sonra Türkiyə Cənubi Qafqazı öz təsiri altında olan müstəqil dövlət kimi görmək istəyirdi. Osmanlı Türkiyəsi Cənubi Qafqaz Komisarlığını həm özü tanımaq, həmçinin bu hökuməti Brest-Litovsk danışıqlarına cəlb etməklə Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Rusiya tərəfindən də tanınmasına nail olmaq istəyirdi. Həmçinin rus qoşunlarının Qafqazı tərk etməsi ilə, Antantanın bölgəyə girməsindən ehtiyatlanırdı. Türkiyə özü üçün daha münasib Qafqaz Komisarlığını bildiyindən Brest-Litovskdə iştirakçı dövlətlər tərəfindən tanınması vədi ilə çıxış edirdi. Vehib paşa Osmanlı dövləti adından bildirirdi : " Vəkalətim çərçivəsində Sizə məlum etməyi özümə şərəf bilirəm ki, Brest-Litovskda toplanan Mərkəz ölkələrinin nümayəndələri var qüvvə ilə Cənubi Qafqaz hökumətinin müstəqilliyinin tanınmasını müdafiə edəcəklər. Siz uğur qazanacağınıza əmin olub öz səlahiyyətli nümayəndələrinizi Brest-Litovska göndərə bilərsiniz" (11, s. 37).

Lakin Osmanlı dövlətinin təklifləri Komissarlıqda birtərəfli qarşılanmadı. N.N.Jordaniya 1918-ci il yanvarın 17-də (4-də) sülh danışıqlarına başlamaqla bağlı Vehib Paşanın təklifinə münasibət bildirərək qeyd edirdi ki: " Biz sülhə qarşı çıxmırıq, lakin Qafqaz müstəqil deyil, yalnız Rusiyanın bir hissəsidir. Qafqazın Türkiyə ilə separat sülh bağlaması tamamilə absurddur" (20, s. 60).

1918-ci il yanvarın 23-də Zaqafqaziya Komissarlığı Osmanlı dövlətinə vurduğu teleqramda Brest-Litovsk sülh danışıqlarında iştirak etməkdən imtina etdiyini və özünün Rusiyanın tərkib hissəsi olduğunu bildirdi. Bu məsələnin üzərinə geniş dayanmağı mövzumuz baxımından uyğun hesab etmirik. Lakin bir məsələ var ki, bütün bunlar ümumilikdə Cənubi Qafqaz, ayrıca isə Azərbaycanın ərazi bütövlüyü məsələləri ilə bilavasitə bağlı idi. Naxçıvanın statusu məsələsinin sonradan müəyyənləşdirən Moskva və Qars müqavilələrinə tarixi-siyasi diplomatik şərait bu mərhələlərdən keçirdi. Türkiyə ilə Seym arasında aparılan bir sıra danışıqlardan sonra Brest-Litovsk müqaviləsinin şərtlərinin yerinə yetirilməsi və sərhədlərin müəyyən edilməsi ilə bağlı tərəflər arasında Trabzonda konfrans keçirilməsi planlaşdırıldı. Osmanlı Türkiyəsi ilə Zaqafqaziya Seymi arasında Trabzon danışıqları 1918-ci il martın 14-də açıldı və aprelin 13-dək davam etdi və nəticəsiz başa çatdı. Brest sülhünü qəbul edib, Qars, Ərdahan və Batum vilayətlərinin Türkiyəyə keçdiyini təsdiq etməklə bağlı Trabzondakı Zaqafqaziya nümayəndələri arasında, həmçinin Seymdəki fraksiyalar arasında birlik yox idi. Ərazi məsələlərinin müzakirəsi son anda ona gətirib çıxardı ki, gürcülər Batumu əldə saxlamaqla Qars və Ərdahanın güzəştə gedilməsinə razı idilərsə, ermənilər Batum və Acariyanın güzəştə gedilməsinə tərəfdar olub, Qarsın Türkiyəyə verilməsinə razı deyildilər. Azərbaycan fraksiyası bu fikirdə idi ki, Qars və Ərdahanın əhalisinin əksəriyyəti türklər olduğu üçün Brest-Litovsk müqaviləsinin bu iki vilayət haqqındakı maddələri yerinə yetirilməlidir. Onların fikrincə, Acariya Zaqafqaziyanın tərkibində ayrıca müsəlman respublikasına çevrilməlidir, əgər bu mümkün olmazsa, onda o, Türkiyəyə birləşdirilməlidir. Batum isə xaricə mühüm çıxış yolu kimi Zaqafqaziyanın tərkibində qalmalıdır (13, s. 132).

1918-ci il aprelin 13-də danışıqlar kəsildi və Seym hökuməti Türkiyənin Brest-Litovsk sülhünün şərtlərinin yerinə yetirilməsi ilə bağlı tələblərinin qarşısına silahla çıxmaq haqqında qərar qəbul etdi. Səkkiz gün davam edən müharibə nəticəsində Osmanlı dövləti Brest-Litovsk sülhü ilə ona verilmiş ərazilərə silah gücünə yiyələndi. Bu da öz növbəsində Batum konfransında türklərin mövqeyinin sərtləşməsinə gətirib çıxardı.

1918-ci il aprelin 22-də Zaqafqaziya Seymi Türkiyənin tələblərini qəbul etdiyini bildirdi və sülh danışıqlarının davam etdirilməsini xahiş etdi.

Elə həmin gün Seym Zaqafqaziyanı müstəqil demokratik, federativ respublika elan etdi (17, s. 92). Bununla da Zaqafqaziyanın Rusiyadan ayrılması rəsmi qaydada təsbit edildi.

Osmanlı Türkiyəsi ilə Zaqafqaziya Seymi arasında Batum konfransı fasilələrlə 1918-ci il may ayının 11-dən iyun ayının 4-dək davam etdi. Türkiyə nümayəndə heyyətinin tələblərini Xəlil bəy Menteşe şərh etdi. Nitqin qısa mahiyyəti ondan ibarət idi ki, əgər iki dövlət arasında Brest-Litovsk müqaviləsindən sonra qan axıdılıbsa həmin müqavilənin şərtləri indiki danışıqlar üçün əsas ola bilməz (13, s. 147).

Ənvər Paşanın Batumdakı Osmanlı heyyətinə göndərdiyi, qeyd etdiyimiz təlimatlar əsasında hazırlanmış on iki maddədən və üç əlavədən ibarət olan "Osmanlı imperiyası ilə Zaqafqaziya Konfederasiyon Respublikası arasında sülh və dostluq haqqında" müqavilə layihəsi müzakirə üçün Zaqafqaziya nümayəndələrinə təqdim edildi. Türkiyə hərbi əməliyyatlarda olan itkiləri özü üçün yeni imtiyazlarda (ərazilər və s. - İ.K.) kompensasiya etməyə çalışırdı.

Zaqafqaziya nümayəndə heyyəti isə Brest-Litovsk müqavilsəi əsasında sülh bağlamağı düşünürdü. Onsuzda Seym üzvləri arasında fikir ayrılığı mövcud idi. Türkiyə tərəfi danışıqları mümkün qədər tez və diqtə şəklində həll olunmasında israrlı idi. Batum danışıqlarında meydana çıxan ziddiyətlər Azərbaycan nümayəndələrinin Türkiyəyə, gürcü və erməni nümayəndələrinin isə Almaniyaya sığınmasına gətirib çıxartdı ki, belə şərtlər daxilində Zaqafqaziya Federasiyasının mövcudluğu sual altına düşürdü.

Zaqafqaziya Seymi arasında fikir ayrılıqlarının getdikcə dərinləşməsi 1918-ci il may ayının 26-da sonuncu iclasın keçirilməsinə, Gürcüstanın Seymdən çıxmasına və nəhayət Seymin özünü buraxmasına gətirib çıxardı. Seymdəki Azərbaycan nümayəndələri mayın 27-də toplaşaraq Azərbaycanın idarə olunması vəzifəsini öz üzərlərinə götürdülər və özlərini Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdilər (19, s. 337). Azərbaycan Milli Şurası mayın 28-də keçirdiyi ilk iclasında Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi"ni elan etdi.

Türkiyə Zaqafqaziya Seymi ilə başladığı Batum danışıqlarını Seymin parçalanmasından sonra yaranan Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları ilə davam etdirirdi və danışıqlar 4 iyun 1918-ci il tarixli Batum müqaviləsinin bağlanması ilə nəticələndi.

Beləliklə, Batum danışıqlarında İrəvanın ermənilərə verilməsi ilə bağlı razılaşma əldə olunduqdan sonra, 1918-ci il mayın 29-da Azərbaycan Cümhuriyyətinin baş naziri F.X.Xoyski, Xarici işlər naziri (Batumda idi — İ.K.) M.H.Hacınskiyə yazırdı: "Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik" (3, v. 1-2).

Cənubi Qafqazda tarixdə ilk dəfə olaraq biz və qonşularımız tarixi-zərurət yaxud qaçılmaz həqiqət də olsa tarixi torpağımız İrəvan şəhəri və ətrafındakı torpaqlardan ibarət olmaqla 9 min km$^2$ ərazidə onlara dövlət yaratdıq. Təəssüf ki, İstanbul hökuməti də onu de-fakto tanıyan ilk dövlət oldu. Bununla da, Xəlil bəy

Menteşenin təbirincə desək, Osmanlı dövləti "erməni məsələsi" ilə bağlı beynəlxalq aləmdə ona qarşı olan "qınağ"ı aradan qaldırmış olur.

Lakin ermənilər İrəvan bölgəsində özlərinə dövlət yaradılmasına nail olduqdan sonra üzərlərinə götürdükləri şərtlərin heç birini yerinə yetirmədilər (12, s. 304).

Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparır, bütün imkanlardan istifadə edir, taleyüklü məsələlərin həllinə çalışırdı. AXC hökuməti və parlamenti qısa müddətli hakimiyyəti boyu Naxçıvan məsələsini xüsusi ilə öz daxili və xarici siyasətinin əsas prioriteti kimi diqqətdə saxlamış, bölgənin ermənilər tərəfindən tutulmasına imkan verməmişdir. Bəhs olunan dövrdə Naxçıvan məsələsi həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif mənafelərin toqquşduğu, ziddiyyətlərin kəsişdiyi düyün nöqtələrindən birinə çevrildi. Bu dövr Naxçıvanda hakimiyyətin tez-tez dəyişilməsi illəri olmuşdur. Bu dövrdə müsavatçılardan və daşnaklardan ibarət yaradılmış Milli Komitələr, ABŞ və İngiltərə arasında Naxçıvana yiyələnmək uğrunda nüfuz mübarizəsi gedirdi. Lakin qəhrəman naxçıvanlılar inadla bütün istilaçılara qarşı çıxır, tabe olmur, özlərini Azərbaycanın ayrılmaz bir parçası olduğunu bildirirdilər. N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında deyirdi: "Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi" (18). 1919-cu il dekabrın 22-də N.Yusifbəyli parlamentdə yenidən Naxçıvan məsələsinə qayıdaraq demişdir: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər, onlar həyatlarını, ailələrinin şərəfini və var dövlətlərini riskə ataraq doğma torpağa — Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədəkarlığı və vətənpərvərliyi görəndən sonra onların hüquqlarını danmayacaqlar..." (2, v. 5).

Faktların təhlilindən də görünür ki, ən çətin şəraitdə belə Naxçıvan əhalisi AXC hökuməti ilə hərtərəfli əlaqə yaratmağa birləşməyə can atmışdır. Bütün bunlar isə hökumət tərəfindən razılıqla qarşılanmışdır. "Böyük güclərin" bütün cəhdlərinə baxmayaraq naxçıvanlıların müqaviməti qırılmadı. Naxçıvan Milli Komitəsi birləşmiş güclərə, ermənilərə qarşı milli-müqaviməti sona qədər davam etdirə bildi. İnadlı müqavimətin nəticəsində 1920-ci ilin mart ayında ərazilər erməni daşnaklarından tamamilə təmizləndi. Bu işdə qardaş Türk hərbi birləşmələrinin rolu danılmazdır. Elə bunun nəticəsi idi ki, 1920-ci ilin martında Əli Teymur başda olmaqla yeni türk qoşun hissəsinin Naxçıvana gəlməsi əhali tərəfindən razılıqla qarşılanmışdır. Hadisələrin sonrakı gedişi bir daha təsdiq etdi ki, bu tədbir Naxçıvan əhalisinin yeni qırğınının qarşısını almış, diyarın gələcək siyasi taleyinin həllində, onun məhs Azərbaycan dövlətinin tərkibində muxtariyyət əldə etməsində əhəmiyyətli, bəlkə də müəyyən edici rol oynamışdır (10, s. 168).

Azərbaycan Xalq Cümhuriyyəti mövcudluğu dövründə çox çətin hərbi-siyasi şəraitə baxmayaraq bütövlükdə ölkənin ərazi bütövlüyünü qorumağa çalışmış, Naxçıvanın itirilməsinə və ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş, bu istiqamətdə ingilislər-amerkanlılarla diplomatik danışıqlar aparmışdır. Həmçinin Naxçıvana hərbi-maliyyə yardımı göstərməklə dövlətin siyasi iradəsini sona qədər göstərməyə çalışmış, lakin ölkənin məlum siyasi şəraitə uyğun çətin vəziyyətə düşməsi səbəbindən məqsədinə tam nail ola bilməmişdir (5, s. 75).

Azərbaycanda sovet hakimiyyətinin qurulması (1920-ci il aprelin 28-də) nəticəsində Sovet Rusiyası yenə ikili siyasət yeridir, erməni daşnak qüvvələri ilə eyni zamanda həm müharibə, həm də danışıqlar aparırdı. Hətta 1920-ci il avqustun 10-da daşnak Ermənistanı ilə barışıq sazişi imzalanır (1, v. 16-17).

Azərbaycanın iştirakı olmadan onun torpaqlarının məsələsi müzakirə olunur, Ermənistanla danışıqlarda Sovet Rusiyası onun adından çıxış edirdi. Bu danışıqlarda Azərbaycanın mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu.

N.Nərimanov vəziyyətin nə qədər ciddi olduğunu başa düşür və sanki bir həyəcan təbili ilə Leninə məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəzi Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda, həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir" (10, s. 171).

Azərbaycan xalqının qəddar düşməni olan, diktator İ.Stalin Bakıda 1920-ci il noyabrın 9-da olan çıxışında açıqcasına deyirdi: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada sovet hökuməti qurularsa vermək olar" (4, v. 30). Beləliklə, 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə HİK-in sədri N.Nərimanovun imzası ilə bəyanat yaydı. Bəyanatın şəxsən Rusiyanın diktəsi ilə yazıldığı açıqca hiss olunurdu. Mübahisəli ərazi məsələləri Rusiya tərəfdən Ermənistanın xeyrinə həll olunmağa yönəlmişdi. Bəyanatda deyilirdi: "Bundan sonra heç bir ərazi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanın ayrılmaz hissələridir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddaratını təyin etmək hüququ verilir (16, v. 6).

1920-ci il dekabrın 2-də RSFSR ilə Sovet Ermənistanı arasında 8 maddədən ibarət Gümrü müqaviləsi imzalandı. Müqavilənin 3 maddəsində göstərilirdi ki, Rusiya Sovet hökuməti Ermənistanın 1920-ci il oktyabrın 23-nə kimi sahib olduğu aşağıdakı ərazilərini – İrəvan quberniyasının, Qars vilayəti hissəsinin, Zəngəzur qəzasının, Qazax qəzası hissəsinin, Tiflis quberniyası hissəsinin "Sovet Erməni Respublikasının" tərkibinə daxil olduğunu mübahisəsiz təsdiq edir" (10, s. 172).

Bu sərsəm bəyanata və müqaviləyə Naxçıvan əhalisi öz kəskin etirazını bildirdi.

Azərbaycan rəhbərliyi vəziyyətin gərginləşəcəyindən ehtiyatlanaraq HİK-nin üzvü, ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərdi. Görkəmli diplomat, təəsübkeş milli ziyalı B.Şahtaxtinski Naxçıvan əhalisinə əsl həqiqəti söyləyərək deyirdi: "Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Mən Azərbaycan İnqilab Komitəsinin üzvü kimi B.Vəlibəyovu vəzifəsindən azad edib, özümlə Bakıya aparacağam. Sizin torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq üçün yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər" (16, v. 1).

Naxçıvan əhalisinin inadlı mübarizəsi diyarın Azərbaycanın himayəsi altında saxlanılmasına gətirib çıxardı. Məkrli niyyətlərini müvəqqəti olaraq pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci ilin dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu ərazi ilə əlaqədar iddialarından imtina etmişdir. Bu plan məqsədli idi: gələcəkdə Naxçıvanı Ermənistanla birləşdirmək.

Naxçıvan əhalisini sakitləşdirmək üçün Azərbaycanın bolşevik rəhbərliyi 1921-ci il yanvarın 11-də B.Şahtaxtinskini fövqəladə komissar kimi Naxçıvana göndərdi (10, s. 173).

Naxçıvanın ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi ilə Azərbaycanın ərazi bütövlüyünə ciddi zərbə vuruldu. Belə bir tarixi şəraitin yaranması nəticəsində Naxçıvanın ərazi statusuna yeni baxışın meydana gəlməsi zərurəti yarandı. Bu vəziyyət muxtariyyət məsələsini zəruri edirdi. Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi" (9, s. 75).

1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilən rəy sorğusunda Naxçıvan əhalisinin 90%-dən çoxu diyarın muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi (15, v. 79).

Naxçıvan məsələsində sonradan N.Nərimanovun əvvəlki mövqeyindən fərqli daha prinsipial olması, onun nümayəndəsi kimi B.Şahtaxtinskinin Moskvada apardığı uğurlu danışıqlar mərkəzin Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə gətirib çıxardı.

Naxçıvanın Azərbaycan SSR-in himayəsi altında olan muxtar ərazi statusu 1921-ci ilin martın 16-da RSFSR ilə Türkiyə arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsində də öz əksini tapdı. Türkiyə tərəfi istər Moskva danışıqları ərəfəsində, istərsə də onun gedişində Naxçıvan məsələsinə böyük əhəmiyyət verirdi.

Moskva danışıqlarında Naxçıvanla bağlı əsas məsələlər konfransın 10, 12 və 14 mart tarixli iclaslarında gərgin müzakirə olunmuşdur. Türk heyyəti Naxçıvanın Türkiyənin himayəsində qalmasını istəyirdi. Rusiya isə bunu qətiyyətlə rədd edirdi.

1921-ci il martın 10-da keçirilən iclasda Türkiyə heyyəti fikirlərini belə əsaslandırmağa çalışırdılar ki, Naxçıvan əhalisinin çətin vəziyyətdə Türk qoşunlarını dəvət etməsi, Gümrü (Aleksandropol) müqaviləsində də Naxçıvanın Türkiyənin himayəsi altında olduğu təsbit edilmişdi. Gərgin mübarizələr, fikir ayrılıqları davam edirdi. Nəhayət 1921-ci il martın 14-də keçirilən iclasda Naxçıvanın statusu tam olaraq müəyyənləşdirildi. Türkiyə diplomatiyasının israrlı dirənişləri hesabına Azərbaycanın ərazi bütövlüyü məsələsi tam olmasa da qorunmasına nail ola bildi, Naxçıvanın heç bir dövlətlə güzəştə gedilməməsi şərtilə Azərbaycanın tərkibində saxlanılması razılaşdırıldı (13, s. 399).

1921-ci il oktyabrın 13-də RSFSR-in nümayəndəsinin iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR ilə Türkiyə arasında imzalanan Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Qars müqaviləsinin beşinci maddəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini qəti olaraq həll etdi.

Qars müqaviləsinin mühüm əhəmiyyətindən biri Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflərin müəyyən edilməsidir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi. Qars müqaviləsi ilə Ermənistan da Naxçıvanın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiq etdi. Müqavilənin ən əhəmiyyətli cəhətlərindən biri də onun müddətsiz imzalanması idi.

Ümümmilli Lider Heydər Əliyev deyirdi: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir" (8, s. 249).

Naxçıvanın tarixi müqəddaratında, onun Azərbaycanın tərkibində saxlanılmasında bir sıra amillərlə yanaşı, Moskva və Qars beynəlxalq müqavilələrinin rolu böyükdür. Hər iki beynəlxalq müqavilə müddətsiz imzalanmış və bu gün də qüvvədədir. Həmin müqavilələr onu imzalayan dövlətlər tərəfindən birtərəfli qaydada ləğv edilə bilməz.

### ƏDƏBİYYAT


1. ARDA, fond 28, siy.1, iş 20, v. 171-172.
2. ARDA, fond 894, siy.10, iş 37, v. 4-5.
3. ARDA, fond 970, siy.1, iş 4, v. 1-2.
4. ARPİİSSA, fond 1, siy.1, iş 24, v. 30.
5. Azerbaycan Belgelerinde Ermeni sorunu (1918-1920). Başkanlık Devlet Arşivleri Genel Müdürlüyü Cumhuriyet Arşivi Daire Başkanlığı. Yayın №28. Ankara, 2001, 682 s.
6. Azərbaycan Respublikası DA, fond 28, siy.1, iş 185, v.7.
7. Azərbaycan Respublikası DA, fond 970, siy.1, iş 253, v. 10-11.
8. Əliyev. H. Müstəqilliyimiz əbədidir. 22-ci kitab, Bakı, 2007.
9. Əliyev. H. Müstəqilliyimiz əbədidir. 24-cü kitab, Bakı, 2007.
10. Hacıyev İ.M. Naxçıvan Azərbaycanın dövlətçilik tarixində. Bakı, "Elm", 2018, 372 s.
11. Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı, "Garisma" MMC, 2009, -576 s.
12. Kazımbəyli İ.F. Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri). Bakı, "Turxan" NPB, 2017, 400 s.
13. Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2017, 474 s.
14. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti ( 1917-1921). Bakı Universiteti nəşriyyatı, 1996, -328 s.
15. NMRDA, fond 2, siy. 2, iş 9, v. 79.
16. NMRDA, fond 314, siy. 5, iş 15, v. 6.
17. Svyataxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı, 2000.
18. Газета «Азербайджан» от 10 сентября 1919 г.
19. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919.
20. Жордания. За два года (с 1 марта 1917 года по 1 марта 1919 года). Доклады и речи. Тифлис, Типография Грузинского Правительства, 1919.


### ABSTRACT


### DIPLOMATIC STRUGGLE FOR THE TERITORIAL INTEGRITY OF AZERBAIJAN: SIGNED CONTRACTS AND THE ISSUE OF NAKHCHIVAN STATUS

The People's Republic of Azerbaijan struggled in difficult condition to maintain the territorial integrity and sovereignty of the country. Thanks to the bravery and heroism of the local people, Nakhchivan was included as an autonomous region under the administrative jurisdiction of Azerbaijan Republic, as a result of a referendum held in January 1921 and in accordance with the international Moscow and Kars treaties signed in March-October 1921.

International negotiations and their results on Nakhchivan influenced seriously to the socio-political processes in the region. Dynamics of the legal basis of the autonomy status of Nakhchivan and its implementation were the most important issues in determining the place and role of these problems in the statehood of Azerbaijan.


### РЕЗЮМЕ


### ДИПЛОМАТИЧЕСКАЯ БОРЬБА, ПРОВОДИМАЯ В НАПРАВЛЕНИИ ЗАЩИТЫ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ АЗЕРБАЙДЖАНА: ЗАКЛЮЧЕННЫЕ ДОГОВОРА И ВОПРОС СТАТУСА НАХИЧЕВАНИ

Азербайджанская Демократическая Республика оказалась в очень сложной ситуации в вопросе защиты территориальной целостности и суверенитета страны. Благодаря мужеству и героизму населения региона, в результате проведенного в январе 1921 года референдума, и в соответствии с международными договорами Москвы и Карса, подписанными в марте и октябре 1921 года, Нахичевань была сохранена как неотъемлемая часть территории Азербайджана.

Международные переговоры вокруг Нахичевани и их результаты оказали серьезное влияние на общественно-политические процессы в регионе. Динамика правовой основы статуса Нахчыванской автономии и ее реализация стали важнейшим вопросом при определении места и роли этих проблем в государственности Азербайджана.

**XATİRƏ HACIYEVA**
*Azərbaycan Dillər Universiteti*
*haciyeva_1506@mail.ru*

# TÜRKİYƏ NAXÇIVAN DİPLOMATİK ƏLAQƏLƏRİNDƏ SƏDƏRƏK DİLUCU KÖRPÜSÜNÜN ƏHƏMİYYƏTİ

Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

**Açar sözlər:** *iqtisadi blokada, "Ümid" körpüsü, maliyyə yardımı, türk dünyası*
**Keywords:** *economic blokade, bridge, "Umud", Financial assistance, turkish world.*
**Ключевые слова:** *экономическая блокада, мост "Умуд", финансовый помощь, турецкий мир*

Son illər Naxçıvan ölkəmizlə yaxından əməkdaşlıq edən xarici dövlətlər, beynəlxalq qurumlar üçün həm cəlbedici regiona, həm də etibarlı tərəfdaşa çevrilib.

Naxçıvanın Qərblə Şərqi birləşdirən Böyük İpək yolunun üzərində yerləşməsi onu həmişə fatehlərin, qüdrətli dövlətlərin siyasi maraqlarının kəsişdiyi və toqquşduğu ünvana çevirib. 1918-1920-ci illərdə Azərbaycanın əsas ərazilərindən tədric olunan Naxçıvanın nə qədər gərgin və təzadlı bir dövr yaşadığını belə bir fakt da sübut edir ki, qısa müddətdə burada iki xarici dövlətin - ABŞ və İngiltərənin ermənipərəst general-qubernatorluğu fəaliyyət göstərib. Bu o dövr olub ki, Azərbaycan əraziləri hesabına öz dövlətini yaradan ermənilər təkcə əzəli dədə baba yurdumuz olan Zəngəzuru ələ keçirməklə kifayətlənməyəcək Naxçıvana da sahib çıxmaq istəyiblər. Yeni yaranan Azərbaycan Xalq Cümhuriyyətinin Şimalda bolşeviklərin, Cənubda ermənilərin hərbi təcavüzündən ehtiyatlanaraq barışdırıcı siyasət yeritməsi, qədim Azərbaycan şəhəri olan İrəvanı ermənilərə güzəştə getməsi də "Böyük Ermənistan" ideyasını hansı yolla olursa olsun gerçəkləşdirmək istəyən daşnakların əl-qolunu daha da açır. Belə ağır və məşəqqətli dövrdə də ermənilərin silahlı basqınlarına mərdliklə sinə gərən Naxçıvan əhalisi yeganə xilasını Azərbaycanın tərkibində qalmaqda görüb. Türkiyə dövlətinin bu dövrdə siyasi və hərbi cəhətdən köməyi əvəzsiz rol oynayıb (1, s. 3).

90-cı illərdə SSRİ-nin dağılması nəticəsində yaranmış hərc mərclikdən istifadə edən məkrli düşmənlərimiz məmləkətimizə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qarşı ərazi iddialarını müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəlmişlər. 1990-cı il yanvarın 18-19-da Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin VII ordusunun köməyi ilə işğal olundu. (2., s.114). Təqribən iki ilə yaxın ermənilərə qarşı layiqli, cəsarətli müqavimət göstərən Kərki kəndi məhz sovet ordusunun köməyi ilə erməni işğalı altına düşdü.

Azərbaycan Respublikası Milli Məclisinin Naxçıvana erməni təcavüzünü pisləyən Bəyanatında deyilirdi: "Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibində olması ilə heç cür razılaşa bilməyən Ermənistan Naxçıvana ərazi iddialarından əl çəkməmiş, Moskvadakı himayədarlarının köməyi ilə Naxçıvanın bir hissəsini qorumağa nail olaraq, həmin ərazidə indiki Mehri rayonunu yaratmışdır. Beləliklə, Naxçıvan Azərbaycanın əsas ərazisindən tamamilə təcrid olunmuşdur. Nəhayət, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumu ərəfəsində erməni silahlı birləşmələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişlər. (2., s. 115)

Kərki kəndini ələ keçirən ermənilər sovet qoşunlarına arxalanaraq Sədərək kəndində sərhəddə yerləşən mebel sexi və şərab zavoduna doğru hücuma keçdilər. Qeyri-bərabər döyüşdə naxçıvanlılar böyük əzmkarlıqla mübarizə apardılar. Qəhrəman oğullarımız düşmənə ağır itki verərək, onların geri çəkilməsinə nail ola bildilər. Lakin düşmən heç cür sakit ola bilmir, Sədərəyi raket, top, pulemyot və avtomatlardan atəşə tutur və kəndi ələ keçirməyə çalışırdı. Ermənilərin Sədərəyə hücumu zamanı 6 nəfər şəhid olmuş, onlarla adam yaralanmışdı. (8., s. 4). Ermənilərin muxtar respublikaya yanvarın 18-25-də ilk mütəşəkkil hücumu zamanı sədərəkli iki azyaşlı uşaq Elvin və Malik Nəsirovlar evlərinə düşən düşmən mərmisindən həlak olmuşdular.

Yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verən qanlı yanvar hadisələrinin törədilməsində məqsəd bir tərəfdən xalqın azadlıq və istiqlaliyyət uğrunda mübarizəsini boğmaq idisə, digər tərəfdən Naxçıvanın ermənilər tərəfindən işğal edilməsinə yol açmaq idi.

Bu dövrdə ermənilər və onların havadarı olan Rusiya hərbiçiləri tərəfindən hərbi-siyasi və iqtisadi blokadaya salınmış Naxçıvan ağır vəziyyətə düşmüşdü. Paytaxt Bakıdan real kömək göstərilməməsi azmış kimi, səriştəsiz rəhbərlərin məsuliyyətsizliyi və hakimiyyət uğrunda amansız mübarizə səbəbindən torpaqlarımızın taleyi hərraca qoyulmuşdu. Bu baxımdan yalnız Naxçıvanda deyil, bütün Azərbaycanda vəziyyət acınacaqlı idi. Düşmənin torpaqlarımızı bölüşdürmək planları reallaşmaqda, Naxçıvan Cənubi Qafqazın siyasi xəritəsindən Azərbaycan torpağı kimi yox edilmək ərəfəsində idi. (2., s. 116).

Baş verən hadisələr Naxçıvan ictimaiyyətini ciddi narahat edirdi. Belə bir şəraitdə 1990-cı il yanvarın 19-da Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyası keçirildi. Naxçıvan MSSR Ali Soveti muxtariyyət statusundan istifadə edərək SSRİ-yə qarşı kəskin etiraz formasını seçdi. Müttəfiq respublikanın tərkibində olan muxtar respublika Ali Soveti sovet rejiminə qarşı yönəldilən və onun müəyyən mənada iç üzünü açan cəsarətli bir qərar qəbul etdi. SSRİ-nin Əsas Qanununun (Konstitusiyasının) 81-ci maddəsinə əsaslanan Naxçıvan parlamenti Azərbaycan SSR-in, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən, SSRİ-nin tərkibindən çıxdığını və özünü müstəqil respublika elan etdiyini bildirdi. Bunu onunla əsaslandırdı ki, Azərbaycan və Naxçıvanın ali qanunverici orqanlarının ittifaq orqanlarına dəfələrlə edilən müraciəti cavabsız qalmış, Ermənistanın təcavüzü nəticəsində muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısındadır. (2., s. 117)

SSRİ tarixində misli görünməmiş bu hadisə dünya ictimaiyyətinin diqqətini Azərbaycana, onun tərkib hissəsi olan Naxçıvana cəlb etdi.

Beynəlxalq təcrübədə misli görünməmiş təzyiq metodlarına əl atan Ermənistan hökumətinin təcavüzkar siyasəti nəticəsində Naxçıvan, Azərbaycanın əsas ərazisi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrini itirmiş, iqtisadi blokadaya məruz qalmışdır. Muxtar respublikanın elektrik enerjisinə tələbatının cəmi 8-10 faizi ödənilirdi. Dəmir yolunun fasilələrlə işləməsi və 1992-ci ilin aprel ayının 14-dən tamamilə dayanması, 1991-ci ilin dekabr ayından muxtar respublikaya qazın verilməməsi, elektrik enerjisinin tamamilə kəsilməsi sosial partlayış üçün zəmin yaratmışdır. Sənaye, tikinti təşkilatları lazımi xammal və avadanlıqlarla, inşaat materialları ilə təmin olunmadığından onların əksəriyyətinin fəaliyyəti dayanmış, qısa vaxta sənaye məhsullarının ümumi həcmi 50,3 faiz, xalq istehlak malları 51,9 faiz xeyli artmışdı. Muxtar Respublikanın blokadada olmasının ən təhlükəli cəhəti həm də ondan ibarət idi ki, əhalinin ən zəruri ərzaq məhsullarına – una, çörəyə olan tələbatının ödənilməsi minimuma enmiş, çörək ehtiyacı iki-üç günə yetəcək qədər azalmışdı. Naxçıvan ümummilli lider Heydər Əliyevin sözləri ilə desək “taleyin ümidinə bıraxılmış bir ada” nı xatırladırdı.

Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 1990-cı ilin iyun ayında Naxçıvana döndüyü tarix muxtar respublikanın siyasi, sosial-iqtisadi həyatında ağrılı, bir-birindən ziddiyyətli proseslərin getdiyi zamanlara təsadüf edir. Məhz bu dönüş Azərbaycanın qədim diyarını erməni məkrindən, işğalından qurtarıb naxçıvanlıları qorudu.

Millətin ağır günlərində dərdinə şərik çıxmaq, mənəvi cəhətdən ruhlandırmaq, insanları sarsıdıcı problem və qayğılarla üz-üzə qalan Naxçıvanı gözlənilən daxili və xarici təhlükələrdən qurtarmaq lazım gəlirdi. Sözsüz ki, bu işlərdə böyük iradə və nüfuz sahibi olan bir şəxsiyyətə ehtiyac vardı. Eyni zamanda, qonşu Ermənistanın təcavüzkar siyasətini səciyyələndirən torpaq iddiaları bu bölgə üçün yeni bir şey deyildisə, yenə də özlüyündə olmazın siyasi, mənəvi gərginlik yaradırdı.

1990-cı ildə keçirilən parlament seçkilərində Heydər Əliyev həm muxtar diyarın, həm də Azərbaycanın ali qanunvericilik orqanına deputat seçilmişdi. Bu, naxçıvanlıların, ümumilikdə respublikamızın ağır şəraitdə yaşadığı anda ən düzgün seçim idi. Sonrakı proseslərin inkişafı da göstərdi ki, həmin seçim nəinki bölgənin, hətta bütövlükdə Azərbaycanın həyatı, taleyi üçün uğurların bir təməl daşı olmuşdur. 1991-ci ildə Naxçıvan Ali Məclisinə sədr seçilməklə böyük siyasi fəaliyyətinin yeni mərhələsinə başlayan ümumilli lider elə ilk anlardan bütün ölkə üçün mühüm siyasi-ideoloji əhəmiyyəti böyük olan qərarlar qəbul etmişdi. Heydər Əliyev o zamankı mülahizələrində “Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin dövründə üzərimə düşən vəzifənin icrasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm” – deməklə, üzərinə götürdüyü məsuliyyəti haqlı olaraq xalqın tale məsələsi sayırdı. (7., s. 88)

Azərbaycan dövlətçiliyinin xilası missiyasının ilk kontuları Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrün əvvəllərində özünə biruzə verdi. İlk olaraq məhz burada dövlətçiliyin, müstəqilliyin bəzi atributları müəyyənləşdirildi – muxtar respublikanın adından “Sovet Sosialist” ifadəsi çıxarıldı. Bununla yanaşı, ümdə məsələlərdən biri də tez bir zamanda Naxçıvanın qapılarını dost ölkələrə açmaq, getdikcə bərkiyən blokadanı yarmaq idi. Heydər Əliyev çıxış yollarından biri kimi özünün çoxdankı arzusunu

reallaşdırmaqda – Naxçıvanla Türkiyə arasında Araz çayı üzərindən qardaşlıq körpüsü saldırmaqda görürdü. Sonralar bu körpü xilaskar insanın öz ifadəsilə “Ümid körpüsü”, “Həsrət körpüsü” adlanacaq, həsrətli qardaşları bir-birinə qovuşduracaq, insanların həyata inamını artıracaqdı. Belə bir məqamda dost və qardaş ölkə olan Türkiyə ilə, eləcə də İranla danışıqlar aparıldı, ikitərəfli görüşlərin nəticəsi olaraq qısa bir müddətdə iqtisadi əlaqələrin ilk təməlləri atıldı.

Türkiyə Respublikasının baş naziri Süleyman Dəmirəlin dəvəti ilə onun göndərdiyi təyyarədə görkəmli siyasət xadimi Heydər Əliyev may ayında Türkiyəyə səfər edir. Türkiyə görüşlərində yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanın, o cümlədən Naxçıvanın üzləşdiyi çətinliklər müzakirə olundu, vəziyyətin yüngülləşdirilməsi ilə əlaqədar birgə çıxış yollar arandı. Bundan sonra bölgəyə qardaş ölkədən müxtəlif yardımlar gətirildi. 1991-ci il oktyabr ayının 29-da Azərbaycanla Türkiyə arasında Sədərək rayonu ərazisində müvəqqəti körpünün açılışı oldu. Açılış mərasimində möhtərəm Heydər Əliyev, Türkiyə hökumət nümayəndələri Bakıdan gəlmiş Azərbaycanın elm və mədəniyyət xadimləri çıxış etdilər. Sərhəd boyunca çəkilmiş iki-üç cərgəli tikanlı məftil hasarlar aradan qalxdı, sənələrcə bu imkandan, normal ünsiyyətdən məhrum olan yüzlərcə insan bir araya gəldi. Bu mühüm hadisə ilə Naxçıvan Türkiyə əlaqələri yeni mərhələ qədəm qoydu. Qardaş ölkə möhtərəm Heydər Əliyevin siyasi səyləri nəticəsində faciədən və məşəqqətdən xilas olmağa çalışan muxtar respublikaya dəstəyini, dostluq və qardaşlıq missiyasını hər zamankı kimi yenə də şərəflə yerinə yetirirdi. Vətəndaşlar yavaş-yavaş sosial, mənəvi sıxıntılardan qurtulmağa, sabaha ümidlə baxmağa başladılar. Həmin ərəfədə başqa ölkələr də Naxçıvana müəyyən yardımlar göstərirdi. Amma vəziyyəti gərginləşdirən digər təhlükəli ocaqlar da hələ yenicə közərməyə başlamışdı. Bir yandan da erməni silahlı qüvvələrinin Naxçıvandakı bəzi sərhəd yaşayış məntəqələrinə hücumları da güclənmişdi. Ölkənin səriştəsiz rəhbərləri isə nəinki vəziyyətdən baş çıxara bilir, heç prosesləri qiymətləndirməyi belə bacarmırdılar. Bütün respublika miqyasında hərc-mərclik, xaos hökm sürürdü. Belə məqamda Naxçıvanın xarici ölkələrlə iqtisadi əməkdaşlıq əlaqələri vəziyyəti yaxşılığa doğru dəyişə bilərdi. Formalaşmış ictimai rəy ondan ibarət idi ki, bu münasibətlərin yaradılması və bölgənin blokada şəraitində normal yaşaması da yalnız Heydər Əliyevin nüfuzuna bağlıdır.

Sonralar Azərbaycan dövlətçiliyində ilk təcrübə sayılan iqtisadi islahatların aparılması da Naxçıvandan başlamışdı. Xüsusilə qeyd etmək lazımdır ki, bu qədim diyarın Türkiyə və İranla – xalqlarımızın daha da yaxınlaşması istiqamətində ilk səmərəli əməkdaşlıq əlaqələrinin qurulması bir sıra həyati məsələlərin həlli ilə təzahür etmişdir.

Naxçıvan Türkiyə əlaqələrinin inkişafının davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri H.Əliyevin Türkiyə Respublikası hökumətinin dəvəti ilə 1992-ci ilin mart ayının 22-dən 25-nə qədər qardaş ölkəyə səfəri mühüm rol oynamışdır. Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Ankarada Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, texniki və iqtisadi yardım göstərilməsini nəzərdə tutan birgə əməkdaşlıq protokolu imzaladılar.

Heydər Əliyevin bölgəni blokada məngənəsindən xilas etmək məqsədi daşıyan Türkiyə səfəri muxtar respublikanın sosial-siyasi ehtiyaclarının həlli baxımından uğurlu nəticələrlə yadda qalmışdır. Bu səfərdən sonra Naxçıvana 100 milyon dollar məbləğində kredit ayrılmış, kommunikasiya, nəqliyyat və digər sahələrdə faydalı əməkdaşlığa əsaslanan anlaşmalar əldə edilmişdir. Bununla yanaşı, daha geniş xarakter alan dostluq münasibətlərinin dolğun şəkildə həyata keçirilməsində 1992-ci ilin mayın 28-də istifadəyə verilən və Naxçıvanı Türkiyə ilə birləşdirən 288 metrlik Sədərək – Dilucu körpüsünün açılmasının da müstəsna əhəmiyyəti olmuşdur. Bu Naxçıvanın Heydər Əliyev dövründə ümumi uzunluğu 906 metr olan körpüdən biri və ən böyüyü, ən vacibidir. “Könül körpüsü” də adlandırılan bu əhəmiyyətli keçidin tarixi, strateji, geosiyasi haqqında danışmazdan əvvəl Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının tarixi qələbəsi sayılan Türkiyə Azərbaycan birliyində körpü rolunu oynaması məsələləri üzərində dayanmaq lazımdır. “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir” – deyən Türkiyə Cumhuriyyətinin banisi Mustafa Kamal Atatürk ötən əsrin 20-ci illərində öz ölkəsi üçün yaranmış şəraitdən istifadə edərək 11 kilometrlik sahəni Azərbaycana çıxış əldə etmək üçün İrandan satın almaqla eyni kökə sahib olan iki xalqı bir-birindən ayrı düşməyə qoymamışdır. Mustafa Kamal Naxçıvanla bağlı fikirlərini belə ifadə etmişdir: “Azərbaycana bağlı Naxçıvan vilayəti qardaş Türkiyə ilə 11 kilometrlik sərhəddə olan türk yurdudur. Naxçıvan türk dünyasının qapısıdır, onu qorumaq lazımdır”. (3., s. 87). Təbii ki, o vaxt Atatürkün Naxçıvana bütövlükdə Azərbaycana qarşı münasibəti belə yüksək səviyyədə olmasaydı ermənilərin arxalandığı Moskva hökuməti Naxçıvan Muxtar Respublikasının qurulmasına razılıq verməycək və Azərbaycan tarixi torpağını itirəcək idi. Çünki siyasi səhnədə təklənmiş Azərbaycan hökumətinin də Naxçıvanı əldə saxlamağa gücü yetməyəcəkdi. Körpünün tikilməsi Türkiyə hökumətinin, onun başçısı Süleyman Dəmirəlin xalqımızın müdrik siyasətçisi Heydər Əliyevə dostluq və qardaşlıq münasibətinin bəhrəsi idi. Müasir Azərbaycan dövlətçiliyinin banisi birbaşa öz təşəbbüsü ilə tikilmiş nəhəng körpünü ölkələrimiz arasındakı 70 illik ayrılığı aradan qaldıran “ümid,

həsrət körpüsü” adlandırmaqla bi-birinə doğma, dili, mədəniyyəti, milli-mənəvi dəyərləri eyni olan insanların çoxillik arzularının doğrulmasını nəzərdə tuturdu.

Sonralar Naxçıvanın 75 illiyi münasibətilə təntənəli tədbirlərdə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyevin körpünün açılması zərurətini belə xarakterizə edirdi: “Belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi – bizi Türkiyədən ayırdılar, Türkiyə ilə bizim cəmisi 11 kilometr, o da Naxçıvanda, sərhədimiz var, bu sərhəddən Araz çayı keçir, heç bir şey mümkün deyildir – bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı. Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum. Biz dostumuz Süleyman Dəmirəlin və Türkiyə hökumətinin himayəsi, köməyi ilə bunu etdik. Naxçıvan Türkiyəyə açıldı. Bu, bizi xilas etməyə başladı”. (7., s, 84)

Naxçıvanla Türkiyə arasında salınmış “Ümid körpüsü”nün açılış mərasimi 1992-ci ilin mayın 28-də Azərbaycanın müstəqilliyi günü ilə bir tarixdə baş vermişdir. Bu tarixi hadisə böyük şəxsiyyət Heydər Əiyevin naxçıvanlılara dar gündə çörək, təhlükəsiz həyat töhfəsi olmaqla, həm də bölgənin beynəlxalq aləmə ilk çıxış vasitəsi kimi yadda qalmışdır. Təbii ki, körpünün tikilməsi və Süleyman Dəmirəlin də iştirak etdiyi açılış regionun Sədərək sərhəd yaşayış məntəqəsinin erməni həmlələrinə məruz qaldığı vaxtlara təsadüf etdiyindən, əhali arasında əhval-ruhiyyənin yüksəlməsinə də ciddi təsir göstərirdi. Türkiyənin baş naziri Süleyman Dəmirəl 60 millət vəkili və 40-dan çox nüfuzlu kütləvi informasiya vasitələri nümayəndələri ilə birgə Araz çayı üzərində uzunluğu 288 metr, eni 12 metr, ümumi smeta dəyəri 5 milyon manat olan yeni körpünün “Ümid” körpüsünün açılışını etmək üçün Naxçıvana gəldi. S.Dəmirəl Naxçıvan hava limanında bütün dünyanın diqqətini Türkiyə-Azərbaycan birliyinin sarsılmazlığına yönəldərək dedi: “Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. Biz dünyanın Azərbaycan haqqında həqiqətləri bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla olmuşdur və olacaq. Biz kədəri və sevinci birlikdə bölüşəcəyik”. (3., s. 401). Körpünün açılışında Süleyman Dəmirəl qeyd etmişdir ki, burada cərəyan edən hadisənin əlamətdarlığı təkcə körpünün açılmasında deyildir. Bununla Türkiyə vasitəsilə Azərbaycan həqiqətlərini Avropaya çatdırmaq üçün yollar açılır. Hadisə 70 il bir-birilə qürbətdə, həsrətdə yaşamış qardaşlarımızı yenidən görüşdürür. Bu coşğunluğu anlaya, bilmək lazımdır. Qardaşlıq, dostluq bundan sonra daha da sıx olacaqdır. Türkiyə və Azərbaycan, Naxçıvan arasında əlaqələr genişlənəcək, adamlar bir-biri ilə yaxınlaşacaqdır. Bu körpü təkcə Azərbaycanla Türkiyəni birləşdirmir, bu Avropa ilə Asiya arasında körpüdür. (4., s. 104)

Möhtərəm Heydər Əliyev “Ümid körpü”-sünün Türkiyə Cumhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə və inkişaf etməsinə qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət etdiyini nəzərə alaraq 9 iyun 1992-ci il tarixli qərarla Sədərək Dilucu körpüsünü Türkiyə Cumhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan etdi.

İndi o tarixi hadisənin baş verdiyi vaxtdan düz 27 il keçir. Bütün bu müddət ərzində “Ümid körpüsü” Naxçıvanın ağrılı, sevincli günlərində qardaş ölkələr – “bir millət, iki dövlət” arasında etibarlı vasitəyə çevrilmişdir. Bu gün naxçıvanlılar o mürəkkəb olayların düşmən hiyləsinin əhatəsindən alnı açıq çıxıb yaşamaqda Dilucu-Sədərək körpüsü kimi neçə-neçə möhtəşəm dostluq abidələri yaratmış Heydər Əliyevə borcludurlar. Böyük Heydər Əliyev isə bu gün təkcə Naxçıvana, Azərbaycana deyil, bütün Cənubi Qafqaz bölgəsinə bəxş etdiyi əmin-amanlığa görə sülhün rəmzinə çevrilmiş bir öndərdir. (6., s. 114)

...Sarsıntılı anlar arxada qalmışdır. Tükiyə ilə Naxçıvan arasında iqtisadi, mədəni, elmi əlaqələr daha da genişlənmişdir. Ölkələrimizin işgüzar dairələrinin, təsərrüfat sahələrinin sağlam əməkdaşlıq münasibətləri nəticə etibarilə regionun ümumi həyatı üçün effektli irəliləyişlərin gerçəkləşməsinə gətirib çıxarmışdır. Bütün bu işlərin həyata keçirilməsində Heydər Əliyevin “Ümid körpüsü”nün rolu danılmazdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan qəzeti, 2010, 15 may
2. Cabbarlı Ələkbər. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Naxçıvan, 2015.
3. Davutoğlu A., Stratejik Derinlik; Türkiyenin Uluslararası konumu. İstanbul, 2009, 584 s.
4. Mitat Çelikpala. Türkiyə və Kafkasya; Reaksiyoner Dış Politikadan Proaktif Ritmik Diplomasiye Geçis, Uluslararası İlişkiler, Cilt 7, sayı 25 (Bahar 2010) s. 93-126
5. Ruintən S., Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri), Bakı 2005, 211 s.
6. Ruintən S., XX əsrin sonu – XXI əsrin əvvəllərində Türkiyə Cumhuriyyətinin Cənubi Qafqaz dövlətləri ilə hərbi-siyasi əməkdaşlığı haqqında, Tarix və onun problemləri jurnalı, Bakı, 2018, səh 103.
7. Türk dünyasının birliyi ideyası və Heydər Əliyev. Bakı, 2011.
8. “Xalq qəzeti” 18 fevral 1994.

**ABSTRACT**

**Khatira Hajiyeva**

**THE IMPORTANCE OF THE BRIDGE SADARAK DILUCU IN TURKEY`S DIPLOMATIC RELATIONS WITH NAKHCIVAN**

As a result of the government policy of Armenia Nakhcivan was lost the directly connection with Azerbaijan and exposed to economic blockade at the beginning of the 90`s at that time, Great Leader Haydar Aliyev saw the way out of situation to build a bridge over the Araz between Turkey and Nakhcivan. The opening ceremony was been in 1992, on May 28th, “Ümid körpüsü” that was built between Nakhcivan and Turkey save Nakhcivan from economic blockade, caused to expansion of economic, cultural, scientific connections between Turkey Nakhcivan.

**РЕЗЮМЕ**

**Хатира Гаджиева**

**ЗНАЧЕНИЕ МОСТА САДАРАК ДИЛУДЖУ В ДИПЛОМАТИЧЕСКИХ ОТНОШЕНИЯХ МЕЖДУ ТУРЦИЕЙ И НАХЧИВАНОМ**

В начале 90-х годов в результате агрессивной политики правительства Армении Нахчиван потерял сухопутную связь с основной территорией Азербайджана и попал в транспортную и экономическую блокаду. В это время общенациональный лидер Гейдар Алиев выход из создавшейся ситуации видел в создании моста через Аракс между Турцией и Нахчиваном. Этот мост “Умуд” который был открыт 28 мая 1992-го года, между Турцией и Нахчиваном, положил конец экономической блокаде Нахчивана и создал условия расширения экономических, культурных и научных отношений между Турцией и Нахчиваном.

**AYNUR SƏFƏRLİ**
*Azərbaycan Dillər Universiteti*
*seferli_1988@bk.ru*

# AZƏRBAYCAN – TÜRKİYƏ DİPLOMATİK ƏLAQƏLƏRİNDƏ NAXÇIVANIN YERİ VƏ ROLU

**Açar sözlər:** *qardaş ölkələr, "Ümid" körpüsü, muxtar respublika, mədəni əlaqələr*
**Key words:** *fraternal countries, Umid Bridge, autonomous republic, cultural relations*
**Ключевые слова:** *братские страны, Умидский мост, автономная республика, культурные связи*

Giriş

Azərbaycan dünyanın ən önəmli yerində - Orta Asiya, Orta Şərq və Ön Asiyanın tam ortasında yerləşir. Bölgənin ən vacib özüəməxsusluğu mühüm tarixi keçid və ticarət yolları üzərində olmasıdır. Azərbaycanın bu strateji mövqeyi, bir körpü rolunu oynaması, bu ölkəyə iqtisadi, sosial və siyasi üstünlüklər qazandırmaqdadır. Müstəqillik əldə etdikdən sonra başda Türkiyə olmaqla, bir çox ölkələrlə azad şəkildə münasibət qurmağa başlamış Azərbaycanla Türkiyə arasında yaranan münasibətlərin başında isə iqtisadi əməkdaşlıq gəlir. Türkiyə-Azərbaycan əlaqələrinin tarixi və coğrafi baxımdan zəruri edən amillər olmuşdur ki, bunlar da bazis xarakteri daşıyır. Bu əlaqələr əsasən siyasi, mədəni, iqtisadi və s. sferanı əhatə edir (1, s.5-8)

Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamış və bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasına səbəb olmuşdur.

**Türkiyə-Azərbaycan münasibətlərini şərtləndirən amillər**

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında yer alır. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Türkiyə nəinki Azərbaycanın, eyni zamanda bütün Qafqazın taleyində önəmli rol oynayan üç əsas region dövlətindən (Rusiya və İranla birgə) biridir. Hələ qədim zamanlardan bu ölkə özünün Qafqaz siyasətinə çox ciddi önəm vermiş və bölgədə cərəyan edən hadisələrə fəal müdaxiləsi ilə seçilmişdir.

Azərbaycanla demək olar ki, birbaşa quru əlaqəsi olmayan (təcrid edilmiş Naxçıvanla əlaqə istisna olmaqla) Türkiyə yalnız Gürcüstan, Rusiya və İran vasitəsilə Azərbaycana və Orta Asiyaya daxil olmaq, onlarla hərtərəfli inteqrasiyaya girmək imkanına malikdir. Azərbaycan - Türkiyə münasibətlərinin inkşafında hər iki tərəf maraqlıdır. Türkiyə Azərbaycan üçün beynəlxalq aləmdə müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət olması Türkiyənin dünya siyasətində gücünün və rolunun artırması deməkdir. Ona görə də bu iki dövlətin münasibətlərinin beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkşafı zəruridir. Azərbaycan Respublikasının mərhum Prezidenti Heydər Əliyevin 1997-ci ildə Türkiyənin "Dövlət nişanı", 1999-cu ildə isə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən "İlin adamı" seçilməsi, bu ölkənin bir çox universitetinin Fəxri doktoru seçilməsi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafındakı xidmətlərinin göstəricisidir. Azərbaycan-Türkiyə mədəni əlaqələrinin inkişafında iki ölkə arasında həyata keçirilən tələbə mübadiləsi, qarşılıqlı tele-radio yayınları da mühüm rol oynamışdır (7). Müstəqilliyimizi bərpa etdiyimizin ilin (1991-ci il oktyabrın 18-də) 9 noyabrında Türkiyə ölkəmizi ilk tanıyan dövlət oldu və 1992-ci il yanvarın 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradıldı. Həmin vaxtdan Türkiyənin Azərbaycanda səfirliyi və Naxçıvanda Baş Konsulluğu açıldı, 1992-ci ilin avqust ayından Azərbaycanın Türkiyədə səfirliyi, 1993-cü ilin yanvar ayından İstanbulda, 2004-cü ilin aprelin 12-dən isə Qarsda Baş Konsulluqları fəaliyyət göstərməyə başladı **(8).**

Hər zaman strateji əhəmiyyətli bölgə olan qədim diyar Naxçıvanın möhkəmlənməsinə və inkişafına xüsusi qayğı və diqqət göstərilmişdir. Bu səbəbdən torpaqlarımıza zaman-zaman göz dikən yaramaz erməni millətçilərinin məkrli planları və niyyətləri puç olmuşdur. Naxçıvanın Qərblə Şərqi birləşdirən Böyük İpək yolunun üzərində yerləşməsi onu həmişə fatehlərin, qüdrətli dövlətlərin siyasi maraqlarının kəsişdiyi və toqquşduğu ünvana çevirmişdir. Türkiyə-Azərbaycan münasibətləri qədim tarixi köklərdən qaynaqlanır ki, bu

da müasir mərhələdə daha geniş miqyas almışdır. Avropanın böyük və qüdrətli dövlətlərindən, səlahiyyətli söz sahiblərindən biri sayılan qardaş ölkə Türkiyədə məmləkətimizin ayrılmaz bir parçası olan, iyirmi ilə yaxın bir müddətdə məkrli ermənilərin ucbatından iqtisadi blokada şəraitində yaşayan bölgəmizə bu qədər sevgi və məhəbbətin olması da qürurvericidir.

**Naxçıvanın blokada şəraitinə düşdüyü vaxtda qardaş ölkənin dəstəyi və "Ümid" körpüsünün açılışı.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakı şəhərinə soxulmasından 8 saat əvvəl erməni silahlı dəstələri Naxçıvanın sərhəd bölgələrinə hücum edərək Kərki kəndini işğal etmişdilər. Nəticədə muxtar respublika ölkəmizin əsas ərazisi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrindən məhrum olmuş, iqtisadi blokadanın ağrı-acıları ilə üz-üzə dayanmış, qaz və işıq sisteminin verilməsində böyük problemlər yaranmışdır. Çörək qıtlığı ucbatından mağazalar qarşısında uzun-uzadı növbələr yaranmışdır. Həmin illərdə ulu öndərin sözləri ilə desək, Naxçıvan, "taleyin ümidinə buraxılmış bir ada"nı xatırladırdı.

Muxtar respublikanın ağır sınaqlar, məhrumiyyətlər qarşısında qaldığı bir zamanda bütün ümidlər yalnız dahi şəxsiyyətə bağlanmışdı. Bir zamanlar Türkiyənin prezidenti olmuş Süleyman Dəmirəl də Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Heydər Əliyevin rolunu yüksək qiymətləndirmiş, "Heydər Əliyev erməni təcavüzü nəticəsində blokadaya məhkum olunmuş Naxçıvana rəhbərlik etdiyi dövrlərdən Türkiyə ilə münasibətlərə xüsusi əhəmiyyət vermiş, bu hesaba ölkələrimiz arasında faydalı əməkdaşlığa nail olunmuşdur" deyə qeyd etmişdir.

Prezident İlham Əliyev də hər zaman "Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır" deyə vurğulamışdır.

"Naxçıvan türk-islam dünyasına açılan bir qapıdır"- söyləyən Heydər Əliyev Türkiyə Respublikasına ilk rəsmi səfəri (1992-ci ilin mart) zamanı Türkiyə Prezidenti Turqut Özal, Baş nazir Süleyman Dəmirəl və digər rəsmi şəxslərlə görüşmüş, Qars müqaviləsini yenidən gündəmə gətirməklə Ermənistanın Azərbaycana qarşı təcavüzü və Naxçıvanın düşdüyü ağır vəziyyəti müzakirə etmişdir. O zaman Naxçıvan Ali Məclisinin Sədri olan H.Əliyevlə Türkiyənin Baş naziri S.Dəmirəl arasında birgə protokol imzalanaraq, bütün sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulmuş 13 maddəlik protokol imzalanmışdır. Bu protokolda muxtar respublikaya maliyyə, iqtisadi, texniki yardım göstərilməsi, regionun zəruri ehtiyaclarını ödəmək üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi öz əksini tapmışdı. Protokolda, həmçinin bank işi, turizm, informasiya sahəsində əməkdaşlıq əlaqələrinin yaradılması, muxtar respublikadan yüz nəfər tələbənin Türkiyədə təhsil alması haqqında razılığa gəlinmişdir.

Naxçıvanın muxtariyyət məsələsi döyüş meydanlarında həll olunmaqla qalmamış, fəal diplomatik və siyasət meydanlarında da müzakirələrə çıxarılmışdır. Zorla siyasiləşdirilmiş Naxçıvan məsələsi 1921-ci ildə imzalanmış iki beynəlxalq sənəddə - Moskva və Qars müqavilələrində öz əksini tapmışdır. Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürk də 1918-1921-ci illərdə Naxçıvanın yadelli düşmənlərdən qorunmasında böyük uzaqgörənlik nümunəsi göstərmişdir. "Naxçıvan türk dünyasının qapısıdır" - deyən böyük Atatürk öz ölkəsinin çətin vəziyyətdə olmasına baxmayaraq, Kazım Qarabəkir paşanın rəhbərliyi altında Naxçıvana böyük ordu göndərmiş, onların köməyi ilə daşnak yaraqlıları qovularaq bölgədən çıxarılmışdır. 1921-ci il oktyabrın 13-də isə Qarsda Cənubi Qafqazın sovet respublikaları ilə Türkiyə hökuməti arasında, sovet Rusiyasının iştirakı ilə imzalanan beynəlxalq müqavilədə Naxçıvanın muxtariyyət məsələsi öz əksini tapmışdır. Həmin müqavilənin beşinci maddəsində göstərilib ki, "Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin 3-cü əlavəsində göstərilən sərhəd daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməyə razıdırlar". Müqavilənin fəaliyyət müddəti də məhdudlaşdırılmamışdır. O, bu gün də qüvvədədir. Türkiyə dövləti də tarixin bütün məqamlarında öz sözünün üstündə durmağa çalışıb. Belə ki, həmin məsələnin həllində də qardaş ölkə köməyini əsirgəməmişdir.

1992-ci ilin may ayı isə Azərbaycanın, eləcə də Naxçıvanın müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü əhatə edib. Mayın 18-də Muxtar Respublika Ali Məclisinin Sədri Ermənistanın Naxçıvana təcavüzünün dayandırılması üçün Türkiyədən kömək göstərilməsini xahiş etmişdir. Həmin gecə Türkiyə hökuməti xüsusi bəyanatla çıxış edərək, 1921-ci il Qars müqaviləsinə əsasən, Naxçıvan haqqında söz sahibi, onun muxtariyyətinin qarantı olduğunu yenidən bütün dünyaya bəyan etdi. Məhz bu bəyanatdan sonra dünyanın 57 dövləti Ermənistanın təcavüzkar hərəkətlərini pisləmiş oldu.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də açılan "Sədərək-Dilucu" körpüsü daha mühüm rol oynamağa başladı ki, həmin günlər iqtisadi böhran içərisində yaşayan region rəsmən bayram əhval-ruhiyyəsi yaşamış oldu. Körpünün rəsmi açılışında iştirak etmək üçün Türkiyənin o vaxtkı Baş naziri S.Dəmirəlin başçılığı ilə böyük nümayəndə heyəti Naxçıvana gələrək bölgə ilə ətraflı tanış oldular. Muxtar respublikanın ictimai-iqtisadi həyatında mühüm mərhələ olan, iki qardaş xalqın uzun illər qovuşmaq arzusunu yerinə yetirən "Ümid" körpüsünün istifadəyə verilməsi böyük təntənə ilə qeyd olundu.

Körpünün açılış mərasimində "bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biri ilə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir. Bu coşğunluğu anlaya bilmək lazımdır. Bu, bir birlik, milli coşğunluqdur" - deyən S.Dəmirəl, "qardaşlıq, dostluq bundan sonra daha da sıx olacaqdır. Türkiyə ilə Azərbaycan, eyni zamanda ona bağlı olan Naxçıvan arasında əlaqələr genişləncək, adamlar bir-birləri ilə yaxınlaşacaqlar" deyə əlavə etmişdir. (6, s.3).

**Dağlıq qarabağ məsələsinin həllində qardaş ölkə Türkiyənin mövqeyi**

Türkiyə dövləti beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi bütün səyləri həmişə müdafiə etmişdir. 1993-cü il aprelin əvvəllərində Ermənistanın hərbi təcavüzünün daha da genişlənməsi və Kəlbəcər rayonunun işğalı ilə əlaqədar Türkiyə xarici işlər nazirliyi bəyanatla çıxış etməklə yanaşı, Türkiyə hökuməti BMT Təhlükəsizlik Şurasından təcili iclasının çağrılmasını da xahiş etmişdir. 1993-cü il aprelin 6-da BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı Türkiyənin BMT-dəki daimi nümayəndəsi Mustafa Akşin bildirmişdi ki, "Türkiyə Azərbaycanın hər hansı bir güc tərəfindən işğalına heç vaxt biganə qalmayacaqdır". O zaman Türkiyə Respublikasının Prezidenti Turqut Özal Azərbaycanı dəstəkləyərək Ermənistanın işğalçılıq siyasətinə son qoymasını tələb etmiş və Türkiyə dövləti bu işğalın davam etməsi səbəbindən Ermənistanla sərhəddini bağlamışdır. Ermənistanın Türkiyəyə qarşı dövlət səviyyəsində soyqırım və ərazi iddialarının qüvvədə qalması aradan qalxmadan Türkiyənin Ermənistanla sərhədlərini açması həm Azərbaycanın, həm də Türkiyənin milli maraqlarına uyğun gəlmir. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr çox uğurla inkişaf edir. **(8)**

**Türkiyə ilə mədəni münasibətlər**

Uzun illər boyu Sovet İttifaqının tərkibində olan Azərbaycan Respublikasının beynəlxalq mədəni fəaliyyətə birbaşa qoşulmaq hüququ olmamışdır. Lakin istər dil, istərsə də adət-ənənə oxşarlığı baxımından bir-birinə çox yaxın olan hər iki xalq mədəni-kulturoloji əlaqələr yaratmağa hər zaman böyük ehtiyac duymuşdur. Təsadüfi deyil ki, Azərbaycanın bir çox dünya şöhrətli sənətkarları hələ Sovet imperiyasının Türkiyəyə qarşı radikal yanaşdığı dövrlərdə də qardaş ölkə ilə mədəni-kulturoloji əlaqələr yaratmaqdan çəkinməmişdirlər. Xüsusilə maestro Niyazi, Arif Məlikov, Zeynəb Xanlarova, Lütfiyar Imanov və başqaları daim Azərbaycan incəsənətini Türkiyə ictimaiyyətinə təqdim edə bilmişlər. Görkəmli sənətkarımız maestro Niyazi Ankara Dövlət Opera və Balet teatrında P.I. Çaykovskinin "Yevgeni Onegin" operasını, "Qu gölü" baletini, C. Verdinin "Aida" operasını tamaşaya qoymuşdur. Türk tədqiqatçıları Niyazini müasir dövrün ən qabaqcıl drijorlarından biri kimi qiymətləndirmişdilər.

Xalq artisti Z.Xanlarova isə Türkiyəyə etdiyi qastrollar zamanı Azərbaycan musiqi mədəniyyətinin, ecazkar gücünü nümayiş etdirmişdir. O, türk tamaşaçılarının ən sevimli müğənnisi statusunu qazanmışdır. 1970-ci ildə bu görkəmli müğənnimizi Türkiyə prezidenti Cövdət Sunay xüsusi diplomla təltif etmişdir. 1977-ci ildə isə Z.Xanlarova Leyla Vəkilovanın rəhbərlik etdiyi Azərbaycan Dövlət Rəqs ansamblı ilə birlikdə Türkiyənin İstanbul, Ankara və İzmir şəhərlərində uğurla çıxışlar etmişdir. Həmin vaxt demək olar ki, bütün türk qəzetləri Z.Xanlarovanın ecazkar ifasından, sənətkarlıq qüdrətindən yazmışdılar.

Hələ sovet dövründə Azərbaycanda Y.Kamal, Orxan Kamal, Rəşad Nuri Güntəkin, Nazim Hikmət, Əziz Nesin kimi türk yazarlarının əsərləri populyar olub və dəfələrlə nəşr edilmişdir (7**).**

**Türkiyə ilə iqtisadi əməkdaşlıq neft sferasında**

Müstəqilliyin ilk illərində Türkiyə iki qardaş ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq dövlət quruculuğu yolunda respublikamızın səylərini daim dəstəkləməklə, hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərmişdir. 1994-cü ilin sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının ilk əsas təzahürü idi. 1999-cu il noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in zirvə toplantısı çərçivəsində XX əsrin çox mühüm layihəsi hesab edilən və mübahisəli müzakirələrə səbəb olan "Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan, Gürcüstan, Türkiyə ərazilərindən xam neftin nəql edilməsinə dair saziş"in Azərbaycan, Gürcüstan, Türkiyə və ABŞ prezidentləri tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində mühüm addım oldu. Bu Türkiyə dövləti ilə dostluğun və əməkdaşlığın daimi olmasını təsdiq edən çox əhəmiyyətli bir sənəd idi.

Son illər Naxçıvan ölkəmizlə yaxından əməkdaşlıq edən xarici dövlətlər, beynəlxalq qurumlar üçün həm də cəlbedici regiona və etibarlı tərəfdaşa çevrilmişdir. Bu gün muxtar respublikanın Türkiyə ilə bərabər İran İslam Respublikası, Avstriya arasında da yaxın və sıx əməkdaşlıq əlaqələri mövcuddur. Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi də muxtar respublikanın tanıdılmasında önəmli rol oynamışdır. Son iyirmi ilə yaxın müddətdə Türkiyə ilə Azərbaycan arasında əlaqələr daim yüksək səviyyədə olmuşdur. Bu gün bu gözəl ənənələr davam edir və bütün məsələlərdə əməkdaşlığımız yaxşı nəticələr verəcəyinə ümid edirik.

Türkiyənin Avropaya inteqrasiya olması, yalnız Türkiyənin deyil, eyni zamanda Azərbaycanın da Avropa ölkələri ilə davamlı iş birliyində önəmli rol oynayır.

## ƏDƏBİYYAT


1. Bərxudarlı A. Azərbaycan Türkiyə ticarət- iqtisadi əlaqələrinin müasir vəziyyəti və inkişaf yolları. Magistr dissertasiyası. Bakı – 2015.76 səh.
2. Cahangirli C. Azərbaycan Türkiyə. Bakı, 2006
3. Cahangirli C. Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri. Bakı , 2006
4. Karaoğlu A., Kamal O. Azerbeycanın doğal kaynakları ile ekonomik potensialı karşısında Türkiyenin dış ticaretinin gelişme olanakları. Ankara, 2004.
5. Marangi A. Azərbaycan Türkiyə əməkdaşlığının perspektivləri. Azərbaycan Respublikası XİƏM, 2000
6. Məmmədov M. Azərbaycan-Türkiyə əlaqələrində Naxçıvanın yeri. Azərbaycan.- 2010.- 15 may.- s. 3.
7. Http://lib.aliyev-heritage.org/az/4610295.html
8. http://www.karabakh.az/news/?lang=az&i=159


## ABSTRACT


### THE PLACE AND ROLE OF NAXCHIVAN IN DIPLOMATIC RELATIONS BETWEEN TURKEY AND AZERBAIJAN

The article deals with the diplomatic relations between Azerbaijan and Turkey and the role played by Nakhchivan Autonomous Republic in these relations. The brotherly countries have reflected economic and cultural relations. It was emphasized that the brotherly country supports all the difficult days of our country. The Nakhchivan residents welcomed the opening of the Umid Bridge, the activities of H. Aliyev, T.Ozal and S.Demiral.


## РЕЗЮМЕ


### МЕСТО И РОЛЬ НАХЧЫВАНА В ДИПЛОМАТИЧЕСКИХ ОТНОШЕНИЯХ ТУРЦИИ И АЗЕРБАЙДЖАНА

В статье рассматриваются дипломатические отношения между Азербайджаном и Турцией и роль, которую Нахчыванская Автономная Республика играет в этих отношениях. Братские страны отразили экономические и культурные связи. Было подчеркнуто, что братская страна поддерживает все трудные дни нашей страны. Жители Нахчывана приветствуют открытие моста Умида, деятельность Г. Алиева, Т. Озала и С. Демирала.


“Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq”. (Heydər Əliyev )

**AHMET EDİ**
*ahmetedi@gmail.com*
**EMRAH BAYRAMOV**
*Ağrı İbrahim Çeçen Üniversitesi*
*emrahbayramov75@gmail.com*

## AZERBAYCAN VE TÜRK ORDUSUNUN NAHCİVAN'DAKİ ORTAK ASKERİ TATBİKATLARI

**Özet.**Cephede askerlerin başarılı olmasında düzenlenen tatbikatların da büyük önemi vardır. Savaş becerilerinin artırılması ve orduda bulunan modern silahların denenmesi için tatbikatlar ordular için vazgeçilmez bir savaş senaryosudur. Bağımsızlığını kazandığı günden itibaren askeri alanda sürekli gelişen Azerbaycan Ordusu her yıl bütün orduyu kapsayacak şekilde tatbikatlar düzenlemektedir. Bu tatbikatlara son yıllarda kardeş ülke konumundaki Türkiye Cumhuriyeti Silahlı Kuvvetleri katılmaktadır. İki ülke arasında imzalanan antlaşmalar sonucu savunma sanayisinde başarı kazanan Azerbaycan ve Türkiye ortak askeri tatbikatlar düzenlemektedir. Hava ve Kara kuvvetlerinin düzenlediği ortak tatbikatlar müttefik ülkelere güven verirken düşman ülkelere ise bir nevi güç gösterisi yapılmaktadır. Bu ortak tatbikatın her iki ülke için önemli konumda olan Nahçıvan Özerk Bölgesi'nde düzenlenmesi, bölge üzerinde toprak iddiası olan Ermenistan için de açık bir mesaj niteliğindedir.

Çalışmada Azerbaycan ve Türkiye arasındaki Nahçıvan Özerk Bölgesi'nde yapılan askeri tatbikatların detayları amaçlanırken nitel araştırma yöntemlerinden belge ve doküman analizi kullanılmıştır. Sonuç olarak iki devlet tek millet olan iki ülkenin coğrafyadaki askeri faaliyetleri düşmana korku salarken dosta güven verdiği görülmüştür.

**Anahtar kelimeler:** *Nahçıvan, Türkiye, Azerbaycan, Silahlı Kuvvetler, Tatbikat*
**Key words:** *Nakhchivan, Turkey, Azerbaijan, ArmedForces, Exercise*

**Giriş.** Tarihe bakıldığı zaman yapılan savaşların çoğunun politik ilişkilerin sadece bir parçası olduğu görülmektedir. Ülkeyi yöneten hükumetler ve milletler arasında çıkan savaşlar genelde ikili arasında politik ilişkilerin kesilmesinden kaynaklanmıştır. Politikanın devamı olan savaş ilişkilerin kesilmesi ve hükumetlerin biri birlerine nota vermesi ile başlamaktadır. Savaş zamanı tek cephede vuruşan askerler değil bütün halk ve ülkeyi yöneten hükûmette mücadele vermektedir. Hem savaş zamanında hem de barış zamanındaolduğu gibi güçlü politika yürüten devlet muharebeyi kolaylıkla kazandığı görülmüştür. Savaşın kendine özgün kuralları olsa da mantık olarak politikanın devamıdır. Savaşlar planlanırken politik düşünceler ağır basmaktadır. Yapılan planların başarılı olması çoğu zaman cephede bulunan askerlerin cesaret ve yeteneğinede bağlıdır.

Güney Kafkasya bölgesinde yerleşen Azerbaycan Cumhuriyeti komşu ülke olan Ermenistan'a karşı, bağımsızlığını kazandığı 1991 yılından itibaren hem politikada hem de cephede mücadele vermektedir. İki ülke arasında Dağlık Karabağ bölgesi için yıllardır mücadele verilmektedir. Her iki ülkede Sovyet Sosyalist Cumhuriyetler Birliğinden ayrılmasına rağmen Ermenistan, Rusya'nın desteğini alarak Azerbaycan toprağı olan Dağlık Karabağ ve çevre bölgelerini işgal etmiştir. Ebülfez Elçibey iktidarı dönemi ve 1993-1994 yılları arası Ermenistan, Azerbaycan'da yaşanan iç karışıklığı kullanarak Azerbaycan topraklarının% 20'sini işgal etmiştir. Bu savaşta yüzlerce insan ölmüş, bir milyondan fazla insan kendi topraklarından göç etmek zorunda kalmıştır. Birleşmiş Milletler Güvenlik Konseyi'nin, Ermenistan silahlı kuvvetlerinin işgal ettiği Azerbaycan topraklarından çekilmesine dair çıkardığı 822, 853, 874, 884 saylı kararları da hala kâğıt üzerinde kalmaktadır. İki ülke arasında Rusya'nın aracılığı sonucu 12 Mayıs 1994 yılında Bişkek Protokolü ile kabul edilen ateşkes günümüze kadar devam etmektedir. Ateşkes zamanında düzenlenen barış görüşmelerine rağmen sorun çözümlenemez olarak kalmaktadır.

Dağlık Karabağ sorununda ve Azerbaycan devletçiliğinin gelişmesinde hem kardeş hem de müttefik ülke olan Türkiye Cumhuriyeti, her zaman Azerbaycan'ın yanında olmuştur. Azerbaycan bağımsızlığını kazandığı yıllardan günümüze kadar iki ülke arasında devam eden politik, ekonomik, kültürel ve askeri ilişkiler her gün daha da gelişmektedir. Hükumet temsilcilerinin karşılıklı ziyaretleri sonucu bu ilişkiler daha üst düzeye taşınmıştır. İktidara geldiği dönemden başlayarak bölgede denge politikası yürüten Haydar Aliyev zamanında da Türkiye ile olan ilişkilere daha çok önem verilmiştir. İki ülke arasında imzalanan ekonomik ve kültürel anlaşmalar her iki tarafın gelişmesine neden olmuştur. Ermenistan'ın Azerbaycan topraklarını işgaline karşı

Türkiye, Ermenistan'la aralarında olan sınır kapısını kapatmıştır. 2003 yılında Azerbaycan'da Cumhurbaşkanı seçilen İlham Aliyev döneminde Türkiye ile olan ilişkiler ekonomik yanında askeri ilişkiler de artmıştır. Azerbaycan ile Türkiye arasında savunma sanayisi, ortak silah üretimi, ortak askeri tatbikatlar düzenlenmiştir. 2010 yılında iki ülke arasında imzalanan "Stratejik Ortaklık ve Karşılıklı Yardım Antlaşması ile ilişkiler daha üst düzeye taşınmıştır. İki ülkenin halkı kardeş olmakla birlikte hükumetlerde dostluk ve müttefiklik yolunu seçmiştir.

**1. Azerbaycan Cumhuriyeti ve Türkiye Cumhuriyeti Silahlı Kuvvetleri**

Tarihsel süreç içeresinde devletlerde insanlar gibidir. Kardeş, dost, düşman, müttefik ve benzeri gibi kavramlar devletlerin siyasi çıkarları doğrultusunda oluşmuştur. Son iki yüz yıldır dünyada çatışmalar genelde müttefiklerin çatışmaları halinde geçmektedir. Bu durum ister istemez devletleri bir birine yakınlaştırmıştır. Ortak düşmana karşı harekete girişecek ordular savaş meydanında beraber hareket etme alışkanlığını kazanmak için öncesinde birer hazırlık yaparlar. Bu hazırlıklar düşmana gözdağımüttefike güven verme hareketi olarak da nitelendirilebilir. Koordinasyonların, savaş meydanlarındaki manevraları hayali bir düşman karşısında kimi zaman gerçek mühimmatla, kimi zamanda elektronik ortamda savaşı kazanmaya yönelik faaliyetler tatbikat olarak adlandırılır.

Aynı soydan, aynı ırktan, aynı kültürden gelen Azerbaycan ve Türkiye "*tek millet iki devlet*" kavramı çerçevesinde her alanda göstermiş oldukları iş birliğini askeri alanda da göstermektedirler. Bu bağlamda Azerbaycan'ın bağımsızlığını kazandığı 1991 yılından itibaren çeşitli tarihlerde Türkiye ile ortak askeri tatbikatlar düzenlemişlerdir. Bu tatbikatlarda ki ana amaç iki devlet tek millet olgusunu askeri anlamda da pekiştirmektir. Ayrıca ortak düşmanlara karşı gösterilen bir gözdağı niteliğindedir.

Azerbaycan ve Türkiye arasında yapılan tatbikatların Nahçıvan Özerk Cumhuriyeti'nde ki kısmını ve yapılan senaryo üzerindeki savaşa değinmeden; önce iki ülkenin ordu güçlerine bakarsak:

**a. Azerbaycan Silahlı Kuvvetleri**

Ülkenin toprak bütünlüğünü korumak için görevli olan Azerbaycan Silahlı Kuvvetleri; Kara, Hava ve Deniz Kuvvetleri olmak üzere üç bölümden oluşmaktadır. Ülkenin iç güvenliğinin sağlanması için bu kuvvetlerle birlikte Devlet Sınır Birlikleri, Ulusal Muhafız Birlikleri, Özel Devlet Koruma Hizmeti ve İç Birlikleri görev yapmaktadırlar.

Kara Kuvvetleri, Azerbaycan Ordusunun önemli kuvvet unsuru olarak 1918 yılında Azerbaycan Cumhuriyeti döneminde kurulmuştur. Kara Kuvvetlerinin profesyonel olarak personel ihtiyacını Haydar Aliyev Harp Okulu'ndan temin etmektedir. Ermenistan cephe hattı boyunca görev yapan kara kuvvetleri, Azerbaycan'ın birçok bölgesinde detaburlar Müdafaa Nazırlığına bağlı olarak görev yapmaktadırlar.

Azerbaycan MüdafaaNazırlığınabağlı olan ve 5 Ordu Birliğinden oluşan Kara Kuvvetleri, takribi 85.000 personel, 1032 adet tank, 2456 adet zırhlı araç, 420 adet kundağı motorlu topçu sistemi, 384 adet top, 567 adet füze atış sistemi ve çok sayıda küçük çaplı silahlara sahiptir. Ayrıca Azerbaycan Cumhuriyeti, Cumhurbaşkanı ve Azerbaycan Silahlı Kuvvetleri Yüksek Komutanı İlham Aliyev'in 16 Aralık 2005 tarihli kararı ile Azerbaycan'da Savunma Sanayisi kurulmuştur. Azerbaycan savunma sanayisi kısa dönemde ordu için silah ve mühimmatla birlikte personel araçları üretmiştir. Ürettiği silahlar ordu ile sınırlı kalmamış silah satış fuarlarına çıkarılmıştır.

Azerbaycan Hava Kuvvetleri Komutanlığı'nın kuruluşu 1919 yılına kadar gitsede asıl bir kuvvet gibi oluşması 1992 yılında Karabağ Savaşı'na denk gelmektedir. Subay personel ihtiyacının büyük bir oranını Hava Harp Okulu temin etmektedir. İlk mezunlarını 1997 yılında veren Hava Harp Okulu günümüzde hem hava kuvvetlerinin hem de hava savunma kuvvetlerinin subay personel ihtiyacını karşılamaktadır. Ekonomi yönden gittikçe büyüyen Azerbaycan Cumhuriyeti son dönemlerde Hava Kuvvetleri silahlanmasına aldığı yeni uçak ve helikopterlerle birlikte, hava savunma birlikleri de modern füze sistemleri ile donatmıştır. 7.900 personel sayısı olan Hava Kuvvetleri silahlanmasında MİQ 29, SU 25, AN 2, SU 24, MİQ 25 uçakları ile birlikte Mİ 2, Mİ 6, Mİ18, Mİ 17, Mİ 24, Mİ 35, KA 32 tipli helikopterler de yer almaktadır. Hava savunma sistemlerinde Rusya üretimi olan S 300, S 200, S 125, 2K11 KRUK, İgla, Şılka, 9K37 BUK gibi füze sistemleri yer almıştır. Ayrıca İnsansız Hava Araçları, Hava kuvvetlerinde büyük oranda yer almaktadır. Yerli üretim ve İsrail üretimi olan İHA'yı, 2016 yılında Ermenistan ile yapılan Nisan savaşlarında büyük oranda başarılı olmuştur. Her yıl silahlar üzerinde yapılan modern değişiklikler sonucu Azerbaycan Hava Kuvvetleri bölgede bulunan ülkeler arasında en modern silahlar sahiptir. Azerbaycan Askeri Deniz Kuvvetleri, Ağustos 1919 yılında İngilizlerin Bakü limanını terk etmesinden sonra kurulmuştur. 26 Temmuz 1992 yılında Hazar Denizi'nde bulunan "Bakülü" gemisinin direğine Azerbaycan bayrağının çekilmesi, Deniz Kuvvetleri'nin kurulmasının ilanı olmuştur. Kısa zamanda oluşturulan Deniz Kuvvetleri personeli 1994 yılının Nisan ayında Karabağ Savaşı'na katılmış ve başarılı operasyonlarda bulunmuşlardır. Azerbaycan Deniz Kuvvetleri, Türkiye ve Amerika Birleşik Devletleri ile ortak talimlere katılarak profesyonel subay heyetinin gelişimi için olanak sağlamıştır. 2012-2013 yıllarında Azerbaycan ve Rusya deniz kuvvetleri aralarında dostluk ilişkileri kurmak amacı ile her

iki taraf arasında dostluk ziyaretleri gerçekleştirilmiştir. 5.000 personel sayısı olan deniz kuvvetleri silahlanmasında Rusya, Türkiye ve Polonya üretimi olan küçük ve büyük tip savaş gemileri yer almaktadır. Azerbaycan hükumetinin milli savunmaya ayırdığı bütçe sonucu ülkenin askeri gücü, Güney Kafkasya bölgesinde en üst düzeye ulaşmıştır.

**b. Türkiye Cumhuriyeti Silahlı Kuvvetleri**

Türk Silahlı Kuvvetleri, Türkiye Cumhuriyeti'ne karadan, havadan ve denizden gelecek olan her türlü saldırıya karşı koymakla görevli olan bir kurumdur. Tarihi MÖ. III. yy'e dayanan Türk silahlı kuvvetlerinde İkinci Dünya Savaşı yıllarında ve sonrasında bir diziyenilemeler yapılmıştır. Yapılan değişiklikler sonucu ordunun mevcudu yükseltilmiştir. Kara kuvvetleri üç ordudan teşkil olunmuştur. 1951 yılında Kore savaşına katılan Türk birlikleri başarılı operasyonlarda yer almıştır. Aynı tarihte hava kuvvetleri jet uçakları envantere katılmasıyla Balıkesir'de 9. Ana Jet Üst Komutanlığı kurulmuştur. TSK, 27 Temmuz 2016 yılında yayınlanan Kanun Hükümlü Kararname sonucu İç İşleri Bakanlığına bağlanmıştır.

Türkiye Kara Kuvvetleri bünyesinde 4 Ordu, 14 Kolordu, 8 Mekanizma Tümen, 11 Zırhlı Tugay, 23 Mekanize Piyade Tugayı, 8 Komando Tugayı, 4 İnsani Yardım Tugayı ve 5 Topçu Tugayı bulunduran en büyük kuvvettir. Asker sayısı 550.000 den fazla olan kara kuvvetlerinin ilave olarak Kıbrıs Türk Cumhuriyeti'nde 60.000 barış kuvveti bulundurmaktadır. Kara kuvvetleri bünyesinde 2.446 tank, 9000 zırhlı savaş aracı, 1.100 kundağı motorlu topçu sistemi, 872 çekili topçu, 418 çok namlulu roket sistemi bulundurmaktadır.

Türk Hava Kuvvetleri'nin asıl görevi Türkiye Cumhuriyeti hava sınırlarının korunması, düşman tarafından gerçekleştirilecek her hangi hava saldırının karşısının önceden alınması ve operasyon zamanında kara kuvvetlerine hava desteğini sağlamaktır. Tarihçesi 1909 yılına kadar uzanan hava kuvvetleri 1911 yılında "Havacılık Komisyonu" adı ile faaliyete başlamıştır. Girdiği birçok operasyonda başarı kazanan hava kuvvetlerini dünyada tanıtmak için hava kuvvetleri bünyesinde "Türk Yıldızları" adlı birlik oluşturulmuştur. Toplam 90.000 personeli olan hava kuvvetlerinin bünyesinde 207 avcı, 207 bombardıman, 445 nakliye, 287 eğitim uçağı, 475 helikopter ve 54 saldırı helikopteri bulunmaktadır.

Türkiye Cumhuriyet, Deniz Kuvvetlerinin görevi denizden gelecek saldırılara karşı vatanın korunması ve denizle alakalı ülke menfaatlerinin muhafıza edilmesidir. Osmanlı döneminde Akdeniz ve Karadeniz'de başarılı savaşlar veren deniz kuvvetleri TSK'nin 3. en büyük askeri gücü olarak Karadeniz, Akdeniz ve Ege Denizi'nde görev yapmaktadır. Deniz Kuvvetleri, Donanma Komutanlığı, Kuzey Deniz Saha Komutanlığı, Güney Deniz Saha Komutanlığı, Deniz Eğitim ve Öğretim Komutanlığı olmak üzere dört ana ast komutanlıktan oluşmaktadır. Aktif personel sayısı takribi 55.000 olan deniz kuvvetleri bünyesinde savaş gemisi, denizaltı, korvet, hücumbot, füze saldırı gemisi, mayın gemisi ve sahil güvenlik botu bulundurmaktadır.

**2. Türkiye Cumhuriyeti ve Azerbaycan Cumhuriyeti arasında askeri ilişkiler**

Jeopolitik açıdan önemli konumda yer alan Azerbaycan XX. yüzyılın başlarından itibaren Ermenistan'la politik ve askeri sorunlar yaşamaktadır. 1905-1906, 1918-1920, 1990-1994 yıllarında Azerbaycan topraklarına karşı saldırılar düzenleyen Ermeniler bölgede acımasızca katliamlar gerçekleştirmişlerdir. Sovyet Sosyalist Cumhuriyetler Birliği'nin (SSCB) dağılması sonucu Güney Kafkasya bölgesinde Azerbaycan ve Ermenistan bağımsız cumhuriyetlerinin oluşmasından sonra Ermeniler, Azerbaycan topraklarına saldırmaya başlamışlardır. Bu zor zamanlarda kardeş ülke olan Türkiye Cumhuriyeti, her zaman elinden geldiği kadar Azerbaycan Cumhuriyeti'ne destek olmaya çalışmıştır. 1918 yılında Ermenilerin Azerbaycan topraklarını işgal ederek sivil nüfusa karşı yaptığı katliamları durdurmak için Azerbaycan'a Kafkas İslam Ordusunu yardım için gönderen Türkiye, 1990 yıllarında Dağlık Karabağ sorununda Ermenistan'la sınırları kapatarak destek vermiştir. Bazı Batılı devletlerin yoğun baskısına rağmen Türkiye, Ermenistan'la olan sınırları hala açmamıştır. 2002 yılında Türkiye'de yönetime Adalet ve Kalkınma Partisi'nin (AKP) gelmesinden sonra Ermenistan'la ilişkilerin normalleşmesi yönünde attığı bazı adımlar, Azerbaycan tarafından tepki ile karşılanmıştır. Bütün olumsuzluklara rağmen iki halk arasında kardeşlik ve askeri ilişkiler sürdürülmüştür.

1952 yılında NATO'ya katılan Türkiye Cumhuriyeti ile askeri ilişkiler kuran Azerbaycan Cumhuriyeti bağımsızlığından sonraki yıllarda, NATO'nun barış için işbirliği programlarında yer almıştır. Güvenlik alanında ulusal çıkarları üst üste düşen her iki ülke bölgede barışın sağlanması için birçok alanda olduğu gibi askeri alanda da işbirliği yapmışlardır. Irkı, dini ve kültürel bağlarının aynı olması ile birlikte bölgedeki huzur ve barışın sağlanması her iki ülke için önemli faktör olmaktadır. Türkiye savunma sanayisinin geliştirilmesi ve askeri yönden her türlü desteğin sağlanmasında her zaman Azerbaycan'a yardımda bulunmuştur. Her iki devlet arasında imzalanan askeri antlaşma ve protokoller sonucu savunma sanayisi ve askeri eğitim yönünden her iki ülke karşılıklı iş birliği yapmaktadırlar. Bu antlaşmalar sonucu Türkiye Cumhuriyeti, Azerbaycan'a iç yardımlarla birlikte dış ülkelerde de her türlü desteği sağlamıştır. Örnek olarak; Azerbaycan Barış

Kuvvetleri'ne Kosova'da yaptığı desteği gösterebiliriz. Ayrıca her iki ülke için önemli olan Nahçıvan Özerk bölgesinde bulunan 5. Ordunun geliştirilmesi için de Türkiye her türlü desteği sağlamıştır. 1997 yılından itibaren orduda köklü değişiklikler yapan Azerbaycan hükumeti, orduyu NATO standartlarına uygun geliştirmeğe çalışmıştır. Savunma sanayisinde NATO üretimi olan silahlar kullanmakla birlikte askeri eğitim okullarında da modern dersler verilmiştir. Her iki ülke arasında imzalanan antlaşmalarla, Azerbaycan Harp Lisesi ve Harp Okulları'nda Türk subayları eğitim vermeğe başlamıştır. Dönemin Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in bölgede izlediği denge politikası sayesinde ekonomik ve askeri alanda hızla yükselen Azerbaycan, bölgede en iyi orduya sahip ülke konumuna gelmiştir. Cumhurbaşkanı Haydar Aliyev, bu yönde Türkiye'nin askeri yardımlarını her zaman yüksek değerlendirmiştir.

Türkiye ile askeri ilişkiler 2003 yılında Azerbaycan yönetimine seçilen Cumhurbaşkanı İlham Aliyev döneminde de sürdürülmüş ve daha üst boyuta taşınmıştır. Her iki ülke arasında yaşanan bazı olumsuzluklara rağmen, Cumhurbaşkanı İlham Aliyev bölgede barışın sağlanması için denge politikası izlemiştir. İ. Aliyev döneminde askeri yönden verilen en isabetli kararlardan biri de Savunma Sanayisinin kurulması olmuştur. 2005 yılında Aliyev'in imzaladığı karar sonucu kurulan savunma sanayisi kısa dönemde hızla büyümüştür. Ülkenin ordusu için yeterli araç ve silah üreten savunma sanayisi bununla yetinmeyip dış ülkelere satılacak kalitede silahlar ve personel taşıyan zırhlı savaş araçları da üretmiştir. Askeri fuarlarda orduları yüksek düzeyde olan birçok ülkelerle birlikte kendi silahlarının tanıtımını da yapmıştır. Azerbaycan savunma sanayisi, Türk savunma sanayisi ile birlikte zırhlı araç, piyade tüfeği ve keskin nişancı tüfekleri üretiminde ortak çalışmalarda bulunmaktadırlar.

2008 yılından itibaren Bakü'ye askeri ziyaretlerde bulunan Türkiye Cumhuriyeti Genelkurmay Başkanı, Milli Savunma Bakanı ve birçok yüksek rütbeli subay heyeti karşılıklı antlaşmalar ve protokoller imzalanmıştır. Ayrıca Azerbaycan-Ermenistan cephe hattını ve savunma sanayisini ziyaret eden Türk subaylar, Azerbaycan Silahlı Kuvvetleri'nin (ASK) gelişimini yüksek değerlendirmiştir. ASK'nintalimlerine izleyici gibi katılan Türk subayları, ordunun savaş faaliyetini ve silah durumunu üst düzeyde değerlendirmiştir. Ayrıca savunma sanayisinin ürettiği silahları üst düzeyde bulan Türkiye Genelkurmay'ı, Azerbaycan'ı, Pakistan'da düzenlenecek olan *Uluslararası Savunma Ürünleri* fuarına davette de bulunmuşlardır. Diğer bir antlaşma sonucu 2009 yılında birçok subay ve çavuş heyeti Türkiye'de eğitim seviyesini artırmak için kurslara katılmışlardır. Bundan ilave her iki ülkenin harp okulları arasında gerçekleştirilen işbirliği sonrası Azerbaycan'dan birçokHarbiyeli Türkiye'nin harp okullarında eğitim alma imkânına sahip olmuşlardır.

2010 yılında Rusya ile Gürcistan arasında yaşanan olaylar bölgenin her açıdan güvenliğini tehlike altına sokmuştur. Rus desteğini alan Ermenistan'ın, Dağlık Karabağ'a dair barış görüşmelerinde isteksiz bir tavır sergilemesi Azerbaycan'ı güvenlik açısından kaygılandırmıştır. Azerbaycan-Ermenistan cephe hattında çıkan çatışmalar da barış görüşmeleri üzerinde olumsuz etki yaratmıştır. Azerbaycan'ın askeri harcamalarının 3 milyar dolar üzerine çıkması ve Azerbaycan Cumhurbaşkanı İ. Aliyev'in askeri yolla toprakların işgalden temizlenmesi konuşmaları, Ermenistan'ı tedirgin etmiştir. Ermenistan'ın cephe hattında kışkırtıcı eylemleri ve sınır ihlali sonucu Azerbaycan Ulusal Meclisi 8 Haziran 2010 yılında "*Azerbaycan Askeri Doktrini*" yayınlamıştır. Bu doktrin ülkenin toprak bütünlüğü iç ve dış tehditlerden korumakla birlikte askeri tehlikesizlik sisteminin temelini atan belge olmuştur. 2007 yılında yayınlanan "*Azerbaycan Ulusal Güvenlik Konsepti*" ve 2010'da yayınlanan askeri doktrinleASK'nin altyapısı, silah ve teçhizatdurumunda NATO standartlarına uygun modernleşme faaliyetleri gerçekleştirilmiştir.

Azerbaycan ve Türk silahlı kuvvetleri arasında ilişkiler 16 Ağustos 2010 yılında imzalanan "*Azerbaycan Cumhuriyeti ve Türkiye Cumhuriyeti Arasında Stratejik Ortaklık ve Karşılıklı Yardımlaşma Antlaşması* "ile daha üst düzeye taşınmıştır. Bu antlaşma ile taraflar 1994'de iki devlet arasında imzalanan antlaşma metnini ve 1921 Kars Antlaşması'na sadık kaldıklarını ispat etmiştir. Bu antlaşma maddelerinde, taraflar kardeş devletler olarak bir birlerinin toprak bütünlüğünü, sınır dokunulmazlığının korunmasında karşılıklı iş birliği yapacaklarını ve her hangi bir tarafın toprak bütünlüğü tehlike altında olduğu zaman karşılıklı önlemler alacaklarını taahhüt etmişlerdir. Bu antlaşma ile her iki kardeş ülke savaş zamanı bir birlerine askeri yardım göstermekle birlikte, barış zamanında da savunma sanayisinde ortak silah üretmek ve ortak askeri tatbikatlar yapmak gibi önemli adımlar atmışlardır.Stratejik ortaklık ve karşılıklı yardım taahhüdü veren bu antlaşma iki ülke arasında askeri-politik, askeri-teknik, ekonomik ve insan hukuklarında karşılıklı işbirliği vadetmiştir.

### 3. Azerbaycan ve Türk Ordusunun Nahçıvan'da Düzenlediği Ortak Askeri Tatbikat

2010 yılında imzalanan antlaşmanın askeri maddeleri gereğince, Türkiye ve Azerbaycan silahlı kuvvetleri savunma sanayisinde ortak silah üretimi ile birlikte ortak askeri tatbikatlar da düzenlemektedirler. Bu tatbikatlardan biri de 2017 yılının Mayıs ayının 1 ile 5'i arasındaki Bakü'de düzenlenen ve bir ay sonra 12 Haziran'da her iki ülke için stratejik önemi olan Nahçıvan Özerk Cumhuriyetinde düzenlenen askeri tatbikat olmuştur. Türkiye Cumhuriyeti Jandarma Komutanı General Yaşar Gülerin ve Azerbaycan Cumhuriyeti

Genelkurmay Başkanı General Zakir Hasanov'untatbikat öncesi askeri görüşmeleri olmuştur. İki kardeş ülke arasında imzalanan antlaşma ile Bakü'ye gelen Türk subay ve askerleri Azerbaycan askerleri tarafından kardeşçe karşılanmış ve her iki ülkenin devlet marşı okunduktan sonra tatbikat bölgesine yollanmışlardır. Askeri heyet tatbikat öncesi tatbikat planı, tatbikatın yapılacağı bölge hakkında bilgilendirilmiş ve Azerbaycan ordusunda bulunan modern silahlarla tanışmışlardır. Yüksek koordinasyon ve ortak faaliyeti ön plana çıkaran bu tatbikat, her iki ülkenin ordusunun savaş zamanı ortak askeri operasyonları yürütme yeteneğini göstermiştir.

Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə artıq başa çatmışdır.2020-ci ildə kəmərin buraxılış qabibiliyyəti ildə 16 milyard ,2023-cü ildə 23 milyard ,2026 –cı ildə isə 31 milyard $m^3$ -ə çatacaqdır. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard $m^3$ Azərbaycan qazının 10 milyard $m^3$-i Avropaya ,6 milyard $m^3$-i isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə -Bolqarıstan və ya Türkiyə -Yunanıstan sərhəddinə təhvil veriləcək.

Son dövrlərdə dünya miqyaslı layihələrdən olan “ Star “ neft emalı zavodunun açılması böyük tarixi hadisədir. Həmin zavodun tikilməsini Azərbaycan 6,4 milyard ABŞ dolları vəsait xərcləmişdir. Bu zavodlar Azərbaycana ildə milyon ABŞ dolları həcmində gəlir gətirəcəkdir. İki ölkə arasında olan iqtisadi münasibətlər Azərbaycan –Türkiyə arasında olan ticarət dövriyyəsi sabit olaraq inkişaf edir. 2017-ci ildə ticarət dövriyyəsi 12% artaraq , 2,6 milyard ABŞ dollarını ötüb. Həm ixracda ,həm də idxalda müntəzəm olaraq artım müşahidə

edilir. Belə ki, 2018-ci ildə ticarət- iqtisadi göstəriciləri iki ölkə arasında çox müsbətdir. Dövriyyə 22%, ixrac 18 %, idxal 25 % artıb.

2016-cı ildə Türkiyə -Azərbaycan üçün ticarət dövriyyəsində birinci yerdə qərarlaşıb.Bu onu göstərir ki, bizim ticarət iqtisadi əlaqələrimiz günü-gündən yüksəlir. Son dövrlərdə ticarət-iqtisadi əlaqələr Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə də əlaqələr xeyli dərəcədə artmışdır. Belə ki, Türkiyə Naxçıvan Muxtar Respublikasında istehsal olunan 100 milyon ABŞ dolları dəyərində olan məhsulların idxal rüsumlarından azad olunmasına qərar verib ki, bu da iki ölkə arasında əməkdaşlığın daha da inkişafına güclü stimul yaradıb. Hər iki ölkənin qarşılıqlı investisiya qoyuluşunda xeyli irəliləyişlər vardır.Türkiyə ilə əlaqələrin başlanğıcı ulu Öndər Heydər Əliyevin Naxçıvanda işlədiyi dövrdə qoymuşdur. Belə ki, həmin dövrdə müstəqilliyin başlanğıcında Azərbaycanda maliyyə çatışmamazlığı dövründə Türkiyədən 100 milyon dollar güzəştli kredit ayrılmışdır.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında iqtisadi münasibətlər ölkəmiz müstəqillik qazandıqdan sonra yenidən bərpa olunmuşdur. İki ölkə arasında formalaşan iqtisadi əlaqələr dövlətlərarası maraqları özündə ehtiva etməklə yanaşı, geoiqtisadi mövcudluq baxımından regional və qlobal səviyyədə millətlərarası səmərəli əməkdaşlığa da töhfə verməkdədir. Strateji tərəfdaşlar olan bu iki ölkənin siyasi, mədəni bağlarının iqtisadi baxımdan möhkəmlənməsinin də bir sıra səbəbləri vardır. Belə ki, Türkiyə üçün Azərbaycan dayanıqlı enerji mənbəyi, Orta Asiya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi üçün sözügedən regiona açılan qapı, İpək yolu üzərindəki dövlətlərlə ticarət imkanı, böyük xammal ehtiyatları ilə təminat və s. rolunu oynayır. Azərbaycan üçün isə Türkiyə enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması, Avropa Birliyi ilə iqtisadi əlaqələrin dərinləşməsində tranzit ölkə, regional və beynəlxalq strateji layihələrdə dayanıqlı tərəfdaş və s. qismində çıxış edir.

2008-ci ilin əvvəlində Azərbaycan Respublikasının parlamentində "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və icra planı" qəbul edilmişdir. İndiyə qədər iki ölkə arasında müxtəlif sahələri əhatə edən 130-dan artıq sənəd imzalanıb. Müstəqilliyin ilk dövrlərində ölkəmizə Türkiyədən idxal olunan məhsulların illik həcmi orta hesabla 116 milyon ABŞ dolları, Azərbaycandan ixrac olunan əmtəə və xidmətlər 24,85 milyon ABŞ dolları səviyyəsində olmuşdur. İlbəil genişlənən iqtisadi münasibətlər artıq yeni mərhələnin başlamasından xəbər verir. Son dövrlər Azərbaycan və Türkiyə iqtisadiyyatının dinamik inkişaf etməsi özünü bu ölkələr arasında mövcud olan ticarət dövriyyəsinin yüksəlməsində, qarşılıqlı investisiya qoyuluşlarının həcminin artmasında, sahibkarlıq subyektlərinin fəaliyyətinin genişlənməsində və digər sahələrdə açıq şəkildə göstərməkdədir.

Bakı-Tbilisi–Qars dəmir yolu Azərbaycanı Avropaya bağlayacaq dünya bazarlarına bağlayacaq neft və təbii qaz layihələri və bu neft və təbii qazı işlədəcək zavodlar Azərbaycanın müstəqilliyi qazandığı 1991-ci ildən bugünədək hər birimizin ortaq arzusudur. Bu gün biz bunların reallaşdırılmasının xoşbəxtliyini yaşayırıq. Əlbətdə ki, bu çox böyük xoşbəxtliyə çatmaq üçün iki ölkənin dövlət başçılarının çox böyük əzm və səylə , çox böyük siyasi iradənin göstəricisidir. Hər üç layihənin reallaşması qarşısında çox böyük əngəllər var idi. Türkiyə də, Azərbaycan da bu əngəlləri birlikdə aşaraq bu gün bir nöqtəyə gəldilər. 27 il əvvəl realllaşması xəyal kimi görünən işləri artıq birlikdə düşünürük. Azərbaycan bölgənin, Cənubi Qazqazın hər keçən gün daha da parlayan ulduzuna çevrilir,iqtisadi baxımdan nailiyyətləri günü-gündən artıraraq gələcəyə doğru inamla irəliləyir. Türkiyə dünyanın ən güclü 17-ci iqtisadiyyatı olaraq, dünyanın ən güclü ilk onluğuna daxil olmağı qarşısına hədəf qoyub. Cənab İlham Əliyevin hər zaman istifadə etdiyi bir söz var: Türkiyənin gücü Azərbaycanın gücüdür, Azərbaycanın gücü də Türkiyənin gücüdür. Bizlər əl-ələ verdikcə, çiyin –çiyinə verdikcə birlikdə hər zaman daha güclü oluruq və birlikdə hər zaman daha böyük uğurlara imza atırıq. “STAR “ neft emalı zavodu 6,3 milyard dollarlıq dünyanın ən böyük layihələrindən biridir. Türkiyədə isə ən böyük özəl sərmayədir.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda sahibkarlıq sinifi formalaşmağa başlayanda türk qardaşlarımız yanımızda olublar.Bu gün ölkəmizdə sahibkarlıq mühitinin yaxşılaşması üçün böyük işlər görülür. Düzdür bu yolda bürokratik əngəllər də olur. Amma iş adamlarının birgə görüşləri hər iki ölkənin inkişafına imkan yaradır. 2000-ci ildə apardığım araşdırmaya görə , türk ölkələrinin dünya ÜDM-də payı 1 %-dən az , həmçinin yoxsulluq göstəriciləri yüksək olub. Həmin vaxt Azərbaycanda yoxsulluq səviyyəsi 49% idi. 18 il ərzində bizim əməkdaşlarımız nəticəsində yüz minlərlə yeni iş yeri yaradılıb. Bizim birliyimiz türk dünyası üçün lazımdır. Bu gün biz qloballaşan dünyanın indiki mərhələsində türk dünyasının inkişaf strategiyası barədə düşünməliyik. 20-25 ildən sonra Türk dünyasının iqtisadi gücü nə qədər olacaq ? İqtisadi gücü varsa deməli siyasi ,hərbi gücü də var . Bu gün hər iki ölkənin birgə reallaşdırdığı layihələr dünyada maraqla qarşılanır . Azərbaycanda elə layihələr həyata keçir ki, bu, dünyanın enerji xəritəsini dəyişir.

## ƏDƏBİYYAT


1. Azərbaycanın stastistik göstəriciləri 2010,Bakı: Səda ,2010,240 s.
2. Azərbaycanın Milli Hesabları 2010. Statistik məcmuə .Bakı:Səda , 2010,312
3. Azərbaycan Dövlət Neft Fondu .İllik hesabat 2009.Bakı : 2010 ,76 s
4. Hacıyev Ş.H.azərbaycanın iqtisadi inkişafının model identifikasiyası.” Heydər Əliyev və Azərbaycanın müasirləşmə stratejiyası “Bakı: Azərnəşr ,2011,708 s.
5. Həsənov R.T.Tənəzzüldən Stabilliyə ,Stabillikdən tərəqqiyə doğru təkamülün xüsusiyyətləri və perspektivləri .“Heydər Əliyev və Azərbaycanın müasirləşmə stratejiyası “ , Bakı: Azərnəşr , 2011,708 s.


## ABSTRACT


**Agarza Rustamov**
**Nuria Ibrahimova**


## AZERBAIJAN-TURKEY ECONOMIC RELATIONS DURING INDEPENDENCE


Economic relations between the Republic of Turkey and Azerbaijan have been restored after independence of our country. Economic relations between the two countries include intergovernmental interests, but also contribute to the effective inter-ethnic cooperation at the regional and global levels in terms of geo-economic existence.


## РЕЗЮМЕ


**Агарза Рустамов**
**Нурия Ибрагимова**


## ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ –ТУРЦЕЙ В ПЕРИОД НЕЗАВИСИМОСТИ


Экономические отношения между Азербайджаном и Турецлкой республикой вособновились после завоевания нашей строной независимости.

Сформирующая отношения между двумя странами включают в себя как международные интресы , так и вносит вклад в межнациональное еффективное сотрудниество в глобальном и региональном уровне с точки зрения геоэкономической сущности .

**XƏZƏR HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*
*xezerhuseynov@gmail.com*

# NAXÇIVAN-TÜRKİYƏ SOSİAL-İQTİSADİ ƏLAQƏLƏRİ (1991-1993-CÜ İLLƏR)

**Açar sözlər:** *Naxçıvan, ümüd körpüsü, əməkdaşlıq protokolu, iqtisadi əlaqələr, kənd təsərrüfatı.*
**Key words:** *Nakhchivan, bridge of "Hope", minutes of cooperation, economic ties, agriculture.*
**Ключевые слова:** *Нахчыван, Мост «Надежды», протоколы сотрудничества, экономические связи, сельское хозяйство.*

Azərbaycan xalqı ikinci dəfə dövlət müstəqilliyini elan edərkən dövlətimizi ilk tanıyan və onunla diplomatik əlaqələr quran Türkitə Cumhuriyyəti olmuşdur. Xüsusən tarixin ən çətin mərhələlərində Naxçıvana mənəvi, siyasi dayaq olmuş, onun doğma Azərbaycandan ayrılıb düşmən əlinə keçməsinin qarşısını alan, bölgənin muxtariyyatının beynəlxalq qarantı da məhz Türkiyə dövləti, türk xalqı olmuşdur.

Ölkəmiz müstəqillik əldə etdiyi dövrdə Naxçıvanda çox gərgin vəziyyət yaranmışdı. Qondarma Dağlıq Qarabağ problemi Naxçıvanın ictimai-siyasi, iqtisadi vəziyyətinə mənfi təsir göstərmişdi. Naxçıvanı Azərbaycanın digər əraziləri ilə birləşdirən dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsinin ermənilər tərəfindən bağlanılması, qaz, elektrik, kommunikasiya xətlərinin kəsilməsi bu vəziyyəti daha da ağırlaşdırmışdı.

Naxçıvanın üzləşdiyi ağır iqtisadi böhranın nəticələrini aradan qaldırmaq üçün böyük dövlət xadimi Heydər Əliyevin mühüm addımlar atmasına və yorulmaq bilmədən çalışmasına baxmayaraq muxtar respublikada vəziyyət mürəkkəb və gərgin olaraq qalırdı. Çünki yanacağı, ərzaq məhsullarının çox hissəsini, bəzi tikinti materiallarını Bakıdan alan Naxçıvan son dərəcə çətin bir vəziyyətdə qalmışdı. Ermənistan ərazisindən keçən dəmir yolunun işləməməsi nəticəsində həmin məhsulların Naxçıvana gətirilməsi qeyri-mümkün idi. Belə bir ağır vaxtda Bakı ilə əlaqə yalnız hava yolu vasitəsilə saxlanılırdı ki, hava yolu ilə də Naxçıvanın tələbatını ödəmək olmazdı. O zaman Naxçıvan MR Ali Məclisi vəziyyətdən çıxmaq üçün Naxçıvana gələn avtobusların, yük maşınlarının Xudafərindən İran ərazisinə keçib oradan Culfaya gəlmələri təklifi ilə çıxış etsə də, bu təklifin həyata keçirilməsi istər Azərbaycanda, istərsə də İranda bəzi qüvvələrin günahı, Naxçıvana ögey münasibəti ucbatından mümkün olmadı. Belə bir zamanda Türkiyə dövləti ilə əlaqələrin yenidən qurulması üçün mühüm işlər görüldü.

Qeyd edək ki, bu əlaqələrin qurulması istiqamətində ilk addımlar hələ SSRİ-nin dağılması ərəfəsində atılmışdı. 1990-cı ildən başlayaraq Azərbaycanla Türkiyə arasında bir sıra sahələr üzrə müqavilələr imzalanmışdı. Həmin ilin yanvarın 10-da Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında sərhəd ticarətinə dair protokol, həmçinin iki ölkə arasında 1990-1992-ci illəri əhatə edərək mədəniyyət və elmi mübadilə proqramı haqqında sənəd imzalandı. Bu sənədlərlə Naxçıvan MR-nın qonşu ölkə ilə birbaşa əlaqələr qurması da öz əksini tapmışdır (3).

Türkiyə ilə Naxçıvanın yaxınlaşmasında Azərbaycan xalqının umummilli lideri Heydər Əliyevin xidmətləri əvəzsiz idi. Naxçıvan tədricən türk dünyasına qovuşurdu. Heydər Əliyev deyirdi: "Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxdıqdan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk islam dünyasına bir qapıdır" (2, s.50).

Azərbaycanla Türkiyə Respublikası arasında 1991-ci il yanvarın 29-da Naxçıvanda əməkdaşlıq haqqında protokol imzalandı. Bu protokol hələ 1990-cı ildə SSRİ-nin adından Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Həsənovun və Türkiyə Respublikası adından isə Türkiyənin nəqliyyat naziri Cengiz Tuncərin imzaladığı sazişin davamı kimi hazırlanmışdı. Sazişdə sərhəd çayı Araz üzərində avtomobil və dəmir yolları tikmək, Sovet-Türkiyə sərhəddində buraxılış məntəqəsi açmaq nəzərdə tutulurdu.

1991-ci il iyunun 11-də Qars vilayətinin valisi Həsən Bəkir başda olmaqla Türkiyənin nümayəndə heyəti Sədərəyə gəldi. Nümayəndə heyətinin tərkibinə Türkiyə dəmir yolu idarəsinin rəisi Aslan Anadağ, şose yolları və körpü tikintisi idarəsinin rəisi İsmayıl Tuncər, Qars dəmir yolunun rəisi İsmayıl Yüksəl və yolun çəkilişinə məsul digər mütəxəssislər daxil idilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetində 1991-ci il iyulun 10-da keçirilmiş müşavirədə Azərbaycanla Türkiyə arasında iki tərəfli avtomobil yolu və dəmir yolu əlaqəsi ilə bağlı məsələlər müzakirə edildi. Müşavirədə Naxçıvan MR-in əlaqədar nazirlərinin, baş idarələrinin, partiya, sovet və təsərrüfat orqanlanmn rəhbərləri də iştirak etmişdir. Müşavirənin gedişində göstərilmişdir ki, sazişin imzalanmasından sonra müəyyən işlər görülmüşdür: Sədərək qəsəbəsindən Türkiyənin sərhəddinədək olan 6,7 km avtomobil yolunun 4 kilometri hazırlanmış, ona asfalt döşənməyə başlanmış, körpü salınması başa çatmaq üzrədir.

1991-ci il sentyabrın 30-da Naxçıvan MR Ali Məclisinin növbədənkənar sessiyasında Naxçıvanın blokadası və yaranmış vəziyyətdən çıxış yolları müzakirə edildi. Türkiyənin Qars vilayətinin nümayəndə heyəti ilə danışıqlar aparıldı və əməkdaşlıq haqqında protokol imzalandı. 1991-ci il oktyabrın 25-də Türkiyə Naxçıvana 1 milyard lirəlik ərzaq yardımı göndərmək qərarına gəldi (7, s.333).

Naxçıvan Muxtar Respublikasının Sədərək payonunda 1991-ci il oktyabrın 29-da Azərbaycan-Türkiyə arasında Araz çayı üzərində müvəqqəti körpünün açılışı oldu. Körpünün rəsmi aşılışı mərasimində Ali Məclisin Sədri Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri iştirak etmişdilər (5, s.111).

Müvəqqəti körpünün açılması ilə Türkiyənin Naxçıvana göndərdiyi humanitar yardımların həcmi artmağa başladı. 1991-ci ilin noyabrın 9-da Türkiyənin "Qızıl ay" cəmiyyətinin xətti ilə muxtar respublikaya 126 ton ərzaq gətirildi. Bununla əlaqədar Qars vilayəti valisinin vəkili İsmət Bahadırlar başda olmaqla nümayəndə heyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdi. Noyabrın 29-da isə Türkiyənin İqdır şəhəri əhalisinin və valiliyin naxçıvanlı qardaşlarına göndərdikləri ərzaq məhsullarından ibarət 19 yük maşını muxtar respublikaya gətirilmişdir. Humanitar yardımı İqdır Bələdiyyə idarəsinin rəisi Əli Aqrı gətirmişdi (8, 3 dekabr 1991).

1992-ci il yanvarın 8-də Naxçıvan MR Ali Məclisi muxtar respublikada iqtisadi və ictimai-siyasi vəziyyət haqqında məsələni Ali Məclisin sessiyasında müzakirəyə çıxardı və sessiyada təcili tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulandı.

Naxçıvan MR Ali Məclisin Sədri Heydər Əliyev Türkiyə Respublikasından gəlmiş nümayəndə heyətini - Aralıq kaymakanı Həsən İpək, Qars əmniyyət müdiri Osman Gəzəgər, Aralıq bələdiyyə başqanı Yıldınm Tural, "Küdekli" heyvandarlıq və turizm ticarət şirkətinin başçısı Turqut Küdeklini qəbul etdi. Həmin nümayəndə heyəti Naxçıvana Süleyman Dəmirəlin tapşırığı ilə gəlmişdi. Əsas məqsəd isə Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında - Sədərəkdə açılacaq ilk gömrükxananın təşkili məsələlərini birgə müzakirə etmək idi.

1992-ci ilin yanvarında Türkiyənin "Şahap qroup" daxili və xarici ticarət şirkəti idarə qurumunun başqanı Zəkan Savaşlar Naxçıvana gəldi. Ali Məclisin Sədri Heydər Əliyev türkiyəli qonağı qəbul etdi. Görüşdə "Şahap qroup" şirkətinin muxtar respublikanın bir neçə sənaye müəssisəsi ilə birgə istehsal fəaliyyəti, ticarət əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilərək, bir sıra razılaşmalar əldə olundu.

1992-ci il fevralın 5-də Naxçıvan MR Ali Məclisinin Rəyasət Heyəti Türkiyə Respublikasının bir neçə iri şirkəti ilə iqtisadi ticarət əlaqələrinin yaradılması və tənzimlənməsi məsələlərini müzakirə etmiş, həmin müzakirəyə Türkiyə Respublikasının vətəndaşı, hüquq və iqtisadi elmləri üzrə mütəxəssisi Zəkan Savaşlar da dəvət edilmişdi. Z.Savaşlar muxtar respublikada iqtisadi hüquq qanunlarının yenidən təşkili, kənd təsərrüfatı və torpaq islahatları və s. məsələlərin həlli üçün xüsusi proqram hazırlayırdı. Ona görə də, Ali Məclisin Rəyasət Heyəti onu Naxçıvan MR Ali Məclisi Sədrinin hüquq və iqtisadi məsələlər üzrə baş müşaviri təyin etdi.

1992-ci il fevralın 6-da Ali Məclisin Sədri Heydər Əliyev Türkiyənin "Madcan" xarici ticarət şirkətinin prezidenti İbrahim Aydını qəbul etdi. Türkiyənin "Madcan" xarici ticarət şirkəti ilə bağlanmış müqaviləyə əsasən Naxçıvana Türkiyədən xeyli un və taxıl daxil olmuşdur.

Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrinin təşəkkül tapmasında Ali Məclisin Sədrinin 24 fevral 1992-ci il tarixdə verdiyi fərmanla yaradılan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük komitəsi mühüm rol oynamağa başladı. O, Naxçıvanı blokadadan çıxarmaq üçün Naxçıvan – Türkiyə əlaqələrinin inkişafına xüsusi əhəmiyyət verirdi (7, s.334).

Ümummilli liderimiz Heydər Əliyev Türkiyə Respublikasının prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə 1992-ci il martın 22-dən 25-nə qədər Türkiyə Respublikasında rəsmi səfərdə olmuşdu. Görüşdə tərəflər Qarabağda vəziyyəti və münaqişənin aradan qaldırılmasının mümkün yollarını, Türkiyənin muxtar respublikaya texniki və iqtisadi yardımların artırılması məsələlərini müzakirə etdilər. Heydər Əliyevin martın 23-də Süleyman Dəmirəl ilə görüşündə muxtar respublikanın statusu məsələsindən də bəhs olunmuşdur. Bu məsələ ilə əlaqədar Süleyman Dəmirəl Türkiyənin xarici qüvvələrin Naxçıvanın statusunu dəyişdirmək cəhdlərinə etinasız qalmayacağını və muxtar respublikaya hər cür yardım göstəriləcəyini qeyd etmişdir. Martın 24-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Ankarada 13 maddədən ibarət əməkdaşlıq haqqında protokol imzalamışdılar.

Sənəddə Türkiyə və Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur (2, s.50).

Sənaye, kənd təsərrüfatı, tikinti və turizmin təşkilində tələbatı ödəmək və ərzaq, sənaye malları ilə əhalini təmin etmək məqsədilə Türkiyə hökuməti Naxçıvan Muxtar Respublikasına 100 milyon dollar kredit ayırır.

Qısa vaxtda muxtar respublika Türkiyənin elektrik sisteminə daxil ediləcək, Türkiyə ilə Naxçıvan arasında birbaşa dəmir yolu və avtomobil yolu şəbəkəsinin təsis edilməsi üçün davam edən işlər sürətləndiriləcək və Araz çayı üzərində körpü tikiləcəkdir. Naxçıvan Muxtar Respublikası ilə qısa vaxtda hava xəttinin yaradılması məqsədilə Türkiyə lazımi tədbirlər həyata keçirəcəkdir (4, s.665).

Ümummilli liderimiz Heydər Əliyev başda olmaqla Naxçıvan MR-in nümayəndə heyəti 1992-ci il avqustun 10-da Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə səfərə getdi. Həmin gün muxtar respublikanın nümayəndələri Türkiyədə İqdır vilayətinin yaradılması münasibətilə keçirilən şənliklərdə iştirak etdilər. Heydər Əliyev Süleyman Dəmirəl ilə görüşmək və Naxçıvan iqtisadiyyatının problemlərinə dair danışıqlar aparmaq üçün Ankaraya yola düşdü. Aparılan danışıqlar nəticəsində Türkiyənin təcili olaraq Naxçıvana ərzaq və maliyyə yardımı göstərməsi barədə Süleyman Dəmirəl sərəncam verdi. Beləliklə Heydər Əliyevin aparmış olduğu işlər nəticəsində muxtar respublikanın iqtisadiyyatında inkişaf əldə edildi.

Blokadıya düşmüş Naxçıvan Muxtar respublikasının kənd təsərrüfatı 90-cı ilin əvvəllərində ağır vəziyyətdə idi. Belə bir zamanda Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında 24 mart 1992-ci ildə bağlanmış iş birliyi protokoluna əsasən Türkiyə hökuməti Naxçıvanda kənd təsərrüfatını inkişaf etdirmək üçün yardım olaraq 1002 ton azot gübrəsi, 280 ton göy daş, 80 ton pres ipi, 20 ton elektrod, 840 ədəd müxtəlif akkumulyator, 10 ton karbit göndərmişdir. Bunlar muxtar respublikanın kənd təsərrüfat ehtiyaclarını ödəmək üçün kolxozlara, sovxozlara və digər kənd təsərrüfatı müəssisələrinə satıldı. Göstərilən materialların dövlət satış qiyməti ilə ümumi dəyəri 12,6 mln. manat təşkil etmişdir. Satışda əldə edilən 9,5 mln. manatlıq vəsait Naxçıvan MR-in inkişaf və müdafiə fonduna köçürülmüşdür.

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış işbirliyi protokolunun 8-ci bəndinə uyğun olaraq  1992-ci ilin aprelində Türkiyə Kənd Təsərrüfatı Nazirliyinin bir qrup məsul işçisi Naxçıvana gəldi. Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev türkiyəli qonaqları qəbul etmişdir. Səfərdə məqsəd Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri zamanı imzalanmış müqaviləni inkişaf etdirərək kənd təsərrüfatı sahəsində əməkdaşlığın konkret istiqamətlərini müəyyənləşdirmək idi (4, s.684).

Heydər Əliyev muxtar respublikada şəkər çuğunduru istehsalının perspektivləri ilə maraqlanmışdır. Türkiyədən gələn qonaqlar qeyd etmişdilər ki, muxtar respublikanın, xüsusilə Şərur rayonunun torpağı çox münbitdir. Ona görə də burda şəkər çuğunduru əkinindən yaxşı məhsul götürmək olar. Şəkərçilik dərəcəsi 18-19 faiz olmaqla hər hektardan 500-600 sentner məhsul götürmək mümkündür (8, 30 aprel 1992).

Naxçıvanın Türkiyə ilə kənd təsərrüfatı sahəsində iqtisadi əməkdaşlığının ən uğurlu nəticələri regionda şəkər çuğundurunun inkişaf etdirilməsi olmuşdur. Muxtar respublikada bu qiymətli bitkinin istehsalına ilk dəfə 1992-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə başlanıb. Türkiyə ilə yaradılan müştərək təsərrüfatçılıq əlaqələri tezliklə şəkər çuğundurunun istehsalının artmasına gətirib çıxardı. Əgər ilk ildə cəmi 290 ton məhsul istehsal olunmuşdusa, sonrakı illərdə bu sahə həm intensiv, həm də ekstensiv amillər hesabına inkişaf etməyə başlamışdı. Türkiyə dövləti ilə genişlənən iqtisadi əlaqələr Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatına müsbət təsir göstərmişdi. Muxtar respublika qonşu dövlətdən toxum, mineral gübrə, səpin aqreqatları, sudartan nasoslar, traktor və kombaynlar almışdı (5, s.170).

Beləliklə muxtar respublikada aqrar islahatları həyata keçirən Heydər Əliyev muxtar respublikanın kənd təsərrüfatının bütün sahələrini inkişaf etdirməyə nail olmuşdu.

1992-ci ildə Türkiyə Cümhuriyyəti ilə Naxçıvan arasında Ankarada imzalanan Əməkdaşlıq Protokolu iki respublika arasında əlaqələri inkişaf etdirmək sahəsində çox böyük əhəmiyyətə malik tarixi sənəd oldu. İmzalanan bu protokol eyni zamanda ağır iqtisadi böhran vəziyyətində olan Naxçıvan MR-ə böyük maliyyə, maddi-texniki yardım göstərməklə onun böhran vəziyyətindən çıxması üçün geniş imkanlar yaratdı. Türkiyə Respublikası ilə bağlanan Əməkdaşlıq Protokoluna əsasən muxtar respublikada telefon, faks, teleks kimi xəbər sistemlərinin qurulması üçün xüsusi proqram hazırlanması nəzərdə tutulmuşdu. Türkiyənin "Teletaş" şirkətinin qısa müddətdə hazırladığı proqramda muxtar respublikanı beynəlxalq telefon rabitəsi ilə təmin etmək üçün burada 3 min nömrəlik mərkəzi avtomat telefon və 200 nömrəlik teleks stansiyası, Naxçıvanın Bakı ilə rabitəsinin daha da yaxşılaşdırılması məqsədilə 300 kanalı olan "Peyk" stansiyasını quraşdırmaq, Naxçıvanla Türkiyə arasında radiorele sisteminin kanal sayını 120-yə çatdırmaq nəzərdə tutulmuşdu (4, s.680).

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də açılmış "Sədərək-Dilucu" körpüsü mühüm mərhələ oldu. Həmin gün Azərbaycan tarixinə əlamətdar bir gün kimi daxil oldu. Körpünün rəsmi

açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri Süleyman Dəmirəlin başçılığı ilə böyük nümayəndə heyəti Naxçıvana gəldi (4, s.113). Yeni körpünün uzunluğu 288 m, eni 12 m, ümumi smeta dəyəri 5 mln. manatdan çox idi. Körpünü Türkiyənin məşhur "Matsandış" Yol Tikinti Şirkəti Naxçıvan Təmir-Tikinti İdarəsi ilə birlikdə inşa etmişdir. Bu körpü iki qardaş xalqın həsrətinə son qoymaqla yanaşı, iki respublika arasında sosial-iqtisadi əlaqələrin genişlənməsi və inkişaf etməsi baxımından çox böyük əhəmiyyətə malik idi.

Körpünün açılışında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Bu körpü, həqiqətən, bizim ümüd və arzularımızın körpüsüdür. Bu körpü türk dünyasına pəncərə açmağa imkan verəcəkdir (6, s.341).

Süleyman Dəmirəl bu körpünün açılışını Azərbaycan və Türkiyə arasında əməkdaşlıqda yeni dövrün başlanğıcı adlandırmış və qeyd etmişdir ki, bu körpü təkcə Azərbaycanı və Türkiyəni birləşdirmir, bu Avropa və Asiya arasında körpüdür (8, 30 may 1992).

Naxçıvanlıların "Həsrət körpüsü", "Ümid körpüsü", türklərin "Könül körpüsü" adlandırdıqları bu körpünün tikilişindən təcavüzkar Ermənistan daha böyük narahatlıq keçirməyə başladı. Körpünün açılışından sonra Naxçıvan şəhərində Türkiyə bankının açılışı oldu. Naxçıvanın Azadlıq meydanında Süleyman Dəmirəl respublika ictimaiyyəti ilə görüşdü. Mayın 29-da axşam Baş nazir Süleyman Dəmirəl Vətənə yola düşdü. Bu körpünün istifadəyə verilməsi Naxçıvanın həyatında yeni bir mərhələnin başlanğıcı oldu.

Həmin körpü ilə Türkiyədən Naxçıvana ərzaq malları, yanacaq və s. gətirilməyə başlandı. Kəskin ərzaq, yanacaq qıtlığının yaşandığı Naxçıvanda bu körpü sözün əsl mənasında "Ümid körpüsü" oldu.

Ağır günlərini yaşayan naxçıvanlıların ümidli nəzərləri Naxçıvan Ali Məclisin Sədri Heydər Əliyevə dikilmişdi, Naxçıvan əhalisinin taleyi məhz onun atacağı addımlardan asılı idi. Xalqın ona olan ümidini doğrultmaq üçün gecə-gündüz yorulmadan çalışan Heydər Əliyev 1992-ci il iyunun 1-də Türkiyənin Baş naziri S.Dəmirəlin dəvəti ilə Türkiyəyə səfər etdi. Səfərdə məqsəd İzmirdə keçirilən Milli İqtisadi Konqresdə iştirak etmək idi. İyunun 2-də Baş nazir S.Dəmirəl qonaqları Ankarada qəbul etdi. S.Dəmirəlin Heydər Əliyevlə apardığı söhbətin əsas mövzusu Türkiyə hökumətinin Naxçıvana ayırdığı 100 mln. dollarlıq kreditin verilməsi oldu. Heydər Əliyevin Türkiyə səfəri zamanı bu məsələ öz həllini tapdı. Baş nazir S.Dəmirəl bildirmişdir ki, Türkiyə Naxçıvanın iqtisadi inkişafı üçün əlindən gələni edəcəkdir. Görüşdə Türkiyənin Naxçıvan MR-ə verdiyi kreditdən istifadə edilməsi qaydası haqqında saziş əldə olundu. İyunun 3-də bu barədə Ankarada protokol imzalandı. Beləliklə, Naxçıvana ayrılmış kreditin 10 mln. dollar məbləğində ilk hissəsindən istifadə sahəsi müəyyən olundu.

Heydər Əliyev Türkiyə səfərində Naxçıvan üçün hələ ki, problem olaraq qalan bir sıra məsələlərin də həllinə nail oldu. Bu məsələlərdən biri Türkiyə ilə Naxçıvan arasında gediş-gəlişin sadələşdirilməsi məsələsi idi. Aparılan danışıqlar nəticəsində Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında gediş-gəlişin sadələşdirilməsi, 100 km məsafədə isə vizasız gedib-gəlmək barədə razılaşma əldə edilmişdi (8, 17 iyul 1992).

Ali Məclisin Sədri Heydər Əliyevin Türkiyə Prezidenti Turqut Özal və Baş nazir Süleyman Dəmirəllə görüşündə belə qərara gəlindi ki, Azərbaycan vətəndaşları hələ də sovet pasportundan istifadə etdiklərinə görə, həmin pasportun içərisinə Türkiyədə hazırlanacaq bir vəsiqə əlavə edilsin. Digər bir məsələ Türkiyə Respublikasının Naxçıvanda konsulluğunun açılması məsələsi idi ki, bu da öz müsbət həllini tapdı. Heydər Əliyevin Türkiyə Prezidenti T.Özal, Baş nazir S.Dəmirəl və Xarici işlər naziri H.Çətinlə apardığı əsas söhbətlərdən biri Ermənistanın Naxçıvana təcavüzü və sərhədlərdə olan vəziyyət barədə idi. Ali Məclisin Sədri mətbuat nümayəndələri, habelə xarici ölkə müxbirləri üçün mətbuat konfransı keçirdi və bütün bunlar Türkiyə televiziyası və qəzetləri vasitəsilə geniş yayıldı.

Ümummilli liderimiz Heydər Əliyev bütün bu yaranmış böhranlı vəziyyətdən çıxmaq üçün bütün imkanlardan istifadə edir, Türkiyə ilə əlaqələrin hərtərəfli inkişafına çalışırdı. Bu baxımdan Naxçıvan MR Nazirlər Kabineti ilə Türkiyənin rəsmi dairələri arasında razılaşmaya əsasən bütün Azərbaycan vətəndaşlarının Türkiyəyə, eləcə də Türkiyə vətəndaşlarının Azərbaycana Sədərək-Dilucu körpüsü vasitəsi ilə gedib-gəlmələrinin əhalinin sosial təminatının qismən də olsa yaxşılaşdırılması istiqamətində çox böyük əhəmiyyəti var idi.

Ümummilli liderimiz Heydər Əliyevin aparmış olduğu işlər sayəsində Naxçıvanın Türkiyə ilə əlaqələri həm hökumət səviyyəsində, həm də dost ölkənin muxtar respublikaya qonşu olan vilayətləri Qars, İqdır, Ağrı, Ərzurum ilə yaranmış sosial-iqtisadi əlaqələr, Naxçıvanın çətin günündə həmin vilayətlərin icra strukturlarının və əhalinin muxtar respublikaya maddi və mənəvi köməyi, problemlərin həll edilməsində mühüm rol oynadı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1999-cu il oktyabrın 13-də Naxçıvanda Kazım Qarabəkir paşa məscidin təntənəli açılışında demişdir: "Biz bir millət, iki dövlətik". Bu, bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu təşkil edir. Bu dostluq, qardaşlıq türk xalqı, Anadolu türkləri ilə Azərbaycan xalqı, Azərbaycan türkləri arasında əsrlərdən əsrlərə gələn dostluq, qardaşlıqdır (1, s.241).

## ƏDƏBİYYAT

1. Əliyev.H. Müstəqilliyimiz əbədidir 22-ci cild. Bakı: 2007.
2. Hacıyev.İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: 2011.
3. Hüseynov.E. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1996-cı illər) Tarix elm. namizəd. diss. avtorefaratı, Bakı: 2000.
4. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Məsləhətçi və buraxılışa məsul Vasif Talıbov. Bakı: 2008.
5. Məmmədov.M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: 2005.
6. Naxçıvan Ensklopediyası. II cild. Naxçıvan: 2005.
7. Naxçıvan Tarixi. III cild. Naxçıvan: 2015.
8. “Şərq qapısı” qəzeti.

## ABSTRACT

### NAKHCHIVAN – TURKEY SOCIO – ECONOMIC RELATIONS(1991-1993S)

In the period Azerbaijan got independence Nakhchivan Autonomous Republic, boundery district also played role in the development of international terms and foreign relationships. Its main reason was Nakhchivan being in blockade in the years of independence. During those years relationships between Nakhchivan Autonomous Republic were made thanks to far-sighted policy of commonnational leader Haydar Aliyev living in Nakhchivan.

After commonnational leader Haydar Aliyev was elected chairman of the NAR Supreme Majlis on September 3,1991 Nakhchivan-Turkey relationships passed to a new stage.

Stating that “Nakhchivan is a door to Turkish-İslamic World” great leader Haydar Aliyev began his systematic, expedient activity in this sphere.

Opened on 28,1992 “Sadarak-Diluju” bridge was an important stage in the development of Azerbaijan-Turkey relationships. To take part in the official opening ceremony of the bridge, great delegation under the leadership of Suleyman Demirel, Prime Minister of Turkey came to Nakhchivan. So, the usage of bridge “Hope” happened in ceremonial condition that fulfilled desire to unite of two brother nations for years.

In those years relationships of Nakhchivan with neighbouring regions of Turkey – Gars, Ighdir, Aghri, Erzurum, Van became stronger.

**MEHDİ BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
dr.Mehdi_Bagirov@mail.ru

# REGİONAL İNFRASTRUKTUR LAYİHƏLƏRİ VƏ NAXÇIVAN-TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİ: REALLIQLAR, QARŞILIQLI TƏSİRLƏR VƏ PERSPEKTİVLƏR

**Açar sözlər:** *infrastruktur layihələri, Naxçıvan – Türkiyə iqtisadi əlaqələri, fiskal siyasət, nəqliyyat dəhlizləri, yükdaşıma.*

**Keywords:** *infrastructure projects, Nakhchivan – Turkish economic relations, fiscal policy, transport corridors, freight turnover.*

**Ключевые слова:** *инфраструктурные проекты, Нахчывано-Турецкие экономические отношения, фискальная политика, транспортные коридоры, грузооборот.*

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı, onun mədəni-məişət şəraiti həyata keçirilmiş ardıcıl və məqsədyönlü fəaliyyət növlərindən, onlar üzrə intensiv, səmərəli və optimal planlaşdırma işlərinin və icra mexanizmlərinin mövcudluğundan xeyli dərəcədə asılıdır. Vahid “Sovet ölkəsi” ifadəsinin tarixə gömülməsi, ikinci dəfə müstəqilliyin əldə olunması və düşünülmüş, məqsədyönlü və kompleksliliyi ilə seçilən strategiyanın ardıcıl həyata keçirilməsi respublikamızın sonrakı sistemli yüksəlişindən xəbər verməkdədir. Müstəqilliyin əldə edilməsi Azərbaycanın sosial-iqtisadi inkişafı üçün yeni üfüqlərin açılması, strateji məqsədlərin müəyyənləşdirilməsi ilə nəticələndi. Hal-hazırda “Azərbaycanın fikirləri” yüksək beynəlxalq tribunalardan səslənməkdədir. İyirmi ildən artıq bir müddətdə “ölkəmizin həm kəmiyyət, həm də keyfiyyət siması” dəyişmiş, yeni “zirvələrin” aşılmasına şərait yaratmışdır. Eyni zamanda qeyd olunmalıdır ki, inkişaf yolumuz son hədlərə malik olmayan, daim yeni mərhələləri fəth etmək iqtidadırda olan strategiya əsasında formalaşmış və uyğun taktikalarla silahlanmışdır.

Bəhs olunan müsbət, inkişaf təmayüllü məqamlarla yanaşı regional müstəvidə eynəlxalq layihə və əlaqələrin həyata keçirilməsi də mühüm əhəmiyyət kəsb etməkdədir. Bu zaman kompleks təkamül və qarşılıqlı təsirlərin mövcudluğu aşağıda sadalanan əsas komponentlərin bərqərar olmasına şərait yaradır:

1. Ölkədə həyata keçirilən iqtisadi siyasət təməllərinin müəyyən edilməsi və tələblərə uyğun formalaşdırılması;
2. “Bakı – Tiflis – Ceyhan” (BTC) boru kəmərinin, “Bakı – Tiflis - Erzurum” (BTE) qaz kəmərinin və “Bakı – Tiflis – Axalkalaki – Qars” (BTQ) dəmir yolunun istismarının kompleksliliyinin və optimallığının qorunması;
3. “Astara (Azərbaycan) – Astara (İİR) – Rəşt (İİR)” dəmir yolun tikintisinin reallaşdırılması, mümkün qısa müddətlər daxilində başa çatdırılması və onun Rusiyanın dəmir yolları sisteminə qoşulması ilə “Şimal – Cənub” nəqliyyat koridorunun istismara verilməsi;
4. Ölkəmizdə fiskal siyasət imkanlarından səmərəli istifadənin əsaslandırılması və s.

Təsnifatda birinci “obyekt” kimi nəzərdən keçirilən iqtisadi siyasət, təməlləşmə və artım öz növbəsində nələrin (hansı metod və yollardan istifadənin) hesabına baş verdiyi haqda təsəvvür yaratmalıdır. Qeyd olunan məsələ müxtəlif aparıcı (inkişaf etmiş və etməkdə olan) ölkələrdə fərqli amillərin balanslaşdırılmış qaydada istifadəsini tərənnüm etdirir.

Araşdırmada ikinci maddənin komponentlərindən birini təşkil edən BTC əsas ixrac boru kəməri "Əsrin müqaviləsi" çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunacaq xam neftin dünya bazarına çıxışını təmin etmək üçün inşa edilmiş boru nəqliyyat vasitəsidir. Əsaslı texniki, maliyyə, icra və digər təməlləri İstanbul və Hyustondakı görüşlərdə formalaşdırılan kəmər üzrə real icraata 20 sentyabr 1994-cü ildə bağlanan və 12 dekabr 1994-cü ildə ölkəmizin Milli Məclisi tərəfindən təsdiq olunan “Əsrin müqaviləsi” ilə start verilir. Məsələ üzrə hazırlıq işləri çoxsaylı istiqamətlərdə həyata keçirilməsi mərhələsi imkan vermişdir ki, 18 sentyabr 2002-ci il tarixdə Bakıda yerləşən Səngəçal terminalında təməl daşını qoymaqla neft kəmərinin real tikintisinə başlanılsın.

Uzunluğu 1768 *km* təşkil edən, iqtisadi ilə yanaşı kifayət qədər böyük siyasi əhəmiyyətə malik kəmərin (443 *km*-i Azərbaycan ərazisindən keçir) istismar müddəti 40 il, orta ötürücülük qabiliyyəti ildə 10 milyon

barel nəzərdə tutulmuşdur. Səkkiz ölkənin (Azərbaycan, Rusiya, Türkiyə, ABŞ, Böyük Britaniya, Yaponiya, Səudiyyə Ərəbistanı və Norveç) 13 şirkətinin iştirakı ilə (12 iştirakçı tərəf) icrası mümkün olmuş bu layihədə ölkəmizin (Azərbaycan BTC.Co. vasitəsilə) və digər tərəfdaşların maliyyələşdirəcəyi pay bölgüləri aşağıdakı kəmiyyət ifadələrini əks etdirmişdir:




Layihənin operatoru sifətilə çıxış edən BP şirkəti ən böyük sərmayə qoyuluşu həcminə (30,1%) malikdir. Maliyyə sənədlərinin ilkin hazırlanmasında 2,95 mlrd. ABŞ dolları məbləğində xərclə yekunlaşdırılması nəzərdə tutulan müvafiq kəmərin ümumi dəyəri, məbləğlə bağlı edilən korrektə ilə (təbii-iqlim şəraiti, yolun keçəcəyi ərazilərdəki suxur quruluşu, bank %-ləri və s.) 5 mlrd. dollara qədər yüksəlmişdir. Həmin kəmərlə yanaşı Qərb (Bakı-Supsa boru kəməri) və Şimal (Bakı-Novorossiysk boru kəməri) marşrutları üzrə də paralel işlər aparılaraq 1999-cu ilin sonuna neftin nəqlində nisbi irəliləyişlərə nail olunmuşdur ki, bu da Ölkəmizin maliyyə resursları təminatına, onların ehtiyatlarının artırılmasına və istifadə imkanlarının yüksəldilməsinə şərait yaratmışdır. Müqavilənin icraatı və kəmərin tikintisi üzrə işlərin başa çatması nəticəsində 2 iyul 2006-cı il tarixdə sınaq variantında ilk tankerin yüklənərək yola salınması baş tutur. Həmin ayın 13-ndə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan BTC əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

BTC əsas ixrac boru kəməri üzrə işlərin başa çatması və onun istismara verilməsi digər məsələlərlə yanaşı onun mövqeyini dəyişdi. Bu kəmər fiskal siyasətdə əsas iştirakçı tərəf olmaqda davam etdi, lakin investisiya qoyulan tərəfdən, sonrakı layihələrin maliyyələşdirilməsində mənbə rolunda oynayan tərəfə çevrildi. Heç də təsadüfi deyil ki, bu kəmərin ardınca irihəcmli layihələr üzrə qısa müddət kimi qəbul olunan vaxtda BTE qaz kəməri, BTQ dəmir yolu, Oğuz-Qəbələ-Bakı su kəməri və digər layihələrinin hazırlanması və icrasına başlanıldı ki, bunlardan da əksəriyyəti başa çatmış və estafeti növbəti kifayət qədər yüksək maliyyətutumlu işlərə təqdim etmişdir. Ölkəmizin prezidenti İlham Əliyev müvafiq məsələ ilə bağlı qeyd edirdi ki, "... Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir"

Fikrimizi ümumiləşdirərək qeyd etmək olar ki, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında özünəməxsus rola malik "Əsrin müqaviləsi" ilə, onun əsasında tikilərək istismara verilə və ölkəmizin maliyyə müstəqilliyində aktiv rol oynayan BTC əsas ixrac boru kəməri ilə qanunauyğun şəkildə əlaqələndirilmiş fiskal siyasət Azərbaycan Respublikasının pespektiv dövrdə də maliyyə imkanlarının artırılmasına, sosial vəziyyətin (ilk növbədə insanların dolanışığının) yüksəlməsinə səbəb olaraq, onun çiçəklənməsinə öz töhvəsini verəcəkdir.

Azərbaycanda müvafiq layihələrdən daxilolmalar hesabına formalaşan maliyyə resurslarının həcmləri öz növbəsində "neftin qiymətindəki süni geriləmələr", "konvertasiya olunan valyutaların məzənnələrindəki dalğalanmalar" kimi amillərin təsiri nəticəsində mənfi təmayüllü kənarlaşmalara məruz qalsa da, neft məhsullarının hasilat artımları və daxilolmaların yeni layihələrə investisiyalar şəklində yönəldilməsi yaranan kəsirlərin nisbətən "hamarlanmasına" şərait yaratmaqdadır. Digər tərəfdən isə konvertasiya olunan beynəlxalq valyutaların məzənnələrində baş verən dəyişikliklər ölkəmiz qarşısında aşağıdakı iki yoldan birinin seçilməsini şərtləndirir:

- ✓ ölkə daxilində pul siyasəti sahəsində "diskont" qaydasının tətbiqini davam etdirmək və malik olduğumuz valyuta ehtiyatlarını qısa dövrdə "bazar tarazlaşdırmasının yeminə" çevirmək və ya;
- ✓ "üzən məzənnə" kursuna keçidi təmin edərək müxtəlif tarazlayıcı tədbirlərin xidmətlərindən paralel qaydada istifadə etmək.

Birinci yoldan istifadənin səmərəsiz olduğunu nəzərə alaraq respublika hökuməti ikinci üsula müraciət etdi. Müvafiq əsas bir tərəfdən ölkənin perspektiv etibarı ilə qısa dövrdə valyuta vəsaitlərinə yaranacaq ehtiyacın qarşısını önlədi, digər tərəfdən son dövrdə mövcud olmuş iki deflyasiya prosesinin nəticəsində ölkənin ixrac imkanlarının "qiymət" elementi baxımından yüksəlməsinə gətirib çıxarmışdır. Lakin neft gəlirlərinin müqayisə etibarı ilə nisbətən kiçik zaman kəsiyində (əsasən 2015 və 2016-cı illərdə) dəfələrlə azalması Azərbaycan Respublikası qarşısında bu həcmlərin mənbə baxımından əvəzlənməsi tədbirlərini görməyə vadar etdi. Qeyd etmək lazımdır ki, bu istiqamətdə ölkəmiz kifayət qədər imkanlara malikdir ki, onların sırasında qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafı, daxili və beynəlxalq hasilat, nəqliyyat və ticarət əlaqələrinin genişləndirilməsi, turizm və informasiya texnologiyaları sahələrinin daha mütərəqqi mərhələlərə keçidinin təmin olunması və s. nümunəvi şəkildə göstərilə bilər.

İstər dövlətin maliyyə ehtiyatlarının bərpası, istərsə də dövlət büdcəsində yaranacaq mədaxil kəsirinin təmin edilməsində neftdənkənar istehsalların və ümumiyyətlə fəaliyyət sahə və istiqamətlərinin rolu böyükdür. Bu sahədə nəqliyyat əlaqələrinin mövcudluğu və təkamülü, yeni sistemlərin formalaşdırılması, beynəlxalq nəqliyyat layihələrində tamhüquqlu iştirakın təmin olunması mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın regional səviyyədə iştirakçısı olduğu bir çox nəqliyyat layihələri vardır ki, bunları da neft-qaz və digər nəqlolunma təyinatlarına ayırmaq mümkündür. Nəqliyyat layihələri sırasında BTQ dəmir yolu mühüm əhəmiyyət kəsb edir. Onun təməli 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə, sonrakı fiskal siyasətin məqsədyönlü şəkildə həyata keçirilməsi ilə mümkün olmuşdur. Çoxmilyardlıq maya dəyərinə malik, haliyədə istismara verilmiş bu dəmir yolu kəmərinin xarakterizə edilməsində, fikrimizcə, aşağıdakı vacib məqamlar nəzərə alınmışdır:

- ✓ üç ölkənin (Azərbaycan, Gürcüstan və Türkiyə) birgə həyata keçirdiyi layihələrdə növbəti mərhələdir;
- ✓ Böyük Britaniyanın paytaxtı Londondan Qədim Çinə qədər olan məsafəni (TRASEKA dəhlizi formasında) birləşdirmək məqsədi güdür;
- ✓ yolun müxtəlif sahələrində dəmir yolu şaxələndirmələrinin aparılması;
- ✓ yolun keçdiyi ərazilərdə birbaşa və dolayı əlaqəliliyi ilə seçilən infrastrukturun yaradılması;
- ✓ yolun keçdiyi ərazilərin ümumi iqtisadi və sosial səviyyəsinin yüksəlməsinə yönəlik tədbirlərin həyata keçirilməsi;
- ✓ dəmir yolunun keçdiyi inzibati-ərazi vahidlərində məşğulluq səviyyəsinin nisbi yüksəlişinin təmin edilməsi və s.

Sadalanan bəndlərdən hər biri özündə görülən çoxsaylı işlərin əyani ifadəsini birləşdirir. Müvafiq məsələlər sırasında üç ölkənin özünəməxsus "vahid" iqtisadi məkan yaratmaları mühüm əhəmiyyət kəsb edir. "Əsrin müqaviləsi" ilə 1994-cü ildə neft ixracının yolları haqda fikirlərin çoxluğu onlardan həmçinin siyasi ideyalarla uyğun gələn BTC əsas boru kəmərinin tikilməsi ilə yekunlaşdı. Çoxlarının "utopiya" kimi qiymətləndirdiyi bu marşrut 2006-cı ildə işə salındı və "üçlüyün" ilk birgə layihəsi kimi tarixə düşdü. O, eyni zamanda növbəti irihəcmli layihələrin – "Bakı - Tiflis - Erzurum" qaz kəmərinin və "Bakı -Tiflis - Axalkalaki - Qars" dəmir yolunun reallaşması üçün başlanğıc nöqtəsini təşkil etmiş, bu işlərin maliyyələşdrilməsində mühüm rol oynamışdır.

2005-ci ildən bəri atılan adımların xronologiyası qədim "İpək yolunun" bərpası adı altında aparılan sistemli və kompleks təyinata malik işlərə start verilməsi kimi qiymətləndirilməlidir. Belə ki, öncə haqqında bəhs olunan ölkələr, sonradan isə beynəlxalq aləmin regional səviyyəli iştirakçıları arasında iqtisadi əlaqələrin nizamlandırılması, ilk vaxtlarda əsasən avtomobil (yük) nəqliyyatı vasitəsilə məhdud imkanlar daxilində mümkün olan icra səviyyəsinin yüksəldilməsi, artan əmtəə dövriyyəsinin "qarşılanması" məqsədilə zaman etibarı ilə daha sürətli, məhsulların keyfiyyətinə müsbət təsiri ilə seçilən, maya dəyərinin azalmasında mühüm rol oynaya biləcək vasitəyə - dəmir yolu sisteminə diqqəti artırdı. Məhs belə düşüncələr BTQ marşrutunun gerçəkliyə çevrilməsində əsas amillər kimi çıxış etdi. Bu magistralın mühüm məqsədlərindən biri ümumi ifadədə Böyük Britaniyadan gələn yüklərin Qədim Çin torpaqlarına çatdırılması imkanlarının əldə olunmasıdır. Bu fəaliyyət eyni zamanda yüklərin tərkib stansiyalar vasitəsilə yaratdığı mübahisəli situasiyaları qiymətləndirməyə, mümkün olmuş problemləri operativ qaydada aradan qaldırmağa imkan verir.

Məqalədə Avropa ucqarlarından (xüsusilə də Böyük Britaniyadan) gələn yüklərin Çin sərhə- dinə çatdırılmasına qədər olan fəaliyyətin təmin edilməsindən bəhs olunur. Bununla belə həmin nəqliyyat dəhlizinin aktiv iştirakçıları kimi İtaliya, İspaniya, Almaniya, Bolqarıstan, Ukrayna, Belarus, Baltikyanı və digər ölkələr də çıxış etmək niyyətindədirlər. Aparılmış müşahidə və hesablama işləri ilk növbədə artıq mövcud olan ("Qərb – Şərq") analoji marşrutlarla müqayisədə bu yolun 20- 25 gün tez yekunlaşması (analoqlarında 36-40 gün ərzində), onun vasitəsilə yükdaşımanın reallaşdırılması isə hər vaqon hesabı ilə 80% - 210% arasında daha az dəyərlə mümkün olmasına (eyni yük həcmlərinin analoji marşrutlarda daşınması 4700–5250 ABŞ dollara başa gəldiyi halda) şahidlik edir. Diqqətəlayiq məqamlardan biri kimi yolun keçdiyi ərazilərdə birbaşa və ya dolayı

əlaqəliliyi ilə seçilən infrastrukturun yaradılması çıxış edir. Müvafiq məsələ bir tərəfdən həmin ərazilərdə ümumi və ixtisaslaşdırılmış (xüsusi) xidmət səviyyəsini, həmin regionun ümumi iqtisadi və sosial səviyyəsini yüksəltməyə imkan yaradacaqsa, digər tərəfdən dəmir yolunun keçdiyi inzibati-ərazi vahidlərində məşğulluq və d.əlaqəli məsələlərin müsbət meyli inkişafında öz sözünü demiş olacaqdır.

Haliyədə vaxtilə özünün törəmə layihə kimi formalaşmış BTQ marşrutu bu istiqamətdə icrası nəzərdə tutulan və ya artıq başlanılan bir sıra layihələrin təməl elementlərindən hesab olunur. Buna nümunə kimi ilk növbədə Azərbaycanın və İranın dəmir yollarının birləşdirəcək layihəni göstərmək mümkündür. "Şimal - Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində tikintisi nəzərdə tutulan "Qəzvin - Rəşt - Astara - Astara" dəmir yolu xəttinin istifadəyə verilməsi də bu istiqamətdə görülən sistemli işlərin təzahürlərindən hesab olunmalıdır. Məsələyə hərtərəfli yanaşma, fikrimizcə, həmin istiqamətdə formalaşacaq aşağıdakı mühüm aspektlərin işıqlandırılmasına şərait yaradacaqdır:

✓ "Azərbaycan – İran" və "İran – Azərbaycan" marşrutları üzrə yükdaşıma imkanlarının həqiqi səviyyələrinin qiymətləndirilməsi, bu istiqamətdə olan həcmlərin artırılması sahəsində işlərin görülməsi. Problemin həlli yolunda aparılan müşahidələr müvafiq dəmir yolu marşrutu üzrə texniki, maliyyə, yer quruluşu və digər məsələlərə aydınlıq gətirmək iqtidarındadır. Marşrutun keçəcəyi ərazinin böyük hissəsi İran ərazisindədir. Yaranacaq ikitərəfli nəqliyyat əlaqəsi həmsərhəd ölkə ilə *Astaraçay* üzərində tikiləcək 100 metr uzunluğundakı iki dəmiryolu raylı körpünün inşası ilə mümkünləşir. Bundan sonra İran İR-dəkı sistem müvafiq körpüdən Astara stansiyasınadək uzaldılmaqla Azərbaycan Dəmir Yollarının vahid sisteminə və, deməli, həmçinin "Bakı - Tiflis - Axalkalaki - Qars" dəmir yolu sisteminə birləşdiriləcəkdir. İran tərəfində bu işlərin texniki tələblər baxımından iki mərhələdə həyata keçirilməsi nəzərdə tuturlur. Belə ki, ölkəmizin və İranın dəmir yolları standartları uyğun gəlmədiyi üçün (raylar arasındakı məsafə bizdə 1520 *mm*, İran tərəfində - 1435 *mm*) I mərhələdə həmin ölkə ərazisində dəmir yolu xəttinin 8 *km*-lik hissəsinin çəkilişi və xüsusi stansiyanın tikilməsi baş tutacaqdır. Həmin stansiyada yüklər avtonəqliyyat vasitələrinə boşaldılaraq son ünvanlarına çatdırılacaqlar. II mərhələdə dəmir yolu sisteminin çatışmayan tərkib hissələrinin bərpası həyata keçiriləcəkdir ki, bu da müvafiq nəqlolunma növünün əhəmiyyətinin artırlmasına öz töhvəsini verəcəkdir;

✓ İran daxilində dəmir yolu sisteminin genişləndirilməsi və şaxələndirilməsi. Bu məqsədlə ilk növbədə milyardlıq büdcəyə malik "Rəşt - Qəzvin -Tehran" dəmir yol xəttinin (380 *km*) tikin-
tisinin planlaşdırılması nəzərdə tutulmuşdur;

✓ Tranzit yükdaşımalarının səviyyələrinin müsbət mənada dəyişilməsi. Bu, İranın aktiv əməkdaşlıq əlaqələri olan RF və keçmiş Sovet İttifaqının üzvləri olan Orta Asiya Respublikaları ilə iqtisadi (yükdaşıma) əlaqələrinin yüksəlməsində öz əksini tapacaqdır;

✓ İrandan Avropa və Şərq ölkələrinə yüklərinin göndərilməsi prosesinin asanlaşdırılması. Son dövrlərin siyasi və onların nəticəsi olaraq iqtisadi prosesləri İranın beynəlxalq əmtəə dövriyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Bu məcrada "Şərq - Qərb" marşrutunun əhatə etdiyi ölkələrə yüklərin daşınmasında üstünlüyün məhs BTQ marşrutuna (və onu tamamlayan sistemə) verilməsi yüklərin daşınması üzrə texniki-iqtisadi parametrlərin yüksəlişinə də təsirsiz ötüşməyəcəkdir. Nəzərdən qaçırmaq olmaz ki, "Qəzvin - Rəşt - Astara - Astara" dəmir yolunun ilkin dövrlər üçün illik yük ötürmə qabiliyyəti təxminən 5 milyon ton səviyyəsində qiymətləndirilir;

✓ Tikintisi həyata keçiriləçək marşrutdan istifadə ölkəmizə əlavə pul vəsaitlərinin gəlməsinə də şərait yaradacaqdır. Belə ki, təxmini hesablamalar ilk zamanlar üçün bu rəqəmin 300-400 milyon ABŞ dolları səviyyəsində olacağını göstərir. Lakin aparılacaq sistemli icra, idarəetmə, məlumatlandırma və digər əlaqəli işlər planlaşdırılan həcmlərin dəfələrlə üstündə olan rəqəmlərə çatılmasını real edir. Bu, isə hər iki ölkənin məqsədlərinə cavab verir.

Məsələdə paralel yanaşmanın təmin olunması İranın ərazisində mövcud olan bey-nəlxalq çıxışı reallaşdracaq dəmir yolu sistemindən istifadəyə aydınlıq gətirmək məq-sədi güdür. Belə ki, İİR dəmir yolları Azərbaycandan tranzit yükdaşıma əsasında əmtəə-lərin Fars Körfəzinə və Hindistana qədər olan məsafəyə çatdırmaq iqtidarındadır. Bu isə heç də uzaq olmayan perspektiv dövrdə ölkəmizin kifayət qədər mühüm əhəmiyyət kəsb edən nəqliyyat qovşağına çevrilməsinə şərait yaradacaqdır. Region ölkələrinin vahid dəmir yolu sistemində birləşdirilməsində Naxçıvan böl-gəsi mühüm əhəmiyyət daşımaqdadır. Bu məzmunun siyasi, iqtisadi, sosial və digər çalarları onun vahid kompleksin tərkib hissəsinə çevrilməsinə şərait yaradır. Bu istiqamətdə görüləcək işlər sırasında aşağıdakı iki bəndin əhəmiyyəti xüusilə qiymət-ləndirilməlidir:

1. BTQ dəmir yolunun Naxçıvanadək uzadılması. Bu yolla Naxçıvana idxal olunan məhsulların çatdırılmasının texniki-iqtisadi imkanları artır. Digər tərəfdən, isə bu diyarın günü-gündən yüksələn iqtisadi-istehsal göstəriciləri, hasil olunan məhsulların ümumi sayının, növ-çeşid ifadəsinin artması onun xüsusilə də digər ölkələrin həmsərhəd zonalarına əmtəələrin və xidmətlərin ixracına şərait yaratmış olacaqdır.

2. Dəmir yolu sistemində diversifikasiya addımları atılmış olacaqdır ki, bu da iştirakçı tərəflərin hər birinin maraqlarına xidmət edəcək, onları yarana biləcək çoxsaylı təbii və süni manеələrdən sığortalaya

biləcəkdir. Məsələnin məzmunu dəmir yolu sisteminin dairəvi qaydada birləşdirlməsi prinsipinə əsaslanır. "Naxçıvan- Təbriz" dəmir yolu xəttinin mövcudluğu, həmçinin Təbriz və Tehran arasında müvafiq əlaqənin yaradılması öz növbəsində Qars və ətraf əlaqəli zonalarda, yaxud İrandan reallaşacaq yükdaşımalarda mövcud ola biləcək müxtəlif təyinatlı problemlər üzündən dəmir yolu daşımalarının ertələnməsinə yol açmayacaqdır.

Sonuncu istiqamətin (yəni, Naxçıvanın vahid regional dəmir yolu sisteminin üzvünə çevrilməsi) daha əhatəli araşdırılması kifayət qədər genişliyi ilə seçilir və, fikrimizcə, müstəqil (fərdi) araşdırmanın mövzusudur. Bu məqsədlə hazırki məqalənin miqyasını məhdudlaşdıraraq "Qəzvin - Rəşt - Astara (İİR) - Astara (AR)" dəmir yolu sisteminin istismara hazır olması, onun "Bakı - Tiflis - Axalkalaki - Qars" marşrutuna birləşdirilməsi ilə bağlı düşüncələrimizi bildirmək yerinə düşərdi:

1. Regional və aid beynəlxalq miqyasda yükdaşımanın sürəti artacaq, bu isə tələbatın keyfiyyətə daha uzun zaman təsirinin mənfi cəhətlərini aradan qaldıracaq və son istehlakçıların tələbatı daha yüksək səviyyədə ödəniləcəkdir;
2. Yüklərin daşınma xərclərində hiss olunacaq dərəcədə fərqlər yaranacaq, məhsulların maya dəyərində (və son satış qiymətlərində) nəqlolunma xərclərinin kəmiyyəti aşağı düşəcək;
3. Müxtəlif institutsional, hüquqi, ümumi tənzimləmə xarakterli, iqtisadi siyasəti səciyyələndirən və sair tədbirlərin, təkmilləşdirmələrin aparılması zərurətə çevriləcəkdir;
4. Vahid marşrut üzrə daşınan yüklərin gömrük rəsmiləşdirmələrində əlverişli rejimlərin tətbiqinə üstünlük veriləcəkdir ;
5. Azərbaycan tərəfindən atılan təşkilati-iqtisadi və quruluş adımlarının mühüm elementlərindən biri hesab olunan Ələt dəniz limanının sərbəst ticarət zonasına çevrilməsi ərazimizdən daşınan yüklərin müəyyən hissəsinin həmin məkandan keçməklə son istehlakçıya çatdırılması mümkün olacaq ki, bu da bir tərəfdən çox kiçik və ya "0" dərəcəli gömrük rüsumlarından tətbiqini mütləqləşdirəcək və xərclər səviyyəsini azaldacaq, digər tərəfdən isə ölkəmizdə əmtəə satışının təmərküzləşməsinə gətirib çıxararaq əlavə (ticarət, daxili daşıma, məşğulluq, birbaşa və ya dolayı əlaqəliliyi ilə seçilən infrastruktur və s. istiqamətlərdən) gəlirlərin əldə olunmasına şərait yaradacaqdır.

Sonuncu "mərkəz" hesab olunan fiskal siyasət mahiyyət etibarı ilə respublikada mövcud olan aparıcı (gəlir gətirən) sahələr hesabına digər sahə və istiqamətlərin inkişaf etdirilməsi ilə bağlı məsələləri özündə əks etdirir. Ölkəmizdə həyata keçirilən əksər iqtisadi və sosial layihələrin (xüsusilə də maliyyətutululuğu yüksək olan) investisiyalaşdırılma mənbəyini neftdən gələr gəlirlər təşkil edir. Cari dövrdə rabitə, turizm, idman və digər sahələrdə aparılan kompleks şəkilli işlər özünün məqsədyönlülüyü ilə fərqlənir və gələcəyə hesablanmışdır. Fiskal siyasətin maliyyə bazasının möhkəmləndirilməsi məqsədilə ölkəmizdə xüsusi təyinatlı fondun (Neft Fondunun) yaradılması bu sahəyə ayrılan diqqətin nə qədər mühüm olduğunu göstərir. Bu fondun yaranmasının əsas məqsədlərindən biri -müvafiq siyasətin planauyğun reallaşdırılmasıdır. Yaradılan maliyyə fondu istehsalla yanaşı sosial sferanı da öz vəsaitləri ilə təmin etməli, müxtəlif təyinatlı transfertlər kifayət qədər geniş (dövlət büdcəsindən başlayaraq qaçqın və köçkünlərə yardımların edilməsinədək, müxtəlif layihələrin investisiyalaşdırılmasınadək olan və s.) arealı əhatə etməli idi. Azərbaycan Respublikasında istifadəsi nəzərdə tutulmuş iqtisadi alət və vasitələr məcmusunun tərkibində digərləri ilə yanaşı fiskal siyasət özünün mühümlüyü ilə seçilməkdədir. Daha dərin fikir və düşüncələrimizi ifadə etməzdən öncə aşağıdakı sxemə müraciət edək.



Sxemdən ilk növbədə aşağıdakı mühüm nəticələr çıxarıla bilər:

1. Cari dövrdə ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindəndir;
2. Fiskal siyasət kifayət qədər geniş tərkibə malikdir;
3. O, mürəkkəb, lakin məntiqəuyğun sistemin məcmusudur;
4. O, heç də bütün hallarda (xüsusilə də maddi istehsal, xidmət təyinatlı layihələrdə) birtərəfli təsirlə yekunlaşmır: fiskal siyasət nəticəsində formalaşan obyektlər (iri sahibkarlıq subyektləri, nəqliyyat kəmərləri, magistralları və s.) sonradan onun özünə təsiretmə imkanları yaradır və s.

İlk növbədə qeyd etmək yerinə düşər ki, həyata keçirilməsi nəzərdə tutulan fiskal siyasət tərkib hissələr kimi ümumi qanunvericilik, idarəetmə, tənzimləmə, maliyyə, təminat və digər növ və formalara aid siyasəti özündə cəmləyir. Bu ilk növbədə qeyd olunan siyasətin sistemliliyi və kompleks şəkildə tətbiqi haqda fikir söyləməyə imkan verir. Belə ki, haqqında bəhs olunan bu və digər analoji iri layihələrdə faktiki tətbiq, icra kimi məsələlərin hüquqi-normativ təminatı, fəaliyyət mexanizmlərinin dəqiqləşdirilməsi (layihənin icrası ilə bağlı bütün şərtlər: istifadə olunacaq mal-material siyahıları, baş podratçılar və subpodratçılar, fəaliyyət mərhələləri üzrə plan-proqnoz işlərinin hazırlanması, icra müddətlərinə aydınlıq gətirilməsi və s.) kimi məqamlara aydınlıq gətirilməlidir.

Məzmun etibarı ilə fiskal siyasət ölkənin iqtisadi fəaliyyətinin (imkanlarının) prioritet istiqamətləri əsasında digər sahə və yönlərin inkişafı və təkamülünü nəzərdə tutur. Yəni aparıcı, gəlir gətirən sahələrin inkişafı ilə bərabər digər istehsal, xidmət və sosial sferalarının yeniləşməsinə, güclənməsinə nail olunur. Məsələn, cari dövrdə fiskal siyasətin əsas istiqamətlərindən biri "neft kapitalının insan kapitalına çevrilməsidir" ki, bu da özündə respublikamızda mövcud olan fəaliyyət növləri üzrə yüksək ixtisaslı, peşəkar kadrların hazırlanmasını əks etdirir. Digər tərəfdən "artan əhali - yüksələn tələbat həcmi və səviyyəsi" prinsipi əsasında tələbatı formalaşdıracaq yönlərdə əsaslı (həmçinin perspektiv dövrlərə hesablanmış) işlərin icrasını da aktuallaşdırırdı ki, bunların bəlli maliyyə, texniki və digər baxımdan həcmi fiskal siyasətin payına düşür. Fiskal siyasət məzmun etibarı ilə "aksyoma" və ya "postulat" deyil, reallıqda yaranan iqtisadi vəziyyətin xüsusiyyətləri əsasında ona spesifik dəyişikliklər edilə bilər. O, adətən ölkənin makroiqtisadi (proqnozlaşdırılmış) konturları nəzərə alınmaqla qurulur və icra olunur.

Yuxarıdakı təsnifatın hər bir maddəsi üzrə fikirlərin bildirilməsi məsələlərin əsas əlaqələndirici nöqtəsi kimi Naxçıvan –Türkiyə iqtisadi əlaqələrinin mahiyyətinə, onların hər iki inzibati subyektin cari və perspektiv inkişafındakı təsirlərə diqqəti çəkməklə mükəlləfdir. Problemin müvafiq müstəvidə qoyuluşu məzmun etibarilə aşağıdakı maddələrin sistemli şəkildə araşdırılmasına şərait yaradır:

a) regional vahidlərin biri-digərinin sosial-iqtisadi inkişafına qarşılıqlı təsiri;
b) qarşılıqlı əmtəə mübadiləsinin təşkili;
c) yük və sərnişin daşımalarının aktivliyini yüksəltmək məqsədilə nəqliyyat infrastrukturunun yaradılması;
d) bəhs olunan ərazi vahidlərinin ümumi iqtisadi, digər sahə və istiqamətlər üzrə informasiya mübadiləsində iştirakının təmin edilməsi;
e) istehsalın xüsusiyyətləri əsasında bir regionun digər rayona istehlak sifarişlərinin verilməsi;
f) regionların tarixi, coğrafi və digər imkanlarının təbliği məqsədilə sistemli turizm fəaliyyəti- nin təşkili, müvafiq sahədə imkanların genişləndirilməsi,
g) qarşılıqlı, müxtəlif sahə və istiqamətləri əhatə edən təcrübə mübadilələri;
h) istehsalın təmərküzləşmə və ixtisaslaşma xüsusiyyətlərinin, kombinələşmə imkanlarının müəyyən edilməsi;
i) bir regionun digər regionun imkanlarından (bazara çıxış, aktiv partnyor əlaqələri, təkrar ixraca cəlb olunma və müvafiq proseslərdə iştirak və s.) istifadə edə bilməsi;
j) hər iki regionun iqtisadi potensialının inkişafı, müasir tələblərə uyğunluğunun təmin edilməsi məqsədilə elmi, tədris-təcrübə, təşkilatlanma, idarəetmə və s. sahələrdə maarifləndirici fəaliyyətin təşkili;
k) iqtisadi-ticari və digər analoji əməliyyatlarda birgə iştirakın təmin edilməsi.

Mövzuya ilk növbədə müstəqim əlaqəliliyi ilə seçilən, kifayət qədər təsir imkanlarına malik maddələrin vahid araşdırma müstəvisində birləşdirilməsi əsaslı nəticələrin əldə olunmasına şərait yaratmaqdadır. Bunu bir neçə misalla təsdiqləyək. 2016-cı ildə Türkiyə Cumhuriyyətinin baş nazirinin müavininin rəhbərlik etdiyi və əsasən iş adamlarından ibarət heyyətin Naxçıvanda rəsmi səfərdə olması, regionun istehsal potensialının öyrənilməsi və qarşılıqlı əmtəə mübadilələrinin təşkili ikitərəfli əlaqələrin yeni, daha üstün iqtisadi mərhələlərə keçidində mühüm rol oynamışdır. Aparılmış iqtisadi hesablamalar əsasında İqdir vilayətinin 43 adda məhsula (13-ü ərzaq, 30-u qeyri-ərzaq növləri) olan ehtiyacının ödənilməsi məqsədilə 150 milyon dollarlıq ticari müqavilə imzalanmışdır. Burada bir neçə məqsəd güdülməkdədir:

1. müasir inkişaf mərhələsində İqdir vilayətinə yeni istehsal subyektlərinin yaradılması məqsədilə investisiya təyinatlı vəsaitlərin cəlbi heç də bütün hallarda "əsaslandırılmış" deyil;

2. eyni adlı və keyfiyyətə malik məhsullara oan tələbatın məhs Naxçıvanın istehsal vahidləri vasitəsilə ödənilməsi muxtar respublikada maliyyə vəsaitlərinin dövriyyəsi, demoqrafiya, iş yerləri ilə təminolunma və digər əlaqəli məsələlərə müsbət mənada yanaşmanın təzahürüdür;

3. öz növbəsində valyuta vəsaitlərinin Naxçıvana "təhvil verilməsi", öz növbəsində Türkiyədə istehsal olunan və bizim ehtyaclarımızı ödəyə biləcək obyektlərin əldə olunmasına şərait yaradacaqdır və s.

Belə misallar sırasında beynəlxalq ticarət sərgi və digər mübadilə məkanlarında Türkiyə pavilyonlarında Naxçıvanda istehsal olunan məhsulların sərgilənməsi və digər buna uyğun addımların atılması nümunə oluna bilər.

Fikirlərimizi ümumiləşdirərək qeyd etmək yerinə düşər ki, ölkəmizin beynəlxalq münasibətlər müstəvisində özünün spesifikliyi ilə seçilən Naxçıvan-Türkiyə əlaqələri sərhədyani işgüzar fəaliyyətin formalaşması və intensivləşdirilməsi ilə yanaşı, maliyyə, hüquqi, təşkilatlanma və digər istiqamətlərdə qarşılıqlı maraqların qorumasına, birgə inkişafın nail olunmasına, istifadə optimallığı və səmərəliliyinin yüksəlməsinə yerlər üzrə məskunlaşmış əhalinin maddi-texniki təminatının və sosial-mədəni şəraitinin yaxşılaşmasına təsir edən mühüm amillərdən hesab olunmalıdır. Regional infrastruktur layihələri isə bəhs olunan məqsədlərin nail olunmasında özünün müsbət təsirlərini göstərməlidir.

## ƏDƏBİYYAT


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003.
2. "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. 29.12. 2012.
3. Bağırov M.S. Statistika kursu. Naxçıvan: Əcəmi, 2014, 605 s
4. Bağırov M.S. Yeni təsərrüfatçılıq şəraitində idarəetmə sisteminin təkmilləşdirilməsi məsələləri // ADPU-nun Xəbərləri. Humanitar və pedaqoji elmlər seriyası. 2005.
5. Bağırov M.S. Turizm statistikası. Naxçıvan: Əcəmi, 2016.
6. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan: Əcəmi, 2016, 344s.
7. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: ADİU, 2009, 291s.
8. Şirəliyev A.İ., Mahmudov C.İ. İqtisadi artım və sosial tərəqqi. Naxçıvan: İdeya, 2012, 146 s.
9. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 428s.
10. Булатов А.С. Экономика. М: Экономикс, 2004, 894 с.
11. Раджабли А. Теория национальной безопосности. Баку: БСУ, 2005, 224 с.
12. www.economy.gov.az



## ABSTRACT

**Mehdi Bagirov**

**REGIONAL INFRASTRUCTURE PROJECTS AND NAKHCHIVAN-TURKEY ECONOMIC RELATIONS: REALITIES, RECIPROCAL INTERACTIONS AND PERSPECTIVES**

The article is about regional infrastructure projects that have been executed since getting independence by our country. It is also mentioned the participation of Nakhchivan Autonomous Republic in international projects.

Projects with significant financial attitudes affect the autonomous republic's overall and sophisticated production, service, internal infrastructure, and other potentials, making it an active participant in foreign economic relations as well. Considered the exceptional importance of the Turkish Republic in these processes, special attention was paid to its economic relations with Nakhchivan mutually.



## РЕЗЮМЕ

**Мехти Багиров**

**РЕГИОНАЛЬНЫЕ ИНФРАСТРУКТУРНЫЕ ПРОЕКТЫ И НАХЧЫВАНО-ТУРЕЦКИЕ ЭКОНОМИЧЕСКИЕ ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ: РЕАЛИИ, ВЗАИМОВЛИЯНИЯ И ПЕРСПЕКТИВЫ**

В статье повествуется о проводимых региональных инфраструктурных проектах, охватывающий период после завоевания нашей страной независимости до сих пор. В этом плане должно быть особо отмечено участие Нахчыванской Автономной Республики в международных проектах.

Проекты, обладающие особыми финансовыми объемами, наряду со влиянием на общий и производственный потенциал, на возможности по услугам, внутренним инфраструктурным и другим направлениям, также будет создавать условия по ее превращению в активного участника в международных экономических условиях. Учитывая исключительную значимость Турецкого Государства, придается особое внимание его экономическим взаимоотношения с Нахчываном.

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ceyhun.ilhamoglu@gmail.com*

# NAXÇIVAN-TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN REGİONUN TARAZLI İNKİŞAFINDA ROLU

**Açar sözlər:** *Naxçıvan-Türkiyə ticarət-iqtisadi əlaqələri, xarici ticarət dövriyyəsi, regional siyasət, regional islahatlar, regional tarazlı inkişaf.*

**Key words:** *Nakhchivan-Turkey trade and economic relations, foreign trade turnover, regional policy, regional reforms, regional balanced development.*

**Ключевые слова:** *Нахчывано-Турецкие торгово-экономические отношения, внешнегосударственный товарооборот, региональная политика, региональные реформы, региональное сбалансированное развитие*

Müasir dövrdə elmi-texniki və iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq heç bir ölkə xarici ticarət-iqtisadi əlaqələrə girmədən öz milli iqtisadiyyatının optimal inkişafını təmin edə bilməz. Dünya ölkələrinin təcrübəsi də onu göstərir ki, iqtisadiyyatı açıq və dünya təsərrüfatı sisteminə daha fəal inteqrasiya olunmuş ölkələrin və onların regionlarının iqtisadiyyatları qapalı ölkələrə nisbətən daha çox inkişaf etmişdir.

Məhz bu baxımdan beynəlxalq iqtisadi münasibətlərin tam hüquqlu subyekti kimi Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasının başlıca istiqamətlərindən biri müasir dünya əlaqələri sisteminin inkişaf xüsusiyyətlərini nəzərə almaqla ölkəmizin dünya iqtisadiyyatına fəal surətdə inteqrasiyasının təmin edilməsidir. Başqa sözlə desək, müasir dövrdə respublikamızın gələcək inkişaf xəttini əks etdirən strateji yol xəritəsinin bir-birini tamamlayan iki əsas istiqamətlərindən biri xarici ticarət-iqtisadi əlaqələrin əhatə dairəsinin genişləndirilməsi, digəri isə regionların ixrac potensialı və imkanlarını artırmaqla onların tarazlaşdırılmış sosial-iqtisadi inkişafının təmin edilməsidir. Qeyd edək ki, bu vəzifələrin yerinə yetirilməsi müxtəlif xarakterli amillərin və dəyişənlərin, ölkələrin və regionların maraq və qarşılıqlı əlaqələrinin nəzərə alınmasını tələb edir.

Belə ki, hazırkı dövrdə istənilən dövlət üçün xarici iqtisadi əlaqələrin qurulması, ilk növbədə, həmin dövlətdən müstəqil siyasət həyata keçirməsini tələb edir. Çünki qloballaşmış dünyada hər bir ölkənin beynəlxalq çərçivədə öz maraqları var. Bu maraqların təmin olunması isə o zaman mümkün olur ki, istənilən dövlət öz xalqının milli mənafeyi üçün qəti və müstəqil qərarlar qəbul etməyi bacarsın. Dolayısı ilə yalnız müstəqil siyasət həyata keçirən, beynəlxalq əməkdaşlıqda etibarlı tərəfdaşa çevrilə bilən tərəflər bu və ya digər əlaqələrin qurulmasına öz töhfəsini verə bilərlər. Digər tərəfdən bu gün xarici iqtisadi əlaqələrin səviyyəsi ölkələrin iqtisadi gücünün və beynəlxalq aləmdəki nüfuzunun əsas göstəricilərindən biri hesab olunur. Bu nüfuz beynəlxalq arenada bir çox problemlərin həllində mühüm rol oynayır.

Qeyd edək ki, xarici iqtisadi əlaqələr, eyni zamanda, çox mühüm humanitar və siyasi əhəmiyyətə də malikdir. Belə ki, ölkələr arasında yalnız sıx siyasi dialoq olduqda birbaşa iqtisadi əlaqələr yaranır. Ona görə də xarici iqtisadi əlaqələr dostluq əlaqələrinin nəticəsi kimi, həm də onun möhkəmləndirilməsinin əsas səbəblərindən biridir. Bu gün beynəlxalq aləmdə bir-biri ilə sıx dostluq əlaqələri olan ölkələrin xarici ticarət dövriyyəsindəki qabarıq rəqəmlər də bunu təsdiq edir. Ona görə də inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən xarici iqtisadi siyasət məhz bu istiqamətdə formalaşdırılır.

Müstəqilliyin ilk illərində Azərbaycanın iqtisadi dəyişiklik və dirçəliş baxımından hələ yolun başında olması, dövlət büdcəsinin mövcud vəziyyətinin daxili ehtiyatlar hesabına respublikanın və onun regionlarının sosial-iqtisadi inkişafının təmin edilməsinə imkan verməməsi iqtisadiyyatında kapitala ehtiyac duyulan ölkələrdə olduğu kimi Azərbaycanda da xarici sərmayəni ölkəyə cəlb etməyi zərurətə çevirmişdi. Bu baxımdan müstəqil milli iqtisadi sistemini formalaşdıran respublikamız üçün xarici iqtisadi əlaqələr sistemində etibarlı tərəfdaşların seçilməsi çox mühüm vəzifə olmuşdur ki, bir sıra dövlətlərlə yanaşı, qardaş Türkiyə Respublikası ilə xarici ticarət-iqtisadi əlaqələr qurmaqla respublikamız bu işin öhdəsindən gəlmişdir. Məqalədə tədqiqatımızın əsas qayəsi Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı ticarət əlaqələrinin müəyyən zaman çərçivəsində dinamikasını öyrənmək, bu ticarət əlaqələrinin regionun tarazlı sosial-iqtisadi inkişafındakı rolunu müəyyənləşdirmək, əməkdaşlıq

sahəsində gələcəkdə atılacaq addımların konturlarını verməkdir (cızmaqdır). Parantez açaraq bir faktı nəzər diqqətinə çatdıraq ki, məqalədə regional təhlil qapalı yox, açıq iqtisadiyyat baxımından həyata keçirilmişdir.

Qeyd edək ki, Naxçıvan-Türkiyə iqtisadi əlaqələrinin təməli ümummilli liderimiz H.Əliyev tərəfindən Naxçıvanın ən ağır dövründə qoyulmuşdur. Türkiyə Respublikası ilə iqtisadi əlaqələr 1990-1993-cü illərdə muxtar respublikanın düşdüyü ağır iqtisadi blokada dövründə yaradılmış, Araz çayı üzərində Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələrini birləşdirən "ÜMİD" körpüsü tikilərək istifadəyə verilmiş, muxtar respublikanın düşdüyü iqtisadi çətinlikləri, blokadanın vurduğu ziyanı aradan qaldırmaq üçün iqtisadi əlaqələr qurulmuşdur. Türkiyə Respublikası ilə müstəqilliyin ilk illərində yaradılan xarici iqtisadi əlaqələr idxal məhsulları üzərində qurulsa da, sonrakı dövrlərdə bu əlaqələr həm idxal, həm də ixrac əməliyyatlarının həyata keçirilməsi istiqamətində davam etdirilməkdə idi. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrində Türkiyə Respublikası daima ön mövqedə dayanmışdır. Belə ki, muxtar respublikanın xarici ticarət dövtiyyəsində ilk müsbət saldonun əldə olunduğu 2009-cu ildə belə (saldo: 4,4 mln. ABŞ dolları) 34 dövlət ilə aparılan xarici ticarət-iqtisadi əlaqələrdə idxalın 65,4%-i, ixracın 4,2%-i Türkiyənin payına düşmüşdür. 2009-cu ildə Naxçıvan-Türkiyə ticarət-iqtisadi əlaqələrində idxalın 15,6%-i dövlət, 76,6%-i özəl sektorun payına düşmüşdür.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş regional inkişaf strategiyasına uyğun olaraq Azərbaycan Respublikasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında iqtisadi sahədə həyata keçirilən tədbirlər bazar mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etməklə və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətə davamlı məhsul istehsal edən müəssisələrin, yeni iş yerlərinin yaradılmasına, regionlararası fərqlərin azaldılmasına, regional tarazlığın təmin edilməsinə və nəticə etibarilə ölkənin iqtisadi qüdrətinin artırılmasına yönəldilmişdir. Belə ki, ötən dövr ərzində (2004-2018-ci illər ərzində) muxtar respublikamızda 1022 müxtəlif təyinatlı istehsal müəssisəsi yaradılmışdır ki, bunlardan 259-u yeyinti sənayesi müəssisəsi, 20-si yüngül sənaye müəssisəsi, 22-si mebel sənayesi müəssisəsi, 10-u metallurgiya sənayesi müəssisəsi, 1-i maşınqayırma sənaye müəssisəsi, 19-u kimya, 64-ü tikinti, 8-i energetika, 2-si mədənçıxarma, 6-sı kağız, karton, poliqrafiya müəssisəsi, 575-i kənd təsərrüfatı təyinatlı məhsul istehsal edən müəssisə və 36-sı xidmət sahəsinin payına düşür. Yerli istehsal müəssisələrinin yaradılması və inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 382 növdə məhsul (126 növü ərzaq, 256 növü qeyri-ərzaq məhsulları) istehsal olunur.

Aparılan təhlil və dünya təcrübəsi göstərir ki, Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrinin inkişafını təmin etmək üçün yerli istehsal müəssisələrinin yaradılması və inkişaf etdirilməsi əsasında istehsal xarakterli əlaqələrin formalaşdırılması olduqca vacibdir. Fikrimizcə, yerli təbii resursların istehsal dövriyyəsinə səmərəli cəlb olunması xarici iqtisadi əlaqələrə təkan verən ən mühüm amil kimi qiymətləndirilməlidir. Bunun üçün, ilk növbədə, qonşu Türkiyə Respublikasından yerli təbii resurslardan səmərəli istifadə etmək məqsədilə investisiya axınına şərait yaratmaq, muxtar respublikaya axıb gələn xarici investisiyalara eyni imkanlar yaratmaq, müştərək (birgə) müəssisələrin işə salınması ilə xarici iqtisadi əlaqələrin daha səmərəli şəkildə formalaşmasına və nəticə etibarilə regionun tarazlı inkişafına nail olmaq olar.

Həyata keçirilməkdə olan regional islahatlarda ölkənin qeyri-neft sahəsinin inkişafı ilə bağlı hədəflənən məqsəd tipli mərhələlər onun iqtisadiyyatının sahə strukturunda çoxşaxəliliyə əsaslanan proseslərin səmərəliliyini artırmışdır. Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində atılan addımlar müasir iqtisadi şəraitdə milli iqtisadi inkişafda özünəməxsus yeri ilə seçilən Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi əhəmiyyətini daha da artırmaqdadır. Ölkənin iqtisadi rayonları üzrə 2004-cü və 2017-ci illəri əhatə edən ümumi məhsul buraxılışı göstəricilərinə (sənaye, tikinti-quraşdırma işləri, kənd təsərrüfatı, ticarət, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə) nəzər yetirdikdə, iqtisadiyyatın əsas sahələri üzrə məhsul istehsalında Naxçıvan Muxtar Respublikasının xüsusi çəkisi 2004-cü ildə 2,1% olmuşdursa, 2017-ci ildə bu göstərici 4,2% olmuşdur. Başqa sözlə desək, əgər 2004-cü ildə Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın əsas sahələri üzrə 264,4 milyon manatlıq məhsul istehsal olunmuşdursa, 2017-ci ildə məhsul istehsalı 13 dəfə artaraq 3439,0 milyon manat həcmində olmuşdur. (cədvəl 1)

Cədvəl 1. Ölkənin iqtisadi rayonları üzrə
2004-cü və 2017-ci illəri əhatə edən ümumi məhsul buraxılışı*, min manatla

| | 2004 | | 2017 | |
|---|---|---|---|---|
| | Məhsul buraxılışı, min manat | Xüsusi çəkisi, faizlə | Məhsul buraxılışı, min manat | Xüsusi çəkisi, faizlə |
| Azərbaycan Respublikası üzrə - cəmi | 12784500,0 | - | 81436100,0 | - |
| Bakı şəhəri | 9533900.7 | 74,5 | 59179724,8 | 72,7 |
| Rayonlar üzrə - cəmi | 3250599.3 | 25,5 | 22256375.2 | 27,3 |

| | | | | |
|---|---|---|---|---|
| Naxçıvan Muxtar Respublikası | 264385.2 | 2,1 | 3438966.7 | 4,2 |
| Abşeron iqtisadi rayonu | 349510.0 | 2,7 | 2294301.9 | 2,8 |
| Gəncə-Qazax iqtisadi rayonu | 574745.0 | 4,5 | 3568614.4 | 4,4 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 217040.9 | 1,7 | 1541089.5 | 1,9 |
| Lənkəran iqtisadi rayonu | 288964.1 | 2,3 | 1871283.9 | 2,3 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 256136.3 | 2,0 | 1611383.7 | 2,0 |
| Aran iqtisadi rayonu | 1089322.5 | 8,5 | 6459199.8 | 7,9 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 86955.7 | 0,7 | 598999.2 | 0,7 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 9046.3 | 0,1 | 73761.1 | 0,1 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 114493.2 | 0,9 | 798774.9 | 1,0 |

*- sənaye, tikinti-quraşdırma işləri, kənd təsərrüfatı, ticarət, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə

Naxçıvan Muxtar Respublikasında ümumi məhsul, yaradılmış istehsal müəssisələri tərəfindən iqtisadiyyata yönəldilən investisiya qoyuluşu və s. kimi göstəricilərin dinamikası və özəl sektorun inkişafı nəticəsində birbaşa olaraq sənaye, kənd təsərrüfatı, tikinti və digər sahələrdə struktur dəyişikliklərinin güclənməsi muxtar respublikanın idxal-ixrac əməliyyatlarının nisbətinə təsir etmişdir. Başqa sözlə desək, aparılan islahatlar nəticəsində bütün sahələrdə olduğu kimi, xarici iqtisadi əlaqələrin həcmi, strukturu və coğrafiyasında da xeyli mütərəqqi dəyişikliklər əmələ gəlmişdir. (cədvəl 2)

Cədvəl 2. Xarici ticarət əlaqələrinin dinamikası, mln. ABŞ dolları

| İllər / Göstəricilər | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ticarət dövriyyəsi | 220,0 | 257,9 | 400,9 | 450,9 | 512,0 | 517,4 | 512,3 | 463,2 | 459,9 | 483,5 |
| O cümlədən: İdxal | 107,8 | 46,2 | 78,3 | 77,4 | 109.6 | 108,8 | 97,9 | 44,1 | 36,6 | 59,2 |
| İxrac | 112,2 | 211,7 | 322,6 | 373,5 | 402,4 | 408,6 | 414,4 | 419,1 | 423,3 | 424,3 |
| Saldo | 4,4 | 165,5 | 244,3 | 296,1 | 292,8 | 299,8 | 316,5 | 375,0 | 386,7 | 365,1 |

Mənbə: statistika.nmr.az

Belə ki, 2018-ci ildə muxtar respublikanın 56 ölkə ilə 483,5 milyon ABŞ dolları həcmində xarici ticarət-iqtisadi əlaqələri qurulmuş, 12 ölkəyə (Türkiyə, İran, Rusiya, Gürcüstan, İraq, Küveyt, Litva, Ukrayna, Belarus, Birləşmiş Ərəb Əmirliyi, Çin, Qırğızıstan) 424,3 milyon ABŞ dolları həcmində məhsul ixrac olunmuşdur ki, burada da xüsusi çəki etibarı ilə Türkiyənin payı 50%-dən yüksəkdir. Parantez açaraq qeyd edək ki, Türkiyə Respublikasının Naxçıvan regionu ilə iqtisadi əlaqələrin intensivləşdirilməsində maraqlı olması çoxsaylı təcrübi məqamlarla təsdiqlənməkdədir. Belə ki, 2016-cı ildə muxtar respublika ilə Türkiyə Respublikası arasında əldə olunmuş razılaşmaya əsasən İğdır vilayətinin 43 adda məhsula (13-ü ərzaq, 30-u qeyri-ərzaq olmaqla) olan tələbatının ödənilməsi məqsədilə 150 milyon ABŞ dolları həcmində qardaş ölkəyə idxal rüsumları ödəmədən məhsul ixrac edilmişdir. Yaddan çıxartmaq olmaz ki, muxtar respublikaya idxal olunan məhsullar üzrə Türkiyə Respublikası təxminən 35%-lik payla ilk yeri tutmaqdadır. Qeyd olunan faktlar Naxçıvanın xarici ticarət-iqtisadi əlaqələrində qardaş Türkiyə Respublikasının ön mövqedə dayanması fikrini bir daha təsdiqləyir.

Naxçıvan Muxtar Respublikasının yerləşdiyi əlverişli coğrafi mövqe, başqa sözlə desək, qardaş Türkiyə Respublikası ilə qonşu olması daxili və xarici yükdaşımalarda, məhsulların nəqliyyat sahələri arasında bölüşdürülməsində ən mühüm amillərdən biri hesab edilir. Araşdırmalar və bir sıra tədqiqatların nəticəsi göstərir ki, Naxçıvan Muxtar Respublikası Şərq və Avropa dəhlizində yerləşdiyinə görə tranzit xidmət mərkəzlərinin yaradılması üçün əhəmiyyətlidir. Məhz bazarın bu tipli sahələri Naxçıvan Muxtar Respublikasında qloballaşan dünya imkanlarının istifadəsi üçün əlverişli coğrafi mühitdir. Bu nöqteyi-nəzərdən Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkənin əsas ərazi hissəsindən təcrid olunmuş Naxçıvan Muxtar Respublikasını blokadadan çıxartmaq üçün "Bakı-Tbilisi-Qars" dəmiryolu xəttinin davamı olaraq "Qars-Naxçıvan" dəmiryolu layihəsinin reallaşdırılmasına xüsusi diqqət yetirilməlidir.

Bu problemin həlli bir tərəfdən Naxçıvan Muxtar Respublikasının mövcud blokadadan çıxmasına, muxtar respublika iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına, digər tərəfdən regionun tarazlaşdırılmış sosial-iqtisadi inkişafına imkan verəcəkdir. Naxçıvan Muxtar Respublikasının mövcud blokadadan çıxarılması iki yolla – Azərbaycanın Astara şəhərindən İranın Rəşt şəhərinə, Türkiyənin Qars şəhərindən Naxçıvan Muxtar Respublikasına dəmiryolu xətti çəkilişi ilə mümkündür. Burada hər iki variantın üstün cəhətləri yetərincədir və Azərbaycan üçün bu marşrutlar mühüm əhəmiyyət daşıyır. Əlbəttə hər iki marşrutun, eyni zamanda, mövcudluğu daha səmərəlidir. Lakin bu variantlardan bu gün həyata keçirilməsi daha real olanı Qarsdan Naxçıvana çəkilməsi planlaşdırılan dəmiryolu xəttidir. İlkin əsaslandırmalara görə Qarsdan Naxçıvana dəmiryolu xətti Türkiyə-Azərbaycan sərhədinə kimi təxminən 230 km-dir. Layihənin bu hissədəki dəyəri 1 milyard dollar hesablanır. Bu marşrut Azərbaycan üçün xüsusi önəm daşıdığı üçün Azərbaycan Türkiyəyə bu istiqamətdə münasib kredit xətti aça bilər. Naxçıvan hissəsində isə buradakı Sədərək məntəqəsindən Türkiyə-Azərbaycan sərhədinə kimi 10 km yolun inşası nəzərdə tutulur. Bütün bunlarla yanaşı, Naxçıvan ərazisindəki mövcud dəmiryolunda təxmini 230 km xəttin rekonstruksiyasına və lokomotiv-vaqon parkının təzələnməsinə ehtiyac vardır ki, bu da təqribi hesablamalara görə ümumilikdə 700 milyon dollar vəsait tələb edir.

Tələb olunan vəsaitin həcminin böyüklüyünə baxmayaraq "Bakı-Tbilisi-Qars" dəmiryolu xəttinin məntiqi nəticəsi olaraq "Qars-Naxçıvan" dəmiryolu xəttinin reallaşması Naxçıvan Muxtar Respublikasına dəmiryolu vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə birbaşa çıxış əldə edərək tranzit daşımaların mühüm mərkəzinə çevrilməsinə səbəb olacaqdır. Layihənin həyata keçirilməsi ilə Naxçıvan Muxtar Respublikası Londondan Şanxayadək açılmış olan Şərq-Qərb koridorunun bir nöqtəsinə çevriləcəkdir. Bu da muxtar respublikanın ixrac potensialının yüksəlməsinə, yeni yaradılan sənaye sahələri mallarının, kənd təsərrüfatı məhsullarının dünya bazarlarına çıxarılmasına, regionun tarazlı inkişafına imkan yaradır. "Bakı-Tbilisi-Qars" dəmiryolu xəttinin məntiqi nəticəsi olaraq "Qars-Naxçıvan" dəmiryolu xəttinin çəkilməsi muxtar respublikada tənəzzülə uğramış dəmiryolu nəqliyyatının canlanması, yeni iş yerlərinin açılması, işsizlik probleminin həll olunması, əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi, nəticə etibarilə maddi rifah səviyyəsinin yaxşılaşmasına imkan verəcəkdir.

Qeyd edək ki, "Qars-Naxçıvan" dəmiryolu xətti layihəsinin reallaşmasında Azərbaycanın mənfəətləri olduqca əvəzsizdir. Burada, ilk növbədə, Sovetlər İttifaqının dağılması və Ermənistanın təcavüzü nəticəsində itirilən və sərtləşən nəqliyyat kommunikasiyalarına alternativlərin təmin edilməsi, qardaş Türkiyə ilə genişlənən iqtisadi əlaqələrin möhkəmləndirilməsi, çox strateji əhəmiyyət kəsb edən Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvan Muxtar Respublikası ilə yeni və əlverişli bağlantıya nail olunması strategiyası dayanır.

Göründüyü kimi, Naxçıvan-Türkiyə xarici iqtisadi əlaqələri müasir idarəçilik təcrübəsinin qazanılmasına, yerli kadrların hazırlanmasına, daxili kapital qoyuluşu çatışmazlıqlarının aradan qaldırılmasına, xarici borc yaranmadan texnika və avadanlıqların alınmasına, əmtəə və xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılmasına, texniki səviyyələrinin yüksəldilməsinə, məşğulluğun artmasına və büdcə gəlirlərinin çoxalmasına səbəb olmuşdur.

Son olaraq qeyd edək ki, müasir şəraitdə muxtar respublika iqtisadiyyatının tarazlı inkişafını təmin etmək üçün, ərazinin təbii sərvətlərini istehsal dövriyyəsinə cəlb etməklə istehsalın çoxsahəli inkişafına nail olmaq üçün Türkiyə dövlətindən birbaşa xarici investisiya axınına şərait yaratmaq lazımdır. Naxçıvan-Türkiyə xarici iqtisadi əlaqələri və regional tarazlı inkişaf arasında sıx qarşılıqlı əlaqə və asılılığın olduğunu birbaşa xarici investisiyalar baxımından nəzərə alaraq, fikrimizcə, muxtar respublikanın bəzi bölgələrində regional fərqliliyin səbəb olduğu problemləri həll etmək üçün iki dövlətin şirkətlərinin qarşılıqlı əməkdaşlığı formalaşdırılmalı, bu əməkdaşlığın səmərəsi əsaslandırılmalı, regionu hərəkət gətirəcək birgə investisiyalı infrastruktur layihələri reallaşdırılmalı, regionların tarazlı inkişafı baxımından investisiyaların proporsional bölüşdürülməsi istiqamətində səylər artırılmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər. A.K.Ələsgərovun ümumi redaktəsi ilə. Bakı, 2015, 332 səh.
2. "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. 29.12. 2012.
3. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, Sabah, 2008, 452 s.
4. Qasımov E.E. Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının ərazi təşkili və inkişafının coğrafiyası. Bakı, «Təhsil», 2011, 192 səh.
5. Natiq Sabiroğlu. Qloballaşma və xarici investisiyalar. Bakı, 2006, 287 səh.
6. Şirəliyev A.İ., Mahmudov C.İ. İqtisadi artım və sosial tərəqqi. Naxçıvan: İdeya, 2012, 146 s.
7. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 428s.
8. http://statistika.nmr.az/index.php


## ABSTRACT


**Jeyhun Mahmudov**


**THE ROLE OF NAKHVIVAN-TURKEY ECONOMIC RELATIONS IN BALANCED DEVELOPMENT OF REGION**


In the article the first stage of Nakhchivan-Turkey economic relations established by national leader Heydar Aliyev in 1990-1993 were examined, the dynamics of these economic relations within a certain period of time were analyzed, The role of Nakhchivan-Turkey trade-economic relations in balanced socio-economic development of the region had been determined.

The contours of the steps that will be taken in future economic cooperation between the Nakhchivan Autonomous Republic and the Republic of Turkey were given and some suggestions were made as a result of the research which carried out in the scientific article.


## РЕЗЮМЕ


**Джейхун Махмудов**


**РОЛЬ НАХЧЫВАНО-ТУРЕЦКИХ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ В СБАЛАНСИРОВАННОМ РАЗВИТИИ РЕГИОНА**


В статье рассмотрена первичная стадия Нахчывано-Турецких экономических отношений, заложенных с нашей стороны общенациональным лидером Гейдаром Алиевым в 1990-1993-их годах, проанализирована динамика этих экономических отношений в заданном временном промежутке и определена роль Нахчывано-Турецких торгово-экономических отношений в сбалансированном социально-экономическом развитии региона.

Как логическое заключение исследований в научной статье показаны возможные контуры подлежащих предпринятию в перспективе шагов в сфере экономического сотрудничества между Нахчыванской Автономной Республикой и Турецким Государством.

**ŞAHİN ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN- TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİNDƏ NƏQLİYYAT SEKTORUNUN ROLU

**Açar sözlər:** *Naxçıvan, Türkiyə, əlaqə, nəqliyyat, iqtisadiyyat*
**Key words:** *Nakhchivan, Turkey, relation, transport, economy*
**Ключевые слова:** *Нахчыван, Турция, отношения, транспорт, экономика*

Məqalədə Türkiyə və Naxçıvan əlaqələrində nəqliyyat sektorunun rolu və onun iqtisadiyyata təsiri araşdırılmışdır. Bu əlaqələrin inkişafında Sədərək-Dilucu körpüsünü xüsusilə qeyd etmək yerinə düşər. Bu körpünün açılışında ulu öndər Heydər Əliyevin önəmli rolu olmuşdur. Bu dövrdən sonra iqtisadi əlaqələr getdikcə yüksələn xətlə inkişaf etmişdir. Bu əlaqələrdə boru kəməri, hava və avtomobil nəqliyyatları mühüm yer tutmuşdur. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, Türkiyə-Azərbaycan iqtisadi əlaqələri yüksələn xətlə inkişaf edir və bu da gələcəkdə Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin yerləşdikləri geosiyasi məkanda strateji forma almasına öz müsbət təsirini göstərəcəkdir. Bu əlaqələrə Bakı-Tbilisi-Kars dəmir yolunu qatsaq çok önəmli işlərin görüləcəyinə şahid olacağıq. Hətda Karsdan Naxçıvana gələcəkdə çəkiləcək dəmir yolu hər iki bölgə xalqının sosial rifahının yüksəlişinə təkan verəcəkdir.

***Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: "Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Bu, böyük dəyərdir, böyük nemətdir. Biz bu dəyəri qorumalıyıq və möhkəmləndirməliyik. Bizim dilimiz də, tariximiz də, kökümüz də birdir. Bizim siyasətimizin təməlində xalqlarımızın iradəsi dayanır".***

Naxçıvanın Qərblə Şərqi birləşdirən Böyük İpək yolunun üzərində yerləşməsi onu həmişə fatehlərin, qüdrətli dövlətlərin siyasi maraqlarının kəsişdiyi və toqquşduğu ünvana çevirib. Zorla siyasiləşdirilmiş Naxçıvan məsələsi yalnız 1921-ci ildə imzalanmış iki beynəlxalq sənəddə -Moskva və Qars müqavilələrində öz əksini tapa bilib. Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürk də 1918-1921-ci illərdə Naxçıvanın yadelli düşmənlərdən qorunmasında böyük uzaqgörənlik nümunəsi göstərib. "Naxçıvan türk dünyasının qapısıdır" - deyən böyük öndər öz ölkəsinin çətin durumda, erməni daşnakları ilə mübarizəyə kömək məqsədilə Kazım Qarabəkir paşanın rəhbərliyi altında Naxçıvana böyük ordu göndərib.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanla Türkiyə arasında əlaqələrə daim üstünlük vermiş, bu əlaqələri "bir millətin iki dövləti" səviyyəsinə qaldıraraq demişdir: "Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir".

Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət olan Türkiyənin ölkəmizlə ikitərəfli iqtisadi əlaqələri möhkəm hüquqi zəmin üzərində qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Bu səfərin nəticələri muxtar respublika üçün uğurlu olmuş, Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzünə qarşı çıxaraq beynəlxalq Qars müqaviləsinə əsasən Türkiyə Respublikasının Naxçıvanın muxtariyyətinin qarantı olması barədə bəyanat vermişdir. Bundan başqa, 18 noyabr 1991-ci ildə Türkiyə Respublikasının Nəqliyyat Nazirliyinin dəmir yolu, liman və aeroport tikintisi üzrə departamentinin baş direktoru Aytekin Akgünün başçılıq etdiyi nümayəndə heyəti Naxçıvana səfərə gəldi. Səfər zamanı nümayəndə heyəti ilə Naxçıvan Muxtar Respublikası hökuməti arasında Araz çayı üzərində körpünün tikilərək istifadəyə verilməsi, həmçinin müvafiq keçid məntəqəsinin yaradılması haqqında razılaşma əldə edilmişdir. Belə ki, 1992-ci ilin 28 mayında Sədərək-Dilucu körpüsü istifadəyə verilir. Həmin gün iqtisadi böhran içərisində yaşayan region bayram əhval-ruhiyyəsi yaşayır. Muxtar respublikanın ictimai-iqtisadi həyatında mühüm mərhələ olan, iki qardaş xalqın uzun illər qovuşmaq arzusunu yerinə yetirən "Ümid" körpüsünün istifadəyə verilməsi böyük təntənə ilə qeyd olunur. Körpünün açılış mərasimində, "bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biri ilə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir, bu coşğunluğu anlaya bilmək lazımdır. Bu, bir birlik, milli coşğunluqdur" - deyən S.Dəmirəl onu da əlavə edir ki, "Qardaşlıq, dostluq bundan sonra daha da sıx olacaqdır. Türkiyə ilə Azərbaycan, ona bağlı Naxçıvan arasında əlaqələr genişlənəcək, adamlar bir-birləri ilə

yaxınlaşacaqlar". 2008-ci ilin iyun ayından etibarən isə Sədərək-Dilucu sərhəd nəzarət məntəqəsi 24 saatlıq iş rejimi ilə fəaliyyətini davam etdirir. Prezident İlham Əliyev də muxtar respublikaya səfəri çərçivəsində keçirdiyi görüşlərin birində bu amili xüsusi vurğulayaraq deyib ki, "Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır. Türkiyə ilə yaradılan iqtisadi əlaqələr qardaş dövlətin muxtar respublikaya maliyyə yardımı bölgənin sosial-iqtisadi vəziyyətinə öz müsbət təsirini göstərdi (1). Tarixi "İpək Yolu"nun bərpası, TASİS və TRASEKA proqramlarının həyata keçirilməsi üçün respublikanın nəqliyyat sistemi mühüm əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, Avrasiya ölkələri ilə Azərbaycanın iqtisadi əlaqələri getdikcə genişlənməkdədir. Bu ölkələr içərisində Türkiyənin xüsusi yeri vardır. Azərbaycanın Türkiyə ilə qonşuluq mövqeyində olması və iqtisadi əlaqələrin səmərəli həyata keçirilməsi üçün bir neçə istiqamətlərdə nəqliyyat sistemlərinin fəaliyyəti mühüm əhəmiyyət kəsb edir (Musayev, 2013: 18).

Türkiyənin keçmiş xarici siyasət idarəsinin başçısı Əhməd Davudoğlu belə bir amili də xüsusi vurğulayıb ki, "Türkiyə-Azərbaycan əlaqələrinin ən çox inkişaf etdiyi bölgələrdən biri Naxçıvandır. Naxçıvanın təhlükəsizliyi və rifahı bizim təhlükəsizliyimiz və rifahımızdır." Türkiyəyə səfərə dəvətə görə təşəkkürünü bildirən Ali Məclisin Sədri deyib ki, bu gün aparılan müzakirələr onu deməyə əsas verir ki, tarixi, adəti, dili, dini ilə bir-birinə bağlı olan Azərbaycan-Türkiyə əlaqələri, habelə Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın Türkiyə ilə əməkdaşlığı bundan sonra da davam edəcək və daha möhkəm təməllər üzərində inkişaf edəcəkdir (1). Azərbaycanla Türkiyə arasında reallaşdırılan nəhəng neft-qaz layihələrinin, nəqliyyat-kommunikasiya əlaqələrinin əsası məhz bu körpünün açılışı ilə qoyulmuşdur.

Bu inkişaf hava nəqliyyatı sahəsində də özünü gostərir. Bununla bağlı Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri olmuş Hülusi Kılıç mətbuat nümayəndələrinin suallarını cavablandıraraq demişdir ki, Naxçıvanla Türkiyə arasında "Ümid" körpüsü var. İndi isə hava körpüsü quruldu. İstanbul-Naxçıvan-İstanbul reysinin əhəmiyyəti çox böyükdür. Bu reyslər Naxçıvanı dünya ilə birləşdirəcək. Arzu edən hər kəs İstanbul üzərindən dünyanın hər yerinə gedə biləcək. Beləliklə, Naxçıvan həm də dünyaya açılacaqdır. Uçuşların qiyməti çox aşağıdır. Məqsəd Naxçıvanın inkişafına vasitəçi olmaq və naxçıvanlıların ucuz qiymətə dünyanın istənilən nöqtəsinə getmələrinə şərait yaratmaqdır. İstanbul-Naxçıvan-İstanbul reysinin açılması hər iki qardaş və dost ölkənin əlaqələri baxımından da çox əhəmiyyətlidir. Məlum olduğu kimi, bu iki dövləti bir-birinə bağlayan xüsusi əlaqələr var. Naxçıvanın isə bizim üçün əhəmiyyəti çox böyükdür. Çünki Naxçıvan türk dünyasının qapısıdır. O bir türk yurdudur. Baxmayaraq ki, bizi bir-birimizə bağlayan sərhədlərin uzunluğu kəmiyyət etibarilə çox kiçikdir, onun böyük anlamı var. Naxçıvan strateji bir bölgədə yerləşir. Bu hava xəttinin açılması iqtisadi, ticarət və mədəni əlaqələrimizin inkişaf etdirilməsində, turizm potensialından daha səmərəli istifadə olunmasında öz köməyini göstərəcək. Bundan başqa, İstanbul hava limanlarının tranzit imkanlarından da istifadə edilməsinə şərait yaradacaq. Bütün bunlar Naxçıvanın inkişafına hesablanmışdır. O nə qədər çox inkişaf etsə, biz bir o qədər çox sevinərik. Naxçıvanla İstanbul arasında gerçəkləşən bu reyslərin xalqımıza, dövlətimizə xeyirli və uğurlu olmasını diləyirəm.

Belə ki, Naxçıvan ilə dünyanın iri şəhərlərindən olan İstanbul arasında hava əlaqələri yaradılmış, Naxçıvan şəhərində Türk Hava Yollarının "Anadolu Jet" şirkəti ilə Naxçıvan Beynəlxalq Hava Limanı arasında İstanbul-Naxçıvan-İstanbul reysinin açılması haqqında müqavilə imzalanmışdır. Həmin müqavələyə əsasən "Anadolu Jet" şirkətinə məxsus təyyarə Naxçıvan Beynəlxalq Hava Limanına enmişdir.

Naxçıvan Muxtar Respublikası və Türkiyə arasındakı uçuşlar "Boeinq" tipli təyyarələrlə həyata keçirilir. Uçuşlar həftənin çərşənbə, cümə və bazar günləri baş tutmuşdur. Biletlərin qiymətləri isə ikitərəfli istiqamətə 139, birtərəfli istiqamətə isə 70 avrodur.

Nəqliyyat vasitələrindən boru nəqliyyatını da xüsusi olaraq qeyd etmək olar. Onu qeyd edim ki, belə nəqliyyat lahiyyələrindən biri Bakı-Tbilisi-Ərzurum qaz layihəsidir. Bu lahiyyə Naxçıvan üçün faydalı olacaq. Həmin qaz kəmərindən Naxçıvana da qaz veriləcəkdir. Bütün bunlar isə həm hər iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə, həm də Naxçıvanın inkişafına töhfələr verəcəkdir, iqtisadiyyatının yüksəlməsinə səbəb olacaqdır (3).

16-17 iyul 2010-cu il tarixlərdə Türkiyə Respublikasının o zamankı enerji və təbii ehtiyatlar naziri Taner Yıldızın başçılıq etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. Nümayəndə heyətinin tərkibində Türkiyənin BOTAŞ şirkətinin İdarə Heyətinin sədri də yer almışdır. Səfər çərçivəsində nümayəndələr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qəbul edilmişlər. Səfər zamanı 17 iyul 2010-cu il tarixdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Türkiyənin BOTAŞ şirkəti arasında Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz boru kəmərinin çəkilməsi barədə Niyyət Protokolu imzalanmışdır. Ali Məclisin Sədri bildirmişdir ki, qardaş Türkiyənin iştirakı ilə Naxçıvanda reallaşdırılan kommunikasiya və enerji layihələrindən sonra artıq yeni bir layihə də öz həllini tapır. Regionda daha bir enerji marşrutunun - İqdır -Naxçıvan qaz kəmərinin çəkilməsi qarşılıqlı

əlaqələrimizi daha da genişləndirəcək və qaz xəttinin imkanlarından hər iki ölkə səmərəli istifadə etməyə çalışacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Səfər zamanı Ali Məclisin Sədri Türkiyə Respublikasının Prezidenti, Baş naziri, xarici işlər naziri və Türk Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşlər keçirmişdir. Bu görüşlərin nəticəsi olaraq 2010-cu il iyulun 17-də Naxçıvan şəhərində Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz kəmərinin tikintisi barədə niyyət protokolu imzalanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycanla Türkiyənin əlaqələrinin sarsılmaz olduğunu bildirərək demişdir: "İndi dünya birliyində Türkiyə-Azərbaycan əlaqələrini bir-birindən ayırmaq qeyri-mümkündür. Artıq beynəlxalq təşkilatlarda da bilirlər ki, Türkiyənin mənafeyi olan məsələdə Azərbaycanın, Azərbaycanın mənafeyi olan məsələdə isə Türkiyənin səsi vardır. Türkiyə ilə Azərbaycan dünyada yeganə ölkələrdirlər ki, onları iqtisadi və siyasi maraqlardan daha çox soykök, milli və ortaq dəyərlər birləşdirir" (10).

Nəqliyyat sektorundan bəhs edərkən Azərbaycan və Türkiyə arasında əməkdaşlığın vacib elementlərindən biri Azərbaycan, Gürcüstan və Türkiyə arasında daha sıx əməkdaşlıq üçün əsas yaradan Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin tikintisi layihələridir. Azərbaycan-Türkiyə arasında qarşılıqlı iqtisadi əlaqələrin inkişaf etdirilməsi nəqliyyat əlaqələrinin genişləndirilməsindən xeyli dərəcədə asılıdır. Hal-hazırda iki ölkə arasında mövcud olan hava və avtomobil nəqliyyatı əlaqələri bahalılıq səbəbindən hər iki tərəfin potensial imkanlarından istifadə edilməsində müəyyən mənada əngəl kimi dəyərləndirilə bilər. Qars-Tbilisi dəmir yolu xəttinin layihəsinin gerçəkləşdirilməsi bu istiqamətdə çox mühüm addım ola bilər. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi icra olunur. Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı layihəsi barədə danışıqlara hələ 26-29 iyul 1993-cü ildə Ankara şəhərində keçirilmiş Türkiyə-Gürcüstan arasında Qarışıq Nəqliyyat Komissiyasının iclasında başlanılmışdır. 20-21 iyul 2002-ci ildə Türkiyənin İstanbul şəhərində Türkiyə-Gürcüstan nəqliyyat nazirlərinin iclasında bu layihənin həyata keçirilməsi barədə imzalanmış protokolda layihə üzrə hazırlıq işlərinin görülməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev 14 iyun 2004-cü ildə Gürcüstana rəsmi səfəri zamanı Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə keçirdiyi mətbuat konfransında Gürcüstandan Türkiyəyə dəmir yolu tikintisinin layihəsini dəstəklədiyini söyləmiş və Azərbaycanın da bu layihədə iştiraka hazır olduğunu bildirmişdir. Azərbaycanın Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə xidmət edən Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı layihəsinin Azərbaycan üçün siyasi və iqtisadi əhəmiyyətini nəzərə alaraq, layihə üzrə maliyyə və digər təşkilati məsələlərin həll edilməsi və aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsinin təmin edilməsi məqsədi ilə Sərəncama əsasən, Azərbaycan Respublikasının keçmiş nəqliyyat naziri Ziya Məmmədovun sədrliyi ilə komissiya yaradılmışdır (9). Onu da qeyd etmək lazımdır ki, Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısının uzunluğu 98 kilometrdir. Bunun 68 kilometri Türkiyə, 30 kilometri isə Gürcüstan ərazisində tikiləcək. İlkin qiymətləndirmə göstərib ki, yolun tikilməsi üçün 250 milyon ABŞ dolları lazım olacaq. Bunun da 200 milyon ABŞ dolları Türkiyə sahəsinə, 50 milyon ABŞ dolları Gürcüstan sahəsinə yönəldiləcək. Lakin layihənin toplam dəyəri 400 milyon ABŞ dolları həcmində dəyərləndirilir. Layihənin texniki-iqtisadi əsaslandırılmasını Türkiyə tərəfi öz üzərinə götürüb və bunun üçün 1 milyon dollar vəsait ayırıb. Yeni yolun uzunluğu köhnə yolla müqayisədə xeyli qısadır. Bu da Bakı-Tbilisi-Qars layihəsinin iqtisadi cəhətdən səmərəli olduğunu bir daha sübut edir. Bu layihə Naxçıvan üçün də böyük əhəmiyyət daşıyır (Məhərrəmov, Cəbrayılov, 2011: 8). Layihədə Naxçıvana Qarsdan dəmiryolu xəttinin çəkilməsi nəzərdə tutulmuşdur. Naxçıvanın Türkiyə ilə doğrudan dəmir yol bağlantısı olacaqdır (Resullu, Aslanlı, 2011: 95). Bu dəmir yolu xətti də Naxçıvanın dünyaya açılması deməkdir. Bunlarla yanaşı, yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir. Bütün bu tədbirlərin nəticəsində bu gün bölgədə inşa edilən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi nəticəsində yeni "Dəmir İpək yolu"nun bərpası mümkün olacaqdır. Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirəcək, eyni zamanda, Avropanı Asiya ilə birləşdirəcəkdir. Bu yola Naxçıvanında birləşdirilməsi çox mühüm atılmış bir addım olacaqdır. Beləliklə, iqtisadi səmərə baxımından bu yolun çox böyük önəmi olacaqdır. Ümid edirik ki, bu yolun tikintisi (Nahçıvan Kars demir yolu nezerde tutulur-**Ş.Ə**) yaxın zamanlarda başa çatacaq və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr də bu imkanlardan əlbəttə ki, istifadə edəcəklər. Qarsdan Naxçıvana dəmir yolu xəttinin çəkilməsi artıq Muxtar respublikanın blokadadan çıxması anlamına gəlir. Beləliklə, Naxçıvan əhalisinin Bakı ilə dəmir yolu vasitəsilə əlaqəsi təmin olunacaq. Naxçıvanda istehsal olunan travertin, mərmər, gips, Badamlı və Sirab kimi məşhur təbii mineral sular, duz, müxtəlif növ kənd təsərrüfatı məhsullarının sutka yarıma paytaxt Bakıya daşınması mümkün olacaq. Və əks istiqamətdə Bakıdan Naxçıvana lazımi yüklər göndərilə biləcək. Təbii ki, bu da bizi bir millət,bir ölkə kimi daha güclü edəcək.

Nəqliyyat-kommunikasiya sahəsindəki əlaqələr də getdikcə genişləndirilir. Naxçıvan Muxtar Respublikasından Türkiyəyə Naxçıvan-İstanbul-Naxçıvan, Naxçıvan-İqdır-Naxçıvan reysi ilə gündəlik avtobus marşrutları işləyir.

Türkiyə Respublikasının "Metro Turizm Səyahət Təşkilatı və TİC A.Ş." nəqliyyat şirkəti ilə əldə olunmuş razılığa əsasən Naxçıvan Muxtar Respublikasına yeni beynəlxalq avtobus marşrutları açılıb. "Metro Turizm Səyahət Təşkilatı və TİC A.Ş." nəqliyyat şirkətinə aid Culfa-İstanbul marşrutu üzrə hərəkət edən ilk avtobus 2015-ci il martın 11-də Naxçıvan Muxtar Respublikasından yola salınıb. Marşrut muxtar respublika ərazisində Şərur, Naxçıvan, Culfa Türkiyə Respublikası ərazisində isə Ankara, İstanbul, İzmir və Ərzurum xətti üzrə hərəkət edib. Müntəzəm olaraq fəaliyyət göstərəcək bu marşrut üzrə yüksək texniki göstəricilərə malik, uzaq məsafələrə sərnişin daşınması üçün nəzərdə tutulmuş "Temsa", "Travego", "Safir" və "Setra" markalı avtobuslar işləyəcək idi. Ancaq onu da qeyd edim ki, "Metro Turizm Səyahət Təşkilatı və TİC A.Ş." nəqliyyat şirkətinə aid olan avtobuslar 2015-ci ilin sonlarına yaxın öz fəaliyyətlərini dayandırıb (10).

Naxçıvan Muxtar Respublikasından ixrac edilən malların alıcıları olan dövlətlərdən biri də Türkiyə Respublikasıdır. İdxal edilən məhsullara gəlincə isə, bunun 31 faizi Türkiyə Respublikasının payına düşür. Azərbaycan–Türkiyə iqtisadi münasibətləri həm ümumi həcmi, həm də əməkdaşlıq sahələri üzrə inkişaf edir və genişlənir. Bu gün iki qardaş ölkənin strateji tərəfdaşlığı bütövlükdə Cənubi Qafqaz regionunda sülh və sabitlik, habelə iqtisadi tərəqqi üçün əsaslı zəmin rolunu oynayır. Azərbaycanın beynəlxalq əməkdaşlığında Türkiyə daim aparıcı mövqeyə malikdir. Xarici iqtisadi siyasətdə qardaş dövlətlə əlaqələrin genişləndirilməsi üstün istiqamətdir (Hacıyeva, 2012: 124). Başqa ölkələrlə olduğuna nisbətən Türkiyənin Azərbaycanla əlaqələri daha aktivdir. Qədim tarixi əlaqələrə malik olan hər iki ölkənin iqtisadi əlaqələrinin inkişafına təsir göstərən bir sıra mühüm amillər vardır:

1. Bakı-Naxçıvan-Türkiyə birbaşa iqtisadi əlaqələrin inkişafı üçün əlverişli nəqliyyat sisteminə malik olması.
2. Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə ölkələrarası əlverişli nəqliyyat kommunikasiyalarının olması.

Sonda Azərbaycan – Türkiyə iqtisadi münasibətlərini, bu əlaqələrin yaradılması və inkisafında əvəzsiz xidmətləri olmus ulu öndər Heydər Əliyevin iki ölkə arasındakı iqtisadi əlaqələri qiymətləndirərkən dediyi bu sözlərə diqqət çəkmək istərdim: "Bunlar təkcə iqtisadi məsələ deyildir. Bu əlaqələr bizim ölkələrimizi polad tellərlə bir-birinə baglayır. Bu bizim təhlükəsizliyimizi təmin edir. Bu, bizim daim bir yerdə oldugumuzu göstərir".

**Nəticə**

İkitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün iqtisadi sahəyə xüsusi diqqət yetirilməlidir. Bu gün ölkələr arasında iqtisadi əməkdaşlığın yüksək səviyyədə idarə olunmasına ehtiyac duyulur. Xüsusilə hər iki ölkədəki kiçik və orta sahibkarlar arasında daha yaxın bir əməkdaşlığın yaradılmasına ehtiyac getdikcə artır. Nəqliyyat sektorunun inkişafı həm dövlətlər arasında möhkəm bağ yaradır, həm də insanların sosial rifahlarının yaxşılaşmasına köməklik göstərir. Bununla yanaşı hər iki ölkənin bölgədəki ekonomik nüfuzuna güc qatmışdır. 2008-ci il iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın (indiki Cumurbaşkanı) eyni vaxtda Naxçıvana səfəri böyük siyasi məna daşıyıb. Azərbaycan-Türkiyə münasibətlərinin daha da möhkəmlənməsini regional əməkdaşlığa böyük töhfə olduğunu bildirən Prezident "Bu gün Türkiyə-Azərbaycan əlaqələri nəinki ikitərəfli münasibətlərin inkişafı üçün vacibdir, həmçinin bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin təmin edilməsi üçün sabitləşdirici rol oynayır. Bizim dünyadakı rolumuz artır və bir-birimizə dəstək verməyimiz ölkələrimizin önəmini daha da artırır". Naxçıvandan Karsa Dəmir yolunun bitiş tarixi açıqlandı -2021-ci il. Bu dəmir ipək yolunun da bitişi sayəsində Naxçıvan ve Türkiye ticari, siyasi ve kültürəl əlaqələri güclənəcəkdir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti. 2010. 15 may.
2. Cahangirli C (2006). Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri. Bakı**,** Elm,
3. Əhmədov Nazim (2012). Naxçıvanın xarici ticarət-iqtisadi əlaqələri yüksələn xətlə inkişaf edir. Xalq qəzeti. 18 nisan
4. Hacıyeva Şəhla (2012). Türkiyə-Azərbaycan iqtisadi əlaqələri (1990-2010) // Bakı Universitetinin Xəbərləri. №2, Bakı.
5. Məhərrəmov A. Cəbrayılov İ. Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialının gücləndirilməsi istiqamətində görülən tədbirlərin icmali təhlili // Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, Bakı.
6. Musayev C (2013). **A**zərbaycan və Türkiyə respublikaları arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi və inkişaf istiqamətləri. Tez işi, Naxçıvan.

7. Resullu R. Aslanlı K (2011). Azerbaycan-Türkiye Ekonomik İlişkileri: Temel Eğilimler ve Başarılar //Azerbaycan Türkiye İlişkileri Son 20 Yılda: Başarılar ve Olanaklar (Makaleler mecmusu), SAM, Bakı.
8. Oğan Sinan (2005). Bağımsızlığın onuncu yılında Azerbaycan Ekonomisi ve Türkiye ile ekonomik ilişkileri. İstanbul.
9. Turan İlter. Bakü-Tiflis-Kars demiryolu, İpek Yolu'nun Türkiye'den geçmesini sağlayacak. https://www.dunya.com/kose-yazisi/baku-tiflis-kars-demiryolu-ipek-yolunun-turkiyeden geçmesini-saglayacak/389742.
10. http://arxiv.az/az/azertag.az
11. http://serqqapisi.az/index.php/ictimai-siaysi/8307

**ABSTRACT**

**Shahin Aliyev**

**THE ROLE OF TRANSPORT SECTOR IN THE RELATIONS OF TURKEY-NAKHCHIVAN**

In the article the role of transport sector in Turkey-Nakhchivan relations and its impact on economy have been investigated. It would be better to note the bridge of Sadarak-Diluju, especially in the development of these relations. Great leader Heydar Aliyev had an important contribution to the opening ceremony of this bridge. After this period, the economic relations developed in a rising line gradually. Pipelines, air and automobile transportations took a significant place in these relations. As a result of researches, it became known that in the future Turkey-Azerbaijan economic relations develop in a rising line and this will have a positive impact on strategic shaping in geopolitical place where the Republic of Azerbaijan and the Republic of Turkey are located. If we add here Baku-Tbilisi-Kars railway, we will witness the implementation of very important work. Even the railway which will be made from Kars to Nakhchivan will trigger the upsurge of social welfare of both local people.

**HƏSƏN MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
hasan_1961@mail.ru

## AZƏRBAYCANDA BEYNƏLXALQ İNFRASTRUKTURUN İNKİŞAFINA TÜRKİYƏ İLƏ MÜNASİBƏTLƏRİN TƏSİRİ

**Açar sözlər:** *infrastruktur, beynəlxalq infrastruktur, beynəlxalq münasibətlər, iqtisadi inteqrasiya, iqtisadi münasibətlər,təkamül.*

**Key words:** *infrastructure, international infrastructure, international relations, economic integration, economic relations, evolution.*

**Ключевые слова:** *инфраструктура, международная инфраструктура, международные отношения, экономическая интеграция, экономические отношения, эволюция.*

Meqoiqtisadi səviyyədə formalaşaraq, beynəlxalq iqtisadi inteqrasiyanın inkişafına xidmət edən Milli iqtisadiyyatın struktur vahidi beynəlxalq infrastruktur adlanır. Buraya beynəlxalq yükdaşımalar, beynəlxalq nəqliyyat(hava, su və quru) yolları və s. aid edilir. Müstəqillikdən əvvəl ölkəmizdə şərait olmadığından digər infrastruktur sahələrə nisbətən beynəlxalq infrastrukturlar zəif inkişaf etmişdir. Lakin qeyd etmək lazımdır ki, müstəqillik əldə edildikdən sonra iqtisadi inteqrasiya prosesləri, ölkələr arası iqtisadi əlaqələr günü-gündən inkişaf etdiyindən, dünyada gedən qlobal dəyişikliklikləر hesabına beynəlxalq infrastrukturlar da tədricən inkişaf etməyə başlamışdır.

Tədqiqatlardan göründüyü kimi yerinə yetirdiyi funksiyalardan asılı olaraq infrastrukturlar cəmiyyətin artan ehtiyac və tələbatlarına adekvat yaranmış, iqtisadi tələbatların artması qanununa müvafiq olaraq təkamül etmişdir (4).

Cəmiyyətin inkişafı pillələrlə getdiyi kimi, həmin pillələrin özünəməxsus spesifikliyi ilə infrastrukturlar da bəsitdən mürəkkəbə doğru artmış, struktur tərkibi daim dəyişmiş və zənginləşmişdir. Bu gün, müasir dövrdə sivilizasiyanın yüksək inkişaf mərhələsində infrastrukturlar inkişaf yolunu mütəmadi davam etdirirlər. Deməli, cəmiyyətin başqa müvafiq atributları kimi infrastrukturlar da, hər şeydən əvvəl, tələbatın artması qanunu, müxtəlif tələbatlar, onların müxtəlif struktur vəziyyətləri ilə üzvi şəkildə artmış, müvafiq təsnifata uğramış və belə bir müstəvidə daim zənginləşmişdir(6).

Qeyd edildiyi kimi infrastrukturların tərəqqisi də özbaşına baş vermir, obyektiv və subyektiv təsirlər altında gerçəkliyə çevrilirlər; insanların fəaliyyəti, onların tələbatları və mənafeləri ilə əlaqədar olaraq zərurətə çevrilirlər.

Sosial-iqtisadi tələbatların daim artması, hüdudsuz olması insanların başlıca olaraq şüur və iradələrindən asılı olmayaraq, obyektiv zərurətdən irəli gəlir. İqtisadi tələbatların artması qanunu ən ümumi iqtisadi qanun kimi fəaliyyət göstərsə də tarixi tərəqqinin müxtəlif inkişaf pillələri bir-birindən ayıran mühüm cəhətlər, fərqlər ona müəyyən təsir göstərir(5).

Bu gün Azərbaycanın müstəqilliyə, yeni sosial-iqtisadi quruluşa və bazar iqtisadiyyatına qədəm qoyması, onun qarşısında çox mühüm tələbatların olmasından xəbər verir. Bunlar tamamilə infrastrukturlara aid olan zəruri çalarlardır. Bu tələbatlar Azərbaycanın milli və yeni iqtisadi-sosial mənafeləri ilə səciyyələnir. Sivilizasiyanın inkişafı mənafe və tələbatları ortaya çıxardığı kimi, ictimai əmək bölgüsünün yaranmasını da şərtləndirir(6).

Sivilizasiya mütəmadi olaraq mütərəqqi inkişaf meylini özündə təcəssüm etdirdiyi kimi, təkrar istehsal prosesində yerinə yetirdiyi funksiyalara xas olan bir xüsusiyyətlə infrastrukturlar da sadədən mürəkkəbə doğru inkişaf edir, struktur və çeşidi daim yenilənir və mükəmməlləşir. Bazar münasibətlərinin indiki şəraitində, sivilizasiyanın inkişaf etdiyi bir zamanda digər iqtisadi sahələr kimi infrastruktur sahələri də sabit qalmır, daim inkişaf edib, təkmilləşir. Beləliklə, infrastrukturlar da iqtisadi münasibətlərin tərkib hissəsi kimi təlabatın artması qanununa müvafiq təsnifata uğrayır və zənginləşir. Bu, heç də o demək deyil ki, infrastrukturların tərəqqisi öz-özünə yaranan bir prosesdir. İnfrastrukturlar öz-özünə heçdən meydana gəlmədiyi kimi, heç zaman da öz-özünə formalaşıb, inkişaf edə bilməz. O, yalnız cəmiyyətdə mövcud olan iqtisadi münasibətlərin obyektiv və subyektiv təsirləri altında, cəmiyyət üzvlərinin iqtisadi fəaliyyəti, onların ehtiyac, təlabat və mənafeləri ilə əlaqədar formalaşıb inkişaf edirlər.

Meqo iqtisadi səviyyədə fəaliyyət göstərən, ayrı-ayrı ölkələrin ümumilikdə inkişafına xidmət edən beynəlxalq infrastrukturlar da, onlara sərf edilən məsrəflərin kəmiyyəti ilə əlaqədar olaraq inkişaf edib təkmilləşir.

Geniş təkrar istehsalda digər sahələrlə yanaşı çoxsahəli infrastrukturlar istehsalın səmərəliliyinin artmasına əhəmiyyətli təsir göstərir. Bu proseslər qanunauyğun, sabit və daim təkrarlanan obyektiv bir proses kimi fəaliyyət göstərir. Bazar münasibətləri şəraitində bu iqtisadi proseslər mütəmadi olaraq yüksələn xətlə inkişaf edərək, iqtisadi münasibətlər sistemində özünə müvafiq yer tapır.

Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi dövlətimizin xarici siyasətinin çox mühüm tərkib hissəsi olmaqla, ölkəmizdə beynəlxalq infrastrukturların formalaşması və inkişafında mühüm əhəmiyyətə malik olmuşdur..

Müstəqilliyin ilk illərində Türkiyə dövlət quruculuğu yolunda respublikamızın səylərini daim dəstəkləməklə hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərmiş, Azərbaycanın dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında, Türkiyə dövləti ilə hərtərəfli əməkdaşlığın genişlənməsində xüsusilə əhəmiyyətli rol oynamışdır.

XX əsrin sonu-XXI əsrin əvvəllərindən başlayaraq dünyada cərəyan edən qloballaşma prosesi ayrı-ayrı ölkələrin beynəlxalq aləmə və dünya birliyinə inteqrasiyasını sürətləndirmişdir. Müasir dövrdə qlobal iqtisadi inteqrasiyanın geniş yayılmış formalarından biri beynəlxalq iqtisadi münasibətlərin inkişafına xidmət edən əhəmiyyətli sahə beynəlxalq nəqliyyat infrastrukturudur. Beynəlxalq nəqliyyat infrastrukturunun inkişafı ölkələr arası nəqliyyat əlaqələrinin genişlənməsinə və iqtisadi proseslərin qloballaşmasına şərait yaradır ki, bu da nəticədə ölkələr arsı iqtisadi və siyasi münasibətlərin inkişafına və son nəticədə ümumi qloballaşmaya gətirib çıxarır (4).

Son illər ölkəmizdə aparılan davamlı iqtisadi və siyasi islahatlar sosial-iqtisadi inkişafa təkan vermiş, ölkəmizin iqtisadi qüdrətinin daha da gücləndirmişdir. Transmilli enerji infrastrukturu və beynəlxalq nəqliyyat layihələrinin Azərbaycanda reallaşdırılması həyata keçirilmişdir.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının ilk əsas təzahürü oldu.

Azərbaycan regionda həyata keçirilən qlobal iqtisadi layihələrin həyata keçirilməsində Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Avropa ilə Şərq ölkələri arasında nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması sahəsində mühüm əhəmiyyət kəsb edən "Avropa-Qafqaz-Asiya Transqafqaz" nəqliyyat dəhlizi (TRASEKA) proqramının dəstəyi ilə 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpasına dair Bakıda keçirilmiş beynəlxalq konfrans Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlığın genişlənməsinə yeni stimul verdi(1).

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbulda keçirilmiş Zirvə toplantısı çərçivəsində XX əsrin çox mühüm layihəsi hesab edilən "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan, Gürcüstan, Türkiyə ərazilərindən xam neftin nəql edilməsinə dair saziş"in Azərbaycan, Gürcüstan, Türkiyə və ABŞ prezidentləri tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində mühüm addım oldu."Şahdəniz" yatağından hasil olunan təbii qazın Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Türkiyəyə nəql olunması üçün qaz boru kəmərinin də inşasının həyata keçirilməsi haqqında qərar qəbul edildi.

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan bu, qlobal iqtisadi layihələr – Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməklə və xalqlarımızın rifah halının yaxşılaşdırılmasını təmin etməklə yanaşı Azərbaycanın beynəlxalq nəqliyyat infrastrukturlarının formalaşması və inkişafı baxımından da böyük əhəmiyyətə malik oldu.

Nəhayət, 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda təməli qoyulan TANAP layihəsi Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlərlə əlaqələndirməklə beynəlxalq nəqliyyat infrastrukturunun inkişafı üçün əlverişli şərait yaratdı. Beş il ərzində reallaşması nəzərdə tutulan bu layihənin bir neçə mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək. Bu tarixi hadisə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının yeni və dinamik inkişaf mərhələsi kimi qiymətləndirilməklə beynəlxalq infrastruktur layihələrin formalaşması və inkişafı üçün əhəmiyyətli rol oynayacaqdır (1).

Artıq Azərbaycanın iştirakı ilə iri layihəli beynəlxalq infrastruktur obyektlərinin inşası başa çatdırılmış, bir qismi isə inşa olunmaqdadır. Belə ki, "Böyük İpək Yolu", "Bakı-Tbilisi-Qars" dəmir yolu, "Bakı-Ceyhan-Supsa" boru kəmər nəqliyyatı və s. layihələr buna misal ola bilər. Bakı-Tbilisi-Qars beynəlxalq dəmir yolunun və digər beynəlxalq

infrastruktur layihələrinin uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artırmaqla, təkcə iqtisadi maraqlara deyil, həmçinin sosial və mədəni inkişafa da təkan verəcəkdir.

Bakı-Tbilisi-Qars yeni beynəlxalq dəmir yolu xətti layihəsinin həyata keçirilməsi və Bosfor boğazında dəmir yolu tunelinin inşası, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsi, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasının təmin edilməsi, region ölkələrinin Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa Qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin möhkəmlənməsinə, habelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişlənməsinə şərait yaratmışdır.

Bu layihənin reallaşdırılması Çin, Mərkəzi Asiya və Avropa iqtisadiyyatlarını Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən dəmir yolu tranzit xətti vasitəsilə birləşdirmək baxımından atılan tarixi addımdır.

Azərbaycanın "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə qoşulması, bu istiqamətdə yük və sərnişin daşımalarında fəal iştirakı respublikamızın iqtisadi maraqlarına, tranzit yüklərin daha geniş cəlb olunmasına, iqtisadiyyatımızın artmasına, həmçinin ölkəmizin beynəlxalq nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına, öz növbəsində, bir çox sosial problemlərin həllinə şərait yaradacaqdır.

Milli iqtisadiyyatın müstəqil struktur vahidi kimi infrastrukturların təkamülü aşağıdakı mərhələlərdən keçmişdir:

1.İnfrastrukturların yaranması tarixi zərurətdən irəli gəlmiş və sivilizasiyanın inkişafı ilə əlaqədar olaraq tarixi kateqoriya kimi formalaşıb, inkişaf etmişdir.

2. Dünyada gedən qlobal dəyişikliklər və elmi-texniki tərəqqinin kompleks inkişafı müxtəlif təbiətli infrastrukturlara təsir edərək, onları daim kəmiyyət və keyfiyyətcə mütərəqqi dəyişikliklərə məruz qoymuş, yeni-yeni infrastruktur sahələrinin:-bazar, institusional, ekoloji və beynəlxalq infrastrukturların yaranmasına səbəb olmuşdur.

3.Beynəlxalq infrastrukturların formalaşması və inkişafı dialektikanın inkişaf qanunlarına müvafiq olaraq, ictimai əmək bölgüsü, ixtisaslaşma, təlabatların artması, mənafelər və iqtisadi səmərəliliklə yanaşı, ölkəmizdə beynəlxalq iqtisadi münasibətlərin inkişafı hesabına təmin edilmişdir.

## ƏDƏBİYYAT


1. Əhmədov.E.Azərbaycan –Türkiyə tərəfdaşlığı yeni və dinamik inkişaf mərhələsində. http:azertag.az.03.04.2017.
2. Ələsgərov A.K., Haqverdiyeva S. Qloballaşma şəraitində Azərbaycan Respublikasının dünya təsərrüfat sisteminə inteqrasiyası: reallaqılar və problemlər // Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri mövzusunda Respublika Elmi-praktiki konfransın materialları. Bakı: 2010, 982 s.
3. Alıyev İ.H., Y.Ə.Məmmədov. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasının tətbiqi: "Azərbaycan Respublikasında qeyri-neft sənayesinin inkişaf proqramı".Bakı.:Avropa nəşriyyatı, 2014, 130 s.
4. Məmmədov H.Ə. Sivilizasiyanın infrastrukturların artımına təsiri. BAKU 2ND İNTERNATİONAL CONFERENCE OF SCİENCE .1ST OF APRİL, 2018 BAKU/ AZERBAİJAN. S.146-149
5. Məmmədov H.Ə. Naxçıvan Muxtar Respublikasının davamlı inkişafına infrastruktur siyasətinin təsiri(1995-2015-ci illər) // AMEA-nın Naxçıvan Bölməsi.Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf, nəticələr.(3-4 dekabr 2015-ci ildə keçirilmiş elmi konfransın materialları). Naxçıvan: Əcəmi, NPB, 2016, s.83-86
6. Məmmədov H.Ə. İqtisadiyyatın dayanıqlı inkişafına təsir edən infrastrukturların inkişaf qanunauyğunluqları // NDU, Elmi əsərlər, İctimai elmlər seriyası. Naxçıvan: Qeyrət nəşriyyatı, 2016, №6(75), s.155-162


## ABSTRACT


**Hasan Mammadov**

**DEVELOPMENT OF RELATIONS WITH TURKEY IN DEVELOPMENT OF INTERNATIONAL INFRASTRUCTURE IN AZERBAIJAN**

The article explores the impact of relations with Turkey on the development of international infrastructure in Azerbaijan. It is shown that in the early years of independence there was no condition for the formation of international infrastructures, but with the development of international economic relations with Turkey, international infrastructures were also formed and developed and reached the modern level.

At the end, the formation and infrastructure of infrastructure, including the international infrastructure, are shown.


## РЕЗЮМЕ


**Гасан Мамедов**

**ВЛЯНИЕ ТУРЕЦКОГО ОТНОШЕНИЯ В РАЗВИТИИ МЕЖДУНАРОДНОЙ ИНФРАСТРУКТУРЫ АЗЕРБАЙДЖАНА**

В статье исследуется влияние отношений с Турцией на развитие международной инфраструктуры в Азербайджане. Показано, что в первые годы независимости не было условий для формирования международных инфраструктур, но с развитием международных экономических отношений с Турцией, международные инфраструктуры также формировались и развивались и достигли современного уровня.

В конце показано закономерности формирования и эволюция инфраструктуры, в том числе международной инфраструктуры.

**ƏBDÜLHÜSEYN ZAMANOV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN-TÜRKİYƏ TİCARƏT İQTİSADİ ƏLAQƏLƏRİNİN MÜASİR VƏZİYYƏTİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

**Açar sözlər:** *Naxçıvan MR, Türkiyə Respublikası, iqtisadi əlaqə, diplomatik münasibətlər investisiyaların təşviqi*

**Key words:** *Nakhchivan Autonomous Republic, Turkish Republic, economic relations, diplomatic attitude, promotion of investments*

**Ключевые слова:** *Нахчыванская АР, Турецкая Республика, экономические связи, дипломатические отношения, поощрение инвестиций.*

Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə müstəqillik aktı qəbul etdikdən sonra onu tanıyan ilk ölkə Türkiyə olmaqla, Azərbaycanla Türkiyə arasında diplomatik-iqtisadi əlaqələr 1992-ci ilin yanvarından başlanılmıdır.

Naxçıvan MR Ali Məclisinin həmin dövrdəki sədri Heydər Əliyev 1992-ci ilin mart ayında Türkiyə Respublikasına ilk rəsmi səfər etmiş, Türkiyənin rəsmi şəxsləri ilə görüşlər keçirmiş, və “Qars müqaviləsi”ni yenidən gündəmə gətirməklə Naxçıvanın hər hansı bir təcavüzə məruz qaldığı halda, onun muxtariyyatının qarantı olduğunu bəyan etmişdir.

Həmin dövrdə 13 maddədən ibarət protokol tərtib olunmuş, bağlanmış protokolda muxtar respublikaya zəruri ehtiyaclarının ödənilməsi üçün 100 milyon ABŞ dolları həcmində kreditlərin ayrılmasını, maliyyə və iqtisadi yardımların göstərilməsi, bu kimi iqtisadi əlaqələrin inkişaf etdirilməsi öz əksini tapmışdır.

Naxçıvan-Türkiyə əlaqələrinin inkişaf etdirilməsində 28 may 1992-ci ildə açılan “Sədərək-Dilucu” körpüsünün çox mühüm əhəmiyyəti olmuşdur. Azərbaycanın quru sərhəddi Türkiyə Respublikası ilə 11 kilometr yalnız Naxçıvan Muxtar Respublikasındadır. Müasir şəraitdə muxtar respublikanın qardaş Türkiyə Respublikası ilə qonşuluq mövqeyində olması iqtisadi əlaqələrin qurulması və qarşılıqlı ticarət əməkdaşlığının həyata keçirilməsi üçün geniş imkanlar yaranmışdır. Həmçinin qeyd edilməlidir ki, hər iki ölkəni bir-birinə bağlayan dostluq, qardaşlıq, mədəniyyət və iqtisadi əlaqələrin inkişafının qədim və tarixi kökləri vardır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra bir çox dövlətlərlə diplomatik münasibətlər qurmağa başlamışdır. Bu münasibətlərin əsasını isə iqtisadi əməkdaşlıq tutur ki, Azərbaycanın da ilk ticarət-iqtisadi əlaqə qurduğu ölkə Türkiyə Respublikasıdır.

Naxçıvam MR-in blokada şəraitində olması və Azərbaycanla quru sərhəddinin olmaması Türkiyə Respublikası ilə azad şəkildə ticarət-iqtisadi əlaqərinin qurulmasına obyektiv şərait yaratmışdır. Belə ki:

1. Naxçıvanın tarixi “İpək yolu” üzərində olması;
2. Orta və Şərqi Asiya ölkələrinə ticarət və keçid yollarının Naxçıvandan keçməsi;
3. Naxçıvanın əlverişli coğrafi mühiti, zəngin təbii sərvətləri və resurslarının olması;
4. Naxçıvan-Türkiyə iqtisadi əlaqələrinin əsas amili dil, din birliyi, oxşar adət-ənənə, dostluq və qardaşlıq münasibətləri;
5. Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafını zəruri edən Türkiyə üzərindən xarici bazarlara çıxış.

Bu gün əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Türkiyə tərəfdaşlığı bütün sahələrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Regionda sülhün, sabitliyin və əminamanlığın qorunması iqtisadi inkişafın və ticarət əlaqələrinin hərəkətverici qüvvəsidir. Bu əlaqələrin inkişafi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasının yaxın bölgələri arasında yaranan iqtisadi münasibətlərdə öz əksini tapır.

Türkiyənin baş nazirinin 2008-ci ildə Naxçıvana səfər etməsi, 2009-cu ildə Türkdilli dövlətlərin başçılarının IX-cu Zirvə toplantısında iştirak üçün Naxçıvana gələn Türkiyənin Prezidenti Abdullah Gül Azərbaycanın bu qədim diyarına yüksək qiymət verərək Naxçıvanın Türkiyə üçün böyük əhəmiyyət daşıdığını bildirərək demişdir: “Naxçıvanın Türkiyə üçün böyük əhəmiyyəti vardır. Azərbaycanın Naxçıvan bölgəsi və Türkiyə arasındakı sərhəd xətti məsafəcə kiçik olsada, siyasi mənada çox böyük əhəmiyyət daşıyır. 10-12 kilometrlik bir sərhəd xəttinin siyasi əhəmiyyəti olduqca böyükdür. Bu sərhəddimiz Türkiyənin türk respublikaları ilə coğrafi birliyini də əlaqələndirən çox rəmzi bir keçiddir”.

Qeyd etmək yerinə düşər ki, Türkiyə regionda həlledici gücə malik olan dövlət olmaqla nəinki Azərbaycanın dostu, böyük qardaşı və həmişə dəstəkləyən bir dövlətdir.

Azərbaycanın geniş nəqliyyat sisteminə malik olması, Türkiyə üzərindən neft və qazın dünya bazarına çıxarılması, həmçinin Türkiyənin özünə də neft və qaz ixracatçısı kimi bu bazarda pay sahibi kimi imkanlar yaratmışdır.

Təməli Naxçıvan MR Ali Məclisinin həmin dövrdəki sədri Heydər Əliyev tərəfindən qoyulmuş Naxçıvanla Türkiyə arasında 1992-ci ildən hər iki tərəfdən diplomatik münasibətlərin yaranması hər iki ölkə arasında qarşılıqlı perspektivlər açmaqla elm, texnika, ticarət, iqtisadi turizm, nəqliyyat, avtomobil daşımaları haqqında investisiyaların təşviqi və qorunması sahəsində qarşılıqlı əlaqələrin yaranmasına aid mühüm addımlar atılmışdır.

Qeyd olunmalıdır ki, 1992-ci ildən haliyədək Naxçıvan-Türkiyə diplomatik əlaqələrinin müasir vəziyyəti hər iki dövlətin səfirliklərindən əlavə Türkiyənin Naxçıvanda baş konsulluğu, Azərbaycanın isə 2004-cü ildən Qars şəhərində konsulluğu fəaliyyət göstərməkdədir. Həm də bunlar öz növbəsində hər iki dövlətin və regionun ticarət iqtisadi əlaqələrinin inkişaf etdirilməsinə istiqamətlənmişdir.

1993-cü ildə Ulu öndər Heydər Əliyevin Azərbaycana yenidən hakimiyyətə qayıdışı iki tərəfli əlaqələrin əsasında iqtisadi əlaqələrin inkişafına təkan verdi. 1994-cü il fevralın 8-11-dək Ulu öndər ilk rəsmi səfərini Türkiyəyə etmiş, Azərbaycanla Türkiyə arasında iqtisadi əməkdaşlıq haqqında, ikiqat verginin aradan qaldırılması haqqında, investisiyanın təşviqi və qorunması haqqında, kənd təsərrüfatında, elm, texnika, iqtisadi əməkdaşlıqlar haqqında, gömrük sənədlərinin tanınması, gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım və s. dair mühüm sənədlər imzalanmışdır.

Göstərilən normativ-hüquqi aktların qəbulu və bazanın yaradılması Naxçıvan-Türkiyə münasibətləri müasir mərhələdə daha geniş miqyaslı xarakter almışdır. Belə ki, Naxçıvana Türkiyə Respublikası tərəfindən 100 milyon ABŞ dolları dəyərində kredit ayırması və Naxçıvanda “Türk-Azəri” ortaqlığı ilə vaxtı ilə Naxçıvan-Türk bankı yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının baş naziri Rəcəb Tayyub Ərdoğanın 2008-ci ilin iyul ayında Naxçıvana səfəri siyasi əhəmiyyət kəsb etməklə bərabər iki tərəfli qarşılıqlı əməkdaşliğin və regionun inkişafı üçün böyük töhfə olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2010-cu ilin aprelində Türkiyə Respublikasına səfəri çərçivəsində bir sıra rəsmi şəxslərlə görüşlər keçirmişdir. Həmin görüşlər ticarət iqtisadi əməkdaşlıq baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Naxçıvan-Türkiyə arasında hava nəqliyyatının açılması, Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvana qədər çəkilməsi və bu kimi digər məsələlər blokada şəraitində yaşayan Naxçıvanın dost ölkə ilə əlaqələrindəki inkişafına hesablanmış addımlardandır.

2017-ci ilin dekabrında Türkiyə Respublikasının baş naziri Binəli Yıldırım Naxçıvana səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovla görüşmüşdür. Ali Məclisin Sədri demişdir: “1993-cü ildən bu münasibətlər bir millətin iki dövlətin səviyyəsinə qalxmışdır. Bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksələn dostluq və qardaşlıq münasibətlərimiz hər iki ölkə przidentinin iradəsinə uyğun olaraq, inkişaf edir və bu əlaqələr dünyaya nümunədir. Azərbaycan və Türkiyə beynəlxalq aləmdə daim bir-birinə dəstək olmuş və eyni mövqedən çıxış etmişdir”.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikasının da mühüm yeri vardır. Belə ki, 2010-cu ilin oktyabrında Azərbaycan-Türkiyə biznes forumunu Naxçıvanda keçirilməsi iqtisadi əməkdaşlığın inkişafı üçün yeni imkanlar açmışdır.

2018-ci ildə Türk Şurası Gənc liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsi Naxçıvanın əhəmiyyətini bir daha artırmış, Naxçıvanda Türk Universitetinin yaradılması ideyasının verilməsi türk dilli xalqların gəncləri arasında əlaqələrin möhkəmləndirilməsi üçün geniş imkanlar açacaqdır.

Sevindirici haldır ki, 23-27 oktyabr 2018-ci il tarixlərdə Türkiyənin İstanbul şəhərində qida, inşaat, tikinti, kimya sənayesi, mebel, turizm və s. keçirilən ixrac missiyasında muxtar respublikanın 19 şirkəti təmsil olunmaqla qlobal arenada kifayət qədər tanınmaqdadır. Hazırda Naxçıvan Muxtar Respublikası 2018-ci il ərzində 58 ölkə ilə xarici ticarət əlaqəsi yaratmışdır.

2004-2008-ci illər üçün qəbul edilən regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı və digər normativ hüquqi aktların qəbul edilməsi sahibkarlığa göstərilən dövlət qayğısı və dəstək 2009-cu ildən başlayaraq bütün sahələrdə olduğu kimi, xarici ticarət dövriyyəsində ixracın xüsusi çəkisinin artmasına idxalın isə azalmasına səbəb olmuşdur:

Naxçıvan MR-in xarici ticarət dövriyyəsinin dinamikası (mln ABŞ dol.)

| Göstəricilər / İllər | Cəmi ticarət dövriyyəsi | İdxal | İxrac | Qalıq (+) (-) |
|---|---|---|---|---|
| 2014 | 517,4 | 108,8 | 408,6 | + 229,8 |
| 2015 | 512,3 | 97,9 | 414,4 | + 316,5 |
| 2016 | 463,2 | 44,1 | 419,1 | + 374,2 |

| | | | | |
|---|---|---|---|---|
| 2017 | 459,9 | 36,6 | 423,3 | + 386,7 |
| 2018 | 483,4 | 59,1 | 424,3 | + 365,2 |

Cədvəlin məlumatlarından aydın görünür ki, Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsi 2018-ci ildə 483431,6 min ABŞ dolları təşkil edir. Bunun 59165,0 min ABŞ dolları idxal, 424266,6 min ABŞ dolları isə ixrac təşkil edir. İdxal-İxrac əməliyyatı üzrə müsbət qalıq 365101,6 min ABŞ dolları təşkil edir ki, bu da 2003-cü illə müqayisədə ticarət dövriyyəmiz (483431,6 – 39073,5) 12,3 dəfə çox artıb, keçən ilin müvafiq dövründən isə 0,2% idxal əməliyyatı (59165 – 33894) 74 faiz artmış, keçən ilin müvafiq dövründən isə 61% artmışdır, ticarət balansı isə 2003-cü ilə nisbətən mənfidən müsbətə 365101,6 min ABŞ dolları olmuşdur.

Cədvəlin təhlili göstərir ki, 2014-2015-ci illər də manatın devalvasiyası bir sıra sahələrdə olduğu kimi xarici ticarət dövriyyəsində də öz təsirini göstərmişdir.

Qeyd olunmalıdır ki, 2003-2008-ci illərdə xarici ticarət dövriyyəsi həmişə mənfi qalıq müşahidə olunsa da aparılan iqtisadi yönümlü tədbirlər sahibkarlıq üçün yaradılan şərait sonrakı illərdə xarici ticarət dövriyyəsi mənfi qalıqdan müsbətə keçməklə daim artmaqdadır. Statistik müqayisələr deməyə əsas verir ki, Naxçıvan-Türkiyə ticarət əlaqələri sürətlə artmaqdadır. Hər iki tərəf arasında əmtəə dövriyyəsi ilbəil artmaqda davam edir.

Naxçıvanın idxal olunan məhsullarını dəyər ifadəsində əmtəə strukturunu ölkələr üzrə qruplaşdıraraq belə qənaətə gəlmək olar ki, aparılan iqtisadi əməkdaşlıq müasir dövrdə Türkiyə iqtisadi-ticarət əlaqələri inkişaf edərək xeyli yüksəlmişdir. Bunu aşağıdakı cədvəldən aydın görmək olar:

Naxçıvanın idxal olunan məhsullarının dəyər ifadəsində dinamikası

| İllər / Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Türkiyə Respublikası | 36987,5 | 30359,5 | 8825,1 | 9507,8 | 23483,8 |
| İran İslam Respublikası | 25020,9 | 48966,9 | 5294,8 | 8045,1 | 18932,0 |
| MDB ölkələri | 30460,3 | 8814,0 | 18532,0 | 7679,4 | 4733,2 |
| Avropa İttifaqı ölkələri | 3263,8 | 2938,0 | 3971,1 | 1828,7 | 182,4 |
| Digərləri | 13054,4 | 6854,6 | 7501,0 | 9507,8 | 11833,6 |
| Cəmi idxal: | 108786,9 | 97933,9 | 44124,0 | 36568,8 | 59169,0 |

Cədvəlin təhlilindən görünür ki, muxtar respublikaya idxal olunan məhsulların içərisində əsas pay sahibi Türkiyə və İran İslam Respublikasıdır.

Göründüyü kimi, Türkiyə çoxşaxəli sənaye ölkəsi olduğundan idxalın strukturu daha genişdir və daha çox sahələri əhatə edir. İdxal olunan məhsulların qruplaşdırılmasının dinamikasına nəzər salarkən müəyyən olur ki, sənaye məhsullarının xüsusi çəkisi 10-50 faiz arasında dəyişir. Bunu aşağıdakı cədvəldən aydın görmək olar:

İdxalın strukturunda əsas yer tutan əmtəəlik məhsulların xüsusi çəkisi (faizlə)

| İllər / Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Sənaye məhsulu | 34 | 64 | 51 | 43 | 42 |
| Nəqliyyat vasitələri və onla-rın hissələri | 1 | 1 | 2 | 5 | 3 |
| Ərzaq məhsulları | 40 | 14 | 8 | 18 | 17 |
| Tikinti materialları | 16 | 14 | 3 | 5 | 29 |
| Digərləri | 9 | 7 | 3 | 9 | 9 |
| Cəmi: | 100 | 100 | 100 | 100 | 100 |

Cədvəlin məlumatlarından göründüyü kimi, ərzaq məhsullarına olan tələbatı artıq 80 faizdən çoxu yerli məhsullar hesabına daxili bazarın tələbatını ödəyir.

Müasir dövrdə Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan dünyanın 58 ölkəsi ilə iqtisadi münasibətlər qurmuşdur. Bu dövlətlərin içərisində Türkiyə Respublikası xüsusi əhəmiyyət kəsb edir. Birinci Türkiyə hər bir sahədə və istənilən məsələnin həllində Naxçıvanın qarantıdır. İkincisi hər iki tərəf arasında mədəni, iqtisadi, elm, texnika, təhsil, səhiyyə və s. sahələrdəki münasibətlər yüksək səviyyədədir və uğurla inkişaf etdirilir. Həm də Naxçıvan şirkətlərinin Türkiyə şirkətləri ilə qarşılıqlı əməkdaşlığı Naxçıvanın sahibkarlarının şirkətlərinin təcrübəsini artırmaqla bərabər dünya bazarları üçün rəqabət qabiliyyətli məhsul istehsal etməklə Türkiyə üzərindən Avropa və Asiya ölkələrinə çıxa bilərlər.

Hazırda Muxtar Respublikamızda son illər ərzində sahibkarlara 13 milyon 202 min manat kredit verilmiş, 49 yeni istehsal sahəsi yaradılmış, 26 hüquqi və 2204 fiziki şəxs dövlət qeydiyyatından keçmişdir.

Sahibkarlar tərəfindən 383 növdə məhsul istehsal olunur ki, bunun da 350 növünə olan tələbat tamamilə yerli məhsullar hesabına ödənilir.

Naxçıvanda son illər sahibkarlığın inkişafında fəaliyyət göstərən bir sıra özəl şirkətlər yaranmışdır. Belə ki, "Nəqşicahan Holdinq Şirkətlər qrupu" MMC, "Karbon qazı zavodu", "Cahan Holdinq" Kommersiya şirkətlər ittifaqı, "Sumqala Tikinti təchizatı" MMC, "Ləzzət Biskivit və Şokolad Fabriki" MMC, "Naxçıvan Məhsulları"MMC, "Gəmiqaya Holdinq", "Naxçıvan bağları", "Sirab", "Badamlı" mineral suları və s. şirkətlər dünya bazarlarında tanınmaqdadırlar. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.

İdxal əməliyyatları üzrə daxil olan məhsulların dəyər ifadəsində dinamikası

| İllər / Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Özəl sektor | 78689,9 | 1679,7 | 27284,4 | 14334,7 | 40013,7 |
| Dövlət sektoru | 20004,3 | 51540,0 | 14920,2 | 20201,7 | 18019,1 |
| Fiziki şəxslər | 10095,7 | 44713,5 | 1919,4 | 2033,0 | 1142,2 |
| Özəl sektor, faizlə | 72 | 1,7 | 62 | 39 | 68 |
| Dövlət sektoru, faizlə | 19 | 52,6 | 34 | 55 | 30 |
| Fiziki şəxslər, faizlə | 9 | 45,7 | 4 | 6 | 2 |

Cədvəlin təhlilindən görünür ki, sahibkarların idxal etdiyi xammal və sənaye məhsullarında xüsusi çəkisi durmadan artmaqdadır.

Aparılan təhlillərdən və araşdırmalardan aşağıdakı nəticələrə gəlmək olar:

- İki dövlətlə sərhəd olan (İran, Türkiyə) Naxçıvan MR-də rəqabət qabiliyyətli məhsul istehsal etmək, dünya bazarına çıxmaq, pay sahibi olmaq möhkəmlənmək üçün uzun müddətli iş aparılmalıdır;
- Naxçıvan Muxtar Respublikası çox əlverişli cöğrafi mövqeyə təbii iqlim şəraitinə və zəngin mineral xammal resurslarına malik olması, Qərb ilə Şərqi birləşdirən, inkişaf etməkdə olan Asiya ölkələrinin bazarlarına çıxış, beynəlxalq nəqliyyat yük daşımalarının indiki mərhələsində Naxçıvandan mühüm keçid məntəqəsi kimi istifadə edilməlidir;
- Naxçıvanın ticarət iqtisadi əlaqələrinin gücləndirilməsi və inkişaf etdirilməsi üçün azad ticarət zonasının yaradılması əsas amillərdəndir;
- Muxtar respublika ilə Türkiyə arasında tikinti sektorunda qarşılıqlı əməkdaşlıq əsasında tikinti materiallarının idxal və ixracı, həmçinin Türkiyə şirkətlərinin tikinti layihələrində iştirakı, bu sahədə qarşılıqlı və ortaq layihələr digər sahələrdə də inkişaf etdirilməlidir;
- Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin Naxçıvanın gələcək inkişafı üçün başa çatdırılması həyata keçirilməlidir;
- Naxçıvanın əsas istehsal sahələrindən biri olan kənd təsərrüfatının mövcud istehsalı ilə ticarət dövriyyəsindəki fərq xeyli yüksəkdir. Bu sahədə marketinq işlərinin aparılması, toxumçuluq, cins heyvanların yetişdirilməsi, aqrar sənaye müəssisələrinin yaradılması, loqistika layihələrinin həyata keçirilməsi üçün yeni lahiyələr həyata keçirilməlidir;
- Gömrük keçid sistemində dövlətin marağı təmin edilməklə vizaların sadələşdirilməsi, idxal və ixrac məhsullarına tarif və rüsumların aradan qaldırılması və sahibkarlar üçün əlverişli şərait yaradılmalıdır.
- Həm Naxçıvan MR-də, həm də Türkiyə Respublikasında istehsal olunan məhsul sərgilərinin həyata keçirilməsi davamlı olmalıdır;
- Qədim tarixə malik olan Naxçıvanın tarixi, mədəniyyət və incəsənət abidələrinin, görməli-gəzməli yerləri əks etdirən video çarxların hazırlanması, reklamın gücləndirilməsi və muxtar respublikaya turizm axını gücləndirilməlidir;
- Azərbaycan-Türkiyə arasında, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında iqtisadi əməkdaşlıq müasir vəziyyətdə daha yüksəkdədir, qarşılıqlı iki tərəfli əlaqələrin inkişaf etdirilməsi üçün mövcud potensialdan daha geniş istifadə edilməlidir.

## ƏDƏBİYYAT


1. Naxçıvan MR Dövlət Gömrük Komitəsi.www.dgk.nmr.az
2. Azərbaycan-Türkiyə ticarət iqtisadi əlaqələrinin müasir vəziyyəti və inkişaf yolları. A.M.Bərxudarlı. Bakı, 2015
3. Şərq qapısı, 29.10.2013
4. "Azərbaycan" qəzeti, 15 may 2010-cu il
5. "İki sahil" qəzeti, 09 may 2018-ci il
6. "Palitra" qəzeti, 4 noyabr 2017-ci il

7. Azərbaycan və Türkiyə Respublikaları arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi və inkişaf istiqamətləri. C.H.Musayev, 2013
8. C.X.Cahangirli "Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri". Bakı, 2006
9. Naxçıvan MR Dövlət Statistika Komitəsi. İdxal, ixrac məlumatları

## ABSTRACT

**Abdülhüseyn Zamanov**

**CONTEMPORARY SITUATION AND ARBITRATION METHODS OF NAKHCHIVAN - TURKISH ECONOMIC RELATIONS**

In the modern conditions the Autonomous Republic to be in connected with the Turkish Republic had created great opportunities for the establishment of economic relations and the implementation of mutual trade cooperation.

In the article, in the development of the Nakhchivan-Turkish relations the establishment of diplomatic relations between Nakhchivan and Turkey established by National Leader Haydar Aliyev was investigated the relationship between the two sides in the field of mutual prospects, science, technology, trade, economy, tourism, transport and investment promotion.

## РЕЗЮМЕ

**Абдулгусейн Заманов**

**СОВРЕМЕННОЕ ПОЛОЖЕНИЕ И ПУТИ СОВЕРШЕНСТВОВАНИЯ ТОРГОВО-ЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ НАХЧЫВАН-ТУРЦИЯ**

В современных условиях расположение Автономной Республики по соседству с Турецкой Республикой создает широкие возможности для осуществления построения экономических связей и взаимно-торгового сотрудничества между ними.

В статье исследованы создание дипломатических отношений между Нахчываном с Турцией, основу развития которых заложил общенациональный лидер Гейдар Алиев, а также создание между обеими сторонами взаимных связей и перспектив в области науки, техники, торговли, экономики, туризма, транспорта, поощрения и сохранения инвестиций.

**MƏDİNƏ ALLAHVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*q_fil@hotmail.com*

# NAXÇIVAN-TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN MÜASİR VƏZİYYƏTİ VƏ ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNDƏ ONUN ROLU

**Açar sözlər:** *Naxçıvan Muxtar Respublikası, Türkiyə Respublikası,iqtisadi əlaqələr, həyat səviyyəsi, məşğulluq, yeni müəssisələr, investisiya, iqtisadi əlaqələr, sahibkarlıq*

**Key words:** *Nakhchivan Autonomous Republic, Republic of Turkey, economic relations, living standards, employment, new enterprises, investment, economic relations, entrepreneurship*

**Ключевые слова:** *Нахчыванская Автономная Республика, Турецкая Республика, экономические отношения, уровень жизни, занятость, новые предприятия, инвестиции, экономические отношения, предпринимательство*

Müasir dünyada iqtisadi qloballaşma ilə yanaşı, iqtisadi regionlaşma meylləri də güclənməkdədir. Çeşidli səbəblərdən bir-birinə yaxın olan ölkələr ilkin ticari və qeyri-ticari iqtisadi münasibətlərini qarşılıqlı olaraq gücləndirməkdə maraqlı olurlar. Belə örnəklərin ən uğurlularından biri Naxçıvan və Türkiyə arasındakı iqtisadi əlaqələrdir.

Qeyd edək ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin əsası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, ümummilli lider Heydər Əliyevin Türkiyə Respublikasına ilk rəsmi səfəri zamanı, 24 mart 1992-ci il tarixdə imzalanmış “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu” ilə qoyulub. 1992-ci il yanvar ayının 14-də yaradılan diplomatik əlaqələr həmin vaxtdan Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqust ayından isə Azərbaycanın Türkiyədə diplomatik missiyasının fəaliyyətə başlaması ilə nəticələnib. Bu siyasətin davamı olaraq Naxçıvanda 5 fevral 1993-cü il tarixdə Türkiyə Respublikasının Baş Konsulluğu fəaliyyətə başlayıb. (1)

Naxçıvanlıların "Həsrət körpüsü”, türklərin "Könül körpüsü” adlandırdıqları Ümid körpüsünün istifadəyə verilməsi ilə blokadanın tədricən aradan qaldırılmasına, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına başlanmışdı.

Ötən bu illər ərzində Türkiyə-Azərbaycan əlaqələrində, Türk dünyasının birlik və həmrəyliyində Naxçıvanın xüsusi yeri olmuşdur. 2017 və 2008-ci illərdə Türkiyənin Baş nazirinin Naxçıvana səfər etməsi, 2009-cu ildə isə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün Naxçıvanda keçirilməsi, sammit çərçivəsində “Naxçıvan Bəyannaməsi”nin imzalanması bunun daha bir sübutu kimi mühüm tarixi hadisədir. 2010-cu ilin oktyabr ayında Azərbaycan-Türkiyə Biznes-Forumunun Naxçıvanda keçirilməsi isə iqtisadi əlaqələrin yeni müstəvidə sürətli inkişafı üçün əlverişli imkanlar açmışdır.

Ali Məclis Sədrinin 2010-cu il 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfər etməsi, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin sonrakı inkişafı baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Naxçıvanla Türkiyə arasında hava nəqliyyatının yaradılması və Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu xəttinin inşası blokada vəziyyətində yaşayan Naxçıvanın qardaş ölkə ilə əlaqələrindəki tarixi rolunun bərpasına hesablanmış məqsədyönlü addımlardır. Ötən il Türk Şurası Gənc Liderlərinin ilk forumunun coğrafi cəhətdən də türk toplumlarının mərkəzində yerləşən Naxçıvanda keçirilməsi mərkəz kimi Naxçıvanın əhəmiyyətini daha da artırdı. Ali Məclis Sədrinin forumda irəli sürdüyü Naxçıvanda Türk Universitetinin yaradılması təşəbbüsünün reallaşması eyni soykökə, ortaq mədəniyyətə və tarixə malik olan türkdilli ölkələrin gəncləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi və inkişafı üçün geniş imkanlar açmışdır.

Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılan iqtisadi model də formalaşdırıldı, aqrar islahatların həyata keçirilməsi barədə tarixi qərarlar qəbul edildi. Naxçıvan blokadanın yaratdığı iqtisadi böhran kimi ağır sınaqdan mətinliklə çıxmışdır. Dahi şəxsiyyətin rəhbərliyi, naxçıvanlıların əzmkarlığı, iradə və gücü ilə dağılmış iqtisadiyyat bərpa edildi. 1990-1993-cü illərdə Naxçıvanda qonşu dost ölkəərlə əlaqələrin yaradılması, ərzaq, enerji təminatı məsələlərinin həlli, ölkənin paytaxtı ilə hava yolu əlaqəsinin genişləndirilməsi, aqrar islahatlara başlanılması kimi mühüm işlər görüldü. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında

zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilməsi, torpaq islahatlarına ilk dəfə Naxçıvanda başlanması insanlarda halal torpağına və halal qazancına sahiblik haqqı kimi yeni təfəkkür formalaşdırmış, zəhmət adamlarını torpağa bağlamaqla, bütövlükdə, ölkəmizdə kənd təsərrüfatının gələcək inkişafının əsası qoyulmuşdur. (2)

İqtisadiyyatın şaxələndirilməsi və dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə də müsbət təsir göstərib. Bu baxımdan 2018-ci ilin ötən dövrünün nəticələri də diqqəti cəlb edir. Həmin dövrdə muxtar respublikada 344 milyon 334 min 800 Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınıb. Bunun da 306 milyon 639 min 400 ABŞ dollarını ixrac, 37 milyon 695 min 400 ABŞ dollarını isə idxal təşkil edib. Xarici ticarət üzrə 268 milyon 944 min ABŞ dolları həcmində müsbət saldo yaranıb. Bu gün doğma diyarımızda rəqabətqabiliyyətli, alıcı zövqünü oxşayan məhsullar istehsal edilir. Hazırda Naxçıvanda 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. (3)

Muxtar respublikanın iqtisadi inkişafında ilk mərhələ keyfiyyətli məhsul istehsal etməklə əhalinin tələbatını ödəməkdən ibarət idisə, bu gün həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaq prioritet vəzifə kimi qarşıya qoyulub. Bu məqsədlə cari ilin ötən dövrü ərzində Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya, İraq, İran, Gürcüstan, Küveyt, Çin və Qırğızıstan kimi ölkələrə muxtar respublikadan müxtəlif məhsullar ixrac edilib.

İstehsal olunan ixracyönümlü ərzaq məhsullarının keyfiyyəti də yüksəkdir. Müasir dünyada təbii məhsullara verilən üstünlük belə məhsulların xarici bazarlara çıxarılma imkanlarını artırır. Bu məqsədlə muxtar respublikada ilk dəfə olaraq məhsul ixracına dəstək üçün "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilib. Müəssisənin əsas vəzifəsi məhsulların respublika ərazisində satışının genişləndirilməsi, qablaşdırma, dizayn, markalanma və digər göstəricilərin yaxşılaşdırılması, xarici ölkələrə ixracın təşkil edilməsindən ibarətdir.

Bu gün ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara böyük dəstək verilir. Bu istiqamətdə həm ölkənin daxilində, həm də xaricdə mühüm iqtisadi tədbirlər, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslar keçirilir. Təkcə 2018-ci ilin ötən dövrü ərzində Almaniya, Rusiya, Türkiyə, İran, Pakistan, İtaliya, Latviya, Çin, Qazaxıstan, Çexiya və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrin nümayəndələri ilə keçirilmiş 8-i biznes-forum, 11-i sərgi, 1-i konqres olmaqla, ümumilikdə, 20 beynəlxalq tədbirdə dövlət dəstəyi ilə muxtar respublikadan 123 sahibkarlıq subyektinin iştirakı təmin edilib. Bu tədbirlərin davamı kimi qarşılıqlı iqtisadi əlaqələrin inkişafı, ixrac və əməkdaşlıq imkanları məqsədilə 9 ölkənin rəsmi nümayəndə heyəti ilə 13 halda müxtəlif görüşlər keçirilib və fikir mübadilələri aparılıb.

Keçirilən beynəlxalq tədbirlər istər muxtar respublikanın biznes mühitinin və iqtisadi potensialının təbliği, istərsə də yerli sahibkarların işgüzar əlaqələrinin inkişafı baxımından əhəmiyyətlidir. Xüsusilə xarici ölkələrdə təşkil edilən tədbirlər, eyni zamanda iqtisadiyyatın prioritet inkişaf istiqamətləri üzrə investisiya qoyuluşlarının həcminin artımında öz müsbət nəticələrini verməkdədir (4)

Qarşıda duran mühüm vəzifələrdən biri də ixracın həm məhsulların çeşidi, həm də coğrafiyası baxımından şaxələndirilməsidir. Bu məqsədlə "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi istiqamətində iş aparılır. Artıq muxtar respublika ixracatçıları xaricdə keçirilən sərgilərdə "Made in Azerbaijan" brendi altında vahid ölkə stendi ilə təmsil olunurlar. Bu çərçivədə cari ilin ötən dövrü ərzində Rusiyanın Həştərxan vilayətinə təşkil olunmuş ilk ixrac missiyasında muxtar respublikadan da nümayəndə heyəti iştirak edib və bu beynəlxalq sərgidə Naxçıvanda fəaliyyət göstərən "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin və Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin 22 çeşiddə mineral sularının nümayişi təmin olunub.

Muxtar respublika sahibkarları bu gün nəinki qonşu ölkələr, həmçinin dünyanın bir çox ölkəsi ilə yaxından əməkdaşlıq edirlər. "Ləzzət Qida Sənaye" MMC və "Gəmiqaya Mineral Sular" MMC Dubayda keçirilən ən nüfuzlu sərgilərdən biri olan "Gulfood-2018" sərgisində Naxçıvanın brend məhsullarından olan "Sirab", 3 növdə 19 çeşiddə "Badamlı" mineral suları nümayiş etdirib.

Növbəti ixrac missiyası 2018-ci il 24-26 oktyabr tarixlərdə İstanbulda təşkil olunub. Missiyaya qida, inşaat materialları, mebel istehsalı, turizm, yüngül və kimya sənayesi sahələrində fəaliyyət göstərən Azərbaycan şirkətləri ilə yanaşı, muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 20 nümayəndəsi daxil edilib.

Missiya çərçivəsində "Badamlı Mineral Sular", "Şərur-3", "Savalan-S", "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli və Babək "Sirab"Açıq Səhmdar cəmiyyətlərinin nümayəndələri Türkiyədə qida, spirtli və spirtsiz içkilərin idxalı ilə məşğul olan TADCO Gida Pazarlama İç və Dış Ticarət LTD şirkətinin nümayəndəsi ilə ikitərəfli görüşlər keçirib, Naxçıvan məhsullarının Türkiyəyə ixracının genişləndirilməsinə dair müzakirələr aparılıb.

Muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və beynəlxalq tələblərə cavab verən laboratoriya fəaliyyət göstərir. İxrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar da məhz buradan təmin edilir. Belə

ki, 2018-ci ilin ötən dövrü ərzində verilmiş 103 halda mənşə sertifikatları muxtar respublikada istehsal edilən məhsulların beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin etməklə müəssisələrin xarici ölkələrə məhsul ixracını asanlaşdırıb. (5)

Aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlı həyata keçirilən tədbirlərdir. İnvestisiya təşviqi sənədi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, eləcə də stimullaşdırılmasına nail olmaq məqsədi daşıyır. Xarici bazarlara çıxışın təmin edilməsində muxtar respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi dairəsi genişlənir

Sahibkarların mütəmadi olaraq maarifləndirilməsi, onlara texniki və metodik dəstək göstərilməsi istiqamətində muxtar respublikanın İqtisadiyyat Nazirliyi tərəfindən mütəmadi seminar və təlimlər təşkil olunur. Məhsulların virtual məkanda təbliği, satışı şəbəkəsinin genişləndirilməsi, yeni məhsulların yaradılması, inkişaf etdirilməsi və digər bir çox sahədə lazımi dəstək göstərilir. Bu məqsədlə cari il sentyabr ayının 27-də Naxçıvan Biznes Mərkəzində Beynəlxalq Ticarət Mərkəzinin (İTC) dəstəyi ilə Avropa İttifaqına məhsul ixracı imkanları, bazar tələbləri, müasir marketinq alətləri, beynəlxalq sərgilərdə iştirak qaydaları və daha yaxşı nəticələrin əldə edilməsi mövzularında təlim təşkil edilib.(6)

Müasir zamanda qloballaşma özünün elə bir inkişaf mərhələsinə çatmışdır ki, dünyanın heç bir ölkəsi tədric olunmuş halda inkişaf edə bilməz. Bu gün heç bir ölkə dünya iqtisadiyyatı ilə sıx əlaqədə olmadan öz iqtisadıyyatını inkişaf etdirə bilməz. Naxçıvanın müstəqilliyinin ilk illərində Türkiyə və digər ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr qurması, alınan kreditlər, yatırılan investisiyalar hesabına bu günkü inkişafa nail olması məşğullun artması, yeni iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə əsas verir. Xüsusilə də beynəlxalq əmək bölgüsünün dərinləşməsi, bunun nəticəsi kimi ölkələrin müxtəlif istehsal və mübadilə sferasında beynəlaxlaq ixtisaslaşması və kooperasiyalaşmasının müasir səviyyəsi iqtisadi əlaqələrin beynəlmiləşməsinə, milli iqtisadiyyatların qorunmasına səbəb olur. Bütün bunlar isə ölkələr arasında qarşılıqlı iqtisadi əlaqələrin inkişafı və möhkəmləndirilməsi nəticəsində mümkündür. Ona görə də Naxçıvan MR-in xarici iqtisadi əlaqələrinin əsas istiqamətlərindən biri xarici ölkələrlə ikitərəfli və bərabərhüquqlu iqtisadi əməkdaşlığın yaradılması və inkişafıdır.

## ƏDƏBİYYAT


1. C.X.Cahangirli. "Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri"
2. Abbasov Ç.A "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları"
3. www serqqapisi.az
4. www.tpao.com
5. www.azstat.az
6. www nakhchivan.preslib.az
7. www.academia.edu
8. Türkiye qazetesi


## ABSTRACT


**Madina Allahverdieva**

**THE CURRENT STATE OF NAKHCHIVAN-TURKEY ECONOMIC RELATIONS AND ITS ROLE IN RAISING THE LIVING STANDARDS OF THE POPULATION**

World experience shows that no country can develop its own economy without establishing foreign economic relations. Currently, there is a diverse and diverse economic relationship between countries. Nakhchivan Autonomous Republic and Turkey, as a member of this system, have established mutual economic relations and these relations are constantly developing.

Establishment of foreign economic relations. One of the potential partners of Nakhchivan is the sister Republic of Turkey. During the investigation of the relations between the two countries, it became clear that cooperation between Turkey and Nakhchivan AR in modern times is developing in many areas of the economy. But lately, economic cooperation between Nakhchivan Autonomous Republic and Turkey is developing more especially in foreign trade and investment directions. Thus, the analysis of trade relations with Turkey indicates that this country has a specific weight in Nakhchivan foreign trade turnover


## РЕЗЮМЕ


**Мадина Аллахвердиева**

**ТЕКУЩЕЕ СОСТОЯНИЕ НАХЧЫВАНО-ТУРЕЦКИХ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ И ИХ РОЛЬ В ПОВЫШЕНИИ УРОВНЯ ЖИЗНИ НАСЕЛЕНИЯ**

Мировой опыт показывает, что ни одна страна не может развивать собственную экономику без установления внешнеэкономических связей. В настоящее время существуют разные экономические отношения между странами. Нахчыванская Автономная Республика и Турция, как член этой системы, установили взаимные экономические отношения, и эти отношения постоянно развиваются.

Установление внешнеэкономических связей. Одним из потенциальных партнеров Нахчывана является братская Турецкая Республика. В ходе исследования отношений между двумя странами выяснилось, что сотрудничество Турции и Нахчыванской АР в наше время развивается во многих сферах экономики. Но в последнее время экономическое сотрудничество между Нахчыванской Автономной Республикой и Турцией развивается, особенно в направлениях внешней торговли и инвестиций. Таким образом, анализ торговых отношений с Турцией показывает, что эта страна имеет удельный вес во внешнеторговом обороте Нахчывана.

**ZAUR ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*know.howtax@gmail.com*

**UOT: 338**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI VƏ TÜRKİYƏ ƏLAQƏLƏRİNƏ İQTİSADİ BAXIMDAN YANAŞMA

**Açar sözlər:** *iqtisadi əlaqələr, iqtisadi ehtiyatlar, iqtisadi inteqrasiya, iqtisadi siyasət, iqtisadi siyasətin istiqamətləri, strateji mövqe, sənaye sahələri*

**Key words:** *economic relations, economic resources, economic integration, economic policy, trends in economic policy, strategic position, sectors of industry*

**Ключевые слова:** *экономические отношения, экономические ресурсы, экономическая интеграция, экономическая политика, тенденции экономической политики, стратегическое положение, отрасли промышленности*

Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biri olan, eyni zamanda dünya tarixində ən qədim mədəniyyət mərkəzlərindən biri kimi qəbul edilən və tarixən Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası həm iqtisadi həm də coğrafi baxımından olduqca strateji məkanda yerləşmişdir. Adının mənşəyi alimlər tərəfindən “Nəqşi-cahan” yəni “dünyanın naxışı”, “Nuhçuvan” yəni “Nuhun diyarı”, Nakçuana (Naxçuana) yəni “möcüzəli və yaxşı sular diyarı” formasında izah edilən bu diyar şərqi-qərbə bağlayan çox əhəmiyyətli bölgədir. Məhz bu səbəbdən tarixən onu “Şərqin qapısı” da adlandırırlar [4].

Məlumdur ki, qədim insan məskənlərindən biri olan bu gözəl diyarın türk dünyası üçün nə qədər önəmli olduğunu Mustafa Kamal Atatürk “Naxçıvan Türk qapısıdır” deyə vurğulamışdır.

Mustafa Kamal Atatürk yalnız Naxçıvan haqqında deyil həm də Azərbaycan Respublikası barədə aşağıdakı ifadələri işlətmişdir: "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır. Heç nəyə baxmayaraq ona yardım etmək borcumuzdur" [5].

O dövrdə Azərbaycanın Anadoluda yaşayan qardaşlarına münasibətini ifadə etmək üçün Məmmədəmin Rəsulzadənin bu sözlərini xatırlamaq kifayətdir: “Kiçik Türkiyə xalqı ilə böyük Türkiyə xalqı arasındakı münasibət iki qardaş münasibəti qədər səmimidir...”.

Ölkəmiz və Türkiyə haqqında işlədilən ən məşhur fikirlərindən biri də “Bir millət, iki dövlət” ifadəsidir [1, s.10]. İki qardaş ölkə arasındakı həmrəyliyi göstərən bu məşhur ifadənin sahibi olan Ümummilli liderimiz Heydər Əliyevin düşüncəsində türk dünyasının bütün görkəmli dövlət xadimlərinə, unudulmaz şəxsiyyətlərə, mütəfəkkirlərə xüsusi bir ehtiram var idi. Heydər Əliyev böyük Atatürkün şəxsiyyətinə və irsinə, xidmətlərinə də yüksək hörmət bəsləyirdi. Məhz bu səbəbdən müasir müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyev Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün dövlətçilik təcrübəsini Azərbaycanın milli dövlət quruculuğu prosesində daim xatırlamışdır. Ümummilli lider Heydər Əliyev Atatürkə, Türkiyəyə və türk dünyasına ehtiramının əlaməti olaraq, 9 mart 2001-ci il tarixli sərəncamla qardaş Türkiyə ilə tarixi, milli-mənəvi, mədəni bağlılığımızın inkişafı üçün mühüm əhəmiyyət daşıyan bir təsisat – Azərbaycanda Atatürk Mərkəzini yaratmışdır. Bu təsisat «Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Atatürk irsinin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədi» daşıyır [3].

Məlumdur ki, xalqlarımız bir-birlərinə yaşı əsrlərlə ölçülən mədəni, inanc, dil və qardaşlıq bağları ilə bağlıdır.

Qardaş Türkiyə ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindəki ədalətli mövqeyini müdafiə edir, Azərbaycan da, öz növbəsində, Türkiyənin üzləşdiyi problemlərin həllində dəstəyini əsirgəmir.

Ölkəmizin Prezidenti cənab İlham Əliyev demişdir: “Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür” [6, 7].

Azərbaycanın Respublikasının Türkiyə Cümhuriyyəti ilə qonşuluq mövqeyində olması və iqtisadi əlaqələrin səmərəli həyata keçirilməsi, bu ölkələr arasında bir çox sahələrdə qarşılıqlı əməkdaşlıq üçün əlverişli şərait yaratmışdır. Qardaş ölkə ilə cəmi 11 km uzunluğunda sərhədin olmasına baxmayaraq, qədim

zamanlardan hər iki ölkə tarixi köklərlə bir-birinə bağlıdır [2, s.38]. Bu iki qədim tarixi ənənəyə malik olan qardaş ölkələrin iqtisadi əlaqələrinin inkişafına təsir göstərən bir sıra aşağıda qeyd edilən mühüm faktorlar mövcuddur:

Birinci amil - Türkiyə → Naxçıvan → Bakı arasında birbaşa iqtisadi əlaqələrin inkişafı üçün əlverişli nəqliyyat sisteminə malik olmasıdır. Ümumiyyətlə nəzərə almaq lazımdır ki, Azərbaycanın Türkiyə ilə quru sərhəddi yalnız Naxçıvanladır.

İkinci amil – Demək olar ki, bu iki qardaş ölkənin iqtisadi inkişafına müsbət təsir göstərə bilən təbii resursların çoxluğu olduqca sevindirici haldır. Qeyd etdiyimiz, bu amil, xüsusilə əlverişli təbii iqlim şəraitinin mövcudluğu ilin bütün fəsillərində əsas istehsal sahələrinin ritmik fəaliyyətinə imkan verir.

Üçüncü amilə Türkiyə Cümhuriyyəti → Naxçıvan Muxtar Respublikası → İran İslam Respublikası → Azərbaycan Respublikası → Gürcüstan arasında əlverişli nəqliyyat əlaqəsinin mövcudluğunu göstərmək olar. Bu olduqca əhəmiyyətli amildir. Ona görə ki, yalnız Naxçıvanla quru sərhədi nəzərə alsaq və Azərbaycanın da Naxçıvanla birbaşa sərhədinin mövcud olmaması bu amili xüsusi ilə diqqət mərkəzinə gətirir. Azərbaycanın Türkiyə ilə əlaqəsi ən qısa yolla ya İranla, ya da Gürcüstanla mümkündür və bu sahədə nəqliyyat sisteminin olması qarşılıqlı əlaqələrə öz müsbət təsirini göstərməkdədir.

Dördüncü amil – Qardaş ölkə olan Türkiyə Cümhuriyyəti müasir şəraitdə iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayan çoxsahəvi istehsal quruluşuna malikdir. Sənayenin bir çox sektorlarının: metallurgiya, maşınqayırma, kimya, yüngül və yeyinti sənaye sahələrinin inkişafı, daxili tələbatı ödəməklə yanaşı, xarici iqtisadi əlaqələrin geniş miqyaslı inkişafına da təsir göstərmişdir. Bu səbəblə, digər ölkələrlə olduğu kimi Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikası ilə iqtisadi əlaqələri daha da aktivdir.

Qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyəti həm bir Avropa, həm də bir Asiya ölkəsidir. Bu miqyasdan demək olar ki, bu iqtisadi əlaqələrin geniş əsaslarla qurulmasına digər bir effektiv haldır.

Şübhəsiz ölkələr arasında əlaqələrin formalaşması və inkişafına təsir edən müxtəlif faktorlar bir-birini tamamilə tamamladığına görə bu faktorlara Azərbaycan və Türkiyənin maraqlarından irəli gələn amillər kimi baxmaq daha məqsədə uyğun olar. İlk öncə, Türkiyə Cümhuriyyətinin siyasi-iqtisadi maraqlarını ifadə edən faktorları geniş formada müxtəlif ədəbiyyatlardan istifadə etməklə araşdırdıq. Fikrimizcə qarşılıqlı əməkdaşlıq əlaqələrin inkişafını zəruri edən amillərdən Türkiyə dövlətinin maraqlarını ifadə edən bu amillərə onun xarici siyasətinin iqtisadi aspektlər prinsipindən baxmaq və xarakterik xüsusiyyətlərinə əsaslanmaq aparmış olduğumuz tədqiqatın reallığı əks etdirməsi və aktuallığı baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir. Bu səbəbdən qardaş ölkə Türkiyə Cümhuriyyətinin yeritdiyi xarici siyasətdəki əsas iqtisadi aspektləri kompleks formada tədqiq edərək aşağıdakı nəticələri əldə etdim:

- İqtisadi Əməkdaşlıq Təşkilatında iqtisadi liderliyi daim qoruyub saxlamaq;
- Qərb və Yaxın Orta Şərq arasında "Qızıl körpü" rolunu tam səmərəli şəkildə icra edəbilmək; Nəzərə almaq lazımdır ki, yuxarıda göstərmiş olduğumuz istiqamətlərə təsir edən və onu müəyyənləşdirən faktorlar sırasında ölkənin geosiyasi vəziyyəti, onun sosial strukturu, iqtisadi ehtiyatları, onun mədəni irsi öndə gəlir. Ümumiyyətlə, iqtisadi inkişafın təmin edilməsi məsələsinə toxunarkən geniş mənada Avropa və regionun müsəlman ölkələri ilə Türkiyə arasında tarixi əlaqələrin olması onların dil, və dini ümumiliyinin xüsusi əhəmiyyət kəsb etməsini unutmaq olmaz. Qeyd etmək lazımdır ki, istər Naxçıvan Muxtar Respublikasına istərsə də Azərbaycana siyasi və iqtisadi dəstəyin verilməsi Türkiyənin regionda rolunun möhkəmləndirilməsinin ən səmərəli yollarından biridir. Beləliklə, yuxarıda artıq qeyd etdiyimiz Türkiyənin iqtisadi siyasətinin həyata keçirdiyi əsas istiqamətlərdən ikisi, yəni İƏT-də liderliyin ələ alınması və saxlanılması, habelə Qərblə Şərq arasında ümumi tarazlığın və əməkdaşlığın əldə olunmasına kömək edən "Qızıl körpü" mövzusunun tam olaraq reallaşdırılmasında Türkiyənin rolu istər siyasət və strateji, istərsə də iqtisadi xarakter baxımından dil, mədəniyyət, adət-ənənə, soykökü baxımından oxşar, bəzən də eyni olan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Türkiyənin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri ölkənin regional əlaqələrində Yaxın və Orta Şərq ölkələri ilə iqtisadi əməkdaşlığının inkişafı meylidir. Bu ölkələrin etibarını qazanmaq məqsədilə Türkiyənin bu regionda yeritdiyi iqtisadi siyasətin əsas prinsipləri kimi aşağıdakılar çıxış edir [2, s. 51]:

- Türkiyə ilə mövcud Şərq ölkələri arasında sıx qaşılıqlı iqtisadi əməkdaşlıq;
- Onlarda mövcud olan ziddiyyətlərin aradan qaldırılması və ya tənzimlənməsi məsələsində Türkiyənin rolu və sülh yolu ilə heç bir müdaxilə olmadan həllinin Türkiyə tərəfindən daim müdafiə edilməsi.

Ümumiyyətlə, yuxarıda xüsusilə qeyd etmiş olduğumuz hər iki istiqamətdə Azərbaycan da əhəmiyyətli yer alır və Türkiyə Cümhuriyyətinin maraq dairəsindən kənarda deyil. Unutmaq olmaz ki, Türkiyə Cümhuriyyətinin xarici iqtisadi siyasətində yer alan əsaslı digər istiqamət keçmiş Sovetlər İttifaqına daxil olan, indi isə müstəqillik qazanmış dövlətlərlə, özəlliklə türkdilli respublikalarla qarşılıqlı iqtisadi əlaqələrin

yaradılması və gücləndirilməsidir. Dediyimiz bu məsələ əsasən iki istiqamətdə özünü göstərir və bu istiqamətlər aşağıdakılardır:

- Azərbaycan və digər türkdilli respublikalarla qarşılıqlı iqtisadi əlaqələrin inkişaf etdirilməsi və bu əlaqələrin daim mühkəmləndirilməsi;
- Qara dəniz hövzəsi ölkələri ilə əlaqələrin genişlənməsi və qorunub saxlanılması.

Göstərilən bu istiqamətlərdə də ölkəmizin tutduğu mövqe və həlledici rolu danılmazdır.

Məhz bu səbəbdən yuxarıda göstərilən hər iki istiqamət üzrə Azərbaycanın üstün rolununun araşdırılmasının olduqca əhəmiyyətə malik olduğunu düşünürük. Türkiyənin Şərqlə əlaqələrinin inkişafında üstünlüyü Azərbaycana verməsi və ona regionda bir "körpü" kimi baxması zəruri amillərdən biridir. Azərbaycandan keçməklə Türkiyə, regionun Orta Asiya ölkələrinə, Əfqanıstana, Pakistana çıxış imkanları əldə edir. Bu isə Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı daxilində rolunun artmasına böyük imkanlar açır. Digər tərəfdən Türkiyə irəlidə bir türk ortaq bazarına çevriləcək Qaradəniz İqtisadi Əməkdaşlıq layihəsini gerçəkləşdirərkən, bölgədə təsirli bir siyasi və iqtisadi güc olan Azərbaycan bazarını əldə etmədən bu məqsədinə çata bilməzdi, yəni burada da Azərbaycan Türkiyənin Orta Asiyaya açılan bir qapısı rolunu oynayır. Yuxarıda qeyd etdiyimizdən əlavə olaraq xatırlamaq lazımdır ki, burada başqa bir amil də mövcuddur. Türkiyənin zəif təmin olunduğu təbii və xammal ehtiyatları ilə, xüsusən, enerji daşıyıcıları ilə Azərbaycanın və bu regionun digər ölkələri kifayət qədər geniş təmin olunmuşdur. Bildiyimiz kimi, Türkiyə təkcə regionda deyil, Avropada böyük sənaye ölkəsi sayılır. Bir çox sənaye məhsulları ölkənin daxili tələbatını ödəyir və daxili bazar, artıq artan istehsal üçün buxova çevrilməməlidir. Məhz bu səbəbdən Türkiyənin Azərbaycanda iqtisadi fəaliyyətinin artmasını şərtləndirən digər amil, türk malları üçün yeni satış bazarlarının axtarılmasına olan cəhdidir. İnkişaf etməkdə olan istehsalı satış bazarı ilə təmin etmək baxımdan regiona daxil olan ölkələr, o cümlədən də Azərbaycandakı bazarların mövcudluğu yüksək keyfiyyətli türk malları üçün potensial bazarlardır. Bu mallar rəqabət üstünlüyünə və bazar payının böyük hissəsini əldə etmək imkanlarına malikdir. İndi isə araşdırmamızın ikinci hissəsinə, yəni Türkiyə Azərbaycan əlaqələrinə Azərbaycanın maraqları baxımından baxaq. Türkiyənin bir müsəlman və türk dövləti olması faktoru və bütün məsələlərdə Azərbaycanın nəinki dostu, "böyük qardaşı" olması və onu dəstəkləməsi Azərbaycan üçün ən dərin maraq və gücdür. Bu ən böyük və başlıca amildir. Türkiyə-Azərbaycan münasibətlərini zəruri edən digər amil, Azərbaycanın maraqlarının, Türkiyənin istər Qərb ölkələri və ABŞ, istərsə də region dövlətləri ilə iqtisadi əlaqələrində nəzərə alınması və təmin olunmasıdır. Bu marağı doğuran amillərdən: hərbi-siyasi, iqtisadi əməkdaşlıq Azərbaycanın maraqlarının müdafiəsi imkanlarının olması, Türkiyənin "Avropa ailəsinə inteqrasiyasındakı geniş imkanları, regional konfliktlərin həll edilməsində böyük təsir imkanlarının və rolunun olması və s.daha çox əhəmiyət kəsb edən amillərdəndir. Azərbaycanla Türkiyə arasında qarşılıqlı iqtisadi münasibətlərin inkişafını zəruri edən digər amil ölkəmizin xarici bazarlar, xüsusən də bizi daha çox maraqlandıran və cəlb edən qərb bazarlarına çıxış imkanının olmasıdır. Məlum olduğu kimi Azərbaycanın inkişaf etmiş Qərbi Avropa ölkələri ilə əməkdaşlığının daha da genişləndirilməsinə, həmin ölkələrlə qonşuluğun olması və həmin bazarlara birbaşa çıxış yolunun olmaması məhdudlaşdırıcı təsir göstərir. Bu bazarlara Rusiya Federasiyasını keçməklə çıxmaq imkanları isə Rusiyanın ölkəmizdəki və həm də Azərbaycanın Rusiya ilə uyğun gəlməyən maraqlarının mövcudluğunun təsiri ilə məhduddur. Belə bir şəraitdə Azərbaycan Türkiyədən keçməklə Açıq dənizə çıxmaq və Qərblə təmas etmək imkanları əldə edə bilər. Bu da Türkiyənin öz üzərinə götürdüyü "Qızıl körpü" rolunu oynaması istəyi ilə uyğunlaşır.

Ümumiyyətlə tədqiqatımızda Azərbaycan və Türkiyə arasındakı iqtisadi münasibətlərin real - praktik əlaqə və perspektivlər baxımdan dəyərləndirilməsini həyata keçirtməyə çalışdıq. Müasir zamanda qloballaşma özünün elə bir inkişaf mərhələsinə çatmışdır ki, dünyanın heç bir ölkəsi tədric olunmuş halda inkişaf edə bilməz.

İki ölkə arasındakı əlaqələrin araşdırılması zamanı aydın oldu ki, müasir dövrdə Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq iqtisadiyyatın bir çox sahələrində inkişaf edir. Bunun nəticəsində Azərbaycan torpağı olan Naxçıvan dinamik inkişaf edir, dünya birliyinə uğurla inteqrasiya edən çox önəmli bir bölgəyə çevrilir.

Diyarımız bir sıra beynəlxalq elmi konfranslara ev sahibliyi etmişdir. Naxçıvanda "Avropa günləri", Türk Şurası Gənc Liderlərinin ilk forumu, eləcə də TÜRKSOY-un "Türk-İslam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri" mövzusunda ilk dəfə beynəlxalq konfransı keçirilib. Xalqların eyni mədəniyyəti, dini, vahid dili bu əlaqələrin möhkəm əsasda inkişafının mümkünlüyünə təsir göstərir. Türkiyə-Azərbaycan əlaqələrini başqa ölkələr arasındakı münasibətlərlə müqayisə etmək mümkün deyil.

Ümumiyyətlə, "Güclü Azərbaycan Güclü Türkiyə!" və ya "Güclü Türkiyə Güclü Azərbaycan!" şüarları hər iki dövlətin elitası tərəfindən qəbul olunur.

## ƏDƏBİYYAT


1. Aslanov E. Azərbaycan-Türkiyə: dostluq, qardaşlıq və strateji tərəfdaşlıq. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı:2011, 158 s.
2. Cahangirli C.X. Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri. Bakı: Araz, 2006, 109 s.
3. http://ataturk.az/merkez-haqqinda/
4. http://files.preslib.az/projects/nax/pressa.pdf
5. https://az.wikipedia.org/wiki/Mustafa_Kamal_Atat%C3%BCrk
6. http://anl.az/down/meqale/az_ordusu/2017/may/545339.htm
7. http://www.adalet.az/w66574/details/#.XJnmb9JKjIU


## ABSTRACT


**Zaur Alıyev**


## ECONOMIC APPROACH TO NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AND TURKEY RELATIONS


During the study, we examined the mutual economic relations between the two countries. The article covers the evaluation of economic relations between Azerbaijan and Turkey in terms of real - pragmatic contacts and perspectives. In the modern world, globalization has reached its own stage of development so that no country in the world can develop gradually. During the investigation of relations between the two countries, it became clear that cooperation between Turkey and Azerbaijan is developing in many areas of the economy in modern times. As a result, Nakhchivan, a land of Azerbaijan, is developing dynamically and becoming a very important region that successfully integrates with the world community. Our region hosts several international scientific conferences. The first international conference on "European Days" in Nakhchivan, the first Forum of Young Leaders of the Turkic Council and TURKSOY was held for the first time on the topic of "Turkic-Islamic Moral Philosophers: Scientists from the Turkic-speaking Anatolian Education School". The same culture of the peoples, religious and unified language affects the possibility of these relations on a solid basis. It is impossible to compare Turkish-Azerbaijani relations with other countries. Generally, the slogans "Strong Azerbaijan Powerful Turkey!" Or "Strong Turkey Powerful Azerbaijan!" Are accepted by the elite of both countries.


## РЕЗЮМЕ


**Заур Алиев**


## ЭКОНОМИЧЕСКИЙ ПОДХОД К ОТНОШЕНИЯМ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ И ТУРЦИИ


В ходе исследования мы рассмотрели взаимные экономические отношения между двумя странами. В статье рассматривается оценка экономических отношений между Азербайджаном и Турцией с точки зрения реально-прагматических контактов и перспектив. В современном мире глобализация достигла своей собственной стадии развития, так что ни одна страна в мире не может развиваться постепенно. В ходе исследования отношений между двумя странами выяснилось, что сотрудничество Турции и Азербайджана развивается во многих сферах экономики в наше время. В результате Нахчыван, Азербайджанская земля, динамично развивается и становится очень важным регионом, который успешно интегрируется в мировое сообщество. В нашем регионе проходит несколько международных научных конференций. Первая международная конференция «Европейские дни» в Нахчыване, первый Форум молодых лидеров Тюркского совета и ТЮРКСОЙ впервые была проведена на тему «Тюркско-исламские моральные философы: ученые из тюркоязычной Анатолийской школы образования». ». Та же культура народов, религиозный и единый язык влияет на возможность этих отношений на прочной основе. Невозможно сравнить турецко-азербайджанские отношения с другими странами. Вообще, лозунги "Сильный Азербайджан, Мощная Турция!" Или "Сильная Турция, Могущественный Азербайджан!" Принимаются элитой обеих стран.

**MƏHSƏTİ ƏSGƏROVA (MƏMMƏDOVA)**
*Naxçıvan Dövlət Universiteti*
*Mehsetimemmedova 1974@ gmail*

# NAXÇIVAN-TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİ: İNNOVASİYALAR, REALLIQLAR, PERSPEKTİVLƏR.

**Açar sözlər:** *Naxçivan, Türkiyə, iqtisadi əlaqələr, iqtisadi islahatlar, innovasiyalar, rellıqlar,perspektivlər*
**Key words**: *Nakhchivan, Turkey,economic reforms, economic relations, innovations, realities,perspectivies*
**Ключевые слова**: *Нахчыван, Турция, экономические реформы, экономические отношения, инновации, реалии, перспективы.*

Məqalədə Naxçıvan torpağının qədimliyindən, aparılan islahatlardan, dayanıqlı iqtisadi inkişafdan bəhs edilir.

Məqalədə Naxçıvan-Türkiyə arasındakı iqtisadi əlaqələrdən, innovasiyalardan, rellıqlardan danışılır.

Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Azərbaycan, eləcə də Naxçıvan-Türkiyə iqtisadi əlaqələrinin əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirdiyi Naxçıvan Muxtar Respublikasında müxtəlif sahələri əhatə edən dövlət proqramlarının keçirilməsi nəticəsində innovativ inkişaf davamlı xarakter alıb.

Strateji tərəfdaşlıq səviyyəsinə yüksələn dostluq və qardaşlıq münasibətlərimiz inkişaf edir və bu əlaqələr dünyaya nümunədir.

Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir.

Naxçıvanın Azərbaycanın himayəsi altında olan Muxtar ərazi RSFSR ilə Türkiyə arasında 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabrında imzalanmış Qars müqaviləsində tərtib edildi. Naxçıvan statusunun iki beynəlxalq müqavilədə əks olması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilir.

Ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirdiyi Naxçıvan Muxtar Respublikasında müxtəlif sahələri əhatə edən dövlət proqramlarının keçirilməsi nəticəsində innovativ inkişaf davamlı xarakter alıb. Milli və bəşəri dəyərlərin vəhdətdə yaşadıldığı muxtar respublikada bu gün aparılan məqsədyönlü dövlət siyasəti sayəsində müasir sənaye kompleksləri yaradılıb, özəl sektorun fəaliyyəti genişləndirilib.

Heydər Əliyev doğma torpağına- Naxçıvana qayıtdıqdan sonra təcrübəsinə, şəxsi nüfuzuna söykənərək muxtar respublikanı bu böhran vəziyyətindən çıxarmaq üçün durmadan səy göstərməyə başladı. İlk növbədə İran və Türkiyə vasitəsilə vəziyyətdən çıxış yolu axtarmağa başladı.

Son illər Naxçıvan Muxtar Respublikasında həyata keçirilən islahatlar iqtisadiyyatın inkişafına yeni mərhələ açmışdır. İqtisadiyyatın bir çox sahələrində xarici iş adamlarının çalışması, investisiyaların cəlb edilməsi xarici iqtisadi əlaqələrin inkişafına da güclü təkan vermişdir. Bu ilk növbədə özünü qonşu ölkələrlə iqtisdi münasibətlərin inkişafında göstərir.

Azərbaycan-Türkiyə əlaqələrinin əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur, 1993-cü ildən isə bir millətin iki dövləti səviyyəsinə qalxmışdır.

Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq xüsusən xarici ticarət və investisiya qoyuluşu istiqamətlərində daha çox inkişaf edir.

“Naxçıvan türk-islam dünyasına bir qapıdır” söyləyən Naxçıvan Ali Məclisinin o zamanki sədri Heydər Əliyevin Türkiyə Respublikasına ilk səfəri 1992-ci ilin martında həyata keçirilmiş, səfər zamanı Türkiyə Prezidenti Turqut Özal, Baş nazir Süleyman Dəmirəl və digər rəsmi şəxslərlə görüş keçirilmişdir.

Görüşlərdə əsas müzakirə edilən məsələ isə unudulmaqda olan Qars müqaviləsini yenidən gündəmə gətirməklə Ermənistanın Azərbaycana qarşı təcavüz və Naxçıvanın düşdüyü ağır vəziyyət olmuşdur.

Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq xüsusən xarici ticarət və investisiya qoyuluşu istiqamətlərində daha çox inkişaf edir.

Türkiyə Azərbaycanın əsas ticarət və investisiya tərəfdaşlarındandır. Azərbaycanda Türkiyə sərmayələri əsasında üç mindən çox, Türkiyədə isə Azərbaycan investisiyalı iki minə yaxın şirkət fəaliyyət göstərir. Azərbaycan investisiyaları 11,7 mlrd ABŞ dolları, Azərbaycanın Türkiyəyə investisiyaları isə 10,1 mlrd ABŞ dollardır. Əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri var. Təhsil, səhiyyə, mədəniyyət, ticarət, iqtisadiyyat və ordu quruculuğu sahələrində əlaqələrin inkişafı məmnunluq döğurur. Azərbaycan-Türkiyə, eyni zamanda Naxçıvan Muxtar Respublikasının iqtisadi əlaqələrinin əsası onunla qonşu olan Türkiyənin payına düşür.

1991- ci il noyabrın 15-də Ali Məclisin sədri Heydər Əliyev Naxçıvana gəlmiş Türkiyənin Nəqliyyat Nazirliyinin dəmir yolu, liman və aeroport tikintisi üzrə departamentinin baş direktorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Görüşdə Araz çayı üzərində körpünün tikintisindən geniş danışıldı. 1992-ci ilin yanvar ayınadək tikintinin başa çatması və istifadəyə verilməsi haqqında razılığa gəlindi. Görüşdə dəmir yolu tikintisini də sürətləndirmək zərurətindən söhbət açıldı.

1991- ci il noyabrın 18-də Araz çayı üzərindən salınmış müvəqqəti körpü vasitəsilə Türkiyənin Konya şəhərindən ərzaqla dolu maşın karvanı Naxçıvana gəldi. Ali Məclisin sədri Heydər Əliyev Konya şəhəri ziyalılarının nümayəndələrini qəbul etdi və bildirdi ki, Türkiyənin bu addımı iki qardaş xalqın bir-birinə yaxınlaşmasına kömək edir.

Qardaş Türkiyə Respublikasından Muxtar Respublikaya yardım davam etməkdə idi. Noyabrın 29-da Türkiyənin İğdır şəhərinin əhalisi və valiliyi Naxçıvana 19 yük maşını ərzaq göndərdilər. Yardım gətirən İqdır Bələdiyyə İdarəsinin rəisi Əli Ağrı Heydər Əliyevlə görüşündə bildirdi ki, Naxçıvan Muxtar Respublikasına göndərilən qardaş yardımı bundan sonra da davam edəcəkdir.

Türkiyənin "Firudin Dinkər Kifayət" tikinti, turizm, sənaye və ticarət şirkətinin sahibi Firudin Ayrım Naxçıvana gəldi və özü ilə qardaş payı gətirmişdir. Ali Məcilisin sədri ilə görüşdə Türkiyə şirkətinin iştirakı ilə Muxtar Respublikada duz, mineral sular istehsalı üzrə birgə müəssisələr yaradılması, dünya standartlarına uyğun müasir tipli mehmanxanalar tikilməsi və s. məsələlər müzakirə edildi.

Ali Məclisin sədri Heydər Əliyev Türkiyə Respublikasından gəlmiş nümayəndə heyətini- Aralıq kaymakanı Həsən İpək, Qars əmniyyət müdiri Osman Gəzəgər, Aralıq bələdiyyə başqanı Yıldırım Tural, " Küdekli" heyvandarlıq və turizm ticarət şirkətinin başçısı Turqut Küdeklini qəbul etdi. Həmin nümayəndə heyəti Naxçıvana Süleman Dəmirəlin tapşırığı ilə gəlmişlər. Əsas məqsəd isə Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında-Sədərəkdə açılacaq ilk gömrükxananın təşkili məsələlərini birgə müzakirə etmək idi.

1992-ci ilin yanvarında Türkiyənin "Şahap qroup" daxili və xarici ticarət şirkəti idarə qrumunun başqanı Zəkan Savaşlar Naxçıvana gəldi. Ali Məclisin sədri Heydər Əliyev Türkiyəli qonağı qəbul etdi. Görüşdə "Şahap qroup" şirkətinin Muxtar Respublikanın bir neçə sənaye müəssisəsi ilə birgə istehsal fəaliyyəti, ticarət əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilərək, bir sıra razılaşmalar əldə olundu.

1992-ci il fevralın 5-də Naxçıvan Muxtar Respublika Ali Məclisinin Rəyasət heyəti Türkiyə Respublikasının bir neçə iri şirkəti ilə iqtisadi və ticarət əlaqələrinin yaradılması və tənzimlənməsi məsələlərini müzakirə etmiş, həmin müzakirəyə Türkiyə Respublikasının vətəndaşı, hüquq və iqtisadi elmləri üzrə mütəxəssisi Zəkan Savaşlar da dəvət edilmişdir. Zəkan Savaşlar Naxçıvan Muxtar Respublikasındada iqtisadi hüquq qanunlarının yenidən təşkili, kənd təsərrüfatı və torpaq islahatları və s. məsələlərin həlli üçün xüsusi proqram hazırlayırdı. Ona görə də, Ali Məclisin Rəyasət heyəti onu Naxçıvan Muxtar Respublika Ali Məclisin sədrinin hüquq və iqtisadi məsələlər üzrə baş müşaviri təyin etdi.

1992-ci il fevralın 6-da Ali Məclisin sədri Heydər Əliyev Türkiyənin "Madcan" xarici ticarət şirkətinin prezidenti İbrahim Aydını qəbul etdi. Türkiyənin "Madcan" xarici ticarət şirkəti ilə bağlanmış müqaviləyə əsasən Naxçıvana Türkiyədən xeyli un və taxıl daxil olmuşdur.

1992- ci il martın 22-də Ali Məclisin sədri Heydər Əliyev Türkiyə Respublikasının prezidenti Turqut Özalın və baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Türkiyə Respublikasına rəsmi səfərə getdi. Görüşdə tərəflər Qarabağda vəziyyəti və münaqişənin aradan qaldırılmasının mümkün yollarını, Türkiyənin Muxtar Respublikaya texniki və iqtisadi yardımların artırılması məsələlərini müzakirə etdilər. Martın 25-də Ali Məclisin sədri Heydər Əliyevin Türkiyə Respublikasına səfəri başa çatmışdır.

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında 24 mart 1992-ci ildə bağlanmış iş birliyi protokoluna əsasən Türkiyə hökuməti Naxçıvana yardım olaraq 1002 ton azot gübrəsi, 280 ton göy daş, 80 ton pres ipi, 20 ton elektrod, 840 ədəd müxtəlif akkumlyator, 10 ton karbit göndərmişdir.

Türkiyə Respublikası ilə bağlanan Əməkdaşlıq Protokoluna əsasən muxtar respublikada telefon, faks,

teleks kimi xəbər sistemlərinin qurulması üçün xüsusi proqram hazırlanması nəzərdə tutulmuşdur. Türkiyənin “Teletaş” şirkətinin qısa müddətdə hazırladığı proqramda muxtar respublikanı beynəlxalq telefon rabitəsi ilə təmin etmək üçün burada 3 min nömrəlik mərkəzi avtomat telefon və 200 nömrəlik teleks stansiyası, Naxçıvanın Bakı ilə rabitəsinin daha dayaxşılaşdırılması məqsədilə 300 kanalı olan “Peyk” stansiyasını quraşdırmaq, Naxçıvanla Türkiyə arasında radiorele sisteminin kanal sayını 120-yə çatdırmaq nəzərdə tutulmuşdur.

Naxçıvanla Türkiyə arasında imzalanan Əməkdaşlıq Protokolu sahəsində artıq ilkin addımlar atıldı. Protokolda nəzərdə tutulanların həyata keçirilməsi Naxçıvanla Türkiyə arasında salınmış körpüdən başladı. İki qardaş xalq arasında salınmış körpünün əhəmiyyəti imzalanan Əməkdaşlıq Protokolunda sonra daha da artdı. ABŞ-dan Türkiyəyə beş təyyarə ərzaq malları və tibb ləvazimatı gətirildi. Həmin məhsullar Türkiyə hökuməti tərəfindən “ Qızıl Ay” Cəmiyyətinin xətti ilə muxtar respublikaya göndərildi.1992-ci il mayın 21-də Türkiyənin Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Naxçıvana gəlir. Böyük elçi Ömər Ərsunun başçılıq etdiyi nümayəndə heyətinin Naxçıvana gəlməkdə məqsədi erməni silahlı birləşmələrinin davam edən təcavüzünün nəticələri ilə tanışlıq olmuşdur.

Ermənilərin Naxçıvana mütəmadi olaraq hücumlarının davam etməsi, Naxçıvanı blokadaya salması nəticəsində muxtar respublikada ağır vəziyyət yaranışdır. Bakıdan hava yolu ilə heç bir şey gətirmək mümkün deyildi. Ona görə də Heydər Əliyevin tağşırığı ilə mayın 20-dən Ali Məclisin sədr müavini Qafar Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə səfər etdi. Məqsəd Türkiyə hökuməti tərəfindən Naxçıvan Muxtar Respublikasına ayrılmış 100 mln Amerikan dolları məbləğində olan kreditdən istifadə olunması məsələsinin həlli ilə məşğul olmaq və ilk növbədə bu kredit hesabına ərzaq məhsullarının alınıb tezliklə Naxçıvana göndərilməsi məsələsini həll etmək idi. Eyni zamanda, Heydər Əliyevin Süleyman Dəmirəl ilə danışıqları nəticəsində döyüşdə ağır yaralanmış yaralıların Türkiyədə müalicə olunmaları razılaşdırılmışdır.

1992- ci il mayın 28-i Azərbaycan tarixinə əlamətdar bir gün kimi daxil oldu. Həmin gün Sədərəkdə Naxçıvanla Türkiyə arasında körpünün açılış mərasimi oldu. Mayın 28-də Türkiyənin Baş naziri Süleyman Dəmirəlin xüsusi təyyarəsi Naxçıvana gəldi. Ali qonağı qarşılamaq üçün respublika prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Ali Sovetinin sədri İ.Qəmbərov, Azərbaycanın baş naziri R.Hüseynov, Ali Sovet sədrinin müavini A.Cəlilov, Türkiyənin Azərbaycandakı səfiri və başqa rəsmi şəxslər Naxçıvana gəlmişdilər. Yeni körpünün uzunluğu 288 m, eni 12 m, ümumi smeta dəyəri 5 mln manatdan çox idi. Körpünü Türkiyənin məşhur “Madson-Dış” Yol Tikinti Şirkəti Naxçıvan Təmir-Tikinti İdarəsi ilə birlikdə inşa etmişdir. Ölkələrimiz arasında əlaqələrin inkişafında yeni mərhələni göstərən bu təntənəli gündə buraya 10 minlərlə həm azərbaycanlı, həm də türkiyəli gəlmişdir. Bu körpü iki qardaş xalqın həsrətinə son qoymaqla yanaşı, iki respublika arasında iqtisadi, mədəni əlaqələrin genişlənməsi və inkişaf etməsi baxımından çox böyük əhəmiyyətə malik idi. Naxçıvanlıların “Həsrət körpüsü”, “Ümid körpüsü”, türklərin “Könül körpüsü” adlandırdıqları bu körpünün tikilişindən təcavüzkar Ermənistan daha böyük narahatlıq keçirməyə başladı. Körpünün açılışından sonra Naxçıvan şəhərində Türkiyə bankının açılışı oldu. Naxçıvanın Azadlıq meydanında Süleyman Dəmirəl respublika ictimaiyyəti ilə görüşdü. Mayın 29-da axşam baş nazir Süleyman Dəmirəl Vətənə yola düşdü. Bu körpünün istifadəyə verilməsi Naxçıvanın həyatında yeni bir mərəhələnin başlanğıcı oldu.

Heydər Əliyev Türkiyə səfərində Naxçıvan üçün hələ ki, problem olaraq qalan bir sıra məsələlərin də həllinə nail oldu. Bu məsələlərdən biri Türkiyə ilə Naxçıvan arasında gediş-gəlişin sadələşdirilməsi məsələsi idi. Ali Məclisin sədri Heydər Əliyevin Türkiyə Prezidenti Turqut Özal və Baş nazir Süleyman Dəmirəllə görüşündə belə qərara gəlindi ki, Azərbaycan vətəndaşları hələ də sovet pasportundan istifadə etdiklərinə görə, həmin pasportun içərisinə Türkiyədə hazırlanacaq bir vəsiqə əlavə edilsin. Digər bir məsələ Türkiyə Respublikasının Naxçıvanda konsulluğunun açılması məsələsi idi ki, bu da öz müsbət həllini tapdı. Heydər Əliyevin Türkiyə prezidenti Turqut Özal, Baş nazir Süleyman Dəmirəl və Xarici İşlər naziri H.Çətinlə apardığı əsas söhbətlərdən biri Ermənistanın Naxçıvana təcavüzü və sərhədlərdə olan vəziyyət barədə idi. Ali Məclisin sədri mətbuat nümayəndələri, habelə xarici ölkə müxbirləri üçün mətbuat konfransı keçirdi və bütün bunlar Türkiyə televiziyası və qəzetləri vasitəsilə geniş yayıldı. Heydər Əliyevin xahişinə əsasən Ermənistanla vuruşmalarda yaralanmış bir qrup naxçıvanlı döyüşçünün Türkiyə xəstəxanalarında müalicə alması üçün Türkiyəyə gətirilməsi barədə razılıq əldə edildi. Heydər Əliyev İstanbulda, Ərzurumda, İğdırda və Türkiyənin bir sıra şəhərlərində ictimaiyyət nümayəndələri ilə görüşlər keçirdi. Onun iyunun 4-də İzmirdə keçirilən beynəlxalq konqresdə çıxışı daha böyük rəğbətlə qarşılanmışdı.

Naxçıvan ilə Türkiyə arasında 24 mart 1992-ci ildə bağlanmış iş birliyi protokoluna əsasən Türkiyə hökuməti tərəfindən ayrılmış kredit hesabına Naxçıvan əhalisinin ərzaq məhsulları ilə təmin edilməsinə başlanmışdır. Belə ki, 15 sentyabr 1992-ci ilə qədər 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü Naxçıvana daxil olmuş, müvafiq qaydada bölünüb əhaliyə satışı təşkil edilmişdir.

Türkiyənin “Qızıl Ay” və İranın “Hilal Əhməf” Cəmiyyətindən 1992-ci il mart ayından sentyabr ayının 15-ə qədər yardım olaraq 785 ton un , 56 ton yağ, 87 ton şəkər daxil olaraq ərzaq komissiyası vasitəsilə qiymətləndirilmiş, əhaliyə satılmışdır.

Türkiyə tərəfindən Naxçıvana ərzaq malları alınması üçün ayrılmış 10 mln dollar məbləğində kredit hesabına 1992-ci ilin son 4 ayı ərzində sentyabr-dekabr aylarında Naxçıvana 293 ton mal əti , 250 ton kərə yağı, 700 ton marqarin, 182 ton zeytun yağı, 363 ton günəbaxan yağı, 460 ton toyuq əti, 2.283 ton şəkər tozu, 400 ton düyü, 600 ton makaron, 6 min ton un gətirilmişdir. Bu yardımların Naxçıvan üçün nə qədər əhəmiyyətli olduğunu təsəvvür etmək üçün həmin aylarda Bakıdan Naxçıvana gələn malları müqayisə etmək kifayətdir. Belə ki, sentyabr ayından dekabr ayınadək Bakıdan Naxçıvana 15 ton mal əti, 219 yon kərə yağı, 35 ton şəkər tozu, 164 ton düyü, 2 ton makaron, 3200 ton un gəlmişdir.

1992-ci il 22-25 martda Baş nazir Süleyman Dəmirəllə Türkiyə Cümhuriyyəti tərəfində Naxçıvandan 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolu imzalanmışdır.

1991- ci il avqustun 10 -da Ali Məclisin sədri Heydər Əliyev başda olmaqla Naxçıvan MR-in nümayəndə heyəti Türkiyə Respublikasının Baş naziri S.Dəmirəlin dəvəti ilə Türkiyəyə səfərə getdi. Həmin gün muxtar respublikanın nümayəndələri Türkiyədə İğdır vilayətinin yaradılması münasibətilə keçirilən şənliklərdə iştirak etdilər. Heydər Əliyev Süleyman Dəmirəl ilə görüşmək və Naxçıvan iqtisadiyyatının problemlərinə dair danışıqlar aparmaq üçün Ankaraya yola düşdü. Aparılan danışıqlar nəticəsində Türkiyənin təcili olaraq Naxçıvana ərzaq və maliyyə yardımı göstərməsi barədə Süleyman Dəmirəl sərəncam verdi. Avqustun 11-də Ankarada Türkiyə və Azərbaycanın Xarici İşlər nazirlərinin imzaladığı konsul sazişinə və ona əlavə protokola əsasən müvafiq olaraq İstanbulda və Naxçıvanda iki ölkənin konsulluqlannın açılması nəzərdə tutulmuşdur.

1992- ci il aprelin 16-da Heydər Əliyev Türkiyənin İğdır vilayətinə işgüzar səfərə çıxdı. İğdırda Naxçıvana ərzaq və digər yardımlar göstərilməsi barədə konkret təkliflər irəli sürüldü, qarşılıqlı iqtisadi əlaqələrin və sərhədyanı ticarətin genişləndirilməsi barədə razılıq əldə edildi.

Beləliklə, son dərəcə ağır vəziyyətdə olmasına və blokada şəraitində yaşamasına baxmayaraq Heydər Əliyev özünün böyük nüfuzu hesabına qonşu Türkiyə və İranın, eyni zamanda dünyanın böyük dövlətlərinin, o cümlədən ABŞ-ın yardımını təşkil edə bildi və Naxçıvanın aclıqdan, soyuqdan, erməni təcavüzündən qorumağa nail oldu. Ağır problemlərlə qarşı-qarşıya qalmaq son dərəcə çətin duruma salınan Naxçıvan əhalisi bu şəraitdə ulu öndərin ətrafında sıx birləşərək əsl fədakarlıq göstərərək vəziyyətin düzələyəcəyinə böyük inam bəsləyirdilər. Bu inam şöləsini isə naxçıvanlıların ürəyində yandıran insan, əhalini bu çətinlikdən qurtarmaq üçün yorulmadan gecə-gündüz çalışan dünya şöhrətli siyasətçi Heydər Əliyev idi. Əfsanəvi şəxsiyyətin belə vaxtda naxçıvanlılarla birgə olması, çətinlikləri onlarla birgə yaşaması insanlara ruh verdi. Sadə insanlar böyük siyasətçinin ətrafında birləşərək Azərbaycanla əlaqəsi kəsilmiş Naxçıvanı erməni hücumlarından qorudular.

İkitərəfli münasibətlərin, ticarət əlaqələrinin möhkəmlənməsi, qarşılıqlı inam və etibar mühitinin formalaşması nəticəsində türk iş adamlarının bölgəyə marağı artdı, bu çox sahələrin inkişafı üçün sərmayələr qoyuldu. Uzun illərdən bəri fəaliyyəti dayanmış, tikinti təşkilatları, sənaye müəssisələri işə düşdü, yeni şirkətlər, istehsal və emal müəssisələri yarandı.

1996-cı ildə Naxçıvandan Türkiyəyə gələn mazutdan 1.489.387.342.000 tl gəli əldə edilmişdi. 1997-ci ildə yanvar-may aylarında 65.731t mazut çıxışının qarşılığında 1.943.954.234.500 tl gəlir əldə edilib. 1995-ci ildə Türkiyədən toplam 32.299.745 dollarlıq ixrac edilib.

Bu yaxınlarda açılışı olmuş Bakı-Tblisi-Qars dəmir yolunun perspektivləri və qardaş Türkiyənin naxçıvanlı sahibkarlara göstərəcəyi logistika dəstəyi də ixrac potensialını artıran amillərdəndir. Bundan başqa enerji mövzusu da iki ölkə arasında əhəmiyyət daşıyan məsələlərdən biridir. Qlobal bir layihə olan TANAP (Trans Anadolu Təbii Qaz Boru Xətt) layihəsinin addımları sürətlənmişdir.

TANAP-ın yola düşməsiylə, Bakı-Tblisi-Qars dəmir yolu və bu kimi layihələrlə Azərbaycan və Türkiyənin mövqeyi və bölgədəki strateji əhəmiyyəti daha da artacaq. Bu istiqamətdə əzm, qətiyyət və siyasi iradə hər iki ölkədə də vardır.

25 ildən artıqdır blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada ərzaq və enerji təhlükəsizliyi təmin olunmuş, alternativ enerji mənbələrindən istifadə imkanları və yerli istehsalın həcmi artırılmışdır. Muxtar Respublikada müasir infrastruktur yaradılmışdır. Təhsil ocaqlarında elektron tədris vasitələrindən istifadə olunur. Bu gün Naxçıvanda üç ali məktəb, üç orta ixtisas, 215 ümumtəhsil məktəbləri, eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi fəaliyyət göstərir. Elm və təhsil müəssisələrimiz Türkiyənin müvafiq qurumları ilə sıx əməkdaşlığa malikdir.

Muxtar Respublikanın xarici ticarət əlaqələrinin inkişafında müasir gömrük və nəqliyyat infrastrukturunun yaradılması böyük əhəmiyyət kəsb edir. Belə ki, Türkiyənin İğdir şəhərində Türkiyə-Biznes formu keçirilmişdir. Türkiyə-Azərbaycan biznes formunda azərbaycan və Türkiyə tərəfindən rəsmiləri, Naxçıvan Muxtar Respublikasından və Türkiyə müxtəlif bölgələrindən olan iş adamları iştirak etmişdir. İğdir valisi Ənvər Ünlü tədbir iştirakçılarını salamlayaraq, Azərbaycan –Türkiyə əlaqələrinin dinamik inkişaf etdiyini, biznes formun İğdırda keçirilməsinin əhəmiyyətini vurğulayıb və iki ölkə arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, əməkdaşlıq imkanlarına, həyata keçirilən layihələrə, ticarət dövriyyəsinin artırılması sahəsində görülən işlərə dair fikirlər bölüşüblər. İki ölkə arasında arasında qardaşlıq

əlaqələrindən danışan Nihat Zeybəkçi Türkiyə Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan Muxtar Respublikasında istehsal edilən və ya istehsal potensialı olan 43 adda məhsulun (13 kənd təsərrüfatı, 30 sənaye məhsulu) Türkiyəninbütün ərazisinə idxal rüsumu ödəmədən güzəştli şərtlərlə daxil olmasına razılıq verildiyi, bu qərarın ticarət əlaqələrinin genişlənməsinə və bölgənin inkişafına əhəmiyyətli töhfə verəcəyini vurğulayıb. Bu güzəştlər yalnız muxtar respublikada istehsal olunan kənd təsərrüfatı və sənaye məhsullarına şamil ediləcək.İxrac əməliyyatlarında təcrübəyə malik olmayan kiçik və orta sahibkarlıq subyektlərinin muxtar respublikada dövlət dəstəyi ilə yaradılmış və ixrac sahəsində ixtisaslaşmış "Naxçıvan Məhsulları MMC"-nin imkanlarından istifadə edə biləcəklərini, tətbiq olunan güzəştli ixrac rejimin iki qardaş ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsinə, ticarət dövriyyəsinin artırılmasına, iş adamlarının arasında işgüzar əlaqələrin inkişafına və xalqımızın rifahına xidmət edəcəyinə əminik. Naxçıvan Muxtar Respublikasında istehsal olunan illik təqribən 100 milyon ABŞ dolları məbləğində məhsullar Türkiyəyə rüsum ödəmədən ixrac ediləcək.

Qardaş Türkiyə ilə iqtisadi əlaqələrdən danışanda onu da qeyd etməliyəm ki, ölkələrimiz arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası fəaliyyət göstərir, Azərbaycanın Strateji layihələri məhz qardaş Türkiyə ilə birgə həyata keçirilir. Bakı-Tblisi-Ceyhan, Cənub Qaz Dəhlizi, "STAR", " Enerji körpüsü" belə layihələrdəndir.

Naxçıvanla Türkiyə arasında asanlaşdırılan iqtisadi münasibətlər Muxtar Respublikanın sənaye müəssisələri üçün ciddi bazar yarada bilər. Görünür ki, Muxtar Respublikanın rəhbərliyi məhz bu amilləri nəzərə alıb. Türkiyə ilə gömrüksüz iqtisadi münasibətləri qurmaqda maraqlıdır.

Prezident İlham Əliyev də muxtar respublikaya səfəri çərçivəsində keçirdiyi görüşlərin birində xüsusi olaraq vurğulayaraq demişdir:" Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır"

Strateji tərəfdaşlıq səviyyəsinə yüksələn dostluq və qardaşlıq münasibətlərimiz inkişaf edir və bu əlaqələr dünyaya nümunədir.

Bu gün Naxçıvan, bütün naxçıvanlılar öz xilaskarına, müasir zəmanəmizin görkəmli xadiminə, Heydər Əliyevə minnətdardılar.

**ƏDƏBİYYAT**


1. H.Cəfərov, A.Mustafayev. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhfələri.Bakı: "Elm və Təhsil" , 2012
2. N.Əhmədov. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: "Sabah" , 2008
3. A.Nadirov,Ə.Nuriyev, Ş.Muradov.Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000
4. G. Çetinsaya Cümhuriyyət dönəmi.Azərbaycan 15 may 2010
5. 2017-ci ildə Nxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi.Naxçıvan 2018-ci il 66s


## ABSTRACT


## NAKHCHIVAN-TURKEY ECONOMIC RELATIONS: INNOVATIONS, REALITIES, PERSPECTIVES

The article deals with economic relations, innovations, realities and perspectivies between Nakhchivan and Turkey.

The article deals with the ancient Nakhchivan land, economic reforms, and sustainable development. The country of Nakhchivan with ancient and rich history, culture and centuries-old traditions has gone through a complicated and difficult way of development. As a result of the state proqrams covering various spheres in the Nakhchivan Autonomous Republic, where the nationwide leader Heydar Aliyev continues his political course, innovative development has acquired a continuous character.

The basis of Azerbaijan, as well as the Nakhchivan-Turkey tconomic relations was laid be national leader Heydar Aliyev. Our relations of friendship and brotherhood rising to the level of strategic partnership are developing today and this isan example to the world.


## РЕЗЮМЕ


## НАХЧЫВАНО-ТУРЕЦКИЕ ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ: ИННОВАЦИИ, РЕАЛИИ, ПЕРСПЕКТИВЫ

В статье рассматриваются экономические отношения, инновации, реалии, перспективы между Нахчываном и Турцией.

В статье рассматриваются древние земли Нахчывана, реформы и устойчивое развитие.

Страна Нахчыван с древней и богатой историей, культурой и многовековыми традициями прошла сложный и сложный путь развития. В результате реализации государственных программ, охватывающихразличные сферы в Нахчыванской Автономной Республике, где общенациональный лидер Гейдар Алиев продолжает свой политический курс, инновационное развитие приобрело непрерывный характер.

Основу экономических отношений между Азербайджаном, а также Нахчываном и Турцией заложил общенациональный лидер Гейдар Алиев.

Наши отношения дружбы и братства, поднимающиеся до уровня стратегического партнерства, сегодня развиваются, и это пример для всего мира.

**ELÇİN ƏLİBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*
*e-elibeyli@mail.ru*

# AZƏRBAYCANDA BƏLƏDİYYƏLƏRİN FƏALİYYƏTİNİN SƏMƏRƏLİ TƏŞKİLİNDƏ TÜRKİYƏ BƏLƏDİYYƏLƏRİNİN TƏCRÜBƏSİNDƏN İSTİFADƏ

**Açar sözlər:** *bələdiyyə, Türkiyə bələdiyyələri, iqtisadiyyat, inkişaf, struktur, fəaliyyət, sosial rifah.*
**Key words:** *municipality, Turkey municipality, economic development, structure, action, social welfare*
**Ключевыесловa:** *муниципальный, Турецкие муниципалитеты, экономика, развитие, структура, действие, социальное обеспечение.*

Azərbaycanda bələdiyyələrin inkişafı və səmərəli fəaliyyətində mövcud problemlərin həll olunması üçün beynəlxalq təcrübədən istifadə olunması, bələdiyyə idarəçiliyinin inkişaf etdiyi ölkələrdə bələdiyyələr sahəsində mövcud qanunvericiliyin öyrənilməsi və tətbiqi mühüm əhəmiyyət kəsb edir. Türkiyədə bələdiyyələrin iqtisadi və sosial sahələrdə əldə etdiyi uğurlar bu ölkənin təcrübəsinin öyrənilməsi və aparılan tədqiqatların düzgün təhlil edilib tətbiq edilməsi zərurətini ortaya çıxarır.

Türkiyədə dövlət idarəetmə sistemi iki hissəyə bölünür: mərkəzi idarəetmə və yerli idarəetmə. Müasir dövrdə dövlət iqtisadi və sosial sahələrdə tədricən çəkilərək öz yerini yerli idarəetmələrə vermişdir. Buna görə də bələdiyyələr əhalinin zəruri ehtiyaclarını ödəmək və iqtisadi funksiyaları yerinə yetirməklə bərabər həm də demokratiyanın təmin olunması və xalqın sosial ehtiyacların ödənilməsində də mühüm faktora çevilmişdir.

Türkiyədə bələdiyyələrin 3 əsas orqanı vardır:
1) Bələdiyyə Məclisi;
2) Bələdiyyə Əncüməni;
3 )Bələdiyyə Başçısı.

**Türkiyədə Bələdiyyə sistemi**




Mərkəzi hakimiyyət bələdiyyələrə hər zaman nəzarət etmə səlahiyyətlərinə malikdir.Bu nəzarəti Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi, Vali İdarəçiliyi və İl İdarə Heyəti tərəfindən təsdiqləmə, işdən uzaqlaşdırma və yerinə qərar alma şəklində həyata keçirilir.

1970-ci illərdə baş verən maliyyə böhranı və bunun ardınca 90-cı illərdə yeni liberalizmə keçid, həmçinin özəl sektorun inkişafı Türkiyədə bələdiyyələrin yeni idarəetmə sisteminə keçməsinə səbəb olmuşdur. Bunun nəticəsi olaraq 1986-cı ildən böyük şəhərlərdə mərkəzləşdirilmiş bələdiyyə idarəçiliyi tətbiq olunmuşdur. Həmçinin qərb ölkələrinin təcrübəsi əsasında bələdiyyələrin özəl sektorda iştirakına təkan verilmişdir.

1990-cı illərdən başlayaraq bələdiyyələr iqtisadi, siyasi və sosial həyatda çox mühüm faktora çevrilmişdir. Həmçinin həmin dövrdən bələdiyyə büdcələrinin müstəqilləşdirilməsi təkan vermişdir ki, bələdiyyələr real sektorda investora çevrilmişdir. Bu da öz növbəsində həm sosial rifahın yaxşılaşdırılmasına, həm iqtisadi inkişafa müsbət təsir göstərmişdir.

Türkiyə bələdiyyələrinin təsərrüfat sahələrində fəaliyyət istiqamətlərinə aşağıdakıları göstərə bilərik:
A) Daşınar və daşınmaz əmlakın satışı, icarəsi və başqa fəaliyyətlər;
B) Bələdiyyə məclisi tərəfindən qəbul ediləcək qərara əsasən sosial, mədəni, istirahət və başqa xidmət sahələrində fəaliyyətlər;

C) Park və istirahət yerlərinin kirayəyə verilməsi;
D) Avtovağzal və avtoparkların salınması və istifadəsi;
E) Digər fəaliyyət sahələri.

Türkiyədə bələdiyyələrin gəlirləri həm yuxarıda göstərdiyimiz fəaliyyət istiqamətlərindən, həm də dövlət büdcəsindən daxilolmalar hesabına formalaşır.

Türkiyə bələdiyyələri fəaliyyət istiqamətlərinin çox olması və iqtisadi həyatda iştirak payının yuxarı olması ölkənin ictimai və siyasi həyatında da iştirakına təkan vermişdir. Türk bələdiyyələrinin iqtisadi müstəqillik təcrübəsi Respublikamızda da bələdiyyələrin fəaliyyətinə tətbiq olunmalıdır. Bu isə öz növbəsində əhalinin rifah halının yaxşılaşdırlmasına müsbət tədir edəcək və demokratik dəyərlərin yaxşılaşdırmasına müsbət təsir göstərəcəkdir. Yəni bələdiyyə büdcələrinin müstəqilləşdirilməsi və bələdiyyə gəlirlərinin təsərrüfat sahələrinə investisiya qoymaqla əldə ediləcək gəlirlər bələdiyyələrin yerlərdə əhalinin rifah halına, işsizlik səviyyəsinin azaldılmasına, rəqabətə, istehsal sahələrinin çeşidliliyinin artmasına təsir göatərəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Konstitusiyası, Bakı-2005.
2. "Bələdiyyələrin statusu haqqında" AR Qanunu, 2 iyul 1999-cu il.
3. Səlimzadə M.,Yerli özünüidarəetmə hakimiyyətinin əsasları: nəzəri və praktiki məsələlər, Bakı-2010.
4. Ibrahimov İ.A.,Bələdiyyə idarəçiliyinin beynəlxalq təcrübəsi, Bakı-2014.
5. Əliyev Q., Pərvizoğlu V., Yerli hakimiyyət və özünüidarəetmə orqanları. Beynəlxalq təcrübə, Bakı-1998.
6. https://www.researchgate.net/publication/322399759_Belediye_Sirketleri_ve_Istirakler
7. http://www.tbb.gov.tr/belediyelerimiz/istatistikler/genel-istatistikler/


## ABSTRACT


**Elchin Alibayli**


**USING THE EXPERIENCE OF TURKISH MUNICIPALITIES IN ORGANIZING EFFECTIVE ACTIVITIES OF AZERBAIJANI MUNICIPALITIES**


The municipal system, which is one of the main requirements of the democratic system in our country, was granted a legal status in the 1995 Constitution and the first elections were held in 1999. Since then, laws and legislative acts have been adopted to improve the activities of municipalities. However, researches show that the municipal system has not developed at the required level, and it negatively affects to meet social and public needs of the population. In order to overcome the shortcomings in the municipal system, the experience of countries with local self-governance systems should be studied and applied appropriately. And in this area, our neighbour, the Republic of Turkey is ahead of many countries around the world for its municipal system development and direction of activity. For this reason, Turkey's municipal system should be thoroughly investigated and applied for the shortcomings of the municipal system in our country.


## РЕЗЮМЕ


**Эльчин Алибейли**


**ИСПОЛЬЗОВАНИЕ ОПЫТА МУНИЦИПАЛИТЕТОВ ТУРЦИИ В ОРГАНИЗАЦИИ ЭФФЕКТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ МУНИЦИПАЛИТЕТОВ АЗЕРБАЙДЖАНА**


Муниципальная система, которая является одним из основных требований демократической системы в нашей стране, получила конституционный статус в Конституции 1995 года, а первые выборы состоялись в 1999 году.С тех пор были приняты законы и законодательные акты для улучшения деятельности муниципалитетов.Но исследования показывают, что муниципальная система не развивалась на необходимом уровне, и это негативно сказывается на удовлетворении социальных и общественных потребностей населения.Чтобы преодолеть недостатки в муниципальной системе, необходимо изучить и соответствующим образом применять опыт стран с системами местного самоуправления.И в этой области наш сосед, Турецкая Республика, опережает многие страны мира по развитию своей муниципальной системы и направлению деятельности.По этой причине муниципальная система Турции должна быть тщательно исследована и применена для выявления недостатков муниципальной системы в нашей стране.

**ƏLƏKBƏR QASIMOV**
*AMEA Naxçıvan Bölməsi*
*elekber.q@mail.ru*

## BİR MİLLƏT – İKİ DÖVLƏT: QOVUŞAN MƏDƏNİYYƏT

28 may 1992-ci il... Bu tarix müstəqil Azərbaycanla Türkiyə arasında 1991-ci ilin sonlarında bərpa olunan dostluq və qardaşlıq əlaqələrinin yeni salnaməsinin ilk səhifələrinə qızıl hərflərlə həkk olunub desəm, yəqin ki, yanılmaram. Həmin gün Araz çayı üzərindən salınan və otaylı, bu taylı insanların "Ümid körpüsü" adlandırdıqları Sədərək-Dilucu körpüsünün təntənəli açılış günü idi.

Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəl başda olmaqla qardaş ölkədən gəlmiş nazirlər, dövlət məmurları, millət vəkilləri və jurnalistlərdən ibarət 155 nəfərlik nümayəndə heyətini Naxçıvan Hava Limanında salamlayan Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyev belə demişdir: "**Əminəm ki, hörmətli Baş nazir, Sizin səfəriniz siyasi, iqtisadiq və mədəni əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə güclü təkan verəcəkdir**" (6).

Böyük uzaqgörənliklə deyilmiş bu sözlər elə həmin ilin ortalarından reallığa çevrildi. Körpünün açılış mərasimində Süleyman Dəmirəlin dediyi kimi, "Ümid körpüsü" təkcə Azərbaycanı və Türkiyəni birləşdirmədi, bu, Avropa ilə Asiya arasında körpü oldu (1). Bu körpüdən Azərbaycanın və Türkiyənin mədəniyyəti də bir-birinə qovuşdu.

Lakin danılmaz faktdır ki, bu sahədə ilk addımları məhz Naxçıvan Muxtar Respublikasının mədəniyyət və incəsənət xadimləri atmışlar. Belə ki, 1992-ci ilin noyabrında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı Türkiyəyə ilk qastrol səfəri etdi. Qars şəhərində nümayiş etdirilən Nazim Hikmətin "Ölən adam", Hüseyn Cavidin "Ana" və Üzeyir Hacıbəyovun "Ordan-burdan" tamaşaları böyük rəğbətlə qarşılandı.

Bundan sonra teatrın kollektivi 1993-cü ilin iyun və oktyabrında, 1994-cü ilin sentyabrında, 1997-ci ilin yanvarında, 1998-ci ilin noyabrında, 1999-cu ilin yanvarında və iyulunda, 2000-ci ilin dekabrında Qars şəhərində "Məşədi İbad", "Arşın mal alan", "Ər və arvad", "Əlli yaşında cavan", "Arvadımın əri", "Kələkbaz qızlar" tamaşalarını nümayiş etdirdilər. "Arşın malalan" və "Məşədi İbad" tamaşaları 2001-ci ilin noyabrında və dekabrında İğdır şəhrində də göstərildi. 1993-cü ildə Naxçıvan Dövlət Filarmoniyasının da Qars vilayətində möhtəşəm qastrol səfəri olmuşdur (3, s. 338).

1993-cü ildə Naxçıvan Dövlət Kukla Teatrında Türkiyə Cümhuriyyətinin 70 illiyi ərəfəsində "Türkiyə günü" təşkil olundu. Naxçıvandakı Baş Konsulluğun əməkdaşları, şəhərimizdəki Türkiyədən olan iş adamları, "Zaman" qəzetinin təmsilçiləri, Naxçıvan Türk Liseyinin müəllim və şagird heyəti həmin gecəyə dəvət olundular. Qonaqlara Naxçıvan Dövlət Kukla Teatrının 4 illik fəaliyyəti, repertuarı və yaradıcı heyəti barədə ətraflı məlumat verildikdən sonra Xocalı soyqırımına ithaf olunmuş Ə.Qasımovun "İnanmayaq tülkülərə!" tamaşası nümayiş etdirildi (7).

1994-cü ilin mart ayında Naxçıvan Dövlət Kukla Teatrına Ərzincan Radio və Televiziya İdarəsindən (ERT) xüsusi məktub gəldi. Məktubda teatr bir tamaşa ilə Ərzincan şəhərinə dəvət olunurdu. İyun ayında "Göycək Fatma" tamaşası ilə Ərzincan şəhərində bir həftəlik qastrol səfərində olan teatr ERT-nin "Fəxri Təşəkkürnamə"silə geri döndü.

1995-ci il fevralın sonunda isə kukla teatrının yaradıcı heyəti İzmir Valiliyinin dəvətilə bu şəhərə yola düşdü. Demək olar ki, mart ayının sonunadək İzmirin özündə, həmçinin İzmir Vilayətinin Səlcuqlu, Menemen, Efes, Berqama, Bayraqlı kimi bölgələrində teatr "Göycək Fatma" və "Cırtdanın kələyi" tamaşalarını böyük müvəfəqiyyətlə nümayiş etdirdi.

O zaman İzmirin "9 Eylül" (9 Sentyabr) Universitetinin incəsənət fakültəsində çalışan xalq artisti, professor Lütfiyar İmanovun köməkliyi ilə martın 10-u – Azərbaycan Milli Teatrı Günü ayrıca bir tədbir kimi İzmirdə qeyd olundu.

Martın 9-da axşam məşhur İzmir Fuarının (Beynəlxalq Nailiyyətlər Sərgisinin) ərazisində yerləşən İsmət İnönün Salonunun 800 nəfərlik zalı Böyükşəhər Bələdiyyəsinin bu gecə üçün buraxdığı xüsusi dəvətnamələr əsasında tam dolmuşdu.

Gecədə İzmir Valiliyinin və Böyükşəhər Bələdiyyəsinin rəhbərləri də iştirak edirdilər. Lütfiyar İmanov Azərbaycan teatrının dünəni və bugünü haqqında müfəssəl danışdıqdan sonra qeyd etdi ki, Naxçıvan Dövlət

Kukla Teatrı prezidentlər Heydər Əliyevin və Süleyman Dəmrəlin üç il əvvəl birgə açdıqları, həsrətləri qovuşduran "Ümid körpüsü"ndən keçərək, 2000 kilometrdən artıq yol qət edib İzmirə gələn ilk Azərbaycan dövlət teatrıdır (4).

Beləliklə, gecənin birinci hissəsi Lütfiyar İmanovun və onun kukla teatrının yaradıcı heyətindən təşkil etdiyi xor qrupunun ifasında maraqlı konsert proqramı ilə, səhnəciklərlə və Cəlil Məmmədquluzadənin "Çay dəstgahı" tamaşası ilə başa çatdı. İkinci hissədə isə "Göycək Fatma" tamaşası göstərildi (2).

Həmin il martın 21-i Novruz bayramı Türkiyədə ilk dəfə olaraq rəsmi surətdə, dövlət səviyyəsində qeyd olundu. Bu bayramın İzmirdə təşkilində və keçirilməsində Naxçıvan Dövlət Kukla Teatrının da özünəməxsus rolu oldu. Naxçıvanlı aktyorların bu şənliklərindəki fəal iştirakı böyük rəğbətlə qarşılandı (5).

Martın 25-də İzmir valiliyində təntənəli qəbul oldu. İzmir Vilayətində uğurlu və səmərəli çıxışlarına görə Naxçıvan Dövlət Kukla Teatrı və onun səfərdə iştirak edən bütün işçiləri İzmir Valiliyinin Fəxri fərmanları ilə təltil edildilər.

1995-ci ilin avqust ayında Trabzon vilayətinin Uzungöl bölgəsindəki İstirahət Kompleksində "Milli-mənəvi dəyərlər və teatr" mövzusuna həsr olunmuş beynəlxalq konqres keçirildi. Bu tədbirə Azərbaycandan Bakı Kamera Teatrı və Naxçıvan Dövlət Kukla Teatrı dəvət olunmuşdu. Trabzona Bakıdan deyil, "Ümid körpüsü"ndən keçib-getməyə üstünlük verən kamera teatrının kollektivi Naxçıvana gələrək, buradan kukla teatrının aktyorları ilə birlikdə birbaşa Trabzona yola düşdü və çox uğurla keçən 10 günlük səfərdən hər iki kollektiv xoş təəssüratla geri döndü.

1996-cı il Türkiyə ilə Naxçıvan arasında ən məhsuldar və çoxşaxəli mədəni əlaqələr ili kimi yadda qalmışdır. "Ümid körpüsü" həmin ildəki qədər o taylı, bu taylı mədəniyyət və incəsənət xadimlərini, xüsusən də teatr sənətkarlarını qarşılayıb yola salmamışdı.

Həmin ilin fevralında Naxçıvan Dövlət Musiqili Dram Teatrında türk dünyasında aşıq sənətinin görkəmli nümayəndələrindən sayılan Aşıq Veysəlin anadan olmasının 102-ci ildönümü dövlət səviyyəsində, böyük təntənə ilə qeyd olundu. Aşıq Veysəlin oğlu da daxil olmaqla Sivas şəhərindən gəlmiş nümayəndə heyəti də gecədə iştirak edirdi. Türkiyəli vətəndaşlar hələ 20 il əvvəl sovet dövründə Naxçıvanda Aşıq Veysəlin həyatını əks etdirən həvəskar kinofilmin çəkildiyini, Azərbaycanda dəfələrlə onun şeirlərinin dərc olunduğunu, kitabının buraxıldığını, haqqında tez-tez radio və televiziya verilişlərinin hazırlandığını eşidib heyrətlərini gizlədə bilmirdilər. Naxçıvanın incəsənət ustalarının çıxışları ilə başa çatan bu gecədən sonra Naxçıvanda bir qrup nümayəndə heyəti Sivasda keçirilən tədbirlərdə iştirak etdi (8).

Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun təşəbbüsü və köməkliyilə Naxçıvan Dövlət Kukla Teatrı 1996-cı ilin aprel ayında Van şəhərinə yola düşdü. Bu səfərdə məqsəd Türkiyədə hər il keçirilən ənənəvi "23 Nisan – Çocuk Bayramı"na Van şənlikləri çərçivəsində qatılmaq idi.

Vanlı uşaqlar 3 gün ərzində naxçıvanlı aktyorların ifasında "Göyçək Fatma" tamaşasını və rəngarəng səhnəcikləri böyük maraqla və alqışlarla izlədilər. Səfərin sonuncu günü müvəffəqiyyətli çıxışlarına görə Naxçıvan Dövlət Kukla Teatrı Van Milli Təhsil Müdirliyinin Fəxri Fərmanı ilə təltif edildi.

Muxtar Respublika Ali Məclisi Sədrinin xüsusi dəvətilə İstanbul Dövlət Teatrı 1996-cı ilin mayında Naxçıvana gəldi və Dövlət Musiqili Dram Teatrının binasında "İçəridəkilər" tamaşası ilə çıxış etdi. Teatrın səhnə amiri Ediz Baysal və teatrın aparıcı aktyorlarından, Türkiyənin məhşur teatr və kino aktyoru Uğur Polad, yaradıcı qrupun digər üzvləri səfərin və tamaşanın yüksək səviyyədə təşkilindən, mehribanlıqla qarşılanmaqlarından, tamaşaçıların böyük rəğbətindən ağızdolsu danışdılar və vurğuladılar ki, "Ümid körpüsü"nün hesabına bu mədəni əlaqələr daha da genişlənəcək bir-birimizə daha sıx qaynayıb-qarışacağıq, təki belə görüşlər tez-tez olsun.

Doğrudan da belə görüşlərin sayı get-gedə artmağa başladı. 1996-cı ilin noyabrında Ankara Dövlət Teatrı "Haray" tamaşası ilə naxçıvanlı tamaşaçıları sevindirdi.

1996-cı ilin oktyabr ayında Naxçıvanda daha bir mədəni əməkdaşlıq tədbiri həyata keçirildi. Türkiyə Respublikasının Baş Konsulluğunda Naxçıvan Dövlət Kukla Teatrı rəssamlarının sərgisi təşkil olundu. Konsulluğun üç zalında müxtəlif tamaşaların personajları olan kuklalardan, rekvizitlərdən, butafor əşyalardan, eskizlərdən, maketlərdən və ayrı-ayrı rəssamların – teatrın baş rəssamı Əli Səfərovun (indi muxtar respublikanın əməkdar rəssamı), kuklahazırlayan Rafael Qədimovun və butaforçu Akif Həsənovun öz əl işlərindən ibarət əşyalar və əsərləri nümayiş etdirilirdi. Bu sərgi Naxçıvanda fəaliyyət göstərən Türkiyə vətəndaşlarının, həmçinin naxçıvanlıların böyük marağına və rəğbətinə səbəb oldu (9).

1997-ci ilin yanvarında Naxçıvan Dövlət Musiqili Dram Teatrı "Məşədi İbad" tamaşası ilə Trabzon və Ankara şəhərlərinə dəvət olundu. Teatr 1998-ci ilin oktyabr-noyabr aylarında isə Qars, sonra isə Ankara, İstanbul və Bursada "Arşın malalan" tamaşası ilə qastrolda oldu. Dövlət Musiqili Dram Teatrının bu səfəri Türkiyə Respublikasının 75 illiyinə həsr edilmişdi.

1999-cu ilin iyununda Van Dövlət Teatrı naxçıvanlıların qonağı oldu. Dövlət Musiqili Dram Teatrında göstərilən “Köhnə fotoşəkillər” tamaşası böyük maraq və rəğbətlə qarşılandı. Bu görüşlər, qarşılıqlı əlaqələr daha intensiv xarakter aldı.

2001-ci il noyabr ayının əvvəlində İğdırda “Naxçıvan Muxtar Respublikası günləri” təşkil olundu. Rəsmi səviyyədə keçirilən bu günlər 3 gün ardarda muxtar respublika incəsənət ustalarının rəngarəng çıxışları ilə yaddaşlara həkk olundu. Noyabrın 5-də Naxçıvan Dövlət Kukla Teatrının çıxışı və naxçıvanlı rəssamların əsərlərindən ibarət sərginin açılışı ilə başlayan mədəniyyət günləri noyabrın 6-da Naxçıvan Dövlət Musiqili Dram Teatrının tamaşası ilə davam etmiş, noyabrın 7-də isə Naxçıvan Dövlət Filarmoniyasının və müxtar respublikanın digər musiqi kollektivlərinin iştirak etdikləri möhtəşəm konsert proqramı ilə yekunlaşmışdır. Bağlanış mərasimində hər iki tərəfdən rəsmi nümayəndələr. ziyalılar iştirak etmiş, Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov və İğdır valisi Mustafa Tamel nitq söyləmişlər (11).

2003-cü ilin iyun ayında, Qars şəhərində “Heydər Əliyev Parkı”nın və həmin parkda bu dahi şəxsiyyətin büstünün təntənəli açılışı böyük tarixi hadisə ilə yanaşı əsl mədəniyyət bayramına çevrildi. Yerli özfəaliyyət kollektivlərinin və Şərur Rayon Xalq Yallı Ansamblının gözəl çıxışları həmin tədbiri daha da rövnəqləndirmişdi.

Son 25 il ərzində “Ümid körpüsü” üzərindən təsviri sənət sahəsində də yaddaqalan və məhsuldar sərgilər vasitəsilə mübadilələr olmuşdur. Əsasən Naxçıvanın fırça ustaları, sonralar xalq rəssamı və Azərbaycan Respublikasının əməkdar rəssamları olan Hüseynqulu Əliyevin, Mircəlil Seyidovun, Şəmil Mustafayevin, Telman Abdinovun, Ülviyyə Həmzəyevanın və digər gənc sənətkarların bu körpü vasitəsilə Ankarada, İstanbulda, İzmirdə, Bursada, Vanda, Qarsda, İğdırda, eləcə də Türkiyənin başqa şəhərlərində fərdi və birgə sərgiləri nümayiş etdirilmişdir.

Qarşılıqlı olaraq Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun vasitəçiliyilə 2010-cu ildən üzübəri, demək olar ki, hər il qardaş ölkə rəssamlarının da Naxçıvan şəhərində - həm Baş Konsulluğun salonunda, həm də MR Rəssamlar Birliyinin sərgi salonunda maraqla qarşılanan sərgiləri təşkil olunmuşdur. Buna bir neçə misal olaraq Naxçıvan Rəssamlar birliyinin sərgi salonunda Türkiyənin tanınmış rəssamlarından Nilüfər İnaltonqun 7-30 aprel 2011-ci ildəki sərgisini, Tamer Tuğrulun 26-30 noyabr 2013-cü ildəki sərgisini, həmçinin naxçıvanlı rəssam Məmmədəli Ələkbərovun Baş Konsulluğun salonunda təşkil olunmuş fərdi sərgisini nümunə göstərmək olar (13).

2013-cü il avqust ayının 30-31-də Trabzon Dövlət Teatrı Naxçıvanda qonaq oldu. Teatrın bir qrup yaradıcı heyəti naxçıvanlılara və şəhərin qonaqlarına iki gün “Bu da keçər ya hu” adlı tamaşanı təqdim etmişdir. Barış Erdenkin rejissorluğu ilə Uğur Saatçının eyniadlı əsəri əsasında hazırlanmış bu tamaşada Osmanlının süqutu və Türkiyənin işğala məruz qaldığı bir vaxtda İstanbulda baş verən hadisələr canlandırılır (12). Türkiyənin Zəfər bayramı münasibətilə təşkil olunmuş bu səfər böyük rəğbətlə qarşılanmışdır. Trabzon Teatrının heyəti üç gün ərzində muxtar respublikanın muzeyləri, tarixi abidələri və digər görməli yerlərilə tanış olmuşlar.

2014-cü ildə Naxçıvan MR Rəssamlar Birliyi və TR Baş Konsulluğunun birgə təşkilatçılığı ilə “Türkiyədə və Naxçıvanda keramika-rəsm sənəti və öncülllləri” mövzusunda konfrans keçirilmiş və həmin gün martın 8-dək fəaliyyət göstərən “Qadınlarda nağılllar” adlı sərginin açılışı olmuşdur. Adından göründüyü kimi bu sərgi Beynəlxalq Qadınlar Gününə, həmçinin Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr edilmişdi. Həmin sərgidə Türkiyənin dünyaşöhrətli keramika rəssamı, onlarla ölkədə əsərləri sərgilənən professor Zəhra Çobanlının əl işləri tamaşaçılarda böyük maraq və rəğbət hissi oyatmışdır (13).

2015-ci il aprelin 8-10-da İğdır Universitetinin təşkil etdiyi “Xalq sənətləri sərgisi” Naxçıvan Dövlət Universitetində nümayiş etdirilmişdir. Sərgidə Rəbiə Karta və Pelin Gülədanın 50 adda əbru, miniatür, nəqqaşlıq və xalçatoxuma nümunələri məmnunluqla qarşılanmışdır. Həmin il aprelin 9-da Baş Konsulluğun TR Mədəniyyət və Turizm nazirliyinin dəstəyilə təşkil etdiyi “Son məktub” filminin təqdimat mərasimi keçirilmişdir. Çanaqqala zəfərinin100 illiyinə həsr olunmuş bu filmə Naxçıvan Şəhər “Gənclik Mərkəzi”ndə baxış və yaradıcı heyətin bir qrupu ilə görüş müvəffəqiyyətlə keçmişdir.

2015-ci il iyunun 23-25-də Naxçıvan MR Rəssamlar Birliyinin sərgi salonunda Türkiyə İncəsənət Əsərləri Sahiblərinin Məslək Birliyindən (GESAM) 30 üzvün əsərlərindən ibarət bir rəsm sərgisi də təşkil olunmuşdur (13).

MR Rəssamlar Birliyi tərəfindən 2014-cü ildən bəri mütəmadi keçirilən “Naxçıvan - Bəşəriyyətin beşiyi” adlı beynəlxalq festivalda bir sıra ölkələr kimi Türkiyədən də rəssamlar gəlib iştirak edirlər. 2016-cı ilin mayında təşkil olunan III festivalın yekun sərgisində Minə S.Çaylak, Olqa Ərən, Xülya Sezgin və Nevin Aytəkin kimi türkiyəli rəssamlar uğurla iştirak etmişlər.

“Naxçıvan – bəşəriyyətin beşiyi” IV və V beynəlxalq festivalları 2017 və 2018-ci illərdə də böyük müvəffəqiyyətlə keçirilmiş və Türkiyənin tanınnmış rəssamları da bu təsviri sənət bayramlarının fəal iştirakçıları və mükafatçıları arasında olmuşlar.

Ümumiyyətlə, 1995-ci ildən başlayaraq Azərbaycanın paytaxtı Bakıda və digər bölgələrdə olan teatr və musiqi kollektivlərinin də "Ümid" körpüsü üzərindən qardaş ölkəyə səfərləri başladı. Türkiyənin müxtəlif şəhərlərinə belə yaradıcı səfərlər həmin vaxtdan bugünədək davam etməkdədir. "Ümid körpüsü" eyni zamanda iki qardaş ölkə arasında elm və təhsil mübadiləsinə də böyük vəsilə olmuşdur. Bu işdə ilk növbədə körpüdən daha mütəmadi və səmərəli yararlanan AMEA Naxçıvan Bölməsinin elmi işçilərini, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, "Naxçıvan" Universiteti professor-müəllim heyətlərinin beynəlxalq səviyyəli tədbirlərdə, simpoziumlarda iştirak etmələrini nümunə göstərmək olar.

..Sədərək - Dilucu körpüsü təkcə ölkələrimiz arasında iqtisadi əlaqələrin göstəricisi yox, həm də mənəvi-tarixi dəyərlərin möhkəmləndirilməsinin göstəricisi oldu. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin dediyi kimi: "Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək mühüm rol oynamışdır" (1).

Ulu Öndərimiz, Ümummilli Liderimiz Heydər Əliyevin xeyir-duası ilə açılan "Bir millət – iki dövlət"in "Ümid körpüsü"ndə qovuşan mədəniyyət daha da inkişaf edərək çiçəklənməkdədir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti, 28 may 2011-ci il.
2. "Milliyet" qəzeti (Türkiyə. İstanbul), 10 mart 1995-ci il.
3. Naxçıvan tarixi. Üç cilddə, III cild, Naxçıvan: Əcəmi NPB, 2015, 560 səh.
4. "Naxçıvan" qəzeti, 15 iyun 2009-cu il.
5. "Yeni asır" qəzeti (Türkiyə, İzmir), 10 mart 1995-ci il.
6. "Şərq qapısı" qəzeti, 29 may 1992-ci il
7. "Şərq qapısı" qəzeti, 16 oktyabr 1993-cü il.
8."Şərq qapısı" qəzeti, 27 fevral 1996-cı il.
9."Şərq qapısı" qəzeti, 26 oktyabr 1996-cı il.
10."Şərq qapısı" qəzeti, 3 mart 1999-cu il.
11."Şərq qapısı" qəzeti, 8 noyabr 2001-ci il.
12."Şərq qapısı" qəzeti, 3 sentyabr 2013-cü il.
13. Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun arxiv materialları.

**METE TÜRKOĞLU**
*Doğa Koruma ve Milli Parklar Iğdır İl Şube Müdürlüğü*
*mbt.turkoglu@gmail.com*

## IĞDIR'IN KONUMU VE FLORA, FAUNA ZENGİNLİĞİ

**Anahtar kelimeler:** *Ağrı dağı, Iğdır, flora, fauna*
**Key words:** *Agri mountain, Igdir, flora, fauna*
**Ключевые слова:** *гора Агри, Ыгдир, Флора, Фауна*

**Özet:** Türkiye'nin Doğu Anadolu Bölgesinde yer alan Iğdır ili Sürmeli Çukuru adı verilen Ağrı Dağı eteklerinde yer alır. Iğdır il sınırlarının, Aras Havzası içerisinde yer almaktadır. Bölge, Iran-Turan bitki kuşağının Avrupa-Sibirya kuşağına yaklaştığı bir noktada bulunmaktadır. Ayrıca Kafkas'lardan Anadolu'ya geçiş bölgesinde yer alması, coğrafik konumu ile etrafının dağlarla çevrili, zengin jeolojik ve coğrafik yapısı oluşu, toprak ve iklim özellikleri sebebiyle mikroklima'ya sahiptir.

### IĞDIR'IN KONUMU

Iğdır (3.588 km$^2$), Türkiye'nin Doğu Anadolu Bölgesi'nin Erzurum-Kars Bölümü'nde yer almaktadır (7, s.XXI). Önemli bir kültür ve yol kavşağında bulunan İl, kuzey ve kuzeydoğusunda Ermenistan, doğusunda Nahçıvan Özerk Cumhuriyeti (Azerbaycan), ve İran devletleriyle komşu olan ilin toprakları; güneyden Ağrı, batı ve kuzeybatıdan ise Kars illeri ile çevrelenmiştir. Ülkemizde üç ülke ile ortak sınırı olan tek İl'dir.

Türkiye'nin en yüksek dağı olan Ağrı Dağı'nın yüz ölçümünün % 65'i İl sınırları içindedir. Aras Nehri, Arpaçay ile birleştikten sonra Iğdır sınırları boyunca akar. Türkiye- Ermenistan sınırını oluşturur. Dil ovasının doğusunda Türkiye-İran-Azerbaycan sınırının kesişme noktasında ise ülkemizi terk eder. Aras ırmağının toplam uzunluğu yaklaşık olarak 930 km kadar dır, bunun 441 km'si ülkemiz sınırları içerisinde bulunmakta, ırmağın yaklaşık olarak 150 km kadarı Iğdır il sınırları içerisinde kalmaktadır. Çevresine göre daha düşük olan yıllık yağış miktarı, kurak yaz ve ılıman kış şartları nedeniyle "mikroklima" özelliği gösterir. İl sınırları içerisindeki diğer yeryüzü şekillerini oluşturan dağlar, genelde ovanın güneyinde kabaca doğu-batı doğrultusunda uzanan Orta Torosların doğudaki uzantısı olan ve Munzur dağlarıyla başlayıp Karasu-Aras dağlarıyla devam eden dağlık kütlenin doğudaki bölümlerini oluşturmaktadır. Doğu Anadolu Bölgesinde, Erzurum-Kars Bölümü ile Yukarı Murat-Van Bölümleri arasında yer alan bu dağlar sırasıyla, batıdan doğuya doğru, Kızılcaziyaret (3231 m.), Durak (2811 m.), Zor (3196 m.), Büyük Ağrı (5137 m.) ve Küçük Ağrı (3896 m.) dağlarıdır. Büyük Ağrı dağı (5137 m) Türkiye'nin en yüksek noktasını oluştururken, Küçük Ağrı dağı, Türkiye ile İran arasında doğal sınır oluşturmaktadır (4, s.1-26).

Iğdır'ın iklimi Doğu Anadolu tipi karasal iklimdir. Şehrin ovalık kesimleri, Doğu Anadolu Bölgesi'nin öteki kesimlerinde görülen şiddetli kara ikliminden dağlar tarafından çevrelenmiş bir çanak şeklinde olduğundan fazlaca etkilenmez. Kuytu konumuyla mikroklima oluşturan Iğdır Ovası'nda yer alan Iğdır yerleşim alanında yıllık ortalama sıcaklık 11,6 °C'dir. Kışlar yumuşak, yazlar ise daha uzun ve sıcak geçer.

En yüksek sıcaklık değerlerine Ağustos 41,8 °C, en düşük sıcaklık değerlerine de Aralık ayında -30,3 °C rastlanmaktadır. Yıllık yağış toplamı 257,6 mm. civarındadır, yağışsız sıcak hava dalgaları mutlak yaz kuraklığına neden olmaktadır (3, 2006).

### MATERYAL VE METOD

Türkiye dünyanın önemli kuş göç yolları üzerinde olması ve Avrupa kıtasındaki 530 kuş türünün, 486 türünü (%92) barındırması kuşların beslenme ve üreme alanı olarak önemini artırmaktadır.Aras Havzasında ve Ağrı Dağı eteklerinde yapılan kuş gözlemlerinde;Iğdır genelinde Türkiye'de bulunan 486 kuş türünden, 325 türün Iğdır ilinde yaşadığı ve göç güzergâhı olarak bölgeyi kullandığı tespit edilmiştir. Belirlenen 192 türden yaklaşık 100.000 kuş halkalanmış ve kayıt altına alınmıştır (11, s.286).

Kuşlar Rusya, Litvanya, Estonya, Ukrayna, Finlandiya, Polonya, Avusturya, Çek Cumhuriyeti, Belarus gibi ülkelerden, gruplar halinde yavrularıyla birlikte bu vadide konaklamakta, buradan Afrika'ya gitmektedir. Kafkas çıvgını, Yeşil arı kuşu ve Saz horozu Türkiye'de ender görülen türlerden olup; Doğu Anadolu bölgesinde de sadece Iğdır'da bulunmaktadır. Türkiye'de sadece Kızılırmak Deltası, Göksu deltası ve Çukurova'da üreyen Porphyrioporphyrio (Saz horozu) Iğdır Tuzluca Yukarı Çıyrıklı köyünün birinci göl mevkiinde ürediği tespit edilmiş ve Türkiye'de dördüncü üreme bölgesi olduğu ortaya çıkarılmıştır (5, 2002-2008).

Ekolojik denge, dünya üzerinde canlıların yaşamı için gereklidir. Bu denge korunduğu müddetçe, canlıların yaşam seviyesi de artarak devam eder. Doğadaki tüm canlı ve cansız varlıklar doğrudan ya da dolaylı olarak ekolojik dengenin korunmasında önemli rol oynarlar.

Ormanlardaki ağaçlara zarar veren bazı böcekleri, kuşlar yiyerek sayılarının artmasına engel, tohum ve meyvelerle beslenen kuşlar, yedikleri bitki tohumlarını uzak yerlerde, dışkılarıyla birlikte atarak bitkilerin çoğalmalarına ve yayılmalarına neden olurlar. Ekolojik dengenin korunması; Canlıların beslenme alışkanlığını oluşturan besin zincirine bağlıdır.

Dünyada 10.660 kuş türü bulunmaktadır (10, s. XX). Her bir türün ekolojisi ve dağılımı farklılık göstermekle birlikte kuşlar çöllerden dağlara farklı habitatlarda bulunmaktadır. Bu türlerden bazıları çok karakteristik belirli habitatlara özelleşmiş olup sınırlı alanlarda yayılış göstermektedir. Kuşların dağılımları göz önüne alınarak biyolojik çeşitliliğin dünya genelinde nasıl dağıldığı ve kuşların da küresel çevre değişikliklerinde gösterge rolü üstlendikleri görülebilir. Kuşlar, besin döngüsü, biyolojik ayrışma, haşere kontrolü, bitkilerde döllenme ve tohum ayrımı gibi birçok önemli ekosistem hizmetleri sunmaktadır (6, s. 23).

Ayrıca iki büyük memeli türü de Bulakbaşı köyü sulak alanındaki gölde yaşamaktadır. Karnivorlardan nesli tehlike altında olan Susamuru (Lutra lutra) ve rodentlerden Su maymunu (Myocastorcoypus) Türkiye'nin en batısı olan Trakya bölgesinde daha önce tespit edilmiş olan su maymunu ikinci olarak Türkiye'nin en doğusu olan Iğdır ilimiz Karasu bölgesinde olduğu görülmüştür (9, s.17-21).

Türkiye'de şimdiye kadar tanımlanmış 11.707 bitki türü var. Bunlardan 3649 tanesi endemiktir. Yani bu türler Türkiye dışında dünyanın başka hiçbir yerinde bulunmaz (2, s. 60)

Zengin bitki örtüsüne sahip olan Iğdır'da yaklaşık 1.000-1.100 (Türkiye Flora varlığının yaklaşık % 8-9'unu) tür bitki bulunduğu tahmin edilmektedir. Şimdiye kadar Ağrı Dağı'nda 55 familya, 204 cins ve 386 takson tespit edilmiştir. Ayrıca 52 endemik takson yer almaktadır ve bunlardan da 20 tanesi Iğdır ili için endemiktir (13, s. 402).

Iğdır ilinde ve Ağrı Dağı çevresinde en son yapılan çalışmalar da, 46 herptil, 67 tür memeli hayvan (8, s. 134-136) , 183 kelebek türü (2), tespit edilmiş ve kayıt altına alınmıştır.

**SONUÇ**

Iğdır İlinin ve Ağrı Dağı'nın Kafkaslar biyoçeşitlilik sıcak noktasında olması, günümüze kadar tanımlanan tespiti yapılan flora, fauna varlığı, Iğdır ve Ağrı dağı'nın iklimsel özellikleri yöreye katkıları göz önüne alındığında Türkiye'nin dünyanın önemli kuş göç yolları üzerinde olması ve Avrupa kıtasındaki 530 kuş türünün, 486 türünü (%92). Ülkemiz 161 memeli türünün, 67 türünü (%40), 141 kadar sürüngentürünün, 46 türünü (%33) türünün yaşadığı tespit edilmiştir (12, s.30). Bu veriler alanın önemini artırmaktadır.

Akademik çalışmalara, Doğaseverlere, kuş fotoğrafçılarına, kuş bilimcilerine ve tabiat turizmine fayda sağlayacağı açıkça anlaşılmaktadır.

## KAYNAKÇA


1. Anonim (http://www.kelebek-turk.com/cityphp?id=76)
2. Güner, A., Türkiye Bitkileri Listesi (Damarlı Bitkiler), ANG Vakfı / Nezahat Gökyiğit Botanik Bahçesi, Kasım 2012., Sayfa 60
3. IMM 2006 Iğdır Meteoroloji Verileri
4. Oğuz ŞİMŞEK, Mete ALİM Iğdır İli'nin Turizm potansiyeli Kafkas üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi Sayı 3 Bahar 2009, sayfa 1-26
5. Orman ve Su İşleri Bakanlığı Doğa Koruma ve Milli Parklar Genel Müdürlüğü Türkiye Ulusal Halkalama Programı Raporu 2002-2008
6. Şekercioğlu Hakkı Çağan Kuşların Ekolojik Önemi Yeşil Atlas Dergisi Sayı 8 2005, sayfa 23
7. Türkoğlu M. Iğdır'ın Biyoçeşitliliği ve Doğadaki Besin Zinciri ( Biodiverstyand Food Chain of Iğdır) Orman ve Su İşleri Bakanlığı Doğa Korumave Milli Parklar Genel Müdürlüğü ANKARA 2017, sayfa XXI
8. Türkoğlu M. Iğdır'ın Biyoçeşitliliği ve Doğadaki Besin Zinciri ( Biodiverstyand Food Chain of Iğdır) Orman ve Su İşleri Bakanlığı Doğa Korumave Milli Parklar Genel Müdürlüğü ANKARA 2017 sayfa 136
9. Türkoğlu M. İliker A. Pamukoğlu N. 2010. Türkiye'deki Myocastor Coypus ( Molina 1782)'un Bazı Biyolojik Ve Ekolojik Özellikleri Tabiat ve İnsan Dergisi Yıl:42-2008 Sayı: 2, sayfa 17-21
10. Türkoğlu M, Şekercioğlu Ç.H Iğdır'ın Kuşları Orman ve Su İşleri Bakanlığı Doğa Koruma ve Milli Parklar Genel Müdürlüğü, ANKARA 2017, sayfa XX
11. Türkoğlu M, Şekercioğlu Ç.H Iğdır'ın Kuşları Orman ve Su İşleri Bakanlığı Doğa Koruma ve Milli Parklar Genel Müdürlüğü, ANKARA 2017, s.286

12. Ulusal Biyolojik Çeşitlilik Stratejisi ve Eylem Planı, 2007 Çevre ve Orman Bakanlığı Doğa Koruma ve Milli Parklar Genel Müdürlüğü Doğa Koruma Dairesi Başkanlığı, sayfa 30
13. Zeynalov Y. Türkoğlu M. Ağrı Dağı'nın Florası Orman ve Su İşleri Bakanlığı Doğa Koruma ve Milli Parklar Genel Müdürlüğü, ANKARA 2016, s.402

## ABSTRACT

Located in the eastern Anatolia region of Turkey, Iğdır is located on the slopes of Mount Ararat, called Sürmeli Çukuru. It is located within the Aras Basin of Igdir province borders. The region is located at a point where the Iran-Turan plant belt approaches the Euro-Siberian belt. It also has microclimate due to its geographical location, surrounded by mountains, its rich geological and geographical structure, soil and climate characteristics.

## РЕЗЮМЕ

Ыгдир расположен в восточной части Анадолу в Турции, на склонах горы Агри, называемой Сюрмели Чукуру. Он расположен в пределах бассейна Арас в провинции Ыгдыр. Регион расположен в иранско-туранском поясе, ближе к евро-сибирскому поясу. Он также имеет переходный микроклимат из-за своего географического положения, окруженного горами, его богатой геологической и географической структурой, почвенными и климатическими характеристиками.

**III BÖLMƏ**

**NAXÇIVAN-TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİ**

**GÜLNARƏ QƏNBƏROVA**
*Naxçıvan Dövlət Universiteti*
*gulnare_qenberova65@yahoo.com*

## ORTA ƏSRLƏR NAXÇIVAN VƏ ANADOLU MEMARLIĞINDA ORTAQ ÜSLUB

**Açar sözlər:** *Səlcuq üslubu, Türk mədəniyyəti, Türk-İslam sintezi, Daş bəzəklər, Kərpic bəzəklər, Bəzək kompozisiyaları*
**Key words:** *Seljuk style, Turkish culture, Turkish-Islamic synthesis, Stone decorations, Brick decorations, Ornamental compositions*
**Ключевые слова:** *сельджукский стиль, турецкая культура, турецко-исламский синтез, каменные украшения, кирпичные украшения, орнаментальные композиции.*

Coğrafi mövqeyə görə bir-birinə yaxın olan Naxçıvan və Anadolu bölgəsi yerləşdiyi strateji əhəmiyyətinə görə, daim dövlətlərin maraq dairəsində olmuş, zamanlada bu dövlətlərin hakimiyyəti altında qalmışdır. Qədim yaşayış məskənlərinin, qədim mədəniyyətlərin də svilizasiya tapdığı bu ərazilər tarixəndə sərhədsiz, qonşuluq şəraitində yaşamış, daima bir-birlərilə ticari əlaqələrdə də olmuşlar. Naxçıvan və Anadoluda Türk mədəniyyətinin geniş formada inkişafı Səlcuqların Orta Asiyadan qərbə yürüşlərilə başlamış və ərazi Səlcuq İmperatorluğu altında vahid, bütöv bir ölkə halına gəlmişdir.

Səlcuqlar böyük İmperatorluq halına gəldikdən sonra böyük sahələri əhatə edən ərazidə sakitliyin, əminəmanlığın bərqərar olmasına, şərqdən qərbə uzanan böyük bir ərazidə Türk-İslam sintezinin təsiri ilə müsəlman şəhərlərinin formalaşmasına nail oldular. Müsəlman şəhərinin xarakterinə uyğun qurulan şəhərlər şəhər mərkəzinin planlaşması baxımından oxşarlıqlar nümayiş etdirsədə, memarlıq tikililərinə görə bir-birinə bənzəsədə, tikinti materiallarının fərqliliyi, memarlıq abidələrində dövrünün üslub və motivlərində yerindən asılı olaraq ənənələrə sadiqlik qismində olsa özünü göstərməkdə idi.

Türklərin İslam dünyasına hakim olmaları İslam mədəniyyəti və Müsəlman tayfaları tarixində bir dönüş nöqtəsi təşkil edir. İslam dünyası daxili və xarici böhranlara düşərkən, Səlcuqlar yeni bir düvvə ilə bu aləmi siyasi birliyə qovuşduraraq, bu qurumlar sayəsində İslam mədəniyyətinə yeni təşkilatçılıq və canlılıq bəxşetməklə, onu yeni bir səyifəyə yönəltdilər. Qədim bir çox qurumlara, yurt və mədəniyyətə səhnə olan və ya bunların üç qitə arasında mübadiləsində bir körpü vəzifəsi oynayan Səlcuqlar, yerli ünsürlərin təsirinə baxmayaraq, tarixdə ilk dəfə olaraq irk, din, dil, mədəniyyət və sənət baximindan köklü bir inqilaba uğramaqla baxışlarını dəyişdirdilər (1,s.47)

Səlcuqlar dövrü Naxçıvan və Anadolunun sənət və memarlığında İslam mədəniyyətinə uyğun yeni bir səhifə və həmlə təmsil edər. Türklər İslam dini və mədəniyyəti sayəsində çox böyük bir qüdrətə və mədəniyyətə qovuşarkən özlərinə xas mədəniyyət ünsürlərini də bu mədəniyyətə qataraq ona yeni bir mahiyyət, qüdrət və həyatilik qazandırmışlar. Gerçəkdən əsrlərcə işğal və təxribatlara baxmayaraq Azərbaycan və Türkiyə ərazisində yerləşən abidələri izləyərkən türklərə aid memarlıq abidələrinin zənginliyi və müxtəlifliyi İslam-Türk mədəniyyətininin memarlıqda da Səlcuqlara nələr borclu olduğunun görürük (2,s.384-385)

Türklərin imperatorluq və əzəmət duyğuları, cihan hakimiyyəti şüuru Səlcuq memarlığına şəkil və xüsusiyyət verən ehteşam və zərifliyin mənşəyini təşkil edir. Çadır şəklində türbə günbəzlərilə, çox qabarıq şəkildə özünü göstərən mehrab və mehrabqabağı günbəzli plan sxemlərində mərkəzi planlı və dörd eyvanlı came formalarilə, mədrəsə və came giriş baştağlariylə, fiqurlu, qabarıq bəzəklərilə seçilən bu tikililər Türk sənətinin en mühüm abidələri olub, köçəbə ruhunu özündə əksetdirirməklə (3,s.204)uzun zaman Naxçıvan və Anadolu memarlığında öz təsirini göstərməkdə davam etmişdir.

Bu üslub yalnız Azərbaycan və Türkiyədə deyil, Dəməşqdə, Kiçik Asiyada və Afrikanın şimal bölgələrində də özünü göstərdi. Səlcuqlar dövründə incəsənət aləmində misli görünməmiş hərəkət başlandı və onun izləri monqollar dövrünə qədər davam etdi. Həmən hərəkat o dərəcədə güclü idi ki, tədqiqatçılar Səlcuq dövrünü "incəsənət aləminin mükəmməl dövrü" adlandırırlar.

Bu dövrün incəsənət əsərləri İslam incəsənəti sistemində müstəsna yer tutur. Onu XV-XVI əsrlərin İtalya İntibahı (Renessansı) sənəti ilə müqayisə etmək olar. Bu sənət sonrakı illərdə bir sıra xalqların sürətli mədəni yüksəlişinə müsbət təsir göstərdi.

Səlcuqlu sənəti Suriyadan Hindistanın şimalına qədər yayıldı. 1000-1220-ci illər arasında incəsənət sahəsində yaranmış üslublar siyasi tarixi və perespektivi özündə birləşdirdi (4, s.90-95).




*1.Yusif Küseyir oğlu türbəsi.Naxçıvan.1162. 2. Sultan Məlik Qazi türbəsi 1191.Ərzincan.*

Səlcuq sənəti ilə Buhimi, Qəznəvi, Qarakitay, Xərzmşah sənətləri elə çulğalaşıb ki, onları dövrünün üslubşünaslığı baxımından 10 qrupa bölmək olar. "Səlcuq üslubu" onlardan biri sayılır. Qeyd etmək lazımdır ki, İslam Şərqində müştərək incəsənət üslubu Səlcuqların hakimiyyəti dövründən ən yüksək səviyyədə olmuşdur. Bu dövrdə Şərq xalqlarının siyasi vəhdəti Səlcuq imperiyası vasitəsilə yaranmışdı.

Bu dövrdə Azərbaycan (Cənubi Azərbaycanda daxil olmaqla) ərazisində Şirvan, Aran, Naxçıvan-Marağa, Qəzvin-Həmədan memarlıq məktəblərinin də formalaşması (5, s.12) istər-istəməz bu üslubun təkminləşməsinə və yeni forma almasına da gətirib çıxarmışdır.

Ərəb dilində yazılmış, nəfis şəkildə tərtib edilmiş dualar bu gündə sənət əsərlərinin tərtibatında mühüm yer tutur. Bu dövrdə gəc və keramika heykəltəraşlığı əski zamanlara nisbətən xeyli inkişaf etdi.Kufi xəttinin yeni üslubda inkişafı, müxtəlif xətt növlərinin qarşılıqlı təsiri, incəsənətin bütün sahələrində geniş tərtibatı ilə birlikdə, memarlığa da tətbiq olunmaqla, Türk-İslam memarlığında şahanə əsərlərin meydana çıxmasına səbəb oldu.



*3.Möminə xatun türbəsi.Həndəsi və yazı naxışları.Naxçıvan.1186.*




*4.Usta-Çagird türbəsi.Ahlat. 1270-1300.*




*5. Gülüstan türbəsi.Naxçıvan.XIII əsr.*




*6.Qarabağlar türbəsi. Elxanilər dövrü. XIV əsr.*



*7.Zeynəl bəy türbəsi.Hasankeyf. 1378-1508*

Bu dövrdən başlayaraq memarlıq sənətinə diqqət memarlığın inkişafına təkan verdi. Səlcuqlar dövrünün memarlıq sənəti Qəznəvilərin memarlıq ənənələrinin mükəmməl şəkli olmuşdur. Səlcuqların memarlıq üslubu Qəznəvi dövrünün memarlıq sənətindən xüsusi gözəlliyi ilə fərqlənir. Bu, özünəməxsus memarlıq üslubudur. Binaların genişliyi, müxtəlif bəzəkli heykəllərdən istifadə olunması (binaların qarşısında və yuxarısında) bu memarlıq üslubunu başqalarından xeyli fərqləndirirdi (6,s.31).

Bu üslub Anadolu memarlığında daş üzərində qabardılmış qorolyef, baralyef şəklində qarşımıza çıxsada, Naxçıvan memarlığında bu təsvirlərlə bişmiş kərpic və kaşı materialından sitilizə edilmiş formada abidələrin həndəsi bəzəkləri arasında müşahidə olunur. Səlcuqlar dövrü yaranmış bu üslub memarlıq abidələrinin forma quruluşilə yanaşı, bəzək kompozisiyalarında da özünü göstərməklə, sonra yaranmış bir sıra dövlətlərin-Elxani, Teymuri, Ağqoyunlu, Səfəvi və Osmanlı dövrü memarlığınında təməli olmaqla, uzun zamandan bəri öz funksiyasını itirməmişdir.



*8.İmamzadə kompleksi.Türbə üzərində kufi yazı.Səfəvi dövrü.Naxçıvan.*



*9.Erzen xatun türbəsi.Ahlat.1396-1397.*

Memarlıq sahəsində çalışan araşdırıcıların fikrincə, Səlcuqların memarlığa və eləcə də memarlıq sənətinə gətirdikləri yeniliklər danılmazdır. Bu yeniliklər məscidlərin kvadrat formalı maksurəli günbəzinin, minarəsinin, giriş baştağının, həyətli, eyvanlı, mərkəzi giriş baştağlı mədrəsələrin, yeni tipli məzar binalarının-türbələrin, eyvanlı saray binalarının, karvansara, buzxana və hamamların memarlıq quruluşunun formalaşmasında özünü göstərməkdədir. Səlcuq üslubunu memarlıq formaları ilə yanaşı tikililərin sətlərini

bəzəyən kərpic, daş və kaşı materialından qurulmuş həndəsi, bitkisəl naxışların və kufi xəttilə yazılmış kitabələrin tərtibatında görməmək mümkün deyil. Bu üslub uzun zaman Şərq ölkələrinin memarlığında özünə yer tapmaqla, onların memarlığının formalaşmasında da çox böyük rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Osman Turan. Selçuklular və İslamiyyet. İsanbul, Boğaziçi yayınları,2005,239 s.
2. Osman Turan. Selçuklular tarihi və Türk-İslam medeniyyeti. İsanbul, Boğaziçi yayınları,1980, 535 s.
3. Ögel B. İslamiyyetden önce Türk kültür tarihi. Ankara, 1962, 403s.
4. Aslanapa O.Türk sanatı.Remzi kitabevi. İstanbul,1989,454s.
5. Azərbaycan tarixi. Yeddi cilddə, ikinci cild, Bakı, 1998, 521s.
6. İbrahimgil M.Z.Sanat tarihi 2. Ankara, Koza Yayın Dağıtım Senaye ve Ticaret AŞ, 2012, 120 s.


## ABSTRACT


Nakhchivan and Anatolia regions, which closer to each other, have always been in the interest of the different states, due to their strategic importance and remained under the rule of these states in the time. These lands, where were found ancient settlements and ancient civilizations to have been conquered,lived in boundless, in the neighborhood in the past history, and have always been in business relations with each other. The broad development of Turkish culture in Nakhchivan and Anatolia started with the Seljuk marches from Central Asia to the west, and the territory became a single, complete country under the Seljuk Empire.

Seljuk period represents a new page in the art and architecture of Nakhchivan and Anatolia and also new line with Islamic culture. Turks gained a new meaning, power and vitality by bringing the elements into this culture while returning to a great power and culture with the Islamic religion and civilization. The art of Seljuq has flourished in Bukhimi, Qeznawi, Qarakitay and Kharzmshah, which can be divided into 10 groups in terms of their style. "Seljuk style" is one of them. It should be noted that the joint art style in the Islamic world was at the highest level within the Seljuk era. During this period, the political unity of the East people were formed with the Seljuk Empire.

This style is seen in the Anatolian architecture as qorolyef and baralyef but in the Nakhchivan architecture it is observed between geometric orrnamentation of the monuments from the baked bricks and the trim material. This style of Seljuk era has long been a function of the architectural monuments as well as the decorative composition, and it has long been a function of a number of states, such as Elkhani, Teymuri, Aggoyunlu, Safavid and Ottoman architecture.

**QALİBƏ HACIYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*oguz.haciyev@gmail.com*

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ DİALEKTLƏRİNİN TƏDQİQİ TARİXİ MƏSƏLƏLƏRİ

Ümumtürkoloji dilçiliyin ən ümdə məsələlərindən biri də dil tarixinin öyrənilməsi məsələsidir ki, bu istiqamətdə aparılan tədqiqatların ağırlığı müstəqil bir elm sahəsi kimi əsasən dialektologiyanın üzərinə düşür. Dialektlər hər bir xalqın milli varlığının dildə ifadəsi olmaqla, tükənməz tarixi mənəvi sərvətidir. Bütün tarixi dövrlərin izlərini özündə əks etdirən çağdaş dialektlər tarixin minilliklərindən süzülüb gələn, tarixi dildə canlı şəkildə mühafizə edən ən tutarlı faktlardır. Türk, eləcə də çağdaş Azərbaycan dilinin tarixinin ən qədim laylarının qoruyucusu olan müasir dialektlər bütövlükdə dil tariximizin qan yaddaşının silinməz səhifələridir. Ən qədim prototürk dövründən bu günə qədər dialektlərimizdə qorunub saxlanan canlı dil faktları bunu bir daha təsdiq edir. Dialektlərin tədqiqi üçün səciyyəvi olan dil faktları əsasında tarixi, coğrafi, etnik məsələlərin aydınlaşdırılması bütövlükdə dil tarixi ilə bağlı problemlərin həlli ilə bilavasitə bağlı olan mürəkkəb bir problemdir. Təkcə bu faktı söyləmək kifayətdir ki, müasir dialektlər üçün səciyyəvi olan fonetik, leksik və qrammatik formaların ilkin yaranışı və sonrakı inkişaf prosesi müəyyən tarixi mərhələlərdən və xalqın etnogenezində rol oynamış qədim etnik faktorlardan asılıdır.

Məhz bu baxımdan da qədim dövrlərdən bu günə qədər müxtəlif yöndə aparılan dil tədqiqatlarının, eləcə də dialektoloji tədqiqatların xarakterini müəyyənləşdirmək üçün ilk növbədə Azərbaycan – türk dialektlərinin tədqiqi tarixinə nəzər salmaq vacib şərtlərdən biridir. Qədim dövrlərdən bu günə qədər aparılan müxtəlif yönlü dil tədqiqatları bir elm kimi dialektologiyanın inkişafında mühüm rol oynamaqla, dil tədqiqatlarının elə bir həlqəsini təşkil edir ki, bu dialektlər araşdırılmadan dilin inkişaf tarixinin tam mükəmməl öyrənilməsi mümükün deyil. Çünki dilin yarandığı tarixdən yaranmış, əsrlərin süzgəcindən keçib günümüzə qədər canlı danışıq dilində mühafizə olunan müasir dialektlər mənsub olduğu xalqın tarixi ilə sıx bağlıdır. Unutmamalıyıq ki, dialektlər sadəcə tarixi yaşatmaqla kifayətlənmir, eyni zamanda milli ədəbi dilin formalaşmasında və zənginləşməsində də həlledici rola malikdir. Məhz bu baxımdan hər bir dilin dialektlərinin tədqiqi ilə yanaşı, həm də bu dialektlərin tədqiqinə həsr olunmuş, dilçilik tarixində özünəməxsus yeri olan bu əsərlərin də sistemləşdirilib öyrənilməsinə xüsusi ehtiyac var. Buna görə də müasir dialektlərin müxtəlif istiqamətdə tədqiqinə həsr olunmuş əsərlərə xüsusi diqqət yetirilməsi olduqca vacib bir məsələ kimi qarşıda dayanır.

Bir çox tədqiqatlarda dialektlərin tədqiqi tarixi məsələlərinə müəyyən qədər toxunulsa da, müşahidələr göstərir ki, istər Azərbaycan, istərsə də Türkiyə dilçiliyində dialektlərinin tədqiqi tarixi lazımi səviyyədə öyrənilməmişdir. Azərbaycan dilçiliyində dialektlərin tədqiqi tarixinin XIX əsr M.Kazım bəyin (1, s.11), Türkiyə dilçiliyində isə Macar alimi İ. Kunosun adı ilə bağlı olduğu göstərilir (2, s. IX).

Lakin tədqiqatlardan aydın olur ki, XI əsrdə M.Kaşğarlının "Divanü –üğat-it türk" əsəri ilə türk dilləri üzərində başlanan ilk etnik dialektoloji tədqiqatların tədqiqi tarixi sonradan xarici tədqiqatçılar tərəfindən davam etdirilərək, dialektlərin tədqiqinin ilkin tarixi mərhələsi kimi XIII – XVII əsrlərə dayanır. Hələ 1453-cü ildə İstanbulun fəthindən sonra türk mədəniyyəti dünyanın diqqətini cəlb edir və türk dilinin müxtəlif siyasi nəzəri mülahizələrin predmetinə çevrilməsi bu sahədə tədqiqatların aparılması üçün yeni şərait yaradır. Bu baxımdan M.N.Separanskinin "Повести и сказания о взятии Царграда турками (1453) в русской писменности 16 -17 веков" (Moskva: 1954) və A. İ. Sobolevskinin "Переводная литература Московсий Руси 14-17 веков" (СПб: 1903) kimi əsərləri ilə yanaşı, Ə.Vəkilovun «Изучение турецких диалектов Малой Азии до революцонными и советскому учеными» (УЗИВАН: 1960), N.A Smirnovun " Россия и Турция в XVI-XVII вв" (Moskva: 1946), A.Y.Yakubovskinin «О русско – хазарских и русско – кавказских отношениях в IX-X вв." (Moskva: 1946), A.M.Şerbakın «Знаки на керамике и керпичах из Саркела Белой Вежи» (К вопросы о языке и писменности печенегов) (Moskva: 1959), A.D.Noviçevin "Турция. Краткая история" (Moskva: 1965), R.Jurkankallionun "Zur Etimologie von russ. Tolmač 'Dolmetscher'und seiner türkischen Quelle" (Helsinki: 1952), O. Pritsakın "Се татрскы язык" (München: 1966), P.V. Qolubovskinin "Печениги, торки и половцы до нашествия татар" (Университетские известия, Киев: 1883 №-3, стр. 153-154), V.V. Bartoldun "Восток и русская наука" (Moskva: 1915), D.A.Rasovskinin "Печениги, торки

и берендеи на Руси и в Угрии" (Praqa:1933) kimi əsərlər hələ IX əsrdən başlayaraq Rusiyada türk dilinin tədqiqinin XVII əsrdən sistemli sistemli şəkildə tədqiqinin davam etdirilməsinin təsadüfi olmadığını aydın şəkildə göstərir. Bu baxımdan XIII-XIV əsrlərdə Qızıl Orda xanı Berkenin şərəfinə yazılmış "Се татарскыи язык", eləcə də xalq dili əsasında qələmə alınmış "Kodeks Kumanikus" kimi əsərlərin meydana çıxması çağdaş Azərbaycan və türk dili dialektlərinin tədqiqi tarixinin başlanğıc mərhələsi olduğunu söyləməyə əsas verir.

Türk dili tarixinə həsr olunmuş tədqiqatlar göstərir ki, müxtəlif tarixi mərhələlərdə yaranmış ölkə və ulus ayrılığı, coğrafi ərazilərin ayrılığı, sosial və siyasi ayrılıq, nəsillər arasında dövrün, zamanın yaratdığı ayrılıq nəticədə çağdaş türk dillərinin hər birinin müstəqil dil kimi formalaşmasına və bugünkü mərhələyə müstəqil dil kimi gəlib çatmasına səbəb olsa da, bütün təsirlərə baxmayaraq, bu dillərin öz milli tarixi cəhətlərini olduğu kimi mühafizə etməsi türk dillərinin bir kökdən təşəkkül tapdığını təsdiq edir. Bu isə onu göstərir ki, eyni dildə danışan xalqı, milləti ayıran coğrafi, siyasi amillərin dilə təsiri nə qədər gülcü olsa da, onu öz kökündən ayıra bilməmişdir.

Çağdaş Azərbaycan və türk dillərinin hələ müstəqil dil kimi formalaşması və ədəbi dil kimi təşəkkülündən öncəki durumuna görə tarixi coğrafi arealını nəzərə alsaq, o zaman bu tədqiqatların birbaşa çağdaş Azərbaycan və Türkiyə türkcəsinin tarixi ilə birbaşa bağlı olduğunu görürük. Bunu XIX əsrdə Yaxın Şərq dilləri, türk, iran və ərəb dilləri üzrə tədqiqat aparan H.D.Fren, O.İ.Senkovski, B.A.Dorn, M.Kazımbəy, A.O.Muxlin, P İ.Demezon, P.M.Melioranski, V.V.Bartold və başqa bu kimi tədqiqatçıların əsərləri də təsdiq edir.

Tarixi etnolinqvistik tədqiqatlar göstərir ki, istər müasir Azərbaycan ədəbi dili, istərsə də çağdaş Türkiyə türkcəsi ümumxalq dili əsasında mürəkkəb etnolinqvistik proseslərin nəticəsində təşəkkül tapmışdır. N.Xudiyevin qeyd etdiyi kimi, dil prosesləri ictimai mahiyyət etibarilə etnik proseslərlə sıx bağlıdır. Bu isə o deməkdir ki, türk etnosunun dil "yaradıcılığı" müxtəlif regionlarda eyni tipologiyaya malikdir, çünki onu eyni etnosun "yaradıcılıq" təcrübəsi müəyyən edir (3, s. 7-9).

XIII-XIV əsrlərdən başlayaraq müxtəlif dövrlərdə türk dili üzərində aparılmış tədqiqatlara müraciət edərkən, bu tədqiqatlara istinadən çağdaş Azərbaycan və Türkiyə türkcəsi dialektlərinin tədqiqi tarixinin ümumiləşdirilmiş şəkildə bir neçə tarixi mərhələ üzrə sistemləşdirilməsi mümkündür.

1. XI əsrdən XVII əsrə qədər olan tarixi dövr;
2. XVIII əsrdən XX əsrin əvvəllərinə qədər olan tarixi dövr;
3. XX əsrin əvvəllərindən isə bu günə qədər olan dövr.

Qədim oğuz və qıpçaq dilinin varisi Azərbaycan və Türkiyə türkcəsinin tarixi vəhdətinin xüsusi mərhələsi kimi XI – XVII əsrlər türk dilinin tədqiqi tarixində mühüm bir mərhələ olaraq dəyərləndirilməlidir. Elə bu səbəbdən də bütövlükdə ümumtürk dilçilik tarixinin başlanğıcı sayılan bu mərhələdə yaranmış əsərlərin və türk dili üzərində aparılan tədqiqatların müasir dövrdə tarixi dialektologiyanın əsas mənbəyinə çevrilməsi təsadüfi deyil. Çünki o dövrdə yaranmış abidələr və onların dili üzərində aparılan bütün tədqiqatlar dilçilik tarixində daha çox tarixi dialektologiyanın payına düşür. E.Əzizovun yazdığı kimi, dialektlərin tarixi əsasən ədəbi dilə aid olan tarixi mətnlər üzrə araşdırılır; bu halda sənədli materiallar böyük əhəmiyyət daşıyır (4, s.7).

XI əsrdən XVII əsrin sonuna qədər bütün Şərq xalqlarının ortaq ünsiyyət vasitəsinə çevrilmiş türk dilinə məxsus qədim mənbələrin dili üzrə tədqiqatlar əsasında çağdaş Azərbaycan və Anadolu dialektlərinin tədqiqi tarixindən söz açarkən, ilk növbədə bu dialektlərin kökündə dayanan və onların tarixi vəhdətini təsdiq edən türk dilinin tarixi coğrafi arealını və etnik xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Müasir türk dövlətlərinin – Türkiyənin, Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Özbəkistanın, Türkmənistanın və digərlərinin dili ölkə və ulus ayrılığı, coğrafi ərazilərin ayrılığı, sosial və siyasi ayrılıq, nəsillər arasında dövrün, zamanın yaratdığı ayrılıq fonunda təşəkkül edərək bugünkü mərhələyə gəlib çatması, nəticədə bu dillərin müstəqil inkişafına və müəyyən cəhətdən fərqlənməsinə gətirib çıxarmışdır ki, bu da türk dilinin parçalanmış hissələrinin müstəqil bir dil kimi formalaşmasını təmin etmişdir. Çağdaş Azərbaycan və türk dilləri də bu təbii proseslərin bir göstəricisidir.

Zamanın tələbindən yaranmış siyasi, coğrafi ayrılıqlara baxmayaraq, qədim mənbələrin dili, eyni zamanda türk dillərində və dialektlərində tarixin bütün dövrlərinin izlərini mühafizə edən tarixi dil faktları çağdaş Azərbaycan və türk dillərinin tarixi kök birliyinin inkarolunmaz təsdiqidir. Bunu əski tükcənin fonetik, leksik və qrammatik quruluşunu bu gün də öz dillərində və dialektlərində mühafizə edən çağdaş türk dillərinin dil faktları təsdiq etməkdədir. Qədim oğuz və qıpçaq türkcəsinin varisi olan çağdaş Azərbaycan və türk dillərinin qədim abidələrinin dil faktları XI əsrdən XVII əsrə qədər olan tarixi mərhələnin çağdaş Azərbaycan və türk dillərinin tarixində vahid bir dilin tarixi mərhələsi olduğunu aydın şəkildə göstərir. Hər iki dilin kökündə dayanan oğuz və qıpçaq dilinin bütün tarixi özəlliklərini yaşadan tarixi mənbələr bu fikri söyləməyə əsas verir. Sadəcə o dövrün mənbələrinin dili deyil, bir çox nəzəri tədqiqatlar da bu fikir öz təsdiqini tapır. Türkiyəli tədqiqatçı İsa Sarı əski Anadolu türkcəsi üzərində apardığı tədqiqatlara görə "13. asırdan 15. asra

kadar Azerbaycan, Irak, Suriye ve Anadolu'da kullanılmış olan, Türkiye Türkçesinin ilk devresini oluşturan yazı dili" olduğunu əsaslandırdığı kimi (5, s. 1), S. Cəfərov da qədim oğuz abidələrinin dili üzərində apardığı tədqiqatlar əsasında XIII-XIV əsrləri türk dillərinin bir-birindən az fərqlənən tarixi bir mərhələsi olduğunu göstərir (6, s. 109).

A.B.Ercilasun XIII əsrə qədər olan dövrü ana oğuz türkcəsi, XIII əsrdən XVəsrin ikinci yarısına qədər olan dövrü Azərbaycan və Anadolu türklərinin ədəbi dilində əski oğuz türkcəsi, XVI əsrdən müsir dövrə qədər olan dövrü isə yeni oğuz türkcəsi mərhələlərinə ayırmışdır (7, s. 430). Oğuz dilini səlcuq və türkmən dili olaraq iki qola ayıran Dörfer səlcuq dilinin özünü də batı və doğu səlcuq qrupuna ayırır ki, batı səlcuq qrupuna da Anadolu türkcəsi ilə Azərbaycan türkcəsinin daxil olduğunu göstərir (8, s. 32*)*

Çağdaş Azərbaycan, türkmən, qaqauz və türk dillərini qədim oğuz dilinin şivələri olaraq qeyd edən Erol Öztürk Türkiyədə oğuz dilinin inkişafını bir neçə tarixi mərhələ üzrə təsnif etmişdir:

1. Ana oğuzca (XI əsrə qədər Səlcuqlu dövlətinin yaranmasına qədər olan dövr);
2. Səlcuqlu dövrü (XI-XIII əsrlər Səlcuqlu dövlətinin yaranmasından ədəbi dilin formalaşmasına qədər olan dövr);
3. Anadolu Səlcuqlu dövrü (XIII əsrdən başlayaraq ilk yazılı əsərlərin yarandığı dövr);
4. Bəyliklər dövrü (XIV əsrdə formalaşanvə inkişaf edən müstəqil və gülcü ədəbi dil dövrü);
5. Klassik Osmanlı türkcəsinə keçid dövrü (XV əsrin başlanğıcı);
6. Osmanlı türkcəsi (XV əsrin ikinci yarısından XX əsrin əvvəllərinə qədər olan dövr) (9, s.18).

Qədim mənbələrin dili üzərində aparılan tədqiqatlar, eləcə də qədim etnik amillər və tarixi coğrafi areal, həmçinin nəzəri tədqiqatlar Azərbaycan və Türkiyə türkcəsinin müasir dialektlərinin tədqiqinin ilkin tarixi mərəhələsinin XI-XVII əsrlərə aid olduğunu söyləməyə əsas verir.

Müasir Azərbaycan və türk ədəbi dilinin, eləcə də dialektlərinin tarixi baxımdan tədqiqi göstərir ki, eyni etnik kökdən qaynaqlanan, lakin sonradan müstəqil dil kimi formalaşan iki ayrı dövlətin dili kimi tanıdılan çağdaş Azərbaycan və Türkiyə türkcəsinin inkişafı da ümumtürk dilində gedən bu proseslərlə sıx bağlıdır. Oğuzlara məxsus qədim Oğuz dastanlarının, "Oğuzanmə"lərin, "Kitabi Dədə Qorqud"un, "Gilqamış"ın dilindən başlayaraq, Orxon yazılarının, eləcə də XI əsr abidəsi "Divanü-lüğat-it Türk", XIII-XIV əsr abidəsi "İbn Mühənna lüğəti", XVIII əsr abidəsi "Səngilax"ın, eləcə də Qazi Bürhanəddin, Nəsimi, Füzuli, Kişvəri, Yunus Əmrə, Qaracaoğlanın dilindən, ta bu günümüzə qədər həm ədəbi, həm də dialekt qatında ən qədim dövrlərin tarixi izlərini mühafizə edən türk dilində yazılmış mənbələrdə müasir Azərbaycan və Türkiyə türkcəsinin tarixi vəhdəti aydın şəkildə görünür. Müasir dialektlərinin tədqiqində müxtəlif dövrlərə aid bu qədim mənbələr dialektlərdə tarixi izlərin müəyyənləşdirilməsinə imkan yaradır. Bu baxımdan ən qədim dövrlərdə öz dövrünün dil faktları əsasında yazılmış bütün əsərlər müasir dialektologiyanın yaranması və gələcək inkişafı üçün təməl daşı olmuşdur desək yanılmarıq.

M.Kaşğarlının "Divani lüğət-it türk" əsəri ilk dialektoloji mənbə kimi ümumtürkoloji dilçilik tarixində xüsusi bir yer tutur. Müasir dialektoloji tədqiqatlar üçün ən ciddi tarixi mənbə olan bu əsərdə qədim türk etnoslarının canlı danışıq dilindən toplanmış materiallar əsasında o dövrün dil xüsusiyyətlərinin sistemli tədqiqi üçün küllü miqdarda fonetik, leksik və qrammatik faktlar mövcuddur ki, bu da müasir dialektlərin tarixi müstəvidə tədqiqndə əvəzolunmaz mənbə kimi dünya dilçilik tarixində ilk dialektoloji tədqiqat olaraq çox qiymətli əsərdir. Məhz bu baxımdan da bu divanın tarixi dialektoloji mənbə kimi dünya tədqiqatçılarının da diqqət mərkəzində olmuşdur. A. Babayev M.Kaşğarlını dünyanın ilk böyük dialektoloqu adlandırması da təsadüfi deyildir (10, s.39 A.Babayev). Ə.Cəfəroğlunun "Kaşgarlı Mahmud", M.Şirəliyevin "Махмуд Кашгари как диалектолог", N.M. Melioranskinin "Араб-филолог о турецком языке", M.Ş.Rəhimovun ""Дивану-лугат-ит-тюрк" Махмуда Кашгарии древнетюркские элементы в диалектах и говорах азербайджанского языка", E.R.Tenişevin "Тюркская историческая диалектология и Махмуд Кашгарский", T.N.Gencanın "Divanü-lüğat-it-Turk'te Dil Xurallari", M.Tomanovun "Махмуд Кашгари", Z.Korkmazın "Kaşgarlı Mahmut ve Oguz Turkçesi", Q.Hacıyevanın "Mahmud Kaşğarlı'nın Divanü-Lugat'it-Türk Eseri Tarihi Diyalektolojinin Ana Kaynağıdır" kimi məqalələrdən aydın olur ki, çağdaş Azərbaycan və Türkiyə dilçiliyində dialektoloji tədqiqatların başlanğıcı məhz XI əsrdə M.Kaşğarlı tərəfindən qoyulmuşdur.

Azərbaycan və Türkiyə dilçilik tarixində ərəb müəlliflərinin türk dilləri üzrə apardığı tədqiqatlar kifayət qədərdir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, müasir dialektoloji tədqiqatlarda ərəb mənbələri üzrə nəinki xüsusi bir tədqiqata rast gəlinmir, hətta tarixi dialektoloji araşdırmalarda da bu mənbələrdən lazımi qədər istifadə olunmur. A.Babayev "Azərbaycan dilçilik tarixi" əsərində "Orta əsrlərdə türkologiya" bölməsində ərəb müəlliflərinin bu əsərləri haqqında verdiyi qısa məlumatları nəzərə almasaq, istər Azərbaycan, istərsə də Türkiyə dilçiliyində bu istiqamətdə xüsusi tədqiqata rast gəlinmir.

Azərbaycan dilçiliyində M.Mahmudovun "Ərəbcə yazmış Azərbaycanlı şair və dilçilər (VII-XII əsrlər)" (Bakı:2006), C.Sadıqova, T.Ələsgərovanın "Fars dilini tədqiq edən Azərbaycan alimləri" (Bakı:1990), V.Məmmədəliyevin "Ərəb dilçiliyi" kimi tədqiqatların olmasını müsbət qiymətləndirmək olar. Lakin təəssüflə

qeyd etmək olar ki, ərəb müəlliflərinin türk dilləri ilə bağlı yaradıcılıqları Azərbaycan və ümumtürkoloji dilçilikdə xüsusi tədqiqat obyekti olmamışdır. Unutmaq olmaz ki, XI-XIV əsrlərdə Azərbaycan alimlərinin fars dili ilə bağlı əsərləri fars dilçiliyi tarixinin öyrənilməsində mühüm rol oynadığı kimi, bu dövrlərdə ərəb və fars müəlliflərinin də türk dilləri üzrə apardığı tədqiqatlar və bu tarixi tədqiqatların üzə çıxarılması da ümumtürkoloji dilçilik üçün mühüm əhəmiyyət daşıyır.

Azərbaycan dilçiliyindən fərqli olaraq Türkiyə dilçiliyində bu istiqamətdə az da olsa müəyyən tədqiqatlara rast gəlinir. Bu tədqiqatlardan biri də B.Atalayın 1945-ci ildə ərəbcədən türk dilinə tərcümə edərək İstanbulda nəşr etdirdiyi müəllifi bəlli olmayan türk dilinin qrammatikasına həsr olunmuş və üç minə qədər sözü əhatə edən lüğətdən ibarət "Ettahfet uz Zekiyye fil luğat-it Türkiyyə" ("Təmiz ədəbi-bədii türk dilinin nadir inciləri") əsəridir. A.Babayev Q.K.Bağırovun bu əsər haqqında fikirlərinə istinad edərək göstərir ki, əsərin ikinci hissəsində fonetik və leksik müqayisələrlə yanaşı, yeri gəldikcə ərəb və qıpçaq sözlərinin də müqayisəsi verilmişdir (11, s. 44).

Bununla yanaşı, XI-XII əsrlərdə yaşamış ərəb müəllifi Əbül Qasim Mahmud bin Ömər əz-Zəməxşərinin türk leksikoqrafiyası tarixində mühüm yer tutan "Müqaddimat-ül-adab" əsərinin də müasir dialektoloji tədqiqatlar üçün dəyərli tarixi mənbələrdən biri olduğunu qeyd etmək lazımdır. Ərəb dilçiliyində diqqəti cəlb edən və müasir dialektoloji tədqiqatlar üçün maraqlı mənbələrdən biri də qıpçaq dilinin qrammatikasına həsr olunmuş və 1928-ci ildə Kilisli Rüfət tərəfindən İstanbulda nəşr olunmuş "Qəvanin əl-külliyyə fil zatt al-luğat at-Türkiyyə" əsəridir.

XI-XVII əsrlərdə Azərbaycanda və Türkiyədə ərəb və fars dillərinin nüfuzu qədər ərəb ölkələrində də türk dilinin nüfuzu az deyildi. Bunu o dövr ərəb müəlliflərinin türk dili üzərində apardığı tədqiqatlar da təsdiq edir. Ərəb müəlliflərinin türk dili üzərində apardığı bu tədqiqatlar ərəb dilində olsa da, bu əsərlər müasir Azərbaycan və Türkiyə dilçiliyində dialektologiyanın başlanğıc mərhələsi olmaqla, tarixi dialektoloji tədqiqatlar üçün mühüm mənbədir. Türk dilləri üzrə apardığı tədqiqatlara adını tarixə yazmış ərəb dilçiliyinin nümayəndəsi Əbu Həyyanın bu tədqiqatlarını yüksək qiymətləndirən M.Köprülüzadə yazır: "Əbu Həyyanın əsəri türk filologiyası tarixində bir mərhələdir" (11, s.40). Əbu Həyyanın qıpçaq, bulqar, tatar, uyğur və digər türk dilləri üzərində tədqiqatlarına həsr olunmuş "Kitab əl-idrak li-lisan əl-ətrak" ("Türk dillərini dərketmə kitabı"), "Zəhb əl-mülk fi nəhv ət-türk" ("Türk qrammatikasının kamil vəsaiti"), "Əl-əf'al fi lisanət-türk" ("Türk dilində feillər"), "Əd-dürrə əl-müdi ə fi-l-lüğa ət-türkiyyə" ("Türk dilində parlaq inci"), "Nəfh əl-misk fi cirət-ət türk" ("Türk dilinin təbiətinə müşk ətirli töhfə") kimi əsərlərdən təəssüf ki, yalnız "Kitab əl-idrak li-lisan əl-ətrak" əsəri bizə gəlib çatmışdır ki, bu əsər də Ə.Cəfəroğlu tərəfindən 1931-ci ildə İstanbulda Övqaf mətbəəsində nəşr edilmişdir (11, s.40-42).

Hansı dildə, hansı tarixdə yazılmasından asılı olmayaraq, bütün tədqiqatlarda ortaya çıxan tarixi dil faktları çağdaş Azərbaycan və Türkiyə türkcəsinin tarixi vəhdətini aydın şəkildə göstərir. Bu fakt həm qədim abidələrin, həm də müasir dövrdə hər iki dilin həm ədəbi dil materiallarında, həm də canlı danışıq dilində öz təsdiqini tapır. Lakin, təəssüflə qeyd etmək lazımdır ki, bəzən qədim abidlərin dili araşdırılırkən, tarixən vahid bir dilin nümunəsi olan bu abidlərin dil faktlarının müasir dilin qayda-qanunlarına görə təhlili, həmin abidələrin parçalanaraq ayrı-ayrı dilə mənsub abidə kimi təqdim olunmasına gətirib çıxarır ki, bu da, bütövlükdə türk dilinin tarixi kökünə ciddi zərbə vurur.

Təəssüflə qeyd etmək lazımdır ki, XI-XVII əsrlərə aid türk dilinə məxsus şifahi və yazılı mənbələr üzərində, bəzən də çağdaş dialektlərdə istər Azərbaycanda, istərsə də Türkiyədə aparılan tədqiqatlarda Azərbaycan və türk dilləri arasındakı dil faktlarının izahında bu dil nümunələrinin ayrı-ayrı dil kimi təqdim olunan çağdaş Azərbaycan və ya türk dilinə mənsub dil faktlarının olması ciddi mübahisə doğuran bir məsələ kimi ortaya çıxır. Lakin dialektoloji tədqiqatlar bu mübahisənin kökündən həll edilməsinə son qoymaqla, mübahisə olunan dil faktının həm Azərbaycan, həm də çağdaş Türkiyə türkcəsi üçün ortaq tarixi dil faktı olduğunu əsaslandırır. Bu tip mübahisələrə A.Battalın "İbn Mühənna lüğəti", O.Ş.Gökyay və M.Erginin "Kitabi Dədə Qorqud" dastanları kimi qədim abidələrin dili üzərindəki tədqiqatlar, eləcə də ixtisasca coğrafiyaşünas Sinan Türkmən kimi tədqiqatçıların əsərlərində söylənən fikirlərlə yanaşı, bəzən bu fikirlərə müasir dialektlər əsasında aparılan tədqiqatlarda da rast gəlinir.

Məsələn, "Kitabi Dədə Qorqud" dastanlarının və ya "İbn Mühənna Lüğəti"nin dili üzərində A.Battal və digər tədqiqatçıların lüğətin dilindəki bəzi leksik vahidlərin və fonetik xüsusiyyətlərin müasir dilə görə təhlil olunması fikri tamamilə yanlış nəticələrə və yersiz mübahisələrə gətirib çıxarır. Bu qədim əsərlərin dili üzərində aparılan tədqiqatlardan aydın olur ki, bu əsərlər müasir dil baxımından çağdaş Azərbaycan və Türkiyə türkcəsinin ayrılıqda dil mənbəyi kimi deyil, müasir dövrdə parçalanmış hər iki dilin tarixi bütövlüyünü təsdiq edən abidələrdir. Bəzi tədqiqatlarda Azərbaycan və Anadoluda ortaya çıxan əsərlərin orta Asiyadakı türklərin ədəbi dili ilə bağlılığı mübahisə doğurmaqdadır ki, bəzən digər türk dilləri ilə ortaq dil faktlarına əsaslanan tədqiqatçılar bunu "qarışıq dilli əsərlər" kimi təqdim etməyə çalışırlar (9, s.19).

Bu mübahisələr onu söyləməyə əsas verir ki, XI əsrdən XVII əsrə qədər olan tarixi mərhələdə yazılmış əsərlərin dili çağdaş Azərbaycan və Türkiyə türkcələrinin həm ədəbi, həm də dialekt xüsusiyyətlərini əks etdirir ki, bu fakt XVIII əsrə qədər həm Azərbaycan, həm də Anadoluda yaşamış türk şairlərinin əsərlərinin dilində öz təsdiqini tapır və maraqlıdır ki, bu proses hətta XX əsrin əvvəllərinə qədər davam edir. Azərbaycanda M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Abid, Y.V.Çəmənzəminli, Ö F.Nemanzadə, M.Hadi, H.Cavid, R.Rza, X.Rza, Türkiyədə isə Y.Əmrə, Mövlana, Qaracaoğlan kimi şairlərin dili ilə yanaşı, şifahi ədəbi nümunələr və aşıq ədəbiyyatı da vahid bir dilin ədəbi nümunələri olub, yalnız siyasi, coğrafi sərhədlərlə ayrılan vahid bir millətin dilində yazılmış əsərlərdir.

Orxon yazılarından başlayaraq, XI əsr abidəsi "Divanü-lüğat-it Türk", "Kitabi Dədə Qorqud", "İbn Mühənna lüğəti" kimi abidələrlə yanaşı, Nəsimi, Füzulu, Kişvəri, Yunus Əmrə, Mövlana, Qaracaoğlan və başqa bu kimi klassiklərin yaratdığı ədəbi nümunələrin dili bu fikri söyləməyə əsas verir ki, XVII əsrə qədər Azərbaycanda və Türkiyədə qələmə alınan, Azərbaycan və Türkiyə klassiklərinə məxsus əsərlərin dili müasir Azərbaycan və türk diləri üçün vahid dilin, qədim oğuz dilinin tarixi nümunəsidir.

XVIII əsrdən XX əsrin əvvəllərinə qədər Azərbaycan dilçiliyi tarixinin siyasi mərhələsidir, söyləsək, yanılmarıq. Çünki bu dövr linqvistik tədqiqatların əksəriyyəti öz siyasi mahiyyəti ilə diqqəti cəlb edir. Azərbaycan və türk dilinin siyasi cəhətdən tədqiq obyektinə çevrilməsinin əsas səbəbi Azərbaycanın, eləcə də Türkiyənin siyasi tarixi ilə bağlı bir məsələdir. Bu dövrün dil tədqiqatlarından danışarkən, ilk növbədə bir sıra dövlətlərin siyasi maraqlarının qurbanına çevrilən parçalanmış Azərbaycanın tarixi ərazi bütövlüyünün, eləcə də Osmanlı imperiyasının süqutu ilə əlaqədar Osmanlı imperiyasının tez-tez dəyişən coğrafiyası və XX əsrin əvvəllərində Mustafa Kamal Atatürkün qurduğu yeni Türkiyə Cümhuriyyətinin yaranmasının da dilə və dillə bağlı tədqiqatlara təsirinin nəzərə alınması olduqca vacib bir məsələdir.

Artıq XIX əsrdən başlayaraq bir millətin məskəni olan böyük bir coğrafi arealın Azərbaycan və Türkiyə kimi iki ayrı coğrafi areala malik dövlət kimi siyasi varlığı və müstəqil inkişafı müəyyən amillərdən asılı olaraq bu regionda mövcud türk dilinin də inkişaf istiqamətini dəyişmiş oldu. Həm tarixi etnik, həm də inzibati ərazi baxımından vahid bir coğrafiyaya malik olan Azərbaycanın sonrakı siyasi proseslərin nəticəsində dəfələrlə Osmanlı imperiyasının tərkibinə daxil edilməsi, XIX əsrdə Rusiya ilə İran arasında bölüşdürülən Azərbaycanın Quzeyə (Şimal) və Güneyə (Cənub) parçalanması, parçalanmış bu iki bölgənin bir qisim ərazilərinin də başqa dövlətlərin ərazilərinə qatılması dilin milli xüsusiyyətlərinə təsir edən ən ciddi amil olaraq, bu ərazilərdə aparılan dialektoloji tədqiqatların da istiqamətini bir qədər dəyişmiş oldu.

1828-ci il Türkmənçay müqaviləsi əraziləri Rusiya ilə İran arasında bölüşdürülən, təbii olaraq Quzey və Güney Azərbaycan kimi adlandırılan bütöv Azərbaycanın ərazisini və xalqını parçaladığı kimi, onun dilini də fərqli dillərin hökmranlığı altında assimilyasiya uğratmaq üçün hər iki dövlət tərəfindən bir çox siyasi tədbirlər həyata keçirildi. İran və Rusiyanın imperiya maraqlarına xidmət edən "parçala, hökm sür" ideyasının parçalanmış bütöv Azərbaycan xalqının milli kimliyi və milli dili üzərində tətbiqi Quzey və Güneyə parçalanmış Azərbaycan türklərinin vahid bir əraziyə və vahid bir dilə malik olduqlarını unutdurmaq, milli birliyi aradan qaldırmaq üçün ciddi siyasi xarakter daşıyırdı. Türkün ilkin məskunlaşdığı ən qədim tarixi ərazilərdə, Azərbaycan və Anadoluda türk kimliyini aradan qaldırmaq üşün bu coğrafiyaya edilən siyasi hərbi təcavüzə haqq qazandırmaq üçün bu ideologiyanın elmi müstəviyə daşınması və bu ərazilərə müxtəlif etnik qrupların kütləvi köçürülməsi sahəsində müəyyən siyasi tədbirlərin həyata keçirilməsi təsadüfi deyildi.

XIX əsrdə Güneyə və Quzeyə parçalnmış Azərbaycan türklərinin tarixi milli bütövlüyünü unutdurmaq və bunu tamamilə aradan qaldırmaq üçün Rusiya və İranın imperiya maraqlarının mərkəzində qlobal bir məsələ kimi dayanan dil siyasətində türk dilinin dialektləri hər iki dövlətin "parçala, hökm sür" ideologiyasının həyata keçirilməsində bilavasitə alətə çevrildi. Rusiyada rus olmayanların ruslaşdırılması, İranda isə fars olmayan millətlərin farslaşdırılması dövlət səviyyəsində ciddi şəkildə həyata keçirilməyə başladı. Müəyyən tarixi, etnik və siyasi amillərə əsaslanan dialekt fərqlərinə dayanaraq böyük türk millətini parçalamaq və tarixi kökündən ayırmaq üçün hər iki imperiya tərəfindən dövlət müstəvisində rəsmiləşdirilmiş layihələr həyata keçirilməyə başlandı.

XIX əsrdə yaşamış rus türkoloqu N.İlminskinin təklifi ilə Rusiyada eyni dilə məxsus dialektləri fərqli bir dilə çevirmə fikri ortaya qoyuldu. N.İlminski tərəfindən irəli sürülən bu fikir 1906-cı il mart ayının 31-də Rusiya Təhsil Nazirliyi tərəfindən rus olmayan millətlərin təhsili ilə bağlı layihədə yer almış oldu. N.İlminski Rusiyada yaşayan türk xalqları dillərinə məxsus dialektlərin bir-birindən fərqli dilə çevrilməsinin türkləri bir-birindən ayıracağını və ruslaşdırma siyasətini daha da sürətləndirəcəyini düşünürdü.

Çarlıq dövründən Rusiyanın tərkibində qalan Quzey Azərbaycanda sovet dövründə də rus dilinin hakim dil olması, rus dilli təhsilə üstünlük verilməsi, dəfələrlə Azərbaycan əlifbasının dəyişdirilməsi Azərbaycanda dil siyasətinə kökündən təsirini göstərirdi. Lakin Rusiyanın dil siyasətindən bir qədər fərqli olaraq, Güney Azərbaycanda Azərbaycan türklərinin milli dilinin kökündən yox edilməsi, türk kimliyinin aradan qaldırılması istiqamətində buranın türk dilli əhalisinə qarşı dövlət tərəfindən daha kəskin radikal

tədbirlər açıq şəkildə həyata keçirilirdi. Pəhləvi sülaləsinin hakimiyyəti dövründən başlayaraq "milli birlik" fars şovinist siyasəti nəticəsində İranda yaşayan qeyri-fars xalqlar və millətlər bütün milli hüquqlardan məhrum edilərək farslaşdırılmağa yönəldildi. Ölkə daxilində türk dilində təhsilin, milli dildə mətbuatın yasaq edilməsi, dövlət müəssisələrində türk dilində danışmağın, eyni zamanda yeni doğulan uşaqlara türk dilində adların verilməsi, milli musiqi alətlərindən istifadənin qadağan olunması İran dövlətinin Azərbaycan türklərinə qarşı apardığı dil siyasətinin çox açıq ifadəsi idi. Pəhləvi rejimi dövründə milli kimliyin məhv edilməsi yönündə həyata keçirilən bu tədbirlər sırasında birinci olaraq milli dillərin aradan qaldırılması və tarixin unutdurulması məsələsi idi ki, bunu da Pəhləvi hakimiyyətinin rəsmi dövlət sənədlərində açıq aşkar şəkildə ifadə etdiyi görünməkdədir. Pəhləvi rejimi dövründə bir çox məsələlərlə yanaşı, hətta dil tarixinin canlı şahidi olan milli coğrafi adların dəyişdirilməsi ciddi siyasi bir məsələ kimi dövlətin bu yöndə atdığı addımlardan biri idi.

Bu barədə İranın rəsmi dövlət sənədlərinə istinad edən T.Ə.İbrahimovun verdiyi məlumat diqqəti cəlb edir: "Milli birlik" şüarı və siyasəti ilk vaxtlarda ölkədə feodal pərakəndəliliyinin aradn qaldırılması və siyasi hakimiyyətin mərkəzləşdirilməsi kimi göründükdə zahirən zəruri bir tədbir sayılırdı. Lakin tezliklə bu siyasət İranda yaşayan xalqların milli hüquqlarını inkar edib, onu tam kobud və qəddar şəkildə həyata keçirməyə başladıqda, özünün ən çirkin mahiyyətini açıq və aydın büruzə vermiş oldu. 50 ildən artıq Pəhləvi hökümətinin siyasi istiqamətini, şovinist dairələrin əsas hədəf və məqsədini təşkil edən "milli birlik" siyasətinin əsl mahiyyətini göstərmək üçün burada o dövrün mürtəce mətbuatından təkcə bir jurnalın ilk nömrəsində baş məqalənin qısa məzmununa diqqət yetirmək kifayət edər: "Bizim tələbimiz və içtimai istəyimiz İranın milli birliyini təkmilləşdirmək və onu qorumaqdan ibarətdir. Milli birliyi təkmilləşdirmək üçün bütün ölkədə fars dili ümumi dil olmalı, libas, əxlaq və s. cəhətdən yerli fərqlər aradan qaldırılmalıdır. Kürd, lor, qaşqay, ərəb, türk (azərbaycanlı) və türkmən bir-birindən fərqlənməməlidir. Müxtəlif milli libas geyməyə, müxtəlif dillərdə danışmağa son qoyulmalıdır. İranda dil, adət-ənənə, libas və s. cəhətdən milli birlik yaranmayınca İranın müstəqilliyi, onun ərazi bütövlüyü daima təhlükə qarşısında qalacaqdır. Əgər biz İranda sakin olan müxtəlif əhalini və müxtəlif tayfaları vahid bir şəklə salmasaq, yəni bütün əhalini tam mənasında iranlılaşdırmasaq (farslaşdırmasaq), qarşımızda qaranlıq gələcək dayanır. Çingiz, Teymur dövrlərinin yadigarı olan coğrafi adları fars dilinə çevirməli, ölkədə bu məqsədə xidmət edən yeni inzibati ərazi bölgüsü aparılmalıdır. Hökumət idarələrində, qoşun daxilində və məhkəmə dairələrində yad dillərin və yad sözlərin işlədilməsi dövlət tərəfindən qadağan olunmalıdır" (12, s. 96-97).

Bu məsələ müxtəlif illərdə İran dövlətinin bir sıra rəsmi səndələrində, həmçinin burada yaşayan Azərbaycan ədiblərinin əsərlərində də öz əksini tapır.

Taleyimə sən bax!
Düşüncələrim yasaq,
Duyğuarım yasaq,
Keçmişimdən söz açmağım yasaq,
Gələcəyimdən danışmağım yasaq... (13, s.31).

İran dövlətinin bu ərazidə yaşayan xalqların milli kimliyinin yox edilməsində ən vacib olan milli dilə qarşı apardığı siyasətin önündə dayanan məsələlərdən biri də Azərbaycan türklərinin yaşadığı bölgələrə digər etnik qrupların kütləvi miqrasiyalarının təşkil edilməsi, Azərbaycanın Güneydə qalmış ərazisinin ayrı-ayrı adlarla ostanalara bölünərək kiçildilməsi və İranın cənub-şərq bölgəsində yaşayan türk olmayan müxtəlif etnik qrupların kütləvi şəkildə bu ostanlara yerləşdirilməsi idi. Dövlət səviyyəsində həyata keçirilən bu layihənin əsas məqsədi vahid kökə malik türk boylarının bir-birindən təcrid edilərək bir-birindən qoparmaq və ayrı salmaq idi ki, sonda türklərin siyasi təzyiq altında qalması onların ayrı-ayrı bölgələrdə kompakt şəkldə yaşaması və öz tarixi adını qoruyub yaşatması ilə nəticələndi. Vahid milli dildə təhsilin olmaması və milli dildə danışmağın yasaq edildiyi belə bir şəraitdə dialektoloji tədqiqatların istiqamətini tamamilə dəyişdi.

Nəticədə Azərbaycan türklərinin etnik tarixini bilmədən aparılan bu tip tədqiqatlarda dialekt faktlarının şərhi tamamilə yanlış bir istiqamət alması dili öz tarixi kökündən qoparılmasına gətirib çıxarır. Farsların İmperiya maraqlarının siyasi məqsədlərlə Güney Azərbaycan dialektləri üzrə aparılan dialektoloji tədqiqatların istiqamətinin qərəzli şəkildə dəyişdirilməsi vaxtı ilə Azərbaycanlıların etnogenezində iştirak etmiş oğuz, qıpçaq, xalac, əfşar, qaşqay kimi qədim etnosların dil faktlarının beynəlxalq müstəvidə İranda yaşayan az saylı xalqlara məxsus müstəqil dili kimi tanıdılmasına gətirib çıxarmış oldu ki, bu da türk dilinin tarixi kökünə zərbə vuran və bu ərazilərə qarşı yeni torpaq iddialarına səbəb olan tamamilə yanlış ideoloji siyasi konsepsiyalar doğurdu.

Bu baxımdan xarici tədqiqatçıların Güney Azərbaycanda vaxtı ilə azərbaycanlıların etnnogenezində rol oynamış qədim etnosların dili üzərində apardığı tədqiqatlar bunun bariz nümunəsidir. Alman alimi G.Dörferin Güney Azərbaycanda yaşayan xalacların dilini tədqiq edərkən İranın fars dilli bir dövlət olduğunu nəzərə alaraq, vaxtı ilə Azərbaycan türklərinin etnogenezində iştirak etmiş qədim oğuz boylarından biri olan xalacların dilini müstəqi dil kimi təqdim etməsi, və yaxud İran tarixçisi Ə.Kəsrəvinin Güney Azərbaycanda

yaşayan Azərbaycan türklərinin dilinin dialekt xüsusiyyətlərini əsas götürərək burada danışılan türk dilini Şimali Azərbaycanda yaşayan Azərbaycan türklərinin dilindən tam fərqli bir dil olduğu iddiasını irəli sürməsi fikri də dialektoloji tədqiqatların istiqmətini tamamilə dəyişdirən təhlükləi siyasi bir konsepsiya idi. Güneydə yaşayan Azərbaycan xalqının dilinə qarşı bu qədər açıq və sərt şovinizim mövqeyindən yanaşmasına baxmayaraq, tarixi həqiqətlərdən qaça bilməyən Ə.Kəsrəvi yeri gəldikcə türk dillərini tədqiq edən xarici tədqiqatçılardan bəhs edərək, dünya dilçiliyində və tarixində türklərin "tatar" adlandırılmasını da xüsusi olaraq vurğulamışdır (14, s.32).

Bütün bu deyilənlər onu göstərir ki, bütün tarixi dövrlərdə imperiya qurmaq iddiasında olan və ya öz imperiya hegemonluğunu yaşatmaq, eyni zamanda digər dövlətləri öz içindən parçalamaq üçün bütün ölkələrin ən öncül dövlət məsələlərindən biri və birincisi də dil siyasəti olmuşdur. Dialektoloji tədqiqatlar göstərir ki, bu siyasət sadəcə Azərbaycana qarşı deyil, bütövlükdə bütün türk xalqlarına qarşı yönlədilmiş, Türkiyə dövlətinin öz içindən parçalanmasını təmin etməklə Türkiyəyə də qarşı ərazi iddialarının predmetinə çevrilmişdir.

XVII əsrdən başlayaraq I Pyotrun Rusiyanın sərhədlərini genişləndirmək arzusu türk dili və türk mədəniyyəti üzərində elmi tədqiqatların sferasını genişləndirməsi, İran İslam Respublikasında Azərbaycan türklərinin milli dildə təhsilinin yasaq edilməsi də dediklərimizi təsdiq edir.

Elə bu səbəbdən də milli dillərin öyrənilməsi və tədqiqi hər zaman böyük maraq doğurmuş və bu dillər üzərində siyasi-ideoloji məqsədlərin həyata keçirilməsi üçün linqvistik tədqiqatların böyük bir qismini də dialektoloji tədqiqatlar təşkil etmişdir. Türk dilləri üzərində aparılan bu tip araşdırmaların daha çox rus və Avropa tədqiqatçılarının diqqət mərkəzində olması bu faktı təsdiq edir. Bu baxımdan XVII əsrin sonu XVIII əsrin əvvəllləri Azərbaycan və türk dilinin tədqiqi tarixində xüsusi bir mərhələ təşkil edir. XVII əsrin sonlarından başlayaraq Rusiyada türk dillərinin sistemli tədqiqinin əsası qoyulmuş və XVIII əsrin birinci yarısından XIX əsrə qədər bu tədqiqatlar ümumtürkoloji xarakter daşımağa başlamışdır.

XVII əsrdən başlayaraq türk dilləri üzrə sistemli linqvistik materiallar toplanmağa başlanıldı. Hollandiyalı hüquqşünas Nikolas Kornelisson Vitzen (1641-1717) toplanmış materiallar əsasında "Şimal və Şərqi Tatarstan" (Nord and Oost Tartaaye. Amsterdam, 1692, 1705, 1785) əsərini yazır (15, s.23). Ker Rusiyada şərq dilləri üzrə mütəxəsislərin hazırlanması və "Şərq Akademiyası"nın yaradılması üçün xüsusi bir layihə hazırlayır. Kerin layihəsi və təklifi əsasında XVIII əsrdə Rusiyada Şərq dilləri Akademiyası yaradılır. İ.Y. Kraçkovskinin təklifi ilə Kerin bu layihəsi uğurla həyata keçirilir və bu layihə əsasında iki əsr sonra da şərq dillərinin öyrənilməsi və tədqiqi davam etdirilir. Daha sonra M.V.Lomonosovun təklifi ilə davam etdirilən bu layihənin birinci məsələsi linqvistik materialların, yəni canlı dildən mətnlərin toplanması idi. Şərq dilləri Akademiyası qurulmadan öncə 1717-ci ildə I Pyotrun göstərişi ilə Q.Şobera Volqaboyu və Qafqaza ekspedisiyaya göndərilmişdi. Rusiya Şərq Dilləri Akademiyası qurulduqdan sonra da Volqaboyu və Qafqaz üzrə sistemli linqvistik tədqiqatlar davam etdirilməyə başlandı. XVIII əsrdə "bütün yabançı dillərin nümunələri"nin toplanması üçün Volqa ətrafı, Sibir və Qafqaza müntəzəm ekspedisiyalar təşkil olundu (15, s. 46).

1736-1739-cu illərdə rus türk müharibəsi illərində Türkiyəyə qarşı büyük marağı olan rus çarı I Pyotrun ilk işi Türkiyə haqqında kitabın nəşri idi. Ö siyasi maraqlarını həyata keçirmək Rusiyanın sərhədlərini daha da genişləndirmək üçün türklərin dili, tarixi ədəbiyyatı, bütövlükdə sosial, iqtisadi vəziyyəti ilə çox ciddi maraqlanırdı. Elə bu səbəbdən də Türkiyəni bütünlüklə əhatə edən iri həcmli kitabın hazırlanmasına külli miqdarda vəsait sərf etmiş oldu.

I Pyotrdan sonra da Türkiyə və Azərbaycan Şərq ölkələrindən gözünü çəkməyən imerialist qüvvələrin hər zaman diqqət mərkəzində oldu. Əsası XV əsrdə qoyulmuş türk dili üzrə tədqiqatların uzun əsrlər boyu yabançı tədqiqatçılar tərəfindən araşdırılması bu günədək davam etdirilməkdədir.

1902-ci ildə R.A.Acaryanın "Türk dilindən ermənicəyə keçən sözlər. İstanbul erməni xalq ləhcəsinin Van, Qarabağ və Yeni Naxçıvan dialektləri ilə müqayisə edilərkən" adlı tədqiqat işində türk dilindən erməni dilinə 4000 (dörd min) sözün keçdiyini etiraf etmiş olsa da, bu əsər coğrafi areal baxımından "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək məqsədi ilə saxta tarix yaratmağa xidmət edən dialektoloji tədqiqatlardan biridir. O, yazırdı: "1021'de Türkler ilk defa Ermenistan'a adım attılar ve kısa bir zaman içerisinde tüm ülkeyi ele geçirerek, batıya doğru ilerilediler. O dönemden itibaren 900 yıl boyunca ermenilerle çeşitli Türk kavimleri (Secuklar, Tatarlar, Türkmenler, Özbekler, Azerbaycanlılar ve Osmanlılar) yan-yana yaşamışlardır. Bu ortaq hayat, medeni yaşamın çeşitli alanlarında da karşılıklı ilişkilere sebep oldu, fakat ben sadece dil olayları üzerinde duracağım (1926, Türkiloji kurultay s. 205 "Türk ermeni dillerinin karşılıklı etkisi"). 1926-cı ildə I Türkoloji qurultayda çıxışında adı çəkilən Ermənistanın hansı ərazidə yerləşdiyini göstərmədən və heç bir tarixi fakta əsaslanamadan erməni dilinə keçmiş türk dili faktları əsasında irəli sürdüyü konsepsiyanın tamamən saxta olduğunu göstərən fikirləri diqqəti cəlb etməyə bilməz: "Erməni halk dili Türk kelimeleri ile zengindir. Tamamaen türkçe kelimelerden oluşan cümlelerle de karşılaşıyoruz" (16, s. 205).

Tarixi tədqiqatlardan göründüyü kimi, istər Azərbaycan, istərsə də Türkiyə üzrə dil tədqiqatlarının aparılması hər zaman aktual olmuşdur. Bu aktuallıqdan irəli gəlir ki, hər iki regionun dil materiallarının öyrənilməsi siyasi-ideoloji bir məsələ kimi daim imperialistlərin diqqət mərkəzində olmuşdur. Bu sahədə ilkin tədqiqatlardan biri də XVIII əsrdə yaşamış İ.A.Quldenştedtin adı ilə bağlıdır. O, 1700-1773-cü illərdə Cənubi Rusiyada və Qafqazda olmuş, Qafqaz dillərinə, o cümlədən burada yaşayan türk xalqlarının dillərinə dair zəngin məlumat toplamış, həmin materiallar əsasında "Материалы по Азербайджанскому, ногайскому, кумыкскому, терекеменскому языкам и первая классификация Кафказских языков " (Берлин 1773) və "Лексический материал по диалекту Азербайджанских тюрок" (Санкт-Петербург 1791) əsərlərini nəşr etidirmişdir.

Bu tədqiqatlardan sonra da, XIX əsrin ortalarından başlayaraq, Azərbaycan dili dialektlərinin regionlar üzrə tədqiqinə xüsusi diqqət yetirilmiş, XX əsrin 30-cu illərindən isə Azərbaycanın müxtəlif bölgələri üzrə məhəlli dialektlərin ekspedisiya yolu ilə öyrənilməsinə başlanılmışdır. İ.Bayramovun qeyd etdiyi kimi, bu dövrdə Azərbaycan dili şivələri əsasən üç istiqamətdə - ekspedisiya, monoqrafik və leksikoqrafik yolla tədqiq olunmuşdur (1, s. 13).

Azərbaycan dialektlərinin regionlar üzrə sistemli tədqiqi tarixi əsasən sovet dövründən başlayır. Doğrudur, sövet dövründən daha öncə XVIII əsrdə Azərbaycan türkcəsinin dialektoloji məsələlərinə ilk toxunan, Qafqaz dillərinə, o cümlədən burada yaşayan türk xalqlarının dillərinə dair zəngin məlumat toplamış, həmin materiallar əsasında iki əsər nəşr etdirmiş İ.A.Quldenştedtdən sonra XIX əsrdə bu sahədə tədqiqatları davam etdirən M.Kazımbəy olmuşdur. O,1839-cu ildə Kazan şəhərində çap etdirdiyi "Türk-tatar dilinin qrammatikası" əsərində ilk dəfə olaraq Quba dialekti və Dərbənd şivəsi üçün səciyyəvi olan qrammatik cəhətləri Azərbaycan ədəbi dili ilə müqayisə edərək Dərbənd şivəsinin ədəbi dildən fərqli xüsusiyyətlərini göstərmişdir (17, s. 276-286).

Azərbaycanın ictimai-siyasi tarixində olduğu kimi, dilin inkişaf istiqamətinin müəyyənləşməsində və dilçiliyin bir elm kimi formalaşmasında XX əsrin əvvəllərində xalq üzərində böyük təsir gücünə malik mətbuatın da həlledici rolu olmuşdur. Hələ XIX əsrin ilk çağlarında ana dilli mətbuatın başlanğıcını qoyan "Əkinçi"dən başlayaraq, XX əsrin aparıcı mətbuatı olan "Füyuzat" (1906-1907), "Molla Nəsrəddin" ( 1906-1931) kimi bir çox digər mətbu orqanlarının da Azərbaycan dilçilik tarixində özünəməxsus yeri var. Hələ Azərbaycanda ali təhsil ocaqlarının olmadığı bir dövrdə mətbuatın öz səhifələrində dillə bağlı məsələlərin şərhində polemikaya geniş yer verməsi Azərbaycanda dilçiliyin bir elm kimi sonrakı inkişafı üçün yeni açılan bir cığır idi.

XX əsrin əvvəlləri üçün xarakterik məsələlərdən biri kimi "ana dilinin saflığı" məsələlərini gündəmə gətirən yazılarda xalq dilində işlənən bir çox söz və ifadələr ədəbi dil müstəvisində müqayisə edilərək Azərbaycan dilinin dialektləri ilə bağlı məsələlər şərh olunması Azərbaycan türkcəsinin həm nəzəri, həm də xalq dilinə məxsus faktik dil materiallarının təhlilinə həsr olunmuş yazılar dialektologiya sahəsində görülən işlərdən biri idi.

Azərbaycan Demokratik Cümhuriyətinin süqutundan sonra, Sovet imperiyasının yaradılması Azərbaycan dilçiliyinin ziddiyyətli inkişaf dövrü kimi kimi qiymətləndirilir (11, s.135). Sovet dövrü yeni siyasi rejimin ideoloji prinsiplərinin həyata keçirilməsi bir tərəfdən dilçilik elminin ümumdünya nəzəri dilçiliyinin səviyyəsinə qaldırılması, digər tərəfdən isə dilçilikdə etnogenez məsələlərinə söykənən milli dil konsepsiyasının aradan qaldırılmasına xidmət edirdi. Bu səbəbdən də 1924-1937-ci illər nəinki Azərbaycanda, Sovet imperiyasının tərkibində olan digər türk pespublikalarında dilçilik elminin məhsuldar bir dövrü olmaqla, Azərbaycan dilçiliyinin ən ziddiyyətli siyasi tarixi bir mərhələsi kimi dəyərləndirilməlidir. Bu illərdə təqib və təzyiqlər, "pantürkizm" və "panislamizim" damğası ilə Azərbaycanda və digər türk respublikalarında ziyalı təbəqəsinə qarşı yönəldilmiş kütləvi represiyalar keçmiş SSSR-də türkologiyanın inkişafına əngəl olan ən ciddi amil idi. Lakin bütün bunlara baxmayaraq, 1924-1937-ci illər Azərbaycanda dilçiliyin, xüsusilə dialektologiyanın bir elm kimi inkişafında ən məhsuldar bir tarixi mərhələ olmuşdur.

1920-ci illərdə N.İ.Aşmarin və B.Çobanzadənin Bakıya gəlişindən sonra N.İ.Aşmarin və B.Çobanzadənin fəaliyyəti ilə Azərbaycanda dialektologiyanın elmi-nəzəri əsaslar üzrə inkişafı yeni bir istiqamət alır. Azərbaycanda dialektologiyanın elm kimi formalaşmasında təməl daşlarını qoyan N.İ.Aşmarin (1923-cü ildən) və B.Çobanzadə (1925-ci ildən) Bakı Dövlət Universitetinin Şərq fakültəsinin Türkologiya kafedrasında çalışdıqları illərdə dialektoloji tədqiqatları daha da genişləndirərək bu araşdırmaları ümumtürkoloji müstəvidə davam etdirmişlər. Bu dövrdən, Azərbaycanda sovet hakimiyyətinin ilk illərindən Azərbaycan dili şivələrini öyrənmək və bunların lüğətini toplamaq işi ilə "Tədqiq və Tətəbbö" cəmiyyəti məşğul olmağa başlayır. Bu sahədə xüsusi kadrların olmaması səbəbindən cəmiyyətin təşəbbüsü ilə SSRİ EA-nın müxbir üzvü prof. N.İ.Aşmarin tərəfindən ilk dəfə olaraq Azərbaycan şivələrinin lüğətini toplamaq üçün proqram və təlimat tərtib olunur (1, s.12).

Aşmarinin tərtib etdiyi bu proqramda 15 maddə üzrə Azərbaycan türk şivələrinin lüğətini tərtib edib hazırlamaq üçün toplanacaq materiallardan bəhs edilirdi. Bu proqramdan sonra N.İ.Aşmarinin "Lüğət üçün Azərbaycan türk şivələrinin toplanmasına dair" məqaləsi nəşr olunur. N.İ.Aşmarinin 1926-cı ildə Bakıda nəşr etdirdiyi "Общий обзор народных тюркских говоров Нухи" əsəri Azərbaycan dialektologiyası tarixində ilk sanballı tədqiqatlardan biridir. 1926-cı ildə nəşr etdirdiyi bu əsərdən sonra, 1930-1931-ci illərdə N.İ.Aşmarinin rəhbərliyi ilə "Azərbaycan türk xalq şivələri lüğəti"nin birinci cildi nəşr olunur (1, s.12). Sadəcə Azərbaycan dili dialektlərinin deyil, türk dilləri və dialektlərinin də tədqiqində böyük rol oynamış N.İ.Aşmarin 30 illik tədqiqatlarının nəticəsi olaraq 50 000-ə yaxın sözü əhatə edən "Çuvaş dilinin lüğəti"ni ("Словарь чувашского языка") hazırlayır.

N.İ.Aşmarinlə B.Çobanzadənin Azərbaycanda elmi fəaliyyətə başlaması Azərbaycan dialektologiyasının müstəqil bir elm sahəsi kimi, sistemli tədqiqi və inkişafı üçün zəmin yaradır. B.Çobanzadənin 1927-ci ildə Bakıda "Tədqiq və Tətəbbö" cəmiyyəti tərəfindən nəşr edilmiş "Türk-tatar dialektolojisi" əsəri Azərbaycan dilçiliyində müqayisəli dialektologiyanın əsasını qoymaqla, müqayisəli dialektoloji tədqiqatların ilk iri həcmli elmi nəzəri mənbələrindən biri kimi də ümumtürkoloji dilçilikdə dialektologiyanın bir elm kimi formlaşmasının başlanğıcı sayıla bilər.

"Türk-tatar dillərini meydana çıxaran və mənsub olduqları daha geniş Altay lisan ailəsindən ayıran amillər nə isə, türk-tatar şivə və ləhcələrini meydana gətirən amillər də eynidir. Bu soy amilləri başlıca olaraq üç qrupda toplaya biləriz: üzvi, coğrafi və ictimai" – deyə türk dillərinin və dialektlərinin tədqiqinə üç istiqamətdə diqqət yetirən B. Çobanzadə əsərdə sadəcə Azərbaycan türkcəsindən deyil, türk dilləri ailəsinə mənsub dialektlərlə yanaşı, bir çox dünya dialektoloqlarının tədqiqatlarından da bəhs etmişdir. B.Çobanzadə "Türk-tatar dialektolojisi" əsərində türk dillərini və dialektlərini vahid bir tam kimi tədqiqata cəlb etməklə Azərbaycan dilçilik tarixində ümumtürkoloji müstəvidə ilk nəzəri müqayisəli dialektoloji tədqiqatın əsasını qoymuş oldu. A.Babayev B.Çobanzadənin türk dillərini vahid bir tam kimi götürüb təhlil etməsini və onun dialektləri haqqında mülahizələr söyləməsinin əsas səbəblərindən biri kimi o vaxt türk respublikalarında milli kadrların kifayət qədər olmaması ilə əlaqələndirərək yazır ki, məhz bunun üçün B.Çobanzadə türk dillərini müqayisəli surətdə tədqiq etmək kimi bir vəzifəni öz üzərinə götürmüş oldu (10, s.159-160).

B.Çobanzadənin səyi ilə 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultay Azərbaycan sovet dialektologiyasının inkişafı üçün xeyli işlərin görülməsinin başlanğıcı oldu. Dil, əlifba və terminologiya kimi ciddi məsələlərin həlli ilə bağlı problemlərin aradan qaldırılması qurultayın qarşısında duran ən ümdə vəzifə olsa da, burada dialektologiyanın inkişafı və dialektlərin öyrənilməsi məsələlərinə həsr olunmuş məruzələrin dinlənilməsi və bu sahədə müəyyən işlərin görülməsi üçün qərarların qəbul edilməsinə də xüsusi diqqət yetirilmişdir. B.Çobanzadə, N.İ.Aşmarin, S.İ.Rudenko kimi alimlərin məruzələrində dialektlərin öyrənilməsində mövcud problemlərin həlli yolları göstərilir və bu sahədə müəyyən təkliflər irəli sürülür.

N.İ.Aşmarin "Türkolojinin tarihi ve günümüzdeki durumu hakkında bazı bilgiler" mövzusundakı çıxışında dialektlərin tədqiqi məsələlərinə toxunmuş, bu sahədə olan çatışmazlıqları dilə gətirmişdir: "Türk diyalektlərinin incelenmesi alanında şu anda mevcut genellediğimizde inkar yönetimini uygulayarak onları şu şekilde gösterebiliriz. Ayrı-ayrı Türk lehçelerinin yapısı hiç de yeterli ölçüde incelenmemiştir ve türk seslerinin şimdiye kadar yapılan tasvirleri çoğu zaman içeriğinde yeteri kadar incelenmemesinden zarar görmüştür. Lehçelerin bir çoğunun morfolojisi az araştırılmıştır. Onların çoğuna sadece tesadüfi denemelerde değinilmiştir., lehçelerin ekserisi için ayrıca monografiler bulunmamaktadır. Diyalektlerin ekserisinde söz diziminin ayrı-ayrı çizgileri tam olarak araştırılmamıştır. Mevcut gramerlerde sintaktik olaylar cadece mantıkı yönden açıklanmakta ve bu sırada türk dillerinde rol oynayan psikolojik etkenler hiç dikkata alınmamaktadır.

Lehçelerin çoğunun sözlük yapısı az tetkik edilmiş, onların bazıları, örneğin Başkurt ve türkmen lehçeleri hakkında son derece yetersiz kısa lügatlar vardır. Kuzey Kafkasiya ve Kafkas ötesi diyalektlerin de dahil olduğu diğer diyalektler ise bu açıdan hiç araştırılmamıştır. Bir çok kavmin halk kültürüne ait eserleri toplanmamış ve inçelenmemiş, güclü kültür merkezleri çevresindeki lehçelere özellikle az dikkat edilmiştir. Kazan tatar lehçesinin ayrı-ayrı ağızları da tam incelenmemiş ve bu lehçelerin sözlüğü de yayımlanmamıştır. Kendine özgü kasım lehçesi, Mişer, Tipter, Nogaybay ve bazı Sibirya ve Orta Asiya lehçeleri de tam olarak araştırılmamıştır. Bazı diyalektler hakkında ise literatürde bir bilgi bulmaq imkansızdır. Türk talaffuzunun müzik yönü, aynı zamanda Türk şiir sanatının kuralları da yeterli şekilde araştırılmamıştır. Şimdiye kadar elimizde türk dillerinin kıyaslamalı gramerine dair bir tane dahi olsun eser bulunmuyor" (16, s. 197).

Qurultayda "Türk şivələrinin münasibəti" mövzusunda məruzə edən B.Çobanzadə də dialektlərin tədqiqində vacib olan məsələləri dilə gətirmişdir:

1. Çox dəfələr türk şivələrinin tədqiqi başqa sahələrin aydınlaşdırılması, bir taqım tarixi, iqtisadi və siyasi məsələlərin həll edilməsi üçün tali və yardımçı bir iş olaraq tələqqi edilmişdir.
2. Türkoloq lisançılar hənuz ayrı-ayrı şivələrin tədqiqindən irəliyə gedib bunları müqayisəli surətdə mövzui-bəhs etmək cəhtinə yanaşmamaqdadırlar.

3. Türk tatar şivələrinin təsnifi üçün şimdiyə qədər yazılmış olan sətirlərdə, bizim fikrimizcə, başlıca şu qüsurlar vardır:

a) Yalnız sövti cəhətə əhəmiyyət veriliyor;

b) Tarixi xüsusiyyətlər və məlumat diqqətə alınmıyor;

c) Bir taqım müxtəlif prinsiplər bir-birinə qarışdırılıyor (18, s. 190, c.1).

B. Çobanzadənin məruzəsində dialektlərin tədqiqi ilə bağlı irəli sürdüyü bu fikirlər qurultay iştirakçılarının nəzər diqqətini cəlb etmiş və bu sahədə olan çatışmaqzlıqları aradan qaldırmaq üçün qurultay dialektlərin tədqiqinin çox ciddi bir məsələ olduğunu nəzərə alıb bu xüsusda qərar qəbul etmişdir:

1. Hər dil və şivə ayrı-ayrı tədqiq edilməli və bunların müfəssəl dərin tədqiqatlar üzərinə tərtib edilmiş lüğət və elmi sərfi meydana gətirilməlidir..

2. Türk dilləri və şivələrinin tarixi-müqayisəli təsnifi, müqayisəli iştiqaq lüğətini və təsnifini vücuda gətirmək üçün lazım gələn hazırlıqlar görülməlidir (17, s. 190, c.1).

37-ci il pepresiya dövründən sonra uzun müddət bütün sahələrdə olduğu kimi, Azərbaycan dilçilik elmində də müəyyən bir dövr durğunluq yaranmış oldu. Bu durğunluq dilçiliyin digər sahələrində olduğu kimi, dialektologiyada da özünü aydın şəkildə göstərirdi. Represiya dövründə B.Çobanzadə, V.Xuluflu, Y.Çəmənzəminli, K.Q.Bağırov və başqa bu kimi bir çox dilçi kadrlar məhv edildikdən sonra, Azərbaycan dilçiliyi müəyyən tənəzzül dövrü yaşamış olsa da, sovet dövrünün sonrakı mərhələsində M.Şirəliyevin fəaliyyəti və rəhbərliyi ilə Azərbaycan dilçiliyinin müstəqil bir sahəsi kimi Azərbaycan dilinin dialektologiyası yeni inkişaf yoluna qədəm qoydu. M.Şirəliyevin rəhbərliyi ilə yeni çiçəklənmə dövrünə qədəm qoyan dialektoloji tədqiqatların artması, bu sahəyə xüsusi diqqətin yetirilməsi nəticəsində Azərbaycanın müxtəlif bölgələri üzrə dialektoloji tədqiqatlar genişləndirilmiş, Azərbaycan dialektologiyasına aid dərsliklər və dərs vəsaitləri, eyni zamanda elmi monoqrafiya və məqalələr nəşr edilmiş, onlarla namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir. Türkologiyada ilk dəfə olaraq Azərbaycanda 50 xəritədən ibarət Azərbaycan dilinin Şərq qrupu dialektlərinin materialları üzrə Azərbaycan dilinin dialektoloji atlası hazırlanmışdır (17, s.18).

Bu baxımdan M.Şirəliyevin ümumilikdə Azərbaycanın müxtəlif rayonlarından toplanmış materiallar əsasında 1962-ci ildə nəşr olunmuş "Azərbaycan dialektologiyasının əsasları" adlı əsəri Azərbaycan dialektologiyasında ilk nəzəri tədqiqatlardandır.

Dünya miqyasında ümumtürk dilçilik elmi sahəsində ilk dialektoloji atlasın hazırlanması da məhz Azərbaycan dialektoloqlarının adı ilə bağlıdır. Belə ki, 1958-ci ildə tərtib olunan "Azərbaycan dilinin dialektoloji atlasının tərtibi üçün toplanan materalların proqramı" əsasında Azərbaycan Sovet Sosialist Respublikasının Şərq rayonlarının 235 yaşayış məntəqəsindən materal toplanaraq M. İslamov, T. Həmzəyev və R. Kərimovun müəllifliyi ilə 50 xəritədən ibarət "Azərbaycan dilinin şərq qrupu dialektoloji atlası" hazırlanmışdır. İlk təcrübi iş uğurla başa çatdıqdan sonra geniş miqyaslı fəaliyyətə başlanılmış, Azərbaycan Sovet Sosialist Respublikasının 409 yaşayış məntəqəsi əsasında M.Şirəliyev və M.İslamovun redaktorluğu ilə 128 xəritədən ibarət "Azərbaycan dilinin dialektoloji atlası" 1990-cı ildə çapdan çıxmışdır.

Təəssüflə qeyd etmək lazımdır ki, iki cilddə nəşri nəzərdə tutulmuş bu atlasda Qərbi Azərbaycanın Göyçə, Zəngəzur, Meğri, Loru, Pəmək, İrəvan, Vadi, Ağbaba və digər bölgələrinin dialektləri ilə yanaşı, Borçalı, Dərbənd dialektlərinin yer alacağı ikinci cild 80-ci illərdə ermənilərin Azərbaycana hücumu və bu bölgələrdə yaşayan bütün Azərbaycan türklərinin zorakılıqla öz doğma yurdlarından çıxarılaraq deportasiya olunmaları bu bölgələr üzrə dialektoloji tədqiqatları davam etdirməyə imkan vermədiyindən, bu tədqiqatlar yarımçıq qalmış və nəticədə atlasın nəzərdə tutulmuş ikinci cildi nəşr olunmamışdır.

1960-1990-cı illər dialektlərin praktik tədqiqi ilə yanaşı, artıq dialektlərin nəzəri məsələlərinin də öyrənilməsinin sürətləndiyi bir mərhələdir. M. Şirəliyev bu mərhələni Azərbaycan dialektologiyasının çiçəklənmə dövrü hesab edərək, AMEA Dialektologiya şöbəsinin əməkdaşları tərəfindən bu tədqiqatların üç istiqamətdə, monoqrafik, dialektoloji atlasın və lüğətin tərtibi istiqamətində aparıldığını, bu sahədə tədqiqatların daha da artdığını göstərir (19, s.49. Türk dillərinin dialektologiyası məsələləri 1960).

Dialektologiyanın nəzəri məsələlərinin tədqiqində və elmi ictimaiyyətin mənsub olduğu geniş auditoriyaya çatdırılmasında 60-cı illərdən sonra yaranmış müxtəlif elmi məcumələrin ardıcıl nəşri bu illərdə dialektologiyanın inkişafının göstəricisidir. Dünyanın müxtəlif ölkələrindən olan tədqiqatçıların elmi müddəalarını məqalələr şəklində özündə cəmləşdirən bu məcumlər nəinki, Azərbaycan və türk dünyasının, bütövlükdə dünya dialektoloqlarının elmi auditoriyasına çevrilmişdi. Dialektologiyanın nəzəri məsələlərini kütləviləşdirən və inkişafında mühüm rol oynayan belə məcumələrdən biri Azərbaycan SSR EA Nizami Adına Ədəbiyyat və Dil İnstitunun "Türk dillərinin dialektologiyası məsələləri" məcuməsi və "Türkologiya" jurnalını xüsusilə qeyd etmək lazımdır. 60-cı illərdə Azərbaycan SSR EA Nizami Adına Ədəbiyyat və Dil İnstitunun "Türk dillərinin dialektologiyası məsələləri" məcuməsi də Azərbaycan dialektologiyasının nəzəri məsələlərinə həsr olunmuş məqalələrdən ibarət xüsusi elmi əsərlərdən ibarət bir toplu idi. Bütün saylarında Azərbaycan

dialektologiyasının müxtəlif məsələlərini işıqlandıran bu toplunun maraqlı saylarından birisi də 1960-cı il 2-ci nömrəsində nəşr olunmuş (E.İ.Ubratovanın “Изучение диалектов тюркских языков” (“Türk dillərinin dialektlərinin öyrənilməsi”) (19, s.7-23), V.Q.Orlovanın “О принципах построения диалектологических програм” (“Dialektoloji proqramların tərtibi prinsipləri haqqında”) (19, s. 23-35), S.V. Bromleyin “К методике наблюдений над диалектной речю” (“Dialekt nitqi üzərində müşahidə metodikası”) (19, s.35-49), M.Ş.Şirəliyevin “Азербайджанская диалектология на новом этапе” (“Azərbaycan dialektologiyası yeni mərhələdə”) (19, s.49-56) və “Проблема диалектного членения языка” (“Dilin dialekt bölünməsinin problemləri haqqında”) məqalələri, V.V.Reşetovun “Монографические изучение диалектов” (Dialektlərin monoqrafik tədqiqi) (19, s. 57-76) R.A.Rüstəmovun “О монографическом изучении диалектов азербайджанского языка” (Azərbaycan dili dialektlərinin monoqrafik tədqiqatları haqqında) (19, s.77-88), A.Vəliyevin “Некоторые фонетический особенности переходных говоров азербайджанского языка” (Azərbaycan dilinin keçid şivələrinin bəzi fonetik xüsusiyyətləri) (19, s.96-102), M.Ş.Rəhimovun “Диалекты и история языка” (“Dil tarixi və dialektlər”) (19, s. 118-126) bu kimi məqalələr Azərbaycan, eləcə də türk dilləri dialektlərinin nəzəri problemlərini əhatə edir və bu problemlərin həlli yollarını göstərirdi.

M.Şirəliyevin rəhbərliyi ilə Azərbaycanın müxtəlif bölgələri üzrə aparılan uzun müddətli dialektoloji tədqiqatlar bu tədqiqatların yeni bir istiqamətdə tarixi-müqayisəli baxımdan tədqiqinin zərurətini ortaya qoydu və Azərbaycan dialektlərinin tarixi müstəvidə tədqiqinin tarixi etnolinqvistik baxımdan nə qədər əhəmiyyətli olduğunu təsdiq etdi. Azərbaycan dilçiliyində bu sahədə atılan ilk addım XX əsrin 70-ci illərinə təsadüf edir.

1976-cı ildə Alma-Atada keçirilən Ümumittifaq Türkologiya konfransında T.İ.Hacıyev və E.İ.Əzizovun “Azərbaycan dili tarixi dialektologiyasının tarixi linqvistik əsasları” mövzusunda birgə məruzəsi Azərbaycan dilçiliyində tarixi dialektologiyanın tədqiqinin istiqamətini müəyyənləşdirdi (1, s.37). Bundan sonra Azərbaycan dili dialektlərinin tarixi müstəvidə tədqiqini genişləndirən E.Əzizov “Azərbaycan dilində morfoloji dialekt əlamətlərinin yaranması (hal və mənsubiyyət şəkilşiləri)” (1986), “Söz xəzinəsi”(1995), “Dialektizm anlayışı və bəzi dialektizmlər haqqında” (2005), “Dialektologiyanın əsas anlayışları və terminləri haqqında” (2005), “Müasir türk dilləri” (proqram) (2005), “Azərbaycan dilinin tarixi dialektologiyası” (proqram) (2005), “Türk dillərinin dialektologiyası” (proqram)(2005), “Çuvaş dili haqqında” (2006), “Azərbaycan dialektologiyasına qiymətli töhfə” (2006), “Bədii dildə dialektizmlərin yeri” (2006), “Azərbaycan dilinin inkişaf məsələləri” (2007), “Kitabi-Dədə Qorqud" abidəsinin oğuz dilləri kontekstində tədqiqi” (2008), “Azərbaycan dialektologiyası” (proqram) (2008), “Türk dillərindən biri: Müasir türk dili” (proqram) (2008) kimi tədris vəsaitləri və tədqiqat əsərləri ilə Azərbaycan dialektologiyasının nəzəri baxımdan yeni bir istiqamətə yönləndirmiş oldu.

1990-cı ildə “Azərbaycan dilinin tarixi dialektologiyası: dialekt sisteminin təşəkkülü və inkişafı” mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyasını 1999-cu ildə nəşr etdirən E.İ.Əzizov bu əsər ilə Azərbaycan dialektlərinin tədqiqinin tarixi baxımdan ümumtürkoloji müstəvidə elmi-nəzəri əsaslarını işləyib hazırladı və bununla da ümumtürkoloji dilçilik tarixində tarixi dialektologiyanın ilk mükəmməl nümunəsini yaradaraq dilçiliyin müstəqil sahəsi kimi Azərbaycan dilçiliyində tarixi dialektologiyanın əsasını qoydu. Azərbaycan dili dialektlərinin elmi-nəzəri əsasda tarixi baxımdan tədqiqi üçün ilk dəyərli mənbələrdən biri olan bu əsərdə tarixi dialektologiyanın tədqiqat üsullarını müəyyənləşdirən müəllif tarixi dil faktları əsasında müasir Azərbaycan dilinin tarixi etnik tərkibi haqqında geniş məlumat verərək, dildə dialekt fərqlərinin yaranmasına gətirib çıxaran bu etnik amillərin əsas rol oynadığını göstərmişdir. Əsərdə müasir Azərbaycan dilinin formalaşmasında dialektlərin müstəsna rolunu qeyd edən E.Əzizov dilin dialektlərə bölünməsi problemini araşdırır və tarixi dialektologiyanın mövzu və vəzifələrinin nəzəri əsaslarını 5 əsas istiqamət üzrə müəyyənləşdirir:

1) dilin dialekt üzvlənməsinin xarakterinin aşkar edilməsi;
2) izoqlosların əmələ gəlməsini və inkişafının öyrənilməsi;
3) dialekt əlamətlərinin etnolinqvistik əsaslarının müəyyənləşdirilməsi;
4) dialekt sistemlərinin qarşılıqlı əlaqəsinin tarixinin araşdırılması;
5) innovasiyaların öyrənilməsi (4, s. 5).

Keçən əsrin 90-cı illərində sovet imperiyasının dağılması nəticəsində Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi və tükənməz xəzinəsi olan dialektlərimizin daha əhatəli və geniş miqyasda tədqiqi üçün böyük imkanlar yaranmış oldu. Tədqiqatlar göstərir ki, Azərbaycan dilinin dialektlərinin tədqiqi hər zaman aktual bir məsələ olaraq böyük maraq doğurmuş və bu günə qədər həm ümumi şəkildə, həm də ayrılıqda regionlar üzrə öyrənilmişdir. Lakin yeni təfəkkür dövrü Azərbaycan dilçiliyinin xüsusi bir sahəsi olan dialektologiyanın inkişafı üçün dialektlərin müxtəlif aspektdə tədqiqinin vacibliyini aktual bir məsələ kimi qarşıya qoyur. Müasir dövrdə istər Azərbaycan, istərsə də digər dövlətlərdə dil materiallarının dialektoloji müstəvidə daimi tədqiqat obyektinə çevrilməsi də məhz bu aktuallıqdan irəli gəlir.

Məhz bu baxımdan müasir dövrdə dialektlərin fundamental tədqiqi müasir mərhələdə özünün yeni istiqamətini müəyyənləşdirməkdədir.

Azərbaycan dilinin dialektlərini bütöv bir sistem halında tədqiqini qarşısına məqsəd qoyan AMEA Nəsimi adına Dİ Dialektologiya şöbəsinin əməkdaşları Azərbaycanın müxtəlif rayonları üzrə dialekt və şivələrin fonetik, leksik və qrammatik cəhətdən tədqiq etmiş, müxtəlif bölgələrin dialektlərinin tədqiqinə həsr olunmuş bu kimi çox sayda elmi monoqrafiyalarla yanaşı, eyni zamanda "Azərbaycan dilinin dialektoloji atlası" və "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" kimi unikal tədqiqatları ilə Azərbaycan dialektologiyası tarixində yeni bir səhifə yazmış oldu.

1923-cü ildə Türkiyə Cümhuriyyəti qurulduqdan sonra Mustafa Kamal Paşa Atatürkün sayəsində elmin, xüsusilə dilçiliyin inkişafında misilsiz irəliləyiş oldu. Mustafa Kamal Atatürkün qərarı ilə Türkiyə Cümhuriyyəti Yüksək Dil və Tarix Qurumunun yaradılması tarix və dilçiliyin müxtəlif sahələri ilə yanaşı, tarixi dialektoloji tədqiqatların da irəliləməsinə və inkişafına xüsusi təkan verdi. Bunun nəticəsi olaraq Türkiyədə aparılan dilçilik tədqiqatları türk dilinin həm tarixi, həm də müasir mərhələsi üçün elmi araşdırmaların miqyasını daha da genişləndirdi və bütövlükdə ümumtürkoloji dilçiliyin inkişafında böyük rol oynadı. Məhz bu dövrdən başlayaraq Türkiyədə canlı dialektoloji materialların toplanması və elmi nəzəri əsaslarla tədqiqi bu günə qədər davam etməkdədir. Bir çox tədqiqatçılar Türkiyə üzrə dialektoloji tədqiqatların başlanğıcının XIX əsrin son illərindən bu sahədə tədqiqat aparan A.Maksimov, İ.Kunos, K.Foy kimi Avropa tədqiqatçıların adı ilə əlaqədar olduğunu iddia etsələr də, araşdırmalar türk dili üzrə tədqiqatların XVII əsrin sonlarından başlandığını göstərir.

Hələ 1453-cü ildə İstanbulun fəthindən sonra türk imperiyasının yaranması türk dilinə marağı daha da artıraraq dünyanın, o cümlədən Rusiyanın diqqətini cəlb etməyə başladı. Bu baxımdan müasir Türkiyə dialektlərinin tədqiqi tarixindən danışarkən bu tədqiqatları iki tarixi mərhələ üzrə qruplaşdırmaq daha məqsədə uyğundur:

1) Osmanlı dövrü türk dili və əski Anadolu türkcəsi üzrə aparılan tədqiqatlar;

2) Cümhuriyyət dövrü Anadolu şivələrinin tədqiqi.

Hələ İstanbulun fəthindən öncə olduğu kimi, 1453-cü ildə İstanbulun fəthindən sonra da qədim dövrlərdən Türk torpaqları üzərində hegemonluq iddiası Türkiyəyə marağın artaması, və bu sahədə ilk strateji hədəf kimi türk dilinin öyrənilməsi məsələlərini də daxil etsək, o zaman bir çox xarici tədqiqatçılarının da türk dili üzərində apardığı bu tədqiqatları da qeyd şərtsiz olaraq dialektoloji tədqiqatlar sırasına daxil etməklə türk dilinin tədqiqi tarixində XVII əsrin sonu və XIX əsrləri də ayrıca tarixi mərhələ kimi qeyd etmək lazımdır.

Araşdırmalardan aydın olur ki, türk dili əsrlər boyu strateji baxımdan hər zaman dünya siayasi arenasının diqqət mərkəzində olmuş və türk dilinin ilkin araşdırmaları da məhz xarici siyasətçilərin imperiya marağını həyata keçirən tədqiqatçılar tərəfindən aparılmışdır. Şərq ölkələrinin əraziləri hesabına Rusiyanın sərhədlərini genişləndirmək məqsədi ilə Türk dilinin tədqiqi və öyrənilməsi baxımından çox ciddi islahatları həyata keçirən rus çarı I Pyotrun bu sahədə gördüyü işləri xüsusi qeyd etmək lazımdır.

I Pyotrun Rusiyanın sərhədlərini genişləndirmək arzusu onun Türkiyəyə xüsusi marağının artmasına və türk dili üzərində elmi tədqiqatların sferasını genişləndirməsinə səbəb oldu. 1736-1739-cu illərdə Rus-Türk müharibəsində Türkiyəyə qarşı xüsusi marağı olan I Pyotrun ilk işi Türkiyə haqqında kitabın nəşr olunmasına xüsusi diqqətlə yanaşması oldu. Öz siyasi məqsdələrini gerçəkləşdirmək üçün strateji əhəmiyyət daşıyan bu kitabın nəşrində Türkiyə haqqında müfəssəl məlumat verilmsənə çox ciddi yanaşan I Pyotr kitabda Türkiyənin müasir vəziyyəti ilə yanaşı, tarix, ədəbiyyat və dil məsələlərinin də işıqlandırılmasına xüsusi diqqət yetirmişdir (15, s. 37).

Türkiyədə aparılan dialektoloji tədqiqatların tarixindən bəhs edərkən, təəssüflə qeyd etmək lazımdır ki, bu tədqiqatların heç birində türk dili üzərində XIX əsrdən əvvəlki tədqiqatların heç biri nəzərə alınmadığından, bütün araşdırmalarda Türkiyə dialektlərinin tədqiqi tarixinin başlanğıc dövrü XIX əsrdən götürülmüşdür. Bir çox Türkiyəli tədqiqatçıların, o cümlədən, Z.Korkmaz, T.Gülensoy və L.Karahanın fikrincə, Türkiyə dialektlərinin tədqiqinin başlanğıcı XIX əsrdə qoyulmuşdur. T.Gülensoy 1867-ci ildə rus tədqiqatçısı A.Maksimiovun Hüdavendigar və Karamanlı ağızlarının tədqiqinə həsr olunmuş əsərin nəşrindən sonra Türkiyə dialektlərinin tədqiqinin J.Thury, İ.Kunos, M.Hartmann, K.Foy, V.Psarev, L.Bonelli, F.Giese, F. Vincze, O.Pritsak, T.Kowalski kimi Avropa tədqiqatçıları tərəfindən 1940-cı illərə qədər davam etdirildiyi göstərilir.

Leyla Karahanlı isə 1896-cı ildə macar alimi İ.Kunos tərəfindən Anadolu dialektləri üzərində ciddi tədqiqatlar aparıldığını qeyd etmişdir (2, s.IX).

Bəzi tədqiqtlarda isə Anadolu dialektlərinin tədqiqinin başlanğıcı XIX əsrin son illərinə təsadüf edildiyi və bu tədqiqatların da əsasının alman alimi K. Foy tərəfindən qoyulduğu göstərilir. Bir müddət İstanbulda yaşayan alman alimi K. Foy burada türk dilini öyrənir və dialektoloji tədqiqatlara başlayır. "Güney Türkcesi" adını verdiyi əsərdə Anadolu və Azərbaycan dialektlərini tədqiq edən K. Foy "Der Puriasmus bei

den Osmanen" ("Osmanlılarda Dil Sadeleştirmeleri"), "Studien zur Osmanichen Syntax" ("Osmanlıca Sözdizimi Üstüne Araştırmalar" 1899), "Türkische Vokal Studien" ("Türkçe Ünlü Araştırmaları" 1900), "Die Altesten Osmanischen Transcriptionstexte in Gottischen Lettern" ("Got Harfleriyle Yazılmış En Eski Osmanlıca Transkripsiyonlu Metinler"), "Azerbajganicehe Studien mit einer Charakteristik des Südtürkischen" kimi əsərləri ilə Anadolu üzrə apardığı dialektoloji tədqiqatları ilə adını tarixə yazmışdır.

Türkiyə dilçiliyində dialektoloji tədqiqatların müəyyən bir hissəsi əski Anadolu türkcəsi (Osmanlı imperiyası dövründə danışılan türk dili) üzərində aparılan tədqiqatlardan ibarətdir. Bu tədqiqatlar müasir Anadoluda mövcud şivələrin ilkin tarixi mərhələsinin öyrənilməsi baxımından çox böyük əhəmiyyətə malikdir.Türkiyə dialeklərinin tədqiqi tarixinin ilkin mərhələsi Osmanlı dövrü qaynaqları və o dövrdə Anadoluda yazıya alınmış tarixi ədəbi abidələr, həmçinin bu mənbələrin dili üzərində aparılan elmi-nəzəri tədqiqatlardan başlayır.

Qeyd etmək lazımdır ki, Türkiyədə XV əsrdən XX əsrin əvvəllərinə qədər Osmanlı türkcəsi kimi tarixə yazılmış və müasir dövrdə əski Anadolu türkcəsi kimi tədqiq olunan qədim türk dili XX əsrin əvvəllərindən, 1923-cü ildən sonra Türkiyə Cümhuriyyətinin dövlət dili olaraq türk dili adlandırılmışdır. Əsrlər boyu qüdrətli Osmanlı imperiyasının dili sayılan qədim Anadolu türkcəsinin sonrakı varisi türk dili e.ə. XIII əsrdən XI əsrə qədər Azərbaycan, İraq, Suriya və Anadolu kimi geniş coğrafiyada işlədilən vahid bir dil olmuşdur. Qədim Anadolu türkcəsi üzərindəki tədqiqatlar göstərir ki, bu qaynaqlardakı dil faktları fonetik, leksik və qrammatik baxımdan çağdaş Türkiyə türkçəsindən daha çox müasir Azərbaycan ədəbi dili və dialekt qatı ilə tam uyğundur. Bunu əski Anadolu türkcəsi və o dövrdə yazılmış klassik ədəbi tarixi qaynaqlar üzərində aparılan linqvistik tədqiqatlar təsdiq edir. Bunun əsas səbəbi isə tarixi etnik amillərə dayanan və vahid kökdən qaynaqlanan oğuz, bulqar və qıpçaq dilləri əsasında inkişaf etmiş türk dilinin qədim dövrü ilə bağlılığıdır.

Türkiyə türkcəsinin inkişaf tarixi üç əsas dil mərhələsi üzrə müəyyənləşdirilir:

1. Əski türkçə (prtotürk) dövrü;
2. Osmanlı türkcəsi dövrü;
3. Əski Anadolu türkcəsi dövrü.

Türkiyə dilçiliyində çağdaş Türkiyə türkcəsinin tarixi dialektoloji müstəvidə tədqiqinə həsr olunmuş belə tədqiqatlardan Z. Korkmazın "Türkiye Türkçesinin Temeli Oğuz Türkçesinin Gelişimi", Gürer Gülsevinin "Eski Anadolu Türkçesinde Ekler", "XVII Yüzyıl Batı Rumeli Türkçesi", Gürer Gülsevin ve Erdoğan Bozun birlikdə hazırladığı "Eski Anadolu Türkçesi", Emek Üşenmezin "Eski Anadolu Türkçesinde arkaik (eski)öğeler", Ümit Özgür Demirçinin "Eski türkçede filler", İsa Sarının "Anadolu Türkçesi. Ders Notları", Ferit Develioğlunun "Osmanlıca-Türkçe Ansiklopedik luğat", Hayati Develinin "Osmanlı Türkçesi Grameri", iki cildlik "Osmanlı Türkçesi Klavuzu", Nihat Öztoprak ve Recep Ahıshalının birlikdə hazırladığı iki cildlik "Osmanlı Türkçesi", Metral Tulumun "Osmanlı Türkçesine Giriş", Mehmet Kananın iri həcmli "Osmanlı Türkçesi Sözlüğü", Ahmet Vefik Paşanın "Lehce-i Osmani", Ali Kemal Berviranlının "Osmanlıca İmla Lüğati" Saadet Çağatayın "Türk Lehçeleri Örnekleri. VIII. Yüzyıldan XVIII. Yüzyıla Kadar Yazı Dili", J.Deninin "Türk Dili Grameri. Osmanlı lehçesi", A.Gabianın "Eski Türkçenin Grameri", Jemes W.Redhoseun ""Müntahabat-ı Lügat-i Osmaniyye", Mustafa Özkanın "Türk Dilinin Gelişme Alanları ve Eski Anadolu Türkçesi", "Osmanlı Türkçesi", Osman Erciyasın "Eski Anadolu Türkçesi Metinlerinden. Ferec Ba-de-ş-Şidde'nin söz varlığı", Ebubekr Subaşının "Osmanlı Türkçesine Giriş", Eziz Mehran, Funda Şan "Eski Anadolu Türkçesi" (notlar-qeydlər və mətnlər üzrə tədqiqat işi), Galip Günerin "Kuman bilmeceleri üzerine notlar", Burhan Paçacıoğlunun "VIII-XVI. Yüzyıllar Türkçenin Sözcük Dağarcığı", Faruk Kadri Timurtaşın "Eski Türkiye Türkçesi. XV.Yüzyıl Gramer-Metin-Sözlük", "Osmanlı türkçesi qrameri", Ergün acarın "Eski Eski Anadolu Türkçesi Dönemine ait Nehcü'l-ferādis", Hülya Arslan Erolun "Eski Türkçeden eski Anadolu türkçesine anlam değişmeleri", Hatice Şirinin "Eski Türk Yazıtları Söz Varlığının İncelenmesi", Erol Öztürk "Eski Anadolu Türkçesi El Kitabı", Faruk K.Timurtaşın "Osmanlı Türkçesi Grameri", Hülya Arslan Erolun "Eski Türkçeden Eski Anadolu Türkçesine Anlam Değişmeleri", Erol Öztürkün "Eski Anadolu Türkçesi" (2017) İsmail Parlatırın "Osmanlı Türkçesi Sözlüğü", Hatice Şirinin "Eski Türk Yazıtları Söz Varlığı İncelemesi" kimi çox saylı tədqiqat əsərləri ilə yanaşı, XIII-XVIII əsrlərdə Anadoluda yazılmış klassik ədəbi əsərlərin də üzərində aparılan linqvistik tədqiqatları da xüsusi qeyd etmək lazımdır.

Osmanlı dövründən sonra 1923-cü ildə Mustafa Kamal Paşa Atatürkün qurduğu cümhuriyyət dövründə Türkiyədə müxtəlif elm sahələri ilə yanaşı, dilçiliyin, xüsusilə dialektologiyanın bir elm kimi formalaşması və inkişafı üçün zəmin yarandı. Avropalı tədqiqatçılardan sonra Türkiyədə ilk sistemli dialektoloj tədqiqatların aparılması uzun müddət Türkiyədə dilçilik elminin inkişafına və dilçi kadrların yetişdirilməsində böyük işlər görmüş Azərbaycanın böyük ziyalısı Ə.Cəfəroğlunun adı ilə bağlıdır. Ə.Cəfəroğlunun Anadolunun müxtəlif bölgələrindən topladığı canlı dil materialları və bu materialların tədqiqinə həsr olunmuş əsərləri sadəcə dialektoloji baxımdan deyil, eyni zamanda müxtəlif istiqamətdə aparılacaq ümumtürkoloji linqvistik tədqiqatlar üçün də xüsusi əhəmiyyətə malikdir. Türkiyədə dilçiliyin bir

elm kimi əsasını qoymuş Ə.Cəfəroğlu türk dillərinin ən qədim söz xəzinəsinin nadir inciləri "Kaşğari Mahmut" (1938), Əbu Həyyanın "Kıpçak sözlüğü"nü "Kitabü'l-İdrak li-Lisani'l-Etrak (1931) əsərini nəşrə hazırlamış, daha sonra uygur dilinin leksikasını əks etdirən "Uyğur Türkcesi" (1934-1938), "Eski Uyğur Türkcesi Sözlüğü" (1968) kimi böyük miqyaslı lüğətləri, ikicildlik "Türk dili tarihi" (1958-1964) və başqa bu kimi fundamental elmi tədqiqat əsərləri ilə ümümtürk dilçiliyinin inkişafında bir dönüş yaratmış oldu.

Türkiyədə ilk onomastik və etnolinqvistik tədqiqatların əsasını qoyan Ə.Cəfəroğlu həm də irimiqyaslı və sistemli dialektoloji tədqiqatları ilə Türkiyə dilçilik tarixinin qızıl səhifələrini yazdı. Türkiyədə ilkin onomastik tədqiqatlardan biri olan türk tayfaları haqqında yazdığı "Türk Kavimleri" adlı əsəri Ə.Cəfəroğlunun ölümündən sonra 1983-cü ildə nəşr olunmuşdur. 1929-cu ildən İstanbul Universitetində çalışan Ə. Cəfəroğlu Anadolunun çeşidli bölgələrindən topladığı dialektoloji materiallar əsasında "Anadolu Dialektolojisi Üzerine Malzeme" (1940-1941, 2 cilddə); (1942), "Doğu İllerimiz Ağızlarından Toplamalar" (1942), "Anadolu Ağızlarından Toplamalar" (1943), "Güney-Doğu İllerimiz Ağızlarından Toplamalar" (1945), "Kuzey Doğu İllerimiz Ağızlarından Toplamalar" (1946), "Orta Anadolu Ağızlarından Derlemeler" (1948), "Anadolu İlleri Ağızlarından Derlemeler" (1951), "Sivas ve Tokat İlleri Ağızlarından Toplamalar" (1994) adı ilə 9 cilddə nəşr etdirdiyi dialektoloji əsərləri ilə yanaşı, G.Dörferlə birlikdə hazırladığı "Anadolu ve Rumeli Ağızları", "Azerbaycan Dili" və "Azerbaycan Edebiyatı" kimi tədqiqatlarından sonra Anadolu üzrə dialektoloji tədqiqatların sayının artamasına və arealının daha da genişlənməsinə təkan vermişdir.

Ə.Cəfəroğlundan sonra Anadolu üzrə sistemli dialektoloji tədqiqatları ilə Türkiyə dilçilik tarixində müstəsna yeri olan Zeynep Korkmaz "Güney Batı Anadolu Ağızları" (fonetika) (1959-1994), "Nevşehir ve Yöresi Ağızları" (1963, 1977, 1994), "Oğuz Türkcesinin Gelişimi" (Ankara 2013) adlı əsərləri ilə yanaşı, bir çox digər tədqiqatlarında da Anadolu türklərinin məskunlaşdığı tarixi coğrafi ərazilər və bu coğrafiyada qədim türk mədəniyyəti, dil və dialektlərindən də yeri gəldikcə söz açmışdır. Qədim oğuz dilinin tarixi inkişaf prosesini tədqiq edən Zeynep Korkmaz müqayisəli dialektoloji faktlar əsasında oğuz türkcəsinin e.ə 3500-3000-ci illərə, qədim şumercəyə dayandığını göstərən ən qədim dil faktları üzərində dayanır (20, s.9). Şumer – oğuz dil xüsusiyyətlərini müqayisəsi əsasında ən qədim dövrlərdən başlayaraq e.ə. göytürklər, uyğurlar dövründə, bütövlükdə dil tarixinin bütün mərhələlərində oğuzların dil xüsusiyyətlərini fonetik, leksik və qrammatik tədqiqata cəlb etmiş Z.Korkmaz oğuz türkcəsinin yayıldığı coğrafiyanın dil faktlarını dialektal müstəvidə ortaya çıxarmışdır.

Azərbaycan və Türkiyə dilçiliyində aparılan dialektoloji tədqiqatlar strukturuna və tədqiqa üsüllarına görə bir-birindən ciddi şəkildə fərqlənməsə də, bu tədqiqatların hər birindən aydın olur ki, hər bölgə özünəməxsus şivə xüsusiyyətlərinə görə bir-birindən kəskin şəkildə fərqlənir. Azərbaycan dilçiliyindən fərqli olaraq, Türkiyə dialektlərinin tədqiqində coğrafi prinsipə əsaslanan tədqiqatlarda belə, hər bölgənin tarixi etnik tərkibi haqqında verilən məlumatlarla yanaşı, bu şivələrdə tarixi etnik dil xüsusiyyətləri də ayrıca şərh olunur ki, bu da həmin tədqiqatların bütövlükdə türk dilinin tarixi köklərinin araşdırılmasında böyük əhəmiyyət kəsb etdiyini göstərir.

Türkiyədə bu istiqamətdə aparılan tədqiqatlar sırasında Efrasiyap Cemalmazın 3 cilddə nəşr etdirdiyi "Erzurum ili ağızları", Münkim Sağırın "Erzincan Yöresi ve Ağızları", Ahmet Buranın Tuncer Gülensoyla birgə araşdırması olan "Elazığ Yöresi Ağızlarından Derlemeler", Ahmet Buran və Şerife Oğraşın "Elazığ Ağızları", Ahmet Buran və Nadir İlhanın "Elazığ Yöresi Söz Varlığı", Gürer Gülsevinin "Eski Anadolu Türkçesinde Ekler", "Yaşayan ve Tarihi Türkiye Türkçesi Ağızları" , Gürer Gülsevin və Erdoğan Bozun "Eski Anadolu Türkçesi", Ahmat Bican Ercilasunun "Kars İli Ağızları Ses Bilgisi", Ahmet Bican Ercilasun Selahettin Olcay və E.Aslanın "Arpaçay Köylerinden Derlemeler", A. Üstünerin "Anadolu Ağızlarında Sıfat-Fill Ekleri", Ali Akarın "Muğla Ağızları", Hüsna Kavaklıçeşmenin "Kars ve Iğdır Azerileri Ağzı", Ercan Alkayanın "Kuzey Grubu Türk Lehçelerinde Edatlar", Ahmet Günşenin "Kırşehir ve Yöresi Ağızları", Bilgehan Atsız Gökdağın "Selmas Ağzı", "Halac Türkçesi Metinleri", Çelik Mühittinin "Kaşkay Türkçesi Metinleri", "Dallı Hüseynin "Kuzeydoğu Bulgaristan Türk Ağızları Üzerine Araştırmalar" Tuncer Gülensoyun "Kütahya Yöresi Ağızları" Saim Sakaoğlunun "Konya Ağzı Üzerine", Gülensoy Tuncer, Ebulfez Kuliyev Amanoğlu, Paki Küçükerin "Nahçıvan Ağzı", Kalay Eminin "Edirne İli Ağızları", Leyla Karahanın "Anadolu Ağızlarının Sınıflandırılması", Zeynep Korkmazın " Bartın ve Yöresi Ağızları", "Mehmet Emin Erenin "Zonguldak – Bartın – Karabük İlleri Ağızları", Münir Ertenin "Diyarbakır Ağzı", Fatma Özkanın "Osmaniye Tatar Ağzı", Selahettin Olcayın "Doğu Trakya Yerli Ağzı", Faruk Kadri Timurtaşın "Eski Anadolu Türkçesi" kimi əsərləri xüsusi qeyd etmək olar.

Azərbaycan-türk dialektlərinin tədqiqi tarixinə diqqət edərsək əsasən praktik cəhətdən aparılmış bu tədqiqatların əsasən 2 istiqamətdə, regional (coğrafi, areal) və leksikoqrafik baxımdan tədqiqinə daha çox üstünlük verildiyi görünməkdədir. Təəssüflə qeyd etmək lazımdır ki, istər Azərbaycan, istərsə də Türkiyə dilçiliyində dialektologiyanın nəzəri, tarixi, etnolinqvistik və müqayisəli tədqiqi məsələləri tam həll edilməyən, mühüm problem olaraq qalmaqdadır.

Deyilənlərdən aydın olur ki, tarixi minilliklərindən soraq verən və dilimizin tarixi varlığını təsdiq edən qədim dialekt faktları əsasında müasir dilimzin tarixinin öyrənilməsi baxımından dialektlərin **müxtəlif yönlü** tədqiqi ilə yanaşı, bu dialektlərin tədqiqi tarixinin də ayrıca öyrənilməsi çox əhəmiyyətli bir məsələdir. Çünki ən qədim tarixin izləri canlı dil faktı olaraq yaşadan müasir dialektlər milli dilə söykənən milli kimlik məsələlərinin həllində mühüm rol oynadığı kimi, həm də türk dilinin tarixi coğrafi arealını və geostrateji mövqeyini müəyyənləşdirmək baxımından böyük önəm daşıyır. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan və Türkiyə dialektlərinin tədqiqi tarixi məsələlərinin öyrənilməsi türk dili üçün səciyyəvi olan tarixi, coğrafi, etnik, sosial-mədəni amillərin müəyyənləşdirilməsi, eyni zamnada dil tarixi ilə bağlı problemlərin həlli ilə bilavasitə bağlı olan mürəkkəb bir problemin də həllində mühüm pol oynayır.

## QAYNAQLAR


1. Bayramov İ.M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: ADPU nəşriyyatı, 2015.
2. Leyla Karahan. Anadolu Ağızlarının Sınıflandırılması. Ankara: TDKY: 630, 2014
3. Xudiyev N. M. Azərbaycan ədəbi dili tarixi. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1995.
4. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: "Elm və təhsil" 2016.
5. İsa SARI. Eski Anadolu türkçesi. www.isa-sari.com
6. Cəfərov S.Türk dillərinin quruluşu və tarixi Bakı:1983.
7. A.B.Ercilasun Başlanğıçtan Yirminci Yüzyıla Türk Dili Tarihi, Akçağ yayınları, 10. Baskı, Ankara 2011.
8. Z.Korkmaz Türkiye Türkçesinin temeli Oğuz Türkçesinin gelişimi, TDKY Anakara 2013)
9. Erol Öztürk. Eski Anadolu Türkçesi. Ankara, Akçağ Yayınları 2017).
10. Babayev A. Azərbaycan dilçilik tarixi. Bakı: 1996.
11. İbrahimov T.Ə. Qaşqaylar. Bakı: Elm, 1988,
12. "21 Azər" jurnalı, 2001 №-11.
13. احمد کسروی. زبان ترکی در ایران. تبریز,۲۰۰۵,(۱۳۸۴) ۷۸ص. (Əhməd Kəsrəvi. Zəban-e torke dər İran. Təbriz 2005)
14. Кононов А.Н. История изучения тюркских языков в России. Ленинград «Наука» 1972.
15. 1926 Bakü Türkoloji Kurultayı. Tutanaklar. Ankara, TDKY 2008.
16. Babayev A. Bəkir Çobanzadə. Bakı: "Şərq-Qərb" 1998.
17. B.Çobanzadə Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb" 2007, c.1.
18. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: "Şərq-Qərb" 2008.
19. Türk dillərinin dialektologiyası məsələləri. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1960, Bakı 1960.
20. Korkmaz Zeynep. Türk Dili Üzerine Araştırmalar. Ankara:TDKY:893,2007.

**TEHRANƏ XUDAVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*salmanova001@gmail.com*

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ NAGILLARINDA ZAMAN VƏ MƏKAN MƏSƏLƏLƏRİ

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, nağıl, zaman, məkan,*
**Key words:** *Azerbaijan, Turkey, fairy tale, time, place,*
**Ключевые слова:** *Азербайджан, Турция, сказка, время, место,*

Azərbaycan-Türkiyə ədəbi əlaqələri qədim tarixə malik olmaqla yanaşı, çoxşaxəli və zəngindir. Hər iki xalqın mədəni dəyərləri vahid mənbədən haçalanır. Digər sahələrdə olduğu kimi şifahi xalq ədəbiyyatı sahəsində də hər iki xalqın oxşar folklor nümunələri bu iki xalq arasındakı yaxınlığın ən böyük göstəricisidir. Azərbaycan və türk folklor nümunələrinin müxtəlif aspektlərdən müqayisəli təhlilinə nəzər saldıqda bu qırılmaz və səmimi əlaqələrin bu günümüzədək davam etməsi səbəbinin bu iki xalq arasında dərin bağların olmasından irəli gəlir.

Folklorun qədim janrlarından biri olan nağıllar xalqın tarixini, dünyagörüşünü, adət-ənənələrini özündə əks etdirir. İstər Türkiyə, istərsə də Azərbaycan nağıllarının yaranmasını, etimologiyasını, onlarda zaman və məkan qavramını, hər iki xalqın nağıl elementlərinin oxşar və fərqli cəhətlərini araşdırmaqla bu xalqlar haqqında söylənilmiş”Biz bir millət iki dövlətik” fikrinin doğruluğuna bir daha əmin oluruq.

Folklorşünaslıqda Türkiyə və Azərbaycan nağıllarının müxtəlif kontekstlərdə araşdırılması bütövlükdə hər iki xalqın nağıl mətnlərinin daha dərindən öyrənilməsi baxımından mühüm bir məsələdir. Ümumtürk, o cümlədən Azərbaycan və Türkiyə nağıllarının əsas nüvəsini təşkil edən zamanla (zaman-məkan kontinuumu ilə) bağlı məsələlərin araşdırılması vahid ümumtürk nağıl mətnləriinin öyrənilməsi nöqteyi-nəzərindən də olduqca aktual bir məsələdir.

Azərbaycan və Türkiyə nağıllarında zaman və məkanın təsvir olunduğu nağıllar bu xalqların etnik-psixoloji, əxlaqi-mənəvi, mədəni və s. bu kimi spesifik xüsusiyyətlərinin öyrənilməsi, zamanla (zaman-məkan kontinuumu ilə) bağlı nağılların araşdırılmasında rast gəlinən oxşar xüsusiyyətlər hər iki xalqın sıx və möhkəm qarşılıqlı əlaqələrinin nəticəsi məsələsini bir daha göz önünə gətirir.

Zaman məfhumunun (zaman-məkan kontinuumunun) əksini tapdığı Azərbaycan və Türkiyə nağıl mətnlərini, eləcə də bu nağıllarda öz əksini tapan məsələlər bu xalqların ayrılmaz bağlarının inkarolunmaz sübutudur. Nağıllar etnosun zamanla (zaman-məkan kon- tinuumu ilə) əlaqəli əsatiri görüşlərini özündə ehtiva etdiyindən Azərbaycan-Türkiyə mifoloji məfkurəsində zaman anlayışının qavranılması və təqdim olunmasının özəl etnik özünəməxsusluğu ilə yanaşı başqa mifik görüşlərlə ümumi xüsusiyyətləri müəyyənləşdirilir. Məlum olur ki, digər mifoloji sistemlərdə olduğu kimi türk mifik sistemində də zaman məfhumu maddiləşərək modelləşmiş halda qavranılır və təqdim edilir. Türk mifik düşüncəsində zamanın bu şəkildə modellər kimi dərki modelləşdiyi maddi varlıqların canlı və cansız olması təsnifinə əsasən iki yerə bölünür. Zamanın canlı varlıqlar görkəmində modelləşməsi də canlı maddi varlıqların üçlü bölgüsünə əsasən üç istiqamətdə baş verir. Bunlara zamanın zoomorfik modelləşməsi zaman-məkan kontinuumunun heyvan görkəmində qavranılaraq təqdim edilməsi, zamanın antropomorfik modelləşməsi zaman-məkan kontinuumunun insan görkəmində qavranılması və təqdim edilməsi və nəhayət zamanın biomorfik (bitkisəl) modelləşməsi zaman- məkan kontinuumunun bitki görkəmində, xüsusən də Dünya Ağacı modelində dərk olunması kimi məsələlər aiddir.

Konkret olaraq Azərbaycan və Türkiyə nağıllarına nəzər saldıqda bu nağıllarda mifik zaman və məkanın təsvirinə daha çox təsadüf olunması qənaətinə gəlirik.Məsələn, Azərbaycan nağılı olan“Məlikməmməd” nağılında əjdaha obrazının xaotik funksiyası daha qabarıq şəkildə üzə çıxır. Burada əjdahanın suyun qabağını kəsməsi, adamları yeməsi mifik təfəkkürün genetikasından gələn xaosun kosmik düzəni məhv etmək təhlükəsi kimi təzahür edir və hadisələr mifik zaman çərçivəsində baş verir.

Qədim türk-oğuz dünyasında atı özünə qardaş, ən etibarlı dost sayan qədim türklərin həyatında mühüm yer tutan bu sədaqətli heyvan onların dünyagörüşlərinə, şifahi xalq yaradıcılığına da dərindən təsir etmişdir və folklorşünaslıqda at obrazının zamanla bağlılığı bir qədər transformasiya olunmuş halda özünü göstərir. İstər Türkiyə, istərsə də Azərbaycan nağıllarında zaman motivi öz əksini tapmışdır. Nağıllarda rast gəldiyimiz üçqılçalı at vasitəsi ilə qəhrəmanlar zamana sanki meydan oxuyurlar. Məsələn,“Qızıl qoç” nağılında oxuyuruq: “Keçəl qara daşı qaldırıb altından cilovu çıxartdı, aparıb dəryaya saldı, o saat bir də

gördülər ki, bir gurultu, şıxıltı, şırıltı qopdu ki, elə bil yer-göy lərzəyə gəldi. Dərya təlatüm elədi, içinnən üçqılçalı bir at çıxdı. Keçəl tez cilovu çəkdi, at istədi genə dəryaya girsin, keçəl cilovu buraxmadı. Bir ənvayi müsibətnən ikisi də tərkləşib ata mindilər. At özünü vurdu dəryaya, bir göz qırpımı çəkməmiş bunları çıxartdı o taya" (3.səh 49)

Türklərin mifik dünyagörüşündə quş obrazları (Simurq, Humay, Sunqar və s.) mühüm və önəmli yerlərdən birini tutur.

Zamanın təsvirinə bu nağılda da rast gəlinir:"Süleyman peyğəmbər yolunnan gedirmiş. Gedir görür ki, bir bulağın başında bir cavan qız oturub. Süleyman peyğəmbər elə bu qıza vurulur. Barmağınnan üzüyü çıxardıb verir bı qıza. Der ki, gedirəm 3 aydan sora gələciyəm. Sora Süleyman peyğəmbər gəlir ki, bı bilağın başında bir qoca qarı oturub. Der ki, qarı, burda bir cavan qız oturmuşdu o, necoldu? Der: - Elə cavan qız mənəm. Der: - Axı qoca vaxtında yalan danışırsan . Sən verdiyin üzüh barmağımda. Çıxardır üzüyü Süleyman peyğəmbərin adı üstündəydi. Der: Mən qız dəyiləm. Mən dünyayam. Yaz olanda cavan qız oluram. Payız olanda belə bir qarı oluram". (7.səh 18)

Burada fəsillərin qız və qarı şəklində təqdim olunması zamanın antropomorfik modelləşməsidir. Daha əski variantlarda iki zaman bölgüsünü, yəni yazı və qışı əks etdirən qadın obrazı (qız, qarı) zamanın antropomorfik modeli kimi üzə çıxır.Yenə Süleyman peyğəmbərlə bağlı bir nümunədə göstərilir ki, peyğəmbər "üzüyü verir qıza taxır barmağına. Gedir, günorta gəlir, görür ki, burda orta yaşdı kadın oturubdu. Buna heş nə demir, çıxır gedir. Bir də axşam gəlir ki, burda bir qoja arvad oturuf. Çox ayna-bəynə baxır, qoja diir: -A oğul, nə gəzirsən? -Burda bir cavan qız var, mən onunla əhd-peyman eliyif iş üçün gəlmışəm. -Diir ki, o, mənəm. Səhər elə cavan qız oluram, günortalar orta yaşlı kadın oluram, axşam da bax belə qoja oluram" (4.səh 217).

"Məlikməmməd" nağılında Dünya ağacının transformativ variantlarından olan, işığın, səmanın, gələcəyin rəmzi kimi özünü göstərən Zümrüd quşunun yuvasının yerləşdiyi Alma ağacı barədə Y.V.Çəmənzəminli yazır ki, nağılda bəhs olunan alma ağacına bənzər "Avesta" da bir Naara var...... Bəziləri Naaranı əbədi həyat bəxş edən ağaca bənzədirlər. "Məlik Məmməd"dəki alma ağacı Naaraya çox bənzəyir; almanı yeyən cavanlaşır və əbədi həyata vasil olur" (5.səh.278).

Prof. A.Hacıl ıyazır ki, "Məlikməmməd" nağılındakı gövdə və kökləri, orada yerləşən məxluq(ağac-T.X.) yeraltı dünya və şər qüvvələr, budaqları işıqlı dünya və xeyirlə bağlıdır. Məlikməmmədin qarşılaşdığı ağac dünyanın şaquli-üçlü bölgüsünü gerçəkləşdirən dünya ağacı, yaxud kosmik ağacdır. Bu nağılda Axirət və Həyat ağaclarının əksliyini də aşkarlamaq olar. Yəqin ki, nağılın əsasında duran eposda alma ağacı ilə Zümrüdün ağacı eyni olub və qəhrəmanın şücaətli həyati başlanğıcı xilas etmək üçün demiurqun və ya tanrılardan birinin yeraltı dünyaya gedib şər qüvvələrlə mübarizəsi ilə bağlanır. (6.səh.12).

Nağıldakı Alma ağacı və Zümrüd quşunun ağacı heç şübhəsiz, Dünya ağacı invariantının transformativ variantlarıdır. Hər iki variantı təhlil etməklə bunu bir daha təsdiqləyə bilərik. Nağılda Alma ağacının padşahın bağında bitdiyi göstərilir. Burada "bağ" ağac kosmik modelində dünyanın şaquli-üçlü məkani bölgüsünə əsasən yerüstü hissəsini, zaman bölgüsü etibarilə isə indiki zamanı bildirir. Bağdakı Alma ağacından əbədi cavanlıq bəxş edən almanın oğurlanması dünyanın yerüstü hissəsində nizamsızlığın, xaotik bir durumun baş verdiyinə dəlalət edir. Burada hadisələr Dünya ağacının kökündə, yəni yeraltı qatda və zaman baxımından mifik keçmişdə, yəni zamanın lap başlanğıcında baş verir. Dünya ağacının kökü (yeraltı qat və mifik keçmiş) "quyu" obrazında simvollaşır. Xtonik aləmin simvolu olan quyuya düşən Məlikməmməd quyuda (Dünya ağacının kökündə) xtonik varlıqlarla (divlərlə) mübarizə aparır.

Zamanın lap başlanğıcında Zümrüdün yuva qurduğu ağacın dibində xaosun rəmzi sayılan əjdahanın olması ilkin mifik zamanı (keçmişi) göstərir. Məlikməmədin Zümrüd quşunun balalarını yeyən əjdahanı öldürməsi ilə qəhrəman səmanın, işıqlı dünyanın rəmzi olan, Dünya ağacının yuxarı hissəsini təmsil edən Zümrüd quşunun timsalında işıqlı dünyaya çıxa bilmir. Səbəbi isə Məlikməmmədin zamanın ilkin başlanğıcında (mifik keçmişdə) suyun qabağını kəsərək camaatı yeyən əjdahanın öldürülməməsidir. Məlikməmməd suyun qabağını kəsən və birbaşa xaosu işarələyən əjdahanı öldürməklə ilkin mifik zamanda öz vəzifəsini yerinə yetirməklə yenidən yerüstü dünyaya, indiki zamana qayıdır.

Zaman məfhumunun cansız varlıqlarla modelləşməsi isə zamanın astral və əşyəvi görkəmdə qavranılması və təqdim olunması kimi dərk edilir. Azərbaycan və Türkiyə nağıl mətnlərinin və digər folklor materiallarının araşdırılması nəticəsində zaman anlayışının qavranılması və təqdim olunması Xıdır Nəbi antropomorfik, At, İlan, Əjdaha, Öküz və s. zoomorfik, Dünya ağacı, Alma əşyəvi, Günəş, Ay, Dan Ulduzu kimi astral zaman modellərində öz əksini tapmışdır.Bu nağıllarda ifadə olunan "meydan", "çeşmə başı", "ev, "kimi məkanlar sakral məkanlar olub mifoloji düşüncədəki başlanğıc məkanı, dünyanın ilkin yaradılış, mərkəzi məkanını göstərir.

Türkiyə nağıllarında məkanı təsvir edən maraqlı təsvirlərə rast gəlirik: Saray, ama ne saray!..Allah yapmış yapışını devler açmış kapısmı (1.s.12). Azərbaycan nağıllarında təsadüf etdiymiz oxşar deyimlər bu xalqların eyni mədəniyyətə, eyni ədəbiyyata aid olduğunu sübut edir. Məsələn, zamanı təsvir edən bu ifadlərdə

olduğu kimi: Kırk gün, kırk gece düğün yapmışlar, tüm fakir fukarayı, yoksulları, sakatlan düğüne davet etmişler, onlara bol bol armağanlar dağıtmışlar. Kısa keselim, iyilik edib bulmuşlar. Azərbaycan nağılında isə: . Təzədənnən qırx gün, qırx gecə toy elədi. O orda şad oldu, qardaşoğlu, sən də burada şad oldun .

Türkiyə nağıllarında Zümrüd ağacında yatan "Zümrütanka" adlı quş E.C.Güneyin topladığı nağıllarda belə təsvir olunur: "Hani gördüyümden, bildiyimden degil ya, ben de ilin yalancısıyım; sözde bu kuşun yüzü insane yüzüne benzermiş ama iki yanında dört kanadı varmış. Tüyleri öyle yeşil, öyle yeşilmiş ki, her göz ne ise ne ya, kem gözler kaşını kaldırıp da bakamazmış. Azərbaycan nağıllarında isə xeyirxah Simurq quşu qısa şəkildə təsvir olunur: "Simurq elə bir quşdu ki, yerin altını da, üstünü də bilir. Simurq elə bir quşdu ki, fəqirləri çox sevər" .

Azərbaycan və Türkiyə nağılları üçün ortaq olan aşağıdakı dialoq həm sehrli, həm də dialoq-formula yaxınlaşır: "Sinan Güle neyledi, Gül Sinana neyledi?" "De görüm, Gül Sənavərə neynədi, Sənavər Gülə neynədi?". Hər iki nağılda oxşar zaman və məkanların təsviri bu xalqların eyni kökə malik olmasından irəli gəlir.

M.Gökçəoğlunun topladığı "Dev kızı" nağılının motivi Azərbaycan nağılı Tənbəl Əhməd" nağılı ilə demək olar ki eyni süjet xəttinə malikdir. Hər iki nağıllda oğlanın çox tənbəl olması, zamanın sınaqlarından keçərək formalaşması təsvir olunur.(9.s.212)

Nəticə olaraq qeyd etməliyik ki, bu nağıllardakı oxşarlıqlar, bu nağılların təlqin elədiyi fikirlər hər iki xalqın geniş bir mənəvi zənginliyə malik olmasını sübut edir. Ta qədimdən mövcud olan bu əlaqələr dünya durduqca duracaq və real zaman müstəvisində daha da möhkəmlənəcək.

## ƏDƏBİYYAT


1. ALPTEKĐN, Ali Berat, (2002), Taşeli Masalları, Akçağ Yayınları, Ankara
2. Azərbaycan nağılları. Beş cilddə. I cild. Bakı: ŞərqQərb, 2005, 360 s.
3. Azərbaycan nağılları. Beş cilddə. V cild. Bakı: ŞərqQərb, 2005, 304 s.
4. Azərbaycan folkloru antologiyası. 12-ci kitab (Zəngəzur folkloru). Bakı: "Səda" nəşriyyatı, 2005, 464 s.
5. Çəmənzəminli Y.V. Əsərləri. 3 cilddə. III cild. Bakı: Avrasiya Press, 2005, 440 s.
6. Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. Bakı: Mütərcim, 2002, 162 s.
7. Xalq yaddaşının izləri (Miflər, əfsanələr, nağıllar...) Folklor toplusu. Bakı: Elm, 2005, 144 s.
8. Çorumdan toplanan nağıllar. M.Öcal, Emine Aydoğan.Gazi universiteti, 2003-2005, 141 s.
9. Gökçeoğlu M. Toplu masallar I, Lefkoşa: Özyay, 2005,537 s.



## ABSTRACT

## TIME AND PLACE MATTERS IN AZERBAIJAN AND TURKEY FAIRY TALES

The article investigates rich Azerbaijani and Turkish folklore samples, the expression of the deep ties between the two nations"s tales , as well as the specifics of time and space matters in these tales as a result of the influence of Azerbaijani-Turkish literary relations. Similar time and space terms, as well as the tales with similar plots are also searched in the article.



## РЕЗЮМЕ

## ПРОБЛЕМЫ ВРЕМЕНИ И МЕСТА В СКАЗКАХ АЗЕРБАЙДЖАНА И ТУРЦИИ

В статье исследуются богатые образцы азербайджане-турецкого и турецкого фольклора, выражение отношений между двумя народами, а также особенности азербайджанско-турецких литературных отношений. Подобные термины времени и пространства также исследуются в статье.

**HASAN ALISOY**
*Nakhchıvan State Unıversıty*
*Alisoy1408@gmail.com*

# A STUDY OF THE EFFECTİVENESS OF CONCEPT MAPPİNG ON AZERBAİJAN-TURKİSH STUDENTS' ACADEMİC SUCCESS İN GRAMMAR LESSONS

**Açar sözlər**: *konsept xəritələnməsi, effektivlik, qrammatika dərsinin tədrisi, nəticə, müsbət təsir*
**Keywords:** *conceptual schematization, efficiency, grammar teaching*
**Ключевые слова**: *концептная схематизация, эффективность, преподавание грамматики, заключение, положительное влияние*

## 1. Introduction

In view of the goal it was decided to hold the research among the second year ELT students, at the Nakhchivan State University in Nakhchivan city. All second year students have been subjected to the research, in the result of which they were subdivided into three groups and were taught that terms lesson in different ways from each other; in the group A, the students were explained only through text and written other materials; in the group B, the students were given the tasks and the lecture texts and tables which had put different terms and notions into similar line and rows in them; in the group C, the students were given the lectures alongside concept mapping pictures for each subject. The research was applied during the whole semester, from September 15 until the end of December. Students themselves were not aware of the research because different teachers delivered the lessons with the different succession.

At the end of the each month (three times in all) same quizzes were given to the students, and their results were compared.

## 2. Objective

Objective of the research held at our University was to determine the effect of the use of the concept mapping on the teaching English grammar, Syntax.

## 3. Concept map in teaching

As it has been mentioned above the students were divided into three groups and they were taught the same tasks, here it is syntax, and then the results compared and analyzed.

A mixed data approach was applied in the research, qualitative and quantitative information were gathered from the given three groups and analyzed. Thirty students and three teachers participated all together. Students were asked about the given topic to them both orally and in written form, at the end of the each month they were asked to write the test related to the subject they have learnt. All three groups had ten students in each.

## 4. Experimental Procedure

**Samples from lesson materials for Group A;** The predicate; The predicate is the second principal part of the sentence and its organizing centre, as the object and nearly all adverbial modifiers are connected with, and dependent on, it.

The predicate may be considered from the semantic or from the structural point of view.

Structurally the predicate in English expressed by a finite verb agrees with the subject in number and person. The only exception to this rule is a compound modal and a simple nominal predicate, the latter having no verb form at all.

According to the meaning of its components, the predicate may denote an action, a state, a quality, or an attitude to some action or state ascribed to the subject. These different meanings find their expression in the structure of the predicate and the lexical meaning of its constituents.

From the structural point of view there are two main types of predicate: the simple predicate and the compound predicate. Both these types may be either nominal or verbal, which gives four sub-groups: simple verbal, simple nominal, compound verbal, compound nominal. Compound verbal predicates may be further classified into phasal, modal and of double orientation Compound nominal predicates may be classified into nominal proper and double nominal.

The simple predicate can be of two types: verbal and nominal. The simple verbal predicate can be expressed in two ways…

Samples from lesson materials for Group B; This group was given all the information of group b and extra tables having the topic.

| Predicate | | | |
|---|---|---|---|
| **Simple** | **Compound** | | **Mixed** |
| Verbal e.g.<br>He runs quickly | **Nominal** | **Verbal** | Compound modal nominal<br>e.g.<br>She must be English . |
| Nominal<br>e.g.<br>Me, a liar! | Proper<br>e.g.<br>The girl looked tired. | Aspect<br>e.g.<br>She began to cry. | Compound modal aspect<br>e.g.<br>He can't continue training. |
| | Double<br>e.g.<br>The moon rose red. | Modal<br>e.g.<br>You must do it. | Compound aspect nominal<br>e.g.<br>George began to be rather ashamed. |
| | | Of double orientation<br>e.g. She is said to know him. | Compound nominal predicate of double orientation<br>e.g. He is said to be very ill. |

**Samples from lesson materials for Group C; This group was given all the information of group b and extra tables having the topic.**




**Fig 1**




**Fig 2**




**Fig 3**

## 5. Conclusion

At the end of the semester all information from three groups was gathered and then the students ranked according to their knowledge and in Syntax. Four students at the top of the ranking were from the group C. The most important thing in this research was that the results of the group C was far better than others. Although the group B also showed satisfactory results its result was not comparable with the result of group C. The advantages of implementing concept map were obvious.

## REFERENCES


1. Cañas, A. J., Ford, K. M., Coffey, J., Reichherzer, T., Carff, R., Shamma, D., & Breedy, M. (2000). Herramientas para Construir y Compartir Modelos de Conocimiento basados en Mapas Conceptuales. Revista de Informática Educativa, 13(2), 145-158.
2. Chakrabarti, S., Dom, B., Gibson, D., Kleinberg, J., Raghavan, P., & Rajagopalan, S. (1998). Automatic Resource List Compilation by Analyzing Hyperlink Structure and Associated Text. Paper presented at the 7th International World Wide Web Conference.
3. Novak, J. D. (1998). Learning, creating, and using knowledge: Concept Maps as Facilitative Tools in Schools and Corporations. Mahweh, NJ: Lawrence Erlbaum Associates.
4. Novak, J. D., & Gowin, D. B. (1984). Learning How to Learn. New York: Cambridge University Press.
5. Pearsall, N. R., Skipper, J., & Mintzes, J. (1997). Knowledge restructuring in the life sciences: a longitudinal study of conceptual change in biology. Science Education, 81(2), 193-215.
6. Reynolds, S., & Dansereau, D. (1990). The knowledge hypermap: An alternative to hypertext. Computers in Education, 14(5), 409-416.


## XÜLASƏ

**Həsən Əlisoy**

**GRAMMATİKA DƏRSLƏRİNDƏ KONSEPTİN XƏRİTƏLƏNMƏSİNİN AZƏRBAYCAN VƏ TURK TƏLƏBƏLƏRİNƏ MÜSBƏT TƏSİRİNİN EFFEKTİVLİYİ**

Məqalədə Naxçıvan Dövlət Universitetində qrammatika dərslərinin tədrisində koncept xəritələnməsinin tətbiq edilməsindən bəhs edilir. Konseptin xəritələnməsinin tədris zamanı effektivliyi üç fərqli qruplar arasında müqayisə edilmişdir. Məqalədə həmçinin, konsept xəritələnməsinin tətbiq edildiyi qrupda nəticələrin daha effektli olması öyrənilmişdir.

## РЕЗЮМЕ

**Гасан Алисой**

**ЭФФЕКТИВНОСТЬ ПОЛОЖИТЕЛЬНОГО ВЛИЯНИЯ НА АЗЕРБАЙДЖАНСКИХ И ТЮРКСКИХ СТУДЕНТОВ СХЕМАТИЗАЦИИ КОНЦЕПТОВ НА ЗАНЯТИЯХ ПО ГРАММАТИКЕ**

В статье говорится о о применении концептной схематизации в преподавании граммики в Нахчыванском Государственном Университете. Сравнение эффективности схематизации концептов при преподавании грамматики проводилось между тремя разными группами. Подчеркивается, что изечена эффективность результатов тех групп, где применена концептная схематизация.

**ELBRUS VƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*elbrusveliyev 79@gmail.com*

## AZƏRBAYCAN VƏ TÜRK DİLİNDƏ TƏKHECALI VƏ DÜZƏLTMƏ FEİLLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** *türk dili, Azərbaycan dili, ortaq cəhətlər, sadə və düzəltmə feillər, leksik-semantik, türk dili xalqları*

**Key words:** *Turkish language, Azerbaijani language, common features, simple and corrective verbs, lexical-semantic, Turkish peoples*

**Ключевые слова:** *турецкий язык, азербайджанский язык, общие черты, простые и корректирующие глаголы, лексико-семантические, турецкие народы.*

Dünya xalqları, dünya dilləri arasında xüsusi çəkisi olan dillərdən biri də türk dilidir. Türk dilləri ailəsi böyük olduğu kimi, onun coğrafiyası da genişdir. Fəxrlə deyə bilərik ki, azərbaycan dili türk dilləri ailəsinə daxildir. Bu dil Dədə Qorqud dilidir, Ozan dilidir, şeir dili olmaqla bərabər, həm də anlaşma, siyasət, sülh dilidir. Türk sillərini öyrənmək, araşdırmaq, sanballı əsərlər yazmaq üçün türk olmayan onlarca tanınmış şəxsiyyətlər, dilsevərlər can atmış və buna nail olmuşlar. "...A.K.Borovkov, V.V.Bartold, V.D.Artamosina, A.N.Baskakov, Əbu Həyyan, V.M.Nasilov, E.R.Tenisov, İbn Mühənna, A.N.Konanov məhz bu qəbil tədqiqatçılardandır" (1, s. 61).

Məqsədimiz türk dillərinin tədqiqi araşdırılması, müqayisə olunması deyil, çünki bu barədə çoxlu yazılar yazılıb, təqdirəlayiq əsərlər geniş oxucu kütləsinə ərmağan edilmişdir. Biz isə bu bir neçə səhifəlik yazıda dini bir, dili bir özgürlüyü bir, mentaliteti bir və digər milli-mənəvi dəyərlər bir olan Azərbaycan ədəbi dilində və türk dilində işlədilən, əsas nitq hissələrindən biri olan feillərin, xüsusən sadə və düzəltmə feillərin ortaqlığından söz açmağı, həmin feillərin leksik-semantik xüsusiyyətlərindən bəhs etməyi qarşımıza məqsəd qoyduq.

Tədqiqatlar, araşdırmalar, təhlillər sübut edir ki, türk dillərinin tarixi çox qədimdir. Hələ "Kitabi-Dədə Qorqud" dastanlarından çox-çox əvvəl yazılmış "Orxon-Yenisey" abidələrinin oxunuşu, təhlili bunu bir daha sübut edir. ...Bizə elə gəlir ki, "Dədə Qorqud" dastanları bu dili qoruyub saxlamağa və özündən sonrakı nəsillərə ərmağan etməyə xidmət edən tarixi-milli bir abidədir, əvəzsiz xəzinədir. Buna görə də bu dastan ümumtürk məxəzidir.

Bildiyimiz kimi, ..."Hər hansı bir dilin leksikasının əsasını heç şübhəsiz ki, adlar və feillər təşkil edir" (2, s. 4).

İnkaredilməz həqiqətdir ki, türk dillərindəki isimlər və feillərdən bir çox dilçi alimlər dəyərli məqalələr, monoqrafiyalar, dərs vəsaitləri yazmışlar. Bu yazı da Azərbaycan və qardaş Türkiyə xalqının və ədəbi dilinin təşəkkül tarixində mühüm rol oynamış sadə (birhecalı) və düzəltmə (iki və çoxhecalı) feillərin leksik-semantik xüsusiyyətlərinə həsr olunur. Məqalədəki dil faktları yazılı abidələrdən, klassik irsdən, dəyərli dilçilərin əsərlərindən və eləcə də Müasir Azərbaycan və türk dili materiallarından götürülüb müqayisəli şəkildə cəlb edilmişdir.

Müxtəlif etibarlı mənbələrdən istinad edərək qeyd edə bilərik ki, "Kitabi-Dədə Qorqud" dastanlarında 303, Əbu-Həyyanın "Kitab əl-idrak li lisan Əl-Ətrak" lüğətində 205, Müasir Azərbaycan dilində 207 feil qeydə alınmışdır ki, bunlardan 145-i sadə feillərdir" (6, s. 138).

Qeyd edək ki, Müasir Azərbaycan dilində sadə feillərin sayının göstərilən mənbələrdən az olması ondan irəli gəlir ki, klassik ədəbiyyatların dilində işlənən elə feillər vardır ki, onlar arxaikləşib. Həmin mənbələrdə göstərilən sadə feillərin 90 faizindən çoxu ədəbi dilimizdə, bəziləri fonetik dəyişikliyə uğramaqla, əksəriyyəti öz forma və məzmununu saxlamaqla işlənir. Məsələn: "Səvdi – sevdi, söyündü – söndü, sürdü – qovdu, sundu – verdi, taşıdı – taşıdı, tatdı )tatmaq – dadmaq) – daddı, qırqtı – qırxdı (qoyun qırxmaq), qovurdu – qovurdu (buğda və ya ət qovurmaq) və s. (7, s. 31-71). Digər sadə feillər öz leksik – semantikasını saxlamaqla indi də müasir ədəbi dilimizin fəal lüğət fondundadır və hər kəs tərəfindən işlənir və başa düşülür. Məsələn, qayıtmaq – qayıtmaq, dönmək, gəlmək – gəlmək, qayırmaq – qayırmaq, düzətmək, qonmaq – qonmaq, gizlənmək, kəsmək – kəsmək, gülmək – gülmək və s. (7, s. 15-75). Nümunələrin sayını daha da artırmaq olar, lakin göründüyü kimi, bu sözlər yuxarıda göstərilən mənbələrdə olduğu kimi işlənməklə bərabər, Türkiyədəki türk dilində eyni ilə istifadə olunmaqdadır. Bu mövzuda ən maraqlı cəhət düəzltmə feillərin həm yuxarıdakı

mənbələrdə, həm türk dilində, həm də Müasir azərbaycan dilində eyni anlamda, eyni mənada işlənməsidir. Fikrimizi təsdiqləmək üçün aşağıdakı müqayisəli cədvələ diqqət yetirək:

| "Kitabi-Dədə Qorqud" | Əbu-Həyyanın lüğəti | Türk dilində | Azərbaycan dilində |
|---|---|---|---|
| açılmaq | Ac-ıt-maq | Ac-ilmaq | Ac-ilmaq |
| Örtülmək | Ört-ülmək | Ört-ülmək | Ğrtülmək, qapanmaq |
| Ürükdü-ürküt-mək | Hürkmək | Ürkütmək | Hürkütmək |
| At-lan-maq | At-lan-maq | At-lan-maq | Atl-lan-maq |
| Eşit-tir-mək | Eşit-dir-mək | Eşit-dir-mək | Eşit-dir-mək |
| Ağna-t-maq (yerdə yuvarlanmaq) | Ağna-t-maq | Ağna-t-maq | Ağna-t-maq |
| Tutul-maq | Dut-ul-maq | Tutuq-lan-maq | Tutul-maq |
| Al-ın-maq | Al-ın-maq | Alın-maq | Al-ın-maq |
| Oqşa-t-maq | Oq-sa-t-maq | Okşa-t-maq | Ox-şat-maq |
| Aq-ar-maq | Al-ın-maq<br>Ağ-ar-maq | Al-ın-maq<br>Ağ-armaq | Al-ın-ma<br>Ağar-maq |
| Poz-ar-maq | Boz-ar-maq | Bəyaz-lan-maq | Bozar-maq |
| əl-ə-mək | əl-ə-mək<br>əl-ə-n-mək | əl-ə-mək | əl=ə-mək |
| Av-la-maq (ovlamaq) | Ov-la-maq | əl-ə-n-mək | ələ-n-mək |
| Bit-lə-mək | Bit-lə-mək | Ov-la-maq | Ov-la-maq |
| Boz-ul-maq | Poz-ul-maq | Bit-lə-mək | Bit-lə-mək |
| Su-la-maq | Su-la-maq | Boz-ul-maq | Poz-ul-maq |
| Bal-cuq-la-maq | Balçuq-la-maq | Pal-çı-la-maq | Pal-çıq-la-maq |
| Tiri-l-mək | Tiri-l-mək | Diri-l-mək | Diri-l-mək |
| Çil-ə-n-mək | Çilə-n-mək | Çıla-n-maq | Çılə-n-mək |
| Sap-tır-maq | Sap-tur-maq | Saptır-maq | Sap-dır-maq |
| Söyün-dür-mək | Söyün-dür-mək | Sevin-dir-mək | Sevin-dir-mək |
| Taya-n-maq | Taya-n-maq | Daya-n-maq | Daya-n-maq |
| Qop-ar-maq | Kop-ar-maq | Qop-ar-maq | Qop-ar-maq |
| Qız-ar-maq | Qlz-ar-maq | Qız-ar-maq | Qız-ar-maq |
| Kulun-la-dı | Qulan-maq | Qulun-la-maq | Qulun-lamaq |
| Kayna-tmaq | Qayna-t-maq | Qayna-t-maq | Qayna-t-maq |
| Gör-üş-mək | Gör-üş-mək | Gör-üş-mək | Gör-üş-mək |
| Gör-ün-mək | Gör-ün-mək | Gör-ün-mək | Gör-ün-mək |
| Gör-ül-mək | Gör-ül-mək | Gör-ül-mək | Gör-ül-mək |
| Kür-lə-mək (gurlamaq) | Kur-la-maq | Gur-la-maq | Gur-la-maq |
| Yitün-mək (itiləmək) | Yiti-lə-mək | İti-lə-mək | İti-lə-mək |
| Yaman-la-maq | Yaman-la-maq | Yaman-la-maq | Yaman-la-maq |
| Yavuq-laş-maq | Yakın-laş-maq | Yaxın-laş-maq | Yaxın-laş-maq |
| Ur-ul-maq | Ur-ul-maq | vur-ul-maq | vur-ul-maq və s. |

Nümunələrin sayını daha da artırmaq olar, lakin yazının həcmi buna imkan vermədiyi üçün həm "Dədə Qorqud" dastanlarında, həm İbn-Həyyanın sözügedən lüğətində, həm türk sözlüyündə, həm də Azərbaycan dilində orta və eyni zamanda türkdilli digər xalqların dilində leksik-semantikasına diqqət yetirməyi lazım bildik. Müqayisə olunacaq bəzi sadə və düzəltmə feillərə nəzər salaq:

- Bacarmaq – (Az. Dilində) – becərmək (türk dilində) – bir işin öhdəsindən gəlmək, təkrar məşq nəticəsində hər hansı bir sahədə əldə edilmiş, qazanılmış vərdiş – təsirli feiuldir. Bu feil yəni bacarmaq, başarmaq, başkarmaq, başkırmaq şəklində başqırd, qazax, özbək, türkmən dillərində də işlənməkdədir;

- Qabarmaq – (azərbaycan dilində), kabarmaq, şişmək (türk dilində) işlənir, digər türk dillərində isə şişmək, qalxmaq, daşmaq, böüyün üzünə ağ olmaq mənasında işlənməkdədir. bizim dildə də, türk dilində də üzə qayıtmaq, dənizdə suyun qalxması və s. mənalardadır.

- Qızarmaq – (azərbaycan dilində), eyni formada türk dilində müəyyən fonetik dəyişikliyə uğrayaraq (kızarmak), çuvaş dilində (qızarmaq), uyğur dilində kuzarmak şəklində işlənsə də bütün türk dillərində, o cümlədən Azərbaycan və türk dilində eyni leksik mənanı ifadə edir. Yəni hər hansı bir dəmir istinəndən sonra

qızarır. Yəni qızmasa qızarmaz. Bəzən məcazi mənada olsa da insan (qızır, hirslənir, yaxud utanır və yanaqları qızarır və s.)

- Qazanmaq - Azərbaycan dilində eyni şəkildə türk dilində - kazanmak; digər türk dillərində kazanmak, görğanmak və s. şəklində işlənir. Hansı şəkildə işlənirsə işlənsin bütün türk dillərində eyni mənadadır; işləməklə, çalışmaqla, faydalı əmək sərf etməklə, ticarət etməklə əldə olunan vəsait.

- Oyanmaq – oyatmaq – Azərbaycan və türk dilində və digər türkdili xalqların dilində eyni formada, eyni mənada, yəni əsas mənasında yuxudan oyanmaq, oyatmaq anlamında işlənir, bəzən yuxudan ayılmaq mənasındadır. Digər çoxmənalılıqda, təbiətin oyanması, qəflət yuxusundan oyanmaq, yaxud az yaşlı uşaq özündən böyük söz danışanda, özünəxas olmayan sevgi söhbətinə qarışanda ona da artıq oyanıb deyirlər, bəzən də bitkinin, torpağın oyanması kimi anlaşılır.

- Görünmək – Azərbaycan və türk dilində tam eynidir, mək – mek kimi yazılır, amma tələffüz fərqi yoxdur

- Tutulmaq – Azərbaycan dilində, eyni, türk dilində tutuqlanmaq, digər türkdili xalqların dilində: dutulmax (qırqır), tutulmax (özbək), dutulmak (qaqauz), leksik mənaları sözün həqiqi mənasında eynidir. Məcazi mənada: hava tutuldu, Günəş, Ay tutuldu (örtüldü), yalan danışan adamın yalanı üzə çıxanda tutuldu deyərlər və s.

Nəticə etibarı ilə qeyd etmək lazımdır ki, türk dillərində ortaq feillərin hamısını təhlil etmək bu məqaləyə sığmadığına görə yalnız bir qrup sadə və düzəltmə (təkhücalı, iki və çoxhecalı) feillərin leksik və semantik mənalarını diqqətə çəkdik. Yekunda bunu da vurğulamaq lazımdır ki, yuxarıda verdiyimiz nümunələr də təsdiq edir ki, mənşəcə eyni olan bu xalqların dili də əsasən eynidir, bunu da hesab edirik ki, onların coğrafiyası, yaşadığı mühit, flora və faunası, həmin ərazidə digər xalqların nümayəndələrinin yaşaması da dildəki bəzi sözlərin qismən də olsa, anlamının dəyişməsinə, yaxud, dialekt və şivələrin təsirindən bəzi sözlərin fonetik dəyişikliyə uğrayaraq işlənilməsinə öz təsirini göstərmişdir. Qeyd edək ki, bu mövzu həmişə aktual olub və indi də aktualdır. Bu mövzudan nə qədər yazılsa da, yenə də yeni-yeni tədqiqata, araşdırılmağa ehtiyac var.

## ƏDƏBİYYAT


1. Z.Verdiyeva, F.Ağayeva, M.Adilov. Dilçilik problemləri, I c. Bakı, 1982
2. Ə.Quyliyev.. Orxon-Yenisey abidələrinin dilində feilin təsriflənməyən formaları. Bakı, 1997
3. Q.Bağırov. Azərbaycan dilində feillərin leksik-semantik inkişafı. Bakı, 1969
4. A.babayev. Dilçiliyə giriş. Bakı, 2001
5. Azərbaycan dilinin qrammatikası. I.hissə, Bakı, 1960
6. A.A.Axundov. Ümumi dilçilik. Bakı, 1988
7. Əsirəddin Əbu Həyyan. Kitab -əl-idrak əl-li-itsan əl-ətrak. Bakı, 1992


## ABSTRACT


The resulting examples show that the languages of the same people are basically the same. This is because of their geography, the environment they live in. These topics are always in need of research and investigation.


## РЕЗЮМЕ


Полученные примеры показывают, что языки одних и тех же людей в основном одинаковы. Это из-за их географии, окружающей среды, в которой они живут. Эти темы всегда нуждаются в исследованиях и исследованиях.

**CENGİZ ÇELİK**
*Naxçıvan Dövlət Universiteti*
*celikce.mimarlik@gmail.com*

# SƏLCUQLAR DÖVRÜ NAXÇIVAN VƏ ANADOLUDA İNŞA OLUNAN DİNİ KOMPLEKSLƏR

**Açar sözlər:** *Səlcuq memarlığı, Məscid, Tağ, Həndəsi naxışlar, Yazı bəzəkləri.*
**Key words:** *Saljukian architecture, Mosque, Arch, Geometrical decorations, Writing ornaments.*
**Ключевые слова:** *салюкская архитектура, мечеть, арка, геометрические украшения, написание орнаментов.*

**Giriş.** Orta Asiyada Qaraxanlı və Qəznəvilərdən sonra üçüncü böyük güc olan Türk dövləti Səlcuqlar olmuşdur. X əsrdə bütün şimal bölgəsi və Balkaş gölünün qərb tərəfi böyük bir köçəri cəmiyyətinin, Oğuzların hakimiyyəti altındaydı. Doqquz qəbilənin birləşməsindən Doqquz Oğuzlar adını daşıyan bu topluluq Uyğurlar və Tukiuler zamanında daha şərqdəki torpaqlarda əhəmiyyətli bir rol oynamışdı, hətta bunların Uyğurlardan gəldikləri söylənməkdə. Oğuz Kağan nəslindən gəldiyinə inanılan bu adamlar daha sonra iyiymi iki ya da iyirmi dörd tayfaya bölündülər(1,s.247).




*1. Böyük Səlcuqlu İmperatorluğu*

Səlcuqların qərbə yürüşlərilə Orta Asiyadan özlərilə gətirdikləri mədəniyyəti Anadolu- yadək daşımağı başardılar. Qərbə axınlar etmiş türklərin bir hissəsi bu torpaqlarda məskunlaşmış və bir hissəsi köçəri həyat sürərək çadırlardan istifadə etməyə üstünlük verirdilər. Hətta onlar mədəni irslərində qoruyub saxladıqları rəng koloritini və tərtibat sahələrində işlətdikləri naxışları belə, yaşadıqları çadırların üzərində əks etdirmişlər. Türklər məskunlaşdıqları hər yerdəözləri ilə daşıdıqları memarlıq mədəniyyətini, xüsusiyyətlərini belə, yenə çadırdan ilhamlanaraq həyata tətbiq edirdilər. Yaşayış yerlərində də öz dolğun memarlıq mədəniyyətini, üslublarını əks etdirməyə çalışırdılar. Səlcuqlar dövrünün memarlarlıq formalarından görünür ki, bu dövrdə Türk memarları tikililərin konstruksiyasılə ilə yanaşı bəzəmə-tərtibat amilinə xüsusi fikir vermişlər. Bu da memarlıq sturukturuna birbaşa təsir edən və millətin mədəniyyətinin əsas göstəricisi idi.

Səlcuklar qurduqları şəhərlərdə çok şahanə memarlıq əsərləri yaratdıqları kimi, buraları da elmi mərkəz halına gətirdilər. Dini tikililərin memarlığına üstünlük verən Səlcuklar, tutduqları şəhərlərin planlaşmasında da dəyişikliklər edirdilər. Türk-İslam sintezinin təsiri ilə yeni tipli müsəlman şəhərlərinin inşası və yaxudda şəhər mərkəzlərinin islam şəhərləri halına gətirilməsi, bir-birindən öz memarlıq görkəmi, memarlıqda işlədilən konstruktiv quruluşları ilə fərqlənən yeni tipli dini tikililərin inşası, onların daxili və xarici divarlarını bəzəyən müxtəlif materiallardan qurulmuş naxış kompozisiyaları, memarlıq bəzəklərində cizgi sənətinə geniş yer vərilməsi, türkün özünəməxsus motiv və üslublarının İslam dövrü memarlıq abidələrinin tərtibatında məharətlə işlətmələri Səlcuqlar dövrü türklərin dini memarlığa gətirdikləri yeniliklərdir.

Səlcuqların Orta Asiyadan İran ərazisindən keçərək Qafqazlar, xüsusiylədə Azərbaycan ərazisindən Anadoluya və İrandan İrak, Suriya üzərindən Anadoluya yürüşləri zamanı özlərilə gətirdikləri mədəniyyətin qədim mədəniyyətlərlə üzləşməsi və hər iki mədəniyyətin təsiri altında inşa edilən dini tikililər-camelər, mədrəsələr, türbələrin memarlığında özünü göstərmişdir. Səlcuqlar qurduqları şəhərlərdə müxtəlif formalı

memarlıq abidələri yaratdıqları kimi, zamanlada buraları elm mərkəzi halına gətirdilər. Dini tikililərin memarlığına üstünlük vərən Səlcuqlar, bu tikililərin yerləşdikləri şəhərləri də zamanla orta əsrlərin İslam şəhərləri formasına saldılar. Bu planlaşmanın mərkəzində isə Ulu Camelər dururdu (11,s.3273).

Səlcuqlar dövrü inşa edilən hər bir şəhərin, onun ərazisində yerləşən binanın, xüsusilə də Ulu Camelərin tikintisinə xüsusi diqqət yetirilirdi. Binanın harada tikiləcəyi, torpaq və ətrafla uyğunlaşdırılmasına diqqət verilirdi. Camelərin şəhər ərazisində yerləşdirilməsi planlı şəkildə aparılırdı. Cəbhə, simmetriklik, vəzin və ritm hesablanırdı. Məscid həyətlərinə ən uyğun şəkildə ağac əkilməsi və ətraf mühitin yerləşdirilməsi əhəmiyyətli idi. Tikinti kompleksinə məscidlər, mədrəsələr, bazarlar da daxil idi. Səlcuqlar dövrü Türk-İslam sintezindən yaranan bu camelər elmi əsaslara dayanan bir prinsip əsasında qurulduğuna görə, dövründən asılı olmayaraq öz möhtəşəmliyi və gözəlliyi ilə də hər zaman seçilir və yadda qalır (2, s.28-40).

Came İslam ölkələrində yalnız ibadət etmək, dini mərasimlər keçirmək üçün inşa edilmirdi. Came çoxfunksiyalı ellik bina idi və onun daxili məkanında keçirilən tədbirlər müsəlmanlar arasında ünsiyyəti, birliyi gücləndirməyə xidmət edirdi. İslamın bir üstünlüyü də onda idi ki, vahid dini əsasdan gələn ümumilik, birlik içərisində heç bir xalq dözümlülüyünü itirmirdi. Bu baxımdan da Selçuqlar dini tikililərə, əsasən də aldıkları şəhərlərdə Came tikintisinə üstünlük vermişlər (2,s. 28).

Səlcuqların tikintisinə üstünlük vərdikləri dini tikililərdən biri də mədrəsələrdir. Dini inkişaf etdirmək və dövlət məmurlarını yetişdirmək üçün, ilk dövlət mədrəsələri, XI əsrin əvvəllərində Qəznəvilər tərəfindən qurulmuşdur. Böyük Səlcuqlular zamanı bu tədris müəssisələri, geniş bir dövlət təşkilatı halına gətirilmiş, dövlət məmurları bu məktəblərdə yetişdiri- lirdir. Bunlardan birincisi Nişapurda qurmuş və ilk dəfə mədrəsə adını almışdır (3, s.67).

Məzar üzərinə bina tikilməsi, İslamın ilk dövrlərindən ehtibarən, tədricən zəifləməyə başladı. Keçmişlərində məzar mədəniyyəti olan İranlılarla Türklərin, İslamiyyəti VIII və IX əsr arasında qəbul etmələrilə, ilk türbə nümunələrini IX və X əsrlər arasında ortaya çıxmasında bu mədəniyyətin təsirləri olduğu da söylənilir (3, s.74).

Yuxarıda adlarını sadaladığımız dini tikililəri isə bir araya gətirən Səlcuqlar və onların təyin etdikləri Atabəylər olmuşdur.Məqalədə iki dini kompleks haqqında bəhs edəcəyik. Bunlardan birincisi Naxçıvanda XII əsrə aid edilən “Böyük qala” kompleksi, digəri isəKayseride Mahperi Huand Hatun komp- leksidir. Bu dini komplekslər memarlıq tikililərilə, divar səthlərindəki bəzəklərilə bir birinə bənzəsədə, memarlıq məkan quruluşuna, tikinti materiallarına görə bir-birindən fərqlənirlər.

**Naxçıvan Cuma Camesi.** Səlcuqlar dövrü Azərbaycanda yaranan memarlıq məktəblərindən biri də Naxçıvan-Marağa məktəbidir. Bu məktəbin təsiri altında Naxçıvan şəhərində inşa edilən dini tikililərdənbiri də Cümə Camedir. Tədqiqatçı alimlərdən Ə.Salamzadə, K.Məmmədov, C.Qiyasi və H.F.Səfərlinin verdikləri məlumatlara əsasən Atabəylər ansambılının ən monumental-tikililərindən biri də Cümə came olduğunu bildirmişlər. Təssüflər olsun ki, bu kompleks ilkin vəziyyətində bizlərə gəlib çatmasada, vaxtilə bu kompleksə daxil olan dini tikililərdən yalnız biri-Mömünə xatun türbəsi qalmışdır. Dövrünün memarlığını konstruktiv quruluşunda, xarici divar bəzək kompozisiyalarında nümayiş etdirən Mömünə xatun türbəsindən və zamanla Naxçıvan şəhərində olmuş bir sıra səyyah və tədqiqatçıların, memar və rəssamların da əsərlərinə dayanaraq bu kompleks haqqında fikir yürütmək mümkündür.

Araşdırmaçı yazar V.Engelqartın XIX əsrin ortalarında Cümə came haqqında –“Türk məscidi tağı daşdan yonulmuş div bir tikilidir. Onun içərisində gözəl yonma izləri hələ də qalmaqdadır. Binanın bir hissəsi uçmuş, qalan hissəsi isə surətli yıxılmaq təhlükəsi altındadır” söyləmişdir (4, s.72). Onun yazdığına görə “Qoşa minarəli darvazadan” 50 sajen-107 metr aralı iri həcmli məscid binası yüksəlirdi. Məscid Atabəylər kompleksi ərazisinnin nisbətən hündür relyefli bölümündə tikilmişdi. Məsciddən bu günə bir neçə rəsm və fotosu qalmışdır. Baştağdan fərqli olaraq kommpleksin bu baş dini tikilisinin heç bir kitabə mətni, eləcə də tikinti tarixini göstərən bir məlumat bəlli deyil. Ancaq təsvirlərdən tikilinin memarlıq özəlliklərinə və yerinə görə Atabəy-Eldənizlər dövründə inşa edildiyi aydın görsənir”- bildirir (5, s.15).



*2.XIX əsra aid foto.Atabəy-Eldənizlərin kompleksi-Cümə Came,arxada Mömünə xatun türbəsi və Qoşa minarə (Alman memarı Yakobstalın XIX əsrdə çəkdiyi foto)*

XIX əsrin sonlarına qədər mövcud olan Cümə came əzəmət və gözəlliyi ilə orta əsr səyyah və tarixçilərindən Fransız səyyahı Taverniyənin dədiqqətini çəkmiş, Naxçıvan şəhərində yerləşən məscidlərdən “Naxçıvan çox böyük şəhərlərdən biri olmuşdur. Orada çox sayda məscidin qalıqları görünür. Bu məscidlər Asiyanın ən yaxşı və gözəl məscidlərindəndir” söyləmişdir (6, s.72).



*3-4.Cümə Came və Qoşa minarə.12 əsr. (Alman memarı Yakobstalın XIX əsrdə çəkdiyi foto)*

XX əsrin 60-70-ci illərində Naxçıvan memarlıq abidələri üzərində araşdırmalar aparan bir çox elm adamları Alman memarı Yakobstalın çəkdiyi fotolara (7) və Dyelafua tərəfindən cızılmış rəsimlərdən yola çıxaraq, came haqqında dəyərli fikirlər söyləmişlər. Bu mənbələrə dayanan Salamzadə Cümə məscidinin memarlıq tikililəri haqqında belə qənaətə gəlmişdir -“ Bu həcimli tikilinin mərkəzi planda kvadrat formalı olub, üzəri günbəzlə örtülmüşdür. Dörd divarında qoşa tağlar yer almaqdadır. Salonun açıq tağ formasında olan yan divarları, məscidin mərkəzi hissəsi, bir tərərəfdən də otaqlar və keçidlərlə əhatə olunduğunu göstərir. Orta əsrlərdə, Naxçıvanın mərkəzi sayılan Atabəylər kompleksində inşa edilmiş bu məscid, “Böyük qala” qrupuna daxil olub, böyük formalı tikilisinə və əzəmətinə görə xüsusi bir yeri əhatə etmişdir” (8,s.22).



*5.Kompleksə daxil olan Mömünə xatun türbəsi. Türbənin sərdabə və gövdəsinin planı. Türbənin səthlərindən birinin bəzək kompozisiyası*

Ş.Mustafayevin Moskvada dərc olunmuş məqaləsində verilmiş bir fakda Atabəylər kompleksinin tərkibində olmuş Cümə məscidinin tikilmə tarixinə və adına aydınlıq gətirərək, Osmanlı məmurlarının 1590-cı ildə "Defter-i mufassal vilayet-i Revan" (İrəvan vilayətinin müfəssəl dəftəri) tərtib etdikləri dəftərdə o zaman İrəvan vilayətinin kiçik şəhərinə çevrilmiş Naxçıvanın (əhalisi 4631 nəfər) mövcud 12 məhəlləsinin adı çəkilmişdir. Məscidlərin sıralanmasında-Mirzəbəy məhəlləsində yerləşən Cami-i Şərifdən- Baş Cümə məscidindən sonra Cami-i Qızıl Arslan və ya Qızıl Arslan Cümə məscidinin adının verildiyini bildirir (5, s.18). Dr.Cəfər Qiyasi "Eldəgizlərin paytaxtı Naxçıvan və Atabəylər kompleksi" adlı məqaləsində Atabəylərin tikdirdiyi kompleksdən söhbət açarkən bu kompleksdə Qızıl Arslan Cümə məscidi ilə yanaşı, iki mədrəsənin, Mömünə xatun türbəsi və müxtəlif təyinatlı binaların- hökumət binaları, saray köşklərinin, eləcədə də bu kompleksi əhatələyən möhkəmləndirilmiş qala divarının olduğunu və bu kompleksə daxil olmaq üçün Qoşa Minarəli Baş tağının da olduğunu bildirir (5, s.18).

Naxçıvan ərazisində gedən uzunmüddətli müharibə və baş verən zəlzələlərdən sonra «Böyük qala»nın ilkin memarlıq-planlaşma quruluşu dövrümüzə gəlib çatmasada, ərazisində dövrümüzədək ucalan və öz yaşam mücadiləsini davam etdirən, Atabəy-Eldənizlər dövrünün yadigarı Mömünə xatun türbəsinin yerləşmə arealına görə Cümə came və mədrəsələrin yerləşdiyi ərazini təyin etmək olur. «Böyük qala» ərazisi XII əsrdə şahın iqamətgahı kimi deyil, yuxarıda da qeyd etdiyimiz kimi İslam dövrü Türk şəhərlərinin tikintisində yeni bir dəyişiklik müddəti başlaması ilə qurulan komplekslərdəndir. Bu dövrdə şəhərlər İslamın həyat konsepsiyasına , cəmiyyət modelinə bağlı olaraq dəyişmiş və yeni bir şəhər halına gəlmişdir. Klassik İslam şəhərlərində cəmiyyət həyatının diqqət nöqtəsini təşkil edən Cümə came və mədrəsələr şəhərin mərkəzini təşkil etmişdir (3.s, 307). Bu dövrdə şəhərin memarlıq məkan kompozisiyasına görə Cümə məscidinin inşası ilə başlanmış tikinti, sonradan şəhərin mərkəzinə çevrilərək kompleks formasında qala divarlarilə əhatə olunmuşdur. Rasta və Çarşı bazarlarında Cümə camenin ətrafına daşınmasıyla ərazi şəhər mərkəzinə çevrilmişdir. Klassik İslan şəhərlərinin əsas özəlliklərindən biri də Cümə camede ibadət üçün toplanan böyük kütlənin potensiyal müştəri olaraq qəbul edilməsində maraqlı olmaq idi. Cümə camelərin şəhər mərkəzində yerləşdirilməsinin digər səbəbi əhalinin, xüsusilədə bazarda alış-verişlə məşğul olan insanların gündə beş dəfə ibadətlə məşğul olmasını sağlamaq idi. Bu baxımdan Naxçıvan Cümə məscidinin yerləşmə arealına görə şəhərin XII əsrə aid mərkəzini təyin etmək olar. Bu dövrdə Naxçıvan şəhəri "Köhnə qala" ərazisindən 200 m aralıda yenidən qurulmaqla, Türk-İslam şəhərlərinin modelini Sovetlər dövrünədək daşımağı başarmışdır (9,s.167-172).

Yuxarıda da qeyd etdiyimiz kimi, Səlcuqlar dövrünün digər bir tikilisi Türkiyənin Anadolu- Kayseride yerləşən Mahperi Huand Hatun kompleksidir.

Səlcuqlu sənəti Anadoluda qurulmuş sağlam təməllərə dayanaraq, memarlığın bütün sahələrində öz inkişafını göstərməkdədir. Mesapatomiyadan Orta Asiyaya qədər məsafədə dəyişik formada qarşımıza çıxan günbəz problemi, sonda Səlcuqlu memarlığında, Türk-İslam sənətində dünyada tayı olmayan abidəvi formada Anadolu memarlığında qarşımıza çıxmaqdadır. Bunun ən canlı şəklini came memarlığında görməmək mümkün deyil.

Anadolunun Səlcuqlu dövrü dini memarlığında ağırlıq-came, mədrəsə və türbələrin yerləşdiyi kompleks tikililərindədir. Komplekslərdə came və mədrəsə ana tikililər olmaq üzrə, bəzilərində türbə və hamam da yer alır. Bəzilərində də mədrəsənin yerini, eyni plan özəlliyinə sahib olan tədavi evləri alır. Anadoluda Səlcuqlardan qabaq ilk bəyliklər dövrü tikilmiş kompleks Mengücüklülər dövrünə aid Divriği kompleksidir. İlk Səlcuqlu kompleksi isə Kayseridə Huant Hatun Komplesidir. Kayseri Hacı Kılıç və Konya Sahip Ata kompleklləri də Səlcuqlar dövrü inşa edilmiş tikililərdəndir.

**Mahperi Huand Hatun kompleksi (1238).** Alaeddin Keykubadın xanımının şərəfinə tikilmiş Mahperi Huand Hatun kompleksi (1238) Came, Medrese, hamam və türbəsi ilə ilk Anadolu-Selçuklu komplekslərindəndir. Came- mehrab qarşısında qoyulmuş günbəzi, eyvan, kiçik açıklı orta nefi kimi xüsusiyyətlərilə bir növü Malatya Camesilə oxşardır. Yanlara doğru genişləndirilmiş mehrab bölümü ilə də Kayseri və Ərzurum Ulu camelərilə oxşardır. Yonulmuş daş tikililərdən came,mədrəsə və türbəni də daxilinə alan kompleks bir qala görünüşünə sahibdir.

Tamamilə yonulmuş daşdan düzbucaqlı formada inşa edilən əsərin qiblə divarına paralel uzanan on kəmərli sütün son ikisi şimal-qərb küncündə kəsilərək, buraya səkkizbucaqlı türbə yerləşdirilmişdir. Kompleksin daxilində yer alan mədrəsə də eyni nöqtədən cameyə birləşik tikilmişdir. Cameni əhatə edən divarlar, künclərdə və ya üzlərdə yarım altıbucaqlı və kvadrat şəklindəki kütləvi qüllələrlə bərkidilmişdir. Camenin biri şərqdə, digəri qərbdə olmaq üzrə iki Giriş Baştağı vardır. Daha böyük və abidəvi olan qərb Baştağı, həndəsi formalı ulduzlardan və keçmələrdən qurulmuş inşa kitabəsini daşıyan şərq Baştağında daha göstərişlidir.

Camenin sivri tağlı mehrabı dəyişik kompozisiyaları ilə diqqət çəkməkdədir. Aşağıdan başlayıb yuxarıya doğru dar və uzun üç panellər üzərində tamamlanan naxışlar, mehrab tağının yuxarısında stalaktitlərlə

tamamlanmış həndəsi formalı keçmələrlə işlənməklə, kənarları geniş düzbucaqlı bir bordürlə əhatələnmişdir (3.s.202).



*6.Huand xatun kompleksi. Kayseri. Türkiyə.*

6 


7 

*7.Caminin daş qapısı üzərində yerləşdirilmiş kitabə.*
*8.Giriş qapısı baştağı bardürləri üzərində həndəsi naxışlar. Kayseri. Türkiyə*



*9.Huand xatun kompleksi. Kayseri. Türkiyə.*



*10. Huand xatun kompleksinin planı. Kayseri. (H.Karamağaralı, 1976)*



*11. Huand xatun türbəsinin daş bəzəkləri.*



*12.Huand xatun türbəsinin plan və kəsiyi.*

**Nəticə.** Böyük Səlcuqlu İmperatorluğunun qurulması və Türklərin İslam dünyasına hakim olmaları İslam mədəniyyəti tarixində bir dönüş nöqtəsi təşkil edir. İslam dünyası daxili və xarici böhranlara düşərkən, Səlcuqlar yeni bir düvvə ilə bu aləmi siyasi birliyə qovuşduraraq, bu qurumlar sayəsində İslam mədəniyyətinə yeni təşkilatçılıq və canlılıq bəxşetməklə, onu yeni bir səyifəyə yönəltmişlər. Qədim birçox qurumlara, yurt və mədəniyyətə səhnə olan və ya bunların üç qitə arasında mübadiləsində bir körpü vəzifəsi oynayan Səlcuqlar, yerli ünsürlərin təsirinə baxmayaraq, tarixdə ilk dəfə olaraq irk, din, dil, mədəniyyət və sənət baximindan köklü bir inqilaba uğramaqla baxışlarını dəyişdirdilər (10,s.47).

Bu baxışlar özünü memarlıqda da parlaq şəkildə göstərdi. Səlcuqlar dövrü istər Azərbaycan, istərsədə Anadolu ərazisində inşa olunan dini binalar memarlıq quruluşilə, məkan kompozisiya həllilə, divarlarını bəzəyən naxış kompozisiya- larılə oxşarlıq göstərsələrdə,kompleks şəklində inşa olunmuş tikililərin memarlıq məkan quruluşunda fərqliliklər vardır. Belə ki, Səlcuq-Atabəylər dövrü Naxçıvan şəhərində inşa olunmuş "Böyük qala" kompleksi tikililərindən də anlaşılır ki, bu kompleks dini təyinatlı olmaqla, şəhərdə yerləşən dövrünün böyük qapalı mədrəsələrindən də biri olmuşdur. Tikili eləcə də saray kompleksi kimi fəaliyyət

göstərmişdir. Came, mədrəsə və türbə memarlığı ilə yanaşı, qalada mülki binaların-saray binası, qoşa minarə, dövlətxana, divanxana binasının da olması və qala divarlarıilə əhatələnərək, bazarında bu əraziyə yerləşdirilməsi bu kompleksin saray kompleksi kimi də fəaliyyət göstərdiyini təsdiqləyir. Naxçıvanın "Böyük qala" kompleksindən fərqli olaraq Kayseridə tikilmişMahperi Huand Hatun kompleksində "Böyük qala" ərazisində olduğu kimi Came binası,Mədrəsə və türbə binası yerləşsədə, bu kompleks dini və mədrəsə tikilisinə görə dövrünün təhsil müəssisəsi kimi fəaliyyət göstərdiyini və qapalı təhsil ocağı olduğu anlaşılır. Komplekin yaxınlığında tapılmış hamam binası da vaxtilə kompleksin tikililərindən olmuşdur.

Belə bir nəticəyə gəlmək olar ki, Səlcuq İmperiyası altında olan torpaqlarda əminəmanlığın bərqərar olması tikinti işlərinin də sürətlənməsinə təkan vermişdir. Naxçıvanda, istərsədə Anadoluda bu dövrdə öz monumentallılığı ilə seçilən çoxlu sayda abidəvi binalar, komplekslər inşa olunmuşdur. Türklərin İslam dinini qəbul etmələri, Türk-İslam sintezindən yaranmış dini tikililərin də çoxalmasına səbəb olmuşdur.Səlcuqların elmə də çox əhəmiyyət verməlérimonumental kompleks tikililərin meydana gəlməsinə şərait yaratmışdır. Öz memarlığı, kərpic və daş işçiliyi ilə Səlcuqlar dövrünün came, mədrəsə, türbə tikililəri bir-birilə bənzərliklər göstərməklə, dövrününmemar və ustalarının əsərlərinin tanıdılmasında da dəyərli əsərlərdir.

## ƏDƏBİYYAT


1. Jean-Paul Roux .Orta Asya Tarih və Uygarlık.İstanbul, Kabalei yayınevi, 2001-2006, 495 s.
2. Qənbərova G., Güneri A. Türk-İslam memarlığında Ulu Camilərin rolu.//Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyası. Memarlıq, Şəhərsalma tarixi və Bərpası.Toplu № 2(14), Bakı, 2014, 210 s.
3. Can Yılmaz, Gün Recep. Ana hatlarıyla Türk İslam sanatları və estetiği. İstanbul, Kayıhan yayınevi, 2012, 416 s.
4. Səfərli F. Naxçıvanın Cümə məscidi.//Azərbaycan MEA Naxçıvan bölməsi. Elmi əsərlər 12, Naxçıvan 2004, s.71-78
5. Cəfər Qiyasi "Eldəgizlərin paytaxtı Naxçıvan və Atabəylər kompleksi", Konferans materialı, Naxçıvan, 2016, 72 s.
6. Səfərli F. Naxçıvanın Cümə məscidi.//Azərbaycan MEA Naxçıvan bölməsi. Elmi əsərlər 12, Naxçıvan 2004, s.71-78.
7. Yakobstal E. Mittelelterliche Backsteinbaute in Nachtsehevan zum Araxe sthale.Berlin, 1899, s.168
8. Salamzadə Ə. Əcəmi Əbubəkir oğlu və Naxçıvan memarlıq abidələri. Bakı, 1976, s.168.
9. Qənbərova G. Naxçıvanda məskunlaşma və şəhərsalmanın inkişafı. Naxçıvan, 2018, 304 s.
10. Osman Turan. Selçuklular və İslamiyyet. İsanbul, Boğaziçi yayınları, 2005, 239 s.
11. Qənbərova G., Çelik C. Türk-İslam Mimarisinde Selcuklu Cameleri. I.Uluslararası Sosial Bilimler sempozyumu13-14-15 ekim, 2016, Elazığ. Asos Congress Bildiri kitabı. ASOS yayınları, s.3271-3285


## ABSTRACT


The coming into existence, prosperity and finally, dismemberment periods of Seljukian Emperor that turned immense tracts into state in western Asia after Arabian khilafat play an important part in the historical fortune of a number of Near and Middle East countries, and Azerbaijan and Turkey as well. Great changes had undergone in the cultural life of Near and Middle East countries as well as in the socio-economical life during the period of Seljukian power.

The imposing art of the peoples living in the geographical area namedAzerbaiejan and Turkeycurrently, are being preserved from approximately Saljukian period up to date. Utilizing these peoples art Saljukians had helped to spread their styles over broader territories.

This style had come into prominence not only in Damascus and Asia Minor but also in north regions of Africa. Unprecedented maneuvers had become in the world of art during Saljukian period and its traces had kept up to Mongolian time. The very maneuvers were so strong that the researchers had called Saljukian period the perfect period of world of art.

Saljukian period art works occupies an exceptional part in the system of Islamic art. It may be compared with the XV-XVI century Italian Renaissance art. In the later years this art had exerted positive influence on morerapid cultural development of people living in Iran.

While researching we came across a number of monuments concerning to Saljukian period situated in the territory of Azerbaijan and Turkey. The kames and mosques have a special part in these monuments. Today, being restored many of these monuments are protected by the state. And many of them are kept by retention. Every year thousands of tourists come to see these unique monuments Saljukians left as a legacy in the territories of Azerbaijan and Turkey.

**MUHAMMED KESKİN**
*Siirt Üniversitesi*

# TÜRK MIMARI YAPILARININ EPIK YAPILARI İLE AYNI DEKORUN DETAYLARI (AZERBAYCAN'DA Kİ NAHCİVAN TÜRBELERİ VE TÜRKİYE'DE DİYARBAKIR SELÇUKLU MİMARİSİNDEKİ DEKOR DETAYLARI KARŞILAŞTIRMASI.)

**Özet.**Büyük Selçuklu İmparatorluğu döneminde, her iki bölgenin aynı yönetim ve kültür etkisinde kalması diğer sahalarda olduğu gibi mimari, süsleme ve sanat alanlarında da benzerlikler doğal olarak görülmektedir. Selçuklu İmparatorluğunun dört devlete ayrılma süreci ve beylikler dönemiyle bu bütünlük bozulmaya başlamışsa da dekoratif süslemelerin genel betimlemesi temelde aynı olup bazı değişkenlikler görülmeye başlanmıştır. Makalenin amacı, mimari yapıların epik yazılarının, onların kitabelerinin dekoratif ve yapıcı özelliklerini incelemektir. Bu çalışmayı Azerbaycan- Nahçıvan ve Türkiye'nin Güneydoğu Anadolu bölgesindeki yapıları üzerinde yapmayı planlıyoruz. Daha doğrusu, Nahçıvan ve Diyarbakır anıtlarının yazılarını hazırlama ilkesini keşfetmeye çalışacağız.

**Anahtar Kelimeler:** *Selçuklu, Dekor, Anadolu, Nahçıvan*
**Key Words:** *Seljuk, Decorate, Anatolia, Nakhchivan*
**Ключевые слова:** *сельджук, украсить, Анатолия, Нахчыван*

**Giriş.** Kaynaklardan da belli olduğu gibi, bina mimarisindeki çeşitli yazı yüzeylerinin XII-XIII yüzyıllarda geniş anlamda yer almaya başlamıştır. Bu makalede, Azerbaycan'da ki Nahçivan türbeleri ve Türkiye'de Diyarbakır Selçuklu dönemi mimarisindeki mimari tasarımları analiz etmeye çalışacağız.

